Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

ustad
US
sənətkarlar



**İSA MUĞANNA**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ALTI CİLDDƏ

**2**

"AVRASİYA PRESS"
BAKI
2009

**İsa Muğanna.**
**Seçilmiş əsərləri.**
Altı cilddə II cild.
Bakı, "Avrasiya press",
2009, 432 səh.

Görkəmli yazıçımız İsa Muğannanın altı cildlik "Seçilmiş əsərləri"nin II cildinə onun "Sürgün", "Dan ulduzu" povestləri, müxtəlif illərdə qələmə aldığı hekayələri və "Ömrümdə izlər" başlığı altında bir neçə xatirə-oçerki daxil edilmişdir.

© Azərbaycan Respublikası
Mədəniyyət və Turizm
Nazirliyi
© İsa Muğanna
© "Avrasiya press", 2009

**ISBN 978-9952-442-16-8** İsa Muğanna.
Seçilmiş əsərləri

**ISBN 978-9952-442-18-2** II cild

ROMAN
**POVEST**
HEKAYƏ
MƏQALƏ
İNTERVÜ

# POVESTLƏR

## SÜRGÜN

### 1

Bağlı kəndində mübarizələrdən keçə-keçə xoşbəxtlik adlanan aləmə qovuşmağa çalışan cavan qızlardan birinin adı Bəsdi idi. "Zaftalı" Bəsdi deyirdilər. Yəni zabitəli, zəhmli, hökmlü. Hərdən "Zoddu" Bəsdi də deyirdilər. Bu "zoddu" da elə "zaftalı kimi bir sözdür; zoddu adamın qabağında dayanmaq bəlkə heç mümkün deyil.

Mirzə Mərəz və ya Mərəz Mirzə deyilən partkomun Bəsdiyə beş-üç kəlmə: "Əmin (yəni kolxoz sədri Ehsan kişi) əlindəki şallağı atının sağrısına vurmaq əvəzinə gəlinlərin geri yanına şappıldadır" – deməyi kifayətdi ki, o günü Bəsdi əmisinə qışqırıb abırdan salmayaydı: "Şallağı öz arvadıyın yumşaq yerinə çək ki, çox ennəndirməsin. Zəhmət çəksin işə gəlsin..." və s. Əmma tale, daha doğrusu, zəmanə Bəsdini sındırdı. Bəli, sındırdı.

Düz yarım əsr bundan əvvəl – min doqquz yüz əlli birinci ilin iyununun axırında "kolxozluq" adlanan zamanın ən qaynar vaxtında baş vermiş hadisə elə bil bu gün olub; Alman faşizmi üzərində qələbədən sonra "Qələbə" adlandırılmış kolxozun sədri Ehsan kişinin ümumi iclasda çıxışı, xırıltılı, əmma məlahətli, hətta nurlu səsi indi də qulağımdadır:

– ...Burda hamıya məlumdur ki, üç qardaşdan biri mən – Ehsan, Qədir, bir də kiçiyimiz – Bəbir Qroznıda neft işlərinə baxan qohumumuz Mahmud ağanın himayəsində olurduq. Rostovda oxuyurduq, yayda yenə Qroznıya gedərdik. Oradakı – Qroznıdakı azərbaycanlı fəhlələrə mən rus dilndən dərs deyirdim, Qədir tarixdən, Bəbir botanika, zoologiyadan. Mahmud ağa bizi hətta Moskvaya,

POVESTLƏR

Leninqrada göndərmək istəyirdi ki, təhsilimizi davam etdirək, hərə öz sahəsi üzrə alimlik dərəcəsi alsın. Yəni buralara qayıtmaq fikrimiz yoxdu. Niyə? Açığını deyirəm, bizim millət öz qabaqcıl adamlarına qiymət verən millətlərdən deyil. Əksinə, material material dalınca getdi: "Mahmud ağanın özü ilə birlikdə oğulluğa götürdüyü cavanlar Nikolay padşahın düşməni Bağı ağanın nəvələridilər. Padşahın əleyhinədilər..." və sairə. Mahmud ağa dedi: "Var-yoxumu verib üçünüzə də başqa adda, familiyada pasport alacam. Kəndimiz əldən-ayaqdan uzaqdı. Qayıdın gedin ora. Görün yazanlar kimlərdi, ağızlarını yumun, qalın orda, məktəb açın, öz camaatımızın övladlarına savad verin, mədəniyyət verin..." Gəldik. Başımıza nələr gəldi burda o vaxt, Sovetdən əvvəl, Sovetdən sonra. Bunu bilən də var, bilməyən də. Maraqlanan olsa bilənlər bilməyənlərə danışarlar. Bu gün dərdim ayrıdı. Sovetdən əvvəlkilərimiz Bağlı demədilər bizə, "Gəlmələr" dedilər. Savadımızı, biliyimizi gözləri götürmədi. Açıq-açığına paxıllıq elədilər... "Abrazovonnılar" dedilər. Ortancıl qardaşımız Qədir xalqımızın ən qədim zamanlardan bəri tarixini bilirdi, ağıllı idi, yığırdı o vaxtkı bağlıları – ata-analarımızı başa salırdı ki, bütün dünya Türkə düşmən olub, qırılmışıq, pərən-pərən düşmüşük! Parça-parça! Sir-sifət dəyişirik, dil, din dəyişirik! Düşmən başlayıb bizi bir-birimiznən salışdırmağa!" "Ayrılmayın!" – deyirdi Qədir müəllim. "Bir-birinizə mədəd durun!" – deyirdi. Onlar – ata-analarınız heç, deyək ki, savadsızlaşmışdı millət, cahilləşmişdi. Bəs sizə nə olub! "Ad insanın tarixidi, – deyirdi yazıq Qədir. – Sizin ucbatınızdan biz özümüz neçə dəfə dəyişdirmişik adımızı?!" Bu da heç. Məcbur olmuşuq. İndi azar düşüb bu kəndə. Bir üzü Araza baxır, bir üzü Kürə. Soruşurlar: "Haralısan?" Deyirsiniz: "Aralıq kəndindənəm". Ha deyirəm Bağlıdı buranın adı. Deyirdilər: "Yox, Aralıqdı". Bu əlimin altında oturan Mirzə bir dəfə deyib: Bağ – Boqdu, dilinizə gətirsəniz Sovet hökumətinə xoş gəlməz, siz də baxıbsınız bunun sözünə.

Ha deyirəm Ehsanam mən. Əsən başqadı, yeldi, mehdi, sazaqdı. Deyirlər: "Sən də elə yelsən, əsəndə bütün Muğanı toza batırırsan. Sazaqsan, əsəndə kəsirsən". Nə vaxt, harda toz-tozanaq qopartmışam? Guya elə həmişə! Nə vaxt, harda sazaq olmuşam. Guya elə yayda da sazağam, hamının canına üşütmə salıram. Bu gün hansından olacam, hələ bilmirəm.

Yaxşı qulaq asın: mən Bağlıya təzə gələndə, həmişə tribunada, sağ tərəfimdə oturan, sağ əlim sayılan, əslində sağ əlimi kəsən part-

komumuz Mirzəoğlu Mirzə də təzə gəlmişdi. Qırx üçüncü ildə. Mərəzə deyilən yerə aclıq düşəndə oğul-uşağını da yanına alıb, dilənə-dilənə gəlib burda çörək tapıb, işləyib, partkom seçilib. Yəni hörməti var. Əmma adına baxın: Mərəz oğlu! Niyə? Çünki təhkeyi-kəlam var: "Qanundan çıxanın qanı çıxar. Farağat oturun". Elə o ili qoyubsunuz bu adı. Qırx üçüncü ildə. Dedim: "Müəlliməm mən, sədr olammaram!" Dedi: "Kişi qalmayıb. On səkkiz yaşından əlli yaşına qədər, yığışdırıb bir polk, Krıma basıblar, orda, müharibədə qırılıb hamısı, qayıdan olmuyacaq, götür sədrliyi". Götürdüm. Yeddi il keçdi üstündən. Məlum oldu ki, erməninin gözü var bizim torpaqda. Stalin sürdürəcək bizi burdan. Qazaxıstanda, Sibirin lap çovğunlu, şaxtalı yerində yer ayırıblar bizə. Mən də dedim: "Qanundan çıxanın qanı çıxar. Farağat oturun". Əmma özüm neylədim? Getdim oturdum Mir Cəfər Bağırovun qəbul otağında, qayaya döndüm, tərpənmədim. Xəbər verdilər ki, bəs, belə-belə, "yekə bir kolxoz sədri gəlib Bağlı kəndindən, "Qələbə" kolxozundan, deyir, "qəbul eləməsə özümü öldürəcəm". Qapı açıldı, şaqqıltıynan dəydi divara. Mir Cəfər gəldi durdu qabağımda: "Sürülənlər əllərini qaldırıb keçiblər o tərəfə! Ordan da Türkiyəyə! Fürsət gözləyirlər ki, Sovet hökumətinin əleyhinə silahlansınlar! Çıx get burdan!" Dedim: "Əvvəla, getmiyəcəm. İkincisi, sözümü burda yox, orda – kabinetində deyəcəyəm". Mat-mat baxdı üzümə ki, "bura, ya ora, nə fərqi var? Burda da Bağırovam mən, kabinetdə də". Dedim: "Yox, kabinetdə başqasan". Lap dəli oldu: "Niyə, a kişi?!" Dedim: "O kabinet böyük şəhər yeridi. Sən oturmalısan o böyük rəhbər stolunun dalında. Mən də rəhbərlik qarşısında". Baxdı, baxdı: "Hörmətli yoldaş gəlib, kabinetimə getsək, sən onnan da danışacaqsan. De görüm nədi sözün?" Dedim: "Gedək o hörmətli yoldaşın yanında deyim". Müxtəsəri, gördü daş qayaya rast gəlib, böyür-başdan baxanların da məndən xoşu gəlib, gülüşürlər. Qoluma girdi, apardı.

Gördüm heykəl kimi bir adamdı. Məndən də yekə, başı iki mənim başım boyda. "Poznakomtes! – dedi Mir Cəfər – Eto tovariş Şapiro iz Sentralnoqo Komiteta. A eto izvestnıy predsedatel kolxoza". Bilirsiniz, izvestnıy-zad deyiləm. Qardaşım Bəbirdi izvestnıy. Bağırov o Şapiroya dedi: "Xoçet poqovorit s vami". Bir az itirdim özümü. Əmma deməyinə dedim: "Şamaxıdanam, rus dili müəllimi olmuşam, əmma dərsdə antirus danışmışam. Müəllimlik hüququn-

dan məhrum eləyiblər, ailəmlə bir yerdə Bağlı kəndinə sürgün eləyiblər". Şapiro yaman tutuldu, soruşdu ki, "antirus, yəni nə?" Dedim: "Demişəm "Ruskiy narod nasilnik" – "Rus xalqı zorakıdı". Şapiro soruşdu ki, indidəmi bu fikirdəsən? Dedim: "Sibirə sürülsək, ölənə qədər deyəcəm "rus xalqı zorakıdı". Bağırovun rəngi qaraldı. Dedi: "Burdan birbaş türməyə getsən necə?!" Dedim: "Burdan birbaş türməyə getsəm, orda da deyəcəm". Dedi: "Burdan salamət çıxmasan, necə?!" Dedim: "Mənim əvəzimdə bütün Azərbaycan deyəcək: "rus xalqı zorakıdı". Bunu çox danışmışam sizə. Bilirsiniz ki, Bağırov birdən atılıb qucaqladı məni, o üzümdən, bu üzümdən, alnımdan öpdü, döndü Şapiroya ki: "Vot kakoy u menya narod! Etovo naroda nelzya soslat v Sibir!" Gəldim, neylədim? Oğlum Elxan başda olmaqla kəndin yeniyetmələrinin adından məktub yazdım "Pravda" qəzetinə: "Pismo tovarişu Stalinu: Biz, aşağıda qol çəkilənlər, dünyanın məşhur mədəniyyət ocağı Moskva universitetində təhsil almaq, rus və dünya mədəniyyətini öyrənmək, sülh və azadlığa xidmət etmək arzusundayıq..." İmtahansız qəbul olundular uşaqlarımız. "Pravda" qəzetinin o nömrəsini divara vurmusunuz hamınız. Qardaşım Qədirin böyük qızı Bəsdi divara yox, xalçanın üstünə tikib iynəynən. Mənnən də fəxr eləyir qardaşımın balası, əmisi oğlu Elxannan da. Əmma... indi bu nə sözdü demisiniz: "Bəsdi nişanı qaytaracaq!" Niyə?! Kimdən çıxıb bu söz?! Dərin sükut içində Mirzə Mərəzin nazik boğazından dəhşətli sözlər çıxdı:

– Bəsdi ozu deyib ki, Əsən əmim antisovetdi, şəxsən mənim qabağa getməyimi, xoşbəxtliyimi istəmir!

Əsən kişinin səsi əksinə, boğulub daha da xırıldadı:

– Sən nə danışırsan, ay Mərəz?!

Mərəz dedi:

– Odu ha Bəsdi. Çağırmışam, sözünü burda da desin.

– Sən çağırmısan?!

– Bəli.

– Niyə?!

– Çünki zakondan çıxmaq olmaz.... Qız qaynatasına nifrət eləyir. Deməli, bəri başdan ayrılmalıdı. Yoxsa, bədbəxtlik olar. Bu iclas partiya iclası deyilmi?

– Mənim şəxsi işimə baxmaqdan ötrümü yığmısan camaatı?!

– Bəli.

– Niyə, a kişi?!

– Belə yaxşıdı. Kolxozdu bu. Ümumi işi, ümumi dərdi-azarı həmişə ümumiliknən həll olunduğu kimi bu kolxozun ayrı-ayrı üzvlərinin dərdi-azarı da ümumi iclasda hamının iştirakıynan həll olunmalıdı! Sözü verirəm “Qələbə” kolxozunun manqaçısı Bəsdi Qədirqızına. Gəl burdan danış, Bəsdi Qədir qızı.

Qalxdı Zaftalı Bəsdi, nə qalxdı tribunaya. O “tribuna” – xitabət kürsüsü deyilən yerin hündürlüyündə boyunun yarısı hüdürdə durdu, çiyinləri kənarlara çıxdı. Yəni elə dik, elə şax dayandı ki, elə təkcə bu görkəmi ilə Əsən kişini qorxuya saldı.

– Söhbət nişan-filan üstdə deyil. Elxan yaxşı oğlandı. Alar – gedərəm, almaz – yox. Söhbət insan taleyi üstədi. Buna görə də sizdən mən özüm xahiş etmişəm ki, ümumi iclasa çıxardın mənim tale məsələmi. Yəni siz çağırmayıbsınız məni. Mən özüm-özümü çağırmışam. Bu bir. İkincisi, birini bilirsiniz, birini yox. Bildiyiniz budur ki, mənim Əsən əmim nə yeldir, əssin tozanaq qoparsın, nə də sazaqdı, şaxtadı kəssin. Sadəcə olaraq, qəddar adamdı mənim əmim! Partkomumuz: “Zakon! – deyir, – Qanun! – deyir, – Qanundan çıxanın qanı çıxar! – deyir. Əmim “sağ tərəfində oturan sağ əli”nin sözündən yapışıb, bir az da irəli gedib: – qanı çıxar yox, canı çıxar” – deyir. Keçən ildən bəri, düz bir ildi hər gün Bağırovun kabinetindəki igidliyindən danışır. Guya, Azərbaycan xalqını sürgün təhlükəsindən xilas eləyən elə budu. Bəs həqiqət nədi? Mən deyim, siz eşidin. Birincisi, şamaxılı deyil mənim əmim. Bağlı kəndinin dib ocağı olan Bağı ağanın nəvəsidi. Atası Həsən kişiynən oğulları Qədiri, Bəbiri, Əsəni Şamaxıdan yox, Nikolay vaxtı Şamaxıya sürüblər. Qırx birinci ildə Bəbir əmim Şamaxıdan Şəkiyə qaçıb, oranın məşhur baramaçısı olub, müharibədən sonra Sosialist Əməyi Qəhrəmanlığına təqdim ediləndə Mir Cəfər Bağırovun kabinetində açıb deyib ki, mən məşhur Bağı ağanın nəvəsiyəm. Şəkiyə qaçıb orda başqa adnan gizləndiyimə görə günahımdan keçin. Bu bir. İkincisi, keçən il Əsən əmimi Bağırov bunun öz igidliyinə görə yox, Bəbir əmimin qardaşı oğluna görə qəbul eləyib. Bu kənddə, bu rayonda Bağı ağanın nəslindən Qazaxıstana kim sürülübsə, hamısı Əsən əmimin sözü ilə sürülüb! Nəslini bada verib ki, özü qalsın!

– Ay bala! Ay bala! Sənin sözün deyil bu dediyin, ay bala! Bu sağ tərəfimdə oturan sağ əlimin rayon partiya komitəsinə, KQB-yə

yazdığı böhtandır. Raykom katibimiz özü deyib mənə ki, partkomun ləkələyir səni, ey Əsən kişi. Bunun sözünə uyma, ay gözəl balam!..

Bəsdi can-cəsəddən, camaatın dediyi kimi, nə qədər heyvərəydisə sifətdən bir o qədər gözəl idi. Necə deyərlər, gözləri can alırdı. Əmma hayıf ki, bu camalın gözləri hamını tir-tir əsdirə "zaftası" – zabitəsi, zəhmi də vardı.

– Sızıldama əmi! – dedi. – O sağ tərəfində oturan sağ əlin bu yeddi ildə səni astaca-astaca, qorxuda-qorxuda, buxalterin Möhtərəmin əliynən kolxozu astaca-astaca sağır, guya qardaşı Qədirin yetimlərinə verir. Əslində, nə göndərirsə hamısını qaytarıb verirəm özünə. Yalandısa, o, onun üzü, bu, mənim üzüm, desin yalandı.

Nazik boğazın nazik səsi astadan etiraz elədi:

– Böhtan danışmağa çağırmamışam mən səni, öz bədbəxtliyini danış, camaat xəbərdar olsun. Kolxozu necə sağıram, pulu sənə hardan verirəm, niyə verirəm, niyə qaytarırsan, o barədə deyərəm özüm. Möhtərəmə söz verərəm, o da deyər, aydın olar məsələ. Sənə təkrar eləyirəm, öz bədbəxtliyini danış! Mənim də bədbəxtliyim var. Mən də danışacam. Mərəzədən dilənə-dilənə yox, rəhmətlik Bağı ağanın nəslindən Azərbaycanın hər yerində olan, bir-birindən səxavətli kişilərin evlərində qonaq qala-qala gəlmişəm. Burda da bu əmiyin güdaza verdiyi bir adamın çörəyiynən dirçəlmişəm. O səxavətli adam sənin atan Qədir idi. Bu qardaşın o qardaşı niyə və necə güdaza verdiyini bir ildi içimdə yara təki saxlamışam. İndi də açmazdım. Məcburam. Çünki bıçaq sümüyə dirənib. Açıb lap açıqca deməliyəm ki, Bəbir qəhrəmanlıq alanda sirrini açandan sonra Mir Cəfər Bağırov Bağı ağanın nəslindən olanları yoxlatdırırdı: kim hardadı, nə işlə məşğuldu, siyasi cəhətdən necədi? Raykom katibimiz keçən il çağırtdırdı bizi Qədir Bağlının barəsində nə bilirsiniz, danışın, yazılsın. Şəxsən Bağırov yoldaşın tələbidi. Mən dedim, Bağı ağanın nəslindən olsa da, yazın, bədbəxtin biridi Qədir. İyirminci ildə Şura hökuməti qurulanda Şamaxıdan qaçıb Mərəzədə mənə sığınmışdı. Arvadı Xatun özündən də yazıqdı. Otuzuncu ilə qədər beş qızı oldu, öldü. Altıncısı – sən Bəsdi dünyaya gələndə Şamaxıdan həkim çağırdım bura. Bizdə qaldı həkim, səni qoymadı ölməyə. Səndən sonra qırx üçüncü ilə qədər, ondan sonra, qırx doqquzuncu ilə qədər on bir qızı oldu Qədirin. Keçən il sürüləndə tovarnı vaqonun qapısının arasından başını

çıxartdı, əminə yox, mənə tapşırdı sizi. Ağlayırdı yazıq. Ağlaya-ağlaya gülürdü ki, nöyüt almağa qəpik-quruş da tapmamışam ömrüm boyu, çıraq yandırmayıb elə axşamdan uzanmışam arvadın yanında, ölənlərdən savayı, Bəsdidən savayı on birini verib Allah. Qoyma acından ölməyə, ay partkom, qismət olsa, qayıtsam, balalarımnan bir yerdə qulun olluq hamımız! Bu, solunda oturan eşitdi bu deyilənləri orda, o vaqonun qabağında. Səsini çıxartmadı. Etiraz eləmədi ki, doğma qardaşın, şan-şöhrətli, varlı-hallı kolxoz sədri burda sağ-salamat ola-ola niyə partkoma tapşırırsan uşaqlarını?! Dillənmədi. Çünki gözü kölgəliydi. Raykomumuzun kabinetində nə demişdim? Bilirsən, demişəm: "Kommunistəm, partiyanı alladammaram, qardaşım Qədir babası Bağı ağanın əqidəsindən dönmür". Yazdırdı katib bu bircə cümləni, qol çəkdirdi, qoydu siyirməsinə. Atan getdi. Ötən il, bir il – on iki ayda hər ay pul göndərmişəm mən sənə, sən də göndərmisən bizim arvada: "Almaram!" Anan Xatun iflic! Arxası üstə qalıb, atan gedən gündən qalxammır yerindən. Onu da gəlirəm on birin üstə. On iki ağız çörək istəyir səndən. Gəlirsən əmiyin üstünə ki, yaxşı qazanc yeri var, ver işləyim. Nə deyir? Olmaz! Vəzifəsini saxlayır bu, sizi yox! Buydu sənin bədbəxtliyin, danışdım. Özün nə əlavə eləyirsən, de!

Zaftalının gözləri zaldakı skamyalarda, camaatın arasında dolaşırdı.

– Uşaqlara demişdim, onlar da gəlsinlər. Heç bilmirəm niyə gəlməyiblər?

Eşikdən, taybatay açıq pəncərələrin dalından uşaq xoru eşidildi.

– Biz burdayıq, ay Bəsdi! Burdayıq! Gələkmi içəri?

Bəsdi hirsli-hirsli deyindi:

– Gəlin da! Qırılmışlar! Elə qısıq böyüyürlər, ortalığa da çıxmırlar ki, görəsiniz nə haldadırlar o güdaza gedən qardaşın balaları!

Hamısı boz, nimdaş çit donda, hamısı köhnə, boz ayaqqabılarda, başları açıq qızlar kandara çıxanda zalda hamının başı geri döndü. Böyüyü on beş-on altı, kiçiyi – son beşiyi üç-dörd yaşlı, arıqlıqdan körpücük sümükləri çıxmış, boğazlarına, üzlərinə sarılıq çökmüş qız yığınını birinci dəfə görmüş kimi, ah-uf yerdən-göydən çıxdı. Bəsdinin səsi camaatın ah-ufuna qarışdı:

– Əmim bunlara çörək vermək istəmir! – dedi. – İşimi alıb! Baramanı qadağan eləyib!

Əsən kişinin əlləri başını qamarladı.

– Ay bala! Öldürmə məni, ay bala! Partkomun göndərdiyi pulu buxalter kolxozunun bölünməz fondundan verir sizə. Şəxsən mənim, idarə heyətinin razılığıynan verilir o pul. Partiyamızın adından verilir. Belə lazımdı, deyir, partkom. Bunun şəxsi puludumu?! Niyə bunun arvadının üstünə qaytarırsan?! Niyə öldürürsən əmini?! Azmı başı töhmətliyəm mən?! Qədirin sürülməyindən sonra dirigözlü ölmürəmmi ki, bu tərəfdən də sən öldürürsən?! Barama manqabaşçılığını mənmi almışam sənin əlindən?! Hökumətimiz, şəxsən Mir Cəfər Bağırov yoldaş göstəriş verib ki, yazbaşı – aprelin axırından mayın axırına qədər, ildə bir dəfə barama götürdünüz, bəsinizdi. Bir ildə iki dəfə, üç dəfə barama qurdu bəsləsəniz, tut bağları quruyar, qurd bəsləməyə meşələrdə də tut ağacı qalmaz! Mirzəoğlu demişkən, zakondu bu! Qanundu bu! Kim poza bilər bu qanunu?! Kimdi səni belə qızışdırıb mənim üstümə salan, düzünü de!

Bəsdinin nəhəng barmaqları xitabət kürsüsünün üstünə tappıldadı.

– Başqasının sözüynən oturub-duran sənsən! Mən öz sözümü deyirəm sənə! – Uzun, ağır qolumu uzadıb kandarı göstərdi. – Onların sözüdü mənim sözüm! Acdılar! Çılpaqdılar! Niyə bir dəfə açmırsan qapımızı?! Qırx səkkizinci ildə qohumlarımız Dərəçiçəkdən bura köçürdüləndə qanadıyın altına aldın hamısını! Atam fərəhindən yerə-göyə sığmırdı. Hətta, o sağ əlin də tərifləyirdi səni ki, Ermənistandan, Dərəçiçəkdən sürülənlərin pənahıdı sədrimiz. Sonra məlum oldu ki, qapında nökər saxlayırsan hamısını. İyirmi dörd arı yeşiyi var bağındakı o yekə çardağın altında. Pərvanə təki fırlanırlar Dərəçiçəklilər o yeşiklərin dörd dövrəsində. Hər yeşikdən bircə pud bal götürürsən bir ildə, satdırırsan balı, qızıl alırsan! O qızıl üzüklərdən beş-üçünü qıymırsan qardaşıyın balalarına! Haramın olsun! Mənim halal çörəyimi kəsmə! İclas qərar çıxarsın, bir də barama saxlayım bu il! Gəlirlidi! Keçən ilin məhsuluna görə beş ton ipək, beş ton çit verdilər sənin bu “Qələbə” kolxozuna! Pambıq planı kəsirdə qalmışdı, qəpik-quruş paylayırdın, camaat qıtlaşırdı. Əmbə barama planını yüz qırx faiz ödədim mən. İpəyə bürüdüm bu camaatı! Səsə qoy! Təklif yox, tələb eləyirəm ki, bu il ikinci və üçüncü dəfə barama məhsulu götürməkdən ötrü bölünməz fonddan pul ayrılsın, barama toxumu alınsın! Adımı manqabaşı

qoyubsunuz. Hanı mənim manqam? Yoxdu axı, ay camaat! Bu yaz, yağışın altında o tifillərə tut yarpağı arıtlatdırmışam mən. Ayağına düşmüşəm, yalvarmışam ki, heç olmasa, ikicə, üççə əldən, qoldan saz işçi ver, ay əmi. Cavabı: olmaz! Pambıqdan bir adam da ayırammaram! Niyə, ay zülmkar? Sənin qızın Lətifə məktəbi qurtarandan sonra oxumağa getmir, ər istəyir. Əli belində, boş-bekara, dalını yekələndirir. Niyə vermirsən onu bircə ay otursun o kumxana deyilənin qabağında, yarpaq arıtlasın, çox yox ikicə, üççə tərəcədə qurd bəsləsin! İkicə tərəcədə! Yoğnudursan onun budunu, baldırını! Camışa dönüb, yeriyə də bilmir piyin əlindən! Ver onu arıqladım!

Zalda gülüş qopdu.

– Səsə qoy, ay sədr! Səsə qoy! – dedilər.

Əsən kişinin başı köksündə idi. Stolun üstündə, taqətsiz düşmüş əlində dəsmal ağarırdı.

Mirzə Mərəz də hərəkətsiz qalmışdı. Yalnız dodaqları tərpənirdi:

– Ümumi iclasın qərarı əvvəlcədən məlumdu: "Camaatın maddi-rifah halını yaxşılaşdırmaq məqsədilə qərara alınır ki, 1951-ci təsərrüfat ilinin iyun, iyul aylarında əlavə olaraq iki dəfə barama qurdu bəslənilsin, barama məhsulu üzrə plan iki yüz faiz ödənilsin.

İclasın sədri – Ehsan Bağlı. Katibi – Mirzəoğlu Mirzə"

Mərəz Mirzə qabağındakı dəftər vərəqini Əsən kişinin qabağına qoydu, mürəkkəbqabına söykəkli qələmi göstərdi:

– Qol çək!

Əsən kişi bir xeyli də hərəkətsiz qalandan sonra qələmi yox, dəftər vərəqini – qərarı götürüb ortadan iki cırdı, ovcunda yumrulayıb stolun üstünə çırpdı:

– Göydən od tökülür! Pambıq yanır! Dəhnədən suyu gah o kolxoza satırlar, gah bu kolxoza! Pambıq kollarını bircə-bircə xilas eləməkdən ötrü məktəb uşaqlarına qədər hamı toxa götürür! Səhər saat beşdə, altıda torpağı şehli-şehli qazıyıb kolların diblərinə çəkmək lazımdı!

Zaldan səs çıxmadı.

Yenə Mirzə Mərəzin dodaqları tərpəndi:

– Bu skamyalarda oturanların otuz nəfəri Sovet İttifaqı Kommunist Partiyasının üzvüdü. Böyük kollektivdi bu otuz nəfər. Mənsə bu kollektivin təşkilatçısı adlanıram. Yəni kənddə partiya işlərini təşkil eləyirəm. Bu gün də məhz partiya təşkilatçısı kimi danışdım:

Kollektivin əksnə getmə, Əsən! Qərarı təzədən yazım? Yazımmı, ay camaat?

Zalı qışqırtı götürdü:

– Yaz, yaz!

– Düz deyirsən sən! Kollektivin əleyhinə gedir! Yaz!

Bu hay-küy içində uzun, qara bir kişi yerindən qalxıb irəli yeridi:

– Öz qardaşın qızının öhdəsindən gələmmirsən, daha nə oturursan o stulun dalında, ay Əsən kişi! Kişiliyin olsaydı, Qədir uşaqlarını bu Mərəzə tapşıranda ərizə yazardın, çıxardın sədrlikdən, yetimləri başına yığıb, sürülən dərəçiçəklilərinnən, arı qəhri çəkə-çəkə yetim qəhri çəkərdin! Yazdı, pozdu, qorxutdu səni bu Mərəz, nəslini bada verdin! İndi heç bu yetimlərə yiyəlik eləmirsən, Əsən kişi! Əsən kişi! Lopabığ! Boy-buxun! Noolsun? Heç bilmirəm nəyinə kişi deyirik biz sənin! Niyə yalvarırsan o həyasız Bəsdinə! Kişiliyin varsa, dur bir şillə çək ağzının üstünə! Saçından tut, ayağının altına sal, sürü apar tulla Qədirin o iflic Xatununun yanına! Bunu da yorğan-döşəyə sal! Çörəklərini ver, ölsünlər öldükləri yerdə...

Bu uzun, qara adama Böyük Həmid deyirdilər. Dərəçiçəkdən gəlib burda – Muğan düzünün ən isti yerində möcüzə ilə güzəranlıq tapan Bağlıların arasında görünər-görünməz, göz işlədikcə uzanan yaşıl düzənliyə, çiçəkli ulğunluqlara baxıb demişdi: “Buranınkı arıdı, ay cəmaət! Niyə arı saxlamırsınız siz?!” Əvvəlcə təəccüb, heyrət içində susub, yalnız orda-burda: “Dəlidi bu adam!” “Bu cəhənnəmdə arı nədi?!” – demişdilər. Qara Həmid isə, təəccübü, heyrəti görə-görə, agah eləmişdi ki, Naxçıvan bu Bağlı tərəflərdən də qat-qat isti yerdir, – yumurtanı qoyursan günün altına, beşcə dəqiqəyə bişir, əmma o qızmar günəşin altında, lap çölün düzündə ağac kölgəsinə girəndə bircə dəqiqədə tər soyuyur, adamın canı buza dönür. Niyə? Çünki o isti yerin ab-havasında elə bir xüsusiyyət var; günəşin altı cəhənnəm, ağacın altı cənnət! Buna görə də qırx səkkizinci ildə Dərəçiçəkdən sürülən camaatın çoxu nəzarətdən qaçıb dağlardan üzüaşağı Naxçıvana töküldü. İki qardaş – Böyük Həmid, Kiçik Həmid. Bu tərəflərdən Muğ, Muğan, Bağ, Bağlı deyilən qohumları olduğunu, dediklərinə görə, buraya köçənlərlə gördülər bura da eynən Naxçıvandı. Daş daşımaqdan, divar qaldırmaqdan qabaq, elə gələn günün sabahısı on altı Dərəçiçəkli ailəsi on altı “uçastok”da on altı hündür çardaq –

kölgəlik tikdilər, qalın taxtalardan on altı açıq taxt düzəltdilər. Bağlının künc-bucaqlarında söhbət gəzirdi ki, dərəçiçəkliləri qəsdən bu duzlaqlara köçürüblər, dağ adamları burda qırılsınlar, azərbaycanlıların İrəvan çökəyi, Dərə Ələyəz, Göyçə və sair torpaqlarından sürüldüklərinə şahid nəsil, kök qalmasın. Çardaqlar qurulub, taxtlar düzüləndən sonra isə məlum oldu ki, səhər saat altıda doğub, axşam saat səkkizdə batan günəşin altında əməlli-başlı kürə kimi, təndir kimi qızan divarlar arasında bitən bağlılar, Muğan düzünü cənnət sayan ulu babalarının qaynar daş soyudan belə çardaqlar altında yaşadıqlarını, hətta şəhərlərdə də dörd dövrəsinə ağac döşənmiş çardaqsayağı evlər olduğunu unudubmuşlar. Naxçıvanın yetmiş-səksən kilometrliyində, yaylaqlarda məskunlaşan keçmiş muğanlılar, indiki dərəçiçəklilər isə, o məskənlərdə çardaqları da saxlayırmışlar, yarımçardaq evləri də. Odur ki, "buranınkı arıdı, ay camaət", – deyən Böyük Həmid, köçkünlərə xüsusi qayğı göstərən Saatlı, Sabirabad şəhərlərindən yük maşınları kirələyib, Dərəçiçəkdə qalmış arı yeşiklərini gecələr maşınlara doldurub çardaqların altına düzəndən sonra çox çəkmədən, hamı inandı ki, doğrudan da "buranınkı arıdır"; çovğunlu-çiskinli Dərəçiçəkdə pətəyin – yeşiyin arı işləyən deşiyini may ayında açıb, qar yağanda – sentyabrda bağlayırmışlar. Yəni arı bir ildə cəmisi dörd ay bal çəkirmiş. Muğanda isə, pətəyin ağzını martda açıb dekabrda bağladılar. Yəni arı səkkiz ay bal çəkdi, Böyük Həmidlə Kiçik Həmid uzaq qohumları Əsən kişinin həyətində bir ildə üç dəfə, Bəsdinin dediyi kimi, doğrudan "hər yeşikdən bir pud" bal götürdülər. Bu iş qırx səkkiz-əlli birinci illər arasında üççə ildə Əsən kişinin, necə deyərlər, fantastik dərəcədə varlandırdı, qızı Lətifənin "budunu, baldırını yoğnutdu", çöl işindən – pambıq becərməsindən ayırdı, Bəsdi ilə bacılarının – "yetimlərin" dilənçi kökündə olduqlarını isə daha acınacaqlı göstərdi. Əmma bu iş Böyük Həmidlə Kiçik Həmidə də şöhrət gətirmədi; üç ildə Əsən kişinin arı yeşiklərinin sayını iyirmi dördə qaldırıb, öz yeşiklərinin sayını on beşdən yuxarı qaldırmadıqlarına baxmayaraq, kolxoz işinə – pambıq becərməsinə getmədiklərinə görə, Lətifə kimi, onlar da dilə-ağıza düşdülər: "Qudurublar", "Camaatı saymırlar!" Böyük Həmidin adını qoydular "Qara Həmid", Kiçik Həmidin adını qoydular "Sarı Həmid", ikisinə bir yerdə isə "qudurğan" qardaşlar!

İndi bu “qudurğanlar”dan biri gözlənilmədən öz himayədarına əl qaldırdı:

– Geroy Bəbir on yaş böyükdü səndən. Saçı-saqqalı dümağ. Beli bükülü! Yeriyəndə ləngər vurur o yan-bu yana! Büdrüyəndə əl yetirməsən yıxılır! Əmbə gör neyləyib o əlsiz-ayaqsız kişi! Baramaçılığı o yerə çatdırıb ki, axırda Şəkiyə ipək fabriki verib hökumət. Qızıl içindədi camaat! Sən bircə kəlmə “hə” desən, Bəbir kişi bildirki, tək onca dənə barama qutusu gətirsə, ilin axırına qədər camaatın yenə ala-şala bürünməzmi?! Yetimlərin də güzəranı düzəlməzmi?! Baramaya razı olmursan, heç olmasa, biz Həmidlərə izn ver dolandıraq yetimləri! Deyirsən Hüseyn Cavidin ailəsinə yardım eləyənləri də tuturlar, Hüseyn Cavid təki onları da xalq düşməni eləyirlər! Qədir də, deyirsən, Hüseyn Cavid təki türkpərəst idi. Yetimlərə əl tutsaq, bizi də damğalayarlar, Qədirin dalınca göndərərlər. Düz deyirlər. Yüz faiz doğrudu. O yanındakı deyir: sürülən sürülüb, qalanları dolandırmaq lazımdır. Neyniyək indi?! Xatun arvad acından ölsün, sənnən mən də boynumuzu yoğnudaq?! Belə namusu götürəmmərəm mən! Ya qol çək o qərara, ya da biz özümüz lap açıq himayədarlıq eləyəcəyik Qədirin ailəsinə!..

Mirzə Mərəz qərarı ikinci dəfə yazıb qurtarmışdı. Bu dəfə üzünü sədrə yox, birinci cərgədə oturan idarə heyəti üzvlərinə tutdu:

– Gəlin qol çəkin. Altı nəfər heyət üzvünnən partkomun imzası olandan sonra sədr nəkarədi qol çəkməsin, möhür vurmasın!

Əmma Əsən kişi yenə ayaq üstə idi:

– Ay Möhtərəm! Dillənsənə!

Qıçının birini, dizdən aşağısını, cəbhədə – səyyar hərbi hospitalda qoyub gələndən sonra “qostil”lə, indi isə, taxta qıç taxıb çəliklə gəzən gödərək kişi çəliyini tappıltı ilə döşəməyə vurdu.

– Mən sənin tərəfindəyəm, yoldaş sədr! – dedi. – Barama qutusunun biri min manatdı, hökumət qiyməti. On mini hardan alım mən?! Pambıq planını doldurub raport verməsək, bank pul buraxarmı?!

Zala yenə gözlənilməz şappıltı yayıldı: Bəsdinin pəncəsi idi, xitabət kürsüsünə şappıldadıb aşağıya – Möhtərəmə doğru uzandı.

– Yalan deyirsən, köpəyoğlu! Qalx ordan, çıx bura hesabat ver camaata, həlak olan əsgərlərin ailələrinə ayrılan ailəbaşına min manatı niyə beş yüz-beş yüz paylayıbsan?! Sədrin, partkomun cib-

lərinə nə qədər qoyubsan, öz cibinə nə qədər soxubsan, ay canavar?! Barama ipəyindən paraşüt düzəldirlər dövlətlər, on minlərnən, yüz minlərnən desant ordusundan ötrü paraşüt! Xaricə barama satanda tərəzinin bir gözünə barama qoyur hökumət, bir gözünə qızıl! İşin bu tərəfini də fikirləşirəm mən, çünki Lenin komsomolu yetirməsiyəm! Ailə dolanmamın yaxşılaşmasını da tələb edirəm. Buna görə də barama istəyirəm becərəm! Çünki sovet adamının dolanması pis olmamalıdı! Sən təki canavarlara möhtac qalmamalıdı sovet adamı, ay cibgir!..

Nazik boğazdan lap nazikcə gülüş çıxdı:

– Bəsdi ki, söyüşə başladı, iclası davam elətdirmək olmaz daha. Müzakirəni təxirə salıram! Heyət üzvləri, səs verin!

Birinci cərgədə Möhtərəmin əli ilə birlikdə altı əl qalxdı.

Əsən kişinin gözü sağa çəpləndi.

– Arzuna çatdın, abırdan saldın məni. Əziz qardaşımın uşaqlarından ayırdın, camaatdan ayırdın. Mən ərizə verirəm, sədr seçdir özünüzə.

– Xeyr! – Nazik səs tarım sim kimi ötdü: – Buna qorxdum deyərlər! Təsərrüfatın bu vaxıtnda nə seçki?! Pambıq yanır! Plan təhlükə altındadı! Kim götürər sədrliyi bu vəziyyətdə?! – Mərəzin bıçaq tiyəsi kimi iti burnunun sağ-solunda xırdaca gözləri qəzəblə, kinlə dolu “canalan gözlərə” dikildi.

– Qurtardıq, xanım?

Bəsdinin dodaqları titrədi:

– Canavarın biri də sənsən! Mərəzənin dilənçi canavarı! Yeddinci ildi sökürsən bu camaatın var-yoxunu! “Xanım!” Haram xanımdı mənim, ay dilənçilikdən bəyliyə çatan köpəyoğlu! “Təxir” nədi?! Otur orda! Mən deyən təki cəmaatın dediyi təki həll elə məsələni! Həll elə!

Əmma cəmaat artıq ayaq üstə idi. Bir ucdan sökülüb, axşam toranında kandarın üzərində parıldayan lampanın altından o yana çıxırdılar.

Bəsdi Əsən kişiyə baxdı.

– Vayına oturum, ay əmi! Görərsən neyliyəcəm! – deyib, xitabət kürsüsündən düşdü...

## 2

Təəccüblü idi ki, ərazisinin üç tərəfi yamyaşıl düzənlikdən, bir tərəfi isə dümağ və "drenay"lı olan iki yüzə qədər təkcərgə daş evlərin hamısının arxası duzlağa – günbatana tərəf olduğu halda iki qardaşın – Qədirlə Əsən qardaşların və dərəçiçəklilərin evlərinin üzvləri əksinə – gündoğana baxırdı. Əvvəllər bu, dediyim kimi, təəccüblü görünürdü. Bağlılara sataşırdılar: "Camaata arxa çevirib-siniz!" Əmma sonralar məlum oldu ki, Bağlıya Dərəçiçəkdən gə-lən bu "tərsliyin" səbəbi varmış; yaz, yay aylarında səhər saat yeddidə Muğan düzünün o başından "əjdaha təki çıxan" günəş bağlıların pəncərələrini – içərisini yalnız bir-iki saat qızdırırdı, sonra içəri kölgələnir, günortadan ta axşama qədər bütün kəndin evlə-rinin içəriləri qaynadığı halda, bağlıların evləri alaqaranlıq və sərin olurdu. Çətinlik bunda idi ki, "əjdaha" çıxanda o beşcə dəqiqəyə pəncərələri oda döndərib yatanların bədənlərini, üzlərini ocağa salırdı və hamı oyanıb həyətə – ağac kölgəsinə qaçmağa məcbur olurdu. Adətən gecə yarıya qədər "qapı-bacada yüyürüb-yıxılıb, saat on ikidən, birdən tez yatmadıqlarına baxmayaraq Bəsdi ilə qızlar da məhz "əjdaha" çıxanda qımıldanışıb, oyanıb, donlarını əyinlərinə taxıb həyətdəki tut ağacının altında köhnə, boz kilim-lərin üstünə döşənişirdilər. Səhər pendir-çörəklərini də orda yeyib, çayı da orda içirdilər. Günortanın, axşamın pendir-çörəyini, çayını da yeyib-içirdilər. Hərdən Bəsdi "cücələrini", yəni kiçikləri – Gülbəsti ilə Güldəstəni də yanında aparıb təzə suvarılan pambıq sahəsindən "qırmızıbaldır" – unnuca yığıb, üç ətək unnucadan bir yekə qazan dovğa və ya sıxma, hərdən də "böyük saplıcada qay-ğanaq" bişirəndə bayram olurdu; qızlar "ciji"nin, yəni Xatun arva-dın ayaqları diyircəkli kravatını – çarpayısını da diyirlədib tutun altına çıxardardılar: "Cijimnən bir yerdə yeyək". Sonra on üç nim-çəni, ya da on üç dəmir camı kisəyə doldurub, "krana", yəni kəndin ortasındakı yeganə bulağa gedərdilər. Qabları yuyar, ayda bir, iki dəfə kranın axarında betonun üstündə paltar, kilim, palaz-cecim yumaq da bu cür bayram sayılırdı. Bəsdinin evdə olmadığı günlərdə cırcıramaların aramsız, darıxdırıcı cırıltılarını eşidə-eşidə evin böyründə-başında, ya da cijinin çarpayısının dövrəsində, gillə suvanmış torpaq döşəmədə hər bir tərəfə döşənişəndə əməlli-başlı

yas olurdu; belə günlərdə Dədənin – Qədir kişinin yoxluğu – evin sükutu, hətta Gülbəsti ilə Güldəstəni də sıxıb əzirdi. Yalnız hərdən – sükut çox ağır olanda, təkcə sağ qolu, bir də özünün dediyi kimi, “ağzında dili salamat qalan” ciji, on birini də çağırıb, çarpayının dövrəsində oturdub “Dədədən danışmağa” başlayardı.

Uzaqda – Kürün qırağında Baxt Cələsi deyilən yer varmış. Hələ lap cavan, əryən vaxtlarında Bağı ağanın böyük nəvəsi Qədir, eynilə ondakı qızı Bəsdi kimi “yekəpər” Bəsdi deyilən bir qıza vurulmuşdu. Cələdə tut yetişəndə bütün qızları Nər Bəsdinin başına yığıb “tuta”, yəni tut yeməyə aparırmış. Qora yetişəndə “qoraya”, moruq yetişəndə “moruğa” aparırmış. Bunun hamısı da orda – Cələdə Nər Bəsdi ilə “söhbət eləmək” üçün imiş. İş belə gətirib ki, Nər Bəsdinin başında, yəni dövrəsində Cələyə gedən qızlar bircə ildə yaxşı-yaxşı oğlanlara ərə gediblər. Sonralar hər hansı bir qızınsa evdə qalmaq – “qarımaq” təhlükəsi olanda, daha toxtayıb “Qədir kişi” çağrılan kimi həmin Nər Bəsdi – arvadı ilə birlikdə, o evdə qalan-qarıyan qızları da cələyə – “tuta”, “qoraya”, “moruğa” apararmış və həmin qızların da baxtı açılarmış – ərə gedərmişlər. Buna görə də o cələyə “Baxt cələsi” deyirmişlər. Qədir kişiyə “Baxt cələsinin xanı”, Nər Bəsdiyə isə “Qədir xanın xatunu” deyirmişlər. Bu tərəflərdə “Qaçaqlar qırılan ili”, “Bağlılar ili” adlanan, qarışıq, dumanlı “Erməni-türk davası” adlandırılan on birinci ildə “Qədir xanın xatunu” da Şamaxıya sürgün olunandan sonra, iyirminci ildə – “Sovet qurulanda” çox “qırğın düşdüyünə” görə, iyirminci ildən bu yanın camaatının nə “Baxtı cələsi”ndən xəbəri vardı, nə “Qədir xan”dan, nə də “Qədir xanın xatunu” Nər Bəsdidən. Odur ki, “Qədir xan” – Qədir kişi, Bağlı Qədir kimi, nər Bəsdi – Xatun arvad, bunların böyük qızı Bəsdi isə, bildiyimiz kimi, Zaftalı Bəsdi kimi tanınmışdı. Ailənin macəralarını indi yalnız Xatun arvad – ciji bilirdi, bir də ki, “Dədədən danışan” “cijinin çarpayısının dövrəsində gülüşə-gülüşə qulaq asan qızları. Ciji öz cavanlığına “Nər Bəsdi” dedikcə qızlar gülümsünüb hökmən Bəsdiyə baxırdılar: “İndi sənsən Nər Bəsdi! Nər Bəsdi!” – deyirdilər. Bəsdi isə keçən ilki “Barama mükafatı”ndan – ipəkdən satdıqca evi, “şəhər naz-neməti” ilə alabəzək qutular içində müxtəlif balıq konservləri, müxtəlif kolbasalarla, “peçenye”, “şəkərbura” ilə doldurduğu şaqqıltılı-gülüşlü günləri yada salıb, “Nər Bəsdi qurban

olsun sizə, görərsiniz nələr eləyəcəm", – deyirdi. "Hamınızı Baxt cələsinə aparacaq, hamınızı yaxşı-yaxşı oğlanlara verəcək Nər Bəsdi!" – deyirdi və konserv, kolbasa, peçenye, şəkərbura əvəzində belə vəd söhbətləri də bir cür bayramdı. Beləcə, ümid bəsləyə-bəsləyə, aldana-aldana yaşayırdılar. Əmma... Vay o gündən ki, ailənin qüruru, fəxri Nər Bəsdi hardasa, kimləsə savaşıb, həyətə, evə tufan kimi gəlib, qızların hamısının yeganə kitab tərəcəsinin üst gözündən "Polad necə bərkidi" romanını götürüb, başı üzərinə qaldırıb, kitabın qəhrəmanı Pavel Korçaginin "İnsan həyata bir dəfə gəlir" sözlərilə başlayan monoloqunu əzbər söyləyib, axırda qışqırtı ilə "Həyat mübarizədi, ay ciji!" – deyib, qışqır-bağırının axırında hönkürürdü, yekə dizlərini guppultu ilə döşəməyə çırpıb, yekə əllərilə anasının quru-taqqanaq üzünü qamarlayıb, "Sən də mübariz ol, ölmə, ay ciji!" – deyirdi. Belə vaxtlarda iflic arvad da dönüb Nər Bəsdi olurdu: "Ölmərəm, ay Nərim! Sən təki Nəri olan Nərin nə ixtiyarı var ölsün?!" "Ayağa duracam, səni də özüm aparacam Baxt cələsinə! Balalarımı da özüm aparacam!" – deyirdi... – Qorxaq tülkü Ehsan nə özü qapımızı açır, nə də oğlunu qoyur gəlsin. Qədirin qılıncının dalı-qabağı kəsəndə elçi gəldilər, nişan taxdılar, Qədir gedəndən sonra ayaqları kəsildi qapımızdan. Heç vaxt, heç vaxt kəlmə kəsmə onlarnan! Özünə güvən!" – deyirdi. Əmma axırda bu Nər Bəsdi – Xatun arvad da işləri korlayıb hönkürtüsünü qızının hönkürtüsünə qatırdı: "Çox üzmə özünü, ay gözümün işığı! Dədənnən barabar biz də sürülmüşük, ay işığım-çıraam! Dədən Sibirə sürülüb, biz evimizin içinə sürülmüşük! El içində eldən çıxarıyıq, ay işığım-çıraam!" – deyirdi. "Üzmə özünü, çırağımı söndürmə!" – deyirdi. "O barama da bir iş idi, Bəbir gəldi, döşündəki qızıl ulduzun hesabını verdirdi. Daha verməz ehsansız Ehsan – qorxaq tülkü! Allah kərimdi, ağlama, ay işığım-çıraam!" – deyirdi. Və hər iki Bəsdi bir-birinin səsinə, hönkürtüsünə qapılıb eşitmirdilər ki, bu vaxt hərəsi bir küncə, divar dibinə qısılan qızlar da xısın-xısın ağlayırdılar.

Bu axşamkı iclasdan sonra hər şey təkrar olundu: "Polad necə bərkidi" romanının hər iki gözündən kor olandan sonra da mübarizədən dönməyən qəhrəmanı Pavel Korçaginin monoloqundan başlamış, hərəsi bir küncə, divar dibinə qısılanların ağlaşmasına qədər təkrar olundu. Əmma axırda bir yeni kəlmə eşidildi:

– Gedirəm! Gedirəm! Gedirəm!

Sükut oldu. Sonra ordan-burdan qısıq-qısıq, təəccüblə soruşdular:

– Hara, ay Bəsdi? Hara gedirsən, ay Bəsdi?

Dedi:

– Rayona gedirəm! Raykoma! Leninin özünə şikat eləyəcəm! İcazə alacam!

Naşı adam Bəsdini, şübhəsiz, dəli sayardı. Əmma qızların təəccübünə ümid qarışdı.

– Həəə?! Özünə?! Bə əvvəl niyə getmirdin, ay Bəsdi? Get-get! – dedilər.

Çünki "Lenin" çox yaxşı bir adamın – raykom katibi Məmmədovun – "Mamed Mamedoviçin" ləqəbi idi.

"Lenin" yox, əslində ona "Bala Lenin" deyirdilər. Çünki, birincisi, boyu Leninin boyundan da balaca idi. İkincisi də ki, məlum məsələ idi, hökmü "Bala Lenin" – "bala rəhbər" hökmü idi – rayonun çərçivəsindən kənara çıxmırdı. Dildə-ağızda gəzən bir həqiqət vardı ki, Mamed Mamedoviç qonşu rayonlara, Bakıya, Moskvaya işi düşən adamları kabinetinin kandarından o yana buraxmırdı. Eynilə Lenin kimi, sol əlinin baş barmağı kostyum jiletinin sol tərəfinə ilişikli, sağ əlinin iti, qəti – kəskin hərəkəti ilə, gələn adam uzaqdan-uzağa geriləyib: "Gəlməyin, yoldaş! Xahiş edirəm, gəlməyin! Mən yalnız və yalnız öz rayonum çərçivəsində işləyirəm! Və kənar işlərlə vaxtımı alanları bəri başdan rədd edirəm!" – deyirdi. "Rayonun çərçivəsində" isə "Fəhlə-kəndli, – proletariat üçün canımı da qurban verərəm! Qolçomaqlar yaxın gəlməsinlər mənə!" – deyirdi. "Qolçomaqlar", yəni hər hansı az-çox gəlirli sahədə işləyən, varlı sayılan adamlar. Niyə? Çünki "Siyasi məsələ" "pantürkizm, türkpərəstlik üstündə sürgün başlandığı vaxtacan, yəni keçən ilin əvvəlində həm də sinfi düşmənləri", "qolçomaq" sayılanları tutmağa başlamışdılar. Otuzucu-otuz üçüncü illərdə kəndlərdə kolxoz qurulanda tutulan "qolçomaqlar"ın tutulmaqları nə qədər təbii görünürdüsə, iyirmi ildən sonra – əllinci ildə birdənbirə yekə "sinfi düşmən" – "qolçomaq" söhbəti heyrətləndirirdi: "Qolçomaq hardadı indi?!", "Hamı – sovet adamı! Kolxozçu! Fəhlə! Sinfi düşmənmi var indi?!" – deyrdilər. Və əlbəttə, haqlı idilər. Bundan başqa, danışırdılar ki, Azərbaycandan kənarda – Ermənistanda, Gürcüstanda və bütün başqa respublikalarda belə

şey yoxdu; təkcə burda – Azərbaycanda, özü də sorğu-sualsız, eynilə Qədir müəllimi tutduqları kimi, istintaqsız-filansız tutub basardılar. Mirzə Mərəz deyirdi: “Açığı, qolçomaq-zad bəhanədi, məsələ yenə türk üstədi. Şəxsən Satlin yoldaşın göstərişidi. Kim özünü türk sayırsa, bəri başdan çəmadanını hazır saxlasın...” “Şikayət qəbul olunmur”, “Qədiri necə apardılar, bax o cür, gecənin yarısında qara dustaq maşını gələcək!.. “Mirzə Mərəzin bunları nədənsə çox tez-tez təkrar eləməyi, əlbəttə, səbəbsiz deyildi. “Bağlıyam” deyənlərə kinli baxırdı, “Aralıqdanam” deyənləri, necə deyərlər, bağrına basardı: “Ayıq olun, özünüzü güdaza verməyin bəzi-bəzi adamlar təki!” Bu cəhətdən Mirzə Mərəzlə Mamed Mamedoviçin arasında yaxınlıq hiss olunurdu: hər ikisi zəmanənin ab-havası ilə yaşayan adamlardı. “Mən, Bala Lenin adlandırılan, yalnız Lenindən almışam dərsimi. Xalqa qurbanam! Xalqımı soyanların qənimiyəm!” – və sairə. Bir qədər təbliğata oxşayan belə-belə gurultulu sözlər ilk baxışda narazılıq, hətta ikrah doğursa da, Mamed Mamedoviç çoxdan sübut etmişdi ki, doğrudan da, kasıbın pənahı idi. Hər hansı bir kolxozçu və ya fəhlə, hər hansı bir kolxoz sədrinə və ya sovxoz direktoruna nə isə kəskin tələbkar bir söz deyirdisə, aydındı ki, bala Leninə arxalanırdı. Bəsdi iclasın axırında: “Görərsən neyliyəcəm?!” – deyəndə və qızlara: “Gedirəm!” – deyəndə də, aydındı ki, arxalandığına arxalanırdı.

Başdan-ayağa tər içində, bir az da təngnəfəs olduğuna baxmayaraq, bir dolça su da içməyib cijisinin o üzündən, bu üzündən öpüb: “– Darıxma! Hər şey yaxşı olacaq!” – deyə, çıxıb, toranlıqda ağaran duzlağın arası ilə iki qala xətt kimi bozaran yola doğru getdi.

Bütün rayonda hamı bilirdi ki, gündüzlər Mamed Mamedoviç heç yarımca saatlığa da raykomda, kabinetdə oturmurdu. Tufan idi, çovğun idi Mamed Mamedoviç səhər lap tezdən “Popeda”sına minib, idarələri, müəssisələri, kolxozları, sovxozları sürətlə gəzə-gəzə, iş üstündə tapmadığı və ya naxal bildiyi rəhbər işçilərin “dədələrini yandıra-yandıra”, bir də ilkindi çağı qayıdardı. Dildə-ağızda gəzən söhbətlərdən hamı bilirdi ki, axşamlar bir-iki saat yuxusu vardı. Yatıb-qalxıb “Mir Cəfər Bağırov kimi” kabinetdə yalnız gecələr işləyərdi. Bakıdan – Mərkəzi Komitədən kim isə zəng vurub: “ Kişi getdi” – deyəndə Mamed Mamedoviç də, nəhayət, cavan, gözəl, əmma uşağı olmayan istəkli arvadının üzünü

görməyə gedirdi. Bəsdi onu “gecə işi” vaxtı görmək istəyirdi. Buna görə də tələsirdi.

Bağlı ilə rayon mərkəzinin arasındakı duzlaqdan keçən o kəsə yolda piyada adam çox az olurdu. Kolxozun bir yük maşını ilə traktora qoşulan lafet briqadaları hər səhər “iki-üç ayaq” o yolla “pambığa” – sahələrə daşıyırdı, hələ bir də hərdən bir-iki ay aramsız “drenaj” qazan buldozerlərlə “kanala kopatel”lər – nəhəng kotanlar görünürdü. Qalan vaxtlarda bu yolda kimsəsizlikdən ürək sıxılırdı, cırcıramaların cırıltılarından qulaq tutulurdu.

Təkliyi – kimsəsizliyi Bəsdi bir xeyli iti gedəndən sonra bir anlığa nəfəsini dərib arxaya baxanda hiss etdi. Muğanın taxta hamarlığında elə bil çökəyə batmış kəndin yalnız damlarının və ağaclarının başlarını görüb, attestat paylanan günü məktəbdən ayrılanda, partasına sonuncu dəfə baxanda olduğu kimi, köksünü ötürürdü; burda birinci dəfə duydu ki, Bağlını çox istəyir. Yazıq Dədə, “sürgün” adlanan, “Sibir” deyilən o uzaqlıqda, təklikdə-tənhalıqda necə dözürdü?! O qara maşının, səssiz-ünsüz, hətta cırcıramasız, dəhşətli bürkü gecədən bir gün əvvəl, bütün kənd yatandan sonra Bəsdini yuxudan oyadıb, neft lampasının fitilini qaldırıb: “Qulaq as, sözüm var, – dedi. – Bəbir əmin dünən Şəkidən rayonumuza gəlib, bir nəfər iş bilən, sözü keçən adama əlli min manat verib, mənim Sibirə sürülməyim barədə “Şəxsi iş” qovluğumu açdırıb, üstünə yazdırıb: “Əlavə istintaqa ehtiyac olduğuna görə həbs tədbiri qeyri-müəyyən vaxta təxirə salınsın”. Qol çəkib, möhür vurub o adam. Bəbir əminə tapşırıb ki, bundan əlavə, Mir Cəfər Bağırovun adına ərizə – məktub yaz: “Mən, Sosialist Əməyi Qəhrəmanı Bəbir Bağlı şəxsən sizə, atamıza, rəhbərimizə söz verirəm ki, kiçik qardaşım Qədir Bağlının tarix fənnindən dərs dediyi zaman yol verdiyi siyasi səhvlər bir daha təkrar olunmayacaq. Əksinə, qardaşım Qədir Kommunist Partiyasnın siyasi platformasını rəhbər tutaraq, xalqımızın mənşəyi və tarixi haqqında həmişə, hər yerdə yalnız doğru fikirlər söyləyəcək”. Bunu bir yerdə yazdıq əminnən. Konvertə qoydu. Qərara gəldik ki, Mərkəzi Komitənin məktublar şöbəsinə etibar yoxdu, əmin özü aparıb Bağırovun şəxsən özünə versin. Əmma elə həyətə çıxandaca qaranlıqdan iki adam çıxıb, paqonları əllərində: “Verin o məktubu!” – dedilər. Bax, belə işlər var, qızım. Zaftalı Bəsdi yox, sən mənim Nər Bəsdimsən. Anan savadsızdı,

nərliyi birtərəfli idi. Sən hərtərəfli olacaqsan. Əmma yadında saxla ki, ali məktəbə – instituta, universitetə səni yaxın da qoymuyacaqlar: sinfi düşmən övladlarının ali təhsil almasını qadağan eləyib cəlladımız – Stalin. Əmma mən istəmirəm ərsəyə çatdırdığım oğul əvəzi qızım kor qalsın. Atanın nəyə görə düşmən sayıldığını bilməlisən sən. Çünki dünya belə getmiyəcək. Yer üzündə bütün ölkələr millətimizi qırıb-tökən Stalini də yaxşı tanıyırlar. "Soratniki Stalina" deyilənləri, o cümlədən, Bağırovu da lap yaxşı tanıyırlar. Faciələrimizi bilirlər. Heç şübhə eləmə ki, tezliknən də quruluşu yıxacaqlar. O vaxt kimlər gələcəklər hakimiyyətə? Dostmu olacaqlar, düşmənmi? Bax bunu sən özün üçün müəyyənləşdirməyi bacarmalısan. Buna görə də sənə bir kitab verirəm. Ruscadı: İsa Quseynov – "İstoriya İslama!" Bizim uzaq qohumumuz olub bu İsa Hüseynov. Qazax qəzasından. Padşahlıq kəndindən. İyirminci ildə Stalinin Azərbaycandakı gizli "soratnik"ləri zəhərləyib öldürüblər. Kitabı yandırıblar. Əmma əlyazması durur, deyirlər. Bu, o əlyazmasından köçürülüb. Bir az çətin oxunur. Bəzi çətin anlaşılan məlumlar da var. Əgər Bəbirin o pulunda bir hikmət olsa, işim doğrudan da təxirə salınsa, özüm oxuyub başa salacam.

Heyif, rusca-azərbaycanca lüğətimiz kasatdı, mənsiz oxuyası olsan, Ehsan əmiyin evinə get, o kömək eləsin. Oxu, bil atanı nəyə görə sürüblər. Bil, millətimizi kimlər qırırlar, niyə qırırlar?. Əsas bəlamız budur ki, qədim dilimizdən, qədim həqiqətlərimizdən ayırıblar bizi. OdƏr olub bu dilimizin əsası. Görürsənmi necə qəribə yazılıb. OdƏr iki sözdür. Od – kainatın energiyasıdır, həqiqət mənasında işlənir. Ər – işıq və insan mənasında işlənir. OdƏr – həqiqət işığı deməkdir. Həmin həqiqət işığı – OdƏr dilində ƏsƏlMən sözü var. Əs – əsən, hərəkət edən, yaradan qüvvədir, Əlim isə – işləyənim, oğlum deməkdir. ƏsƏlMən – mənim yaradan oğlum deməkdir, başqa dillərdə təhrif olunub, Solomon, Süleyman şəklinə düşüb. ƏsƏlMənə ƏsƏlimə də deyirik. Biz türklər həmin Solomon, Süleyman deyilən ƏsƏlMəni nəsliyik. Tariximizin ən qədim dövrlərində indiki Qreklər – KurAğ (yəni Kur Saf Ağ – təmiz insanlar) adlanıblar, bir çox qəziyələr üzündən bizdən ayırlanda Kur Ağa – Qrek deyiblər. Qreklərdən sonra farslar, ərəblər ayrılıblar bizdən. Fars, EvƏrə (İşıq evinin yaradanı) sözünü Pers, Pars, Fars şəklinə salıblar. OdƏr dilini "dəri" dili şəklinə salıblar.

BağOdƏr (Odərlərin Bağı, yəni “Boq”u) sözünü həm Pədər, həm də Madər şəklinə saılblar. Müharibələr, qan-qırğınlar nəticəsində sərhədlər içində qalıb ilk nəzərdə tamam başqa dildə danışan xalqa çevriliblər. Həqiqətdə isə Qrek də bizdəndi, Fars da, Ərəb də, bütün başqa xalqlar da. Yer üzündə vahid ƏsƏlMən – Süleyman səltənəti olub, qızım. OdƏr xalqına düşmən kəsilənlər çox yaxşı bilirlər ki, bizim qədim adımız Türk deyil, Azər deyil, OdƏrdir, vətənimizin ən qədim torpaqlarından tərik salındığımıza görə TərikMən, TürkMən – Türk adlanmışıq. Bax o vaxtlar da Əsəlim sözünü “İslam” şəklinə salıblar, peyğəmbərimiz BağHəmOda (vahid həqiqət Bağına) Muhummməd, Məhəmməd deyiblər. “İstoriya İslama” kitabı, əslində OdƏr xalqının və dünyamızın tarixidi, qızım...”

Kitabı qara ipək parçaya büküb: “Sən fəhmli balamsan, özün xəlvəti yer seç, saxla, gecələr oxu, – dedi. – Anannan da söhbət eləyim, paltarımı dəyişim, hazır olum səfərə” – dedi. İkinci neft lampası yandırıb ciji ilə tutun altına getdilər, hava ağarana qədər orda söhbət elədilər. Səhərisi Bəbir əmi: “Öpüşmüyək, ayrılıq olmayacaq!” – deyib, maşınına minib Şəkiyə getdi. O günün axşamı evdə heyrətli narahatlıq başlandı; ciji nə çörək yedi, nə çay, su içdi. “Yuxusunu görmüşəm! Ayrıldıq, ay Qədir! Ayrıldıq!” – deyə vurnuxa-vurnuxa qaldı. Gecənin yarısında həyətdə qara maşın dayananda və iki nəfər zorba erməni qapını açıb: “Gəl! Gəl!” Musurmanın baxtı bağlandı! Gəl!” – deyib, ailənin sevimli başçısının qollarına girib, sürüyüb maşının dal qapısından içəri itələdilər. Ciji bircə kəlmə, astaca: “Vay!” – dedi və yıxıldı. O gecə Bəsdi hələ bilmirdi ki, anasının hər iki qıçını və sol qolunu iflic vurmuşdu. Qızlar köməkləşib, qaldırıb arvadı çarpayıya yıxdılar, dövrəsində oturub səhərə qədər ağladılar. Bəsdi isə Ehsan əminin də tutulmağından qorxub, səhərin qara qaranlığında yüyürüb, dərəçiçəklilərin evlərinin arasındakı təzə mülkdə hər şeyi Elxana danışıb: “Görün neynirsiniz?” – dedi. Neylədilər? Məlum deyildi. Məlum olan bu idi ki, Elxan o yay günlərində rayona və Bakıya bir neçə dəfə “ayaq döyəndən sonra” Moskvaya, Lomonosov universitetinə qəbul olundu. Ehsan əmi isə “ayağını qardaşının evindən kəsib” sədrliyində qaldı.

## 3

Bir anlığa nəfəsini dərib geriyə-çökəyə düşmüş kimi yalnız damları və ağaclarının başları qaralan kəndə baxanda Bəsdi məhz yuxarıdakıların xatırladığına görə təklik-tənhalıq duydu. Və nifrət elədiyi bu tənhalıq hissindən yaxa qurtarmaq üçün cəld dönüb yenə iti addımlarla, yenə qan-tərə bata-bata gedib, duzlaqdan çıxıb, bir də ucsuz-bucaqsız kimi görünən pambıq sahələrinin başlandığı yerdə ayaq saxladı. Sıxıntılı tənhalığı bir növ köyrək, hətta qəhərli qəribliyə çevrilmişdi. On-on altı yaşlarında, "səhər smenində" oxuduğu vaxtlar günün ikinci yarısında tutun altındakı üç metr dərinliyində ərzaq quyusundan ağzı tənziflə bağlı vedrəni qarmaqla çəkib, bir bidon sərin ayran götürüb, həmin bu yolla gəlib, bu sahələrdə işləyən alabəzək geyimi qız-gəlin arasında cijini tapıb, dərhal elə ordaca, bidonun qırağından ayran içməyə məcbur edərdi, talada, ulğun kölgəsində bir az oturub dincini alıb özü kimi balaca kətmənini – toxasını götürüb, anasının toxaladığı qoşacərgə kollarına yanaşı qoşacərgəni toxalamağa, yəni suvarmadan sonra ot-alaq basmış torpağı çapa-çapa, qazıya-qazıya, cərgənin axırına çıxmağa, təzə cərgə toxalamağa tələsirdi. Balaca idi o vaxt. On üç-on dörd yaşından sonra bu pambıq cərgələrinin arasında Nər Bəsdi – Xatundan birbaş hündür duran nəp-nazikcə bir qız işləyərdi. Bir-iki il sonra isə o nazikcə qız enliləşməyə başlayıb, Xatundan – cijisindən iki dəfə böyük nəhəngə döndü. Həmin bu vaxtlar da dediqodulu qız-gəlinlər orda-burda pıçıldaşa-pıçıldaşa bütün kənddə qəti bir rəy yaratdılar: "Zaftalını alan olmuyacaq". Və bu rəy çox inandırıcı oldu: "Hardan tapılacaq bu boyda kişi ki, tən gəlsin bunnan?!" Əmma tapıldı: Əmioğlu Elxan rayon mərkəzindəki "russkaya şkola"nı qurtarıb, sonralar özünün etiraf etdiyi kimi, səbri çatmadığına görə həmin bu sahəyə əmisi qızı ilə görüşməyə gələndə Bəsdinin qızıl kimi işıq saçan üzü ilə üz-üzə, "canalan gözləri" ilə göz-gözə dayananda dedi: "Afrodita!" Bəsdi yaxşı oxumuşdu onillikdə. Yunan-Qrek əsatirinin gözəllik ilahəsi Afroditanı yaxşı tanıyırdı. Elxanın heyrətdən pəltəkləyən dilindən "Afroditaan"nı eşidib, əvvəlcə tutulub, sonra içindən yavaş-yavaş baş qaldıran xoşbəxtlik hissi ilə için-için gülüb, sonra birdən-birə lap ucadan

qəh-qəh çəkib, sağ-solunda, yaşıl cərgələrin aralarında, əllərində kətmənləri – toxaları quruyub qalmış qız-gəlinə baxdı: "Həəə, indi nədi sözünüz!" – dedi, – Öldünüzmü?! Canınız çıxdımı?!" – dedi. Sonra Elxana döndü: "Əmioğlu, yarımçıq danışma! Sözüyün dalını de, bu paxıllar partlasınlar!" Elxan pörtsə də özünü qısmadı: "Vuruldum, əmiqızı!" – dedi. Heç bir həftə də çəkmədi qardaş qardaşın evinə elçi gəldi, "söz açdı", şərbət içdi və Bəsdinin barmağının ölçüsündə düzəltdirdiyi nəhəng üzüyü taxdı, o üzündən, bu üzündən, alnından öpdü, "Xoşbəxt ol, mənim gözəl gəlinim!" – dedi. İndi isə... indi isə "gözəl gəlininin" qapısını da açmır, cijisinin əhvalını da soruşmur!.. Harda qalmısan ey Nər Bəsdinin Nər Elxanı?! İnstitutlarda sessiyalar qurtarıb, tələbə oğlanlar, qızlar Bakıdan, Gəncədən axışıb kanikula qayıdıblar. Saatlıdan, Sabirabaddan Bakıya sazəndələr, müğənnilər gəlib gecədən keçənə qədər çalıb-çağırırlar. Dərəçiçəklilər məhləsindən Bağlıların hamısının Alı əmi dedikləri yüz yaşlı Aşıq əminin həyətində erkək kəsib birinci kursu qurtaran dərəli uşaqları məclisə yığılırlar. Hər yerdə, hər yerdə şadlıqdır, yalnız Qədir müəllimin evi süküta batıb, bir də belə anlaşılmaz bədxah olmuş Ehsan əminin evində. Elxan niyə ləngiyir?! Gözləri doldu Bəsdinin. Ürəyi doldu, mahnıya, daha doğrusu, zümzüməyə döndü:

...Mənim bu günümdə gələsən, Nəbi,
Qazamat dalını dələsən, Nəbi!..

Elə dolmuşdu ki, mane olan olmasaydı, bəlkə lap şəhərə qədər oxuya-oxuya gedəcəydi. Arxadan eşidilən qəfil nal səsləri ürəyini soyutdu, mahnını kəsdi. Yorğa yüyrəkliyi, yumşaq, tarappıltıları ilə lap zülmət gecədə də uzaqdan-uzağa tanınan "Mirzə Mərəzin Əsanət dediyi at, belində Həmid, gəlib Bəsdinin sağında dayandı, balaca, qorxulu bir at da, belində Sarı Həmid, solunda dayandı. Boyca qardaşından iki dəfə balaca, arıq, çopur Bala Həmid, əlindəki şallağını yuxarı qaldırıb:

– Bunu görürsənmi?! – dedi. – Əsən əminin düşməni azdımı sən də bir yandan çıxdın?! Üzərdə biz də dalaşırıq onnan, siyasət eləyirik, düşmən göstəririk özümüzü. Əmbə xəlvətdə, kişiyə daş atanın başına qaya salırıq! Qayıt!

Bəsdi hiss etdi ki, belə qoşa gəlmişlə qardaşlar, deyəsən, zorakılıq eləyəcəklər, getməyə qoymuyacaqlar. İçərisi titrədi, kükrədi və Bəsdi qulac qolunu yavaşca qaldırıb, şallağın ucundan tutdu.

– Alımmı əlindən? Atına da, özünə də bir-iki çəkməmiş, qayıdın! Mənnən işiniz olmasın!

Qara Həmiddən gər qaqqıltı qopdu.

Elxanın "alma gözlü, qız birçəkli" dediyi Əsənat qəribə məhrəmliklə üzünü Bəsdinin əyninə sürtürdü. Qara Həmid isə qardaşından da kobud danışdı:

– A günü qara, başı yaylıqlı qız xeylağı, gecə vaxtı bu kimsəsizlikdə qorxmursanmı ki, məni təki zırpının biri böyründən çıxar, qolunu burar?!

Bəsdi yenidən kükrəsə də təhqirin ağırlığından doluxsundu.

– Sən təki zırpını mən tuman bağımnan bağlaram, a Qara Həmid! – dedi. – Heç xəcalət çəkmirsənmi, yerə girmirsənmi Elxanın nişanlısına belə söz deyirsən?!

Qara pərtləşdi. Duruxdu. Təəccüblə, astadan soruşdu:

– Bəs sən nişanı qaytarmırsanmı, ay qız?!

– Sən təki eşşəyin biri deyir onu! Eşşək!

Bəsdi yola baxdı. On kilometrlik yolun üç-dörd kilometrini gəlmişdi. İrəlidəki beş-altı kilometri bir-iki saata getsəydi, Mamed Mamedoviçi, yəqin ki, lap yaxşı vaxtda görərdi.

Qardaşlara baxıb, fikirləşib:

– Bildim əmim göndərib sizi, – dedi. – İnanın ki, ikiniz də atdan salaram! Dişimnən-dırnağımnan ölümcül eləyərəm! Əlimə, ayağıma dolaşmayın, qayıdın deyin qaytarammadıq!

Qardaşlar biri-birinə baxıb pıqqıldaşdılar.

– Eliyərsən, vallah, eliyərsən, əmbə qayıtmalısan, – dedilər. – Kişi özü də gəlir.

– Hə? Üçünüz birdən atlanıbsınız?!

Sarı dedi:

– Bəlkə qayınatanı da ölümcül eliyəsən?!

Qara dedi:

– Maşınnan gəlir kişi. Buraxmayacağam səni.

Sarı dedi:

– Bu atın bu rəşməsini görürsənmi?! Ora-bura eləsən əl-qolunu bağlayıb tullayacağıq maşının quzasına! Odu bax, gəlir!

Eynilə idarədən – iclasdan çıxanda olduğu kimi, Bəsdi sinəsində darlıq, təngnəfəslik hiss etdi. Bu "Qudurğan qardaşlar"a daha bir kəlmə də deməyib, boğula-bolğula yük maşınının gəlməsini gözlədi.

Maşın gəlib dayandı.

Əsən kişi kabinkadan düşüb, faraların gur işığında maşının qabağından fırlanıb gəlib, gözlənilmədən Bəsdinin biləyindən tutub yolun qırağına, pambıq cərgəsinin yanına çəkdi. Kollardan birindən üç-dörd dənə yarpaq qoparıb, Bəsdinin ovcuna qoydu.

– Bax, bax! – dedi. – Bax gör yarpaqdı, yoxsa xəzəl?!

Bəsdi istər-istəməz ovcunu yumub, yarpaqları barmaqlarının arasında ovuşdurub, açıq-aydın xışıltı eşitdi. Xəzəl xışıltısı!

Əsən kişinin səsində hətta qəhər vardı:

– Ay bala! Mən sənin düşmənin deyiləm, ay qurbanın olum! Xəzəldi əlindəki, xəzəl! Pambığın azı otuz-qırx faizi əldən çıxır! Üç-dörd gün də belə getsə, nolacaq axırımız?! Sənin hər ayına qırx əməkgünü yazdırmışam. Otuz yox, qırx! Yanvar, fevral, mart, aprel, may, iyun! Altı dəfə qırx neçə eləyir? İki yüz qırx əməkgünü! Pambıq əlimizdən getməsə, hökumət taxılımızı qaydasında versə, hər əməkgününə ikicə kisə buğda bölsək, yarım ton buğda qoyacaqsan o tifillərin başının altına! Pambıq olmasa nolacaq?! Bunu fikirləş sən! Su yoxdur! Vermirlər! Yoxdur! Mən bədbəxt elə buna görə deyirəm lap sənin o "cücələr"inə qədər uşaqlar da toxa götürsünlər, səhərin şirin yuxusundan durub gəlib, şehi qazıyıb kolun dibinə yığsınlar! Qozası ölür pambığımızın, a bala! Ümid bu şehədir. Nə yaxşı ki, bol şehi var Muğanın. Yoxsa heç ot da qalmaz burda.

Bəsdi duruxmuşdu. Tutulmuşdu.

– Ay əmi, yəni mənnən, mənim cücələrimdənmi asılıdı pambığımızın taleyi?! Necə yəni vermirlər?! Baş arxın suyu yerəmi girdi?!

Əsən kişinin əlləri əsirdi. Papiros çıxardanda kibrit qutusunu Bəsdiyə verdi.

– Yandır bu zəhrimarımı! – dedi.

Papirosu həris-həris çəkib, hələ tüstünü üfürməmiş, boğuq səslə:

– Kürün səviyyəsi düşüb. Su birə-iki azalıb. Baş arxa bircə baş su qalxır, onu da rus kəndi aparır!

Bəsdi lap çaşqınlaşdı.

– Bıyy! Həməşə bölüşdürmürdünüzmü suyu? İndi niyə bölmürsünüz?!

Əsən kişi səbirsiz idi.

– Sorğu-suala tutma məni bu yolun ortasında, gecə vaxtı Muğanda pıçıltı da eşidilir. Gedək evdə danışaram. Gəl min kabinkaya. Mən kuzada gedərəm. Gəl!

Yenə əlini Bəsdinin biləyinə atdı.

Bəsdi bir xeyli kişinin üzünə baxa-baxa qaldı. Sonra tutqun, qəmli:

– Mən sənin evinə getmərəm, əmi. Maşınına da minmərəm. Yoldan saxlamayacaqsan məni. Qorxma, şikat deyil məqsədim. Mamed Mamedoviçnən su barədə də danışaram...

– Nə?! Suyu rusa verən Mamed Mamedoviç deyilmi, a bala?!

– Niyə, əmi?!

– Mən nə bilim niyə?! Köpəkoğludu sənin bala Leninin! Bəbir əmindən yüz min aldı, geroyluq verdirdi. Sonra əlli min aldı, sənə üç plan barama verdirdi. Mir Cəfər Bağırovdan gizlin eləyib ey, başa düşürsən?! Mərəzin də ağzına tullayıblar. Əmbə elə Mərəz kimi dələduzun biri dinc durmayıb birbaş Stalinə yazıb ki, üç becərmənin baramasını bir becərmə adına üç yüz faiz olan ödəniş kimi təhvil veriblər, düzü-dünyanın pul mükafatı, ipək, şal, çit mükafatı alıb bölüşdürüblər. Stalin zəng vurub Bağırova ki, sənin xalqın səni alladıb. Hökuməti soyur, sən də bunu görmürsən?! Dəli olub Bağırov, zəng vurub buna – Bala Leninizə ki, bizi niyə biabır eləmisən?! Bu da deyib, biabır eləyən hamımızın istəklisi Sosialist Əməyi Qəhrəmanı Bəbir Bağlıdı, yoldaş Bağırov! Ulduz döşündə, dillənənin ağzının üstünə şapalaq çəkir. Bəbir ha! O sakit, sığallı Bəbir! Çağırıb Mir Cəfər Bağırov, Mərkəzi Komitənin büro iclasında ulduzu qoparıb əmiyin döşündən, “Podsud!” –deyib, podsud verib!

– Əmmi?!

– Bəli, ay yazıq, bədbəxt bala!

– Bə bunu niyə demirsən mənə bu vaxta qədər?!

– Deyiləsidimi deyim, ay nadan bala?! Qədirin dalınca gedib bədbəxt Bəbirim! Sibir bəri yanında qalıb! Allah bilir, bəlkə heç səlamət deyil!

– Vaaay! – Bəsdinin gözləri birə-iki böyümüşdü. – Əmi!.. Əmi!.. Bə bu Bala Lenin-filan nədi?! Niyə Lenin deyirlər belə adama?! Heç inanmıram, əmi!

– İnandın, inanmadın, faktdı – köpəyoğludu!

Əsən kişi əlini atıb koldan yarpaq qopartdı, hirsli-hirsli əzişdirib yerə çırpdı.

– Budu fakt! Xəzər boyu, Araz boyu düzüblər rus kəndlərini, o tay Azərbaycanla bu tay Azərbaycanın arasında Qan səddi çəkiblər. Rusu çiçəkləndirirlər, Bağlının ruzusunu kəsirlər; sonra da gedər-gəlməzə göndərirlər! Qandınmı, ay nadan balam! Sürəcəklər hamımızı! Bir möcüzə olmasa...

Bir müddət atların fınxırtılarından, gəm[1] cingiltilərindən başqa heç nə eşidilmədi. Sonra Əsən kişi astadan, yorğun-yorğun, qardaşlara nə isə deyə-deyə hər ikisini Baş arxa – dəhnəyə göndərdi ki, Mamed Mamedoviçin çox sevdiyinə görə camaat arasında Mamedovka adlandırılan rus kolxozunun cuvarından "yarım baş" da olsa su qoparsınlar.

Nal səsləri kəsiləndə Əsən kişi şoferə:

– Sən də get. Yat, düz dörddə ayaq üstə ol. Düz beşdə camaat iş üstə olsun, – dedi.

Maşının tırıltısı, taqqır-tuqquru da uzaqlaşıb getdi. Qayınata ilə gəlin fikir içində, hərəsi yolun bir cığırı ilə ağır-ağır qayıtmağa başladılar. Yazıq Bəsdi qayınatasından nələr eşitmədi?!

– Sizin keçiləri qızlar özləri otarırdılar... tanıyırsanmı əyri Matveyi Mamedovkada? Bir ayağı gödəkdi. Əyilə-əyilə gələndə bir verstilikdən tanıyıram ki, gələn Matveydi. Oğlu laldı, bunu bilirsən. Gəldi yalvardı, bizə çobanlığa verdi oğlunu – Lal Rusu. Qədir sürüləndən sonra Əyri gəldi, dedi sənin yaxşılığınnan çıxammıram, Asancan, Kadırın körpələri çöllərdə əziyyət çəkirlər, keçiləri ver oğlum otarsın, mənsilini[2] də yığsın, yağını yağ, pendirini pendir eləsin. Gəldi keçiləri apardı Lal. O vaxt nə soruşdu o səndən, əlinnən, qolunnan başa sala-sala, dedimi ki, icazə ver nökəriniz olum, odun daşıyım qapınıza, çələdən ot biçim, torpağınızda noxud əkim, aparım Pivə Məcidə satım, pulunun üçdən bir payı mənim, iki payı

[1] Yüyənin dəmir hissəsi
[2] Məhsul

sizin? Razı oldun. Lal gədə oldu evinizin məhrəmi. İndi gör neyləyib o Lal... Gecələr sən harda oxuyurdun İsa əfəndinin kitabını, – damda, axurda, qara çırağın işığında. Bütün qışı yaza qədər Lal orda axuru təmizləyəndə, keçilərin qabağına arpa, palıd tökəndə sən heç fikir verirdinmi ona? Yox! Bir diziyin üstündə kitab, o biri diziyin üstündə lüğət! Sonra kitabı ipəyə büküb qoyurdun damın harmasında, üstünü torpaqlayırdın. Düzdü? Onda heç ağlına gəlmirdimi ki, Lal Rus görür hər şeyi?! Əyri Matvey məni necə alladıbsa, oğlu da səni, məni eləcə alladıb, ay yazıq balam! Yaz açılalı keçilər eşikdə yatır, Lal da keçilərin yanında. Damın qapısı bağlıdı. Getmirsən, oxumursan daha. Bilirsənmi hardadı "İstoriya İslama?! Mən də bilmirəm. Əmma Mərəz qıpqırmızı, gözümün içinə dedi: "Millətimiz İslam dininin içində gizlənəmməyib. Açılıb-tökülüb ki, türk heç də müsəlman deyilmiş. Sən bilərsən, necə olub bu, ay Əsən kişi?!" Böyük Həmid göz qoymuşdu, bilirdi kitabı harda saxlayırsan. Getdi baxdı, gəldi dedi: "Evimiz yıxılıb, ay əmi, kitab yoxdu, Lal Rus da yoxa çıxıb. Matvey danır, deyir bilmirəm oğlum hardadı, biz də axtarırıq, tapammırıq. Əmbə Mərəz gizlətmir. Deyir Lal Rus odu ha KQB-nin həyətini süpürür!.. Bildinmi iş nə yerdədi, nadan balam!..

Bir müddət susub, ayaqlarını sürüyə-sürüyə, hərdən "ah", "of" "vay" deyə-deyə getdilər. Kəndə yaxınlaşanda Ehsan kişi sonuncu xəbəri dedi:

– Ağlama, Nər balası. İradənii topla, çalış sınma. Elxanımız da yoxdu! Bunu da birbaş Stalinə yazıblar ki, Bağ nəslindəndilər, orda – Lomonosov Universitetində oxuyan azərbaycanlılar, türkdülər, özü də adi türklərdən yox, Ağ Türklərdəndir. Heç silist – istintaq-filan da olmayıb. Bala Leninimiz Mərəzi çağırıb dişinin dibindən çıxanı deyib: "Sən nə kommunistsən ki, kommunizmin dostunu düşmənindən seçəmmirsən?!" "Yox!" – deyib. Gürcüstandan, Ağ Təhlədən, Borçalıdan, Başkeçiddən başlayıb Lerikə qədər "Türk böyükləri" dedikləri Ağların siyahısı tutulub bizim bu Mirzə Mərəz təkilərinin əllərinnən... Demək istərdim ki, dərdimiz tək Qədir, Elxan dərdi deyil, ay bala!.. Döz!.. Görək axırımız nə olacaq... Cənubumuz Fars tapdağında! Türkiyəynən əlaqəmiz yox! İsrayıla guya dövlətçilik veriblər! Həqiqətdə salışdırıblar Ərəbnən! Qanqırğın yerdən-göydən çıxıb!

Rusiyadakılarımız hamısı düşmən olub, tanıyan-bilən də yoxdu, nədi bu Azərbaycan, Türkiyə deyilən, kimdi bu Türk deyilən?! Süleyman səltənətinin bir vaxt – Atabəylərin zamanında gizlin varını da yerli-dibli danırlar! Çox nahaq yayıblar bizimkilər o kitabı! Millətin başına bəladı bu saat elə yazı-pozular. Yoxuq daha, qızım, yoxuq! Get yat, yata bilsən. "Axşamın xeyrindən sabahın şəri yaxşıdı" – deyiblər. Sənə deyiləsi sözüm çoxdu. Lap çox!.. Gözüyün altına al ki, mən də Elxanımın dalınca gedəcəm, dərəçiçəklilər də... Mərəz deyir mərkəzdə hər gün müzakirə gedir, kim sürülsün, kim qalsın. Əlləri toxalılar qalacaqlar, qızım. Səbirini itirmə, işlə! İşlə! Bacılarını da işlət. İmkan olan kimi savadını artır, çalış post tut – rəhbər vəzifə! Mədəd ol bədbəxt millətimizə!..

Ehsan kişi hələ çox danışacaqdı. Əmma elə orda – yoldaca yaxaladılar.

– Ay qanmaz musurman, nə danışırsan! Ara, keçən il qardaşını aparanda demədimmi musurmanın baxtı bağlanıb?! Türkü qaraceyıx, eli!..

– Haman iki nəfər əvvəlcə Ehsan kişini qara maşına basdılar, sonra Bəsdini.

Tik-tuk, tık-tuk! Tık-tuk, tık-tuk! Təxmini hesablamaya görə bir ay, gecə-gündüz bu səsdən başqa heç nə eşidilmədi. Eşalon dayanandan sonra vaqonun "peredvijnoy" qapısı yana çəkilib açılanda külək vıyıltısı və toz içindən qışqırtılar eşidildi:

– Slezayte! Slezayte! Vıxodite! Eto koneçnaya! Vıxodite!

Kiminsə dediyinə görə "kak selyodka" döşənmiş kişilər, qocalar, qadınlar, qarılar, cavanlar, uşaqlar hərəkətsizdilər. Sonradan-sonraya vaqonlardan tək-tək skeletlər tərpənib, sürünüb yerə düşdülər. Başı ülgüclə qırxılmış, hamıdan uca duran bir skeletin yalnız gözlərindən bilinirdi ki, bu qadın imiş...

# DAN ULDUZU

## 1

“Dünyadır, bir yandan boşalır, bir yandan dolur”, – deyirlər. Başqa cür də deyirlər: “Süleymana qalmayan dünya sənə də qalmaz”. Bu sözləri mən elə-belə xatırlatmadım. Min doqquz yüz otuz ikinci ilin səhəri açılar-açılmaz, hələ hava qaranlıq ikən, demək olar ki, eyni vaxtda – bircə dəqiqənin içində baş vermiş hadisələr yadıma düşər-düşməz, yuxarıdakı sözləri və o qəbildən olanları da xatırlayıram. Məsələn: “Torpaqdan yaranmışıq, torpağa gedəcəyik”, “Hamımızın yolumuz ora (yəni “Axirət”) deyilmi, ay oğul, niyə fikir çəkirsən?..” və s. Amma fikir çəkməmək olurmu?! O il – min doqquz yüz otuz ikinci ilin yazında, lap alatoranda əvvəlcə kim isə dedi: “Dan ulduzu doğuldu”. Bu qadın səsinin Tamam nənəmin sözünün ardınca çağa qışqırtısı eşidildi: bizim dildə Dan ulduzunun – ərəbcə Zöhrənin qışqırtısı: “İnqə... inqə...”si. Yəni Zöhrə anadan oldu, həmin dəqiqə də Tamam nənənin vay-şivəni başlandı... “Vaay, yazıq olan balam!” – yəni Zöhrənin anası Zöhrə xala öldü. Bunun dalınca bizim o vaxtkı “nemes” qəsəbəsi və üz-üzə xır yolunun o biri tərəfində tikilən Sərkərli qəsəbəmizin ara-bərəsindəki cökə ağaclarının birinin yanında dalbadal üç güllə şaqqıldatdı: mənim atamı, “qolçomaq” deyilən, ağlayanda anamın dediyi kimi, “at ağızlı, nər budlu” nər kişini Gepo Çəpər deyilən qəribə adlı adamla yanındakı işçilər ağaca söykəyib beşaçılanla güllələdilər. O vaxt mənim altı yaşım vardı, yəni az-çox ağlıkəsən vaxtımdı. Anam ağlaya-ağlaya atamın dalınca evdən çıxanda mən də çıxmışdım. Atamı alatoranda itələyib ağaca söykədiklərini də gördüm, əvvəlcə Gepo Çəpərin beşaçılanının, sonra iki yoldaşının beşaçılanlarının lülələrindən qırmızımtıl od püskürdüyünü də gördüm, atamın lap aydın səslə: “Qırılacaqsınız, a köpəyuşağı!” “Qırmayın camaatı, a köpəyuşağı!” – deyə-deyə ağacın gövdəsindən qopub irəli yeriyə-yeriyə çığırdığını da eşitdim.

...Mən sonralar bildim ki, bu Gepo Çəpər deyilənin adı əvvəlcə başqa imiş: Məhəmməd. O anadan olan gecə ekiz qardaşı da anadan olubmuş. Xoşbəxt ata böyük oğlunun, yəni bir saat əvvəl anadan

olanın adını Məhəmməd qoyandan sonra ikinci uşağın da oğlan olduğunu görəndə: "Əli!" – deyib. Amma Məhəmmədlə Əli böyüyüb komsomol olub. "Qazax şəhərində maldarlıq texnikumunu qurtarandan sonra böyük oğul – Məhəhmməd "Gepo" vəzifəsinə çəkilib, kiçik – Əli isə kəndə "Bedkom" göndərilib və bununla da hər şey, o cümlədən, qardaşların adları da dəyişib: Gepo Çəpər, Bedkom Çəpər. Atamı güllələməyə o ikisindən başqaları da gəlmişdilər. Atam üzüüstə yıxılanda anam da yıxılmışdı. Amma anam çox güclü qadın idi, tez ayağa qalxıb Gepo Çəpərin belinə bir təpik vurub atamın meyitinin yanına yıxdı, tüfəngi qapıb Çəpərin çiyninə bir güllə atdı. Bundan sonra anamı da güllələdilər. Deyirəm, altıca yaşım vardı, amma Zöhrənin anası ilə anamın, atamın yanaşı qəbirlərinin üstünə yağan selləmə yağışın yumşaq torpaqda saldığı nazik cığırlara, o vaxtkı və indiki kolxoz sədrinin – Gepo Çəpərin qardaşı Çaparın arvadının Zöhrəni – Dan ulduzunu Tamam nənənin qucağından zorla alıb, iri, qabarıq döşünün ucunu körpənin ağzına saldığı da gözümün qabağından getmir. Aradan on doqquz il keçdi. Nənəm Çapar kişinin qızı Lətifəni bizim evə gətirdi, qapını arxadan zirzələdi: "Qəzanı hökumət elədi. Sizə dəxli yoxdu. Söhbət eləyin!" – dedi. Və hər ikimizin qulaqlarına çoxlu sözlər pıçıldadı: "Allahtəala bu günümüzə xüsusi sözlər yazdı: "Siz qanı yumalısınız. Böyüyəndə evlənməlisiniz. Oturun. Sarı balam sənə yaxşı-yaxşı sözlər deyəcək, Lətifə balam..."

Lətifə qumral, bir az gombul, gözəl qız idi. Gözlərini yekə-yekə açıb, üzümə baxıb, elə bil acıqla: "Hə, de görüm nə deyirsən? Atanı, ananı biz ha öldürməmişik! Sən öz sözünü de!" – dedi.

Mən isə dedim: "Oxuyaq, məktəbi qurtaranda evlənərik". Vəssalam. Daha heç nə danışmadıq.

Qapıdan çıxanda Lətifə azacıq qımışdı. "Axşam bizə gəl, aş bişirəcəm", – dedi. Axşama qədər bu səs qulağımdan getmədi.

Axşam isə Lətifə özü həyətə çıxıb məni divarın dibinə çəkdi. "Məni öpməsən aşı iştahnan yeyəmməzsən", – dedi.

Mən öpdüm. Özü də nədənsə lap çoxlu-çoxlu öpüşdük. Sonra da aşdan çoxlu yedik, beləliklə, nənəmin təkidilə "atamın, anamın qanı yuyuldu".

Bütün kənd mənə "sağ ol" dedi. Amma bunlar hamısı nənəmin əməli idi, sözləri ürəkdən gəlirdi: "Şuranın qanı tökülsün! Bizim bədbəxtlərin nə günahları var!" – deyirdi.

Bunlar, necə deyərlər, köhnə əhvalatlardır. Keçirəm təzələrə.

On dörd il keçdi. Yəni Lətifənin iyirmi, mənim iyirmi beş, Zöhrənin isə on doquz yaşı tamam olmuşdu. Çapar kişi çallaşmış, arvadı donqarlaşmışdı, uzun çənəsindən seyrək tüklər sallanan qaradinməz bir qarıya dönmüşdü. Nənəm isə gecənin birində yatdığı çarpayıdan qalxmamışdı. Aparıb anamla Zöhrə xalamın, atamın qəbirinin yanında dəfn eləmişdik. Sonra qəbiristanın tən ortasından bulaq qazıb, çoxlu-çoxlu gül-çiçək əkmişdik.

1948-ci ilin lap erkən bahar günlərindən birində o bulaq batdı. Qəbiristandan xeyli aşağıda, xır yolunun qırağında, xırdaca bir çökəkdən su qaynadı. Çapar kişi o bulağın dövrəsində daş hörüyü qaldırtdı, dəmir qoydurdu. Və bulağın adını da atamın adı ilə adlandırdı: "Sarı bulağı" Niyə? Çünki "qolçomaq" adı ilə güllələnsə də, kəndin mötəbər adamı sayılırdı. Üstəlik, Lətifə ilə mənim toyumuz günü Sarı bulağından səhənglərlə, vedrələrlə toy məclisinə daşınan su ilə də bir növ "qan yuyulurdu". Buna əlavə etməliyəm ki, əvvəllər Nemes, sonralar Sərkəroğlu adlanan bu kənddə bir-birinə uzaqdan, yaxından qohum olmayan adam yoxdu. Demə, Çapar kişi o vaxtlar əsgərlikdən qayıdanda özü ilə gətirdiyi beşaçılanı götürüb gedib: "İkisinin əvəzinə dördünü öldürübmüş". Yəni öz qardaşı Geponun evində olan əmiuşaqlarının dördünü güllələyib, qapını bağlayıb, dama-qazmaya od vurubmuş. Bu, sonralar açıldı. Amma məhkəmə-zad olmadı. Bizim toyumuzdan təxminən üç il sonra həmin bulağın başında təzə ləpir açıldı.

Təsadüf elə gətirmişdi ki, mən Çərkəzoğlunun ilk ali savadlı zootexniki kimi, qışdan təzə çıxıb töylələrdə mizə, palçığa bələmbələm olan körpə buzovları çimdirməyi lazım bilib Sarı bulağının axarına aparanda sağıcı qızların arasında Zöhrə ilə Lətifə də oraya gəlmişdilər və tükləri, quyruqları dərilərinə yapışmış buzovları paltar sabunu ilə yaxşı-yaxşı yuyub, günəşin altında buzovlarla birgə özləri də buğlana-buğlana yuyunmağa başlayanda o köhnə – otuz ikinci il atışmalarına oxşayan güllə səsləri yenə eşidildi. Çapar qoşalülədən havaya bir neçə güllə atıb, xeyli aralıdakı ot tayasının üstündən bütün kəndə eşitdirə-eşitdirə lap biabırçı qışqırdı:

– Ay qız ey, Zöhrəsən, ulduzsan nəsən, eşit: mənim göyüm sənə sürtünür, sən də həyasız-həyasız deyirsən: "Lətifəni yox, məni

almalıydın sən. Sədri düyüsünün də sədr plovlarına uydun. Cavanıydın onda, indi ayılmısan, səhvini düzəlt”. Deyibsən?!

Zöhrə kişiyə qulaq asırdı və cavabını da verirdi:

– Demişəm! Deyirəm! Deyəcəm!.. Sarının ürəyi məndədi!..

– Ay həyasız! Ay sırtıq! Ay qancıq!..

Bir az sonra Zöhrənin gözləri doldu. Bir xeyli danışa bilmədi. Ağladı. Səhərisi bu əhvalat başqa cür təkrar olundu. Zöhrə kişiyə qulaq asırdı. Lətifə isə əlindəki ağır sink dolçanı Zöhrənin başına, belinə döşəyirdi.

– Öl! Bax öl! Gör necə qəhbəyə döndərdi dədəm səni?! Sarını sənə verməyərik, a qəhbə!

Birdən guppultu qopdu. Zöhrə dözməyib əlindəki su ilə dolu vedrəni Lətifənin çanağına çırpdı.

Səhərisi səs yayıldı ki, Lətifə uşaq salıb, atası isə yenə acıqla deyib ki:

– Qisas alacam!

Amma Lətifə atasının qisasını gözləməyib, evdən əlində dəhrə bulaq başına cumub dəhrəni Zöhrənin alnına çırpdı, qan fəvvarə vurdu. Zöhrə əlindəki su ilə dolu vedrəni Lətifənin yoğun tərəfinə guppuldadanda da Lətifə onu cavabsız qoymayıb boş səhənginin dəmirinin oturacağını Zöhrənin alnına çaxdı.

Lətifənin ətinin qalın yerindən bir damla da qan çıxmadığı halda, Zöhrənin balıq qarnı kimi yarılan alnından qan fışqırdı.

Bulaq başındakı sağıcılarla arabaçı Qara, hamı donub qaldı. Bu nə deməkdi; yenə düşmənçilik başlamışdı?

Mən, Lətifənin həmişə ütüləyib, ətirləyib köynəyimin döş cibinə qoyduğu yaylığımı sumkadan çıxarıb, yod batırıb Zöhrənin alnına basdım, üstündən də, deyəsən, hirsimdən Lətifənin göy yelənli ağ kələğayısından qoparıb yaranı möhkəm bağladım.

Sükut çox uzun çəkdi. Niyə? Demə, hər şey çoxdan məlum imiş; hər gün, axşamlar inəkləri, buzovları bulağın axarında suvarmağa gətirəndə burada əməlli-başla döyüş gedirmiş. Bunu hamı çəkilib gedəndən sonra mənə Qara danışdı. Bu ucaboy, uzun, ərəb kimi qara oğlanın adı əslində Qarası idi. Üç sarı bacısı olandan sonra bu oğlan uşağı belə qara doğulmuşdu, ailənin başçısı ata isə şaqqanaq çəkib: “Əvəzi çıxdı, qarası da oldu. Ad da elə Qarası olsun”, – demişdi. Amma ailədə, kənddə də oğlanı Qarası əvəzinə Qara çağırmışdılar.

Hamı dağılandan sonra Qara dümağ bəbəklərini, abı rənglə yaşılın qarışığından zümrüdü gözlərini o yan-bu yana fırladıb:

– Əvvəl-axır belə olmalıydı, – dedi. – Dilinən döyüşürdülər, indi keçdilər dəmir-dümürə.

Dedim:

– Başa düşmədim. Niyə döyüşdülər ki?

Qara dedi:

– Ə, özünü bilməzliyə qoyma, a zootexnik. Bunlar lap çoxdan günü təki şeylər deyillərmi?

– Necə yəni "günü"?!

– Bıy, "günü" bilmirsən nədi? Bir kişinin iki arvadı!

– Yəni mənim?

– Hə, də! Açığını bilmək istəyirsən? Açığı budu ki, mən sənin bu qaragöz əmiqızının dəli-divanəsiyəm. Hələ mahnı da qoşmuşam:

Sabah-sabah doğulursan,
Ürəyimə od salırsan,
Dan ulduzu!
Öldürürsən, Dan ulduzu!..

Belə fəməl-yəməl şeir yazmışam, bunun eşqinə dərəçiçəkli Alı əmimdən saz-söz də öyrənmişəm. O vaxtdan açılıb-tökülübdü məsələ daha. Zöhrə bar-bar bağırdı burda axşamüstü: "Bura bax, ey camış qarası! Ömrümə bir gün qalsa da Sarıya gedəcəm mən. Bu kənddə bircə ləyaqətli oğul var, o da Sarıdı. Lətifəni "boşatdıracam!" Çünki ona yaraşan deyil Lətifə! Gözünü çək!" Hə... Belə-belə işlər, a Sarı.

– Pah! – dedim. – Aləm qarışıb ki, a Qara!.. Şeirin elə odumu? Əməlsiz şeydi. Gəlsənə bir yerdə yazaq, apar ver, oxusun.

Dedi:

– Biri də var:

Güllü gülüm, a Zöhrəm,
Sənsiz ölləm, a Zöhrəm,
Gəl ev tikək, a Zöhrəm,
Qoşa olaq, a Zöhrəm. –

Gülüb əlavə etdi ki: – Alı əmi deyir babatdı. Mən də çox vaxt elə bunu oxuyuram.

Dedim:

– Ara yaman qarışıb, a Qara.

Dedi:

– Qarışmaq da sözdümü, a Sarı. Sənin üzüyün, saçlarıyın belə sapsarı qıvrımlığı, gözləriyin rəngi tək qızların yox, mənim də evimi yıxıb, a Sarı. Zöhrə gözümün içinə deyir: "Gözünü çək məndən!" Hə... Dul qaldım, a Sarı!

– Dul?

– Bə nə! On beş-on altı yaşımdan hər gün kəndin ortasında qamarlayıram sənin qohumun Dan ulduzunu, ayaqlarını qaldırıb ayaqqabılarını çıxarıram, ayaqlarından öpürəm, "Ayağıyın altında ölüm!", – deyirəm. Təpikləyir ey! "Rədd ol!" – deyir. Deyirəm lap yüz yaşım ola ha, yenə gündə bir dəfə ayaqların altından öpəcəm, ay Dan ulduzu!.. Bu da belə! Gördünmü vedrəni arvadıyın yumşaq yerinə necə şappıldatdı?

– Hm, – dedim, – dəlidi ki, lap mənim bu əziz qohumum.

– Dəli bekarə sözdü; dəli-divanədi o da mən təki, ay Sarı! Nəsə bir xata çıxartmasa yaxşıdı.

Qara getdi.

Məni fikir götürdü. Axı, Lətifəyə "oxuyaq, evlənərik" dediyim o dumanlı-anlaşılmaz günü bu sözləri deyəndə Zöhrənin qara-qaynar gözləri, uzunaraq sifəti, koftasının qolundan çıxmış ağ pəmbə biləkləri, zərif pəncələri, uzun barmaqları xəyalımda idi. Zöhrənin qabarıq budları, yoğun, biçimli baldırları kənddə çoxlarını qızın ardınca baxmağa məcbur etdiyi kimi, mənim özümü də tərpədirdi. "Heyif, qismət olmadı", – deyirdim. Niyə qismət olmamışdı? Nə bilim? Nənəmin gecə-gündüz dediyi "qan yuyulmalıydı". "Bu qan yuyulmalıydı, ay bala! Can-ciyərik! Düşmən olammarıq, ay bala", – dediyimi məni məcbur eləmişdi? Məni Gəncəyə instituta göndərdiyi gündən "A göyüm, a göyüm!" – deyə-deyə əzizləyən Çapar kişinin ciblərimə basdığı göy əllilikər, qara yüzlüklərdimi? Yoxsa, Lətifənin o qədər də cazibədar olmayan ala gözləri, əti-canı idimi? Hər nə isə... Qara bulağın başından hələ uzaqlaşmamışdı, mən isə artıq bütün aydınlığı ilə dərk edirdim ki, yaylaq Dərəçiçəkdən köçürülüb istidən, bürküdən yanan-qırılan, adı hər üç-dörd aydan bir ölən bədbəxtlərimizlə, atam Sarının qohumu – əmiuşağı qoca

aşıq Alıdan, oğlu Şamildən başqa indi daha dörd nəfər bədbəxt də vardı: Zöhrə, Lətifə, Qara, Sarı.

Günlərin birində məlum oldu ki, bulaq üstdə odekolonlu yaylıqla ağ kələğayı əhvalatından sonra, bilmirəm neçə aydır ki, Lətifə ilə bir-birimizi dindirmirik və bu, ailədə Çapar kişi ilə "Anası" çağırdığı arvadına böyük dərd olub. Gecələr yorğanlarının altında nə dedilər, nə danışdılar, bilmirəm, səhərisi Çapar kişi dedi: "Raykomun tapşırığı var, özüm məruzə eliyəcəm, günortaüstü idarəyə yığışın". "Raykom" çağırılan köhnə Gepo idi, hər sözündə bir gizlin məna olan Çəpər Çapara nitq tapşırmışdısa, demək burda da nə isə gizlin məna vardı.

Yığışdıq, getdik. Çapar kişi küçədə lampalar saralana qədər danışdı.

Mən qısasını deyirəm.

Əvvəllər o, "raykom" raykom Gepo və "bala Stalin" deyirdi. Katibin boydan balacalığına görə yox, bozumtul kitel geyindiyinə, ordudan tərxis olunduğu vaxtdan, yəni, qırx səkkizinci ildən indiyə – əlli birinci ilə qədər yaraşıqlı, hündür, bozumtul, şapkasının qabağından qırmızı ulduzu hələ də çıxarmayıb, açıq-açığına: "Bu geyim sizə cəbhəni xatırlatsın, mən də böyük Stalinin balaca qardaşını xatırladım. Kommunizm yarananacan belə olacaq", – deyirdi. Zarafatyanalığına baxmayaraq, iti baxışlı, yekə bığlı, zəhmli katibin – köhnə generalın dilində bu sözlər çox ciddi səslənirdi. Bir "Bala Lenin" deyilən katib də vardı Lənkəran, Sabirabad tərəflərdə. Deyirdilər: "Qığılcım təki şeydi Bala Lenin". Bizimki isə lap elə Stalinin özü kimi təmkinli, həm də gözəgörünməz idi. Yəni özü haralardasa – kabinetində, dağlarda, bağlarda, dostları ilə oturub-dururdu, "icraçı iş görürdü". Məsələn, Bala Lenin Muğandan ismarlamışdı ki, "O Bığlıya (yəni Bala Stalinə) deyin, o dərəçiçəkliləri ermənilər buraya sürüblər, o isə qanadının altında saxlayır. Əgər hamısını maşınlara doldurub göndərməsə, düz Kremlə yazacam ki, əsli Göyçəlidir o Bığlının, Göyçədən bura sürülənlər də onun qohumlarıdı, üz görür, Muğanın istisinə salmaq istəmir. Məncə, bu adam lap hazırca güllələnməli panturkistdi. Cəbhə xidmətləri – generallığı-filanı olmasa, özüm-öz əlimlə yazıb vayenni tribunala verərəm onu, güllələsinlər. Yaxşısı budu göndərsin qohumlarını". Bala Stalin də ona – Bala Leninə zəng vurmuşdu ki,

“Farağat otur, yoxsa bir baş Velikiy Stalinə yazaram ki, əsli ermənidi o Balanın, Balayandı, ona görə də Dərəçiçəkdən sürülənləri Muğanın o ocaqdan da isti duzlaqlarına çəkir ki, orda qırsın...” Bunları evimizdə – “çörək üstə” Çapar kişi danışmışdı və mən başa düşmüşdüm ki, bu qoşa ləqəbli qoşa katiblər nə qədər zarafatlaşsalar da, əslində, gizlin düşməndirlər. Odur ki, Çapar kişi: “Raykomun tapşırığı var, özüm məruzə eliyəcəm”, – deyəndə, nədənsə, mənim ürəyimə tıqqıltı düşdü: “Niyə Bala Stalin demir?! Niyə raykom deyir? Niyə belə ciddiləşib bu günləri Çapar?”

Qısası, getdim. Deyirəm, küçədə lampalar saralana qədər danışdı, küçələrimizdə, doğrudan da, elektrik işığı vardı o vaxt; Çapar bala Stalinə nə hörmət eləmişdisə, o da əvəzində işıq çəkdirmişdi. Nə isə... Kişinin o uzun çıxışını necə var eləcə yazıram bura. “Uzun”luğu qorxutmasın sizi, maraqlı çıxışdı.

Görün nələr var bu çıxışda:

– Əziz yoldaşlar – kommunistlər və bitərəflər bloku! Bu gün mən “ Fridrix Engels” kolxozunun yarandığı gündən bu vaxta qədər nələr olub, nələr keçib, onu danışacam sizə. Əmbə elə danışacam ki, dərs olsun hamıya. Lap belə mənim istəkli balam Lətifənin həyat yoldaşı Sarı oğlu Sarı təki savadlı adamlara da dərs olsun. Hə, deməli ki, yadınızdadı, hamımız mallı-qoyunluyduq, ən azının əlli-altmış qoyunu, keçisi, on-on beş inəyi olan cəlladıydıq. Kolxozun olacaq, hamının malı, qoyunu yığılıb kolxoza veriləcək, biz də olacayıq o kolxozun bərabər hüquqlu adamları deyiləndə çox adam qaçdı-kəsdi, malını, qoyununu dağda-bağda gizlətdi. Bu Qaranın atası əlli inəyi, on camışı dağa apardı, orda da yola getmədi, ermənilərlə dalaşdı, meyiti gəldi. Malı-heyvanı da dağıldı. Taqsırı məndə gördünüz. Oğlu Qara da düşmən oldu mənnən. Düzdümü burası?

Dedilər:

– Düzdü. Olan olub, keçən keçib! Niyə danaq ki?

Dedi:

– Hə, deməli ki, onda sizi mən qardaşım Gepo Çaparın bu yekə mağar evinə çağırdım, dedim bu evi veririk kolxoz idarəsi olsun. Hamınız mat-məəttəl qaldınız. Sonra neylədim? Gördüm malınızdan, qoyununuzdan gözünüzü çəkəmmirsiniz. Getdim bu göyümün dərsini yarımçıq kəsdim, diplom aldım pulnan, gətirdim. Sarı yaxşı, yumşaq oğlandı, deyilənə baxandı; dedım iri maldan otuz-

qırx heyvanı “qarayara” adıynan xəstələndir. Heç soruşmadı ki, niyə? Eləcə qımışdı mənalı-mənalı, getdi rayonda xüsusi “sıvarotko” aldı gətirdi, ətli-canlı düyələrdən qırxını bircə-bircə sarıtdırdı palıda, boğazına “sıvarotko” vurdu o yekə şprisnən, heyvanlar hamısı başladı xırıldamağa. Mən də, yadınızdadı, səs yaydım ki, heyvana qarayara düşüb, kəsmək, ətini torpağa basdırmaq lazımdı. Oz düyələrimdən ikisinin ətini “zaraznı” qoyub basdırdım torpağa, qalanlarını gecəynən kəsdik, soyduq, qovurduq qaranlıqda, doldurduq küpələrə, bütün qışı yazacan qovurma yediniz. Yadınızdamı o keyfli günləriniz? Sonrakı illərdə neçə dəfə elədim mən bu həngaməni? Çəpər qardaşım çəpər çəkmişdi kolxozunuza, keyfinizdən qalmırdınız. Yadınızdadı hər şey, təkrar eləmirəm, mən sizi saxladım, siz də məni saxladınız, otuz altı ildir sədrəm. Əmbə son vaxtlar görürəm adamlardan quduranlar var, dildən-ağızdan söz qaçırdırlar. Belə adamlara neyləyim mən, kəsimmi?! “Yaxşılığa yamanlıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir” mən yenə bağışlayıram sizi. Əmbə bir-ikisi var, bağışlamaq olmaz onları. İkisindən hələlik birinin adını çəkirəm: Zöhrə! “Dan ulduzu” deyib tərifini göyə qaldırdığınız qızcığaz qudurub mənim ailəmin içinə pozğunluq salıb. Qızımı, bilirsiniz, necə vurubsa, uşaq salıb. Bu tərəfdən də açıq-açığına hırıldayır ki, “Lətifəni boşadacam özüm gedəcəm Sarıya”. Necə boşadacaq, necə ayıracaq o istəkli ər-arvadı naxırçım Zırpı Zəkinin adıynan Lətifənin adını yanaşı çəkməknən?! Neyləyim mən bu düşmənçiliyə?! Vaxtıynan qan düşüb aramıza! Sarı kişi ilə arvadı güllələnib. Ağıllı, savadlı oğlumuz Sarı qanı yuyub. Əmbə bu Zöhrəciyəz təzədən qan salır aralığa. Çağırmışam qızı ki, açıq-açığına deyim: Kəsəcəm mən bu qızı! Bəli kəsəcəm! Öldürmüyəcəm, əmbə elə eliyəcəm ki, oğul-uşaq üzünə ömürlük həsrət qalsın! Dedimmi ki, biz iki ekizlər anadan olanda atam rəhmətlik nə qoymuşdu bizim adımızı? Məhəmməd, Əli. Biz Qazax şəhərində seminariyanı qurtaran günü atam rəhmətlik sizi yığdımı palıdların kölgəliyinə, döngə kəsdimi, dedimi Məhəmməd adı da məlumdu kimin adıdı, Əli də. İndi zamana dəyişib, bu döngəni kəsdim, bir çuval kartofu soydurdum basdım içinə ki, hamıya çatsın, dedimi oğlumun birinə – indi gedib Gepoda qaraul işləyənin adını qoyuram: Çəpər. Elə orda – Gepoda işini böyütsün, kəndimizə çəpər olsun, qorusun hamımızı qada-bəladan. Düzdümü?

Dedilər:

– Düzdü, düzdü. Yaddan çıxan şeydimi, ay Çapar?

Dedi:

– Atam dedi, bax bu gödək, pələ-püsür, yoğun gədəmin də adını qoyuram Çapar. Əgər bu kənddə bir adam ayağını bircə addım o yan-bu yana qoysa neynəyəcək mənim bu Çapar balam?.. – Pencəyinin altından bax bu enli xançalı çıxartdı, belimə bağladı: "Qorxma, bala, – dedi, – qardaşın biri Gepo işçisi, o birisi bedkom sədri, bir azdan seçdirəcəm səni, olacaqsan kolxoz sədri. Elə ki, gördün malını-heyvanını bu təzə hökumətimizdən gizlədir, gecələr kəsir, satır, itə yedirdir, bax onda əlini qoyarsan bu enli xançalın üstünə, deyərsən: "Mən adam öldürən, qan tökən deyiləm. Əmbə yadınızdan çıxarmayın ki, kolxozdan qaçan, pantürkistlik, panislamistlik eliyənlərin qanını su yerinə axıdan Gepo da var və deməli ki, mənim qardaşım da ordadı. Elə iş görməyin ki, qan tökülsün bu kənddə. Görürsünüzmü nemesləri? Hökumət bircə dəfə dedi müharibə olacaq. "Zavtra yesli vayna", elə özünüz köçüb getməlisiniz bizim göstərdiyimiz yerə". Neylədilər nemeslər? Ağılnan-başnan qabaqcadan köçdülər getdilər. Heç bir toyuqlarının da boğazı qanamadı. Deməli ki, nizamlı, intizamlı hökumətdi bizim hökumətimiz. Tabe olmalısınız! Günü sabahdan mal-qoyununuzu yığıb siyahıya aldırmalısınız. Sözümə baxdınız, nə oldu? Əmin-amanlıq! Düzdümü? Qarın toxluğu! Düzdümü?!

Dedilər:

– Düzdü, düzdü. Allah keçənlərinə rəhmət eləsin! Əmin-amanlıqdı.

Dedi:

– Əmbə mənim bu istəklim, gözümün işığı, can-ciyər qohumum neylədi? Sürsünü gecəynən qatdı çobanların qabağına, apardı Arxaşan dağından keçirdi, birbaş Dərəçiçəyin o yal döşündəki o qayalı, zağalı Ağbizən kəndinə. Orda dedilər: "Ay oğul, bizim özümüzü də rahat buraxmırlar bu ermənilər. Mikoyanın millətidir, Stalinin sağ əlidir, sən qaytar heyvanı kolxoza qoy. Neylədi mənim can-ciyərim? Qaçaq düşdü. Sovet təki canavarın dişlərini görmədi. Sovet də mənim Çəpərimin əliynən şaqqıldatdı onu... Üstəlik də arvadı getdi. Niyə? Çünki Sarı görmədi mənim belimdəki bu enli

Xançalı, öz qanına bulandı. Bu heç. Deyərlər çıxan qan damarda durmaz. Nə isə... Özünüz gördünüz necə yudum mən o qanı?

Dedilər:

– Sən yaxşı ağsaqqalsan, Çapar. Bu vaxtacan bir adamı da tapdamayıbsan.

Dedi:

– Qardaşım Çəpər bu günün özündə də kəndimizin çəpəridi. Hə, deməli, deyirsiniz qanmamışam mən. Görün noldu? Yadınızdamı Böyük Stalin yoldaş məqalə yazdı o illəri: " Qalavokrujenye ot uspexov". Yəni kolxozu tələsik qurduq, insan qanı tökdük, camaatı narazı saldıq... Deməli ki, o canhacan illərində "qolçomaqlar" güllələnəndə mənim bu yekə xançalımın ucu da görünmədi. İndi mən fəxrnən deyirəm ki, Böyük Stalin yoldaşın sözüynən düz gəldi mənim sözüm.

İndi qanmazlar çıxar ortalığa!

İndi mən xançalımı göstərməliyəm və kommunistlərimiznən bitərəflərimizin bu birgə iclası səs versə, bəlkə, kəsəcəm də, bəli! Özü də kimi? Kolxozumuzun ən zəhmətkeş, ən istəkli bir yetimini. Niyə? Çünki, dedim, atasının ölümünü məndə görür!

Çaxnaşma düşdü, tək-tük səs eşidildi:

– Allah, sən saxla! Niyə, ay Çapar? Niyə çapası oldun birdənbirə? Söz demək, ağıl vermək olmazmı yetimə?!

Dedi:

– Bizim gözəl balamız, Dan ulduzu dediyimiz Zöhrə balamız bax bu kəndin ortasında neçə dəfə deyib o Qaraya ki, sənin itiyin məndə yoxdu, kənar gəz məndən. O Qara da bütün kənddə danışa-danışa gəzir ki, əgər Çapar kişinin göyü Sarı olmasaydı, mən Zöhrəni çoxdan alardım. Guya bizim Sarı, ayıb olmasın, zinalıq eləyir Zöhrəynən, arvadı da naxırçıynan – Zırpı Zəkiynən zinalıq eləyir! Nədi bu cür söz-söhbətin cəzası?!

Dərin sükutdan sonra yenə tək-tək səslər eşidildi:

– Bıy, Allah, amandı! Sən bir bu Zöhrəciyə bax ey! Kişinin evini gör necə yıxır!

– Vay, vay!

Çapar kişinin səsi birdən-birə ildırım kimi şaqqıldadı:

– İndi sonrasına baxın. Bizim Dərəçiçəkdən bəridə Qızılyurd adında yurdumuz vardımı? Dörd dağ arasında qızılyurdun gen-bol

örüş yerləri vardımı? İndi niyə yox olub birdən-birə o örüşlər? Çünki erməni dolub xaricdən, örüşlərimizi tutublar, alma bağları əkirlər... Getdim Qarakilsənin spalkomunun əlinə-ayağına düşdüm, dörd yazabuğa verdim, dedim al, halalın olsun, əmbə bizim örüşləri alma. Sonra nə oldu? Sonra öz qardaşcığazım Geponu yaylaq dolandırıcısı qoydular o da bar-bar bağırdı ki, kolxozun dörd yazabuğasını birdən udan Suren Sovet adamı deyil, mən qoymaram xaricdən gələn ermənilərə zədə dəysin, örüşləri verin onlara. Xülas-kəlam qardaşım yenidən katib olmaq xatirinə naxırlarımızı Muğanın oduna saldı, adını da qoydu "oturacaq həyata keçirik. Köçərilikdən canımız qurtarır". Mənim bu istəkli göyüm Sarı da onun sözünə qüvvət verib. Heyvanımız yayın əlli dərəcə istisində qırılmayacaqmı, ay camaat?! Neyniyək? Əlac deyin! Sarını yoldan çıxardan kimdi? Öz əmisi qızıdı! Biznən köhnə qan davasına görə məni əngələ salıb. Sarı olub onun qulu. Çəpərnən də nə isə pıçıldaşır, bilirəm, onu da döndərib "Oturaq həyat!" Bu nədi?! Məlum deyilmi ki, heyvanımız qırılacaq bu Aran istisində! Mən neyləyim indi bu qancığa?! Özünüz deyin!

İndi çapacaq Çapar kişi! Aydındımı, ay camaat! Mən qan yudum! O qancıq Sarının içərisini qaynadır, qisasçılıq elətdirir! Mən o ulduzun qabağına bulud axıdacam, bir də doğmasın bu kəndin göyündə! Rədd olsun kolxozdan çıxışın getsin!

Camaat yenə çaxnaşırdı:

– Bah, bah, bah! Allah, sən göstərmə! Qıza bax ey!

Çapar kişi dedi:

– Qızımın çanağı sınıb, ömürlük bitişməyəcək, uşağı olmuyacaq! Çapmalıdı bu Çapar, ya yox?!

Adamlar boyunlarını qısıb, elə bil balacalaşdılar.

Yenə ildırım çaxdı:

– Vurubsanmı qızımı, a qəhbə?!

Arxa cərgədən Zöhrənin boyu ucaldı.

– Vurmuşam! O da məni vurub. Budu ha, ömürlük şikəst qalmışam.

– Niyə, a qəhbə?!

Zöhrə yavaş-yavaş irəli gəldi.

– O murdar sözü yığışdır, Çapar kişi! Bu vaxtacan mənə kişi əli dəyməyib! Qaranın ayağımdan öpdüyünü hesaba alsan o murdar sözü deyə bilərsən.

Çapar kişi kitelinin yaxasını açdı. Enli xançalın gümüş qını par-par yandı.

– Mən səni elə burdaca vuraram, a qancıq! Boş-boşuna Çapar qoymayıb o rəhmətlik mənim adımı.

Burda nə oldu? Necə deyim indi, necə təsvir eləyim ki, o par-par gümüşün qabağında bir cüt ağ, təravətli məmə ağardı.

– Çap! İkisini də çap düşsün! Ana olmayım! Əmbə bil, Çapar kişi, mən o bulağın suyundan da safam. Bəli, mən Sarını çox istəyirəm. Lap körpə vaxtımdan istəyirəm. O da məni istəyir. Əmbə o vaxt atası, anası güllələnəndə kişiliyi çatmadı, sənin qızına "yox" deyəmmədi. İkicə kəlmə dedi: "Oxuyaq, evlənək". İstəkdimi bu?! Sevgi bu deyil! Sevgi, bax, səhər-səhər o uca göydə donub parıldayan, Dan ulduzudu, deyir qalxın, ay camaat, qalxın, işləyin, sevişin, balalarınız olsun. Budu bax sevgi, kor deyilsənsə, bax gör, bu ağ məmələrə kişi əli dəydimi?! Aç gözlərini, gör kəndində neçə oğul əvəzi Zöhrə adında qız var... Sənin qızın, necə deyərlər, kalafalarda qalmışdı. Soruş bax, o mərd Qaradan, gör Sarıya qədər neçəsinin altına yıxılmışdı! İndi çap! Çap!

Xançal qından xışıltı ilə çıxıb, iki dəfə səssizcə sağa-sola endi. Bir anda al-qırmızı boyanan ağ məmənin biri sağa düşdü, bir sola...

Aradan nə qədər keçmişdi bilmirəm. Lampalar saralırdı. Çapar kişinin dili indi də onu-bunu çapırdı:

– Sən, ay Aşıq Alı neçə dəfə borc alıbsan anbardan o xarabandan bura sürüləli?! Qaytarıbsanmı?! Nə hünərlə səsini çıxardırsan sən?! – Və ilaxirə.

Mən isə Zöhrə qucağımda, o "yekə evin" qabağındakı ambulatoriyanın bağlı qapısını təpikləyib sındırırdım. Nəhayət, sındırdım. Zootexnikliyim kara gəldi. Qorxunc yaraların ikisini də astaca-astaca marqansla yudum. Əlimə yanıq kremi keçdi, bintə yaxıb pambığın üstünə saldım. Bir də yaxdım, bir də saldım. Qısası, nə bacarırdımsa elədim. Bir az sonra həkim də ambulatoriayda o yan-bu yana vurnuxurdu, şəfqət bacısı da. Zöhrə özünə gəlib iri qara, qaynar gözlərlə maddım-maddım üzümə baxırdı.

– Bunun sonrası nolacaq, ay Sarı?

Dedim:

– Bundan artıq daha nə olasıdır ki?!

Qaranın səsi gəldi:

– Alı əmini Saatlıya aparıram arabaynan. Ermənistandan, deyirlər, vur-hay köçürürlər Göyçə camaatını. Mikoyan köpəyoğlu torpaqlarımızı alır, Stalinin lap köhnə əmrinnən alır verir erməniyə. İstəyirsən səni də aparım o Saatlı tərəfə, ay Zöhrə. Burda qala bilərsənmi sən daha bu cür düşmənçilikdən sonra?..

Zöhrənin sinəsini lap xirtdəyindən başlamış qabırğalarının üstünə qədər tənziflə qalın sarımışdılar. Rəngi ağarmışdı. Çox pis nəfəs alırdı. Əmbə dodaqlarının tərpənişindən qandım:

– Sən də... qala bilərsənmi daha o evdə?

"Qalmaq" nədir bütün varlığımla duyurdum, bilirdim ki, daha Çapar kişinin göyü, Sərkərli kəndinin zootexniki deyiləm...

...İçi otla, yorğan-döşəklə, xalı-xalça ilə dolu furqonsayağı araba ağır-ağır cırıldayırdı. Mən başımı qaldırmadan aram-aram arabanın ardınca addımlayırdım. Birdən böyrümdə Alı əminin gümüş simləri ağaran nəhəng sazı zınqıldadı. Sonra asta, bir az boğuq, nazik, gözəl səsi inilləndi.

Qara bağlar,
Ağ bağlar, qara bağlar...

Boğula-boğula oxuyurdu, ağlayırdı. Çünki xarici ölkələrdən çoxlu erməni gəlmişdi və Alı əminin bütün nəslini Muğana, duzlağa sürümüşdülər; kişinin gözləri daim nəm idi. Qocalıqdan yanaqlarının batmış yerləri də işıldayırdı.

Arxadan, lap uzaqdan, yola, ayaqlarımızın üstünə hoppanan-düşən solğun işıq düşdü. Çapar kişinin "Villis"i imiş. Gəlib dayandı.

Qara "ho, ho!" eləyib kəlləri saxladı.

Çəpər kişi əvvəlcə ona acıqlandı:

– İşsiz-zadsız hayana, hara aparırsan, ə, heyvanı?! Saatlının duzlaqxanalarında canlarını tapşırsalar ödəyə bilərsənmi bir boyun kəlin xərcini?!

Qaradan qəribə, ağlamsınmış gülüş qopdu.

– Neçə ildir nökər təki işlədirsən quru çörəknən üzsüz pendirnən. Bir arabaynan bir boyun kəl düşmürmü mana?

– Nə?! – Xançalı havada ağarıb yastısına Qaranın başına taqqıldadı.

– Döndər geri! Piyada getsinlər, mənə nə!

Sonra bir də parıldadı xançal.

– Sazına-zadına bax! Kaftar! Qayıt borcunu ver, sonra get. – Xançalın qını sazın çanağının döşünü içəri batırdı, ağ simlər havada titrəşib, yellənə-yellənə qaldı.

Alı əminin səsi titrədi.

– Qolumdu bu mənim, qolumu niyə sındırdın, a qolun sınsın!

Sonra heç nə eşidilmədi. Alı əminin oğlu, enlikürək, tökmərək, qızıldiş aşıq bir təkərdən yapışdı, Qara ilə mən o birisi təkərdən, maşını elə güclə aşırdıq ki, deyəsən, içi tamam töküldü. Xançal Qaranın qara əlində havada sapand kimi dolanıb vıyıltı ilə uzağa – dərəyə vıyıldadı. Qısası, o çalsaqqalın yaşına qətiyyən əhəmiyyət vermədik, döyüb yolun qırağına tulladıq... O axşam Sərkərlidən bir dəstə kişi gəldi. Alı əmi ilə nə danışdılar, bilmirəm, nəticəsi bu oldu ki, biz yenə kəndə qayıtdıq. Yəni bu dəfə də barışıqlıq oldu.

Yaz açılırdı. Mal-heyvan yayda qalmalı idi. Kəndin böyründə çiy kərpiç kəsilirdi, "mədəni töylələr" adında hündür, iri pəncərəli töylələr tikilirdi. Qoyun sürüləri də kənddən uzaq düşmüşdü, Ulğunluq adlanan örüş yerində kölgələnə-kölgələnə otlayırdı.

Saatlıda, həmin Bala Lenin hər şeyi eşidib kəndimizə gəldi. Gödəcik, arıq, çevik bir kişi idi.

– Elə zırıltı qopartmısınız ki, açıb-ağartmaq da olmaz, – dedi. – Zootexnik Sarıoğlu sənsən? Kolxozumuzun malını, qoyununu ermənilər buraxmırlar daha o tərəflərə, – dedi. – Get bir beş-altı, yaxşı, yağlı cöngədən-zaddan seç, apar rüşvət ver, neynirsən elə, heç olmasa avqustun ortasına qədər örüş al. Ləngimə!

Dedim:

– Mən daha o tərəfə qayıtmayacam.

Dedi:

– Niyə, əşi?! Ozbaşınasan?!

Dedim:

– Arabadakı o yaralı qadın mənim əmimqızıdı, məndən başqa heç kəsi yoxdu. Onu o vəziyyətdə qoyub heç yana gedəmmərəm.

Bir yerə baxdı, bir mənə baxdı. Yer də elə mənim sifətim kimi quru, bom-bozdu.

Dedi:

– Adam var o yanda. Siz tərəfdəndi. Göyçədən. Tanıyıram, deyir, hamısını. Bələdçilik eləsin. O yanda, Düzdaxda qəsəbə tikilib, baş evlərdən birini versin sizə.

"Qaz-51" maşınına mindi, getdi.

Həmin o tanış adamın sifəti elə nazilmiş, elə qapqara yanmışdı ki, səsi çıxana qədər tanımadıq. Nə isə, qısası, apardı bizi bomboz xarabaya bənzər yerə.

– Burada qalacaqsınız, – dedi. – Məni "Upravlyayuşşi pereselensiv" qoyublar. Sabah azdan-çoxdan çörək-mörək verrəm. Sonrasını özünüz fikirləşin. Bu yolda taxılsayağı düyü əkibmişlər, quru yerdə. Beş-altı tay qalıb düzün ortasında, qurdun-quşun ağzında. Gedin görün neynərsiniz onu.

Bu da belə getdi.

Heç onu da soruşmadım ki, ambulatoriya, həkim-filan varmı? Onun əvəzində Alı əmi yaşarmış gözlərini silib:

– Həkim nədi, zad nədi, ay oğul, görmürsənmi hara gətiriblər bizi. Yorğan-döşəyi salın, kilimi-zadı döşəyin elə bu eşiyə. Çünki belə yerdə birə bulud təki olur, didər yeyer bizi.

Bir boz kilim götürüb divarın dibinə saldım. Necə yorulmuşdumsa, asta-asta inildəyən Zöhrənin böyründə başımı yerə qoyanda ölü kimi düşdüm.

Nə vaxtsa, kiminsə əlinin təmasından oyandım. Zöhrənin barmaqları saçlarımı sığallayırdı. O biri əli göyü göstərirdi.

– Ona bax, ay Sarı... Ömründə görübsənmi belə şey?

– Yox, – dedim.

Zöhrənin qanı qaçmış gözəl dodaqlarına təbəssüm gəldi.

– Vallah, elə bil mənə görədi o parıltı, ay Sarı. Zöhrə Zöhrəni sağaldacaq, ay Sarı, – dedi.

Əlini öpdüm. Gözlərindən öpdüm.

– Dərman-dəva götürmüşəm, sarğımı özüm təmizləyəcəm, – dedi.

Sonra, məndən asılı olmayaraq:

– Sənə qurban olum, Zöhrə! Günahlarımı bağışla, – dedim.

Dillənmədi. Göz yaşlarında elə xoşbəxtlik vardı ki, bunu heç bir sözlə demək olmaz.

## 2

Səhər tezdən Muğanın günəşi elə doğdu ki, hələ yorğan-döşəyin arasında ikən tərə batdıq. Alı əmi arxalığının yaxası açıq, qapıda dayanmışdı; sinəsi tez-tez qalxıb-enirdi:

– Ay bala, biz bu cəhənnəmdə bir gün də qala bilmərik, – dedi. – Qara arabasıynan gəlib ki, bizi Sərkərliyə qaytarsın. Qalxın gedək!

Bu sözləri elə qətiyyətlə dedi ki, Zöhrə yerindən dik qalxdı:

– Bütün gecəni yatmamışam. Gedək! Gedək, ay Alı əmi, – dedi. – Mığmığası bir yandan didir, birəsi o biri yandan! Gedək!

Qara da içəridə idi.

– Mən bilirdim belə olacaq, – dedi.

Qisası, elə o günü Sərkərliyə qayıtdıq. Çapar kişi, heç nə olmamış kimi, mənə qəribə mərhəmətlə yaxınlaşıb:

– Evimdə yasdı, – dedi. – Gedək yasdan çıxart bizi.

Bunun ardınca Lətifəni gördüm. Yanaqları uzunu yaş axıdırdı.

Mən istər-istəməz Zöhrəyə baxdım. Nə baş verdi, bilmədim. Yalnız bunu hiss etdim ki, Zöhrə əvvəlki Zöhrəyə oxşamırdı. Gözlərini yerə dikib, bir kəlmə:

– Arvadındı – dedi və dönüb on addımlıqdakı çiy kərpic evə doğru getdi.

Belə Birləşmişdik, belə ayrıldıq. Yalnız axşamüstü ambulatoriyada yarasını sarıdan Zöhrənin fikrini bildim;

– Sən Çapar kişinin adamısan, – dedi. – Ondan ayrılammazsan – dedi.

Niyə etiraz eləmədim? Ona görə ki, Zöhrə doğru deyirdi? Düşünürəm, bu suala cavab tapa bilmirəm.

## 3

Havalar istilənirdi. Yaylaqdan həmişəlik ayrılmaq qorxusundan hamımız susqunlaşmışdıq. Amma bir axşam bu uzun sürən susqunluqdan gözlənilməz bir partlayış qopdu. Öz “M-1” maşınında haradansa gəlib bulağın yanında dayanmış Çəpər Gepo ilə ferma müdirimiz Kərim kişinin arasında mübahisə başlandı.

Kərim kişi Sərkəroğlu maşına minmək istəyən raykom katibinin qabağını kəsib, uca səslə:

– Əylən görüm! – dedi. – Bizim Mir Cəfər Bağırov niyə ağzına su alıb? Stalinə, Mikoyana niyə başa salmır ki, min-min illərdi biz o yaylaqlara, o yurdlara gedirik yay aylarında? Hər yurdda bir böyük qəbiristan salmışıq. Ermənniynən yanaşı filan qədər kəndimiz, şəhərimiz var orda! İndi niyə ayağımızı kəsirlər öz yurdumuzdan, yuvamızdan?! Malımız, qoyunumuz qırılmazmı bu aranın bürküsündə?!

Katib əlini atıb kişinin əlini maşının qapısından çəkdi.

– Bu siyasi məsələdi, kişi, – dedi. – Xarici ölkələrdən erməniləri bizim torpaqlara köçürürlər. Şimali Azərbaycanla Cənubi Azərbaycanın Türkiyəynən Azərbaycanın arasına erməni doldururlar. Kəs səsini. Çox danışsan elə sürərlər ki, Sibir bəri yanında qalar!

Kərim Sərkərli yenə əlini qapıya atdı.

– Dayan! Bə bu heyvanın qırılmağına kim cavabdeh olacaq?

Katib eyni sakitliklə:

– Oturaq həyata keçirsiniz. Mədəni töylələriniz olacaq. Silos basdıracaqsınız, – dedi və bu dəfə sərt hərəkətlə maşına atılıb qapını çəkdi...

Burada mən – Sarı oğlu Sarı, sözümü kəsib, ixtiyarı bizim həyatımızı cikinə-bikinə qədər öyrənib yazan ədibimizə verirəm, hadisələrin sonrasını özü yazsın; yaxşı işlərimizlə bərabər qəbahətlərimizi də yazsın, hamımıza ibrət dərsi olsun.

Yaz, ədibimiz! Mən hər cür qəbahətimizi dərk etməyə hazıram.

* * *

...Hamı işlə məşğul idi. Zöhrə döşləri nə qədər ağrısa da, öz “Malyutka” inəyini sağırdı. Ancaq onun gözləri “Malyutka”nın məmələrinə yox, o tərəfə, Sarının olduğu yerə baxırdı. Qəlbində qəribə bir hiss oyanmışdı. Elə bil Sarını birinci dəfə görürdü. Onun boyca buradakı cavanların hamısından uca olduğuna, kürəyinin enliliyinə, yerişindəki, hərəkətlərindəki təmkinə sanki elə indicə diqqət yetirir, onun hər tərpənişində yeni bir şey kəşf etmək istəyirdi. Sarının bəzən aralanaraq naxırçılarla söhbətə girişib ona baxmaması qızın acığına gəlirdi. Bu vaxt özü də hiss etmədən “Malyutka”nın məməsini bərk sıxır və inək az qalırdı ki, təpik atıb südlə dolu vedrəni böyrüüstə çevirsin.

– “Malyutka!”... – deyə Zöhrə ona təpinirdi. “Malyutka” isə uzun, yaraşıqlı boynunu yana əyərək, indiyədək ancaq xoş, nəzakətli səsini eşitdiyi sahibəsinə baxır, sanki ondakı bugünkü dəyişikliyə təəccüb edirdi. Nə baş verirdi? Aydın olan bircə bu idi ki, o gün Muğandan qayıdanda Zöhrə Lətifənin göz yaşları ilə birlikdə Sarının əhvalının dəyişdiyini də görmüşdü: açıqca görmüşdü ki, Sarı Lətifəyə laqeyid deyildi. Buna görə də Zöhrə ona “arvadındı” demişdi. İndi isə Zöhrə Sarının ona münasibətində açıq-aydın soyuqluq görürdü.

“Malyutka”dan sonra Qızıl inəyin balasını açıb onun altına buraxdı, daha sonra qumral, sağ budunun üstündə alası olan Bənöyüşün yanına getdi...

Sağın bitdi. Naxırçılar heyvanı düzə yellədilər. Sağınçılar hesablayıcı Veysəlin başına toplaşdılar.

– Bu gün süd bidonlara şəlalə kimi tökülür ha! – deyə arıq, uzunburun Veysəl bir qanadı sınmış eynəyinin altından sağınçıları süzə-süzə yenə “bədii dil”lə danışırdı. – Paho, ay Dan ulduzu, iş belə getsə sən daha da parlaq olacaqsan!

Bu yerdə Veysəlin eynəyi burnunun üstündən qopub süd bidonunun içinə düşdü. Sağlam bədənli, qarabuğdayı Lətifə cəld irəli yeriyib:

– Bugün mənim südüm hamınınkından artıqdır, niyə onu tərifləyirsən, məni yox? – deyə bidonun ağzını bağladı. – İndi görüm yazını nə cür yazacaqsan!

– Tərifmi istəyirsən, bacım?

– Niyə istəmirəm?

– Yaxşı, nə sözüm var? Tərif, bu da tərif:

Hər ikiniz əmi qızı,
Səhər çıxan dan ulduzu –
O çox gözəl, sən də gözəl! –

Razı qaldınmı, Lətifə xanım? İstəyirsən bir tərif də deyim?

– Saxla, özün üçün qalsın!

– İncidin?

– Sən nəsən ki, sənin nəyindən inciyim?

Zöhrə sağınçıların köməyi ilə içinə eynək düşən bidonun südünü ağzına tənzif bağlanmış bir başqa bidona boşaltdı, eynəyi tənzifin üstündən götürdü, önlüyünün ətəyilə təmizləyib Veysələ verdi.

– Adam sancmaq Lətifənin köhnə xasiyyətidir. Xətrinə dəyməsin, Veysəl!

– Dəyməyinə dəyməz, – deyə Veysəl cavab verdi. – Ancaq bircə şeydən ürəyim həmişə narahatdır ki, nə üçün sənin tərifini eşidəndə Lətifə xanım dərhal cin atına minir? Dünən Sarı qardaşın yanında sənin sözünü danışanda da yenə məni sancdı.

Zöhrə ətrafına göz gəzdirdi. Sağınçılar çox diqqətlə qulaq asırdılar. Onlar bu söhbətdən başqa bir nəticə çıxarda bilərdilər. Axı, doğrudan da, Lətifənin ona münasibətində belə şeylər hər gün özünü göstərirdi. Kiçik bir məsələ nə üçün böyüyüb yenə də dava ilə qurtarsın?! Elə buna görə də gülümsünüb:

– Hər halda sən incimə, Veysəl, – dedi, – ürəyin də heç narahat olmasın. İndicə dedim ki, Lətifənin oğlanları sancmaqdan xoşu gəlir.

Lakin elə bil Lətifə bu gün yenə də dava axtarırdı. Zöhrəyə köntöy-köntöy baxaraq:

– Sancıram, yaxşı eləyirəm! – dedi. – Sənin kimi burda bunun, orda onun başını sığallamıram ki!

Zöhrə diksinən kimi oldu; deyəsən, Lətifə bu sözləri nəyəsə əsaslanaraq deyirdi. Yoxsa o, Qara ilə Sarıya işarə edirdi? Axı, Lətifəni belə danışmağa məcbur edən nə idi?

O, komsomola daxil olmaq üçün ərizə vermiş bir neçə gəncin işlərini rayona aparanda orada eşitmişdi: "Fikir var ki, rayonun bir çox fermalarında oturaq şəraitə keçilsin. O cümlədən Engels kolxozun fermasında da..." Bu xəbər Zöhrəni kədərləndirmişdi. Belə bir iş Sərkərlidə böyük bədbəxtliyə səbəb ola bilərdi. Çünki burada oturaq həyat üçün əsas şərtlərdən olan mədəni töylələr hazır deyildi. Ferma müdiri Kərim Sərkəroğlu keçən ilin payızından başlayaraq, bütün qış aylarında inşaat briqadirinə rahatlıq verməsə də, sərkərlilərin dili ilə desək, briqadirin kürəyində ocaq qalasa da, töylələrin yalnız divarları hörülmüş, beləcə də qalmışdı. Zöhrə yoldaşlarından çox da fərqlənmədən gündə iki dəfə ferma yolu ilə gedib-gəlir, orada inəkləri sağır, evdə də qocalıb əldən düşmüş ata nənəsi Zalxaya qulluq edirdi. Onun nəzərində günləri bir-birindən yeknəsəq keçirdi. Zöhrə belə darıxdırıcı həyatdan bezikirdi. Üstəlik də Lətifənin dilinin sancmağından əsəbiləşirdi. Qısqanclıq Lətifənin ürəyinə hakim olub ona rahatlıq vermirdi. Yəqin ki, elə buna görə də, sağınçı qız-gəlinlərə tərifnamə oxumaqda xəsislik göstərməyən

Veysəlin dilindən hər vaxt eşitdikləri adi sözlər Zöhrəyə aid olduqda Lətifənin acığına gəlirdi...

Camaat geniş ferma yolu ilə kəndə dönərkən Zöhrə Lətifənin qolundan tutub saxladı.

– Bir söz soruşsam düzünü deyərsənmi?

Lətifə yumru çənəsini dik tutub, qumral gözlərini süzdürüb xeyli yeridikdən sonra dilləndi:

– Sarı barədə danışmayaq. Bilirəm dərinə qor dolduran nədir... Ancaq heçcə narahat olma. Nahaq yerə davalardan əl çəkmişəm.

Zöhrə bir daha əlini onun qoluna yetirdi.

– Nə əcəb sakitləşmisən?

– Sənciyəzin dərisinə qor doldurannan dil tapmışam, – dedi. – Qoy qor dolmasın. Ürəyin yerindən oynamasın. Açığını deyəcəm. Dədəm kolxoz sədridir deyin, hamı yaltaqlanır dədəmə. O da o adamlardan biri. Muğandan qayıdandan sonra gəldi, gecəni də qaldı. Daha qovmayacaqdıq ki?..

Lətifənin sifəti bircə anda dəyişib, gün altında qalmış zoğal kimi boğuq qırmızıya çaldı. Zöhrənin iri, qaynar gözlərinin nüfuzedici baxışları altında karıxıb gah hörüklərini oynatdı, gah da əyninə dar gəldiyindən yaxasının ortasından partlayacaqmış kimi görünən qoftasının ora-burasını çəkişdirdi. Amma bu hal çox çəkmədi. Lətifə yumru çənəsini yenə dik qaldırıb, gözlərini süzdürüb etinasız bir görkəm aldı.

– Yoxsa yenə dava axtarırsan?

Zöhrə dedi:

– Dava axtaran sənnən belə yanaşı yeriməz.

– Kim sənə deyir ki, mən onu bəndə salmaq istəyirəm? Vaxtı ilə o mənə ayrı göznən baxırdı. Mən də onu istəyirdim. Sən özünü onun üstünə saldın.

Lətifə bu dəfə daha çox qızarıb yenə qoftasının ora-burasını çəkişdirdi. Ancaq özünü tez ələ ala bildi. Kinayə ilə dedi:

– Bu adı mənə verənin heç xəbəri yoxdur ki, onun özünə nə ad verirlər.

Qızın ədalı danışığı Zöhrəni maraqlandırdı, soruşdu ki:

– Yəni mənəmi?

– Bəli, sənə!

– Məsələn, nə ad?..

– Sən fermaya niyə elə alatorandan gedirsən?

– Onun bura nə dəxli var ki?

– Çox dəxli var! Əgər gizlin saxlamaq istəyirsənsə, daha o ayrı məsələ.

Zöhrə:

– Mənim heç kimdən gizlin işim yoxdur, – dedi. – Əgər zəhmət çəkib komsomol iclasına gəlsəydin bilərdin ki, mən hər səhər sağından qabaq inəklərimə göy ot verməyə gedirəm. Mən hamıya dedim ki, qoy onlar da bu cür eləsinlər.

Lətifənin gözləri rişxəndlə qıyıldı.

– Onu da dedinmi ki, sənə o qədər göy otu kim gətirir? Nə əcəb elə can yandırır sənə? Yoxsa o alaqaranlıqda o qara pıspısaya hörmət-izzət eləyirsən? – Lətifə Zöhrəyə gözaltı bir nəzər salıb onun pərt olduğunu gördükdə üstünlüyü əldən verməməyə çalışdı: – Bəs onu da soruşmadılarmı ki, ay qız, yoxsa Kərim dayı da elə buna görə, baldızı oğluna hörmət-izzət elədiyin üçün sənə "Dan ulduzu" deyir? Yəqin ki, Sarı da iclasdaydı, eşitdi, hə? Paho, onda işlərin korlanıb ki, ay qız! – Lətifə artıq heç nədən çəkinmədən, qızıl dişini parıldadaraq açıqdan-açığa ona güldü. O, bu anda Zöhrəni hirslənib özündən çıxmış görmək, bundan zövq almaq istəyirdi. Amma elə bil bu sözlər heç Zöhrəyə deyilməmişdi. Qızın qara uzun qaşları çatılmışdısa da, gözləri eyni sakit, ciddi ifadə ilə baxırdı. O, Lətifəyə hey baxır, elə bil ki, neçə vaxtdan bəri onunla birgə sağınçılıq eləyən bu qızı indiyədək tanıya bilmədiyinə təəccüblənirdi. Birdən qaşları açılıb gözlərinin üstündə sərbəst dairələndi. Dodaqlarında istehzalı bir təbəssüm oynadı.

– Bağışla, səni yolundan elədim. Sağ ol...

– Daha "sağ ol" nə üçün?..

– Mən sənin nə cür qız olduğunu təzə bildim.

– Hm, – deyə Lətifə nazik dodaqlarını büzərək, çiyinlərini atıb ondan uzaqlaşdı və öz-özünə mızıldandı: – Hələ çox şeylər biləcəksən.

Zöhrə isə asta addımlarla evə yollandı.

Köhnə hisslər yenə qəlbini sıxırdı. Sarının bu səhərki laqeydliyi şübhə doğururdu və qız Sarını görməyə, onunla təklikdə söhbət eləyib bu əzabverici şübhələrdən qurtarmağa can atırdı.

O, Sarını yalnız axşam sağından sonra, kəndə qayıdanda gördü.

Onlar ferma yolundan aralanıb, kəndin kənarındakı düzənliyə çıxdılar.

Sakit bahar axşamı idi. Şimaldakı sıra dağlardan axan qar suyu kəsiləndən bəri məcranın lap dibinə sığınmış Aran çayının həzin şırıltısı eşidilirdi. Çay kəndi yarımdairə şəklində qərbdən əhatə etdikdən sonra azacıq sola burulub zərrin ay işığında parlaya-parlaya nəhayətsiz bir düz xətt kimi uzanırdı. Məcranın sarp yarğanları ay işığında sarımtıl rəngə çalırdı. Zöhrə bu yarğanlarda bitən yağtikan otlarının narın ləpələr üzərinə enmiş kölgələrinə baxa-baxa sakitcə yeriyirdi. Ləpələr oynadıqca sanki kölgələr də oynaşır, elə bil ləpələrlə birgə enib qalxırdı. Zöhrə təbiətdəki belə incəliklərə tamaşa etməyi xoşlayırdı. İndi də onun gözləri oynaşan ləpələrdə, kölgələrdə, su daşlara toxunduqca havada bərq vuran sıçrantılarda idi. Lakin fikrini məşğul edən bunlar deyildi... Sarı yenə niyə belə qaraqabaq olmuşdu? Ferma yolundan ayrılanda o, Zöhrənin cavabında: “Elə mənim də sənə sözüm var”, – dedikdən sonra hələ də susurdu. Bu sükut Zöhrənin şübhələrini daha da artırırdı. Qız sinəsində ağrı ilə birlikdə bir darlıq, ürəyində bir sıxıntı hiss edirdi. Getdikcə səbirsizləşirdi: “Yaxşı, bu niyə dillənmir?”

Zöhrə söhbəti özü başlamaq istədi. Lakin elə bu an bir səs hər ikisinin diqqətini cəlb etdi.

Körpünün üstündən otla dolu bir araba keçirdi. Arabada kim isə astadan, yanıqlı-yanıqlı oxuyurdu. “Kim isə” niyə? Qara idi. Kənddəki natamam orta məktəbin yeddinci sinfində oxuyanda “Müntəxəbat” kitabından əzbərlədiyi məşhur şeiri oxuyurdu:

Qaranlıq gecədə səni gözləyib,
Durmaqdan yoruldum, ey dan ulduzu!
Uzaq üfüqlərə göz gəzdirməkdən
Az qala kor oldum, ey dan ulduzu!

Nə qəribə təsadüf idi! İşin bu yerində bu arabaçı böyürdən çıxmasaydı olmazdımı? Görəsən niyə indiyədək çöldə qalmışdı? Bəlkə uzaqdan Zöhrəgili görüb tanımış və haradasa, bu yaxınlarda qəsdən ləngimişdi? Özü də gərək elə bu mahnını oxuya idi?!

Qaranlıq gecədə səni gözləyib,
Durmaqdan yoruldum, ey dan ulduzu!

Qara get-gedə səsini ucaldır, bütün qəlbilə oxuyur, "Dan ulduzu!" – deyə haray qaldırır, yarğanları dilə gətirirdi.

Zöhrənin ürəyi çırpınırdı. Ah, kaş o tezcə uzaqlaşa idi, qıza bu qədər əzab verməyəydi! Axı o yanan ürək Zöhrə üçün yanırdı. Burada isə Sarının ağlına kim bilir nələr gəlirdi... Bu dəqiqə o, Zöhrənin böyründəcə dayanıb qıza elə qəribə bir nəzərlə baxırdı ki... Zöhrə ay işığında onun gözlərini aydın seçə bilməsə də, baxışlarındakı ifadəni hiss edirdi. Bu, nə isə çox qəribə bir ifadə idi. Sarı indiyədək ona heç bu cür baxmamışdı. Arabaçı isə hey oxuyurdu... Zöhrə dönüb o tərəfə boylandı. Elə bu an sol çiynində bir ağırlıq hiss etdi. Sonra o biri çiynində... Sarının əlləri onun çiyinlərindən sürüşüb qollarından tutdu. Bu əllər titrəyirdi. Zöhrə onun gözlərinə baxdı, həmin qəribə ifadəni yalnız indi dərk etdi, diksinib geri sıçradı:

– Sarı!..

Arabaçı yenə oxuyurdu...

– Zöhrə, bax, ya o, ya mən...

Zöhrə quruyub qaldı. Şübhə doğru çıxmışdı. Amma onun heç xəyalına da gəlmirdi ki, Sarı öz istəklisi ilə belə kobudcasına açılışa bilər.

– Bu nə sözdür, Sarı! Bizim ki, sözsüz əhdimiz var, – deyə titrək səslə cavab verdi.

– Əhdə vəfa eləmək lazımdır, Zöhrə!

– Mən nə vaxtdan vəfasız olmuşam, Sarı? – deyə qız köyrəldi. – O sənsən ki, adamın üzünə də baxmırsan. Bir qab olub ağzı üstə çevrilibsən.

Sarı bir addım irəli gəldi, öz uca, yaraşıqlı boyu ilə ay işığının qabağını kəsib, qızın üzünə kölgə saldı. Onun da səsi titrəyir, gözləri isə eyni həris ifadə ilə baxırdı.

– Çevrilmişəm. Çünki səbəbi var, Zöhrə!

– Nə səbəb?

– Mən dedim, ya o, ya mən!

– Axı, mən də cavabımı dedim... İnanmırsanmı mənə, Sarı?!

– Cavab azdır, Zöhrə, – deyə Sarı bacardıqca açıq danışmağa çalışdı. – Mən dünən Çapar kişinin evində idim. Orda sənin öz sağıcı yoldaşın...

– Lətifə?! – deyə Zöhrə onun sözünü kəsdi, – mən bilirəm o sənə nə deyər. Ancaq inanma, Sarı! İnanma! Əgər həqiqətən məni istəyirsənsə inanma... Yalandır hamısı!

– Mən də ona elə dedim... Dedim ki, yalandır. – Sarı yerə baxdı. – Ancaq sən özün gərək bunu sübut eləyəsən. Sübut eləyəsən ki, yalandır. Başa düşürsənmi?.. Sübut!..

– Mən necə sübut eləyə bilərəm ki?..

Sarı elə bunu gözləyirmiş kimi, cəsarətli bir hərəkətlə qıza daha da yaxınlaşıb, nəfəs-nəfəsə dayandı, yenə eyni qəribə nəzərlə onun gözlərinin içinə baxdı. Qollarını qızın gərdəninə doladı.

– Ancaq belə... – deyə o, həyəcanla pıçıldadı. Onun hərəkəti elə iti və gözlənilməz oldu ki, Zöhrə heç əl-qolunu da tərpədə bilmədi. Özünü itirdi, bir an, tək bircə an yerində donmuş kimi dayanaraq, geniş açılmış gözlərlə oğlanın ehtirasın gücündən boğulmuş sifətinə baxdı. Baxdı və sanki hər şeyi elə bu an başa düşdü. Qızdan dəhşətli, tükürpədici bir hıçqırıq qopdu. Sövqi-təbii çırpındı. Lakin gərdəninə dolanmış qollar daha da sıxıldı, məngənə kimi sıxıldı. Nə isə yanağını, o biri yanağını çənəsinin altını yandırdı. Bədəninin bütün əzalarına yayılan hərarəti ömründə ilk dəfə duyan qız, sustalıb sanki huşunu itirdi. Sarının od kimi isti, titrək əllərinin onun budlarında gəzdiyini, hətta onu iki addımlıqdakı otluğa doğru sürüdüyünü hiss etdikdə isə, qız elə bil yuxudan ayıldı. “Sübut” sözünün əsl mənasını yalnız indicə dərk etdi və yenidən çırpındı. Nəhayət, nə etdiyini heç özü də bilmədi. Yalnız onu hiss etdi ki, var gücü ilə havaya qaldırıb endirdiyi sağ əli bərk ağrıdı. Bu hərəkət də Sarı üçün gözlənilməz oldu. Aldığı zərbədən diksinib dik atıldı. Gözlərinin qarşısında qığılcım oynadı. Ətraf qaraldı, zülmətə döndü. Yalnız qulaqları bu sözləri aldı:

– Bir də mənim adımı dilinə gətirmə?..

Sarı ağır yük altından çıxmış kimi, kəsik-kəsik nəfəs ala-ala başını qaldırıb diqqətlə irəli baxdıqda isə qız artıq qarşısında deyildi; körpüdən keçib, sahildən yavaş-yavaş kəndə doğru qalxan ağır yüklü arabanın arxasınca uzaqlaşırdı.

Sarı bir müddət heykəl kimi hərəkətsiz dayanıb onun arxasınca baxdı. Öz aləmində “dilsiz-ağızsız bir qız” kimi tanıdığı Zöhrənin hərəkətindən sarsılmış halda, bir neçə an yerindən tərpənmədi. Sonra: “Fərsizəm”, – deyə düşündü. Birdən qızın dalınca yüyürmək, könlünü almaq, hətta “bağışla” deyib üzr diləmək və onu yenə çay

qırağına qaytarmaq istədi. Hətta yerindən qopub bir xeyli yüyürdü də. Lakin qəfildən ağlına gələn bir fikir onu ayaq saxlamağa məcbur etdi. Dayandı, birdən-birə sustalmış kimi, qollarını yanına saldı, dərindən köksünü ötürdü. "Yəqin Lətifə düz deyirmiş. Yoxsa bu məndən qaçardımı?"

Zöhrənin sıçrayıb arabaya minməsi bu fikri Sarının beynində daha da möhkəmlətdi. Acıqla əlini yellədi və kəsmə yolla evə getdi. Lakin evdə bənd ala bilmədi. Neçə gündən bəri əl dəyməmiş tozlu pəncərələrə, divara qısılmış kimi duran yeganə nazik çarpayıya və üstü yığışdırılmamış stola kədərli bir nəzər salıb həyətə, oradan da yola çıxdı. Yoldan ayrılıb hündür cökə ağaclarının arasiyla uzanan cığıra sarı yönəldi. Bu cığır kolxoz sədrinin evinə gedirdi...

Bəs Zöhrə? Qaradan narazı ola-ola onun arabasına nə üçün mindi? Yoxsa bu yolda bir daha Sarı ilə üz-üzə gəlməmək xatirinə belə etdi? Yox, Sarıdan ayrılanda o, göz yaşlarını güclə saxlayırdı. Bu anda Sarı arxadan yetişib, "məni bağışla", yaxud buna bənzər bir söz desəydi bu saf ürəkli qız, nə qədər incimiş olsa da, əlbəttə, öz xasiyyətinin əksinə gedə bilməyib, ondan qəribə "sübut" tələb edən oğlanı bəlkə də bağışlardı. Lakin adi vaxtlarda gülərüz görünsə də, təbiətində bir inadkarlıq olan, beyninə düşən hər hansı fikirdən çox çətin əl çəkən Sarının şübhələrinin doğru olmadığını sübut etmək üçün qız nə dəlil gətirə bilərdi? Axı Sarı ondan öz rəftarı üçün üzr istəsə belə, ürəyində yenə bir şübhə qalacaqdı. Onu inandırmaq üçün ancaq canlı bir dəlil lazım idi ki, o da göz qabağında idi: Qara... o özü Sarının yanına getsin... Amma adam gərək son dərəcə amansız və rəhmsiz olsun ki, bu yazıq arabaçıya belə bir şeyi təklif edə bilsin! Bu, vurğun arabaçının qəlbinə sağalmaz yara vurmaq deyildimi? Bu, Qaranın gecə-gündüz aran düzündə ucalıb camaatın könlünü oxşayan xoş səsini həmişəlik batırmaq deyildimi? Bu, günah deyildimi? Qaraya belə bir təklif etməyə kimin ürəyi gələr? Bu ürək gərək daşdan olsun!..

Zöhrə bütün bunları yalnız arabanın qolu üstünə sıçrayıb arxasını mixək ətri verən sərin ota söykədikdən sonra dərk etdi, tutduğu işdən peşman oldu, hətta yerə atılmaq istədi, lakin gec idi; sol tərəfdəki kəlin enli, yastı belində yanakı oturmuş Qara ona baxırdı. Qızın gözlənilməz gəlişi oğlanı təəccübləndirmişdi. Hətta ilk anda ona elə gəldi ki, yuxu görür. Bu qədər də aydın yuxu olardı?! Nazik

qoftada bütün gözəlliyi ilə nəzərə çarpan, ağır-ağır enib qalxan çökük sinə, gecə-gündüz arabaçının xəyalından silinməyən o mehriban çöhrə, o qaynar gözlər... Qaranın gözləri önündə ay işığına qərq olmuşdu.

Arabaçı özünü itirdi. Kəlin belindən qalxmaq istədi, dikəldi, ancaq ayaqlarını arabanın nazik qolu üstünə düz qoya bilməyib səndirlədi, papağı başından düşüb təkərin altında qaldı.

– Ho, ho! – deyə cəld yerə sıçradı, papağı götürüb yenə öz yerinə mindi. Papaq başa qoyulası halda deyildi: əzilib toz-torpağa bulanmışdı.

– Eh! – Qara köksünü ötürdü, – bu kənddə məni tanıtdıran bir bu papaq idi, o da sənin ucundan bu kökə düşdü, ay Zöhrə.

Zöhrə özünü saxlaya bilməyib güldü. Özü də elə şirin-şirin güldü ki!.. Elə bil bir az əvvəl baş vermiş hadisəni də, kədərini də unutmuşdu.

– Əgər səni tanıtdıran doğrudan da elə bu papaqdısa, elə yaxşı oldu o hala düşdü, – deyə Zöhrə özünü şən göstərməyə, arabaçıya heç nə sezdirməməyə çalışdı. – Yaxşı, bəs onun qulaqları niyə sallaqdı?

– İpləri qırılıb, ay Zöhrə.

– Niyə tikdirmirsən?

– Eh! – deyə Qara həsrətlə qızı süzdü. – Kim tiksin, ay Zöhrə? Ana yox, bacı yox, yetim oğlanam...

– İsmət xala sənə qulaq asmır?

– Xalam ancaq ərinin nazıyla oynayır. Kərim dayı hirslənəndə arvad o saatca başını itirir. Bir qab qatıq nədir, onu da küçüyün əlindən saxlaya bilmir.

Zöhrə İsmət xalanın necə deyintili arvad olduğunu xatırlayıb gülümsündü.

– Bilirsən, Qara, boynuna al ki, pinti oğlansan. Tutaq ki, İsmət xalanın da macalı olmur, bəs özün?

– Özüm bir dəfə tikmək istədim, iynə dırnağımın altına batdı. Acığım tutdu, atdım yerə, sonra da ha axtardım, iynəni tapa bilmədim.

– Qonşuya gedəydin.

– Mən hər qonşuya gedən deyiləm. Sizə də ki... – deyə birdən Qara zarafatyana başlanmış söhbəti ciddiləşdirdi: – Qorxdum acığın tutar. Axı sən axır vaxtlar yamanca acıqlı olubsan.

– Özün bilirsən mən nə vaxt sənnən acıqlı danışıram, ay Qara.

– Tək mənimlə yox, sənin xətrini hamıdan çox istəyən bir ağsaqqalnan da acıqlı danışırsan, – deyə Qara Zöhrənin Kərim dayı ilə münasibətinə aydınca işarə vurdu. Kərim kişi onu baldızı oğluna istəyib rədd cavabı almışdı. Zöhrə yenidən fikrə getdi. Madam ki, sözü Qara özü açdı, daha o nə üçün sussun? Ancaq haradan başlasın, necə desin? Ürəyindəki sözləri Qaraya söyləmək onun üçün çətin idi. Amma açılışmaq lazım idi.

Araba yolun kələ-kötürlərində yırğalana-yırğalana, taqqıldaya-taqqıldaya, yavaş-yavaş irəliləyirdi. Axşamdan çox keçməmişdisə də, kəndin küçələrində gediş-gəliş kəsilmişdi. Sahil boyunca üç cərgə düzülmüş kirəmitli evlərin pəncərələrindən düşən işıq zolaqları çayla kəndin arasında ucalan cökə ağaclarının dar xiyabanına qədər gəlib çatırdı. Orada, ağacların dibində iki kiçik qaraltı görünürdü. Onlardan biri ağaca dırmaşıb sıx budaqlar arasında görünməz oldu. Bir neçə an keçdi, qəfildən yarpaqların arasından pırıltı ilə çoxlu quş uçdu. O biri ağaclardakı quşlar da qanadlandı, böyük dəstə külək qarşısına düşmüş bulud bölüyü kimi açılıb bükülə-bükülə uzaqlaşıb toranlıqda əridi.

– Tutdun? – deyə aşağıdakı uşaq qışqırdı. Yuxarıdan cavab gəlmədi. Yerdəki bir də qışqırdı:

– Tutdun?

– Quyruğu əlimdə qaldı.

– Düş aşağı, mitil!.. – deyə yerdəki hirsləndi.

Zöhrə uşaqların sözlərinə gülümsündü. Amma təbəssüm dodaqlarında dondu. Quş dəstəsinin yenə açılıb bükülə-bükülə yaxınlaşdığını görən kimi!" Ay can, ay can!" – deyə sevinib tez kölgəlikdə gizlənən uşaqlara qibtə ilə baxdı. Bu anda o, hər cür əzabverici düşüncədən azad olmaq üçün heç nə əsirgəməzdi.

Qara qızın birdən-birə susub cavab verməməsini etinasızlıq kimi qəbul edib, kəlin üstündə yırğalana-yırğalana, qüssəli-qüssəli zümzümə edirdi. Sözləri aydın demir, ancaq ürəyində dolandırırdı: "...Oxşatdım, yanıldım, könül verdim mən..."

– Qara!

Arabaçı bu səsdəki soyuqluğu hiss edib, köksünü ötürdü.

– Nə deyirsən, Zöhrə?

– Qara, səndən bircə xahişim var: o mahnını bir də oxuma!

– Niyə, Zöhrə?

– Elə!

– Axı bunun sənə nə zərəri dəyir, ay Zöhrə? Allahın mahnısınıdamı qadağan eləyəcəksən?

– Sən eyham vurursan, Qara!

Qara bir daha köksünü ötürdü.

– Ürəkdən gələn sözü qadağan eləmək olmaz axı, ay Zöhrə! Ürək dilə gələndə daha neyləyə bilərsən?! – Qara Zöhrəyə elə yazıq-yazıq baxdı ki, qız bu baxışa tab gətirməyib başını aşağı saldı. Həyəcandan titrəyən bir səslə bildirdi:

– Mən sözümün əvvəlini dedim, Qara, sonrasını da deyirəm ki, biləsən: sən məni bədbəxt eləyirsən.

– Bədbəxt?! – Arabaçı ömründə bu qədər təəccüblənməmişdi. – Bədbəxt dedin?!

Bədbəxt, – deyə qəhərindən boğulan qız gözləri yaşla dolmuş halda pıçıldadı.

– Kim sənin bədbəxtliyini istəsə də, arabaçı Qara istəməz, Zöhrə! Bax, xalq bu saat evində oturub kef eləyir, ancaq mən Kərim dayıma yalvarıb-yaxarıb bu kəlləri almışam ki, gecəykən sənin inəkləriyin otunu hazır eləyim. Sənin "Malyutka" inəyin əvvəllər beşcə litr süd verirdi. İndi qalxıb ona. Bənöyüş də, Qızıl inək də onun kimi...

Zöhrə:

– Sabahdan o yana sən hamıya ot gətirəcəksən, komsomol iclasının qərarını heyətə vermişəm, – dedi və arabaçının xeyirxahlığının, səmimi sözlərinin müqabilində öz cavabının nə qədər soyuq olduğunu duyub, xəcalətindən üzünü sinəsində gizlətdi. Birdən başını qaldırıb kimsəsiz küçəyə ani bir nəzər saldı və yerə atılıb evlərinə doğru yüyürdü.

O yüyürür, küçədə adama rast gələcəyindən qorxub göz yaşını boğur, tez özünü həyətə salıb ürəyini boşaltmaq istəyirdi. "İndi o mənim barəmdə nə fikirləşəcək? Yaxşılığının əvəzində "sağ ol" dedim!.. Gör sən məni nəyə məcbur elədin, Sarı!"

Qulağına səs gəldi:

Mən sənin eşqinlə ilhama gəldim,
Şəninə söz qoşdum, ey dan ulduzu...

Zöhrə dayanıb əllərilə üzünü örtdü. Göz yaşları öz-özünə axdı...

## 4

Çapar kişinin evi kəndin lap qurtaracağında, söyüd şivindən hörülüb saman qarışıq palçıqla suvanmış hündür bir hasarın içində tikilmişdi. Gündüz kənardan baxanda hasarın dibi uzunu cərgələnmiş yaşıl çinarların arasından evin tənəkə ilə döşənmiş damı, ikinci mərtəbənin divarının bir qismi və balkonun göy rəngli məhəccərinin üstü görünürdü. Bir vaxt vardı nə divar, nə də məhəccər nəzərə çarpardı. İplərə dolana-dolana dama qədər dırmaşan sarmaşıqlar hər şeyi yaşıl dona bürüyərdi. Hər il iyun ayı girdikdən sonra bu sarmaşıqların kölgəsində oturub tərləyə-tərləyə tünd çay içmək, sonra da tük basmış ətli sinəsini açıb havaya vermək Çaparın xoşuna gəlirdi. Lakin keçən ilin avqustunda çay dəstgahını içəriyə köçürmüşdü. Çünki sarmaşıqlar qəfildən, bir neçə günün içindəcə solub qurumuş, gözəl yaşıllıq əvəzinə buruq-buruq olub iplərə yapışmış boz liflər qalmışdı.

Çapar qapı-bacaya hər şeydən çox fikir verən adamdı. Söyüd şivindən hörülmüş hasarın içində nə desən tapılmazdı?! Alma, armud, heyva, nar, bir sözlə, aran yerində ərsiyə gələ bilən hər növ ağacları olan zəngin bağın yanındakı boş yerdən Çapar çox bacarıqla istifadə etmişdi. O, burada mal töyləsindən, arı yeşikləri saxlamaq üçün çardaqdan, toyuq hinindən və sair bu kimi şeylərdən başqa yayın isti günlərində çimmək üçün hovuz tikdirməyi unutmamışdı. Çapar bütün boş vaxtlarını bu tikililərin, arı yeşiklərinin, ağacların, cərgə ilə uzanan göy-göyərti ləklərinin arasında keçirirdi. O adəti üzrə əllərini qarnının üstündə çarpazlayıb, balkonda dayanaraq öz təsərrüfatını seyr etməyi çox xoşlayırdı. Çapar öz təsərrüfatına vurğunluğunu heç kimdən gizlətmir, hətta bəzən açıq-açığına deyirdi ki: “Vəzifə də, başqa iş-güc də, hamısı gəldi-gedər şeylərdir. Ancaq bax, bu qapı-bacadakı cah-cəlal həmişəlikdir; gen günüyün səfası, dar günüyün dəvasıdır. Bunlardan əl çəkmək başlı-başına buraxmaq olmaz”. Doğrudan da hamı aydınca görürdü ki, bu hasar içindəki təsərrüfatın kiçik bir guşəsi belə baxımsız qalmır.

Bəs sarmaşıqlar birdən-birə niyə qurumuşdu?

Bu, əlbəttə, səbəbsiz deyildi. Keçən il yazın əvvəllərində kəndə birdən-birə belə bir xəbər yayıldı: “Çapar ikinci arvadını da boşayır”.

– Niyə?

– Deyirlər bəs Fatma əldən-ayaqdan küt arvaddır, Çaparın qonaq-qarasını yola verə bilmir, kişinin üzünü qara eləyir.

– Bunun hamısı yalandır, sədrin əvvəlki arvadından qalan qız – Lətifə Fatmanı yola aparmır. Gündə bir şeyin üstündə saç-birçək olurlar. Üstəlik də Çapar arvadı döyür, dava-şava qaldırır.

Bunun ardınca yayılan başqa bir xəbər isə Sərkərliləri daha çox inandırdı:

– Papaqçıların Zalxası Fatmaya deyib ki, nəvəm Zöhrəni zootexnik Sarıya verəcəm. Fatma da qızlığı Lətifəyə deyib ki: "Hər gün pişiyim-pişiyim eləyib ərini əzizləmə. Adamı var onun". O vaxtdan qız arvadın gözündən alıb, hər gün atasına şikayət eləyir...

Nəhayət, bütün bu danışıqlara axırıncı bir xəbər yekun vurdu; fermada səhər sağını zamanı İsmət arvad öz yoldaşlarına dedi:

– Fatma sədrin evindən qaçıb rayona, qardaşının yanına gedib.

Doğrudan da kənddə Fatma adı daha çəkilmədi. Fatma o gedəndi ki, getdi, bir də qayıtmadı.

Bu hadisə baş verən günlərdə Çapar öz qızına bildirdi:

– Daha sən işə-zada gedə bilməzsən. Qapı-bacanı gözdən qoymaq olmaz. Kərimə deyərəm, sənin inəklərini başqalarına tapşırarlar.

Çapara elə gəlirdi ki, ərköyün bəslədiyi qızı yenə mısmırığını sallayacaq: "Sən məni dörd divar arasında qoymaq istəyirsən", – deyə dodaqlarını büzəcəkdir. Lakin Lətifənin dodaqları büzülmək əvəzinə təbəssümdən açıldı, qızıl dişi parıldayıb dodaqlarda əks etdi...

...Lətifənin günü evdə çox yaxşı keçirdi. Atası üçün xörək-çörək hazırladıqdan sonra, gah öz paltarlarının səliqəsilə məşğul olur, gah qonşulara söhbətə gedir, gah da bağçada göy-göyərtinin alağını çəkir, hətta əlinə bel götürüb ağacların dibinə arx çəkir, bir sözlə, qapı-bacaya can yandırırdı. Bunları görən Çapar:

– Belə ha, belə ha! – deyə enli əllərini qarnına sürtə-sürtə, şax dayanıb qımışırdı. – İşləyirsən, qızım, işlə. Onsuz da bu qapı-baca, bu cah-cəlal hamısı sənə qalacaq. Yaxşı işlə! Qorxma, dədən səni yad qapısında, qaynana tapdağında qoymayacaq.

Atasının eyhamını Lətifə çox gözəl anlayırdı. Yəni: "Bax, var-dövlət olsa, ər də bu cah-cəlalın içinə öz ayaqlarıyla gəlib çıxacaq, sən də yad qapıya düşməyib, bu uca çinarların arasındakı iki mərtəbəli ata evində, bu hündür hasar içindəki bağ-bağçanın səfalı qoynunda, süd gölündə üzəcəksən..."

Lətifə fermanı, sağınçı qız-gəlinləri unutmuşdu. Araxacın iyini, hesablayıcı Veysəlin yanında gün altında yana-yana növbəyə durduğunu yadına salanda isə nifrətlə üz-gözünü turşutdurdu. Hərdən qızlarla söhbətə başı qarışıb, buzovu inəyin altından çəkməyi unudarkən Kərim dayının necə hirslənib söyləndiyini yada salanda isə o: "Yaxşıca canım qurtardı", – deyə öz-özünə pıçıldayırdı və dərhal bunların hamısını beynindən çıxarıb tamam başqa şeylər haqqında düşünməyə başlayırdı.

Papaqçıların Zalxasının dediklərini eşitdikdən sonra Lətifə heç də fikrini dəyişməmişdi. "Hər gün pişiyim-pişiyim eləyib əzizləmə", – deyə nəsihət etmiş analığının sözləri, analığı evdən gedəndən sonra qızın qulağında heç milçək kimi də vızıldamırdı. O, hər dəfə Sarını gördükdə, adəti üzrə, yumru çənəsini dik tutub qumral gözlərini süzdürərək zarafatyana bir əda ilə:

– Tək oğlansan, evinə qapılma. Bişirib-düşürənin də yoxdur, gəl, süfrəmiz sənin üçün həmişə açıqdır, – deyirdi.

Sarı bu qarabuğdayı, yaxşı yeyib-içib ətə-qana dolmuş qızın belə qonaqpərəstliyindən bezikmədən, onun sözünü yerə salmırdı. Sarının öz evində çox qalmasından, yalnız Lətifənin çağırışına gəlməsindən Çapar bəzi atalar kimi qaş-qabağını sallamırdı. Niyə da qaş-qabaq sallamalı idi? Kişi özü işarə vurmamışdımı ki, Lətifəyə Sarıdan yaxşı ər kim ola bilərdi? Doğrudur Çapar zootexnikin xasiyyətinin bəzi cəhətlərini xoşlamırdı – Sarı bəzən çox dikbaşlıq edir, yaşca özündən böyük adamlarla təhərli-təhərsiz mübahisəyə başlayır, "ağsaqqallıq hörməti" saxlamayıb sözünü göyərdirdi. Ancaq Çapar bundan heç də incimir: "Cavan qanı qaynar olar, qoy hələ kefi istəyəni eləsin", – deyir və çox zaman Sarını evə özü təklif edirdi. Günlərin birində o, qızına, hətta necə deyərlər, balabanda qandırdı ki, "başı yaylıqlının adı kiminlə çıxsa, gərək canı da onnan çıxsın".

Bundan sonra Lətifənin ata yanında üz-gözü açıldı, Çaparın qarşısında "yoldaş zootexnik" deyə zarafatyana bir əda ilə Sarının adını çəkməkdən utanmadı.

Çapar hər gün işdən qayıdanda qızını şən, oynaq görməyə adət etmişdi.

Lakin bir axşam...

Çapar qapını açanda təəccübdən donub qaldı.

Lətifə divarın dibində, enli, uzun xalının bir küncündə büzüşüb hıçqıra-hıçqıra ağlayırdı. Hıçqırdıqca ətli çiyinləri titrəyirdi.

Çaparın gərilib qarnının üstündə duran qara tüklü, iri, ağır əlləri yanına düşdü, gözləri geniş açıldı.

– Nə olub, ay qız?

Lətifə özünü atasının üstünə salıb hönkürdü. Çapar daha da qorxuya düşdü. Sualını təşvişlə təkrar etdi, cavab əvəzinə yenə hönkürtü eşitdikdə isə, ovuclarını qızın həddindən artıq saç yağı sürtülməkdən işıldayan sığallı gicgahlarına söykəyib onun başını dik qaldırdı, altı-üstü şişmiş gözlərinə baxdı.

– Yoxsa, yenə o kaftar Zalxa qanını qaraldıb?

Lətifə başını buladı, hönkürtüsünə güclə ara verib:

– Zalxa yox, – dedi, – Zöhrə...

– Zöhrə?!

Qız daha atasından sual gözləmədən onun bu hala düşməsinə səbəb olmuş hadisəni nağıl etməyə başladı.

Öz aləmində nəzərdə tutduğu ciddi bir əhvalat əvəzinə, günortaüstü Zöhrənin Lətifəni komsomol iclasına çağırdığını və orada qıza işə çıxmaması üstündə tapşırıq verildiyini eşitdikdə Çapar dərindən nəfəs alıb, məzəmmətedici nəzərlə qızını süzdü.

– Sən də bundan ötrü gözüyün qorasını sıxırsan? – deyə hətta acıqlandı da. – Dəli!.. Komsomoldan tapşırıq almaq nədir ki?.. Belə şeydən ötrü qoy o adam dərd çəksin ki, zəlildir, çörəyə möhtacdır, qoy o adam ağlasın ki, komsomoldan dördəlli yapışmaqnan bir mərtəbəyə çatmaq istəyir, çörək yiyəsi olmaq istəyir. Sənə nə olub? Sənin, bax, mənim kimi adlı-sanlı atan var. Lap qoy çıxartsınlar komsomoldan! Haran əksiləcək? Varın, dövlətin, adın-sanınmı?.. Yoxsa bu hasarın içindəki cah-cəlalı əlindən alacaqlar?..

Çapar bu danlaqdan sonra qızının qaş-qabağının açılacağını güman edirdi. O, Lətifənin belə bir əhvalatdan mütəəssir olub, hətta bu qədər hönkürməsini heç xəyalına da gətirməzdi. Buna görə də indi acıqlanıb:

– Bax, mənə partiyadan tapşırıq versələr, o başqa məsələ, mənim adım-sanım, vəzifəm var, – deyir, danla-dalaş eləyir, ürəyində isə: "Lətifə ola, Lətifə də tapşırıq almaqdan ötrü gözünün qorasını sıxa?" – deyə şübhə ilə fikirləşirdi.

– Axı, o qız məni abırdan salır, dədə! – deyə Lətifə cavab verdi. – Gözdən salır.

Qəfildən Çaparın ağlına bir fikir gəldi. Tez soruşdu:

– Kimin gözündən salır, ay qız?

– Nə bilim, adam yoxdur?

Çapar bir an nə isə fikirləşdikdən sonra xəbər aldı.

– Sarı da ordaydımı?

Lətifə başının işarəsilə təsdiq etdi. Nəhayət, Çapar məsələni anladı.

– Hm-m... – deyə mənalı-mənalı mızıldanıb otaqda var-gəl etdi, ağır gövdəsini stula yıxıb barmaqlarilə stolu tıqqıldatdı və yalnız bundan sonra başını qaldırdı: – Yəqin o da sənə bir söz dedi, hə?

Lətifə başını tərpətdi.

– Nə dedi?

– Dedi işə çıx... – Lətifə atasilə açıq danışdı: – Ancaq bunun hamısı o Zöhrənin öyrətməsidir, dədə! Yoxsa o... ərim.... belə sözü dilinə almazdı, gözümün içinə “tənbəlsən” deməzdi.

Çapar qızının fikrinə şərik çıxdı:

– Olar, olar, bala! İnanıram. O Papaqçılar nəslini mən yaxşı tanıyıram. O qızın atası Alının cındırından cin hürkərdi, di gəl ki, ayağını yorğanına görə uzatmazdı. Elə anası Məhbubə də onun kimi... Addım başında bizə dolaşardılar... Üzdə, baxardın ki, dinməz-söyləməz, fağır adamlardır. İclasa-filana gələndə danışmasaydılar deyərdin bunlardan yazığı yoxdur. Di gəl ki, dilləri!.. Başlardılar ki, nə bilim Çaparın varı belə, dövləti belə... Bu da o dərin getmişlərin qızıdır də. Ürəyinin qurdu tərpəşib, məsələni aparıb iclasa çıxardıb. Ərinin də beynini doldurub. Nə isə... Gərək gedəsən də...

Lətifə işə çıxmalı oldu. Lakin heç də könülsüz getmədi. Əksinə, işdə bütün sağınçıları, daha doğrusu, Zöhrəni vurub keçməyə, “gör indi tənbəl kimdir?” deyə Sarının sözünü özünə yedirtməyə, özünü onun gözündə yüksəltməyə, məqsədinə çatmağa getdi.

Qız, hər yerdə, hər addımda belə adının birinci çəkilməsi üçün can yandırırdı. İşi bir az yaxşı gətirən kimi o, dərhal yumru çənəsini dik qaldırıb, gözlərini süzdürərək, Zöhrəyə istehzalı nəzərlərlə baxır, ona meydan oxuyurdu. Adi bir şey, hesablayıcı Veysəlin öz tərifnamələrini başqa qız-gəlinlərə aid etməsi belə, dərhal Lətifəni

özündən çıxarırdı. Qız od-alov olub ətrafını yandırırdı. Bəzən axşamlar da fermadan çox gec qayıdır, öz inəklərinə gizlincə jmıx, kəpək daşıyıb yedirdirdi. Heç özü də hiss etmədən, bir zaman bütün varlığı ilə bağlandığı bağ-bağçaya, qapı-bacaya gözünün ucu ilə də baxmırdı.

Lətifədəki bu dəyişiklik çox az müddətdə, işə çıxdıqdan sonra bir həftənin içindəcə əmələ gəldi. Bu səbəbdəndi ki, Çaparın baxımsız qalmış sarmaşıqları da qəfildən, bir neçə günün içindəcə quruyub iplərə yapışdı. Evdə, həyətdə, bağçada da bir baxımsızlıq nəzərə çarpmağa başladı...

– Qızım, belə olmaz axı, bir qapı-bacaya da fikir ver, – deyə Çapar hərdən dodaqucu etiraz etsə də, çox zaman susurdu. Susurdu, ona görə ki, qapı-bacanı nizama saldırmaq olardı. Çapar yalnız işlək bir adam, daha doğrusu, ona işi düşən "fəqir-füqarələr"dən birini tapsaydı, yaxud bir az pulundan keçsəydi hər şey düzələrdi. Sarı əldən çıxanda isə onu heç bir pulla geri qaytarmaq olmazdı.

Sarının bu evdən üz döndərməsi isə təkcə Lətifə üçün deyil, elə Çaparın özü üçün də xeyirli deyildi.

Sarı Çapara lazımlı adamdı. O, bunu Sarının institutdan gəldiyi lap ilk günlərdə hiss etmişdi.

Bu son günlərdə isə Çapar bunu dərindən dərk etdi...

İdarə heyətinin iclası idi. Çapar iclasın lap ilk dəqiqələrindən pərt olmuşdu. Kərim Sərkərloğlu deyirdi ki, ferma işçiləri arasında kolxozun rəhbərliyinə qarşı bərk narazılıq əmələ gəlib: hələ keçən ilin dekabrından söhbət gedir ki, ferma bir daha yaylağa köçməyəcək, oturaq həyata keçiləcək, heyvanlar geniş, işıqlı, sərin töylələrdə saxlanılacaqdır. Bunun üçün bu il hələ qar yerdən götürülməmişdən Kərim Sərkəroğlunun özünün, partiya təşkilatçısı Yunus kişinin, Çaparın, Sarının və başqa heyət üzvlərinin iştirakilə tədbir töküldü. Məsləhət görüldü ki, yayda mal-qaranı göy yemlə təmin etmək üçün xüsusi yemçilik briqadası təşkil edilsin; yonca, sudanotu və qarğıdalı əkini üçün sahələr ayrılsın. Bu tədbirlərin hamısı həyata keçirildi. Yemçilik briqadası partiya təşkilatçısı Yunus kişiyə tapşırıldı. Yunus kişi deyilənlərin hamısını yerinə yetirdi. Hətta yoncanın dəmyədə faraş gəlməyəcəyindən ehtiyat edib, heyvana korluq verməmək üçün Dərə adlanan yerdə xüsusi

biçənək ayırdı, öz briqadasının üzvlərindən birini Dərəyə qoruqçu göndərdi. Kərim Sərkəroğlu da, onun işçiləri də Yunus kişinin gördüyü işdən çox razıdılar. Lakin bəs, fermanın oturaq həyata keçməsi üçün əsas şərt – mədəni töylələr?.. Artıq may ayı qurtarhaqurtardır. Bugün-sabah iyun girəcək, gün göydən alov saçacaq, Aran düzünün örüşlərində ot yanıb külə dönəcək, sağmal inəkləri, buzovları sərinə çəkmək, bordaqda saxlamaq lazım gələcəkdir. Töylələr hazır olmasa heyvanlar harada saxlanılacaq? Kərim Sərkəroğlu düz on yeddi ildir ki, fermada işləyir və o, indi qətiyyətlə bildirir ki, on gün, yarım ay ərzində mədəni töylələr hazır olmasa, "Engels" naxırı təhlükə qarşısında qalacaq. Bu məsələ kolxoz sədrini nə üçün maraqlandırmır?

Öz stolunun arxasında oturmuş Çapar çox danışan, şikayətcil ferma müdirinin sözlərindən daxilən narahat olsa da, cınqırını çıxarmadan stulda yayxanıb, istehzalı nəzərlərlə müdiri süzürdü. Onun etiraza, tikintinin bu vaxtadək ləngiməsində özünün taqsırkar olmadığını sübut etməyə sözü vardı. Lakin hələlik susur, əllərini qarnının üstündə çarpazlayıb nəyi isə gözləyirdi. Arabir özü ilə yanaşı oturmuş Sarıya, sonra Yunus kişiyə baxır, ferma müdirinin sözlərini onlara nə cür təsir etdiyini müəyyənləşdirməyə çalışırdı.

Ferma müdiri isə hey təkrar edirdi:

– Bu məsələ niyə maraqlandırmır bizim sədrimizi, a qadan alım?

Partiya təşkilatçısı yerindən dilləndi:

– Bilmirsən məgər, ay Kərim? Bizim sədri ancaq öz hasarının içi maraqlandırır.

Yunus kişi yaşıl örtüklü stolun dalında oturub çal, burma bığlarını sığallayırdı. Onun bic-bic baxan qara qaynar gözləri həmişəki kimi yenə gülürdü, Bilmək olmurdu ki, partiya təşkilatçısı zarafat edir, yoxsa ciddi fikir söyləyir. Atmacası ilə hamının diqqətini özünə cəlb etdiyini, hətta danışmağa başlayanda sözünə ara verməyən Kərimin də susub ona baxdığını gördükdə, azacıq dikəldi.

– Bilirsiniz nə olub? – deyə birdən əlinin hərəkətilə Kərimə oturmaq işarəsi verib, təbəssümdən qıyılmış gözlərilə ətrafdakıları süzdü və iclasda olduğunu unutmuş kimi, gözlənilməz, həm də qəribə bir əhvalat danışdı: – "Oktyabr" kolxozunun sədrini tanıyırsınız? Bicin birisidir. Cavan oğlandır, di gəl ki, at işləməz yolları var. O gün mənə söyləyir ki, bəs Yunus dayı, sizin sədriniz axı çox

pis iş görüb, amma sənə deməyə utanıram. Doğrudan da, çox utana-utana danışdı. Ancaq özünüz bilirsiniz ki, mən utanan deyiləm. Bir də burda arvad-uşaq yoxdur ki, utanasan. – Burada Yunus kişi dönüb sədri eyni gülümsər nəzərlərlə gözdən keçirdi, yenə əlini bığına çəkib davam etdi: – Axı, bizim Çaparın keçən dəfə Biləcəridən taxta-şalbansız qayıtmasının səbəbi var. Bu saqqalda adam gedib orda qıza sataşıb, tutub rayona aparıblar, düz bir həftə saxlayıblar. Taxtanı da ki, "Oktyabr" kolxozunun sədri alıb gətirib...

Çaparı elə bil iynə ilə sancdılar. Lakin o, özünü tez doğruldub birdən-birə şaqqıltı ilə güldü.

– Ə, Yunus, yəni sən də belə şeylərə inanırsan? "Oktyabr"ın sədrini tanımırsan?

– Tanıyıram, sözünə də inanıram, Çapar!

– Əşi, burax, canım!.. Yəni doğrudan da inanırsan?

– Heç Yunusun yalan danışdığını görmüsən?

– Sənin yox, onun...

– O da yalan danışan oğlan deyil.

Çapar qızardı. Ancaq yenə zarafata keçdi:

– Ə, yəni mən arvadbazam?

– Lap yekəsindən.

– Ə, zarafatı boşla, Yunus!

– Mən zarafat eləmirəm.

Ferma müdiri aralığa söhbət salmasaydı, məsələ bəlkə daha da ciddiləşəcəkdi. Kərim Sərkəroğlu yenə tikintinin sürətləndirilməsi üçün tədbir görmək haqqında danışmağa başladı.

O, tələb edirdi ki, MTS-dən texnika gətirilsin, inşaat briqadasına kömək etmək üçün sahə briqadalarından bir neçə nəfər adam tikintiyə göndərilsin.

Hamı ona qulaq asırdı. Yalnız Sarının fikri başqa yerdə idi; heyrətlə partiya təşkilatçısına baxırdı. Sarı bilirdi ki, burada oturmuş kişilərin hamısının bir-birilə araları açıqdır, bir-birilə təklikdə hər cür söhbət edə bilərlər. Lakin Yunus kişinin bu qədər adamın arasında sədrin arvadbazlığından danışması ona olduqca təəccüblü görünürdü. Bu təəccüb Sarının Yunus kişinin təbiətinə hələ yaxşı bələd olmamasından doğurdu. O, bilmirdi ki, bu balacaboy, burmabığ, gümrah adam lap cavanlığından "iyirmibeşminçilər" sırasında Bakı neft mədənlərindən gəldiyi günlərdən elan etmişdi

ki, “mən hər cür yalançı etikanın düşməniyəm”. Çaparın əhvalatını nağıl edəndə də yəqin fikirləşdi ki, xalq işini şəxsi zövqə qurban verən adam haqqında susmağın etikaya heç bir dəxli yoxdur. Sarı bilmirdi ki, Yunus kişi, özünün dediyi kimi, belə əhvalatları açıq-açığına danışmaqdan utanan, çəkinən adam deyildi. Yunus kişinin hərəkəti Sarıya çox kobud bir hərəkət kimi görünürdü. Bəlkə də bu, onun partiya təşkilatçısını ümumiyyətlə xoşlamadığından irəli gəlirdi? Axı, Sarı hiss edirdi ki, nədənsə Yunus kişi ona xoş nəzərlə baxmır. O, özünü bu balacaboy, burmabığ kişiyə göstərməyə fürsət axtarırdı. İndi fürsət düşmüşdü.

Heyət üzvləri tezliklə tikintiyə material tapmağı kolxoz sədrinə “bir vəzifə olaraq tapşırıb” ayağa qalxanda Sarı partiya təşkilatçısını yaxaladı; çox quru və rəsmi ahənglə:

– Sənin bu qədər adam içində yoldaş sədr haqqında elə danışmağın heç yaxşı deyil, – dedi. – Axı bir etika lazımdır!

Yunus kişi əlini bığına çəkib, zootexniki bir başdan-ayağa, bir ayaqdan-başa gözdən keçirdi və gülümsündü:

– Belə çıxır ki, sən etika tərəfdarısan, bacıoğlu?

– Bəli!

– Bəs elə isə mən boyda ağsaqqal adama niyə “sən” deyirsən? Axı mənim sənin iki yaşın qədər yaşım var.

Sarı qızardı. Başqa söz tapa bilmədiyindən belə cavab verdi:

– Mən sizi özümə yaxın hesab eləyirəm. Ona görə sizə “sən” deyirəm.

Yunus kişi qəhqəhə çəkib, bədəninə görə iri görünən cod dərili əllərilə Sarının çiynindən tutub qapıya – Çaparın yanına doğru itələdi.

– Get, bacıoğlu, get... Sənin mənnən mübahisəyə girişməyinə hələ çox var. Özün sübut eləyirsən ki, sən məndən çox bizim Çapara daha yaxınsan. Qaldı ki, mən o sözləri heç də boşlu-boşuna demədim. Biz o məsələ ilə xüsusi məşğul olacağıq.

Sarı baxışları adamı ox kimi dəlib keçən bu burmabığ adamın qarşısında yenə də heç bir cavab tapa bilməyib, Çaparla birgə idarədən çıxdı.

Onlar bir müddət dinib-danışmadan addımladılar.

Sükutu Çapar pozdu:

– Mən çox şadam ki, sənin mənə yaxınlığını o da bildi, – dedi.

– Qəribə adamdır, – deyə Sarı mızıldandı.

Çapar qımışdı:

– Hələ çox qəribəliyini görəcəksən.

– Əşi, yəni elə də şey olar?

– Nəyi deyirsən?

– Sizin guya qıza sataşmağınızı...

Çapar təkrar qımışıb, salavat çevirirmiş kimi, əlini biz-biz çal tükləri çıxmış çənəsinə çəkdi.

– Bəyəm qıza sataşmaq olmaz?

– Nə bilim, vallah, yoldaş sədr... Sizə yaraşdırmıram.

– Bəs sən özün necə? Heç elə iş eləməmisən?

– Mən?.. – Sarı yerə baxdı, dillənmədi. Çapar isə onun cavabını gözləmədən:

– Bilirsənmi, onun mənim barəmdə hər cür sözə inanmağının səbəbi nədir? – dedi. Lakin "səbəbi" izah etməyib gözlənilmədən soruşdu: – Bura bax, yoldaş zootexnik, yoxsa sən də mənim bu arvad məsələmə o partkom kimi baxırsan?

Sarı sualı başa düşmədi. Çapar izah etdi:

– Bax mənim arvadım üzümə ağ oldu, mən də boşadım. Sən necə baxırsan bu məsələyə?

– Məncə, arvadın arvad yeri var, kişinin kişi yeri. Arvad nəkarədir ki, kişinin üzünə ağ olsun!

– Deməк, sən eləsini almısan ki, öl desən öləcək, qal desən qalacaq? Beləmi başa düşək səni, yoldaş zootexnik?

– Mən arvadı ayrı cür təsəvvür eləyə bilmirəm.

– Afərin!.. Belə görürəm, vallah, Yunus kişi peyğəmbərlik eləyib. Biz doğrudan da bir-birimizə yaxın adamlarıq.

– Mən buna şübhə eləmirəm.

Sarı yol ayrıcında dayandı. Çapar ərklə onun qoluna girdi.

– Gedək, əşi! Arvadını niyə tək qoyursan? Gedək görək bizim qara qız nə bişirib... Sənnən söhbətim də var.

Sarı etiraz etmədi. Cökə ağaclarının arasilə uzanan cığırla irəliləyib, hasarın darvazasından içəri girdilər. Çapar aşağıdan qışqırdı:

– Qara qız, yeməyə nəyin var?

Lətifə balkona çıxıb Sarını dədəsinin yanında gördükdə gülümsündü.

– Hər şey! – dedi. – Gəlin bir az gözləyin, bu saatca...

– Yaxşı, onda biz elə burda, ağacın altında oturub gözlərik, hazır olanda çağırarsan.

– Yaxşı, nə olar, ay dədə, oturun, – deyə Lətifə balkonun döşəməsində gurultu sala-sala içəri yüyürdü.

Çaparla Sarının həyətdəki gilas ağacının altında nazik, uzunsov skamyada oturdular.

Aylı, ulduzlu bahar axşamı idi. Ayın işığında Çaparın həyətindəki bütün cah-cəlal görünürdü. Sarı ikiaddımlıqda astadan uğuldayan arı yeşiklərini, tarda hərdənbir qıqqıldaşan toyuqları, çəpərin dibində gövşəyən harın camışları, bu yanda yarpaqları titrəşən, ahəstə xışıldayan meyvə ağaclarını seyr etdi və heç özü də hiss etmədən birdən səsləndi:

– Gözəldir!

– Hə, gözəldir, yoldaş zootexnik! – deyə nədənsə Çapar köksünü ötürdü. Bir azdan əlavə etdi: – Ancaq heyif ki, bunu gözü götürməyənlər var.

Sarı maraqlandı:

– Siz kimi nəzərdə tutursunuz?

– Elə hamını! Bax, biri elə o Yunus kişi, o Kərim Sərkəroğlu... Mən səni özümə oğul kimi bilirəm. Sənə ürəyimi aça bilərəm...

– Əlbəttə! – deyə Sarı tələsik onun sözünü kəsdi.

Çapar dönüb hasarın içinə göz gəzdirərək:

– O adamların ikisi də, açığını deyirəm, mənim paxıllığımı çəkirlər, – dedi, – əllərində imkan olsa məni elə günü bugün sədrlikdən götürərlər.

Sarı zarafatyana soruşdu:

– Yəni bacararlar?

– Bacararlar! – deyə Çapar ciddi cavab verdi. – Ancaq çalışmaq lazımdır ki, bacarmasınlar. Bu da, bax, Yunusun öz sözü olmasın, mənim yaxın adamımdan çox asılıdır.

– Məndən? – Sarı şəhadət barmağını sinəsinə tuşlayıb təəccüblə dikəldi. – Məndən nə asılıdır, yoldaş sədr?

– Çox şey!.. Bax, keçən ilə qədər bu kəndin heyvanı yaylağa gedirdi. Bu ildən özün bilirsən ki, dövlət qərarı var; heyvana aranda şərait yaratmaq lazımdır. Mən də ki, buna rayon rəhbərləri qabağında birinci söz vermişəm. Burda da ki, bu köpəyuşağı məni

görürsən necə sıxma-boğmaya salırlar. Bu il heyvanı yayda saxlaya bilsək, kolxozun başqa təsərrüfat sahələrilə yanaşı, ferma da planı doldursa, inandırıram səni, bir köpəyoğlunun mənə dişi bata bilməz.

– Nə qədər ki, mən bu fermadayam, o barədə arxayın olun! – deyə Sarı əlini sinəsinə vurdu.

– Varam sənin bu döşünə döyməyinə, yoldaş zootexnik!

Yuxarıdan Lətifənin səsi eşidildi. Onlar evə girib "qara qızın" bişirdiyi xörək-çörəkdən yedikdən sonra yenə bağa endilər və gecəyarıdan keçənədək söhbət etdilər.

Çapar Sarının ona düşündüyündən daha lazımlı adam olduğunu, bax, həmin bu gecə dərk etdi. O fikirləşdi ki, belə bir kürəkəni heç vəchlə əlindən buraxmayacaqdır.

## 5

Ay göy qübbəsinə yüksəlmiş, cökələrin kölgələri qısalıb cığırın üstündən çəkilmişdi. Bir vaxt bu cığırı Papaqçılarla Çaparın evi arasında Fatma salmışdı. Buradan Fatmanın ayağı kəsildikdən sonra tapdalanmış otlar yenidən baş qaldırıb göyərmişdi. İndi isə otları Sarı tapdayırdı. Amma o, balaca boylu, iti yerişli, xırda addımlı Fatma kimi tələsik-tələsik yeriyib ayaqqabılarının burnu ilə ot komalarını didib tökmür, çox asta-asta addımlayır, ayağını basdığı yerin otu xıncılıb daha dirçəlmirdi. Sarı yavaş yeriyir, çünki tərəddüd edirdi. Axı o, gecənin bu vaxtında Çaparın evinə nə üçün gedirdi? Heç özü də bilmirdi. Qayıtmaq da istəmirdi. Kimsəsiz evin divarları sanki ac qurd olub onu yeyəcəkdi. O divarlara, o toz basmış pəncərələrə, o üstü qatmaqarışıq olmuş stola bir daha qonşu qızının əllərinin dəyməyəcəyini düşündükcə Sarının qanı daha da qaralırdı.

O, çox zaman düşüncə, soyuq mühakimə ilə hərəkət edər, görəcəyi işi qabaqcadan hərtərəfli müəyyənləşdirərdi. Bu axşam çay sahilinə enərkən də nə edəcəyini çox yaxşı bilirdi. O, Zöhrənin bir dəfəlik özünə "əsir" edəcək, dili qızın üstündə uzun olduqdan sonra isə, onun obaşdan qalxmasını, arabaçı-filanla görüşməsini qəti qadağan edəcəkdi. Lakin, necə deyərlər, qaş düzəltmək əvəzinə vurub göz çıxartdı...

Sarı sinəsində darlıq hiss etdi, əlini yaxasına atdı, necə çəkdisə düymə əlində gəldi.

Birdən haradansa kəndə gəldiyi ilk günləri xatırladı. Onda da beləcə darıxırdı. Lakin tezliklə başı işə qarışdı. İdarə heyətində yerli inəklərin cinsinin yaxşılaşdırılması məsələsini ortalığa atdı, nazirliyə məktubu məktub üstündən yazıb Ukraynadan "Engels"ə Dunay adında cins bir buğa gətirilməsinə nail oldu. Daha sonra "qonşu qızı" sözsüz əhd-peyman... Həyata yenicə atılmış bir adamın xoşbəxtliyi üçün bunlardan artıq nə lazım idi! O, özünü yer üzünün ən xoşbəxt adamı hesab edirdi. Ancaq... Birdən-birə sanki hər şey alt-üst oldu, dünya Sarının gözündə qaraldı. Bəlkə xoşbəxtlik üçün heç bu qədər tələsmək lazım deyildi? Əhd-peyman bağlamaq üçün tələsməyib, seçdiyi qızı dönə-dönə öyrənsəydi nə olardı? Lakin... yox, Sarı hər bir işi qəti görməyi sevirdi. Ya mum, ya şam; ya hə, ya yox! Bax, o, Zöhrəyə də belə dedi: "Ya mən, ya o!" Dedi və cavabını da aldı: "Bir də mənim adımı dilinə gətirmə!"

O, Zöhrənin səsini eşidən kimi oldu. Diksinib ətrafına baxdı. Qulaqlarına başqa bir səs gəldi:

– Yoldaş zootexnik, niyə elə "addım-basdım" oyunu oynayırsan?

Sarı döyükdü, ətrafında cökələrin qara gövdələrindən başqa heç nə görmədi. Bu kim ola bilərdi? Sərkərlidə onu hamı sadəcə adı ilə çağırırdı. "Yoldaş zootexnik", – deyə zarafatyana, bəlkə də bir qədər rişxəndlə səslənən, əlbəttə, Lətifədən başqa heç kim deyildi.

– Cavab niyə vermirsən, yoldaş zootexnik?

Sarı bu dəfə səsi lap qulaqları dibində eşitdi. Geri dönəndə Lətifə ilə üz-üzə gəldi. Bu qız haradan peyda olmuşdu ki, Sarı onu görməmişdi?

– Burda nə gəzirsən, Lətifə?

Qız çiyinlərini oynadaraq, ay işığında altdan-yuxarı onun üzünə baxdı.

– Gəzmək qadağandır?

– Demək istəyirəm ki, hardan gəlib, hara gedirsən?

– Bu yandan gəlib, o yana gedirəm, – deyə qız heç bir səbəb olmadan qaqqıldadı və tez əlilə ağzını qapadı. – Bo-oy, mən də elə gülürəm ki... Hə, deyirsən, yəni, uçotçik Veysələ hesabat verdiyim kimi sənə də hesabat verim? Bu çox uzun çəkər axı...

– Eybi yoxdur, onsuz da mənimki bugün avaraçılıqdan gətirib.
– Elə niyə, yoldaş zootexnik? Çay qırağına ki, avaralanmağa getməmişdin?
Sarı bu sözlərdən diksindi.
– Sən məni izləyirsən nədir, ay qız?!
– Bıy, daha acığını niyə tutur? Sağından sonra “qonşu qızıyla” o tərəfə getdiyinizi elə hamı gördü də.
– Sən bununla nə demək istəyirsən?
– Mən? Heç nə... Mən uçotçik Veysəl kimi sənə də hesabat vermək istəyirəm... Axı sən zootexniksən, yoldaş zootexnik, haqqın var ki, sağınçından hesabat tələb eləyəsən, – deyə Lətifə sözü-sözə caladı, – bax, axşamdan bəri inəklərimə arpa pörtləməsi verirdim, bəzilərinin gözündə tənbəllik eləyirdim. Sonra da ki, gəldim, gördüm yolda bir araba var, maraqlı arabaydı deyin dayanıb tamaşa elədim.
– Necə yəni maraqlı araba?
– Bunun da hesabatıma dəxli varsa deyim... Deyim? Yaxşı. Elə ki, bu maraqlı araba səni bu qədər maraqlandırır, onda deməyə bilmərəm. Gördüm kəlin üstündə bir oğlan oturub. Dan ulduzu da arabadan onun üstünə işıq salıb.
Lətifə sözlərinin Sarıya necə təsir etdiyini yoxlamaq istəyirmiş kimi, gözlərini onun üzünə zilləyib susdu. Sarı boğuq səslə dedi:
– Sən mənə bir də belə hesabat verməsən daha yaxşı olar!
Qız özünü sındırmadı; cəsarətlə soruşdu ki:
– Yalan deyirəm?
Sarı cavab vermədisə də, qız onun bu sözlərə heç bir şübhəsi olmadığını hiss etdi və qalibiyyətdən doğan yeni bir cəsarətlə dedi:
– Yaxşı, yoldaş zootexnik, indi də sən hesabat ver görək.
– Sən nə yaman üzlü olmusan, Lətifə?!
– Bıy, bu hesabat olmadı ki... Sən de görək belə evimizəmi gedirdin?
– Tutaq ki, hə...
– Bəs niyə elə “addım-basdım” oynayırdın?
– Yorulmuşam.
– Yorulubsan, gedək dincini al, – deyə Lətifə çəkinmədən onun qolundan tutdu.
– Sağ ol, gecəyarı olub. İndi, yəqin Çapar dayı da yatıb.

– Naz eləmə, yoldaş zootexnik, – deyə Lətifə zarafata saldı, – dədəm heç vaxt mən gəlməmişdən yatmaz.

– Yox, yox... Sabah gələrəm. – Sarı ondan aralandı.

– Yəqin? Gəlsən beçə çığırtması yeyərsən...

Sarı gedə-gedə arxadan qızın səsini eşidirdi. “Deyəsən, bu qız heç məndən əl çəkmək fikrində deyil, – deyə düşünürdü. – Zalımın qızı elə bil dilotu yeyib. Özü də daha üz-göz açıb. Bunun axırı heç yaxşı olmaz. Bir də o evə getməyəcəm”.

“Getməyəcəm”, – deyə təkrar etdi. Zil səslə qaqqıldayaraq, sonra əlini ağzına tutan Lətifənin hərəkətləri onun ürəyinə, nə isə anlaşılmaz bir qorxu salmışdı...

Bütün gecəni yerin içində çöyrükə-çöyrükə qaldı. Ağır, qarışıq düşüncələr onu sıxır, gecə sərin olsa da puçur-puçur tər tökürdü. “Yox, gərək Zöhrəni əldən qoymayaydım. Bir dəfəlik özümə tabe eləyəydim. Ondan sonra öl desəm ölərdi, qal desəm qalardı. Bir də gecədən durub o cür təhərli-təhərsiz işə getməyə də cürət eləməzdi... Axmaqlıq elədim”, – deyə hey düşünürdü.

Hava işıqlaşana yaxın gözləri öz-özünə qapandı. Yenicə şirin yuxuya getmişdi ki, haradansa eşidilən qarışıq səslər onu oyatdı.

Sarı dikəlib gözlərini övkələdi, çarpayının üstündən əlini uzadıb pəncərənin taylarını itələdi. Səs otağa doldu.

Zöhrənin həyətinə toplaşmış sağınçılardan biri üzünü yuxarıda dayanmış “qonşu qızı”na tutub deyirdi.

– Biz o qərarı nədən ötrü çıxartmışdıq? O sallaqqulaq bizi aldadıb axı.

– Sallaqqulaq tazıya deyərlər, ay qız, kimi deyirsən?

– Sənin o istəkli arabaçını də... Qaranı.

Başqa bir sağınçının səsi gəldi:

– Yəqin biclik eləyir, ay qızlar! İstəyir ki, qızlar-gəlinlər dəstə ilə tökülüb ona minnətə getsinlər.

– Qara minnət sevən oğlan deyil, görəsən nə olub? Bir də ki, minnətə gedəndə nə olar? Daş-qaşınız tökülər? – Zöhrə dönüb evdən qırmızı yelənli ağ kalağayısını götürdü. – Gedək! – deyə irəli düşüb sağınçıları arxasınca apardı.

## 6

Qaranın heç xəyalına da gəlməzdi ki, axşamkı söhbətdən sonra birdən Zöhrə onlara gəlib onu xoş dillə dindirə bilər. Qızın düz qamətini, mehriban sifətini qapı ağzında gördükdə, dodaqlarına yaxınlaşdırmaq istədiyi qaşıq onun əlində asıla qaldı.

– Gözlə, gözlə, – deyə şirin dilli qız əlini irəli uzadıb qaşığa işarə etdi, – qatığı üstünə tökərsən, köynəyin bulanar, məni taqsırkar elərsən.

Qara cəld stolun dalından çıxıb onun qabağına yeridi. Əlinin arxası ilə dodaqlarını silə-silə:

– Təki sən həmişə mənim arabama min papağım əzilsin, evimə gəl köynəyim bulansın, Zöhrə! Xoş gəlibsən!

Qapının o tərəfindən gülüş səsləri eşidildi. Həyətə yığışmış sağınçıları gördükdə Qara pərt olub qaşqabağını salladı.

– Bunlar niyə gəliblər bura?

– Sənnən dava eləməyə, – deyə Zöhrə yoldaşlarını içəri səslədi: – Gəlin, a qızlar. Gəlin, soruşun, görək bu sizi niyə aldadıb?

Zöhrənin səsi elə həlim, məlahətli idi ki, Qara onun sözlərindən heç bir inciklik əlaməti duymadı və bir-birini basa-basa içəri doluşan sağınçıları xoş üzlə qarşılayaraq:

– Kimi aldatsam da sizi aldatmaram, ay qızlar! – dedi. Bilirəm nəyin davasını eləyəcəksiniz. Ancaq günahı məndə görməyin.

– Bəs kimdə görək?

Qara qımışıb çox qəribə bir cavab verdi:

– Allahda, ya təbiətdə. Hansına inanırsınızsa onda.

– Bıy, Allahın, təbiətin bura nə dəxli var, ədə?

– O dəxli var ki, bax, bu yazın qışı olmasaydı, mən də sizin yanınızda yalançı çıxmazdım.

Sağınçılar bu tapmacaya bənzəyən sözlərdən heç nə anlamayıb bir-birinə baxdılar. Qara kalağayının arasından dümağ, dəyirmi sifəti görünən, acıqlığı və köntöylüyü ilə hamıdan seçilən Yasəmən irəli çıxdı.

– Ay qız, görmürsünüzmü bu yenə bizi oynadır?! Gəlin işimizin dalınca gedək. İndicə Kərim dayı gəlib abrımızı ətəyimizə bükəcək.

– Mən heç kimi oynatmıram, Yasəmən bacı! – deyə Qara cavab verdi. – Doğru sözümdür. Bu yazın qışı olmasaydı, silos-filan

qayırmaq yada düşməzdi, məni də bu qız-gəlindən ayırıbYunus kişinin ixtiyarına verməzdilər.

– Necə yəni, ədə? Həmişəlik veriblər?

– Bəli, həmişəlik. Yunus kişinin çənginə keçən adam, özünüz bilirsiniz ki, çətin yaxa qurtarır.

– Demək, sənin sözündən belə çıxır ki, biz gedib Yunus kişiyə yalvaracağıq? – deyə Yasəmən səsini ucaltdı. – Bəs Zöhrə bizi hay-küynən niyə yığırdı iclasa, ədə? Bəs biz indi nə qayıraq, ay ciyəri yanmış?

– Mənim kimi oğlana qarğamağa dilin necə gəlir, ay Yasəmən? Məndən olsaydı, canım üçün, adıma "qız Bəkir" desəydilər də sizdən ayrı düşməzdim. Axı, qız-gəlinlərin hamısı bir yana, təkcə sənin şirin dilindən şirin söz eşitmək nəyə desən dəyər.

Yasəmənin dilindən şirin kəlmə eşitmək çox nadir iş idi. Buna görə də qızlar arabaçının sözünə gülüşdülər.

Zöhrə soruşdu:

– Yaxşı, indi biz otsuz qalacayıq?

Qara, nəhayət, ciddiləşdi:

– Orasını mən bilmirəm, ay Zöhrə. Yəqin sizə başqa arabaçı veriblər. Gedin soruşun, öyrənin.

– Gedək! – deyə Yasəmən çevik hərəkətlə geriyə döndü. Hamı dəstələnib onun arxasınca çıxdı.

Getdilər, ancaq heç kim maraqlanmadı ki, görəsən, fermanın arabaçısını nə üçün dəyişdiriblər, bunun nə mənası var? Sağınçılar arasında belə incə şeylərlə maraqlanan vardı, əlbəttə, o da İsmət xala idi.

Ev sakitləşəndən azca sonra İsmət xala qonşu otaqdan çıxdı. Saçları dağınıq, üzü-gözü öykəşik idi. Hiss olunurdu ki, İsmət arvad yuxudan yenicə oyanmışdır. Əlbəttə, bu ondan görünməyən bir işdi. Yəqin ki, yenə gecə yarıdan keçənədək ərini nə barədəsə sorğu-suala tutmuş, sonra da yatıb yuxuya qalmışdı.

O, həyətdə əl-üzünü yudu, qayıdıb saçlarını daradı, xurmayı şalını örtüb Qaranın yanına gəldi.

– Qatığın qaymağı xoşuna gəldimi, a xalan ölsün?

– Camış qatığının qaymağı ola, o da xoşa gəlməyə, ay xala? Özü də səhər-səhər. Elə bil adamın sinəsinə qar səpilir.

– Olsun, olsun, xalan sinənə qurban! – deyə arvad xırdaca ayaqlarını səssizcə ata-ata qonşu otağın qapısına sarı getdi. Amma yarı yolda dayanıb nə isə fikirləşdi və geri qayıtdı. Deyəsən, İsmət xalanı maraqlandıran heç də qatıq-qaymağının xoşa gəlib-gəlməməsi deyildi: İsmətin çaldığı qatığın bəyəniləcəyinə nə şübhə ola bilərdi? Arvadı maraqlandıran başqa şey idi. Bu, onun sualından da məlum oldu:

– Qızlar səndən bir söz-zad xəbər almadılar ki?

– Sən ki, yatırdın, xala, onların gəldiyini hardan bildin?

– Yatanda gözlərim yumulur, qulağım da yumulmur ha. De görüm... soruşmadılarmı ki, səni fermadan niyə çıxardıblar?

– Bunun səbəbini heç mən özüm də bilmirəm, xala!

– Demək, soruşmadılar?

– Yox.

– Hə, bu yaxşı oldu, xalayın ürəyi bir azca dincəldi, – deyə arvad dərindən nəfəs aldı.– Qoy bilən olmasın.

İsmət xala bunu deyib getmək istərkən Qara maraqla dikəldi:

– Niyə bilən olmasın, xala? Burda nə var ki?

– Daha bax onu soruşma.

– Niyə xala?

– Bilməsən yaxşıdır, – deyə arvad qapıya yönəldi. Qara təəccüb və maraq dolu nəzərlə onun arxasınca baxdı, qəfildən yerindən sıçrayıb xalasının belindən qucaqladı, quş kimi yüngülcə qaldırıb bayaq özü oturduğu stulun üstünə qoydu.

– Deməsən buraxan deyiləm, xala!

İsmət xala bacısı oğlunun maraqdan parıldayan zümrüdü gözlərinə, günəşdən yanıb qumrallaşmış dəyirmi sifətinə, nazik, şəvə bığına doğma övladını oxşayan bir ana nəzərilə baxdı, baxdıqca gözləri doldu və birdən:

– Xalan ölsün... xalan ölsün... – deyə kövrəldi.

– Axı nə olub, ay arvad? – deyə Qara səbirsizliklə soruşdu. – Niyə ağlayırsan?

– Necə ağlamayım, ay xalan ölsün qurtarsın. Sənciyəzi qəsdən çıxardıblar.

– Qəsdən?.. Kim?

– Öz yeznəciyəzin Kərim.

– Niyə?

İsmət xala özünü toxtatmağa çalışaraq daha heç nə gizlətmədi:

– Dünən gecə xoruz ağzını açanacan dava eləmişəm. Heç bildiyini babasına vermir. Bacın oğlu, deyir, orda şuluqluq eləyir. Dili də tutur deyir ki, qələt qarışdırır, xalqın qızının könlü olmaya-olmaya böyründə-başında fırlanır. Deyirəm, a kişi, qız ağacı – qoz ağacı, hərə bir daş atar, kiminki dəydi, dəydi.

– Can, oğulun xalası! – deyə birdən Qara vəcdlə səslənib yenə arvadın belini qucaqladı, ancaq bu dəfə havaya qaldırmayıb, özü onun qarşısında dizlərini yerə qoydu. – Bəs sonra?.. Demədinmi ki, bəs, ay yeznəsi, mənim bacımın oğlunu fermadan yox, lap bu kənddən də çıxartsan yenə ondan dönməz?

– Niyə demədim, a xalan ölsün. Di gəl ki, o da sözümün qabağına söz qoydu.

– Nə söz?

İsmət xala duruxdu. Kaş heç bu söhbətə başlamayaydı. İndi o, öz doğma övladı bildiyi bacısı oğlunun ürəyini necə dağlasın, Kərim dayının dediyi "qızın ürəyi zootexnikdədir" sözlərini dilinə necə gətirsin?! "Of, sənin bəxtin niyə belə oldu, a xalanın canı çıxsın!" – deyə fikrən Qaraya müraciət edən arvad yenə qəhərləndi. Ancaq daha heç nə gizlətmək olmazdı.

O, məsələni açdı.

Kaş açmayaydı və Qaranını da aşkarca qovşurulduğunu görməyəydi. Oğlanın çöhrəsini sanki bulud aldı. Ağır bir yük altında qalmış kimi, əllərini dizlərinə dayaq verərək, ağır-ağır qalxıb qamətini düzəltdi. O, Zöhrənin "sən məni bədbəxt eləyirsən" sözlərinin mənasını yalnız indicə dərk etdi. Qızın bir az əvvəl gülər üzlə qapıdan girdiyini xatırladıqda isə, bu, onun kədərini daha da artırdı. "Sən ondakı ürəyə bax", – deyə fikirləşdi. Gör o qızda nə qədər həssas, eyni zamanda geniş bir qəlb vardır ki, onu "bədbəxt eləyən" oğlanı acılamağa belə ürəyi gəlmir. Onun yerinə isə başqası, məsələn, elə bayaqkı acıdil Yasəmən kimisi olsaydı, kim bilir və oyunlar açardı!

Bu düşüncələr arabaçını ümidsizləşdirmək, bir dəfəlik sarsıdıb yolundan döndərmək əvəzinə onun Zöhrəyə məhəbbətini daha da qüvvətləndirdi.

Ömründə bəlkə ilk dəfə öz həyatı, öz gələcəyi haqqında düşündü. Ona elə gəldi ki, Zöhrəsiz bu həyat tam qaranlığa, zülmətə

bürünəcəkdir. O, bəzən oynaq, bəzən zarafatcıl, bəzən də mülayim Qara, birdən-birə ciddiyyətlə, inadla xalasına dedi:

– Yeznəmə de ki, baldızı oğlunu fermadan yox, lap kənddən də çıxartsa, yenə o qızdan dönməz!

Bacısı oğlunu heç bu vəziyyətdə görməmiş İsmət xala hiss etdi ki, bu sözlər başqa vaxtlarda dediyi sözlərə bənzəmir; bu sözlər nə isə başqa cür səslənir. Bu, bir növ anddır, qərardır və Qara bu qərarından dönməyəcəkdir.

## 7

Bəs Sarı? O da öz qərarından dönmədi. Arvadıgilə bir neçə gün ayaq basmadı. Lakin bu hal nə vaxta qədər davam edə bilərdi? Axı, Çaparla xüsusilikdə danışılmalı məsələlər vardı.

Sədr isə idarə heyətinin iclasından sonra birdən-birə elə bil gözə görünməz olmuşdu. O, idarə işlərini alt-üst qoyaraq gün çıxar-çıxmaz maşına əyləşir, gah meşə təsərrüfat idarəsinə, gah taxta zavoduna və rayon mərkəzinə gedirdi. Görünür ki, Yunus kişinin tikanlı sözləri, Kərim Sərkərlinin hədə-hərbələri sədri möhkəmcə qorxutmuşdu. Onun üstü toz bağlamış sınıq-salxaq "Moskviçi" yalnız qaranlıq qarışdıqdan sonra söyüd şivindən hörülmüş hündür hasarın darvazası ağzında görünürdü. Çapar öz ağır gövdəsini maşının dar qapısından güclə çıxarırmış kimi, hıqqıldaya-hıqqıldaya düşüb ağır-ağır eyvana qalxır, yaxşı-yaxşı yuyunaraq, stol başına keçib qabağına bir stəkan tünd çay qoyduqdan sonra, aşağıda, ağaclar arasında, ya həyətdə gəzinən briqadirləri qəbul etməyə başlayırdı. Bəzən neçə gündən bəri yığılıb qalmış sənədləri iri bir qovluğa dolduraraq, qoltuğuna vurub sədrə qol çəkdirməyə gətirən arıq, uzun hesabdır, dəyirmana dən aparmaq, ya meşədən odun gətirmək üçün kəl, araba istəyən kolxozçular da bu adamların arasında olurdular. Elə bil Çapar idarəni öz evinə köçürmüşdü. İdarəyə o, yalnız iclas zamanı, rayon mərkəzindən adam gələndə, yaxud telefonla danışmaq lazım olan vaxtlarda gedirdi...

Sarı nahaq yerə sədri kabinetin qabağında gözləyirdi. O, kabinetin qapısından asılmış iri qıfıla əyri-əyri baxaraq, uzun dəhlizin o başında, skamyanın üstündə mürgüləyən kök süpürgəçi qadına sarı yeridi.

– O qıfıla mazutdan, neftdən bir şey sürt, xala. Sonra pas atar, açа bilməzsən.

Süpürgəçi onun cavabında bərk xoruldadı və böyrünü skamyaya verib yerini rahatladı. Sarı əlini yelləyib idarədən çıxdı.

Uzaqdan hündür cökələr arasından Lətifəgilin işığı gəlirdi. Sarı dayanıb işığa baxdı. Getsin, getməsin?

Birdən onun özünün özünə gülməyi gəldi. "Axı, mən nədən çəkinirəm? Elə bil məni orda tutub bağlayacaqlar", – deyib addımladı.

Bu axşam cökələrin heç yarpağı da tərpənmirdi. Ağacların arası bürkü idi. Bir neçə gündəcə hava xeyli dəyişmişdi. İyunun ortalarında yəqin ki, istilər daha bərk düşəcəkdi. Belə olsa Sarının işləri xeyli çətinləşəcəkdi. Birdən mal bu istiyə tab gətirməsə?.. Sarı ürəyində narahatlıq hiss etdi. Axı, töylələrin tikilişində iş çox ləng gedirdi. Sədr taxta zavodundan bir qədər taxta gətirmişdisə də, yenə də material çatışmırdı. Tikintidə iş iyunun axırlarına çəksə, nə olacaqdı? Kərim Sərkəroğlunun dediyi kimi "bürküdə heyvanın övkəsi bişməyəcəkdimi? Qırğın göyə dirək olmayacaqdımı?" Bunların hamısına kim cavab verəcəkdi?

Sarının bədənindən gizilti keçdi. O, özünü ölümündən belə qorxmayan bir adam hesab etsə də, bunda müəyyən həqiqət olsa da, əgər tədbir tökülməzsə, Kərim dayının sözlərinin doğru çıxacağını düşündü. "Qırğın!.." Sarının tükləri biz-biz oldu. Ötən günləri əbəs yerə itirib. Çaparla danışmadığı üçün özünü danladı. "Guya qədəm qoyan kimi Lətifə ayaqlarıma çidar olacaq, – deyə öz-özünə istehza etdi: – Qorxaq, qorxaq... Axı bizi nə bağlıyır?!"

Sarı pillələri gümrah addımlarla qalxdı.

Çapar onu eyvanda qarşıladı.

– Salam, yoldaş zootexnik! – deyə qızının dili ilə müraciət etdi: – Amma bir azca tez gəlsəydin nə yaxşı olardı! Müdirin yenə beynimi dəng eləyirdi.

– Yenə deyinirdi?

– Deyinmək də sözdür? O balacalıqda cırtdan kişinin elə bil boğazını iskənəylə dəlibsən. Aləmi başına götürmüşdü. Başlamışdı ki, istilər düşür, heç bir hazırlıq görülməyib. Guya sağınçılar deyirlər ki, iyunun on beşinəcən töylələrə köçməsələr, bu il də yaylaqdan qalmayacaqlar.

– Məgər sağınçılar özbaşlarınadır?

– Elə mən də onu dedim də. Balam, burda bir rəhbərlik var, ya yox?

– Amma rəhbərlik də gərək hərəkətə gəlsin də, yoldaş sədr, – deyə Sarı sədrin təklifini gözləmədən, stulda oturdu. – Düzünü axtarsanız bu istilərdən heç mənim də gözüm su içmir. Daha doğrusu, qorxuram.

Çapar Sarının tutqun çöhrəsinə diqqətlə baxıb, ağır gövdəsini stula yıxdı.

– Amma mən elə bilirdim sən heç nədən qorxmazsan, yoldaş zootexnik.

– Niyə elə bilirdiniz ki?

– Nə bilim, vallah... Nəsə belə bir fikir beynimə düşüb. Yəqin ondandır ki, səni həmişə... Necə deyim? Belə cəsarətli görmüşəm. Bir işdən yapışanda daha ağına-bozuna baxmırsan. Çalışırsan ki, ya mum olsun, ya şam.

Sarı çox işlətdiyi "ya mum, ya şam" sözlərini sədrin dilindən eşitdikdə gülümsünüb:

– Orası doğrudur, – dedi. Və birdən soruşdu: – Bəs siz qorxmursunuz?

– Sənin kimi igid arxası olan qorxarmı, yoldaş zootexnik? Elə mən sənə arxalanıb rayonda, döşümə döymüşəm ki, oturaq həyata birinci mən keçəcəyəm, – deyə Çapar sinəsini qabağa verdi. Stol onun gövdəsinin ağırlığı altında cırıltı ilə qabağa sürüşdü. O, qara tüklü, iri əllərinin bircə təkanı ilə böyük, açma stolu əvvəlki yerinə itələdi. – İrəli otur... Qara qız, yoldaş zootexnikə çay gətir.

Lətifə, deyəsən, elə qabaqcadan çay süzübmüş. Atasının səsini eşidən kimi, padnos əlində, eyvana çıxdı. Stəkanları və qənddanı stolun üstünə qoyub mənalı-mənalı qımışdı:

– Məndən olsa, dədə, yoldaş zootexnikə çay yox, heç dodağını yaşlamağa bir damcı su da vermərəm.

– Niyə, ay qız, taqsırı nədir?

– Mən heç onu belə bilmirdim. Yamanca yalançıymış.

– Nə yalançılıq eləyib ki?

Lətifə Sarıyla cökələrin arasındakı söhbətdən sonra, gecə yarıdan ötənədək yatmayıb beçə qızartdığını və səhər Sarının öz vədinə düz çıxmayıb gəlmədiyini danışmaq istəmədi:

– Özü bilir.
– Dədəndən gizlədirsən?
Lətifə duruxdu.
– Mən təkcə yalançılıq yox, həm də qorxaqlıq eləmişəm, – deyə Sarı Lətifənin üzünə baxmadan dilləndi və tezcə söhbəti dəyişdi: – Demək belə, yoldaş sədr. Bir də qorxuya düşməməkdən ötrü gəlmişəm ki, bir az məsləhətləşək, görək nə qayıracağıq. Yunus kişi MTS-dən yemdoğrayan maşın gətirdib. Yem barədə ürəyim arxayındır. Ancaq bu töylələrin məsələsindən sümüyüm yaman sancır...
Çapar üzünü kənara tutdu:
– Əşi, sən də qoy görək!.. Bacardığımı eləyirəm də. Özümü yırtmayacam ki!.. O köpəkoğlu "Oktyabr"ın sədri başıma oyun açdı. İndi də görürsən ki, gecəm-gündüzüm yoxdur. Meşə idarəsilə taxta zavodunun arasını su yoluna döndərmişəm. Çapar yerində otura bilməyib ayağa qalxdı. Eyvanda narahatlıqla gəzindikdən sonra:
– Mən neyləyim? Adamınkı düz gətirməyəndə gətirmir də, – dedi. Yenə yerinə qayıdıb oturdu. Bir müddət hər ikisi susub nə barədəsə fikirləşdilər.
Gözlənilmədən Sarı dedi:
– Heç bilirsiniz müdirimiz nə tələb eləyir?
Lətifə kənarda dayanıb kişilərin söhbətinə qulaq asır və gözlərini Sarıdan çəkmirdi. Qız "yoldaş zootexnik"in ona etinasızlığını aydınca görürdü. Sarı ferma müdirindən söhbət saldıqda o, Kərim dayı haqqında nə isə deyib zootexnikin diqqətini cəlb etmək istədi. Lakin qız bunun əhəmiyyətsiz olduğunu görüb daha da pərtləşdi, "yoldaş zootexnik"ə əyri-əyri baxıb, dabanları üstə fırlanıb otağa qayıtdı. Çapar isə yenə sinəsini qabağa verib fısıldayaraq üz-gözünü turşutdu.
– Əşi, sənin müdirin də elə peydəri tələb eləyir ha! Belə adamlarla işləmək çox çətindir, yoldaş zootexnik. Vallah, bilmirəm sən onun peydəri deyinməsinə necə dözürsən, nə yaxşı canın boğazına yığılmır?.. De görüm nə istəyir?
– Deyir, gərək fermada dərnək açılsın.
– Dərnək? – Çapar qaşlarını çatdı. – Nə dərnək, ə?
– Doğrusu, bu iş elə məni də açmır, yoldaş sədr, – deyə Sarı da narazılıqla dilləndi. – Nə dərnəkbazlıqdır? Mənim kimi mütəxəssis olan yerdə, məncə, dərnək-mərnək artıq şeydir. Deyirəm, Kərim

dayı, özüm hamını başa salacam. Başlayır k, yox, nə bilim, oturaq şərait bizim işçilərin dədə-babadan öyrəndikləri şeylərin hamısını alt-üst eləyəcək. Onları yeni şəraitə alışdırmaqdan ötrü xüsusi dərnək açılmalıdır, sağınçılara zootexnikadan dərs verilməlidir. Özü də dərnək rəhbəri sağınçıların özlərindən olmalıdır, deyir, sən də nəzarət eləməlisən. Deyirəm, kişi, sağınçı deyir, sən də nəzarət eləməlisən. Deyirəm, kişi, sağınçı hara, dərnək rəhbəri hara? Burda teoriya lazımdır, deyirəm, bilik lazımdır! – Sözünün bu yerində birdən Sarı gülümsənərək, özünə qarşı inamdan çox, lovğalıq təsiri bağışlayan bir hərəkətlə əlini döşünə vurdu: – Burda Sarı Eynalov lazımdır deyirəm. O isə "sağ ol, bala" demək əvəzinə başlayır ki, çox döşünə döymə, nə bilim, cavan adama özündən müştəbehlik yaramaz, flan...

Zootexniklə sədrin söhbəti çox uzun çəkdi.

Lətifə içəridə darıxırdı. Qız Sarının bugünkü etinasızlığını ona qarşı soyuqluq deyil, iş-güc qayğısından doğan bir ciddiyyət kimi qəbul edərək özünə təsəlli verirdi. Bax, indicə söhbət qurtarar, Çapar yenə qızını çay süzməyə çağırar və onlar yenə danışıb-gülərlər...

Qəfildən qulağı bir söz aldı; deyəsən Sarı Zöhrənin adını çəkirdi. Lətifə qapını ağzına yüyürdü. Elədir ki, var: söhbət Zöhrədən gedirdi. Sarı Kərim dayının qızı dərnək rəhbərliyinə təklif etdiyini danışır və "savadı var, komsomol təşkilatçısıdır, sağınçıların hamısı onun hörmətini saxlayır, müdir mənə razılıq verməyəndən sonra dərnəyə ancaq o qızı qoymaq olar", – deyə üstəlik özü də tərifləyirdi.

"Yalandır! Sağınçının bir də mənəm, mənim ona heç bir qırıq da hörmətim yoxdur!" – deyə Lətifə qışqırmaq istədi. Amma bircə an sonra eyvanda söhbət tamam başqa şeydən – mədəni töylələrdən gedirdi.

Lətifə qapıdan çıxanda isə artıq söhbət bitmişdi. Çapar eyvanın o başında çay içəndən sonra pörtmüş üzünü yuyurdu. Sarı isə şapkasını götürüb getməyə hazırlaşmışdı. Lətifə bir stolun üstündə dolu qalmış stəkana, bir də Sarıya baxdı.

– Yoldaş zootexnik, çayımı bəyənmədin?

– Ürəyim istəmir, sağ ol, – deyə Sarı könülsüz cavab verdi və pilləkənə sarı yönəldi. Lakin arxadan yenə qızın səsini eşitdi:

– Amma yamanca qayğıkeş olubsan ha, yoldaş zootexnik! Adamları böyüdürsən, dərnək rəhbəri qoyursan. Yəqin ki, o adamı arabada gəzməyinə görə, səhərlər, ulduzlar sönməmişdən bəzi-bəzi adamlara hörmət-izzət elədiyinə görə böyüdürsən...

Qızın nəyə işarə vurduğu aydın idi. Sarı Lətifəyə yanakı bir nəzər saldı. Deyəsən, qızın bu sonsuz eyhamlarından daha bezməyə, hətta acıqlanmağa başlayırdı.

– Zənnimcə, sən bu barədə bir dəfə hesabat veribsən! – dedi və çıxıb getdi. Həm də öz cavabından razı qalaraq getdi. Bəlkə bu cür bir cavabdan sonra Lətifə bir daha onun yanında Zöhrənin haqqında dilini tərpətməyə idi. Onsuz da Sarı az əzab çəkmirdi.

Sarı gedəndən sonra Lətifəni fikir götürdü. “Meyli hələ də ondadır”, – deyə hiddətlə düşündü. Gövdəsini çarpayıya yıxıb papirosunu tüstülədən atasına yaxınlaşdı, başı üzərində dayanıb, onun yuyunduqdan sonra tər tökən qırmızı sifətinə məzəmmətedici bir nəzər saldı. Çapar qızının baxışındakı ifadəni sezib əlinin hərəkətilə tüstünü gözləri önündən dağıtdı.

– Sözlü adama oxşayırsan?

Lətifə atası ilə açıq olsa da, nədənsə bu dəfə Zöhrənin adını çəkmək istəmədi. Sualını da açıq birbaşa demədi.

– Dədə, sən onun hər sözüylə niyə razılaşırsan?

– O kimdir?

– O də... Zootexnik.

– Onun hansı sözünü deyirsən, qızım?

– Məsələn, elə o dərnək məsələsinə niyə razılıq verdin?

– Verməyə bilmərəm axı, qızım!

– Dünya dağılar?

– Dünya dağılmaz. Ancaq dədəni tutub işdən çıxardarlar.

– Bıy, elə ondan ötrücə?

Çapar qalın dodaqlarilə papirosu bərk-bərk sümürdü, yenə tüstünü gözləri önündən kənar eləyib:

– Sən uşaqsan, belə şeyləri bilməzsən, – dedi. – Bax, o Papaqçıların qızı qalxıb iclasda-filanda bircə kəlmə desə ki, sədrimiz bizim zootexnikanı öyrənməyimizə maneçilik eləyir, dədəyin işdən çıxardılması üçün elə bu da bəsdir.

Lətifə dodaqlarını büzüb əlini yellədi.

– Pəh, pəh, elə bir o qalmışdı ki, durub sən boyda kişini tənqid eləyəydi. Allah vurmuşdu onu. Elə kiçik şeydən ötrü ona heç qulaq asan da olmaz.

– Kiçik şeyin üstünə irilərini də qoyarlar, – deyə qızına cavab verməkdən çox, beynində dolaşan fikirlərini davam etdirdi. “İriləri” deyərkən o, çox şeyi nəzərdə tuturdu. Xəyalı ötən günlərə, hələ PİK sədrinin müavini olduğu vaxtlara uçurdu.

O vaxt, birinci arvadını boşayarkən Çaparın başı bəlalar çəkmişdi.

Raykomun qadınlar şöbəsinin müdiri böyük bir yığıncaqda onun gözlərinin içinə demişdi ki: “Sən pozğun adamsan. Gözdən göyçəyin, üzdən işıldayanın birinə uyub, neçə illik bir ailəni pozursan. Nə var, nə var arvadımla xasiyyətimiz düz gəlmir. Arvad boşamaq xəyalına düşən bütün kişilərin çağırdığı köhnə bayatı!.. Sənin o boyda övladın var, bəs bu neçə ildə xasiyyətiniz necə düz gəlirdi?”

Müdir nə qədər amansız olsa da, “belə adamı PİK sədrinin müavinliyindən yox, lap rayondan çıxartmaq gərəkdir k, ağlı başına gələ”, – deyib bütün rayon aktivi qarşısında haray salsa da, onun sözlərini vecinə almamışdı. Özünün dediyi kimi, “çəpəri bərk idi, gönü də qalın”. Bu səbəbdən də heç kimin hədə-hərbəsi beyninə batmırdı. Doğrudur, qadınlar qaldırdığı işi məhkəmədə ləğv etdirdi. Lakin bir neçə ay sonra, qadınlar şöbəsində köhnə dostu Şahnabad Şahgəldiyeva əyləşən kimi o, istədiyinə nail ola bildi və “bu dünyaya adam bircə dəfə gəlir, bu bir dəfədə də kam almasam, daha gorumdamı alacağam?” – deyə fikirləşərək PİK-in qoca xidmətçisinin on doqquz yaşlı qızı Fatma ilə evləndi.

Elə bu vaxtdan da Çaparın suyu bulandı.

Köhnə arvad dinc oturmadı. Rayonun idarələrinə material yazmağa başladı. Çaparın ata-baba kəndində, söyüd şivindən hörülmüş hasar içində ucalan ikimərtəbəli təzə evin və bu evin qapı-bacasındakı cah-cəlalın hansı vəsaitlə əmələ gəldiyini soruşdular, sonra da onu da müavin stolu ilə həmişəlik vidalaşmağa məcbur etdilər. Çapar bəlkə də vəzifə üzünə əbədi həsrət qalacaqdı ki, birdən onun bəxti yenidən güldü. Şahgəldiyeva raykomun MTS üzrə katibi təyin edildi. Çapar isə günlərin birində dostunun maşınında əyləşərək “Engels”ə gəldi. Öz ata-baba kəndində yenidən kök saldı.

Artıq onun heç nədən qorxu-ürküsü yox idi; köhnə arvadın intiqam hissi çoxdan soyumuş, ailədəki üz-gözlükdən, ərinin rəftarından bezərək, bir yaşlı körpəsini də götürüb evdən qaçan Fatma isə, deyilənə görə, qardaşının məsləhətilə Bakıya oxumağa get-

mişdi. Bununla belə Çapar minbir ütüdən çıxmış bir adam kimi, ən cüzi hadisələrə də soyuqqanlı yanaşmayıb fikirləşirdi ki, ikinci arvadın məsələsindən sonra hər halda ehtiyatlı olmaq lazımdır. Adam gərək çalışsın ki, onun haqqında tənqid başlanmasın. Elə ki, tənqid başlandı olub keçənlər də dərhal yada düşəcək, "kiçik şeyin üstünə irilərini də qoyacaqlar". Elə ki, "iriləri" də açıb tökdülər, ad-san da, vəzifə də əldən çıxacaq.

Kərim Sərkəroğlu deyir ki, ferma işçiləri kolxozun rəhbərliyindən bərk narazıdırlar. Sağınçılar hay-küy qaldırmışlar ki, oturaq həyat üçün şərait yoxdur; iş belə getsə, onlar ya yaylağa köçmək üçün mərkəzdən icazə tələb edəcək, ya da fermadan dağılışıb sahə briqadalarına gedəcəklər. Bax, Çapar bu məsələyə də ehtiyatla yanaşmalıdır. Yunus kişi Biləcəridə olan əhvalatı çox gülməli bir tərzdə, elə bil ki, zarafatyana danışdı. Lakin buna da soyuqqanlı baxmaq olmaz. Çünki Yunus kişi sözünün doğrusunu çox zaman zarafatda deyir. Yeri gəldikdə isə elə ciddiləşir ki, gözlərinə baxanda adamın bağrı yarılır. O balacaboy, burmabığ, sözü adamın gözünün içinə deyən kişi Çapar üçün nə qədər də qorxunc adamdı! Bu adam beş-altı nəfərlik heyət iclasında danışdığı əhvalatı bütün sərkərlilərin qarşısında nağıl etməkdən heç də utanmaz.

O, Çapara çox adi bir şey kimi görünən Biləcəri əhvalatına, hətta siyasi don geydirə bilər: "Baxın, bizim sədrimiz kolxozumuzun təxirəsalınmaz işini öz şəxsi zövqünə qurban vermişdir. Onun hazır tikinti materialını əlindən verməsi üzündən bizim işimiz alt-üst qalmışdır. Aran torpağının qovurğa kimi qovrulan vaxtı gəlib-çatmış, töylələr isə hələ də hazır deyildir". Sədrdən onsuz da narazı olan ferma işçilərinin bütün kənddə hay-küy qaldırmaları üçün Yunus kişinin elə bu sözləri də kifayətdir. Yox, deyəsən, məsələlər çox dolaşığa düşüb. Bu dolaşıqlıqdan çıxmaq lazımdır. Mütləq bir tədbir tökmək lazımdır! Lakin nə tədbir?!

Bu barədə düşünərkən Çaparın yadına yenə Lətifəsinin "yoldaş zootexnik"i düşdü.

## 8

Sədrin hələ şeh çəkilməmişdən, zootexniklə birgə fermaya gəlməsi bütün sağınçıların təəccübünə səbəb oldu: Çapar hara, bu tezlikdə qalxıb fermaya gəlmək hara? Maraqlıdır, görəsən, hörmətli sədri belə ağır zəhmət çəkməyə vadar edən nədir? Nə əcəb təşrif gətirib?..

Əllərindəki vedrələri cingildədə-cingildədə Çaparın yanından ötən qız-gəlinlərin qaşlarının üstünə sallanmış kəlağayılarının altından parıldayan gözlərindən bu sualları oxumaq o qədər də çətin deyildi. Lakin sağın bitənədək heç kim bu gəlişdə sədrin məqsədinin nə olduğunu öyrənə bilmədi. İlk xəbər tutan yenə də İsmət xala oldu. Südlə dolu axırıncı vedrəni təhvil verib qurtaran kimi o, üzünü Çapara tutub qəti bir qərarla bildirdi:

– Çapar! Bax, indidən bilginən; yayın cırhacırında düzün ortasında mən sənin üçün inək saxlayan dəyiləm. Bu haqq-hesabın qabağında yaylaq olmayacaqsa, indidən mənim adımın üstündən qara çək. Bəli, qara çək! Daha sənin İsmət Sərkərli adında işçin yoxdur!

"Ultimatum", əlbəttə, Çapar üçün heç də gözlənilməz deyildi. Bu səbəbdəndi ki, o, heç təhərini də pozmadı, papirosunu tüstülədib, rişxəndlə qıyılmış gözlərilə arvadı süzdü.

– Yavaş, ay arvad, çox yelli gəlibsən, sonra yıxılarsan.

– Yelli gəlməmişəm, Çapar. Lap astaca-astaca gəlmişəm. Qara çək, vəssalam!

Çapar bütün ferma işçiləri yığışmamışdan, vaxtından əvvəl mübahisə qaldırmamaq üçün:

– Qara çək deyirsən, çəkərik. Sənsiz də dolanmaq olar, – deyə cavab verdi və barmaqlarını gərərək, adəti üzrə, əllərini toqqasının üstünə sürtə-sürtə altına süd bidonları yığılmış çardağın yanında gəzişməyə başladı.

Naxır düzə yelləndikdən sonra ətrafa dərin sükut çökmüşdü. Təkcə İsmət xalanın səsi sükutu pozurdu. Bir azdan o da susdu. İndi yalnız bidonlara tökülən südün şırıltısı, Veysəlin çotkəsinin şıqqıltısı, bir də Çaparın ağır ayaqlarının altında əzilən çör-çöpün və kəsək qırıntılarının xırıltısı eşidilirdi.

Səhər hər şeyə laqeyd imiş kimi asta-asta gəzinirdi. Bu laqeydlik ona zəhmli bir görkəm verirdi. Çardağın altında palaz üstündə

yarımdairə şəklində və yeganə skamyada cərgə ilə oturmuş adamların yanına da eyni görkəmdə qayıtdı. Özü də çox sərt başladı:

– Biz burda heç kimi məcburi işlətmirik. Kimin xahişi çəkmirsə – yol açıqdır. Qaldı ki, yaylaq... Lap düzün ortasında qalsanız da yaylaq olmayacaq! Niyə? Bax, bunu indi zootexnikimiz Sarı Eynalov yoldaş deyər, siz də eşidərsiniz.

İsmət xala yenə dözə bilməyib yerində tərpəndisə də, qarşı tərəfdə, hesablayıcı Veysəlin stulunda oturmuş əri nəzərlərilə onu məzəmmət edib səbirli olmağa çağırdı. Bəs nə əcəb Kərim özü belə səbirli olmuşdu? Yoxsa neçə vaxtdan bəri töylələr barədə ona-buna şikayətlənib söylənməkdən bezmişdi? Əsla! Kərim Sərkəroğlu da danışmaqdan bezərmi?

O, cavan sağınçıları başına yığıb oturmuş Zöhrəyə baxırdı. Qızın qaynar gözlərində heç bir narahatlıq ifadəsi yox idi. Əl-əlvan geyimli qızlar-gəlinlər dəstəsinin içində sakitcə əyləşmişdi. Kərim kişiyə səbir təlqin edən də, deyəsən, elə Dan ulduzunun və onun komsomolçular dəstəsinin sakitliyi idi.

Zootexnik nitqini çox kəskin bir ahənglə başladı.

– Yaylaq, yaylaq! – deyəndə onun sifəti nəyəsə nifrət edən adamlara məxsus bir ifadə aldı. – Guya bizim yaylağın əzab-əziyyətini heç dadmayıbsınız. Mən tək bircə dəfə, keçən il o yaylaqda olmuşam. Ancaq nələr görməmişəm! Bir diqqətlə fikir verin, yoldaşlar, yadınıza salın... Günlərlə yol gedirik, özümüz də, mal-heyvan da üzülür, əldən-ayaqdan düşür. Bir də görürsən ki, yel əsdi, çovğun qopdu, şaqqıltı ilə dolu yamağa başladı. İnək buzova qarışır, buzov inəyə qarışır, vurhavurda ayıra bilmirsən, əmişir, filan qədər südümüz batır. Gah da görürsən ki, gün şaxıdı... Bir kolkosu da yoxdur ki, heyvan daldalana. Dana-buzovu böyələk tutur, heyvan da quyruğunu belinə qaldırıb özünü vurur daşa, qayaya. Axşam da baxırsan ki, bəli işlər düzəlib; naxırçılar axsaq-uxsağı qabağına qatıb ah-uf eləyə-eləyə arxaca gətirir. Soruşursan ki, nə olub? Ağlayıb sıtqayırlar ki, bəs nə bilim, heyvan baxımsız qalıb qayadan uçub, ya çınqıla düşüb...

Sarı bir neçə anlığa nəfəsini dərdi. Çapar skamyada yayxanıb yenə əllərini qarnına sürtə-sürtə tüstüdən qıyılmış gözlərinin istehzalı nəzərlərilə ferma müdirini və onun narahat arvadını süzürdü. Kərim kişi başını bulayırdı. İsmət xala yerində tərpənirdi.

Zöhrəgilin dəstəsindən kənarda, arxasını dirəyə dayamış Lətifə məmnun-məmnun qımışırdı; "yoldaş zootexnik"in onun atasının sözünə söykək olması qızın xoşuna gəlirdi. Zöhrənin isə gözləri artıq sakit-sakit baxmırdı. Onun çöhrəsini düşüncəli bir ifadə bürümüşdü.

– Bizim yaylaqların azarı birdirmi, beşdirmi? – deyə Sarı yenə ucadan, inamla davam edirdi. – Hərdən görürsən aran köçündə, ya dağ köçündə başqa kolxozların fermasıyla qonşu düşürsən. Onların heyvanındakı azar-bezar da hamısı keçir səninkinə, davaq tutur, yaxud başqa bir yoluxucu xəstəlik tutur, heyvan qırılmağa başlayır. Ay həkim çağır, ay dərman gətir... Canının üstündə çalışırsan. Axırda da baxırsan ki, odur, qırğın naxırın yarısını apardı. Heyif ki, naxırçılardan burda olanı yoxdur. Yoxsa, keçən il yaylaqda nə qədər zərər çəkdiklərini özləri deyərdilər. Payızda hər gün yanıma qaçırdılar ki, yoldaş zootexnik, bəs deməzsənmi, heyvanın ağzından şoşaq tökülür. Niyə? Bəs deməzsənmi yaylaqda duzdan korluq çəkib. Budur, bu da bizim yaylağımız!..

Çardağın o başından kiminsə istehzalı səsi eşidildi:

– Əcəb sözdür. Duzdan korluq çəkirdilər, duz daşıtdıraydınız də.

Sarı hesablayıcı Veysəlin gündən parıldayan gözlüyünə baxıb:

– Gendən baxana döyüş asan gələr, qoçaq oğlan, – dedi, – başqa dağlar kimi, bizim dağlara da maşın, ya araba çıxsaydı sözünə haqq verərdim, uçotçik oğlan. Sən hələ o dolaylarda, yoxuşlarda eşşəyə hoş-hoş deməmisən. Duz tayı əyəndə qan-tər tökməmisən. Eşşək yorulub yoxuşda qalanda tayı öz dalına almamısan. Alsaydın belə deməzdin.

Veysəl zootexnikin onun atmacasına bu qədər əhəmiyyət verəcəyini bilsəydi, heç dilini də tərpətməzdi. Ancaq maraqlı idi: deyəsən, axı ferma işçilərinin kolxozun rəhbərliyindən narazılığı sədrlə birgə bu dilavər zootexniki də bərk əl-ayağa salmışdı. Yoxsa onun nəyinə lazımdı ki, yaylaq əleyhinə belə uzun-uzadı nitq söyləyirdi? Bu deyilənlər onsuz da hamıya məlum şeylər deyildimi? Yoxsa zootexnik demək istəyirdi ki, sədrdən narazılığınız əhəmiyyətsizdir; aranda heyvan üçün şərait yaradılsa da, yaradılmasa da, yaylağa köçülməyəcək? Elə isə bunu mərd-mərdanə demək olmazdımı?

Veysəl zootexnikə baxıb dodaqlarını büzdü. Sonra ətrafına göz gəzdirdi. Onun nəzərləri müdirin üzərində dayandı.

Kərim dayı başını bulayırdı. Bir şeydən narazı qalarkən qoca həmişə belə edirdi. Hətta bir dəfə Veysəl ona zarafatla belə demişdi: "Sən başını az bula, Kərim dayı, qorxuram axırda başın lap mühərrik olsun". "Mühərrik" sözünü başa düşməsə də, Kərim dayı hesablayıcının nə demək istədiyini anlamış və bunu özü üçün doğrudan da bir nöqsan zənn edib bu adəti tərgidəcəyinə ürəyində söz vermişdi. Ancaq bu dəfə daha özünü saxlaya bilmədi.

– Kor-kor, gör-gör, a camaat! – deyə qəfildən, heç gözlənilmədən sözə başladı. – İndidən bürküdən içəridə adamın ürəyi çəkilir. Gün şaxıyanda aranın düzündə heyvan dilini bir qarış çıxardır. Bəs hanı bizim töylələrimiz? Quru divarlar hörülüb. Nə altı sementlənib, nə də üstü tikilib. Axurları, arakəsmələri də heç demirəm... Mən, sözün açığı, daha bu barədə danışmaqdan cana doymuşam. Ancaq yenə deyirəm. İndən belə də deyəcəm ki, sən bu camaatın başının altına yastıq qoyub evini yıxıbsan. Çapar, indən beləcə insafın olsun, bir hərəkətə gəl. Niyə balam, "Oktyabr"ın o cavanca sədri qoşa-qoşa töylələri yan-yana düzdürə bilir, biz bilmirik? Bu arvad-uşaq elə haqlı yerindəcə səndən narazı qalır, Çapar. Neçə vaxtdır heyət sənə taxta tapşırıb, niyə tapmırsan? Bax, mən indidən xəbərdarlıq eləyirəm. Yarım aya töylələr hazır olmasa, mən qızılı naxırın bu ilan mələyən düzlərdə qırılmasına razı olmayacam. Köçəcəm, vəssalam! İstər lap fələk yerə ensin, köçəcəm!

Kərim kişi dönüb nəzərlərilə sağınçıların arasında kimi isə axtardı. Onun gözləri Zöhrəyə dikildi. Sanki bununla dedi: "Sağınçılarımızın başbiləni sən hesab olunursan, qızım, dur sən də danış".

Zöhrə müdirin gözlərindəki mənanı oxudu. Quş kimi silkinib yüngülcə ayağa durdu. Kərim dayının işarəsi olmasaydı da o, elə bu an danışmağa can atırdı. Lakin onun sözləri Çapara yox, Sarıya aid idi. Bu sözlər Zöhrənin ürəyində çoxdan yatırdı. O, bu sözləri deməyə çoxdan fürsət axtarırdı.

Zöhrəyə elə gəldi ki, çox kəskin və acı danışacaqdır. Ancaq səsindəki məlahət, həlimlik, həmişə olduğu kimi, yenə də onun sözlərinə yumşaq bir ahəng verdi:

– Bizim zootexnikimiz danışanda həmişə deyir ki, işi gərək ya mum eləyək, ya şam... Heç bu da sözdürmü, ay qızlar? Birdən nə mum oldu, nə şam oldu, onda?..

Bizim zootexnikimizə elə gəlir ki, ali savadı var deyin, hamıdan çox bilir deyin, gərək elə hamı onun qabağında əsir-yesir olsun. O

ağ desə ağ, qara desə qara. Ancaq bizim də öz ağlımız var. Uşaq uşaqdır, o da ölçük quranda əvvəlcə fikirləşir ki, görsün ölçüyün daşları bir-birinin üstündə duracaqmı: yastıdırmı, yumrudurmu? Bizim zootexnikimiz isə heç yastısına, yumrusuna baxmır, elə deyir quraq, vəssalam. Deyir ki, yaylağımız belə pisdir, belə çovğun qopur, belə dolu yağır, tələfat olur. Doğrudur. Bunun hamısını biz öz gözümüzlə görmüşük, bilirik. Elə buna görə də istəyirik köçdən əl çəkək. Ancaq necə? Köçməyib harda oturaq? Biz bunu bilmək, oturacağımız yeri görmək istəyirik. Bizim zootexnikimiz isə elə deyir oturun. Yenə soruşuram: Harda?..

Bu anda Zöhrə Sarının üzünə baxsaydı, onun çöhrəsinin necə bulud kimi tutulduğunu görər və bəlkə də tab gətirməyib bir qədər başqa cür danışardı. Lakin o, Sarıya yox, Kərim dayının məmnuniyyət ifadə edən gözlərinə baxırdı.

– Bəlkə bizim zootexnikimiz bizə oturaq həyatın əhəmiyyətini başa salmaq istəyir? Elə isə çox nahaq zəhmət çəkir... Bax, biz komsomol iclasında qərar çıxardıb hər səhər inəklərə sağından bir saat qabaq yem verəndən bəri hərəmiz ən azı bir vedrə artıq süd sağırıq. İnəkləri mədəni töylələrdə bəsləsək lap birə beş artıq sağarıq. Bu, aydın məsələdir. Biz bunu bilirik. Ancaq hanı o töylələr, a qızlar? Mən, bax, bizim zootexnikimizdən də, sədrimizdən də soruşuram: töylələr hazır olmasa, istidə inəyin yelini qupquru qurumazmı? Körpə buzovların övkəsi bişməzmi? Bizim zootexnik sədrimizin başımıza gətirdiyi işi demir, şərait tələb eləmir, gözüyumulu aranda qalın deyir. Bu çox qorxulu təklifdir.

Bayaqdan bəri gah Sarıya, gah da Zöhrəyə göz qoyan Lətifə, fürsətdən istifadə edərək:

– Aramızda qorxaqlar da varmış ki! – deyə rişxəndlə səsləndi və sözünün nə dərəcədə yerində olduğunu fikirləşmədən əlavə etdi: – Hələ bir bunu dərnək rəhbəri də qoyurlar!

Veysəl əlindəki gözlüyünü burnunun üstünə qoyub səsə döndü:

– Sən təkcə oğlanları yox, elə qızları da sancırmışsan ki, ay qız.

– Qorxaqları sancırlar!

– Hər şeyi ölçüb-biçən, el malının dərdinə qalan adamlara bizlərdə qorxaq yox, ağıllı deyirlər, bala. Ağzının sözünü bil! – deyə İsmət xala da bir yandan dilləndi. Lakin Lətifə daha zəhərli sancdı:

– Sənin üçün, əlbəttə, ağıllı olar. Sən ona bacın oğlunun gözüynən baxırsan.

Yığıncaqda qızının şəxsi hisslərə bu qədər azad yol verməsi Çaparı pərt elədi. Başqa vaxtlarda o, Lətifənin hər addımda öz xeyri üçün çalışmasını bəyənərdi. İndi isə Lətifə lap ağ eləyirdi; görünür ki, Çapar qızına özü kimi ehtiyatlı olmağı öyrədə bilməmişdi. İndi Sarı Lətifənin o sözləri bir məqsədlə dediyini anlasaydı yaxşımı olardı?

Çapar arada heç nə olmamış kimi, süni bir təbəssümlə Sarıya müraciət etdi:

– Hə, yoldaş zootexnik, Kərimin Dan ulduzunun sözünə necə baxırsan?

Sarı çox gec cavab verdi. Zöhrənin sözləri onu yamanca tutmuşdu. "Qonşu qızı"nın belə bir hərəkət edəcəyini o heç xəyalına da gətirməzdi. Zöhrə onu – öz təşəbbüskarlığı, qoçaqlığı, inadkarlığı, yenilməzliyi ilə təriflənmək, ad-san qazanmaq arzusunda olan Sarını ölçük quran bir uşaqdan da aciz hesab edir, bu qədər adamın arasında ona gülürdü. O, Sarı ilə özünün münasibətinə işarə vurur, "bizim zootexnikə elə gəlir ki, hamı onun qabağında əsir-yesir olmalıdır", – deyirdi. Sanki o, bir vaxt ərik ağacının altında Sarının "sənin heç bir sözündən çıxmayacam" deyən həlim, mehriban "qonşu qızı" deyildi. O, Sarıya gülməklə də kifayətlənməyib, onun danışdıqlarını düşünülməmiş, hətta qorxulu bir təklif kimi qələmə verirdi.

Sarını hirs boğdu. Cavab gözləyən sədrə:

– Tikintinin məsuliyyəti sizindir, siz də cavabını verin! – deyə sərt bir hərəkətlə ayağa qalxıb, çardağın altından çıxdı və bir daha geri qayıtmadı.

Çapar gözlərini ona dikmiş ferma işçilərinin qarşısında tək qaldı. Hiss etdi ki, qaş düzəltmək əvəzinə vurub göz töküb; Sarıyla birgə ferma işçilərilə söhbət edib, onları sakitləşdirmək əvəzində, daha da narazı salmışdı...

Bununla belə o, özünü camaatın qarşısında sındırmaq istəmədi. Ayağa durdu, əllərini toqqasının üstündə çarpazlayıb bir-iki dəfə pəncələrinin üstündə qalxıb-enərək iri gövdəsini yırğaladı və kim bilir neçənci dəfə, tikintidə işi sürətləndirəcəyinə söz verdi.

Kərim Sərkəroğlu inanmamazlıqla başını bulayıb köksünü ötürdü. Sağınçılardan hansısa səsləndi:

– Kor nə istər? İki göz – biri əyri, biri düz...

## 9

Zalxa qarı qoşa çarpayıların arasında döşəməyə salınmış boz kilimin yuxarı tərəfində, göy sətin üzlü balaca döşəkcə üstündə bardaş qurub oturmuşdu. Təklikdən qarının ürəyi darıxır, otaqdakı səssizlikdən qulaqları cingildəyirdi. Bir az bundan əvvəl o, "yəqin indi sağın qurtarıb", – deyə düşünüb, özünə həmsöhbət tapmaq ümidilə durub, güc-bəla ilə yeriyə-yeriyə Sərkərlilər tərəfə getmiş, ancaq İsməti tapmamışdı. Evə qayıdandan sonra qarı görüləsi bir iş axtarmaq üçün küncə-bucağa vurnuxdu, samovarı götürüb qaynatmaq istədi, lakin gözlərini qıyaraq lap kəllədə parlayan günəşə baxıb fikrindən daşındı. Yamamaq üçün paltar-palaz da tapılmadı: Zöhrə hər şeyi yerbəyer eləmişdi; qoşa çarpayılardan o yanda, dal divara söykədilmiş bufetin şüşələri tər-təmiz silinmişdi. Çarpayılarla qapının arasında qalan geniş yerə qoyulmuş stolun örtüyünün qırışları belə əllə sığallanmışdı. Sarının yaşadığı evin həyətinə açılan iki pəncərədən birinin ağzına yığılmış kitablar da nizamla cərgələnmişdi. Zalxa qarının fikrinə gəldi ki, bəlkə kitablara toz qonub, – götürüb silsin, təmizləsin. Amma bu kitabların səfinin pozulmasından həmişə Zöhrənin xoşlanmadığını yadına salıb əl saxladı. Bir sağa baxdı, bir sola baxdı, axırda nəzərləri öz balaca döşəkcəsinə dikilib qaldı. Qarının qırışlarla örtülmüş kiçik, girdə sifətini qüssə bürüdü. Bir qədər yerindən tərpənmədi. Elə bil ki, döşəkcəyə yaxınlaşmaqdan qorxurdu. Axı cəmi üç il bundan qabaq o, vaxtilə qoca əri üçün tikdiyi bu döşəkcənin üstündə bardaş qurmalı olacağını heç xəyalına da gətirmirdi. Özünün dediyi kimi, onda qırğıtək hərlənirdi. Lakin ailədə baş verən bədbəxt hadisə, onsuz da yaşı ötmüş Zalxanı lap əldən saldı. O, müharibədən qayıtmamış kürəkəninin dərdini hələ unutmamış, yeganə övladı – qızı Məhbubə dünyadan köçdü. Zalxa nəvəsi Zöhrə ilə qaldı.

Zalxa özünü dözümlü adam hesab edirdi. Qarıya elə gəlirdi ki, heç bir dərd-azar onu əldən sala bilməz, qamətini əyə bilməz. Ancaq bir gün yetişdi ki, Zöhrə babasının göy sətin üzlü döşəkcəsini qapının dalında qoyulmuş taxta sandıqdan çıxarıb öz köhnə yerinə – qoşa çarpayıların arasında kilimin yuxarı tərəfinə saldı və tapşırdı: "Nənə, bax, otur... olmaya, olmaya əlini isti sudan soyuq suya vurasan ha!"

Bəli, Tamam qarı oturdu... Əvvəlcə o, çöl-bayırın, əl-ayağının tutarlı vaxtında işlədiyi fermanın xiffətini çəkdi. Sonra get-gedə şəraitə alışdı və Zöhrə işə getdikdən ona yalqız oturduğu vaxtlarda başqa şeylər haqqında düşünməyə başladı.

Hələ insan xəyalı qədər iti sürətli heç bir şey yoxdur. Zalxa qarının xəyalı haraları dolanmırdı?!

Uzun illər bundan əvvəl, o hələ gənc ikən, şenlikdə deyərdilər: "Alı kişi sonsuzdur. Bir qızı var – Zalxa. O da bugün-sabah uçub qonacaq birinin damına. Bir qocaynan bir qarı qalacaqlar damın altında. Allah kafirə də göstərməsin!.." Lakin belə olmadı. Zalxa hələ Alı kişi sağ ola-ola onun adını daşıyan əmisi oğlu Alı ilə necə deyərlər, alışıb-verişdi ki, "məni istəyirsənsə, bizim evə gir, əminə qulluq elə".

İllər dolandı, Məhbubə anadan oldu, böyüdü, qızlar bulağından su içdi və... Nə qəribə bir tale! Anasının vaxtilə dediyi sözləri qız da öz nişanlısına təkrar etməli oldu: "Məni istəyirsənsə, bizim evə gir, atama oğulluq elə".

Zöhrədəmi eyni kəlmələri təkrar etməli olacaqdı? Qarının xəyalının o qədər uzaqlara getməsinin səbəbi elə bu idi. Doğrudan da, bu ailənin nə qəribə taleyi vardı. Şenlikdə Zalxanın ana tərəfi haqqında düz deyərmişlər: "Papaqçılar nəslinin qızları qız doğurlar. Özü də toyuğa fal qoyan kimi – bircə dənə. Nə artıq, nə əksik. Artıq olsa da öyüc eləmir, qalmır". Necə deyərlər, el ağzı fal imiş: Məhbubə də bircə qız qoyub getmişdi. Məhbubə əri ilə qoşa qarısaydı, bəlkə Zalxanın daha bir-iki nəvəsi olardı. Amma nə edəsən? Təki Zöhrənin canı sağ olsun. Zöhrə ağıllı, ağırın-yüngülün yerini bilən qızdır. Kənddə söyləyirlər ki, o, çox ürəyi yumşaqdır və çox zaman bunun zərərini çəkir. Nə eybi var? Hamı bir xasiyyətdə olmaz ki... Papaqçıların elə bütün qızları ürəyiyumşaq, mehriban olmuşlar. Eyni zamanda cəld, oynaq, qoçaq... Zöhrə də elə öz qan qarışıqlarına bənzəyir. O, Zalxa qarı üçün kürəkənini də, qızını da əvəz edə bilər. Ancaq bu şərtlə ki... Bax, elə buradaca Zalxa qarının fikirləri dolaşıq düşmüş kələf kimi qırılırdı. O, Zöhrənin nə anasının, nə də nənəsinin yolu ilə gedəcəyinə inanmırdı: "Tutar birinin qolundan, mənə də deyər: "Nənə, yığış"... Bəs bu ev, ocaq? Bəs bu həyət-baca?.. Bəs Alının yurdu?.. Birçəyinin ağ vaxtında Zalxa özgə damının altında necə otursun?

Zalxa qarıya elə gəlirdi ki, hər kərpicində, hər taxtasında Alının əlinin izi olan bu yurddan ayrılsa heç bircə gün də davam gətirməz. Belə hallarda o, öz-özünə təsəlli verirdi: "Əlbət bir Allah bəndəsi tapılar, gələr oturar komamızda". Qarı belə "Allah bəndəsini" axtarır, cavanlara göz qoyurdu.

Lakin çox axtarmalı olmadı.

Günlərin birində Zöhrə səhər sağınından həmişəkindən tez qayıtdı. Qarı təəccüblənib soruşdu:

– Nə yaxşı belə tez, a bala?

– Kəndimizə zootexnik gəlib, nənə, – deyə Zöhrə tələsə-tələsə samovarı eşiyə apardı, qayıdıb stolun üstünə təzə süfrə saldı, hətta pəncərələrin pərdələrini də dəyişdi. Sonra zootexnik haqqında danışdı. – Kərim dayı xahiş elədi ki, Zöhrə, zootexnikimizi qonaq elə, sənin yaxşı xörək-çörək bişirməyin var. Dedim, neylək, gəlsin. Elə yaxşı oğlandır ki, ay nənə!

– Bilirəm, bala, bilirəm.

Zöhrə təəccüblə qarıya baxdı:

– Hardan bilirsən?

– Sənin tərpənişindən bilirəm, bala.

Zöhrənin yanaqları allandı. Qarı daha nəvəsini utandırmaq istəməyib susdu. O, sonralar, nəvəsinin qonşu evin sakininə çox həvəslə qulluq elədiyini görəndə də heç nə deməyib susurdu. Bəli, qarı axtardığını tapmışdı. Bu tək oğlan, əlbəttə, onun "şərtinə" razı olacaqdı.

Zalxa qarı Sarının kənd ağsaqqalları ilə birgə, onun – qız yiyəsinin yanına ehtiramla ayaq basacağı günü səbirsizliklə gözləyirdi. Lakin nə ağsaqqallar, nə də qarasaqqallar görünürdülər. Son vaxtlar Zalxa qonşu evin pəncərəsindən "qonşu qızı" deyə çağıran o gur səsi də eşitmirdi.

Qarı demək olar ki, mürgüdən macal tapdığı bütün vaxtlarda bu barədə fikirləşirdi: "Birdən qonşumuz irəli durmaz, qızcığazı bədnam eləyər".

Dünən axşam hesablayıcı Veysəl qoltuğunda bir dəstə kitabça, jurnal gətirdi, Zöhrənin pəncərə ağzındakı kitablarının yanına qoydu, "bunları zootexnikimiz yolladı", – dedi. Tezcə də çıxıb getdi. Zalxa qarı soruşa bilmədi ki, bəs bu kitabları göndərən oğlanın özü nə üçün gəlmir? Nə üçün o bu evin astanasına qədəm basmaq istəmir?

Soruşa bilmədi və bütün günü müxtəlif şübhələrdən üzüldü. Hərdən döşəkcənin üstündə mürgüləyəndə də pis yuxular gördü.

Bu gün isə, deyəsən o, öz daimi qayğısını unutmuşdu. Döşəkçənin üstündə bardaş qurub, artıq qocalığın onun yaxasından bərk yapışdığını fikirləşirdi. Deyərlər ki, bədən nə qədər qocalsa da ürək daim cavan qalar. Zalxa qarının ürəyi də... İndi bahardır. Aran düzü yəqin ki, yamyaşıldır. Çay qırağında yəqin ki, ot dizə çıxır. Arvadlar orada palaz döyürlər, paltar yuyurlar... Pəncərədən düşən günəş şüaları qarşı divarda xal-xal sarı ləkələr əmələ gətirmişdi. Deməli, gün əyilmişdi. İndi işdən tez çıxanlar birbaşa sahilə, ya da bulaq başına gedirlər, əl-üzlərini yuyub sərinlənir, sonra bulağın yaxınlığındakı qoşa cökə ağaclarının kölgəsinə cəmləşib söhbət edir, yaxud sakitcə oturub göz işlədikcə uzaqlara baxırlar. Orada, Dərə deyilən səfalı yerin üzərində qarlı dağlar görünür. Daha nələr görünür?..

Mürgü qarını basdı və o, Sarının yarı açıq qapıdan necə boylandığını bilmədi. Yalnız qapı taqqıltı ilə örtüləndə gözlərini açıb başını qaldırdı:

– Ay adam!.. A bala!..

Sarı dabanı üstə geri döndü. Qarı hündür bir adamın az qala bütün qapı yerini tutub içəriyə kölgə saldığını gördüsə də, sifətini yaxşı seçə bilmədi.

– Kimsən, a bala?

– Mənəm, Zalxa nənə. Sarı...

– Ay sən xoş gəlibsən, oğul! – deyə qarı sevincək dikəldi. – Kefin, əhvalın, oğul?.. Bəs adam Zalxa nənəsini belə yada salar? Niyə gedib-gəlmirsən bizə?

Sarı nə deyəcəyini bilməyib duruxdu, sonra üzr istəyib:

– İşim çox olur, Zalxa nənə, – dedi.

– Yəni axşamlar da?.. Axşama sözün nədir?.. Dünən də kitabları tutub o gədədən... Adı nədir? Qocalığın üzü qara olsun, huşumu da itirmişəm. Hə, Veysəl... Ondan göndəribsən. Özcüyəzin gələndə nolardı?.. Gecə Zöhrə oturub oxuyurdu. Bir də gördüm, gözdən iraq, qız dəli təkin başını tutub o yan-bu yana gedir. Deyirəm, a bala, nolub? Deyir, bəs burda bir yer var, başa düşmürəm, dərnəkdir-mərnəkdir nədir, orda, deyir, qızlara qandıra bilməyəcəm. Çıxdım ki, səni səsləyəm, qızcığazı başa salasan. Gördüm işığın gəlmir... Di yaxşı, orda niyə durubsan, oğul? İçəri gəlsənə.

– Sağ ol, nənə, tələsirəm. Altı aydır fermaya bir buğa gətirmişik. Hələ də xasiyyətini öyrənə bilməmişik. Yaman dəlilik eləyir.

– Neyləyim, ayağım yer tutsaydı gedərdim, – deyə Zalxa qarı ah çəkdi. – Mən elə dəlilərin dilini pis bilməzdim, ay bala. İndi, hərdən yeri düşəndə Zöhrəyə azdan-çoxdan öyrədirəm.

– Öyrət, öyrət, nənə. Qocaların təcrübəsinə bizim çox ehtiyacımız var, – deyə nədənsə dilxor görünən Sarı yaxasını qarıdan qurtarmağa çalışdı.

– Elə isə, bir otursana. Zootexnik olanda nə böyük kişinin oğlusan, sənə də öyrətməyə söz taparam, deyə qarı həmsöhbət tapdığına sevinmiş kimi zarafat elədi.

Amma Sarı geri döndü.

– Bir başqa vaxtda öyrədərsən, – deyə soyuq və quru bir səslə cavab verib getdi.

"Bu niyə gəlmişdi, niyə getdi?" – deyə Zalxa qarı narahatlıqla düşündü. Sarı heç vaxt onlara belə ayaqüstü gəlməzdi. Həm də Zalxa nənə ilə heç vaxt belə quru danışmazdı. Zarafat edər, gülərli, arada da "qonşu qızını" xoş dillə dindirərdi. İndi isə o, Zöhrənin heç adını da çəkmədi.

Zalxa qarı Sarınan onun nəvəsini xoş dillə dindirmək yox, əksinə, bəlkə ona ağır bir söz demək niyyətilə gəldiyini bilsəydi, əlbəttə, dərdə düşərdi. Yaxşı ki, bilmədi.

Bəs nə olmuşdu ki, Sarı yenə belə bir niyyətə düşmüşdü? Yoxsa, o bu səhərki yığıncaqda "qonşu qızına" hirslənməklə kifayətlənmək istəmirdi?

Məsələ belə deyildi.

Sarı nə qədər xudbin, bir sözünün iki olmasını sevməyən oğlan olsa da, yığıncaqdan sonra "qonşu qızı" ilə bir daha mübahisəyə girişmək məqsədində deyildi. Tikintidə iş qaynayan kimi, onsuz da elə "qonşu qızı" da, onun Kərim dayısı da susacaqdılar. Onun yenidən coşmasına, günortaüstü camaat qoşa cökələrin altına yığışarkən eşitdiyi bir əhvalat səbəb olmuşdu. Bu kiçik, adi bir əhvalat idi. Sarının nəzərində isə bu, "qonşu qızının" ona qarşı münasibətinin dəyişdiyini bir daha sübut edən bir əhvalat idi. Ona elə gəlirdi ki, bu saat kəndin hər yerində ancaq həmin əhvalat barədə söhbət gedir.

Sarı bir azca səhv edirdi. Söhbət bütün kənddə deyil, yalnız Zalxa qarının evi ilə üzbəüz, yolun o tərəfində, silos xəndəklərinin yanında gedirdi.

## 10

Xəndəklərin qarşısında, yemçilik briqadasının yemdoğrayan maşınının dövrəsinə tökülmüş göy ot qalaqlarının üstündə bir neçə adam oturmuşdu. Onlardan bircəciyi yaşlı, qalanları gənc idi. Yaşlı adamın bu yeniyetmələr arasında oturması qəribə deyildi. Yunus kişi yemçilik briqadasını öhdəsinə götürəndən bəri vaxtının çoxunu burada – arabaçıların və silos hazırlayan cavanların arasında keçirirdi. Bu yer qoşa cökələrin kölgəsindən sonra "Engels" cavanlarının ikinci toplanış yeri idi. Yunus kişi işini qurtaran kimi gəlib onların yanındaca əyləşər, papiros çəkib dincələr, həm də gənclərin söhbətlərinə qulaq asardı.

İndi də o, tələsmədən papiros eşirdi.

Sağın qurtaran kimi, qız-gəlinlərlə başladığı zarafatı burada davam etdirməyə gələn hesablayıcı Veysəl, bic-bic gülən xırda gözlərini Yunus kişidən ayırmadan, ucadan danışırdı. Qəfildən o, səsini kəsib əlini cibinə atdı. "Kazbek" qutusunu açıb irəli uzatdı:

– Buyurun, yoldaş partkom!

Yunus kişi sakitcə bir onun üzünə, bir də qutusuna baxdı.

– Sən də çəkirsən? – dedi və birdən Veysəlin qabağa uzanmış arıq, nazik biləyindən yapışdı, barmaqlarını öz geniş ovcuna alıb elə möhkəm sıxdı ki, oğlan ağrıdan qışqırıb qıvrıldı. Cavanlar ağız-ağıza verib qəhqəhə çəkdilər. Necə olmuşdusa Veysəl unutmuşdu ki, Yunus kişi "Engels"də papiros çəkən bütün cavanların başına bu oyunu gətirir.

Kənddə danışırdılar ki, guya Yunus kişi uşaqlığında, hələ Bakıda işləməyə getməzdən əvvəl bir qaraçıya ovsun elətdirib, bütün qüvvəsini əllərinə yığmışdı. Kişinin dəmir kimi barmaqları vardı. İndi o, kefinin düz vaxtlarında, harada bir papiros işıltısı görürsə, gizlincə yaxınlaşıb, müştük tutan barmaqlardan qəfildən yapışır. Deyirlər ki, kişi, beləliklə, kənddə iyirmiyə qədər gəncə papiros çəkməyi tərgitmişdi. Tərgitməyənlərin isə çoxunun pencəklərinin, ya şalvarlarının cibində xal-xal yanıq yeri var. Yunus kişinin bu adətinə dair müxtəlif rəvayətlər danışırdılar. Bəziləri deyirdilər ki, Yunus kişi cavanlığında çox kasıblıq çəkmiş, həmişə qənaətlə dolanmış və indi onun tütünə, papirosa pul verib "israfçılıq eləyən" cavanlardan acığı

gəlir. Bəziləri isə belə bir rəvayət söyləyirdilər ki, guya Yunus kişinin yeganə oğlu papiros çəkməkdən ciyərlərini xarab etmiş, sonra vərəm xəstəliyinə tutulub ölmüşdü. Buna görə də Yunus kişi kəndin yeniyetmələrinin papiros çəkmələrini istəmir. Kənddə hər iki rəvayəti bilməyən adam tapılmazdı. Yaşıdları, o cümlədən, Kərim kişi də Yunus kişiyə deyərdilər: "Ay Yunus partkom adamsan, yaxşı deyil axı belə yüngül işlərlə məşğul olursan". O, Kərim kişinin də başqalarının da cavabında istehza ilə qımışıb dillənməzdi... Bir dəfə axşamüstü idarənin qabağına toplaşarkən Kərim kişiyə xəbər vermişdilər ki, Qara divarın dibində oturub papiros çəkir. Acığından Kərim kişinin gözləri kəlləsinə çıxmış: "Hardadı o haramzada?" – deyə divar dibinə cummuş və baldızı oğlunun hər iki qulağından yapışıb "qələt eləmişəm, ay yeznə yemişəm, ay yeznə" dedirdənə qədər çəkmişdi. Bu vaxt Yunus kişi arxadan yaxınlaşıb, əlini yaşıdının çiyninə qoyub demişdi: "Yaxşı deyil axı, ay Kərim, yekə ferma müdirisən, niyə belə yüngül işlərlə məşğul olursan?"

O vaxtdan bəri nə Kərim kişi nə də o biri yaşıdları Yunus kişini məzəmmət etmirdilər. Cavanlar isə partiya təşkilatçısının yoğun barmaqlı, geniş pəncəli əllərini heç vaxt unutmurdular.

Bunu Veysəl də unutmazdı. Ancaq məsələ başqa cür idi: fermada işə girəndən sonra qızlar, gəlinlər Veysələ o qədər hörmət göstərmişdilər ki, oğlan artıq əməlli-başlı kişilər cərgəsinə keçdiyini, partiya təşkilatçısının da daha onunla ləyaqətlə rəftar edəcəyini düşünmüş, sonra kişinin adətini büsbütün yaddan çıxarmış, hətta onun qarşısında qutu açmağa cəsarət etmişdi.

O, bir-birinə sıxılmaqdan qanı qaçıb ağappaq ağarmış barmaqlarına baxıb ufuldaya-ufuldaya dedi:

– Bəs siz özünüz niyə çəkirsiniz?

– Mən başqa məsələ, ancaq sənə olmaz, – deyə Yunus kişi oğlandan aldığı qutunu cibinə qoydu. – Hə, sən əhvalat danışırdın, sonrası nə oldu?

– Qoydunuz ki...

Veysəl hələ də əlini silkələyə-silkələyə, ufuldaya-ufuldaya Yunus kişinin dərisi cod-cod olmuş kobud barmaqlarına baxdı.

– Vallah, belə görürəm, deyəsən, o qaraçı məsələsi də doğrudur.

Bir az keçmiş, Veysəl hər şeyi unudub həmin əhvalatı nağıl edirdi. Onun xırda gözləri yenə bic-bic gülürdü.

– Hə, qardaş, onu deyirdim... Özünüz bilirsiniz ki, bizim qız-gəlinlərin yanında mənim boynum qıldan nazikdir... Yunus dayı, üzr istəyirəm.

– Nəyə görə üzr istəyirsən? Qız-gəlinlərə yaxşı niyyətlə qulluq eləmək pis iş deyil.

– Sağ olun, Yunus dayı. Vallah, sizdən olmaz. Əşi, bizim bu kəndin başqa qulluq sahiblərinin yanında adam cınqırını da çəkə bilmir. Bizim zootexnikimiz, sədrimiz qarışıq, elə qaşlı-qabaqlıdırlar ki, baxanda adam ödünü qusur.

– Qaş-qabaqlılıq vəzifə sahibi olmaqdan deyil. O adamların xasiyyətləri elədir.

– Sizin xasiyyətiniz gözəldir, Yunus dayı!

– Yaxşı sözünü danış!

Veysəl özünü yığışdırdı.

– Hə, dedilər, Veysəl, gəl bizim içimizdə qaraltılıq elə, gedək bir az çiyələk yeyek. Çaydan elə yenicə adlayanda... Yox, qoy başdan söyləyim... Hələ çayı adlamamışdan gördük inəklər böyürlərini yerə verib fısıldaşa-fısıldaşa göyşəyir, naxırçı Hətəm də elə öz inəkləri kimi göylüyə döşənib fıshafısla yatır. Qızlar dedilər görün buralarda ocaq yeri varmı, kömür tapın, Hətəmə bığ-saqqal çəkək. Axı, naxırçı Hətəm kosadır. Kosa oğlanları da ki, özünüz bilirsiniz, qızlar yaman dolayırlar. Hə, sözüm onda deyil. Mətləb mənim dostum Qaranın üstündədir. Hə, qardaş, o yana vurnuxdum, bu yana vurnuxdum, kömür-zad tapa bilmədim. Axırda getdim otun üstündə sıyıq mal peyini gətirdim. Elə yenicə Hətəmə yanaşıb kefə baxmaq istəyirdim ki, bir də nə görsəm yaxşıdır? Naxırçı Hətəmin üz-gözü əyiş-üyüş olub, özü də zarıyır. Sözün açığı, lap dəli oldum. Silkələyib qaldırdım ki, əyə, bu nə həngamədir, nə olub sənə? “Əl çəkin məndən, – dedi, – sancılanmışam”. Əyə, niyə sancılanıbsan? – deyirəm. Cavab verir ki, “yarğandan araba uçmuşdu, onu qaldıranda göbəyim düşüb”.

Arıq, uzun burunlu, kürən bir oğlan:

– Əyə, uçotçik, – deyə əda ilə Veysəlin sözünü kəsdi. Sən, axı, balam, deyirdin mətləb Qaranın üstündədir, ancaq naxırçı Hətəmdən yapışıb buraxmırsan.

– Mən sizə əməlli-başlı əhvalat söyləyirəm, ə, səbrin olsun, – deyə Veysəl davam etdi: – Elə haman yarğandan uçan araba da

Qaranınkı imiş də. Hə, Hətəmi burda qoyub yüyürdük yarğanın qırağına. Nə görsək yaxşıdır? Qaranın arabasının cağı bir yandadır, qolu da bir yanda. Qızlarnan köməkləşib bir təhər quraşdırdıq. Təzədən başladıq arabanın otunu doldurmağa.

Mən otu aşağıdan verirdim, dostum Qara da yuxarıda yığırdı. Baxdım ki, bəs, arabanın üstü taya təkin qalxır, ancaq yerdə hələ düz bir araba ot durur. Başa düşdüm ki, dostum acgözlük eləyib, çox doldurub deyin araba da yarğanın qaşında elə bir balaca əyilən kimi aşırılıb, kəlləmayallaq gedib. Dedim, əyə, Qara, bax, araba yenə dönər ha, daha bəsdir, az doldur. Qızlar da dedilər. Bəyəm arabaçı sözə baxır? Elə bir əldən doldurur. Doldurdu. Yerdə bircə yaba da ot qoymadı. Axırda başladı belağacını əyməyə. Qızlar çığırışdılar ki, ay gədə, otu çox yığıbsan, belağacının ipi çatıldayır, gözlə səni atar. Mən də dedim, yenə sözə baxmadı. Bax, elə burda haman əhvalat oldu. Ağac əlindən qopanda gədəni elə tulazdadı ki, düz yerə gəldi. Tappıltıynan ki, dəydi yerə, o saatca tirtap uzandı. Bu ilmi ölübsən, bildirmi...

Yunus kişi bir tərəfdə saymazyana oturmuş Qaraya gözucu bir nəzər salıb, Veysələ dedi:

– Bəlkə birdən kişinin oğlunun qol-qılçası sınaydı, iş o yerə çatmağa niyə qoyurdun?

Veysəlin gözləri parıldadı.

– Elə yaxşı eləmişəm qoymuşam, Yunus dayı. Bilirsiniz mən bunnan dostuma nə yaxşılıq eləmişəm?

– Əcəb yaxşılıq eləyibsən!

– Əşi, siz bir dalına qulaq asın. Özüm ölüm ki, ömrümdə ona bu qədər yaxşılıq eləməmişəm? Qulaq asın, əhvalat daldadır. Amma yenə qabaqcadan sizdən üzr istəyirəm.

– Dedim üzr istəmək lazım deyil. Cavanların söhbəti mənim üçün xoşdur.

– Çox sağ olun, yoldaş partkom... Hə... qızlar gördülər ki, gədə yerindən qalxmır. Kimisi içini çəkdi, kimisi də dizinə döydü. Ancaq heç biri yaxın durmadı. Təkcə bir nəfər... Onda gördüm ki, özünü atdı Qaranın üstünə, başını aldı qucağına. Gözləri də yaz buludu təkin doldu. Sız-sız sızıldadı ki, qurbanın olum, Qara, aç gözünü, bizi bədbəxt eləmə, deyib gözündən dolu kimi tökdü... Siz bilən bu kim olar, uşaqlar? – deyə hesablayıcı öz tay-tuşlarına

baxdı. Qara Veysələ əyri-əyri baxdısa da, yenə özünü saymamazlığa vurdu. Yunus kişi fermadan ayrılıb onun briqadasına gələndən bəri nədənsə kədərlənmiş, qaraqabaq olmuş Qaranın kefini açmaq istədi:

– Elə yanımlı qız kim olar ki?.. Qara, utanma, de, biz də elçiliyinə gedək.

Belə hallarda həmişə özünü bilici göstərməyə çalışan arıq, uzunburun, kürən oğlan mənalı-mənalı öskürdü:

– O cür utanmaq bilməyən qız sədrin qızından başqa kim olar?.. Düzdürmü, Veysəl?

– Bilmədin, dost.

– Bəs?..

– Bəli, bəli, dostum, bilmədin. Lətifə də gözündən yaş çıxardar? Özü də, balam, onun biz oğlanları görməyə gözü yoxdur. Əzazilin biridir... Mən deyən isə başqa cür qızdır: ürəyi var – bulanmaz dərya, dili var – baldan şirin. Özü də ki...

Qara Veysələ gözaltı baxa-baxa susurdu. Deyəsən, Veysəlin zarafatını birdəfəlik kəsmək üçün ona deməyə tutarlı bir söz axtarırdı. Veysəl isə hey bic-bic gülümsünürdü:

– Hə, nişanlarını da deyim? Özü bəstəboy, nazik gərdənli... Çəhrayı rəngli qofta geyməyi çox xoşlayır. Saçları Qaranınkından da qaradır, gözləri isə elə qaynardır, elə qaynardır ki, bir qənir baxmaq olmur.

Zöhrənin bulaq kimi qaynar gözlərinə az diqqət yetirməmiş gənclər bir ağızdan səsləndilər:

– Paho, daha bunu bilməyə nə var?

– Sən deyən gözlər bircə adamdadır.

– Hə, bax, uşaqlar, dostum Qara düz yarımca saat başını o qızın qolunun üstündən qaldırmadı.

– Deyirsən faqqılıq eləyirmiş?

– Kim olsa elə yerdə faqqılıq eləməz, ə?

Gənclər yenə qəhqəhə çəkdilər.

– Can ay Qara!

– Əcəb özündən gedibmişsən ha!

– Əyə, üzünə su-zad çiləmədi?

– Yaylığını alnına qoymadı?

– Əyə, bəs niyə elə həmişəlik özündən getmirdin?

– Həmişəlik niyə, ə? Yazıq deyilmi?

– Eh, ay qanırsan ha! Həmişəlik özündən getsəydi, başı da elə birdəfəlik onun qolunun üstündə qalardı də.

Şaqqıltılı gülüş səsləri bütün küçəni doldurdu. Qara daha tab gətirə bilmədi:

– Bura bax, ey! – deyə o, Veysələ yaxınlaşdı. – Onsuz da qulaqların yekədir, bir az da mən çəkərəm, lap tazı qulağına dönər ha!

– “Tazıqulaq” qızlar sənə deyirlər ki, ə...

Qaranın sifəti bozardı. Gündən qaralmış əlləri elə düyünləndi ki, barmaqlarının bükülən yerləri ağappaq oldu. Qara həmişə zarafata zarafatla cavab verən görməyə adət etmiş Veysəl, onun sifətinin, hətta qorxunc ifadə aldığını gördükdə bir addım dala çəkildi.

– Yavaş, ə, sənin ağzından qan iyi gəlir. Vurub qol-qıçımı sındırarsan. Qaranın qəzəbli simasını təəccüblə gözdən keçirib əlavə etdi: – Zarafatı biz də səndən öyrənmişik də, balam.

– Yaxşı öyrənməyibsən, dayan bu saat mən sənə öyrədim ki, belə zarafatlar adamı nə cür ağrıdır! – deyə Qara eyni qəzəbli görkəmlə hesablayıcının üstünə yeridi. Bu möhkəm əzələli oğlanın hərdən zarafata salıb öz yaşıdlarına necə toy tutduğuna lap uşaqlıqdan bələd olan arıq, çəlimsiz Veysəl çevik bir hərəkətlə sıçrayıb Yunus kişinin arxasına keçdi.

– Yavaş, ə, adam ol, – deyə o, hətta qorxuya düşüb kəkələdi də. – Gücünü göstərmə. Bələdik gücünə. Bir də, balam, nə vaxtdan belə zarafatdan inciyən olubsan?

Birdən-birə belə ciddiləşməsinin səbəbi heç Qaranın özünə də aydın deyildi. Dan ulduzunun göstərdiyi qayğıkeşlik, onun üçün axıtdığı göz yaşı arabaçını nə üçün sevindirmirdi? Bu hadisədən sonra o, gərək daha əyləncəli cavablar verəydi. Hamı onu belə görmüşdü, onun təbiəti belə idi. İndi isə qəzəbləndi, hətta az qaldı ki, yazıq hesablayıcıya əl qaldırsın.

Qara kənddə bütün cavanların hörmət etdiyi Yunus kişinin qarşısında kobudluq eləməsindən utandı, başını aşağı salıb öz əvvəlki yerinə çəkildi.

Veysəlin heç düşünmədən danışdığı əhvalat onu xeyli məşğul etdi. Bugünkü əhvalat haqqında bir daha düşündü. Bir daha qət etdi ki, Zöhrənin hərəkəti, sadəcə, qızın ürəyinin nazikliyindən, təmizliyindən doğmuşdu. Dan ulduzunun qəlbi çox incədir; qızın ona,

sadəcə, yazığı gəlmişdi. Burada isə Veysəl Zöhrənin hərəkətinə başqa məna verir. Qaraya "böyük yaxşılıq eləmişəm" deyir.

Qara Veysələ baxmaq üçün başını qaldırdı, lakin hesablayıcının yerində Sarını gördü. O elə fikrə dalmışdı ki, zootexnikin buraya necə gəldiyini də bilməmişdi.

Arabaçı bir Sarının barmaqlarının arasında tüstülənən papirosa, bir də partiya təşkilatçısının üzünə baxdı. Deyəsən, bu dəfə Yunus kişi əlini tərpətmək niyyətində deyildi. Görünür ki, Sarının təhsilinə, kənddəki mövqeyinə hörmət eləyirdi. Bu, olduqca kiçik, əhəmiyyətsiz bir hadisə olsa da, arabaçını qüssələndirdi. Axı, Zöhrə də, yəqin ki, bu oğlanın təhsilinə, mövqeyinə hörmət edir. Bu oğlanın dikbaşlığı, hərdən döşünə döyüb özündən deməsi, hətta Qaranın tay-tuşlarına bir növ yuxarıdan aşağı baxması Qaranın xoşuna gəlməsə də, o, etiraf edirdi ki, Sarı Eynalov olmasaydı, Ukrayna kimi uzaq bir yerdən yeni cinsli buğa gətirtmək bəlkə də başqalarının ağlına gəlməzdi. Bu, Sarının işi idi. O, Çaparı "Engels"in min manatlarla pulundan keçib sviş cinsli inəklər aldırmağa məcbur etmişdi. Bu inəklərdən birini də Zöhrə sağırdı."Malyutka", can a "Malyutka!" – deyə hər gün Zöhrə o qumral inəyin gözlərini sığallayırdı. – Səni mənə bizim zootexnikimiz gətirdib, a "Malyutka", onun yanında məni xəcalət eləmə, südünü çəkmə". Qız inəklə beləcə danışırdı. Bunu Qara da eşitmiş və Sarı haqqında düşünməyə başlamışdı. Hara gedirsən Sarının adını eşidirsən, hara baxırsan Sarının əməlini görürsən. Qəribə oğlandır, elə bil bütün "Engels"i ona tapşırıblar. Qaranın yadındadır: kolxoz idarəsində çamadanını yerə qoyanda Sarı sədrə demişdi: "Mən kəndə partiyanın çağırışilə gəlmişəm". Camaat bu sözləri təvazökarlıqdan uzaq hesab edib başlarını bulamışdılar. İlk günlər heç kim ona yovuşmur, öz aralarında deyirdilər: "Çox döşünə döyür, mən-mən deyir". Bəziləri isə Sarıya heç qulaq asmaq da istəmirdilər. Lakin indi onun bir sözünü iki eləyən yoxdu. Doğrudur, bu səhər fermada sağınçılarla söhbət zamanı Sarıdan narazı qalmışlar. Günortaüstü qızlar danışırdılar ki, hətta Zöhrə onu bərk sancmışdı. Lakin Qara düşünürdü ki, bu cür narazılıqlar ötüb-keçəcəkdir. Mədəni töylə şəraitinə keçəndə Zöhrə özü də, elə başqa sağınçılar da hamı Sarıdan asılı olacaq. Mədəni töylələrin tikilməsi isə, yəqin ki, çox çəkməz. Bayaq, hələ Veysəl söhbətə başlamamışdan partiya təşkilatçısı deyirdi ki,

dünən gecə o, taxta zavoduna gedibmiş, orada söz veriblər ki, "Engels" üçün tikinti materialını elə bu gecə göndərəcəklər. Yunus kişi əlavə olaraq bildirdi ki, o, yemçilik briqadasının işçilərinin yarısını tikintiyə göndərəcək: bu saat tikinti hər şeydən vacibdir; bütün camaatın diqqəti orada olmalıdır. Bütün bu işlər isə Sarının geniş fəaliyyəti üçün şərait yaradırdı.

Getdikcə Sarı arabaçının nəzərində böyüdü. O, Yunus kişi kimi bir adamın qarşısında, hətta bir qədər lovğalıqla dayanıb papirosunu tüstülədən oğlana qibtə ilə baxdı.

Qara yenə öz gələcəyi, öz taleyi haqqında düşündü. Sarının qarşısında özünü çox balaca bir adam kimi hiss etdi. O, arabaçı idi. Adi bir arabaçı...

Sarının səsi eşidildi:

– Mən sizin işgüzarlığınıza bələdəm, Yunus dayı, –deyə o, əllərini şalvarının cibinə dürtərək, nədənsə qürurlu bir görkəm alıb əlavə etdi: – Ancaq burası var ki, mənim gördüyüm iş çox böyük işdir. Məsuliyyətli işdir. Gələcəkdə göy ot çatdıra bilməyəndə isə məsuliyyətin bir tərəfi də sizin boynunuza düşəcək.

Zootexnikin hər şeyi öz adına yazması, başqa vaxtlarda olduğu kimi, indi də Qaranın xoşuna gəlmədi. Birdən onda, sifətində bir növ qız göyçəkliyi olan bu düz qamətli oğlana, nə isə, acı bir söz demək istəyi oyandı. Qara, hətta bir qədər dikəldi də. Lakin elə bu an Yunus kişinin səsi eşidildi:

– Gələcəyi şərait göstərəcək. Bizim aran yerinin havasını bilmək olmaz. Bəlkə yenə gün şaxıyacaq, biçənəklər quruyacaq. O barədə bir söz demək olmaz. Ancaq indiyə söz verirəm. Bu qolbəyilərimi böyrümə-başıma bəs niyə düzmüşəm? Tək bircə gün haylayıb Aran düzünə salsam, hərəsi bir araba ot biçər. Sən bunları belə uşaq-muşaq bilmə. – Yunus kişi papirosunu tüstülədib zarafat etdi: – Hünəri tək özündə görmə, yoldaş zootexnik. Mənim qolbəyilərimdə də hünər var.

Kişi bu sözləri sanki Qaraya ürək-dirək vermək üçün deyirdi. Qara istər-istəməz ona qulaq asdı və birdən başqa cür düşündü. Məgər məsələ arabaçı olub-olmamaqda, işin, qulluğun böyüklüyündə-kiçikliyindədir? Məsələ ondadır ki, bu kiçik işdə böyük hünər göstərməyi bacarasan. Məgər Qara özünü göstərməmişdi? "Engels"də arabaçı çox idi. Ancaq kənddə "arabaçı" deyərkən

adamların yadına birinci növbədə Qara düşürdü. Hətta bu söz ona bir növ ləqəb olmuşdu. Sərkərlilər Qaranın haqqında danışarkən çox zaman onun adını çəkməz, arabaçı belə getdi, arabaçı elə getdi deyərdilər. Yəqin Qara öz kiçik işində bir hünər göstərə bilmişdi ki, o qədər arabaçının içində bu ad yalnız ona verilmişdi.

Qarşıdan çətin günlər gəlirdi. Qış ayları üçün yüz tonlarla silos hazırlamaq lazım idi. Yunus kişi deyirdi ki, hər sağmal inək üçün ən azı beş-altı ton silos hazırlanmalıdır. Bu "Engels" tarixində görünməmiş bir rəqəm idi. Bu rəqəmin quru kağız üstündə qalmaması üçün arabaçı Qaradan da hünər tələb olunurdu. Nə yayın nəfəsi təngidən istisi, nə payızın günlərlə davam edən yağışı, palçığı onu qorxutmamalı idi.

Qaranın sanki çiynindən tutub silkələdilər: "Bu qəm-qüssə nədir, ay arabaçı, yüz ilin qocası kimi nə büzüşmüsən?! – dedildər. – Dur! Cavan oğlansan, iradəli ol, qəddini düzəlt! Bax, gün əyilir, bir azdan kəllərini qoşub arabanı sürəcəksən. İndi isə briqadanın buradakı işinə kömək elə. Bu lovğa Sarının yanında sənin arxanı yerə vermək istəməyən Yunus kişinin hörmətini qazan".

...Yemdoğrayan maşın guruldamağa başladı.

Qara yaşıl çəmən otundan qucaqlayıb maşının ağzına basdı. Maşının zürafə boğazı kimi uzun "yönəldicisi" titrədi, doğranmış yaşıl yem sürətlə havaya sovrularaq, iki addımlıqdakı xəndəyin bacasından içəri sallanmış dərin, geniş ağac nova, oradan da xəndəyə töküldü. Yunus kişi bu yemin axınına fikir verir və hərdənbir də yerdəki yabanı götürüb cəld, yüngül hərəkətlə yemi qabağa basırdı.

Qara qucağını otla bir də doldurdu. Maşın acıxmış bir nəhəng kimi, öz çarxı ilə otu qamarlayıb içəri ötürdü, silkələndi, nərildədi, yemi doğram-doğram eləyib havaya sovurdu, yenə aramla guruldadı.

Qara qucağını bir də doldurub maşına yaxınlaşdı, yenidən tayanın yanına qayıtdı, təkrar geri yönəldi. Nəhayət, bədənini tər basdı, nəfəsi təngidi. Çox bürkü idi!

Buna baxmayaraq, o çalışır, sanki bütün diqqətini, fikrini işə verib, ürək ağrısını unutmaq istəyirdi.

Yunus kişi xəndəyi dolduran bu aramsız yaşıl axından ləzzət alırmış kimi, tez-tez əlini bığına çəkir və yabanı daha həvəslə

işlədirdi. O, nəzərlərini novdan ayırmır, elə bil yüz tonlarla silosun gözəyarı kiloqramlarını hesablayırdı.

Yalnız gün əyilən zaman Yunus kişi başını qaldırdı və cavan iş yoldaşının nə hala düşdüyünü gördü. O biri gənclər aşağıda, – xəndəyin içində, novdan səpələnən yemi yerbəyer edə-edə yenə zarafatlaşırdılar. Hiss olunurdu ki, sementlənmiş divarlar arasında, sərinlikdə "qolbəyilərin" kefi kökdü. Qara isə təngnəfəs olub pörtmüşdü, əynindəki nazik boz köynəyi elə bil suya salıb çıxartmışdın...

Kəllərini arabaya qoşub yola düşdü.

Kənddən çıxhaçıxda arabaçılarla qarşılaşdı.

– Əyə, bir az ehtiyatlı ol, qoçaq oğlan. Bax, sonra başını qolları üstünə alan, alnına yaş yaylıq qoyan-zad tapılmaz, axırın itər ha! – deyə onlardan biri Qaraya sataşdı.

Qəribə idi: adi bir əhvalat barədə sanki bütün kəndə car çəkmişdilər. Nə üçün bu əhvalatla bu qədər maraqlanırdılar? Bu əhvalatı yayan kim idi? Qara arabadan yıxılarkən ətrafına toplaşan sağınçıları xatırladı. "Daha heç yerin ağrımır ki?" – deyə mehribanlıqla onu yola salan Zöhrəyə dodaq büzən bəzi qız-gəlinləri, o cümlədən, "bilməmişik, içimizdə doktorumuz da varmış" – deyib gözlərini süzdürərək Zöhrəyə rişxənd edən Lətifəni də yadına saldı. Lakin öz-özlüyündə heç nə aydınlaşdıra bilmədi. Ona sataşan arabaçılara cavab vermədən kəllərini haylayıb kənddən çıxdı.

Qoşa cökələrin kölgəsi adamla dolu idi. Zöhrə də, Lətifə də, hesablayıcının gözaltısı – acıdil Yasəmən də burada idilər. Günün göydən od ələməsinə baxmayaraq, Yasəmən yenə qara kalağayı örtmüşdü. Söylənilənə görə, bir dəfə hesablayıcı ona deyib ki, "sənin bənizin ağdır, qara kalağayı səni yaman tutur". O vaxtdan Yasəmən qızmar gündə belə qara kalağayını başından qoymur. Veysəl yenə gəlib qız-gəlinlərin arasına çıxmış və onlara nə isə danışır, yəqin ki, yenə kimisə tərifləyirdi. İsmət xala göy otluqda uzanıb yatmışdı. Kərim kolxoz sədri ilə birgə, uzaqdan divarları bozaran tikintiyə doğru gedirdi. Deyəsən, onlar yenə nə haqqındasa mübahisə edirdilər. Nədənsə, bu iki adam bir-birilə ümumi dil tapa bilmirdi.

Qara arabanı kənardan sürdü.

Bulağın bərabərinə çatanda atılıb arabadan düşdü və kölgədəkilərə baxmamağa çalışaraq, suya doğru yüyürdü.

Bulağın kənarındakı göylüyə üzüüstə döşənib, dodaqlarını çökəkdəki nova yenicə uzatmışdı ki, birdən başı üzərində tanış səs eşitdi.

– Tərli-tərli su içməzlər.

Arabaçı dikəldi və arxaya baxanda donub qaldı.

Zöhrə əlində tutduğu iri, mis dolçanı irəli uzatdı:

– Al, bunu iç.

– Bu nədir?

– Körəməz. Mən İsmət xalanı muştuluqladım ki, Cüyü inəyin doğub. Soruşdu: "Muştuluq nə verim?" Dedim: "Bütün bu adamlara körəməz..." Hamı içdi, bu da sənin payındır.

Qaranın dodaqlarında qüssəli bir təbəssüm gəzdi:

– Sənmi saxlayıbsan?

– Saxlamağına İsmət xala saxlayıb. Mən də gətirmişəm.

– Bəs niyə sən özün saxlamayıbsan, Zöhrə?

– Bunun nə təfavütü var ki?

– Çox təfavütü var, Zöhrə.

Zöhrənin qaşları tərpəndi.

– Dəlilik eləmə. Al iç. Sonra İsmət xala deyər xalası ölmüşə bir dolça körəməz saxlamışam, tapşırmışam ki, buralardan keçsə ver, onu da eləməyibsən.

Qara köksünü ötürüb bir dolçaya, bir də qızın üzünə baxdı, əlini tərpətmədi.

Zöhrə özünü itirdi.

– İçmirsən?

Qara qızın əllərini yormaq istəmədi. Dolçanı ondan alıb, sərin, dadlı körəməzi bir nəfəsə başına çəkdi.

– Oh, lap ürəyim yanırdı.

– Yenə gətirim?

– Yox, sağ ol.

– Axı, deyirsən ürəyim yanır?

Qara əvvəlcə qoşa cökələrin altına, sonra qızın üzünə mənalı bir nəzər saldı:

– Mənim ürəyimin yanğısını belə şeylər söndürməz, ay Zöhrə!

Zöhrə onun nə demək istədiyini başa düşdü. İsmət xalanın xahişini yerinə yetirdiyinə peşman oldu. Dönüb getmək istədi.

– Dolçanı bəri ver.

– Verməyəcəm.

– Bıy!..

– Düz sözümdür, Zöhrə. Əvvəlcə mənim bir sözümə cavab ver, sonra dolçanı... De görüm mənə yazığınmı gəlir?

Təəccübdən Zöhrənin gözləri dairələndi.

– Bu nə deməkdir?

– O deməkdir ki... Səhər mən özümnən gedəndə elə... İndi də bu körəməz... Bilmək istəyirəm ki, görüm bunu mənə yazığın gəldiyi üçünmü eləyirsən?

Qara bu bir neçə kəlməni deyib qurtarana qədər alnını tər basdı. Ürək çırpıntısı ilə gözlərini qızın dodaqlarına dikdi. Zöhrə isə dinməzcə əlini uzadıb dolçanı ondan aldı. İndi onun beləcə, dinib-danışmadan getməsi Qara üçün daha böyük dərd olardı. Arabaçının ürəyi daha şiddətlə çırpındı. "Getmə, Zöhrə, bir ayaq saxla!" – demək istədi. Amma elə bu an qız onun gözlərinin içinə baxdı.

– Yetim-yesir olub çöllərdə qalmayıbsan ki, yazığım gəlsin, – dedi, – hamısı ondan ötrüdür ki, sən yaxşı oğlansan. Sözə baxansan. Bir dəfə deyəndə ki, o mahnını oxuma, oxumursan.

Qaraya elə bil ox dəydi.

O, bir neçə an kirpiklərini qırpmadan mta-mat qızın üzünə baxdı. Ürəyində bir yanğı hiss etdi. Qəfildən, heç gözlənilmədən dolçanı Zöhrənin əlindən qapdı, bulağın sərin suyundan doldurub başına çəkdi.

– Yox!.. – deyə pıçıldadı, – Zöhrə, mən o mahnını indən belə daha bərkdən oxuyacam!

O, bunu deyib iti hərəkətlə geri dönüb, arabaya doğru addımladı. Lakin qızın məlahətli səsi onu yenə ayaq saxlamağa məcbur etdi.

– Dayan, Qara! – deyə Zöhrə bulağın ətrafını bürümüş otluqda səssizcə yeriyə-yeriyə, sakit bir görkəmlə ona yaxınlaşdı və eyni məlahətli, titrək səslə xəbər aldı: – De görüm... Axı niyə oxuyasan, əzizim?.. Sən balaca vaxtı həmişə mənim sözümə baxardın, yadındadırmı, bax, o cökələrin başındakı yuvalarda dolaşa balası qoymazdın. Ətbala-ətbala tutub səbətə doldurardın. Ancaq mən deyəndə ki, orda çığırışan analarına yazığın gəlsin, apar qoy yuvalarına, aparıb qoyardın. Ya da elə başqa işlər... Bəs indi mən deyənə niyə qulaq asmırsan, Qara?

– Hm, – deyə arabaçı qüssəli-qüssəli qımışdı. – Gülməli söz danışma, Zöhrə. Sənə yaraşmır. Ətbala dolaşa hara, ürək məsələsi hara? Mən sənə qulaq asıram, ürəyim qulaq asmır. Neyləyim?

– Ürək də səninkidir. İstəsən qulaq asar.

– Ürəyi məcbur eləmək çox çətindir, Zöhrə!

– Axı, ağıllı qardaş, sən bilirsən ki... – Sanki Zöhrənin boğazında nə isə ilişib qaldı. Fikrini bütünlüklə ifadə edə bilməyib, yalnız bu sözləri dedi: – Axı, oxuyub kəndə səs salmaqdan nə olacaq?

– Mən deyirdim bəlkə bu mahnı bəzi ürəkləri yumşaldar, Zöhrə. Yumşalmır, indi də oxuyuram ki, qoy bu Aran düzündəki daşlar yumşalsın, ərisin, o çaya qarışsın.

– Mən sənnən çox ciddi söhbət eləyirəm, Qara, – deyə Zöhrə həyadan əriyə-əriyə eyni titrək səslə davam etdi. – Sən isə zarafata düzürsən.

– Səhv eləyirsən, Zöhrə. Mən də çox ciddi danışıram.

– Axı, əzizim, sən bilirsən ki, bizim... bizim onunla... əhd-peymanımız...

Zöhrə sözünün dalını gətirə bilmədi. Əlini alışıb-yanan yanağına söykəyib başını aşağı saldı.

Arabaçı köksünü ötürdü. Gözlərini gözəl qızın lalə kimi qızaran yanaqlarına zilləyib:

– Sən ürəkdə qızla o cür oğlanın əhd-peymanı baş tutmayacaq, el qızı! – dedi və “o cür oğlan” deyərkən Qaranın hansı xüsusiyyətini nəzərdə tutduğunu izah etmədən, Zöhrəni sarsılmış halda qoyaraq, atılıb arabaya mindi.

– Hə, üzülmüşlər!.. – deyə o, əlindəki tənəyi kəllərin beli uzunu döşədi.

Bir azdan Aran çayının sarp yarğanları iniltili bir səsə əks-səda verdi. Səs bu yarğandan o yarğana keçib çölə yayıldı.

Sanki bütün Aran düzü dilə gəlib arabaçının dərdini danışırdı:

Uzaq üfüqlərə göz gəzdirməkdən
Az qala kor oldum, ey Dan ulduzu!..

Bu yanıqlı səsi yavaş-yavaş tikintiyə doğru addımlayan Sarı da eşidirdi...

## 11

Sarı bir yerdə durub-dincəlməyi sevən adam deyildi. Bir məqsədi olmasaydı, Yunus kişigilin yanında da bekar oturmazdı. O, orada Zöhrənin evə qayıtmasını gözləyirdi. Papirosu papirosun oduna yandıra-yandıra tez-tez yola baxırdı.

Yunus kişi yemdoğrayan maşını işə saldırdıqdan sonra Sarı işsizlikdən darıxdı. Daha doğrusu, xəndəyin içində və eşikdə tər tökən adamların yanında avara dayanmağı münasib bilmədi. Fikirləşdi ki, adamlar ona baxıb deyirlər: "Bu niyə papağını gündə yandırır? İlin bu vaxtında boş dayanmaq eyib deyilmi?!" Bir dəfə yola baxdı, Zöhrəylə daha münasib bir vaxtda danışmağı qərara aldı. Papirosunu yerə atıb çəkməsinin burnu ilə əzdi və tikintiyə yollandı.

Düşünürdü ki, naxır örüşdən qayıdan kimi fermada olmalı, bütün gecəni yatmayıb inəkləri çəkisinə və cinsinə görə qruplaşdırmalıdır. Hər bir sağmal inəyə xüsusi yem cədvəli tərtib etmək üçün o, uzun müddət yazı stolunun dalında oturmalı idi ki, bu işin öhdəsindən gələ biləydi. Lakin o vaxtadək hər bir sağınçının inəkləri öz bildiyi kimi yemləməsi qorxulu idi. Yeganə çıxış yolu inəkləri qruplaşdırmaq və hər qrup üçün bir cədvəl tərtib etmək idi. Bu, vaxtı az aparardı.

Sarı beləcə düşünə-düşünə gedirdi.

Birdən sanki kim isə onun döşündən itələyib saxladı. Yenə həmin mahnı!.. Sarının fikirləri bircə anda uçub dağıldı. O, geniş düzənlikdə cərgə-cərgə uzanan taxılların arası ilə uzaqlaşan arabanın arxasınca baxdı. Həmin gecə ay işığında Zöhrənin arabaya necə atılıb mindiyi gözləri önünə gəldi.

Sarı bu qənaətdə idi ki, evlənmək istədiyi qızı indidən öz təsiri altına salmalı və yalnız bu yolla gələcəkdə, "ailədə əsl kişi olmalıdır". Zöhrə sakit təbiətli, həyalı, abırlı qız idi. Gözəllikdə də kənddə heç bir qız ona çatmazdı. "Qonşu qızı" əsl Sarı deyəndi. Lakin onun çay kənarındakı hərəkəti və bu səhərki əhvalat Sarıya başqa şeylər deyirdi.

Sarı hirslənirdi. İndicə Zöhrə buradan çıxsaydı, o, qızı acılamaqdan belə özünü saxlaya bilməzdi. Yox, o, nahaq yerəcə Zöhrəni gözləmədi. Gərək gözləyə idi və bu məsələni "ya mum eləyəydi, ya şam". Sarı başqaları kimi ağrını ürəyinə sala bilmirdi. Səbr etmək onun təbiətinə yad idi.

Birdən ona elə gəldi ki, axşama qədər dözə bilməyəcək. Geri qayıtmaq, Zöhrəni axtarıb tapmaq, adamların arasından bir yana çağırmaq!.. Lakin o, artıq tikintidə idi.

Qulaqları dibində eşidilən kobud səs Sarını elə bil yuxudan ayıltdı:

– Ə, hara soxulursan, ay qardaş!.. Canından keçibsən?

Qaldırıcı kranın sürətlə fırlatdığı bir dəstə reyka, onun başındakı ikicə barmaq yuxarıdan vıyıldayıb keçdi.

– Qorxdun?

Sarı yana döndü. Döşünə aşılanmış keçi dərisindən önlük bağlanmış qara sifətli, gödək inşaat briqadirini tanıdı. Dillənmədi. Qarşı-qarşıya iki cərgə uzanan divarların üzərində geniş bir dairə cızıb reykaları taqqıltı ilə taxta bəndin üstünə tökən kranın hərəkətini izlədi.

Onun geniş açılmış gözlərinə baxan cavan briqadir qımışdı:

– Su gətirim?

Sarı yenə cavab vermədi. Hey krana baxırdı.

– Ə, niyə dinmirsən, yoldaş zootexnik? Yəni o qədər qorxdun ki, nitqin də tutuldu?

Sarı nəhayət dilləndi:

– Bu maşını bura kim gətirdib?

– Hər halda sədrimiz Çapar gətirtməyib, – deyə briqadir mənalı-mənalı gülümsündü və əlini üzərindən qatı duman kimi toz qalxan uzunsov divarların arasından çıxan ferma müdirinə uzatdı.

Sarının Kərim dayıya dikilən gözlərindən təəccüb oxundu.

O, Zalxa qarının evinə yollanarkən Kərim dayını Çaparın sınıq-salxaq "Moskviç"ində hara isə gedən görmüşdü. Sarını elə bil ki, addım-addım izləyən Lətifə böyürdən çıxıb demişdi ki, "Kərim dayı dədəmin əlindən raykoma şikayətə gedir". Sonra Lətifə Zöhrənin "qorxaqlığından" söhbət salmış və əlavə etmişdi ki:

– Elə onun oturuşuna-duruşuna baxanda deyirsən elə bil qoca qarıdır. Asta durar, asta danışar. Başdan-ayağa ətalətdir.

– Ətalət? Sən bu sözü hardan bilirsən?

– Elə onun özündən eşitmişəm. Komsomol iclasında mənə tapşırıq veriləndə... Yadındadır? – deyə Lətifə yenə nə barədəsə, ara vermədən danışmışdı. Ancaq Sarı daha ona qulaq asmayıb, fikrini yolla buruq-buruq toz qaldıran "Moskviç"ə vermişdi. Lətifənin xəbərini əksinə olaraq, maşın rayon mərkəzinə deyil, MTS yoluna burulmuşdu.

Deməkreykaları dama dəstə-dəstə qaldıran bu nəhəngi Kərim dayı gətirtmişdi? Bəs nə tez!..

– Yenə qiyamət eləyirsən, yoldaş müdir! – deyə Sarı ferma müdirinə yaxınlaşaraq, əlinin işarəsilə kranı göstərdi.

Qoca onu etinasız qarşıladı. Cavab da vermədi. Divar dibindəki çəlləkdən pörtmüş üzünə su çırpdı, köynəyinin ətəyinin astar üzü ilə quruladı və yalnız bundan sonra dilləndi:

– Mən sənin sədrin kimi dil pəhlivanı deyiləm.

– Sən ki, danışmağa başlayanda qurtarmaq bilmirsən, ay Kərim dayı!

– Danışıramsa iş də tuturam!

– O kranı doğrudan sən gətirdibsən?

– Yox, sən, bir də sənin sədrin Çapar gətirdibsiniz!

Sarı gözlənilmədən qaqqıltı ilə güldü.

– Əşi, bu qədər də narazılıq eləmək olarmı, ay Kərim dayı, bəs deyilmi?

Kərim dayı səsindəki eyni ahəngi saxladı:

– Mən yox, on gündən-yarım aydan sonra bütün bax o gördüyün mal-heyvan dilə gəlib narazılıq eləyəcək.

Sarı deməyə söz tapmadı, divar dibində yığılmış taxtaların üstündə oturub cibindən papiros çıxartdı.

– Birini də mənə ver, – deyə Kərim dayı da oturdu. Sarı başını qaldırıb təəccüblə qocanın üzünə baxdı.

– Sən ki, tərgitmişdin?

– Bəri ver! – deyə qoca onun əlindəki papirosu alıb damağına qoydu. Yandırıb tüstünü ciyərlərinə çəkdi. Lakin birdən onu öskürək tutdu. Qoca papirosu yerə çırpdı, bir-iki dəfə də öskürdükdən sonra əlinin arxasilə dodaqlarını silib başını buladı. – Zəhrimarı çəkirsən olmur, çəkmirsən olmur. Doktorumuz da bildirdən bəri haray təpir ki, çəkmə, nə bilim ciyərin zəifdir-filan...

– Zəifdir deyir, çəkmə də. Nə çətin məsələdir ki?

– Çox çətin məsələdir. Bizim bu kənddə çox çətin məsələdir.

– Yenə narazılıq?

Kərim dayı zootexnikin istehza ilə qıyılmış gözlərinin içinə baxıb soruşdu:

– Mənim narazılığım sənə niyə toxunur, bala?

– Ona görə ki, boş yerəcə özünü adamların yanında pis eləyirsən. Nə əhəmiyyəti var axı, bu peydəri danışmağın?

– Mənim danışmağımdan inciyən varsa, qoy lap dünəndən incisin, – deyə birdən qoca səsini ucaltdı. – Mən axı necə danışmayım, bala?.. Yaşımın bu ötgün vaxtında dedim, əldən-ayaqdan düşməmişkən elə-günə azdan-çoxdan xeyrim dəysin. Hələ qar yerdən götürülməmişdən bura qrant çəkdirdim, hovuz qayırtdırdım, duşacan da qoydurdum ki, qoy töylələr tikilib qurtaranda heyvanın içməli suyundan tutmuş, çimmək yerinəcən hazır olsun. Bax, biz o divarların arasındakı hovuzu qazanda hələ yerin donu da açılmamışdı. Beli yerə vururdun, taqq eləyib üzünə qayıdırdı. Camaat üzümə dayanırdı ki, əldən-ayaqdan düşürük, gözləyək, havalar istiləşsin, yerin donu açılsın. Yalvarıb-yaxarırdım ki, a qadanızı alım, isti vaxtın da öz işi var. Sən özün şahidsən ki, hər gün sabah sağınından sonra arvad-uşağı bura töküb, bax, bu divarların daşını belimizdə daşıyırdıq... İndi deyirsən danışma. Mənim murazım gözümdə qalır, necə danışmayım, bala?!

– A kişi, murazın niyə gözündə qalır? Maşın gətirirsən, işləyirsən, tikirsən...

– Hamısı hədərdir! – deyə Kərim dayı əsəbi bir hərəkətlə əlini yelləyib zootexnikin sözünü kəsdi. – İş gərək vaxtında görüləydi. Elə ki, görülmədi, hamısı hədərdir. Sənə də açığını deyim ki, nahaq yerəcə sədrin tərəfini saxlayırsan, on günə, yarım aya bu iş qurtarmasa, köçəcəm mən.

– Dövlətin qərarının əksinə çıxacaqsan?

Kərim dayı zootexniki çəpəki bir nəzərlə süzərək:

– Dövlətin qərarının əksinə çıxan mən yox, bax, bu tikintini indiyəcən belə xaraba qoyan adamdır! – dedi. – Uşaq-zad deyiləm, dövlətin qərarını yaxşı başa düşürəm. Bu qərar üçün can qoyan da əvvəl mən özüməm... Ey, sənələrdən bəri bu kəndin camaatı hər yay Ermənistana köçüb. Elə ki, may qurtardı, bu gördüyün düzlər dönüb olur bir cəhənnəm. Buranın nəinki camaatı, quşlarınacan köçüb gedir. Mənim yaxşı yadımdadır ki, yay girəndə burda bir ənər-cinər tapılmazdı. Əli-ayağı tutan atdan, eşşəkdən tapıb başını götürüb qaçardı – birbaş yaylaq sənsən. Taxıl-maxıl, bağ-bağat qalardı başlı-başına. Peşğurtda bütün şenlikdən beş-üç kişi çuvaldan, xurcundan götürüb gələrdi arana, taxıldan ala-tala biçib tələm-

tələsik döyərdilər, üyüdüb təzədən qaçardılar yaylağa. Arana qayıdanda da görərdilər ki, qızılı buğda qurdun-quşun dimdiyində gedib. Yəinki bəylər qəsdən od qoyub yandırıblar ki, qışda camaat ac-yalavac qalsın, onlar da öz taxıllarını od qiymətinə satsınlar. – Kərim dayı ötən günlərin xatirələrindən kədərlənib köksünü ötürdü, adəti üzrə bir neçə dəfə başını bulayıb davam etdi: – O vaxtları bu camaatın heç ağlına da gəlməyib ki, geniş, sərin, işıqlı töylələr tikmək olar, yonca, qarğıdalı, sudanotu əkmək olar, tökülə-tökülə dağlara dırmaşmamaq da olar. İndi Sovet hökuməti qərar çıxardıb, hamı istəyir ki, bu qərarın xeyrini görsün. Mən də görmək istəyirəm. Mən dövlətin qərarının əksinə deyiləm, bala! Təkrar eləyirəm ki, bax, qərarın əksinə olan indiyəcən bu tikintini xaraba qoyan adamdır. Xaraba qoyub, indi də qorxuya düşüb ki, vay aman, Kərim Sərkəroğlu heyvanı yaylağa aparmağa icazə istəsə, rayon rəhbərliyi mənə nə deyər? Dördəlli yapışıb yaxamdan ki, şərait olsa da, olmasa da köçməyəcəksən.

– Axı, o sözü təkcə sədr demir.

– Bir də sən deyirsən?

– Bəli.

– Yaxşı, o, vəzifəsindən qorxub elə deyir, bəs sən?

Gözlənilmədən Sarı gülümsündü. O, bu qoca ilə şit bir zarafat etmək xəyalına düşdü.

– Mən də dövlətin qərarını yerinə yetirib özümü göstərmək, daha yaxşı vəzifə qazanmaq istəyirəm. Axı bir mərtəbəyə çatmaq üçün gərək özünü göstərəsən, ya yox? Bax, bu tikinti gec qurtarsa da, heyvan bürküyə düşüb qırılsa da ad olacaq ki "Engels"in zootexniki dövlət qərarı uğrunda döş gərib. Axı yuxarılarda çox zaman işin mahiyyətinə yox, formal plan yerinə yetirilməyinə baxırlar, – deyə Sarı təkrar gülümsündü. – Düz deyirəm, ya yox?

– Mənim sənnən zarafatlıq halım yoxdur, – deyə Kərim dayı divara söykədiyi beli götürüb, lap bəridəki töylənin darvazaya bənzəyən geniş qapı yerindən içəriyə – toz-dumanın arasına girdi.

"Sən elə bil zarafat eləyirəm, – deyə fikirləşən Sarı bir daha qımışdı. – Sən özün də təsdiq edərsən ki, bu zamanada irəli getmək, bir mərtəbəyə çatmaq istəyirsənsə iş görməlisən. Özü də elə-belə, yüngülvari yox, köklü iş görməlisən. Ehtirasla, inadla çalışmalısan. İstədiyinə çatandan sonra isə, o qədər işləməsən də olar. Bir mərtə-

bəyə minən adamların hansı iş görür ki? Məsələn, elə biri bizim sədrimiz, neyləyir? Ancaq öz cah-cəlalının, öz rahatlığının qeydinə qalmırmı? Bir mərtəbəyə çatanda sonra adamın işi-peşəsi elə ona-buna quru-quru göstəriş vermək, yağ yeyib yaxada gəzmək olur də...”

Sarı nəyinsə həsrətini çəkən adamlar kimi, dərindən köksünü ötürdü və necə oldusa institutu bitirərkən başına gələn əhvalatı xatırladı.

O, aspiranturaya ərizə vermişdi. Gecəni gündüzə qatıb, necə deyərlər, gözünün altını-üstünü yırtıb qəbul imtahanlarına hazırlaşmışdı. Lakin institutun direktorunun bir neçə kəlməsi hər şeyi alt-üst etmişdi. “Xasiyyətindən xoşum gəlmir, – deyə direktor onun ərizəsini kənara qoymuş Sarıyla söhbət zamanı isə, aydın, kəskin bir ifadə ilə: bu neçə ildə mən sənə bələd olmuşam, bala, sənin məqsədin elmə xidmət etmək yox, karyera qazanmaqdır!” – demişdi.

Sarı direktoru söyüb çıxmışdı.

Lakin o, ruhdan düşməmiş, “kəndə kömək kampaniyası” ərəfəsində ancaq bu kampaniyadan istifadə etmək yolu ilə özünə mövqe qazanacağını düşünərək, nazirliyə ərizə verib kəndə getmək arzusunda olduğunu bildirmişdi...

Sarı ətrafına boylanıb, damda reykaları mıxlayan ustaları, yerdə, divar dibində taxta rəndələyən dəri döşlüklü adamları, avtomobil üstündə quraşdırılmış qaldırıcı kranın havadan asılmış uzun xortumunu o tərəfdə Kərim dayının tikdirmiş olduğu hovuzun kənarlarını sementləyən iki nəfəri gözdən keçirdi və artıq fəaliyyət yerində, iş meydanında olduğunu sanki yenidən dərk etdi.

Cəld ayağa qalxdı, naxırın örüşdən dönmək vaxtına hələ çox qaldığını gördükdə elə bil vaxtın belə gec gəlib keçdiyinə təəssüf etdi. Onda nə isə bir iş görmək, çalışmaq ehtirası elə gücləndi ki, tələsik, iti addımlarla Kərim dayının arxasınca içəri girdi. Burada töylənin döşəməsinin nahamvar yerlərini qazırdılar.

Sarı bel götürüb qoca müdirlə yanaşı işləməyə başladı.

Çoxdan bəri yer qazımamışdı. Yalnız Novruz bayramında Zalxa qarının ərik ağaclarının dibini boşaltmış, bir də “qonşu qızı”nın xahişi ilə həyətdə iki lək soğan əkmişdi. Vəssalam. Halbuki o, beləcə, bax bu tər tökən adamlar kimi əlinə bel götürüb işləməyi xoşlayırdı.

İndi də işə çox həvəslə girişdi.

Burada çalışanlar Yunus kişinin briqadadan ayırıb göndərdiyi adamlardı. Ot biçinində olduğu kimi onlar burada da başlarına küncləri düyünlənmiş yaylıq bağlamışdılar. Tərdən çoxunun köynəyi gövdəsinə yapışmışdı. Toz duman kimi qatılaşıb nəfəsləri təngidirdi. Ancaq hamı buna alışmışdı.

Səssizcə işləyirdilər. Yalnız təpkeşlərə dəyən zərbələrin səsi, tövşüyən adamların nəfəslərinin fışıltısı və bellərin boğuq cingiltisi eşidilirdi.

Döşəmənin ortasındakı uzunsov dikdir yer getdikcə əriyirdi.

Sarı ilə Kərim dayı bu dikdirin bir tərəfini sökürdülər...

Birdən Sarı nəfəsinin təngidiyini hiss etdi. Bol hava udmaq istədi. Ağzını açdı, toz boğazına doldu. Dərhal dodaqlarını bir-birinə sıxdı. Burnundan nəfəs aldı. Darıxdı. Qolları, ayaqları da ilk anlardakı kimi cəld işləmədi. Sarı yalnız indicə dərk etdi ki, fiziki iş onun üçün nə qədər biganədir. Lakin, adəti üzrə, özünü sındırmamağa, Kərim dayıya heç nə hiss etdirməməyə çalışaraq, əvvəlki kimi cəld işləməyə can atdı. Ancaq bacarmadı. Qollarının hərəsindən sanki bir batman daş asıldı. Bütün bədəni sıxıldı. Başı hərləndi, gözlərinə qaranlıq çökdü.

Dayanıb belin sapına söykəndi. Əlini alnına aparmaq istədi, amma dərhal aşağı saldı; ona elə gəldi ki, Kərim dayı gözünün altından baxıb istehza ilə gülümsünür (axı, Sarı özü də həmişə zəif adamlara istehza edərdi.

O, bütün qüvvəsini toplayıb təpkeşə ağır bir zərbə endirdi. İkinci, üçüncü zərbəni də endirdi. Daha ayaq tərpənmədi. Birdən-birə sustaldı.

Qəfildən bədənində qəribə bir çimildəşmə hiss etdi; gövdəsindən tər açıldı. Özü də birdən-birə, sel kimi açıldı. Axdı, axdı... Kürəyindən və sinəsindən vurub eşiyə çıxdı. Elə bil hər şey buna bənd imiş; bayaqkı ağrı da, sıxıntı da yox oldu.

Sarı özündə bir yüngüllük, çeviklik hiss etdi.

Kərim dayı aramla, tələsmədən bel vururdu. Hər dəfə beli götürərkən yerə bir qırıq da torpaq düşmürdü. Sarı isə tələsir, beli cəld götürməyə çalışır, amma torpağı dağıdır və ikinci dəfə eyni yerə bel sancmağa məcbur olurdu. O elə tələsdi ki, birdən ayağı təpkeşdən sürüşdü, təpkeş təzəcə çəkməsinin boğazını cırdı.

Kərim dayının gülümsündüyünü bu dəfə o, aydınca gördü. Qoca isə, elə bil qəsdən özünü görməməzliyə vurdu, adətinin əksinə, heç nə demədi.

O yalnız şər qarışanda, zootexnik ilə birgə töylələrdən uzaqlaşanda dedi:

– Olmaya-olmaya əllərinə su vurasan ha! Özünü yox yerdən işə salarsan.

Sarı bu sözlərdən əvvəlcə heç nə anlamadı. Sonra əllərinə baxdı: özünün də xəbəri olmadan, ovuclarının suluq-suluq olduğunu gördükdə təəccübləndi.

– Bax, tələsməyin axırı həmişə belə olur, – deyə Kərim dayı əlavə etdi: – Mən bunu ona görə deyirəm ki, sən elə hər işdə tələsirsən, oğul. Bir gün altını çəkəcəksən...

## 12

Sarının əllərini sarıyan balaca boylu, ağ bənizli, qara saçlı həkim qız da:

– İş görəndə hər halda bir az ehtiyatlı olun, yoldaş zootexnik, – deyə ona nəsihət etdi. Lakin nə Kərim dayının, nə də həkim qızın nəsihəti Sarının beyninə batdı.

Budur, o, yenə tələsirdi.

Səhiyyə məntəqəsindən çıxan kimi birbaş fermaya yüyürdü.

Dünən Veysəl ehtiyatsızlıq edib arakəsmənin ağzını açıq qoymuşdu. Bir gecə-gündüz idi ki, Dunay buğa Aran düzündə cövlan edir, sağın zamanı da camaata rahatlıq verməyib, düyələrin üstünə şığıyır, heykirə-heykirə naxırı bir-birinə vurur, necə deyərlər, qatlam-qatlam eləyirdi. Keçən axşam İsmət xala öz Qaragözünü sağdığı zaman Dunay yerindən qopmuş bir dağ kimi gurultu ilə şığıyıb inəyin belinə sıçradı. Balaca arıq Qaragöz qorxudan dəhşətə gəlib qaçmaq istədi. Amma qabaq ayaqları buzova bağlı olduğundan, böyrü üstə yerə dəydi, çırpındı və bir vedrə südü yerə dağıdıb zay elədi. İsmət xala düz iki saat lələ-huy saldı. Ətəklərini belinə dəstələyib Veysəlin üstünə cumdu: "Eynəyin altından qız-gəlinlərə baxıb hırıldamağı bilirsən, Allahın bircə buğasını bağda saxlamağı

yox?!" Ərinin qarasınca deyindi, sonra da Sarını yamanladı: "Allah bilir o heyvərənin toxumundan nə çıxacaq, hələ ki, gündə bir vedrə südümüznən torpaq suvarır".

Sarı İsmət xalanın ərininkindən də ötə olan deyintilərinə dözə bilərdi. Ancaq Dunay daha böyük bir fəlakət törətsəydi, dözmək çətin idi.

O, fermaya yetişəndə, naxır örüşdən dönüb sağın yerinə toxtatmışdı. Çəpərin içində buzovlar çaxnaşır, özlərini analarının altına salmağa can atır, çəpərin ağzında dimdik dayanmış oğlan çomağını yuxarı qaldırdıqda isə, onlar bir-birini basa-basa dar bir dairədə kutlaşır, sanki şübhə ilə oğlanın çomağına baxırdılar. Yəqin ki, bu çomağın dadını görmüşdülər.

Ətrafdan vedrələrin cingiltisi və inəklərini çağıran sağınçıların səsləri gəlirdi.

Dunay gözə dəymirdi. Heykirtisi də eşidilmirdi. Görünür Veysəl onu arakəsməyə sala bilmişdi. Sarının ürəyi sakitləşdi. Sağından sonra naxırı qapanın yanına yığdırmaq üçün Kərim dayını axtarmağa getdi.

Elə bu an sağın meydanının ətrafındakı göylüyə səpələnmiş xam düyələrin arasına çaxnaşma düşdü. Heyvanlar nədənsə vahiməyə düşmüş kimi, gurultu ilə sağa-sola dağıldılar. Balacaboylu, qumral, arıq bir düyə isə quyruğunu havaya qaldıraraq, özünü on addımlıqdakı iydə kollarının arasına verdi, qorxunc bir səslə böyürdü. Nə olmuşdu? Bu nə həngamə idi?

Veysəlin cır səsi eşidildi:

– Gördün, yoldaş zootexnik? Mən deyirəm, qızlar inanmırlar. Vallah bizim bu Dunayın İsmət xalanın Qaragözünə gözü düşüb, – deyə əllərilə qarnını tutub uğundu. – Düz bir sutkadır düşüb Qaragözün dalından, elə orda-burda basmarlayır. Ay gözünə dönüm! Ha-ha-ha...

Bu vaxt iydə kollarının arxasından Dunay göründü. Balaca ayaqlarını yerə bərk-bərk dirəyə-dirəyə, ağır, nəhəng gövdəsini yüngülcə çəkərək, gərilmiş burun pərələrilə havanı iyləyə-iyləyə gəlirdi.

– Yekəliyinə bax, qanmazlığına bax, – deyən Veysəl gülməyinə ara vermirdi. – Daha demir ki, Qaragözün qarnında altı aylıq balası var. Elə basmarlayır ha... Dama salmaq lazımdır bu qanmazı.

– Bura bax, Veysəl, Qaragöz buzov salsa, bax, Dunayı yox, İsmət xala sənin özünü dama salar, işıqlı dünya üzü görməzsən. Bu saat tut onu, arakəsməyə sal.

– Ay-hay... Tuta bilirəm ki?.. Kəpəkdən-zaddan o qədər yeyib ki, gözləri kəlləsində oynayır.

– Uzun danışma, dələduz! Yeri!..

– Yaxşı də. Daha acığın niyə tutur? – deyə Veysəl dərhal səsini alçaltdı. O, Sarıdan qorxduğu qədər heç kimdən qorxmurdu. Südü nə qədər diqqətlə ölçürdüsə də, Sarı onun nöqsanını tuturdu. Gah artıq, gah əskik yazıbsan, deyirdi. Dunay saxlanılan arakəsməni cüzi zibilli gördükdə dərhal onu danlayırdı. Bununla da kifayətlənməyib Kərim dayıya xəbər verirdi, üstəlik də müdir danlayırdı. Veysəl böyüklərin hörmətini saxlayıb onların qabağında dillənmirdi. Ürəyində isə "nə qədər can qoyuram, qədrimi bilmirlər", – deyirdi. O, burada hamını tərifləyir, ancaq heç kim onu tərifləmirdi. Yalnız mehriban bir adam... Əgər İsmət xalanın Qaragözü və "Malyutka" sağlam bala doğarlarsa, Veysəlin buğaya yaxşı baxmasının əvəzində bu adam onun adını şərəf lövhəsinə yazacağını, hətta "Malyutka"nın ilk südündən ona bulama bişirəcəyini vəd etmişdi.

Veysəl həmin mehriban adamın yanına yüyürdü.

– Zöhrə, nə olar bir zəhmət çəkəsən, gəlib Dunayı tutasan.

– Özün tuta bilmirsən?

– Dünən arakəsmədən qaçanda onu vurmuşam. İndi mənə hirslənib, boyum gözünə sataşan kimi torpağı göyə sovurur. Nə qədər eləyirəm yaxın qoymur.

– Bəs məni yaxın qoyar?

– Dunay qızlardan qaçmır, ay Zöhrə.

– Qızlardan qaçmır? – deyə Zöhrə gülümsündü. – Qəribə xasiyyəti var sənin Dunayının, Veysəl.

– O xasiyyəti mən öyrətmişəm də, – deyə hesablayıcı zarafat elədi: – Yaxşı xasiyyətdir, elə deyilmi, Zöhrə? Axı bunun xeyri var: ondan olan balalar da sizdən qaçmaz.

– Yamanca oğlansan, – deyə Zöhrə onu yüngülcə itələdi. – Yeri gedək, tutaq. Yoxsa, yenə dəlilik elər, zootexnik səni incidər.

Veysəl şikayət etməyə fürsət tapıb:

– Eh, elə onsuz da incidir, – dedi. Əlbəttə, o, Sarıdan şikayət etməyi münasib bilməzdi. Bu, bir növ sevgililərin arasına girmək,

birini o birinin gözündən salmaq kimi olardı. Lakin Zöhrə yığıncaqda Sarını ölçük quran bir uşaqla müqayisə edib camaatı güldürməsi, sonra isə araba aşan yerdə qızın arabaçıya o cür qayğı göstərməsi Veysəli belə qənaətə gətirmişdi ki, zootexniklə onun arası dəymişdir. Madam ki, belədir, daha o şikayətlənməkdən nə üçün çəkinsin? Qoy Zöhrə zootexniki yanına çağırsın və onu tənbeh eləsin ki, sən komsomolçu yoldaşını – Veysəli ruhdan salırsan, belə yaramaz. Veysəl əvvəllər ancaq hesablayıcılıq edirdi. Sonra Dunaya qulluq eləməyi də öhdəsinə götürdü. Çalışır ki, Dunay günü-gündən kökəlsin, döllüyü yaxşı olsun. Yerli inəklərin cinsi yaxşılaşdırıldıqda isə bu iş heç də Veysəlin yox, zootexnikin adına yazılacaqdır. Belə çıxır ki, bu oğlan həm də Sarı üçün çalışır. Bunun əvəzində isə, hər kiçik şeyin üstündə kişinin qanını qaraldır, həvəsdən salırlar. Veysəl buna qəti etiraz edir. Qoy komsomol təşkilatçısı bu işə bir ölçü götürsün.

Veysəl elə beləcə də danışdı. Özü də oğlan çox ciddi, Zöhrənin Sarını doğrudan da tənbeh edəcəyinə inanaraq danışdı. Zöhrə isə... Nə cavab versə yaxşı idi?

– Sən nə məzəli oğlansan, Veysəl. Arakəsməni təmiz saxla, südü düzgün ölç, təmizliyinə fikir ver, deyəndə nə olar? Məgər zootexnik düz demir?

Veysəl pərt oldu. Dərhal inciyərək:

– Xətrinə dəyməsin, Zöhrə bacı, – dedi, – səndən də heç baş açmaq olmur. Gah elə deyirsən, gah belə...

– Nə barədə?

– Zootexnik barədə də. Gah onu tənqid eləyirsən, gah da tərəfini saxlayırsan.

– Baxır harda də, Veysəl. O vaxt o düz demirdi, tənqid eləyirdim. İndi isə haqlıdır – tərəfini saxlayıram.

Sən demə Veysəl lap tez hirslənirmiş.

– Sənin elə tənqidindən də baş açmaq olmur! – deyə o, yanakı nəzərlə Zöhrəni süzdü. – Başqa vaxtlar zəhmindən adamın bağrı yarılır. Sədrin qızı işə çıxmayanda aləmi bir-birinə vurursan, raykom komsomolacan gedirsən, ancaq indi zootexnik sədrlə sözü bir yerə qoyub bildiyini babasına vermir, ayağını kənddən qırağa da qoymursan... Burda sənin komsomolçun sənə öz dərdini söyləyir, onu da qulaq ardına verirsən.

Veysəli belə ciddi görməyə adət etməmiş Zöhrə onda nə isə, daha yeni bir şey kəşf etmək istəyirmiş kimi, diqqətlə hesablayıcının üzünə baxdı.

– Davan odur ki, sənin barəndə zootexniklə danışım, hə?.. Yaxşı, baş üstə, Veysəl! – deyə onu sakitləşdirdi. – Danışaram. Bəlkə elə doğrudan da səni həvəsdən salır. – Birdən qız qımışdı. – Bilirəm sənin tərifdən xoşun gəlir. Deyərəm, təriflər. Qaldı ki, tənqid... Mən onda dediklərimi zootexnikə elə indi də deyirəm ki, sən nahaq yerə sədrin tərəfini saxlayırsan. Sədr bizim sinəmizə çalın-çarpaz dağ çəkib... Çox şey deyərəm, Veysəl, ancaq nə faydası?.. Zootexnikimizin tərsliyini bilmirsənmi?.. Sədrimiz dostu Şahgəldiyevaya, qardaşı Çəpərə arxalanıb əli belində gəzir. Zootexnikimiz isə onun taqsırını üzünə demək əvəzinə bizi sıxışdırır. Haqq söz deyəndə ağzımızdan vurur, adımızı qorxaq qoyur...

Gözlənilmədən söhbət başqa bir istiqamət almışdı. Zöhrə Veysəlin şikayətini də, onun xahişini də unutmuşdu. İndi də o özü şikayətlənirdi:

– Ancaq əslində bu qorxaqlıqdırmı? – deyə öz beynində doğan suallara cavab verirdi: – Bax, burda mal-heyvan qırılsa, kim ödəyəcək? Yazıq naxırçı Hətəm, ya da Kərim dayı... İlboyu qazandıqları əmək günündən də əlləri çıxacaq. Halbuki, onların da arvad-uşağı var... Bizim cavanlardan gələn il oxumağa getmək istəyənlər var. Əməkgününü ödəyə versələr nə cür gedəcəklər? Nəylə oxuyacaqlar?.. Bax, bunlar nə bizim sədrimizin, nə də onun sözünə söykək olanların beyninə batır. Biz dillənəndə də adımızı qorxaq qoyurlar...

Sarının yaxınlıqda hərləndiyini görən Veysəl, öz xahişini qıza bir daha xatırlatdı. Zöhrə elə bil yuxudan ayıldı.

– Hə, gedək, gedək, – deyə tələsib, iydə kollarının yanında ayaqlarıyla torpağı göyə sovuran Dunaya sarı yönəldi. Veysəl səhv etmirmiş; Dunay, doğrudan da, qızdan qaçmadı. “Dunay, Dunay, ağıllı Dunay”, – deyə Zöhrə mehribanca səslənə-səslənə ona yaxınlaşdı, öz yumşaq əllərilə onun gözlərini sığalladı və birdən əlindəki kəndiri buğanın burnundan asılan dəmir həlqəyə keçirdi. Bütün günü heykirə-heykirə düzdə cövlan edən bu nəhəng gövdəli heyvan, birdən-birə quzu kimi, itaətlə qızın arxasınca yeridi.

Sarının yanından keçəndə Zöhrə oğrun-oğrun ona baxdı, sonra dönüb bir daha Dunayın gözlərini sığalladı.

– Nə olaydı, elə hamı sənin kimi sözəbaxan olaydı, ay Dunay. Kinli, qarayaqovuşmaz olmaq pis şeydir, elə deyilmi, ay Dunay? – O, yenə gizlincə Sarıya baxıb, dilbilməz heyvanla danışmağına davam etdi: – Sən də elə mənim kimi qorxaqmışsan ki, ay Dunay; kəndiri görən kimicə quzuya döndün. Mən, bax, o qorxaqlıq adını üstümdən götürəcəyəm, sən necə, ay Dunay?.. Eh, nə qanırsan sən!

## 13

Zöhrə kin saxlayan qız deyildi. Sarının çay sahilindəki hərəkətindən doğan incikliyi çoxdan unutmuşdu. Bəli, unutmuşdu və indi Sarını qaşqabaqlı görmək qızı darıxdırırdı.

O, Dunayla "söhbət edib" Sarıya söz eşitdirmək istədi. Sarı isə elə bil qulaqlarına pambıq tıxamışdı. Heç dönüb bəri də baxmadı. Bəlkə o, yığıncaqdan sonra Zöhrədən incimişdi? Zöhrə yenə Dunayla "danışıb" Sarıya bu barədə də eşitdirdi ki, heç də incimək lazım deyil; "qonşu qızı" orada öz ürəyindən gələn sözləri dedi. Bu sözləri ona görə demədi ki, daha ürəyi Sarıdan dönmüşdü. Bəzən bir-birinə ən yaxın, doğma adamlar belə mübahisə edirlər, hətta sözə də gəlirlər, amma bu, heç də onların bir-birini atması demək deyil. Bir sözlə, Sarı "qonşu qızı"ndan incimişdirsə, bu tamamilə yersiz inciklikdir.

Zöhrə bunları dedi, amma nə Dunaydan cavab aldı, nə Sarıdan...

Sağından sonra naxırçılar sağmal inəkləri seçib, kvadrat şəklində bir çökəyə yerləşdirilmiş qapanın yanına yığdılar. Sarı da oraya yollandı.

Zöhrə evə kədərli qayıtdı. Ancaq nənəsi onu sevindirdi:

Sarı bizə gəlmişdi, qızım!

– Niyə gəlmişdi, nənə?

– Yəqin sənnən sözü-söhbəti vardı, bala, yoxsa niyə gələrdi ki?

"Söz-söhbəti vardı, bəs bayaq niyə üzünü köndələn tutmuşdu?" – deyə Zöhrə fikirləşdi. Qızın ürəyində yenə bir şübhə baş qaldırdı; yoxsa, Sarı yenə köhnə bayatını çağırmaq niyyətindədir?

Zalxa qarı döşəkcənin üstündən ehtiyatla qalxıb çarpayıya uzandı.

– Bu gün ürəyim elə darıxıb ki, ay bala, heç olmayan kimi... Gəlib bir hovur böyrümdə otursana!

Zöhrə nənəsinin nə barədəsə söhbət eləmək istədiyini düşünüb stulunu ona yaxın çəkdi. Amma qarı dillənmədi. Nəzərlərini tavana zilləyib bir xeyli sakitcə durdu. Sonra gözlərini yumdu.

"Yatdı!" – deyə Zöhrə ayağa durub, Sarının göndərdiyi jurnalların arasından "Qabaqcıl sağınçıların iş təcrübəsi" adlı kitabçanı götürmək istədi. Elə bu an qarının azacıq xırıltılı səsi eşidildi:

– Niyə durdun, ay bala?

– Nənə, oxumaq istəyirəm.

– Oxumaq, oxumaq!.. – deyə qarı gözlənilmədən səsini ucaltdı. – Gündüz axşamacan orda-burda olursan. Axşam da oxumaq!.. Bəs nənənə yazığın gəlmir? Bir də gəlib görəcəksən elə o döşəkcənin üstündəcə nəfəsim ağzımdan çıxıb.

Zöhrə itaətkarlıqla əvvəlki yerinə qayıtdı.

– Niyə elə deyirsən, ay nənə? Sənsiz mənim nə günüm, nə saatım?..

– De görüm o gədə ayağını niyə kəsib bizdən?

Zöhrə durğun nəzərlərini döşəməyə dikdi. Çətin seziləcək bir tərzdə çiyinlərini çəkdi.

– Niyə kəsir? Özün dedin ki, gəlmişdi də.

– Elə gəlməyə gəlmək deməzlər. İki cür gəlmək var. De görüm onun xətrinə-zadına dəyməyibsən ki?

– Xətrinə niyə dəyirəm, ay nənə, nəyimiz artıq düşüb? – deyə Zöhrə qarının üzünə yox, onun göy damarları görünən titrək əllərinə baxa-baxa, ahəstə səslə cavab verdi. "Əksinə, o mənim xətrimə dəyir, mənə pis gözlə baxır, sonra da küsülü kimi gəzir" – deyə əlavə etmək istədi, lakin nənəsinin qarşısında bu barədə çox danışmaqdan xəcalət çəkib dinmədi.

Nəvəsinin cavabı Zalxa qarının ürəyini sakitləşdirmədi. Sarı onun yanından getdikdən sonra qarı çox düşünüb-daşınmışdı. Öz aləmində bu qənaətə gəlmişdi ki, yəqin qız oğlanın xətrinə dəymişdir. Yoxsa, əlbəttə, Sarı birdən-birə o cür dəyişməzdi. Gəldi, otağa baş da salmadı, buğanı bəhanə eləyərək çıxıb getdi. Yox, yəqin ki, nəvə nə isə gizlədir.

Zalxa qarı hıqqıldaya-hıqqıldaya dikəldi. Zöhrə yasdığı qaldırıb onun belinə söykədi.

Qarının dodaqları titrədi, danışmaqdan çox inildədi:

– Bala, mən yerin payıyam... Bir ayağım burdadır, bir ayağım gorda. Sən elə eləmə ki, mənim muradım gözümdə qalsın. Alıdan, Məhbubədən əlim carda qaldı, qoy heç olmasa sənin xoş gününü görüm. Yoxsa, görüm çatlar!..

Qarı həyəcanlandı, tab gətirməyib yasdığı söykəndi, ağır-ağır nəfəs aldı.

Zöhrə səbirsizliklə soruşdu:

– Axı sən bunları niyə deyirsən, ay nənə?

– Sən bircə qulaq as! – deyə qarı qəhərdən boğula-boğula davam etdi: – Bax, anan Məhbubə ərlik qız olanda hələ mənim əlim-ayağım sazdı. Elə baban rəhmətliyin də... Ölüm bizdən uzaqdı. Onda biz Məhbubəyə dedik: bala, elə eləginən ki, o dünya əli uzalı getməyək, gözümüzün işığı kəsilməmişkən görək ki, bizdən sonra damımızın altında ocağımızın tüstüsünü qaldıran var. O nur-ipək idi, sözümüzdən çıxmadı. Baban onun xeyir işini öz əliynən elədi. Dünyadan köçəndə də qızı yanına çağırtdırdı: "Rahat gedirəm, – dedi, – bala. Sən ki, atanın sözünü yerə salmadın, qoy o gözə-görünməz də sənin sözünü yerə salmasın. Ancaq bircə vəsiyyətim var: baş yoldaşınla rahat ömür sür". Qoca ömrünü sənə bağışladı. Ancaq necə ki, onun nəfəsi üstündəydi, Məhbubə gözündən heç bir gilə də salmadı. "Arxayın ol, – dedi, – ay ata! Sözlərini sırğa eləyib qulaqlarımdan asacam". Necə ki, dedi, o qayda da elədi. Ölən gününəcən əmisi oğlu Alının üzünə heç püf də eləmədi... – Zalxa qarı köksünü ötürdü, çuxura düşmüş gözlərinin altında gilələnmiş bir cüt damlanı titrək barmaqlarının ucu ilə silib, bir də dərindən nəfəs alıb özünü toxtatdı. – İndi sən də haman Məhbubənin övladı deyilsənmi, ay bala! Özün seçibsən, bəyənibsən, mən də şükür eləmişəm ki, daha nə dərdim, Alının komasına yiyəlik eləyən tapıldı. İndi sən öz əlinlə öz baxtını niyə bağlayırsan, ay bala? Hansı əyamda görünüb ki, başına yaylıq örtən kəs kişi deyilən bəndənin qabağında söz desin, xətrinə dəysin?

Zöhrə kövrəlmişdi. Anasının mehriban çöhrəsi gəlib gözləri önündə duranda özünü hönkürməkdən güclə saxladı. Ah, bu qarı ondan nə istəyirdi?! Kim onun beyninə salmışdı ki, Zöhrə öz əli ilə öz baxtını bağlayır? Onun ağlına haradan gəlmişdi ki, nəvəsi Sarının xətrinə dəyib? Xətrə dəyən Sarı özü deyildimi?

Qız utancaqlığa qalib gəlməyə çalışaraq, nənəsinin gözlərinin içinə baxdı:

– Hər nə varsa, onun özündədir, – dedi, – nənə, mən neyləmişəm ki?.. Özü köndələn gəzir...

– Bəs sən niyə gedib xəbər almırsan, görək nə səbəbə köndələn gəzir, dərdi nədir? Niyə soruşmursan? Siz ki, nişanlı qız-oğlan təkin olub gedibsiniz. Daha nədən utanırsan? Sənin zamanan da mənim zamanamdımı ki, ağzı yaşmaqlı gəzəsən? Xalqın qızları, onda baxırsan ki, özləri özlərinə elçi düşürlər. Sən ikicə kəlmə sözü soruşa bilmirsən? Bəlkə elə ona yaman qandıran var?

Zalxa qarı söhbəti çox ciddi başlamışdı. Deyəsən, axıra vurmamış rahatlaşa bilməyəcəkdi. O, daha doluxsunmurdu. Gümrah danışırdı:

– Deyirsən olmaz?.. Mən hələ o vaxtları Fatmaya demişdim ki, ay Fatma, qızlığına deginən, pişiyim-pişiyim eləyib Allahın günündə o gədəni evə salmasın. Fatma da, qənşərinə həmişə xeyir iş gəlsin (deyirlər gedib Bəkidə oxuyur), sözümü yerə salmadı, dedi. İndi elə bilirsən o Lətifə deyilən dilini dinc saxlayır? Sən hələ uşaqsan, bala. Dünyanın irəlisindən-gerisindən xəbərin yoxdur. İnişiləcən çanta qoltuğunda məktəbə gedirdin. Nə yaşın var ki?.. İyirmi üç nədi ki?.. Ancaq bax, sənin nənən dünyanı yorub yola salıb. Bu kəndin adamının cikinə-bikinə bələdəm. Elə o Çaparın özü də qızının dilinə dil verər. Bəs nə?.. O cür şümşadboylu oğlana arxalanmağı kim istəməz? Çapar belə işi Allahdan gəzirdi. Rayonda o boyda qulluqdan dığırlayıb saldılar. Gəldi bura, Allah bilir nə cür elədi, genə qulluğa mindi. Ağızdan yavanlara, fəqir-füqəralara hədə-qorxu gəlib qapı-bacasında işlədib, dünyanın bir üzü bağ-bağça, ev-eşik düzəldib. İndi də qudurub, yazıq Fatmanın körpəsini də qucağına verib düzlərə salıb. Əlbəttə ki, onun arxası var. Bu kənddə, bala, Sərkəroğlu təkin, Yunus təkin köhnə kommunist kişilər, əjdaha ağızlı adamlar var. Arxası olmasa o Çaparın başına it oyunu açarlar. İndi o da çalışır daha çox arxası olsun...

Gecədən keçirdi. Zalxa qarı isə bütün günü dörd divar arasında qalıb darıxdığının əvəzini çıxmaq istəyirmiş kimi, hərdən əsnəyə-əsnəyə sözünə ara vermirdi.

Qarının dəlilləri Zöhrənin beyninə batırdı. Lakin qız inana bilmirdi ki, Sarı inadından dönər. On elə gəlirdi ki, kənddə Sarıdan

möhkəm oğlan tapılmaz. Bu oğlanı fikrindən daşındırmaq çox çətin məsələdir. Bu səbəbdəndi ki, Zöhrə Lətifənin sözlərinə o qədər də əhəmiyyət verməmişdi. İndi isə nənəsinin dəlilləri onda yenidən şübhə oyadırdı.

Nəhayət, Zalxa qarı susdu. Bir daha əsnədi. Yenə kədərli görkəm aldı və beləcə gözlərini yumdu.

– Yatdı, – deyə Zöhrə eyni sözü bir də pıçıldadı, yenə qalxıb kitabçanı götürmək istədi. Ancaq qarı təkrar səsləndi:

– Bir görsən onun işığı gəlirmi, ay bala?

"Yatmır, elə onu fikirləşir", – deyə Zöhrə pəncərəyə yaxınlaşdı. Ərik ağaclarının hündür budaqları başlarını aşağı əyib, sakit-sakit dayanmışdı. Budaqlardan o tərəf zülmət kimi idi.

– Qaranlıqdır, ay nənə!

Qarının fısıltısı eşidildi. Zöhrə bilmədi ki, nənəsi ahmı çəkdi, yoxsa, sadəcə, dərindən nəfəsmi aldı? Amma Zöhrə özü gizlincə köksünü ötürdü.

O, bir müddət gözlərini zülmətdən çəkmədi.

Uzaq üfüqdən ay doğur, kəndi ürəyə qüssə gətirən sarımtıl bir rəngə boyayırdı. Dəqiqələr ötür, ancaq ərik ağacının o tərəfində işıq yanmırdı.

Zöhrə niyə gözləyirdi? Heç özü də bilmirdi. Bəlkə o, nənəsinin tapşırığını yerinə yetirmək, Sarı ilə söhbət eləmək istəyirdi? Yox, daha Zöhrə bunu etməyəcəkdi. İndi o, Dunayın gözlərini sığallaya-sığallaya dediklərinə də peşman olmuşdu. Bununla belə qız pəncərə önündən çəkilə bilmədi.

Bağçanın üstündən Sarının evi tərəfdən soyuq, rütubətli meh əsdi. Zöhrə üşüdü. Çiyinləri əsdi. Tez pəncərəni bağladı.

Ay xeyli ucaldı. Zöhrə ərik ağacının budaqları arasından yenə o yana baxdı. Orada ağ divarda ləkə kimi görünən pəncərələr qaralırdı. Zöhrə baxdı, baxdı və birdən diksindi: yoxsa o, yenə Lətifənin yanına getmişdi?

Ancaq Zöhrə tez xatırladı: Sarı fermada qalmışdı. Kərim dayı ilə birgə bütün gecəni orada işləyəcəkdi...

## 14

İsmət xala bilirdi ki, əri aclığa-susuzluğa davamsız adamdır. Odur ki, hələ hava işıqlaşmamışdan yataqdan durdu, Qaranı da özünə həyan götürüb, qara çaydanda Kərimə çay apardı.

Kərim dayı Sarını da, naxırçıları da çağırıb, səhərin alaqaranlığında, şehli otlar üstündə sərilmiş kiçik ağ süfrənin dövrəsinə topladı. Lakin sən demə, İsmət xala çayı gətirəndə təkcə ərini nəzərdə tutubmuş; onun bağlamasından bircə dənə stəkan-nəlbəki çıxdı.

Kərim dayı başını buladı. Bu hərəkətin narazılıq əlaməti olduğunu təcrübəsindən bilən İsmət xala dərhal səhvini başa düşdü. İşin altından çıxdı. Naxırçılara daima onların toqqalarından asılı duran tənəkə su qablarında, Sarıya nəlbəkidə, ərinə isə stəkanda çay süzdü.

Buğlanan nəlbəkini barmaqlarının ucunda irəli uzadanda İsmət xala Sarını mənalı bir nəzərlə süzərək dedi:

– Al iç, ancaq onu bil ki, sən sarıdan ürəyi dağlıyam.

Sarı bunu keçən dəfəki narazılığın davamı kimi qəbul etdi, süfrə üstündə arvadın xətrinə dəymək istəməyib dillənmədi. Kərim dayı isə, arvadının oxu başqa hədəfə atdığını anladı.

Süfrə yığışdırıldıqdan sonra o, İsmət xalanı xəlvətə çəkdi:

– O nə sözdü zootexnikə dedin, arvad?

– O mənim ürəyimə çal-çarpaz dağ çəkib, kişi. Deməyə billəm? Su sonası kimi bir qızı xalası ölmüşün əlindən çıxartdı. Bu heç. Olan oldu. İndi axı bu tərifli oğlan özü də yaxın durmur qıza. Bu ürək dağlamaq deyil, bəs nədir?

– Öz sözünü danış, arvad. Yaxın durmadığını hardan bilirsən?

– Bu Aran düzündə sənin arvadın İsmətin bilmədiyi şey yoxdur, Kərim! Kor ha deyiləm, neçə gündür qızı görəndə köndələn gedir.

– Kişinin oğlunun işi-gücü var, arvadı var, dərdi-azarı var, nə olar bir az da kənar gəzəndə?

– İsmətin gözləri sərraf gözləridir, kişi!

İsmət xala elə inandırıcı bir ahənglə cavab verdi ki, Kərim dayı istər-istəməz razılıqla başını tərpətdi.

– Bayaq gələndə gədəciyə heç fikir verdinmi? Xalası ölmüşün rəngi-ruhu da qalmayıb... Bircə həftənin içində əriyib çöpə dönüb.

Kərim dayı bu sözlərin arxasında nə isə gizləndiyini duyub qaşlarını çatdı.

– Sözüyün məmmədqulusu nədir?

– Dediyim odur ki, kişi, bəlkə heç gədəciyin baxtı bağlanmayıb. Bəlkə... mən, ya elə sən özün Zalxa qarıynan...

– İsmət!.. Aralıqda barmaq bulayanın barmağı sınar. Kəs! – deyə Kərim dayı çardağın altında ağaran separatorlara sarı addımladı. Lakin birdən dayanıb geri döndü.

– Bir gecə səhərəcən beynimi tökübsən, demişəm, çaldığın qatıq uyuşmayacaq, vəssalam! Baş tutan məsələ deyil, arvad, birdəfəlik ağlını başına yığ, o dəli-divanənin də dilinə söz vermə. Çapar kürəkənindən əl çəkməz!

– Kişi, axı...

Kərim dayı səbirsizləşdi.

– Nə axı ey, nə istəyirsən?

– Kişi, madam ki, o yaxın durmur, daha biz niyə?..

– Ə, bu söz yenə sənin beyninə hardan düşüb, ay fizul qızı! – deyə Kərim dayı acıqlandı. O, ətrafına döyüküb nəzərlərilə Sarını axtardı. Zootexnikin indicə iydə kollarına sarı getdiyini xatırlayıb o tərəf baxdı. Bir an onun nəzərləri kolluğa sancılıb qaldı. Sonra əlinin hərəkətilə oraya işarə edərək:

– Bax, sərraf gözlərin qoy onu da görsün! – dedi və addımlayıb uzaqlaşdı.

İsmət xala ərinin işarə etdiyi səmtdə əvvəlcə heç nə görmədi. Gözləri iydə kollarının yanında dayanmış iki nəfərə sataşdıqda isə alt dodağını dişlədi, mənalı-mənalı başını tərpətdi.

Qəfildən arvadda oradan, iydə kollarının yanından ötüb, töylələrə gedən cığırla keçmək, o iki nəfərin nə danışdıqlarını öyrənmək, bilmək həvəsi doğdu. İsmət xalanı maraqlandıran iki nəfər onun gözləri önündə söhbət elədiyi halda, ola bilməzdi ki, İsmət xala onların nə danışdıqlarını öyrənməyə idi!

Həmin iki nəfərin arasında isə, baxın, belə söhbət gedirdi. Sarı əlindəki zərif iydə budağının yarpaqlarını qoparda-qoparda deyirdi:

– Mən daha buna dözə bilmərəm. Neçə gündür dəli kimi olmuşam... Dəli də məndən yaxşıdır. Dünən axşamacan o xəndəklərin yanında oturub yolunu gözləmişəm... – O, Zöhrənin bütün gecəni qarışıq düşüncələrlə keçirib pəncərə önündə dolaşmaqdan solğunlaşmış çöhrəsinə ani bir nəzər salıb həyəcanla əlavə etdi: – Biz açıq

danışmasaq mənim ürəyim rahat olmayacaq. Bilirsənmi, lap açıq!.. Özü də keçən dəfəki kimi yox... Birdəfəlik. Ya mum, ya şam!..

Zöhrə gizlincə köksünü ötürdü. Geniş açılmış gözlərlə, təşvişlə Sarının titrəyən dodaqlarına baxırdı. Onun bu görkəmi qıza heç də təəccüblü görünmürdü. Bu hal artıq Zöhrəyə tanış idi.

– Yaxşı, nə deyirəm ki, Sarı. Nə barədə deyirsən danışaq. Təki sənin qaş-qabağın açılsın, – deyə o, keçən dəfəkindən fərqli olaraq, səbirlə, təmkinlə səsləndi.

Sarı isə eyni həyəcanla yarpaqları didə-didə:

– Nə barədə danışmağı özün bilirsən, – dedi.

– Mən heç nə bilmirəm, Sarı.

– Demək hamısı yalandır? – deyə birdən Sarı gözlərini yerdən qaldırdı. – Zənnimcə bütün kəndin dilində gəzən bir əhvalatı danmağa dəyməz!

– Nə, əhvalat, Sarı, sən nəyi deyirsən?

Qızın sadəlövhlüyünü bir biclik zənn edən Sarı özünü saxlaya bilməyib istehza ilə çəmkirdi:

– Bəlkə deyəsən ki, bunu da sədrimizin qızı uydurur?

– Sən niyə üstüörtülü danışırsan, Sarı?

– Açıq deyim?

– İndicə özün dedin ki, açıq danışaq.

– Yaxşı!.. Açıq, bu da açıq!.. – deyə Sarı yenə barmaqlarını sol əlindəki iydə budağına atdı. Orada bir dənə də yarpaq qalmamışdı. O, budağı yerə tullayıb boğuq səslə davam etdi: – Bax, çayın o tayında, yolda olan əhvalatı deyirəm.

– Yolda gündə yüz əhvalat olur, sən hansını deyirsən?

Sarını od götürdü. Daha heç bir nəzakət gözləmədi.

– Arabaçının başını dizlərin üstə qoyub nazlandırdığını!..

Zöhrənin elə bil başından qaynar su töküldü. Onun ismətli yanaqları allandı, Sarının ortada düyünlənmiş qara, qalın qaşlarına, bom-boz bozarmış enli sifətinə heyrətlə baxaraq pıçıldadı:

– Gör bir sən nədən ötrü danışırsan!.. Gülməlidir!.. O yox, lap yadların yadı da olsaydı, mən o yerdə kömək edərdim. Yazıq o hündürlükdə yerdən yıxılıb özüdən getmişdi. Ürəyim daşdan deyildi ki, yaxın durmayaydım...

İydə kollarının arxasından şıqqıltı eşidildi. Zöhrə istər-istəməz səs gələn tərəfə döndü. Gözləri İsmət xalanın gözləri ilə qarşılaşdı.

Arvad ona acıqlı nəzərlərlə baxıb tezcə uzaqlaşdı. Bu nəzərlər Zöhrəni ox kimi dəlib keçdi. O, İsmət xalanın gözlərindəki ifadənin nə olduğunu yaxşı bilirdi. Eynilə buna bənzər, lakin bir qədər yumşaq, məzəmmətedici bir ifadəni o, Kərim dayının da gözlərində görmüşdü. Qocalar ondan narazı idilər. Bu, aydın idi. Yəqin onlar artıq şübhə etmirdilər ki, Dan ulduzu tezliklə Sarının sahibəsiz otağını şənləndirəcəkdir. Lakin həqiqətən beləmi idi? Gör bir Sarı onu necə də sıxma-boğmaya salmışdı! Axı o, Zöhrəyə nə üçün bu qədər əzab verir? Nə üçün ona inanmaq istəmir? Adam da bu qədər zalım olarmı? Yoxsa o, başqa fikrə düşmüşdü? Bəlkə hər gün Zöhrəyə meydan oxuyan Lətifə, doğrudan da, onun beynini doldura bilmişdi. Zöhrə nənəsinin Lətifə və Çapar barədə dediklərindən şübhəyə düşsə də, Sarının əhd-peymandan üz döndərə biləcəyinə inanmaq istəmədi. İndi isə... Bəlkə elə bu sorğu-sual, bu sıxma-boğmaya salmaq da ondan ötrüdür ki, o, Zöhrəni özündən bezdirsin?

Zöhrə qüssəli gözlərini yerdən çəkərək, yeni bir iydə budağı sındırıb yarpaqlarını didən Sarının üzünə baxdı. Onun qaşlarını yenə düyünlü, çöhrəsini tutqun gördükdə yaş qızı boğdu. O, Sarıyla üz-üzə dayanmaqdan ilk dəfə idi ki, darıxdı. Bir an nə edəcəyini bilməyib döyükdü, bayaq Sarıyla qarşılaşanda yolun içinə qoyduğu vedrəni götürməyi belə unudub, iti addımlarla sağın meydanına doğru getdi...

Artıq gün doğmaq üzrə idi. Al-qırmızı şüalar çardağın altındakı separatorların ağ təknələrini parıldadırdı.

Yaş əski parçasilə təknələri silən İsmət xala birdən əlini saxlayıb ərini dümsüklədi.

– Bir ona bax!..

Zöhrə çardağın o başında uzunsov skamyada oturub, dövrəsi haşiyəli, bənövşəyi yaylıqla gözlərini silirdi.

İsmət xala ərini təkrar dümsükləyib, Sarıya işarə etdi. Kərim dayı gənclərə bir xeyli göz qoydu.

– İndi gör İsmətin gözləri sərraf gözləridir, ya yox? – deyə arvad onun qulağına pıçıldadı.

Bu dəfə Kərim dayı arvadının sözlərinə inanmaya bilmədi. Qocanın arıq, qara sifəti sərt bir ifadə aldı, çal, pırpız qaşları altında xırda gözləri qıyılıb Sarıya zilləndi...

## 15

Fermada hamı bilirdi ki, Zöhrə Kərim dayının sevimli işçisidir, sağınçıların içində heç kim Zöhrə qədər onun ürəyinə yatmır. Bu məsələni hərə bir cür yozurdu. Bəziləri belə izah edirdilər ki, müdirin ata tərəfdən Papaqçılara qohumluğu çatır, ona görə də həmişə qızın qayğısına qalır. Bəziləri isə bu qayğını Qaranın əhvalatı ilə bağlayırdılar. Lakin heç kim qocanın ürəyindəkilərə bələd deyildi.

Keçən ilə qədər fermada bütün il boyu sağınçılıq eləyən, bu işdən həmişəlik yapışıb özünə daimi peşə eləyən bir adam tapılmazdı. İnəklər qısırlaşan kimi sağınçılardan çoxu kolxoz sədrinin yanına qaçır, "Gündə beş-üç litrnən nə əməkgünü qazanacağam", – deyə sahə briqadalarına yazılmağa çalışırdılar. Qış aylarında fermada adam lap seyrəkləşirdi. Yazda, köç vaxtı yetişəndə, aranın bürküsündə, şaxıyan günəş altında qan-tərə batmaqdan qurtarıb, yaylağın çənli-çiskinli dağlarına, çiçəkli güneylərə, qarlı quzeylərə meyl edənlər sağınçılığa yenidən müştəri olurdular. Belə sağınçılardan biri də Lətifə idi.

Lakin keçən ilin yazında Zöhrə fermaya gəlib, komsomol təşkilatçısı seçildikdən sonra Lətifənin də, dar günlərdə fermadan üz döndərən başqa sağınçıların da işləri çətinləşdi.

Üzdə çox mülayim və sakit görünən bu qızın, yeri gəldikdə, xüsusən iclaslarda, öz yoldaşlarilə ciddi rəsmi rəftarı, lazım olanda, hətta komsomol cəzasından istifadə etməsi qız-gəlin sağınçıların çoxunun əl-ayağını yığışdırdı. Komsomol iclasında Zöhrəni ələ salan, "ölsən də məndən sənə sağınçı olmayacaq" deyən, işi çətinə düşdükdə isə atasının yanına şikayətə qaçan Lətifənin yenidən işə qayıtması başqalarını da özlərini yığışdırmağa məcbur etdi.

Qız-gəlinlərin qaraqabaq və deyingən bir adam kimi tanıdıqları Kərim dayı, yaz açılalı bəlkə də ilk dəfə gülümsünüb öz köməkçisini salamladı: "Salam, ay Dan ulduzu!.."

Bəli, Kərim dayını Zöhrəyə bağlayan nə ata tərəfdən Papaqçılara qohum olması, nə də Qaranın əhvalatı idi.

Əlbəttə, Kərim dayı bu sevimli sağınçısı ilə daha yaxından qohum olmağı, onu bir gəlin kimi öz ocağının başında görməyi ürəyindən keçirirdi. Lakin qocanın istəyi ürəyində qalmışdı. Hətta o, öz aləmində Zöhrədən incimişdi də.

Bununla belə o, öz Dan ulduzunu gözüyaşlı görməyə dözə bilməzdi. Sonsuz qoca öz gərəkli və etibarlı dostuna, o mehriban, o ismətli qıza ürəyində bir ata məhəbbəti bəsləyirdi.

Qocanın çal, pırpız qaşları altında xırda gözlərinin qıyılıb, zəhmli bir baxışla Sarıya sancılması da, ancaq bu səbəbdəndi. Onun arıq, balaca gövdəsilə uyuşmayan iri əlləri düyürlənmişdi. Elə bil bu saat zootexnikin üstünə cumub onunla əlbəyaxa olacaqdı. "Yiyəsiz hesab eləyirsən? Xalqın uşağını yerindən-yurdundan oynadıb indi də yaxanı qırağa çəkirsən?.."

İsmət xala isə kişinin qulaqları dibində hey ötür, tez-tez "xalası ölmüşün" adını çəkir, fürsəti əldən verməyib elə buradaca öz fikrini ərinə aşılamağa çalışır və heç özü də hiss etmədən, kişini daha da qəzəbləndirirdi.

Gün bir örkən boyu ucalmışdı. Ətrafda yenə həyat qaynayırdı. İnəklər çəpərin içində çaxnaşan buzovlara doğru boğazlarını uzadaraq, səs-səsə verib mələşirdilər. Əli vedrəli sağınçılar ora-bura vurnuxurdular. Naxırçılar yapıncılarını götürüb sahildə, sakit bir guşədə yatmağa gedirdilər. Onlardan biri Kərim dayını səsləyib nə isə dedi. Kərim dayı ayağa durdu, amma naxırçıların yanına yox, zootexnikə doğru addımladı.

Sarı sağın yerindən xeyli aralı, köhnə, qazma töylələrin qabağında, tikinti üçün gətirilmiş sement kisələrindən birinin üstündə oturub papirosunu dumanlandırırdı. Yerdə müştükləri çeynənib didik-didik olmuş iki papiros kötüyü ağarırdı. Sarı əlindəki papirosu yerə atdı, bunun da müştüyü çeynənmişdi.

Kərim dayını qarşısında gördükdə cəld ayağa qalxdı.

– Tikintiyə gedək?

Qoca qaşqabaqlı halda sement kisəsinin üstündə oturdu. Zootexnikə də oturmağı işarə etdi. Sarı qocanın nədənsə bərk hirsləndiyini dərhal duydu, onun kimdənsə yenə şikayətlənəcəyini düşünüb, istər-istəməz üzbəüz əyləşdi. Kərim dayı isə bir müddət səsini çıxarmadı. Müdirini birinci dəfə belə qaradinməz görən Sarı tab gətirmədi:

– Nə olub, Kərim dayı? Yenə belə kimə hirslənibsən?

Kərim dayı başını qaldırdı.

– Sənə!

– Mənə?

– Bəli, sənə hirslənmişəm. Özü də çox bərk hirslənmişəm. Mən bu yaşa gəlmişəm, ancaq heç kim sən qədər mənim xətrimə dəyməyib. Gözümün içinə atamın goruna söysəydin, bundan yaxşı olardı.

Sarı heyrətlə qaşlarını çatdı.

– Sən nə danışırsan, yoldaş müdir?!

– Yoldaşı-moldaşı bir yana qoy! – deyə qoca onun sözünü kəsdi. – Mən sənin yanına müdir kimi yox, övlad atası kimi gəlmişəm. Gəlmişəm görüm mənim övladımın suçu nədir ki, onun gözünün yaşını axıdırsan?

Sarı heç nə anlamadı.

– Övladın olduğunu sən deyirsən, mən də eşidirəm...

Qoca fikirli-fikirli gözlərini yerə dikdi. Sarı onun yaralı yerinə toxunmuşdu. O, bayaqkının əksinə asta, boğuq səslə:

– Mənim öz belimdən gələn övladım yoxdur, – dedi, lakin elə həmin anda yenə əvvəlki ahənglə danışdı: – Ancaq el bilir ki, o qız mənə doğma baladan da əzizdir. Mən dözə bilmərəm ki, o, işə gözüyaşlı gəlsin. El içində başıaşağı gəzsin... Eşidirsənmi nə deyirəm? – deyə qoca Sarının gözlərinin içinə baxdı. – Dözə bilmərəm! Əgər könlün yoxdu, daha xalqın uşağını yerindən-yurdundan niyə oynadırdın? Yainki könlün vardısa, indi niyə yaxanı qırağa çəkirsən? Yoxsa yiyəsiz-zad hesab eləyirsən onu?!

Sarı məsələnin nə yerdə olduğunu başa düşdü. Elə zənn etdi ki, Zöhrə hər şeyi Kərim dayıya danışmış, yaxud İsmət xalaya bildirmiş, İsmət xala da ərinə xəbər verib. Əgər belədirsə, o – Zöhrə nə qədər səhv etmişdir! Məgər Sarı "yaxasını qırağa çəkir?" Əksinə, arvadını boşamaq fikrindədir.

Sarı əlini cibinə atıb papiros qutusunu çıxartdı, qutunu boş görüb əsəbi hərəkətlə kənara atdı. Məsələnin bu qədər böyüməsindən, hətta Kərim dayının da işə qarışmasından hiddətləndi. İndi nə cavab versin? Bu kişi özünü Zöhrənin atası hesab edir. Onun qarşısında danışmamaq olmaz. Lakin içəridən ürəyi didən şübhələri necə açıb desin? O, yaxşıca anlayırdı ki, indi hər şeyi açıb söyləsə, onsuz da onun haqqında yaxşı fikirdə olmayan Kərim dayı daha pis fikrə düşəcək. Özünün haqqında başqasını pis fikrə salmağa isə Sarı heç vəchlə yol verməzdi. Nə deyəcəyini bilmədən başını aşağı endirib susdu. Kərim dayı isə inadlı, zəhmli baxışla gözlərini ondan ayırmadan bir qədər gözlədi.

– Hə, niyə dillənmirsən? De görüm cavabın nədir?

Sarı sıxıntı çəkə-çəkə:

– Mən sənə heç nə deyə bilmərəm, – dedi. – Xahiş eləyirəm, bu barədə məndən heç nə soruşmayasan.

– Mən səndən çox şey soruşmaq fikrində deyiləm. Gəlmişəm ki, tək bircə şeyi biləm: nə səbəbə qızı atırsan?

– Elə şey yoxdur. Onu kim deyibsə, düz deməyib.

– Yəqin?

Sarı cavab vermədi. Sükut çökdü.

– Onu bil ki, sən məni arxayın eyləyib yola salırsan ha! – deyə qoca xəbərdarlıq etdi. O, bir qədər sakitləşdisə də, yenə ürəyi rahat olmadı. Qalxıb sağa-sola gəzindi, qayıdıb Sarının qarşısında durdu:

– Bax, bir də o qızı gözüyaşlı görsəm, arpanı bir kərəmlik böləcəyəm! – deyə bu dəfə daha açıq danışdı. Sonra gözlənilmədən səsi yumşaldı.– Könül dediyin bir şüşədir, oğul. Sındırdın – daha qurtardı. Bitişməz. Qız sənə könül bağlayıb. Sən isə onun gözünün yaşını tökürsən. Nə var-nə var hər ağzının yiyəsi olmayan bir söz söyləyir. Nə çoxdur dünyada ürəyi xain adam! – Kərim dayı yenə sement kisəsinin üstündə oturdu. – Bax, haman bu Çaparın atası, – deyə birdən o, söhbəti dəyişdi. – Gecədələn kişi... eşidibsənmi?

– Gecədələn? – Bu qəribə sözü eşitdikdə istər-istəməz Sarının dodaqları qaçdı. – Adı Gecədələn idi?

– Yox, əsl adı Murtuz idi. Əliəyriliyinə görə camaat arasında "Gecədələn" deyirdilər... Hə, bax haman o gorbagor o vaxtları bizim arvaddan kəsirdi. Hələ İsmət xalan atası evində olan vaxtları deyirəm ha! Allahın günündə bir söz çıxardırdı ki, bəlkə Sərkəroğlular Talıbın qızı İsmətdən əllərini çəkələr. Hələ bir dəfə atam məni çağırdı ki, ay bala, qızın adına yaxşı-yaman deyirlər, gəlsənə əl götürəsən. Bilirsən neylədim? Gördüm atam sözünü göyərdir, acıq eləyib çıxdım evdən. Yamanca inad cavanlığım vardı. İndi Kərim dayın qocalıb xarab olub, deyingən olub, – deyə Kərim dayı gülümsündü. Söhbəti nəyin üstünə gətirdiyini unutmuş kimi susub yerə baxdı.

– Bəs o Gecədələnə bir şey eləmədinmi? – Sarı söhbətin başqa istiqamət aldığını zənn edib tezcə xəbər aldı.

– Eləməyim heç lazım da gəlmədi... Yazbaşı çay daşmışdı. Xəbər gəldi ki, bəs Gecədələn kişinin sürüsünün bir qulağını su

ağzına alıb aparıb. O gorbagor da dünya malından ötrü özünü atıb suya, boğulub.

Kərim dayı daha dillənmədi. Şübhə etmədi ki, Sarı onun nə demək istədiyini başa düşdü. Kərim dayı heç bir dedi-qoduya uymayıb istəklisindən əl çəkməmişdi. İndi o, İsmət xala ilə bir yerdə xoşbəxt idi. Bu xoşbəxtliyi adi bir şeydə, İsmət xalanın hələ dan yeri sökülməmişdən qalxıb ərinin dalınca fermaya gəlməsində – adi bir qayğıda görmək çətin deyildi. Bu xoşbəxtlik onlara bir-birinə inam sayəsində nəsib olmuşdu. Bax, indi Kərim dayı Sarıdan da eyni şeyi tələb edirdi.

Sarı bu barədə qocaya heç nə demədi. O, yenə fikirli idi. Papiros üçün əlini cibinə atmaq istədi, yerə tullanmış boş qutuya baxdı, dilxor halda yerində qurcalandı və birdən ayağa durdu.

– Gedək.

– Hara?

– Tikintiyə.

– Gedib çəkmənin o biri tayını da cırmaq istəyirsən? Yaxşısı budur, get bir yaxşı-yaxşı yat, dincəl. Ağlın başına gəlsin.

– Mənim ağlım hələ başımdadır.

– Bax, yenə tərslik eləmə. Sənin elə tikintisiz də işin xirtdəyəcəndir. Heç olmasa, ömründə bir dəfə ağsaqqal sözünə bax.

– Bəlkə ağsaqqal düz demir?

– Hər halda sənin xeyrinə deyir. O sarıqlı əllərlə gedib tikintidə nə qayıracaqsan?

– Qayrılmalı çox şey var. Bax, məncə, töylələrin içində işi dayandırmaq lazımdır. Axurları, arakəsmələri sonra da qayırmaq olar. Hər şeydən əvvəl gərək töylələrin üstünü nizamlayaq. İstəyirəm briqadirlə məsləhətləşim, görüm o nə deyir?

– Ağıllı sözə nə demək olar? – deyə Kərim dayı dərhal razılaşdı və birdən ciddiləşdi. – Ancaq sən get yat! Gözlərin qan çanağına dönüb. Briqadirin yanına mən özüm gedirəm.

– Bəs sənə yatmaq lazım deyil?

– Mən dözərəm! – deyə qoca töylələrə sarı addımladı...

O, tikintidən yalnız şər qarışanda döndü, fermaya baş çəkib kəndə qayıtdı. Lakin Kərim dayı: “Bu kişi harda qaldı, a başına dönüm, cancığazına yazığı gəlmir, bəs onu fikirləşmirmi ki, başına bir iş gəlsə ocağımız qaralar!” – deyə söylənən İsmət xalanın deyil Sarının yanına yollandı.

Sarını evdə tapmadı.

Həyətdə tüstülənən samovarın dövrəsində hıqqıldaya-hıqqıldaya dolanan Zalxa qarı onun qabağını kəsdi. Köyrələ-köyrələ onu yamanladı ki, "köhnələrdən vur-tut sən qalıbsan, ay Kərim, sən də bizi yaddan çıxardıbsan, insafın necə qəbul eləyir ki, ayda-ildə bir kərə Alının komasına baş çəkmirsən?" Kərim dayı fermadakı çətinlikdən "sümüyünün bərk sancmasından", gecəli-gündüzlü tikintidə olduğundan danışıb, qarının yanında bəraət qazanmağa çalışdı, sonra isə əlini Sarının evinə tərəf uzadıb soruşdu:

– Qonşunuz hardadır, görünmür?

– İşin-gücün var onnan, nədi? – deyən qarının çöhrəsindəki qüssəli ifadə birdən-birə silindi. – Bu saatca, sənin qabağınca gəldi bizə. Elə o da sənin kimi bu qapıdan qaçaq düşmüşdü, ay Kərim! Bilmirəm hardan gün doğub ki, bu axşam ikiniz də birdən məni yada salıbsınız? Yeri, içəri yeri... İndicə çay da qaynar. Bilmirəm heç mığıltısı niyə kəsdi bunun? Əvvəlləri elə əlüstü qaynayan samovardı ki...

Lakin Kərim dayı içəri getmədi. Samovarın yanındaca, həyətin hələ yanıb xarab olmamış otluğunda əyləşib, Zalxa qarı ilə ötən günlərdən söhbət başladı...

## 16

Zöhrənin yaraları sağalar-sağalmaz kənddə bir bəzəmə dilə düşmüşdü:

Çapar kişi basdı bağladı,
Zöhrənin sinəsini dağladı.
Çəpər kişi də basdı bağladı,
Qardaşını ədalətli saxladı.

Zöhrənin yaraları barədə söz-söhbətin qurtarması Sarını ovundururdu.

Sanki hər şey Sarının bu evin astanasına qədəm basmasından asılı idi. Elə bil bu iki gəncin arasında heç bir söz-söhbət olmamışdı...

Hər şey birdən-birə, gözlənilmədən dəyişdi...

Sarı qapıdan içəri girəndə özünü elə apardı ki, guya o buraya yalnız iş xatirinə, "qonşu qızı" ilə dərnək barədə söhbət eləmək üçün gəlmişdi. Bəlkə elə doğrudan da belə idi? Amma Zöhrə buna inanmadı. Onlar qoşa çarpayıların ayaq tərəfindəki stolun başında oturdular. Zöhrənin ürəyi şiddətlə döyünür, qan gicgahlarına vururdu. Anbaan gözləyirdi ki, yenə həmin, yarımçıq qalmış, qurtarmaq bilməyən üzücü söhbət başlanacaqdır. Sarının qaşqabaqlı oturması bu qənaəti qızda daha da möhkəmləndirdi. O, Sarı ilə üz-üzə güclə, özünü zorlayaraq otururdu. Yox, bu dəfə o, dözə bilməyəcəkdi. Bu sonsuz sıxma-boğmaya daha nə qədər dözmək olar? Zöhrə nə qədər səbirli, geniş ürəkli, hər sözdən inciməyən, həmişə işin axırını gözləyən olsaydı da, bu dəfə dözmək mümkün deyildi. Sarının yenə o barədə bircə kəlməsi kifayət idi ki, qız qəfildən tapança kimi açılsın. Adam bir səbir edər, iki səbir edər, üçüncüdə, əlbəttə, davam gətirməz. Bu, ola bilsin ki, adama ziyan vura bilər. Həmişə susmaq, səbir etmək, özünü qarşındakına aciz göstərmək isə gələcəkdə daha pis, lap sarsıdıcı zərər verər, hətta bəlkə də bütün həyatın boyu səni peşmançılıq əzabına salar.

Zöhrə ağır-ağır nəfəs ala-ala, güclə səbrini basaraq oturmuşdu. Zalxa qarı eşikdə, elə bil samovara bitişib qalmışdı. Gəlsə idi, nəvəsini bu çətinlikdən qurtarardı. Amma yox, qoy gəlməsin, nəvəsi bu sonsuz işgəncədən azad olmaq üçün ürəyini bir dəfəlik boşaltsın. Bəli, bir dəfəlik!.. Sarının sözü olmasın, "ya mum, ya şam!.." Ya oyanlıq, ya buyanlıq!.. Bu, Zöhrə üçün nə qədər ağır olsa da, indi o, ancaq belə etməli idi. Əvvəllər hər şeyi Sarı güzəştə gedirdi. Bu, bir tərəfdən onun yumşaqqəlbli olmasından doğurdusa, digər tərəfdən, bu gözəl qamətli oğlana ürəyində bəslədiyi duyğular, nə üçün gizlədək, onu mütiləşdirirdi. İndi isə qız hiss edirdi ki, bu gözəl qamətli oğlan onun müqəddəs duyğularına ehtiyatla yanaşmır, qarşısındakına nə qədər əzab verdiyini nəzərə almır, yalnız özünü düşünür... Bəli, Zöhrə hiss edirdi ki, Sarı yalnız özünü düşünür. Yoxsa o, kənd arasında gəzən dedi-qoduya, Lətifənin zəhərli sözlərinə uyub, "qonşu qızı"nı bu qədər sıxışdırardımı? O, dedi-qodudan öz adına bir çirkinlik gələcəyindən ehtiyatlanır. Qaraya qısqanmağı da ancaq buradan irəli gəlir. O, ancaq özünü düşünməsəydi, yoldaşlıq qayğısının nə demək olduğunu anlayar, Zöhrənin huşunu itirmiş arabaçıya göstərdiyi adi bir qayğıya başqa məna

vermәzdi... O, “mәn belә şeylәrә dözә bilmәrәm” deyir, inadla öz sözündәn dönmür. Elә hәr yerdә, hәr işdә bu cür inadkardır. Hәtta haqsız olduğunu hiss edәndә belә, üstünә ilan salsan da özünü sındırmaq istәmir. Çox güman ki, Kәrim dayı kimi tәcrübәli bir adamın doğru sözünü qәribliyә salıb kolxoz sәdrinin hәrәkәtinә göz yumması da, elә onun hәmin bu xasiyyәtlәrindәn irәli gәlir.

Bәli, bütün bunları Zöhrә hiss edir vә onun Sarıya münasibәtindә aydın bir dәyişiklik özünü göstәrirdi. Bax, Sarı yenә hәmin darıxdırıcı söhbәti başlasa, o, artıq iydә kollarının yanındakıtәk, nә isә qiymәtli bir şey itirәcәyindәn qorxan adamlar kimi ehtiyatla, titrәk sәslә danışmayacaq, sonra da göz yaşları axıtmayacaqdı. O, sәbirsizliklә, darıxa-darıxa oturub gözlәyirdi. Dәqiqәlәr – bir saata qәdәr uzun görünәn üzücü dәqiqәlәr ötür, qızın ürәyi sıxılırdı. Yanaqları alışıb yanırdı. Alnını tәr basmışdı. Sarı isә, “qonşu qızı”nın bu halına biganә kimi, onun yazmış olduğu göy cildli dәftәrçәni varaqlayırdı.

Nәhayәt, o dillәndi. Söhbәti doğrudan da dәrnәk barәdә başladı. Zöhrәnin ilk yığıncaqda sağınçılara yeni sağım qaydalarını necә başa salacağını izah etdi.

Zöhrә gözlәrini stol örtüyünün әlvan haşiyәlәrinә dikәrәk dinlәyirdi. Qulaq asırdısa da, beynindә yenә әvvәlki fikirlәr dolaşırdı. Zöhrә “qonşu qızı”nın görәcәyi iş barәdә Sarının belә sakitcә danışıb, danışıb, axırda isә “dözә bilmәdiyi” әhvalata, son görüşә işarә belә vurmadan çıxıb gedәcәyini tәsәvvür edә bilmirdi.

Ancaq elә belәcә dә oldu. Bu, Zöhrәyә çox qәribә, tәәccüblü görünsә dә, belә oldu.

Sarı söhbәtini bitirdi, yaxın günlәrdә dәrnәyin yığıncağını çağırmağı tapşırıb susdu.

Zalxa qarı ilә Kәrim dayı, hәrәsi samovarın bir qulpundan tutub içәri girdilәr.

Kәrim dayı cavanlara mәnalı bir nәzәr salaraq, qımışıb bığını sığalladı.

Onlar ahәngdar bir sәslә zümzümә edәn sarı samovarın әtrafına yığışdılar. Elә bu vaxt әtәklәrini dәstәlәyib pillәkәni bir nәfәsә qalxan İsmәt xala qapını şaqqıltı ilә itәlәdi:

– Bәli dә, şükür Allaha! Bu oturub burda kef çәkәcәk, biz dә ayağımıza dәmirdәn çarıq geyib şenliyi әlәk-vәlәk elәyәcәyik ki,

görəsən, yazığın başına nə iş gəlib? – deyə İsmət xala nazik, zil səsi ilə otağı başına götürdü.

Zalxa qarı "Alının komasına baş çəkməməsi" üstündə İsmət xalanı da məzəmmətləyərək, ərinə hirslənmiş arvadı sakitləşdirdi, onu da süfrəyə dəvət etdi.

Ordan-burdan danışa-danışa şam elədilər. Bu gün nədənsə xeyli dirçəlib, birdən-birə cavanlaşmış kimi, bir yerdə durub-dincəlməyən Zalxa qarı tez-tez nəvəsinin işlərindən söhbət salırdı.

– Bizim qız olmasa o cin yığnağının içində başını itirib ayağını gəzərsən, ay Kərim, – deyə qarı, qoca ilə zarafatlaşırdı. – Nə qədər çığırıb-bağırsan da, asıb-kəssən də, bir vaxt vardı, bildiklərini babalarına vermirdilər. Ağılları kəsəndə "bismillah" eşidən cin yığnağı kimicə yoxa çəkilirdilər. Hardadılar? Bəs, sədrin yanında, nə bilim, yainki öz qapısında-bacasında... Qalırdın çığıra-çığıra ki, ay kişilər, mən başıma haranın daşını salım, kimnən iş görüm?.. İndi bizim qız sədrin o ləçər qızının-filanın əl-ayağını yaxşıca yığışdırıb. Sən gərək bu uşağın qədrini biləsən, Kərim!

– Bunun qədrini bilməyənlər bilsinlər, Zalxa, – deyə Kərim dayı əlini Zöhrənin kürəyinə dağılmış gur saçlarında gəzdirə-gəzdirə, gözünün altından Sarıya baxırdı.

– Sən bilsən, bilməyənlər də gözünü silib baxar ki, Zalxanın nəvəsi necə nəvədir, – deyə qarı bu barədə danışmaqdan usanmır, Zöhrənin narazılıqla başını buladığına belə fikir vermirdi. – Bax, o dərnəkdi-mərnəkdi nədi, başım çıxmır nə olan şeydir, deyirlər, bizim qıza ordan əməkgünü-zad düşməyəcək. Ancaq onu bilirəm ki, Zöhrə orda əlindən gələni əsirgəməyəcək. Elə indidən gecəsi-gündüzü yoxdur, qalın-qalın kitabları su kimi içir...

Zalxa qarı sözünə ara vermirdi. İsmət xala Sarını burada – Zalxanın evində gördükdə təəccübündən donub qalmışdı. Kərim dayı yeri düşdükcə arvadının da əvəzində danışırdı.

Sarı da söhbətdən kənarda qalmırdı. O, hətta Zalxa qarı ilə zarafat eləyib:

– Gəlsənə səni də dərnəyə yazaq, Zalxa nənə? – deyə gülümsündü.

Samovarın yanında dinməz-söyləməz oturub çay süzən Zöhrənin gözlərində qəribə bir ifadə vardı. Sanki Sarının burada, onun yanında gülümsünə bildiyinə, hətta zarafat elədiyinə təəccüblənir,

“qonşu qızı”nın əllərilə süzülən çayı belə iştahla içdiyinə heyrət edirdi. Bəlkə Zöhrə hissə qapılmış, bu gözəl qamətli oğlanın haqqında nahaq yerə xoşagəlməz fikirlərə düşmüşdü?..

Qonaqlar süfrə üstündən durub qapıya doğru yeriyəndə Sarı hamıdan dala qalıb qədəm basandan bəri ilk dəfə Zöhrənin üzünə şax nəzərlə baxdı.

– Belə-belə işlər, qonşu qızı!.. – deyə qeyri-müəyyən bir tərzdə dilləndi və yenə qımışdı. Onun təbəssümü o qədər güclü, o qədər sirayətedici idi ki, istər-istəməz Zöhrənin də dodağı qaçdı...

Bayır qaranlıq idi. Bulud göyün üzünü bürümüşdü. Göz-gözü görmürdü. Zöhrə lampanı götürüb, qapının arasından Kərim dayıgilin yolunu işıqlandırdı.

Darvazanın ağzından Kərim dayının səsi gəldi:

– İşığını zootexnikə sarı da sal, ay Dan ulduzu!

Zöhrə lampanı yerinə qoyub, otağın bürküsündən balkona çıxdı. Dərindən, köksü dolsu nəfəs aldı. O, özündə bir yüngüllük, ürəyində bir rahatlıq hiss etdi

Bəli, sanki onların arasında heç bir şey olmamışdı; hər şey dəyişmişdi. Birdən-birə, gözlənilmədən dəyişmişdi! Kaş bu dəyişiklik, həmişəlik, ömürlük olaydı!..

## 17

“Engels” kolxozunda başqa bir dəyişiklik də baş verdi. Bu, adamlarda deyil, kəndin təbiətində özünü göstərdi.

Dünən gecə Zöhrə Kərim dayıgilin və Sarının yolunu işıqlandırarkən göyün üzünü tutmuş qara buludlar səhər tezdən daha da qatılaşdı.

Günortaüstü Zöhrə qoşa cökələrin altında ürək döyüntüsü ilə dərnəyin yığıncağını çağırarkən ahəstə meh əsdi, qızın başı üzərində yarpaqlar xışıldadı. Bir neçə dəqiqə ötdü. Yarpaqların xışıltısı artdı. Ancaq bu, yelin güclənməsindən deyil, yağışın başlamasındandı.

Adətən, Aran düzünə yağış çox nadir hallarda yağardı. Özü də qısa müddətdə, seyrək-seyrək çisələr və kəsərdi. Uzaq dağlarda çovğun qopar, çay kükrəyib sahilləri basar, aran torpağına səpələnən seyrək damlalar isə yalnız yolların və küçələrin tozunu yatırdardı,

heç ağacların yarpaqları da əməlli-başlı yuyulub təmizlənməzdi. Göyün üzü tutulanda Sərkərlilər uzaq dağların başı üzərində çaxan şimşəyin göz qamaşdıran əyri-üyrü zolağına baxıb, haradansa, səmanın lap yuxarı qatlarından eşidilən və getdikcə uzaqlaşıb dağlara sarı ötən gurultuya qulaq asaraq, "ötdü, biz tərəfi tutmaz" deyə yağışın güclənməyəcəyinə arxayın olar, işdən çəkilməzdilər.

Bu dəfə Zöhrə də, güllü donunun çiyinlərinə bir-iki damla düşən kimi: "Mənciyəz gedirəm", – deyə tez ayağa duran Lətifəyə:

– O saatca hoppanma, keçər! – dedi.

Lakin yağış ara vermədi.

Zöhrə kəndin üzərində sıxlaşmış lal buludlara baxdı:

– Ötər, ötər...

– Mənciyəz islanıb sətəlcəm olmaq istəmirəm. İki canım yoxdur ki, biri öləndə o biri qalsın. – Lətifə dolu çiyinlərini oynada-oynada, ətli budlarını yırğalaya-yırğalaya çıxıb getdi.

– Vay mənim başım batsın, xalası ölmüşün tuman-köynəkciyəzi islanmadımı? – deyə İsmət xala qurumaq üçün asdığı paltarları xatırladı.

Qızlardan biri dedi:

– Su biçinçilərin iliyinə işləyəcək. Gedim qardaşıma bürüncək aparım.

– Məni də gözlə, ay qız! Bu gün mənim qardaşım da biçindədir.
– O birilər də dağılışdılar...

Dərnəyin ilk yığıncağı baş tutmadı. "Ayrı vaxtda yığışarıq", – deyə Zöhrə heç də mütəəssir olmadı. Tikintidə işlərin dayanacağını düşündükdə isə, ürəyində bir narahatlıq duydu. "Töylələr bir az daləngisə heç yaxşı olmaz. – deyə o, səmanı bürümüş qara buludları seyr etdi. – Yox, belə getməz. Kəsər, axşama yaxın mütləq kəsər!.."

Lakin yağış nə axşam kəsdi, nə də o biri gün.

Payızı andıran nəmişli, cansıxıcı günlər başlandı. Lal, çisələmə yağışın ardı-arası kəsilmədi...

Elə gün olurdu ki, ikindiyə yaxın çisələmə bir azca ara verir, ancaq əkin-tikindən ayrılmış adamlar şükür eləməyə vaxt tapmamış yenidən başlayır və bütün gecəni damlardan, qanovlardan şırıltı ilə sel axır, artıq coşub körpünün altını yalayan çayın bulanıq sularına qarışırdı...

Yollar, küçələr, düzlər gölməçələrlə örtülmüşdü. Sağın meydanında illərdən bəri qat bağlamış peyin yumşalıb palçığa dönmüş,

zığdan addım atmaq qeyri-mümkün olmuşdu. Kərim dayı sağını köhnə töylələrin arxasındakı düzənliyə köçürdü. Bircə gündə bura da mal-qaranın dırnağı altında löhməyə çevrildi.

Axşamlar sağınçılar evə üst-başları palçıqlı, yorulub taqətdən düşmüş halda dönürdülər. Tükləri qurumayan buzovlar, həmişəki kimi çəpərənin içində dəcəllik etmir, buzovçunun çomağının altından sivişib özlərini analarının üstünə salmağa can atmır, küncə-bucağa qısılırdılar. Heç səsləri də çıxmırdı. Hərdənbir səslənəni də elə yazıq-yazıq mələyirdi ki, sanki Aran düzünün təbiətindəki bu gözlənilməz dəyişiklikdən şikayətlənirdi. Sarı körpə, arıq buzovları töylədə saxlatdırırdı. Havanın bu cür pozulması zootexniki də təşvişə salmışdı. Kərim dayı yenə kolxoz sədrindən şikayətlənir, onunla üz-üzə gəldikdə hirsini boğa bilməyib deyinirdi: "Rayonda döşünə döyüb rəhbərliyi də, camaatı da arxayın saldın, sonra da getdin kef dalınca. Vaxtında işimiz görülmədi. İndi, bu yağışdan sonra gözümüzü açıb görəcəyik, bəli, yay girib, ancaq nə çulumuz var, nə də çuxamız; töylələrimiz qalıb yarı-yarımçıq, heyvan də ilan mələyəndə ləhməşib dilini bir qarış çıxardır. İndi nə deyirsən buna?!"

Kərim dayı gündüzlər o qədər deyinir, o qədər söylənirdi ki, gecələr də yataqda sayıqlayır, hətta bəzən qışqırıb öz səsinə oyanır və gündüzün ağır işindən sonra evə şirin bir yuxu həvəsilə gələn Qaranın necə şikayətləndiyini eşidirdi: "Ay xala, sənin bu ərin yenə qramafon təkin nə ötür, Allahın yuxusunu da haram eləyir adama". "Yazığın günü qara olub, a bala! Onun yerinə sən olsan qramafon yox, bax, o aynanın qabağındakı radioya dönüb peydəri ötərsən", – deyə İsmət xala ərinin arxasını yerə vermirdi. Ürəyində isə arvad, ərində çox az-az müşahidə etdiyi sayıqlamanın belə aramsızlığından təşvişə düşürdü: "Canından iraq, birdən kişinin başına bir iş gələr, ocağım qaralar, evim yıxılar!.." Kərim dayı yatağa uzanan kimi İsmət xala dərhal otaqda ayağının burnunda yeriməyə başlayır, dodağını dodağına sıxıb cınqırını çıxarmır, hətta qonşu otaqda bacısı oğlu ilə də göz-qaşla, himlə danışırdı. Lakin heç nə Kərim dayının rahat yatmasına kömək etmirdi. Yağmurlu, cansıxıcı günlər davam etdikcə, tikintidə işlər ləngidikcə Kərim dayının narahatlığı daha da artır, bu yağışlardan sonra, mədəni töylələr gec hazırlandıqda yay günlərində arxacda yatışmaqdan naxıra qırğın düşəcəyini fikirləşib dəhşətə gəlir, yuxusu ərşə çəkilirdi, bir qədər

gözlərini yumduqda isə yuxuda gah Çaparla, gah da Sarıyla çəlləşirdi. Qocanın onsuz da möhkəm olmayan əsəbləri pozulur və İsmət xala da bunu aydınca görüb təşvişə düşürdü. “Kişi, Kərim, başına dolanım, qadan alım, toxta!.. Uşaq-zad deyilsən ha! Bu yağış zəhrimar elə il boyu tökməyəcək ki... Kəsər, uşaqdan-böyügə tökülüb töylələri nizamlarıq, – deyə İsmət xala titrək səslə ərinə yalvarırdı. – Qırğın olsa neylərik?.. – Neyləyəcəyik, bircə bizə ha ziyan dəyməyəcək, bütün kəndə, camaata... Elnən gələn toy-bayramdır”. “Əcəb toy-bayramdır! – deyə Kərim dayı arvadının nəsihətindən sakitləşməkdənsə daha da əsəbiləşirdi. – Təpəsinə dəysin belə toy-bayram sədrimiz Çaparın! Tünbətün Gecədələndən törəyən də belə olar də! Rayonda döşünə döyüb, oturaqlığa belə keçəcəyəm, elə keçəcəyəm deyib, öz yerini bərkitmək xatirinə, hamının ağzına düdük verib. İndi də ki belə... Ax-x!! – Qoca hirsindən qapqara qaralırdı. – Sən heyətin üzvü olsaydın, orda görərdin ki, mənim başımda nə cür tərs dəyirman işlədirlər. Deyirəm məni yaman günə qoyubsunuz, gözləsək daha yaman günə qalacağıq. O “mən, mən” deyib döşünə döyən gədə başlayır ki, oturaqlığa keçmək yenilikdir, yenilik də qurbansız olmaz. Gecədələn Murtuzun oğlu da həyasız-həyasız başlayır ki: “Sərkəroğlu Kərim az savadlıdır, yeni işlər ona Simurq quşundan soraq gətirmək kimi görünür: “Daha insafı qalmayıb ki, desin: Sərkəroğlu düz on yeddicə il o mal-heyvanın arasında saç-saqqal ağardıb, mal ferması deyilən şeyin cikini-bikini bilir”. Bilir ki, bu aranın cırcıramalı vaxtında çölün ortasında heyvan öyüc eləməyəcək. Sabahı günü da camaat üzə duracaq ki, hanı bizim yağımız-pendirimiz, hanı bizim arvad-uşağımızın yavanlığı? Ətlik planı niyə dolmadı?.. Camaata, bax, bu qabarlı əlləriylə motal-motal pendir paylayan, pud-pud yağ verən Kərim Sərkəroğlu da saçının, saqqalının ağ vaxtında pörtüb tər tökəcək, qızarıb yerə girəcək. Tfu!..”

Kərim dayı “Kişi, başına dolanım...” – deyə yenə təşvişlə dillənən arvadının sözünü ağzında qoyurdu: “Az savadlıdır, yeni işlərdən başı çıxmır!” Xeyr, Gecədələnoğlu! – deyə qoca elə bil Çaparla üz-üzə danışırdı. – Xeyir! Azsavadlı olsam da, savadlıların içində oturub-durmuşam, kor deyiləm ki, yeniliyi görməyim? Mən qanmırammı ki, töylədə bordanmaq nədir, örüşə sürülmək nədir? Mən köhnəni də qanıram, təzəni də. Ancaq sənin kimi rayon

aktivinin gözünə kül üfürüb, təkcə öz yerini möhkəmlətməkdən ötrü xalqın var-dövlətini qırğına vermək istəmirəm. Sən aləmin bicisən, hər tələdən çıxmışsan. Sabahı gün qırğın olsa, yaxanı qırağa dartacaqsan ki, nə bilim, ferma müdirimiz köhnə adamdır, təzə işin öhdəsindən gələ bilmədi-filan... Xeyr! Onu görməyəcəksən, Gecədələnoğlu!..”

Kərim dayı gah elə günü bugün rayonda haray salmaq, atlanıb idarələri bir-birinə vurmaq istəyir, gah da nəyə isə ümid eləyib fikrində tərəddüd edir, vurnuxa-vurnuxa qalır, gündüzlər yağışın törətdiyi çətinliklərlə əlləşir; separatorlar qoyulan çardağın altına qum daşıtdırır, arxac üçün yeni yer seçir, xəstə buzovlar saxlanılan köhnə, qazma töylələrin daman yerlərini örtdürür, baytar həkimin dalınca qaçır, gölməçələri şappıldada-şappıldada hey ora-bura yüyürür, axşamlar isə evinə təpədən-dırnağa su içində, dişləri dişlərinə dəyə-dəyə, qızdırmalı kimi titrəyə-titrəyə qayıdır, yenə İsmət xalanı qorxuya salırdı. İsmət xala son zamanlar tamamilə ruhdan düşmüş kimi başıaşağı, qaradinməz gəzən, dindirəndə cüzi bir şey üstündə adamı acılayan, təklikdə isə ah çəkən, köksünü ötürən, hərdən də ürək dağlayan yanıqlı səslə öz mahnılarını oxuyan bacısı oğlunu az qala yaddan çıxartmışdı. Nəinki yaddan çıxartmış, hətta adi bir şeyi, iki-üç gündənbir Şumal camışın qatığının qaymağından yeməyəndə Qaranın həmişə narazı qaldığını belə unutmuş, Kərim dayını isə əksinə, qaymağa tutmuşdu. Kərim dayı arıqladıqca, İsmət xalanın yoldaşlıq qayğısı, adi hallarda özünü çox az göstərən, bəzən də ərininkindən heç də əskik olmayan deyintiləri arxasında dumana bürünüb qalan məhəbbəti sanki indi yenicə-yenicə özünü büruzə verirdi. Bir də görürdün ki, bütün kənddə işıqlar sönüb, hər şey buludlu gecənin qatı qaranlığına büründüyü halda, Sərkərlilərin pəncərələrindən işıq sızılır, göydən çisələnən damlaları parıldadır. İsmət xala isə ərinin çarpayısı yanında, balaca əllərinin birini öz üzünə, birini də Kərim dayının alışıb-yanan alnına qoyub hərəkətsiz dayanıb, yalnız dodaqları tərpənir: “Ömrüm-günüm, dinim-imanım, ay Kərim, cancığazına niyə yazığın gəlmir? Dilim qurusun, başına bir iş gəlsə məni yetim qoymazsanmı?.. Səndən sonra Talıbın qızı işıqlı dünya üzündə gəzə bilərmi?..”

Belə dəqiqələrdən birində Kərim dayı gözlərini açıb altdan-yuxarı arvadının üzünə baxdı və şirin, lap uşaq təbəssümü ilə gülümsündü:

– Dodağıyın altında nə bıdı-bıdı eləyirsən, arvad? Başımın üstündə Quran oxuyursan nədir?

İsmət xala qorxudan içini çəkdi.

– Ağzın xeyirliyə açılsın, kişi! Ürəyimizi qopartma!

– Elə deyirəm ki, ürəyin yerində bərk dursun, uçunmasın... Yaxşısı budur, bax, o işığı söndür, özün də soyun, gəl uzan...

İsmət xala ərinin istədiyi kimi elədi.

Xeyli keçmiş, qaranlıqda İsmət xalanın səsi eşidildi.

– Bayaq alışıb yanırdın, kişi! İndi bir az sərinləndin.

– Ə, əllərin lap qarağac qabığına dönüb, İsmət! Belə də arvad əli olar?

– Necə yəni, kişi?

– Belə də. Lap qarağac qabığı kimi, cod-cod...

– Bəs necə olsun deyirsən? İş adamının əli belə olar də. Zalxanın nəvəsi deyir töylələrə köçəndən sonra lap xanım-xatın kimi gəzib-dolanacağıq, nə bilim, ağ xalatda, təmiz-tarıq, lilpar təkin... Deyirəm, a bala, mənciyəz elə onsuz da lilpar təkin olaram, təki dərd-azardan, qadadan-bəladan uzaq olaq, İsmət xalanın əlli yaşı var, deyirəm, hələ də gümrahdır, könül xoşluğuynan yaşasa düz əlli il də indən belə gümrah qalar.

Kərim dayı birdən yana çevrilib onu qucaqladı. İsmət xala ərinin əlini kənara itələdi:

– Di yaxşı, yaxşı. Yat! – deyə uşağa təpinirmiş kimi qocaya acıqlandı...

Harada isə, lap uzaqlarda xoruz banladı.

İsmət xala pıçıldadı:

– Sabah açılır.

– Qoy açılsın, – deyə Kərim dayı cavab verdi. – Gecə üzür adamı.

İsmət xala köksünü ötürdü.

– Eh, ay kişi, səndən başqa belə deyən varmı? Bax, nə ola bu saat o Gecədələnoğlunun qapısından girəsən, görəsən necə rahatca ayağını uzadıb yatır. Elə o birilər də... Sənin zootexnikin Sarı...

– Heç ağlım kəsmir, arvad.

– Nəyi?

– Çaparın, Sarının rahat yatmalarını... Bu gün ikisinin də dərisinə qor doldurmuşam.

İsmət xala dərhal başını qaldırıb yerin içində dikəldi. Axı, deyəsən, burada nə isə öyrənilməli bir şey vardı. Necə olmuşdu ki, İsmət xala ərinin Çaparla Sarının “dərilərinə qor doldurmasından” xəbər tutmamışdı?

– Necə yəni qor doldurubsan, kişi?

Ərinin bu gün idarədə Çaparla sonra da Sarı ilə möhkəmcə çırpışdığını, kolxoza, böyük itgi üz verəcəyi barədə camaata car çəkdiyini, üstəlik, bütün rayon idarələrini bir-birinə vurub köçmək üçün icazə almamış geri qayıtmayacağını bildirdiyini öyrənən İsmət xala yenidən başını yastığa qoydu.

– Belə şeydən ötrü nə sədrin, nə də zootexnikin dərisinə qor dolar, kişi! Arxayındırlar ki, rayonda arxaları var. İzlərinə ayaq qoyan olmasa elə baş alıb gedərlərmi?

– Sənin ərin o ayaqları o izlərdən kəssin, sən də tamaşa elə! – deyə Kərim dayı birdən həyəcanlandı. – Kor-kor, gör-gör, ay arvad, yayın qızmarında heyvan örüşə gedər, ot otlar? Hamısı bax orda, çayın qırağında yatışıb, yatışıb içinin yağını yeyəcək, qarnı kürəyinə yapışacaq, yelini qurumuş bulağa dönəcək, sən İsmət də dad çəkib haray təpəcəksən ki, vay aman, vedrələr, sərniclər boş qaldı, buzovlar acından qırıldı...

– Kişi... Kərim, yenə gövdən alışıb-yandı, qabağında ölüm, kiri!.. Mən başı batmış, yenə nə təhər oldu ki, söz saldım? – deyə İsmət xala yalvardı.

Kərim dayı susdusa da, yenə yuxu gözlərindən ərşə çəkildi. Hiss etdiyi narahatlıq daha da artdı. Lakin bu, hava işıqlaşar-işıqlaşmaz onun atlanmasına heç də mane ola bilmədi.

## 18

Keçmiş qadınlar şöbəsinin müdiri, indi isə raykomun MTS üzrə katibi Şahnabad Şahgəldiyevanın yeni vəzifəsi haqqında ilk xəbəri eşitdikdə Kərim dayı üz-gözünü turşudaraq başını bulayıb öz narazılığını heç kimdən gizlətməmişdi: “Nahaq yerəcə o arvadı götürüb raykom stoluna mindirirlər”. Camaat, əlbəttə, qocanın bu narazılığının səbəbilə maraqlanmışdı. Kərim dayı cavab vermişdi ki, “yumruğunu stola döyüb arvad boşayan kişilərin üstünə xoruzlanmaq bir başqa, rayonda oturub camaatın dərdinə-azarına qalmaq bir

başqa. Raykom katibi gərək elin atası olsun. Şahgəldiyeva isə...” Nədənsə Kərim dayı sözünün dalını gətirməmiş və yenə də heç kim onun narazılığının nədən irəli gəldiyini bilməmişdi. Nə qədər ki, raykomun qadınlar şöbəsi ləğv edilməmişdi və Şahgəldiyeva orada otururdu, bu zabitəli, ağır gövdəli, lakin cəld hərəkətli, zəhmli baxışlı, çal saçlı qadına, arvadlar bir yana dursun, hətta ondan zərbə almış kişilər də hüsn-rəğbət bəsləyirdilər. Bu qadın yalnız Kərim dayının xoşuna gəlmirdi.

Kərim dayı onu lap çoxdan, otuzuncu illərdən, Şahgəldiyevanın kişi kimi əyninə meşin pencək geyib, rayonun yeganə minik maşınından kəndə gəldiyi gündən tanıyırdı və elə o vaxtdan da bu qadını bəyənməmişdi. Yalnız keçən dəfə Kərim dayı Çaparın sınıq-salxaq “Moskviç”ində MTS-ə gəldikdə Şahgəldiyeva onu əliboş qaytarmamış, qocanı özündən bir qədər razı sala bilmiş, üstəlik də, “hər nə çətinliyin olsa birbaşa, bax, düz buraya, bu kabinetə gəl, yoldaş Sərkərli!” – demişdi. Yəqin elə buna görə idi ki, öz qapısında atlanan Kərim dayı, bir də Şahgəldiyevanın kabinetinin qabağında yerə düşdü. Atın cilovunu bir mərtəbəli, uzunsov binanın önündəki yaşıl rəngli məhəccərin taxtalarından birinə keçirdi, şapkasının suyunu çırpıb içəri girdi. Səhərdən canında bir üşütmə olan qoca, kürəyi, boyun-başı islandıqdan sonra büzüşüb daha da kiçilmişdi. Arıq, zəif bədəni nəzərə çarpacaq qədər əyilmişdi. Kabinetinə yenicə gəlib hələ stol dalına belə keçməmiş Şahgəldiyeva onu bu vəziyyətdə gördükdə salamı almağı belə unudaraq qara, enli qaşlarını təəccüblə qaldırdı.

– Bu nə gündür düşübsən, a kişi? Xəstə-zad deyilsən ki, yoldaş Sərkərli? – deyə o, öz uca, kök gövdəsilə qocanın qarşısında dayanıb, üstdən-aşağı ona canıyananlıqla baxdı.

Kərim dayı katibin onu belə qarşılamasından ürəklənmiş kimi, elə ilk sözü mətləbdən başladı:

– Düz buyurursan, Şahnabad, xəstəyəm, ancaq dərdimə dərman eləsən, o saatca safbasağ olaram.

– O nə dərmandır elə, yoldaş Sərkərli?

– Köç dərmanı, Şahnabad!

– Mən ömrümdə belə dərman adı eşitməmişəm, yoldaş Sərkərli.

– Niyə eşitməyibsən, Şahnabad? Dərdə salan axı gərək dərmanını da bilsin. Dərdə ki, özgəsi yox, sən salıbsan. Düz deyirəm, ya yox?

– Nəsə mən bu gün səni başa düşə bilmərəm.

– Sərf eləməyən söz olanda, əlbəttə, başa düşülməz, Şahnabad. Sən bizi o gün dərdə saldın ki, Gecədələnoğlunu maşınına mindirib gətirdin bizə sədr elədin. Özün ona hamıdan yaxşı bələdsən, bilirsən ki, Çapar Gecədələnoğlu qarğacinsli adamdır.

– Qarğacinsli? Bu nə deməkdir?

Kərim dayı duruxdu. O, bilmədi ki, “Gecədələnoğlu qarğa cinsli adamdır” deyərkən nəzərdə tutduğu bir el lətifəsinin Şahgəldiyevaya danışsın, ya yox?

Lətifə belə idi: Bir gün balaları qarğaya deyirlər ki, ay ana, yuvamızı zibilləmişik, təzə yuvaya köçmək istəyirik. Qarğa cavab verir ki, ay bala, bu xasiyyət ki, sizdə var, elə təzə yuvanı da zibilləyəcəksiniz, yaxşısı budur yerinizdə oturun.

Şahgəldiyevanın əvəzində bir başıpapaqlı olsaydı, əlbəttə, Kərim dayı bu lətifəni olduğu kimi danışmaqdan heç də utanmazdı. Şahgəldiyevaya isə o, lətifəni üstüörtülü nağıl etdi. Sonra:

– Bu o deməkdir ki, sənin Çaparın təzə yuvanı da zibilləyib, Şahnabad, – dedi, – sənin Çaparın bizi dərdə salıb. Dərmanı da ancaq səndədir.

– Köç dərmanı, hə? – Şahgəldiyeva gözlənilmədən güldü, adəti üzrə ağzını göyə tutub qaqqıldayaraq, ətli bədənini yırğaladı. – Köç dərmanı... Köç dərmanı... Demək yaylağa köçmək, buradakı işləri alt-üst qoymaq dərmanı? Bunu gərək Stalinin özünə deyəsən axı, Kərim kişi! Əlim çatmaz axı Stalinə.

Şahgəldiyeva qara ipək donunun dal ətəyini sağ əlinin arxası ilə sığallayıb öz yerində oturdu, ağ örtüklü stul onun altında çatıldadı.

– Zənnimcə, axı bu dərmanı içmək bir dəfəlik qadağan olunub, yoldaş Sərkərli! Mən sizin partkomunuz Yunus kişiyə də demişəm ki, sənə köç dərmanı verilməsin! – deyə o, yarızarafat, yarıciddi davam etdi. – Sən də gəlib o vaxt buradan kran apardın ki, bəs, gərək tikintidə işi sürətləndirək. Onda sən məndən heç bir dərman-zad istəmədin, elədirmi? – Kərim dayı cavab vermədi. – Bəs bu nə xəyaldır təzədən düşübsən? – deyə Şahgəldiyeva ciddiləşdi. – Sən o kolxozda gözəl-gözəl işlər görübsən, hovuz tikdiribsən, qrant çəkdiribsən, duş qoydurubsan. Yunus danışırdı ki, hələ dərnək də təşkil eləyibsiniz. Yonca əkilib, qarğıdalı əkilib. Yaşıl konveer məsələsini Yunus kimi bacarıqlı adama tapşırıbsınız ki, birinci ildir,

çətinlik ola bilər... – Nədənsə Şahgəldiyeva dostunun adını çəkmir, Kərim dayının Çapar haqqında şikayətinə işarə belə etmirdi. – Sən isə işlərin bu yerində gəlib məndən "köç dərmanı" istəyirsən. Yox, nahaq yerəcə bu yağışda-çovğunda zəhmət çəkib gəlibsən, yoldaş Sərkərli. Yoxdur məndə elə dərman!.. Şahgəldiyeva yanaqlarına sarı çıxmış çal birçəklərini qulaqlarının üstünə hərləyib zəhmlə baxan gözlərini qocadan ayırmadan ucadan təkrar etdi: –Yoxdur!..

Kərim dayı yaxşı bilirdi ki, bu qəti və kəskin cavabdan sonra o da acı danışsa, Şahnabad Şahgəldiyeva dərhal coşub öz gur səsilə otağı başına götürəcək və bundan sonra Kərim dayı min söz desə o, heç birinə qulaq asmayacaq. Bu qadınla ehtiyatlı danışmaq lazımdır. Kərim dayı məharətlə öz təbiətinin əksinə gedərək, səbrlə, yumşaqlıqla dilləndi:

– Şahnabad, bu yağışlar olmasaydı, bizim şenliyin havasında belə dönüklük olmasaydı, mən heç səsimi də çıxartmazdım. Di gəl ki, bu zəhrimar yağışlar başladı, töylə də, filan da, bütün işlər alt-üst oldu, qaldı yayın cırhacırına. O vaxt da ki, özün qanan adamsan, açıqda, düzün ortasında heyvan qalmaz. Əlac bircə köçədir, Şahnabad! Sən gəl bu ağsaqqal adamı darda qoyma, MTS bizə maşından-zaddan versin. Sonra peşmançılıqdan çıxa bilmərik!

– Mən heç bilmirdim ki, bu ağsaqqal adam bu qədər qorxaqdır, – deyə Şahgəldiyeva guruldadı. – Bəli, yoldaş Sərkərli, buna qorxaqlıqdan başqa ad vermək olmaz! Özün bilirsən ki, mən sözü üzə deyən adamam. Qorxaqlıqdır bu, vəssalam! Özü də mən çox-çox təəssüf eləyirəm, yoldaş Sərkərli. Bəli, təəssüf!.. Mənim yaxşı yadımdadır ki, "Engels" kolxozunu quranda, mən ora təhkim gedən vaxtlar, sən nə təhər itmil-itmil tərpənirdin. Az qalırdın qol-çomaqların üstünə xəncər-bıçaq çəkəsən... O günlər Çapar mənə deyirdi: "Bizim ferma müdiri həyatdan geri qalıb, yeniliklərə Simurqdan soraq gətirmək kimi baxır deyirdi", – mən inanmırdım. İndi isə... Bəli, çox təəssüf!.. Axı sən, yoldaş Sərkərli, belə-belə işlərdən gərək vəcdə gələsən, ruhun təzələnə, cavanlaşasan. Axı sən... – Şahgəldiyeva yavaş-yavaş coşub, ağappaq, ətli əllərini stolun üzərində oynadırdı: – Axı sən bizim köhnə qvardiyanın adamlarındansan! – O, həmişə qızışanda olduğu kimi, daha rəsmi danışmağa başlayırdı: – Axı sən gərək hamıdan qabaq başa düşəsən ki, bu işlər bizim respublikada yenilikdir, özü də böyük bir yenilikdir.

Sən bilmirsənmi ki, yoldaş Sərkərli, mal-qaranı töylə şəraitinə keçirmək dövlətin qərarıdır? Başa düşürsənmi ki, bu qərara zidd getmək olmaz?!

Kərim dayı artıq özünü saxlaşdıra bilməyib, bu iri gövdəli qadınla ehtiyatla danışmaq qərarını unutdu.

– Mən çox gözəlcə başa düşürəm, Şahnabad! – deyə qoca kallaşıb xırıldayan səsini ucaltdı. – Qərarı verənlər heç vaxt deməzlər ki, şərait düzəltməmiş heyvanı odun-alovun içində qoy. Bunun axırı heç yaxşı olmaz, Şahnabad! Sən gəl kömək elə mənə, var-dövləti qırğına verməyək. – Qoca bir necə anlığa susub cavab gözlədi. Lakin Şahgəldiyeva dillənmədi. Onun bütün siması bir fikri ifadə edirdi: "Boş danışıqla beynimi tökmə. Mən sənə heç bir köməklik etməyəcəm". Bu, Kərim dayını özündən çıxartdı: – Dostbazlıq yaxşı şey deyil, Şahnabad. Özü də sənin kimi belə bir vəzifə yiyəsindən ötrü heç yaxşı deyil.

Şahgəldiyeva təəccüblə irəli əyildi:

– Mən kimlə dostbazlıq eləyirəm, kişi?

– Hər halda mənimlə yox! – Kərim dayı acıqlı-acıqlı üzünü yana çevirdi, lakin elə həmin an başını döndərib gözlərini Şahgəldiyevanın gözlərinin içinə zillədi. – Sən məni belə qoca görüb avam bilmə, Şahnabad. Sən qorxursan ki, köçə razılıq versən bütün rayon Gecədələnoğlunun əməlindən xəbər tuta. Gecədələnoğlu orda zootexnik gədəni ortalığa salıb istəyir camaatın gözünə kül üfürsün. Zootexnik orda bar-bar bağırır ki, şərait olmasa da aranda qalacağıq. Sən də ki, burda... Bilirsənmi bu nədir? – Kərim dayı nə isə, hafizəsindən çıxmış bir söz axtarırmış kimi, qırışlarla örtülmüş alnını ovuşdurdu. – Bu odur ki... odur ki... – deyə-deyə bir neçə an fikirləşdi, nəhayət, sözü tapdı: – Əyintidir!..

– Nə? Əyinti?..

– Bəli, əyinti!.. Bax, o vaxtları, hələ o birçəklərinin qara vaxtında, əyninə qara meşin pencəyi geyib bizim "Engels"i qurmağa gələndə üççə günün içində qızdırbasa salıb camaatı kolxoza doldurduğun kimi bir əyinti!.. Nəyə gülürsən? Heç gülüb eləmə! Şərait olmaya-olmaya işi belə qızdırbasa salmaq əyinti deyil, bəs nədir? Sən gülmə, mən burda səninlə hənək-zad eləmirəm, Şahnabad!..

Şahgəldiyeva isə hey qaqqıldayır, qocaya qulaq asmadan, ağzını göyə tutub hey silkələnir, hətta sinəsini dirədiyi stolu da titrədib-

yırğaladır, xüsusi bir səliqə ilə qoyulmuş ağ, sanballı mürəkkəb qablarını, içinə rəngarəng karandaşlar yığılmış qələmdanı da tərpədirdi. Şahgəldiyeva elə zərblə, elə gurultu-şaqqıltı ilə gülürdü ki, sanki bu saat divarlardakı plakatlardan, stolun küncündə duran qrafindən tutmuş qoşa pəncərələrin şüşələrinədək kabinetdə gözə dəyən hər şey uçub dağılacaq, yerə tökülüb xıncım-xıncım olacaqdı. Kərim dayı heç yerdə, heç bir qadında bu cür bir gülüşə təsadüf etməmişdi. Şahgəldiyeva gülmür, sanki nərə çəkirdi. Bu gülüş Kərim dayını pərt elədi. Qoca, oturduğu stuldan ayağa sıçrayıb, nə edəcəyini bilmədən, islaq köynəyinin ora-burasını çəkişdirdi. Qadının bütün əzaları titrəyən ətli gövdəsinə baxmaqdan xəcalət çəkib üzünü yana tutdu.

– Əyinti... Əyinti... – deyə kəkələyə-kəkələyə, nəhayət, Şahgəldiyeva gülməyə ara verdi, siyirmə yeşiyi açıb oradakı qırmızı rəngli redikülündən yaylıq çıxartdı, yaşarmış gözlərini sildi. – Əyinti... A kişi, sən nə danışırsan, sənin ağlın başındadır, ya qocalıb çaşmısan?

Bu son kobud sözlər Kərim dayıya yaman dəydi:

– Mənim ağlım hələ başımdadır, Şahnabad. Sən özününkünü yoxla!

– Necə, necə?.. – Şahgəldiyeva yenə stulu çatıldadaraq, taraq-turaqla geriyə itələyib yerindən durdu. – Necə?! Kişi, sən bir dediyini təkrar elə görüm! – Şahgəldiyeva birdən-birə dəyişərək, qapqara kəsildi. – Sən Şahnabad Şahgəldiyevaya elə söz deyirsən? Raykomun katibini təhqir eləyirsən?!

Lakin Kərim dayı artıq kabinetdə deyildi. O, atın cilovunu dəstələyib ayağını üzəngiyə qoydu, qalxmaq istədi, ancaq qəfildən bədənində elə bir zəiflik hiss etdi ki, atın belinə qalxmağı bir yana dursun, yəhərin qaşından bərk-bərk yapışaraq, özünü güclə ayaq üstündə saxlaya bildi. “Bu nədir, Kərim? Sənə nə oldu, ay Sərkəroğlu? Toxta!..”

Bütün ömrünü at belində keçirmiş, düzlərdə, dağlarda, əyrim-üyrüm dolay cığırlarda, sarp yollarda yəhər üstündə laçın kimi süzmüş bu adam ilk dəfə ata hıqqana-hıqqana mindi...

Kərim dayı hələ atdan düşməmişdi ki, ağır, kobud əsgər çəkmələrilə gölməçələri şappıldada-şappıldada yaxınlaşan Qara onu səslədi:

– Ay yeznə, düşmə, düşmə. Partkom çağırır səni.

Lakin Kərim dayı elə bil heç nə eşitmədi. Atdan enib, cilovu baldızı oğlunun üstünə ataraq:

– Apar rahatla! – dedi və tələsik özünü içəri saldı. Qaraya elə gəldi ki, qoca onun sözlərini yaxşı anlamadı. O, başını qapının arasından içəri uzatdı, ancaq heç ağzını da açmamışdı ki, islaq pal-paltarını soyunan Kərim dayı acıqlı-acıqlı qışqırdı:

– Nə var, niyə çağırır? Rədd olsun hamısı!

Qara təəccüblə çiyinlərini çəkdi, hıqqana-hıqqana əyilib çəkmələrini çıxardan kişini diqqətlə gözdən keçirib, atın yəhərini almağa getdi.

O, yeznəsinin hirsinə bələd idi. Kərim dayı əsəbi adam idi. Lakin Qara heç vaxt ağlına sığışdıra bilməzdi ki, onun yeznəsi nə qədər hirsli olsa da, Yunus kişinin qarasınca nalayiq söz deyər. Bütün kənddə Kərim dayının ağıllı, mötəbər saydığı, hörmət etdiyi beş-on adam vardısa, onlardan birincisi Yunus kişi idi.

İdarədə ferma müdirini xeyli gözləyib, axırda onun evinə getməyi qərara almış partiya təşkilatçısını Kərim dayının necə qaş-qabaqlı qarşıladığını gördükdə isə Qara daha da təəccübləndi. Lakin adəti üzrə, böyüklərin söhbətinə mane olmaq istəməyib o biri otağa keçdi, batareya ilə işləyən radioqəbuledici cihazı açdı, həzin, iniltili balabanı dinləyə-dinləyə pəncərəyə dirsəklənərək eşiyə baxdı. Dumanlı, çiskinli havada, ağacların budaqları arasından Papaqçıların qırmızı kirəmidli evi görünürdü. Zalxa qarı balkonda məhəccərə söykənib, əlləri qoynunda yola baxırdı. Yəqin ki, Zöhrənin yolunu gözləyirdi. Bu gün Zöhrəni Qara da görməmişdi. Günortaüstü o, fermaya getmək istəmişdisə də, yolun yarısından qayıtmalı olmuşdu. Arabaçı iydə kollarının yanına yenicə çatmışdı ki, birdən Sarıyla qarşılaşdı. Onlar qeyri-iradi olaraq bir-birinin üzünə baxdılar. Zootexnikin gözlərinin kinli-kinli parıldadığını gördükdə Qara özünü saxlaya bilmədi:

– Nə qanlı-qanlı baxırsan, ə?

Gözlənilmədən Sarı yaxınlaşıb onun qolundan yapışdı:

– Gedək, sənə sözüm var, – dedi. Lakin o, kəndin girəcəyinə çatanadək dillənmədi. Yol ayrıcına yetişdikdə isə qəfildən Qaranı yemçilik briqadasının göy yem saxlamaq üçün tikdiyi hündür çardağa doğru itələyərək:

– Bax, sənin yerin oradır, fermada sənin heç bir işin yoxdur! – dedi.

Qara sarsıldı. Bir neçə an nə edəcəyini bilmədi. Lakin qəfildən yumruqlarını düyünləyərək ona elə qəzəblə baxdı ki, Sarı istər-istəməz bir addım dala çəkildi. Bu, Qaranın nəzərindən qaçmadı. Birdən-birə istehza ilə qımışdı. Qaranın əyninə səliqə ilə geydiyi pencəyini, şax ütülü şalvarını gözdən keçirərək, palçıqlı yoldakı gölməçələrə işarə etdi:

– Paltarına heyfim gəlir...

Sarının çöhrəsinə boğuq qızartı çökdü.

– Əlbəttə, xuliqanlıqdan başqa sənin əlindən heç nə gəlməz.

– Bir balaca səhvin var, mənim əlimdən ayrı şey də gəlir, – deyə Qara eyni istehza ilə gülümsündü, – o da budur ki, mən saf məhəbbətlə sevməyi də bacarıram. Sənin kimi namussuzluq eləmirəm. – Təbəssüm Qaranın çöhrəsindən silindi. Onun açıq havada gəzməkdən yanıb qaralmış sifəti bozardı. – Beli sınsın naxırçı Hətəmin! Allahın altında o çayın qırağında mən görmüş olaydım səni. Baxaydın onda ki, analar necə oğullar doğub! – Arabaçının dodaqları səyridi. – Bax, əlim-ayağım dəyməmiş çıx get!.. Özü də bil ki, mənim ayağımı bu ferma yolundan kəsə bilməzsən... Ondan da gözünü çək. Onsuz da sizinki baş tutmaz!

– Xuliqan!.. Xuliqan!.. – deyə Sarı boğuq səslə qışqırıb uzaqlaşdıqda, Qara qəhqəhə çəkib güldü və papağının dalını qaldıraraq oxudu:

Səhərin dan ulduzusan,
Aşığın söhbət, sazısan,
Papaqçı Alı qızısan,
Səndən ayrıla bilmirəm...

O, yenə oxumaq, çoxdan bəri aradığı fürsəti əldən verməyib, əsəbi addımlarla uzaqlaşan düzgün qamətli oğlana daha çox yanıq vermək istədi. Lakin elə bu an Yunus kişi böyürdən çıxdı...

İndi Qara pəncərəyə dirsəklənərək, Papaqçıların dumanlı, çiskinli havada çətin seçilən qırmızı kirəmidli evinə baxa-baxa bugünkü hadisə barədə fikirləşdi. Ona elə gəlirdi ki, Sarı bu hadisəni mütləq Zöhrəyə danışacaq. Zöhrə isə... gəlib onu danlayacaq.

Nə olar, danlasın. Doğrudan da, belə olsa arabaçı da susmaz. O deyər ki: "Məni belə başı qalmağallı eləyən sənə məhəbbətimdir, Zöhrə. Sən də mənə məhəbbət bağla, gör ondan sonra, sənin zootexnikiyin xuliqan adlandırdığı bu başı bəlalı arabaçı necə ipəyə dönər". Sonra Qara deyər ki...

Qonşu otaqdan eşidilən uca səs Qaranı fikirlərindən ayırdı.

Yunus kişi aydın, uca səslə Kərim dayını məzəmmət edirdi. Deyirdi ki, Kərim dayı yerli təşkilatın fikrini öyrənmədən nahaq yerə yuxarılara qaçır. Fermanın yaylağa köçməsinə icazə almaq üçün nəinki Şahnabad Şahgəldiyeva, rayon partiya komitəsinə müraciət etmək də kifayət deyil. Qərarı Azərbaycan SSR Nazirlər Soveti vermişdir və bu məsələ üçün yalnız Nazirlər Sovetinin icazəsi lazımdır. Lakin Yunus kişi, təşkilatın başqa üzvləri və rayondakı yoldaşlar bu fikirdədirlər ki, heç yerə müraciət etmək lazım deyil. Köçmək məsələsi o vaxt meydana çıxa bilər ki, bu il oturaq həyat üçün şəraitin yaradılmasına bəslədiyimiz ümid tamamilə puç ola. Hələlik isə ümid var və Yunus kişi inamla deyir ki, yağış ara verən kimi o, bütün kəndi ayağa qaldırıb tikintiyə tökəcək.

– Qaldı ki, sənin sədr barədə ardı-arası kəsilməyən şikayətinə də bu lələşin son qoyacaq, – deyə Yunus kişi əlavə etdi. O, özünəməxsus bir gümrahlıqla otaqda bir-iki dəfə var-gəl elədi, qayıdıb yenə Kərim dayının qarşısında dayandı, əlini bığına çəkdi, pencəyinin cibindən göy rəngli bir konvert çıxarıb başı üzərində silkələdi: – Bax, bu balaca məktub o dağ boyda Gecədələnoğlunun arxasını yerə qoyacaq, Kərim! Rayonda yoldaşların çoxu da bu fikirdədir ki, Çaparın məsələsinə soyuqqanlı baxmaq olmaz. Məsləhət gördülər ki, Biləcəriyə məktub yazım... Amma heç bilirsən böyük yoldaşları necə divara qısnadım? Dedim, balam, arxayınlıqda, iclaslarda-filanda hamınız bir ağızdan qışqırırsınız ki, kolxoz sədri kolxozda həlledici şəxsiyyətdir, sədr olan şəxs gərək bacarıqlı, təşəbbüskar, bir sözlə, xalqın etimadını qazanmış adam olsun. Üzdə belə deyirsiniz, dedim, amma əslində kolxoza kimləri göndərirsiniz? Bir də baxırsan ki, RİK sədri, MTS direktoru, yaxud götürək raykopittifaqın sədri öz vəzifəsinin öhdəsindən gələ bilmir, çıxardıb atırsınız. Aradan bircə ay keçməmiş fikirləşirsiniz ki, hə, indi yəqin özünü düzəltmiş olar, göndərək işə. Hara? Əlbəttə, o saat yadınıza kolxoz düşür. Yerli təşkilatın da, camaatın da etirazı

eyninizə gəlmir. Raykopittifaqda, yaxud RİK-də baş çıxara bilməyən bir adamı yollayırsınız kolxoz kimi mürəkkəb bir təsəvvür sahəsini idarə eləməyə. Bir də o vaxt ayılırsınız ki, vay aman, kolxozda təsərrüfat dağılıb, camaat da rayon təşkilatlarının əlindən dəmir yeyib göyə çıxır... Xülasə, yaman dedim, Kərim! Gələn kimi də oturdum məktubu yazdım...

Qapı arasında dayanmış Qara maraqla Yunus kişinin əlindəki konvertə baxdı. O, gözlədi ki, indicə Kərim dayı soruşacaq, Yunus kişi isə, Gecədələnoğlunun "arxasını yerə qoya bilən" o kağızdakı hikməti izah edəcək.

Lakin Kərim dayı heç nə soruşmadı. Qoca üstünə dəvə yunundan adyal salınmış çarpayıda yastığa dirsəklənib, gözlərini yerə dikmişdi. Onun tük basmış sifəti avazımışdı. Tez-tez, kəsik-kəsik nəfəs alırdı. Aydınca görünürdü ki, qoca xəstələnmişdi. Deyəsən, canının ağrısından heç Yunus kişinin danışdığına da qulaq asmırdı.

Qara fikirləşdi ki, İsmət xalanı fermadan çağırmaq lazımdır. Bir daha yeznəsinin sifətinə baxıb eşiyə çıxdı. Lakin heç beş addım getməmişdi ki, çisələmə yağış qəfildən gücləndi. Hardasa, lap uzaqlarda göy guruldadı. Sonra elə bil lap kəndin üzərində şaqqıltı qopdu.

Qara xalasına bürüncək aparmaq üçün geri qayıdanda Yunus kişi astanada dayanıb, sonsuz qara pərdəyə bürünmüş göyə baxır və bığının ucunu çeynəyə-çeynəyə dişləri arasından deyirdi:

– Pis adamların ziyançılıq eləməyi yetmir, elə bil göylər də bizim qəsdimizə durub.

## 19

Bu üzücü, cansıxıcı, tutqun günlər nə qədər davam edəcəkdi? Aranın parlaq günəşi nə vaxta qədər buludlar dalından çıxmayacaqdı?..

Kərim dayı yatağa düşmüşdü. İsmət xalanın gözləri dörd olmuşdu. Sarının təkidlərinin, qəti etiraz və danlaqlarının nəticəsində Sərkərlilərin qapısına bir müddət ayaq basmayan Zöhrə, müdirin xəstələnməsindən sonra sağınçıların bütün işlərinə özünü məsul hiss edib, Kərim dayıdan göstərişlər, tapşırıqlar almaq üçün yenidən oraya ayaq açmışdı. İndi o, daha çox sıxıntı çəkməli olmuşdu. Çapar Kərim dayının köç üçün tədbir tökmək haqqındakı fikirlərini heyətə çatdıran Zöhrəyə məhəl qoymur, "qocaya nə yaman belə can

yandırırsan, komsomol qız? Sən, utancaq, başıaşağı bir qız, bu qız-gəlinləri heyətin üstünə töküb, qəfildən niyə belə qara-qışqırıqçı olubsan? Yoxsa, o deyingən Sərkəroğlunun sənə də təsiri keçib, ay Dan ulduzu?" – deyə qıza istehza edirdi. Şahgəldiyeva zəng eləyib, telefonda qaqqıldaya-qaqqıldaya, Kərim dayının "Engels"də görülən işlərə "əyinti" adı verməsini məsxərəyə qoya-qoya əhvalatı danışdıqdan sonra Çapar ürəklənib: "Şahgəldiyeva, yoldaş raykomun katibi özü, bu geriyə çəkməyin üstündə Sərkəroğlunun abrını alıb", – deyə heyətdə car çəkir, Zöhrəni daha iti iynəli bir rişxəndlə sancırdı: "Bax, işlər belədir, ay göylərin parlaq ulduzu!" "Bu körpəcə komsomol qız Sərkəroğlunun evinə yamanca meyl salıb, – deyə Çapar ferma işçilərilə birgə tez-tez Kərim dayının yanına qaçan və onun fikirlərini qızğın müdafiə edən Zöhrənin hərəkətini başqa cür mənalandırırdı. Bu, əlbəttə, Zöhrəni çox sıxırdı. Atasının eyhamlarını bir qədər də açıb: "Kişinin qızı o tərifli arabaçının olduğu evdə hörmət-izzət qazanmaq istəyir", – deyə Lətifənin yenə dedi-qodu yayması isə daha böyük sıxıntı idi.

Sarının Papaqçıların evində Zalxa qarı ilə səmimi söhbət eləyib zarafatlaşdığı, "qonşu qızı"nın çayını içdiyi o bir gün sanki xoş bir yuxu idi; sevən, sevmək istəyən ürəkdə bir sevinc hissi oyadıb keçdi, sonra bu sevinc kədərə, iztiraba çevrildi: Sarı birdən-birə yenə tutqun-tutqun gəzib-dolaşmağa başladı.

Lakin Zöhrə daha həmişəki kimi hər bir sıxıntını, kədəri ürəyinə salıb, içəridən qovrula-qovrula göz yaşı axıtmaq, dözmək, səbir etmək istəmir, onu incidən, narahat edən, sərbəst, ağrısız-acısız yaşamağa, işləməyə mane olan hər şeyə qarşı özündə bir etiraz qaynayıb coşduğunu duyurdu. "Belə yaşamaq olmaz, bu qədər dözmək olmaz!" – deyə daxildən gələn bir səs qızı həyəcanlandırırdı.

Zöhrə Sarıyla bir daha ayrılıqda görüşüb-danışmaq, nənəsinin dediyi kimi, "onun dərdini-azarını öyrənmək", "nə üçün yenə bir qab olub ağzıüstə çevrilibsən, ay Sarı?" – deyə mütiliklə soruşmaq, onu dedi-qodudan uzaq gəzməyə çağırmaq üçün fürsət axtarmırdı. "Yox, daha bəsdir!" – deyə Zöhrə həmin axşam ikilikdə evdə oturub dərnək barədə söhbət edərkən Sarının haqqında ağlına gələn xoşagəlməz fikirlərin üzərinə yenidən qayıdırdı: bəli, belə çıxırdı ki, Sarı yalnız özünü düşünür, öz xoş gününü başqasının bədbəxtliyi üzərində qurmaq istəyən Zöhrə ilə Qaranın haqqında

küncdə-bucaqda, bəzən də lap açıq-aşkar, uydurmalar danışan Gecədələn nəvəsi Lətifənin dedi-qodularından öz adına bir ləkə gələcəyindən çəkinirdi. Bax, kənddə danışırlar ki, vaxtilə Kərim Sərkəroğlu ilə Talıbın qızı İsmətin də başına eynilə buna bənzər bir əhvalat gəlmişdi. Gecədələn Murtuz kəndə şayiələr yayıb İsməti Kərimdən eləmək istəmişdi. Gözəl arvad və bol var-dövlətdən başqa heç bir idealı olmayan o dargöz adam, Kərim Sərkəroğlunun başına olmazın oyunlar gətirmişdi. Lakin onda Kərim dayı şayiələrdən, dedi-qodulardan öz adına bir ləkə yapışacağından heç də çəkinməmişdi. Çünki onu sevgilisinin səadəti "ad-san ləkəsindən" daha çox düşündürmüşdü. Bəs Sarı?.. Yox, belə çıxır ki, oğlan özünün ad-sanını hər şeydən yüksək tutur. O, "Engels"də hamıdan çox çalışmaqla, Kərim dayının fermanı gözləyən təhlükə haqqında dediklərini istehza ilə qarşılayıb: "Ali savadlı zootexnik olan yerdə hər şey qaydasında olacaq", – deyə döşünə döyməklə də, heç şübhəsiz ki, özünü göstərmək, ad-san qazanmaq istəyir.

Bu cür fikirlər Zöhrənin beynində yenidən möhkəmlənməyə, Sarıya qarşı soyuqluqdan başqa, onda bir qəzəb hissi də doğurmağa başlayırdı. Vaxtilə: "Mən buraya partiyanın çağırışı ilə gəlmişəm", – deyə özünü təqdim edən və tələsə-tələsə həm də tükənməz bir enerji ilə işə girişən, nə isə böyük bir yenilik yaratmaq üçün inad göstərən o gözəl qamətli oğlan, əvvəlcə Sərkərliləri sevindirmişdi. İndi isə belə məlum olurdu ki, o, kəndin ağsaqqalı Kərim dayıdan, İsmət xaladan tutmuş, fermanın bütün işçilərinin həyatında bir narahatlıq, bir təşviş əmələ gətirmişdi; indiyədək həyatında bu qədər ciddi narahatlıq hiss etməyən, heç bir güclü maniəyə rast gəlməyən, öz şən, oynaq, qəlbəyatan təbiətilə, öz məlahətli səsilə Sərkərlilərin könlünü oxşayan bir gəncin – arabaçı Qaranın elə bil birdən-birə səsi batmışdı. İkinci gəncin – "bulanmaz dəryanın" həyatında ilk dəfə tufan qopmuşdu. Hətta hesablayıcı Veysəl də öz tərifnamələri ilə qızları, gəlinləri əyləndirməkdən, ruh yüksəkliyi ilə işləyib yaşamaqdan usanmış kimi, birdən-birə həyatından narazılıq eləməyə başlamışdı: "Qədir-qiymətimiz də bilinmir. Adamda həvəs də qalmır". Zöhrə onun barəsində zootexniklə danışmış, "bu oğlan təriflənməyi çox sevir, onu işə ancaq belə həvəsləndirmək olar. Tərifləsən dağı dağ üstə qoyar", – demişdi. Sarı isə cavab vermişdi ki, "qoy o mənim sözümdən çıxmasın, mənim üzümə ağ olmasın, onda mən ondan razı

qalaram”. Mən, mən, mən... Daha nə qədər “mən, mən” demək olar? Daha nə qədər yalnız öz beynindəkini çağırmaq olar? Nə qədər öz sözünü göyərtmək olar? Görəsən bu oğlanı necə böyütmüş, necə tərbiyə etmişdilər ki, indi burada özündən başqa heç kimlə hesablaşmır? Zöhrə onun valideyni haqqında heç nə bilmirdi. Məlum olan tək bu idi ki, “valideynləri güllələnmişdi”.

Yox, daha bu cür yaşamaq olmazdı! Nə isə etmək, sərkərlilərin “bulanmaz dəryadan” gözləmədikləri kəskin bir hərəkət etmək, bu işgəncələrdən qurtarmaq lazım idi. Lakin nə etmək, nə cür etmək?.. Bax, bunu Zöhrə özü üçün aydınlaşdıra bilmir, qovurğa kimi qovrulur, yanıb-qaralırdı. Bir neçə günün içindəcə o, xeyli arıqlamış, yanaqları solğunlaşmış, qaynar gözlərində isə bir narahatlıq kök salmışdı.

Bu narahatlığı hamı hiss edir, aydınca görürdü. Zalxa qarı da nəvəsinin xasiyyətində asanlıqla sezilən bir dəyişiklik duyurdu. Ancaq o, bunu təkcə fermada işlərin düz getməməsilə, Aran düzünün təbiətindəki bu sirli dönüşlə bağlayırdı. Qarı axşam-səhər əllərini qoynuna qoyaraq, döşəkcənin üstündə büzüşüb pəncərədən tutqun göyə tamaşa edir, ağır, qara hörüklərinin uclarından, donunun ətəklərindən su süzülə-süzülə işdən dönən nəvəsinə baxdıqda köksünü ötürür, ax-uf eləyirdi.

Bu üzücü, cansıxıcı, tutqun günlər nə qədər davam edəcəkdi?! Aranın parlaq günəşi nə vaxtadək buludlar dalından çıxmayacaqdı?..

– Ay bala, ay bala!.. Sabah keçəl başlara qurd düşəcək, ey!..

Bir səhər, hələ dan yeri sökülməmişdən nənəsinin qapı ağzında belə qışqırdığını eşidən Zöhrə dik atılıb, yumruqlarilə gözlərini ovuşdurdu:

– Nə olub, ay nənə?

– Bir dur göyə bax!..

Yuxulu Zöhrə heç nə anlamadı.

– Göydə nə var, ay nənə?

– Ulduz görünür.

– Ulduz? Nə olsun ki?..

– Necə nə olsun, ay qız? Deyirəm belə sabah keçəl başlara qurd düşəcək.

Zöhrə çarpayıdan yerə atıldı, yalın ayaqlarilə döşəməni şappıldada-şappıldada yüyürüb, nənəsinin çiyni üstündən göyə baxdı. Lakin orada, zülmət kimi qara göydə gözünə heç nə dəymədi.

– Bəs hanı ulduz?

– Odur, bax, – deyə qarı əlini şimala doğru uzatdı. – Dan ulduzu!..

– Eh, ay nənə!.. – deyə Zöhrə narazılıqla dilləndi. – Bir dan ulduzu doğmaqla nə olsun? Bu yanlar ki, başdan-başa zülmətdir!

– Bizim yerdə dan ulduzu doğanda, qaydadır, hava açılar, bala! Ey, lap qədimdən belədir. Rəhmətlik baban uzaq yola-izə çıxanda həmişə durub, bax, o yana baxardı ki, görsün, özüynən bürüncək-filan götürsün, ya yox?

Zalxa qarı doğma yerin-yurdun təbiətinə doğrudan da bələd imiş.

Çox keçmədi ki, altına hava dolub qabarmış qara, nəhəng bir çadraya bənzəyən səma sanki görünməz bir əl ilə qəfildən parça-parça edildi. Kiçik-kiçik dəstələrə ayrılan buludlar parçalanmış çadranın hissələri kimi dağılıb hər yana səpələndi...

Günəş doğdu.

Kənddə dərhal bir canlanma, adamlarda bir ruh yüksəkliyi əmələ gəldi. Damlar, həyətlər, yollar, düzlər buğlandı, havanı boğucu bir rütubət iyi doldurdu. Arxacdan və sağın meydanından qalxan kəsif qoxu az qala yarım kilometrlikdən adamları vurdu. Sarı Çaparın evinə yenidən ayaq açandan bəri söyüd şivindən hörülmüş hasarın içindən yenə də könülsüz-könülsüz çıxmağa başlayan Lətifə, yaylıqla ağız-burnunu tutaraq "u-u-u" – deyə mızıldanıb çiyinlərini əsdirdi. Bu cür kəsif qoxuya çoxdan alışmış sağınçılar isə havanın açılmasından sevinmiş halda işə girişdilər.

Lakin sağınçıların sevinci uzun sürmədi.

Aran düzünün təbiətinə Zalxa qarıdan heç də az bələd olmayan İsmət xala yağış kəsəndən bir neçə gün sonra başlayan şiddətli bürküdən ürəyi sıxılmış halda şalını başından çəkib şikayətləndi:

– Dad yağanlıqdan sonra başlayan istinin əlindən, dad! Yaxşıca deyiblər ki, yaşmaq altdan çıxan dil, bulud altdan çıxan gün!

Doğrudan da, birdən-birə sanki bütün Aran düzünü nəhəng bir körük ağzına qoydular. Elə bil cəhənnəm istisi başlandı ki, yumurtanı gün altına qoysaydın, bir su içimindəcə bişərdi.

Çəpərədə buzovlar başlarını bir-birinin qarnının altına soxub ləhləşdilər. İnəklər sanki suya batıb çıxdı.

– Özcüyəzimiz də qırılacağıq, heyvan da!.. – deyə kimsə şikayətləndi. Bir başqası onun səsinə səs verdi:

– Bax, Kərim dayının dediyi yerinə gəldi.

Onunla yanaşı inək sağan qara kalağayılı, ağ bənizli Yasəmən:

– Qoy indi bizim müdirin başından basanlar cavab versinlər! – deyə hirslə əlini vedrəyə vurdu. – Bax, bu qabın boş qalmağına cavab versinlər.

– Gecədələnoğlu cavab versin!

– Sarı, Sarı... Döşünə döyüb "mən, mən" deyən zootexnikimiz!.. Gecədələnoğlunu müdafiə eləyən zootexnikimiz!..

– Onların dalında durub, bizim ağzımıza əski tıxan o yekə Şahnabad!..

– Yanını enlədən o nənəm-nəhrə Şahgəldiyeva!.. Qoy bax burda, bu günün altında o beş pudluq qıçlarını qatlayıb inək sağsın, görüm necə sağır! Görüm, o saatca partlamaya düşür, ya yox?

– Çaparı, Çaparı! – Gecədələnoğlunu gətirin bura! Arvad arxası olan kolxoz sədrini!.. Başına ləçək bağlayın, döşünə önlük, əlinə də vedrə verin, otursun burda, sağsın...

– O yekə əllərini qarnının üstdən qaldırıb vedrə qulpundan tutsun, Veysəlin qabağında növbəyə dursun, görsün gün təpəsindən vurub dırnağından necə çıxır!..

Sağın meydanında müxtəlif – nazik, yoğun, cingiltili, xırıltılı səslər bir-birinə qarışdı, əllər-qollar oynadı...

Günlər keçdikcə, bürkü gücləndikcə, sağınçıların şikayətləri, etiraz səsləri də gücləndi. Bir dəfə sağın meydanında yenə qarğaşalıq başlayanda, al-əlvan geyimli qız-gəlinlər içində çəhrayı qoftalı birisi də göründü. O, yoldan gəlmişdi. Buradakı qarğaşalığı gördükdə, adəti üzrə, sakitcə dayanıb dinlədi, sonra irəli yeridi, qızışıb-kükrəyən sağınçılara nə isə dedi: "Nənəm-nəhrə Şahgəldiyeva!" – deyə yoğun səslə qışqıran, ancaq özü bədəncə Şahgəldiyevadan heç də geri qalmayan, ətli yanaqlarından qan daman, üst dodağının kənarlarında seyrək, bozumtul bığları olan sağınçı, gün altında yanıb qaralmış buğumlu biləklərini belinə dayayıb çəhrayı qoftalıya sarı gəldi:

– Sən necə dedin, qızım?

– Mən deyirəm bu sözləri gedib sədrin özünə demək lazımdır.

– Daha neçə kərə demək olar, qızım?

– Dönə-dönə demək lazımdır, Hürü bacı! İndiyəcən az-çox ümidimiz vardı, bir danışanda, bir də kiriyirdik. İndi daha ümid

deyilən şey qalmayıb. Göydən od ələnir. Daha kiriyə bilmərik! – deyə Zöhrə onda son zamanlarda müşahidə olunan kəskin və qəti dillə bildirdi. – Gedək!..

– Xeyir, daha heççə yana gedən deyiləm, xanım qız. Bir dəfə dalına salıb apardın bizi heyətə, çığırıb-bağırmaqdan başıpapaqlı yanında abır-həyamız da qalmadı, – deyə "Nənəm-nəhrə" birdən, heç gözlənilmədən "abır-həyadan" danışdı.

Bu dul qadının son vaxtlar ərə getmək xəyalına düşdüyünü və buna görə də özünü "başıpapaqlılara" bəyəndirmək arzusilə, necə deyərlər, özü öz ipini çəkməyə çalışdığını, tez-tez "abır-həyadan" dəm vurduğunu bilən İsmət xala:

– Ay qız, nə abır-həyabazlığıdır? – deyə altdan yuxarı "Nənəm-nəhrəyə" çığırdı. – Var-dövlət əldən çıxandan sonra nə abır-həya?! Müdiriniz yorğan-döşəyə düşüb, siz də ağzınıza su alıb oturacaqsınız?.. Gedək, bala, Zöhrə, ağlına qurban olum, düzcə deyirsən, gedək!.. Özü də daha utanmağı-zadı bir yana qoy. O Gecədələnoğluna elə sözlər de ki, adını da yadından çıxartsın. Nədən çəkinirsən ey, dalında dağ kimi Yunusun var, o boyda komsomolun var! Kərim dayının əli daş altdadısa da, İsmət xalan ölməyib ha! – İsmət xala "Nənəm-nəhrəyə" əyri-əyri baxaraq əlavə etdi: – Daha bıçağın sümüyə dayanan yeridir! Heç kim bizi bu cırhacırda saxlaya bilməz!

– Lap fələk yerə ensə də saxlaya bilməz!

– Gecədələnoğlunun arxasında min-min Şahgəldiyeva, Xangəldiyeva dursa da saxlaya bilməz! – deyə sağınçılar yenə səs-səsə verdilər.

Şikayətli, həyəcanlı səslər bütün yol uzunu kəsmədi, kəndin küçələrinə yayıldı, yenicə işdən qayıdan biçinçiləri dönüb bu səmtə baxmağa, yol kənarında, kölgəlikdə "qığmara" oynayan uşaqları başlarını qaldırmağa məcbur etdi. Nəhayət, bu səslər idarənin divarları arasında eşidilməz oldu...

Uzunsov skamyanın üstündə, böyrünü taxtaya söykəyib yatan kök xidmətçi qadın hövlnak oyandı, sağınçılara təəccüblə baxdı, onların sədri görmək istədiklərini bildikdə isə əlini kabinetin qapısından asılmış qıfıla uzadıb, yenə böyrünü taxtaya verdi.

Yenə səs-küy küçəni doldurdu. Al-əlvan geyimli dəstə çaxnaşa-çaxnaşa, açılıb bükülə-bükülə cökə ağaclarının arasına doldu...

– Sən bu Sərkərlilərin qışqır-bağırına, hədə-hərbəsinə heç də fikir vermə. Dədə-babadan köçərilik havasilə oturub-duran adamlardır. Məni qınama, sənə bir söz deyim: o adamların dərdi mal-heyvan, var-dövlət dərdi deyil. Özlərinin azarlarına qalırlar ki, vay aman, aranın bu istisində qalsalar halları nə olacaq? Bax, elə bundan ötrücə, Yunus kişidən tutmuş o Zöhrə deyilən ana uşağını da qızışdırıb salıblar üstümə ki, biri partiyanın, biri də komsomolun adilə danışsa, bəlkə mənə zor eləyə bilə... Sən daha bizim evin iç adamı olub gedibsən, bala, mən səndən heç nə gizlədən deyiləm. Bax, Sərkərlilər, o Papaqçılar ki var, onlar elə başdan-binədən bizim ocaqlıqla öcdürlər. Sənin müdirin Kərim, heç bilirsən, mənim atam Murtuzun başına nə oyunlar açardı?! Nə var-nə var qapı-bacamızda bir-iki qotur qoyun-keçimiz vardı. Lüt uşağı lütün gözü götürmürdü. Onlardan olsaydı, məni sədrliyə heç yaxın da qoymazdılar. Sağ olsun bəzi vicdanlı rəhbər yoldaşlar. Adam gərək haqq danışsın, bildirki seçkidə Şahgəldiyeva yoldaş düz bir sutka o idarənin qabağında ayaq üstə dayandı, demaqoqluq eləyənlərin ağzından vurdu ki, biz yuxarıda Çapar yoldaşın seçilməyinin tərəfdarıyıq. Arvad olsa da tutarlı adamdır. Burda o Yunus, Kərim-filan o yan-bu yan eləyəndə elə həkkəli-həkkəli çığırdı ki, vallahi, o cırtdan Sərkəroğlu büzüşüb lap bir qırıq oldu. Bilirəm, yenə deyəcəksən, nə bilim, Sərkəroğlu belə işlək adamdır-filandır. Ancaq özün görürsən də, nə qədər işlək, qoçaq olsa da, sənin kimi bu böyüklükdə bir yenilik yaratmaq istəyən cavanın əl-ayağına çidardır. Hə-ə... Bu qədər sənin baş-beynini tökməkdə məqsədim odur ki, sən o hədə-hərbələrdən heç də çəkinib eləmə. Bu işi başa çatdırsaq, vallahi, adımız-sanımız bu böyüklükdə rayona sığmayacaq!

Çapar iri əllərini stolun üstündən çəkib, arxasını stulun söykənəcəyinə dayadı, yerində yayxanıb gözlərini tavanda gəzdirdi. Xoş bir xəyala qapılmış kimi, gözləri süzüldü, qalın, ətli dodaqları aralandı:

– Hə, düz deyirəm, ya yox, yoldaş zootexnik?

Stoldan xeyli aralı, divar dibində oturmuş Sarı çiyinlərini çəkdi:

– Bilmirəm axı bunları niyə deyirsiniz, yoldaş sədr? Mən axı...

– Məncə biz daha bir-birimizdən uzaq adamlar deyilik, yoldaş zootexnik, – deyə Çapar onun sözünü kəsdi. – Bu “yoldaş” sözü bir az rəsmiyyət gətirir aralığa, yoldaş zootexnik, burax bunu. Adım var, adımı de, böyrünü də əmidən, dayıdan hər nə istəyirsən yapışdır.

– Bəs siz özünüz niyə “yoldaş” deyirsiniz?

– Mən?.. – Çapar xoşhal-xoşhal qımışdı. – Mən sənə bizim qızın dililə elə deyirəm də. Hə, sözünün dalını buyur görək.

– Dediyim odur ki, yoldaş sədr...

– Yenə “yoldaş”?

– Mən beynimə düşən sözü çox gec tərgidirəm, yoldaş sədr.

Çapar boynunun dalını stulun söykənəcəyinə dirəyərək, Şahgəldiyevanı təqlid eləyirmiş kimi, ağzını göyə tutub ucadan qəhqəhə çəkdi.

– Yaxşı, yaxşı, sözünü buyur.

– Sözüm odur ki... Qoydunuz ki?.. Lap unutdum... Hə, axı siz mənə niyə hər dəfə bu qədər nəsihət eləyirsiniz? Mən tüpürdüyümü yalayan adam deyiləm!

– Bax, varam sənin bu inadına!.. Yalama! Heç bir vaxt yalama, yoldaş zootexnik! Elə ki, başlayıbsan işə gətirib-gətirib canını boğazına yığıbsan, daha niyə də hər adamın hədə-hərbəsindən qorxub geri çəkiləsən! Özün bilirsən ki, mən bir az ağır adamam. Çoxu buna tənbəllik, ya nə bilim, fəaliyyətsizlik adı qoyur. Nə deyirlər-desinlər vecimə deyil. Sənin pəhlivan canın sağ olsun!

Sarı fikirli-fikirli yerə baxdı.

– Ancaq tələsmək lazımdır, yoldaş sədr!

– Bax, bu xasiyyətinə də varam, yoldaş zootexnik. Mən, özün bilirsən, bu yağışdan sonra biçindən göz aça bilmirəm. Sünbül tökülür. MTS də vur-tut bir kombayn verib. Axırda əlacım kəsildi, ot biçinindəkiləri də taxıla yollandım. Qoy Yunus kişi öz qolbəyilərilə bərabər kərənti götürüb düşsün Aran düzünün canına...

– Yunus kişi düz min iki yüz əlli ton silos hazırlamalıdır.

– Necə bəyəm? Hazırlaya bilməz?

– Briqadanın biçinçilərini taxıla yollayanda necə hazırlayar?

– Bəs onda töylələrdəki adamların ordan çəkim deyirsən?

– Xeyr, xeyr, yoldaş sədr! – deyə Sarı ehtiyatlandı. – Elə də şey olar? Yağış kəsəndən bəri töylənin tək bircəciyinin içini birtəhər nizamlayıblar. Qabaqda hələ beş töylə durur.

Çapar diqqətlə Sarının üzünə baxdı və birdən:

– Əşşi, sən lap qorxdun ki! – deyə yenə peysərini stulun söykənəcəyinə dayayaraq, ağzını tavana tutub güldü. – Qorxma, yoldaş zootexnik, çəkmərəm ordan adamı, çəkmərəm. Burda ad-san məsələsi var. Sədrlik, zootexniklik məsələsi var, ə! O töylələr tikiləndən sonra min bir Sərkəroğlu bir o qədər də Yunus-munus yığışsın, Çapar dayını yenə də stoldan qoparda bilməz! – Çapar pəncərədən hasar boyunca cərgələnən yaşıl meyvə ağaclarına, bu ağacların kölgəsində düzülmüş, qarşısında bulud kimi arı qaynaşan yeşiklərə, saysız-hesabsız ləklərə, qarğıdalı yığılmış ot tayası boyda səbətə, suyu günəşin altında bərq vuran hovuza, sağ yanda hasarın dibindəki toyuq hininə və iri mal töyləsinə göz gəzdirib stulda daha rahat yayxandı. – Hə, qaldı ki, yemçilik briqadası... O barədə də heç narahat olma, yoldaş zootexnik. Yunus kişinin o qolbəyiləri gündüzlər qoy kərənti hərləsinlər, axşamlar da qoy Sərkəroğlunun baldızı oğlu kimiləri küncdə-bucaqda da eşqbazlıq eləsinlər, yemdoğrayan maşını işlətsinlər...

Çaparın son sözlərini eşitdikdə Sarının çöhrəsi bulud kimi tutuldu. Bu sözlərdən sonra o, Çaparın idarə heyətində: "Bu körpəcə komsomol qız Sərkəroğlunun evinə yamanca meyl salıb", – dediyini, üstəlik də kənd arasında haradansa yenidən yayılmağa başlamış qanqaraldıcı söhbətləri xatırladı. Başını sinəsinə əydi, qəzəblə stolun böyürlərindən tutub sıxdı. Onun güclü biləklərinin damarları şişib göyərdi. Çapar isə zootexnikin halında əmələ gətirdiyi dəyişiklikdən xəbərsiz imiş kimi, eyni məmnun görkəmlə hasarın içini seyr edirdi. Əlləri isə, adəti üzrə, yenə qarnının üstündə gəzirdi. Aradabir o, gözlərini pəncərədən çəkdi. Sarıya gözucu bir nəzər saldı.

Birdən Çapar dönüb zootexnikə yenə nə isə demək istəyirdi ki, qəfildən pilləkəndə qopan gurultu onun sözünü ağzında qoydu.

– Bu nədir belə? – deyə Çapar dikəldi. Qapı taqqıltı ilə açıldı. Bir-birinin əlinə-ayağına dolaşa-dolaşa hay-küylə içəriyə doluşub, ortalıqdakı stulları taqqıldada-taqqıldada, gurultu sala-sala onun üstünə yeriyən arvad yığınını gördükdə Çaparın gözləri təəccüblə böyüdü. O dik atıldı.

– Bu nədir? Bu nə həngamədir belə?..

Sağınçılar çaxnaşa-çaxnaşa irəli addımlayıb stolun qarşısında dayandılar. Çapar göz gəzdirib qızı Lətifədən başqa ferma işçilərinin hamısını burada gördü. Artıq ona tanış olan sərt, hətta qəzəbli

baxışlardan məsələnin nə yerdə olduğunu anladı. Keçən dəfə idarə heyətindəki qələbəsindən sonra sədr əmin idi ki, daha heç kim onun rahatlığını poza bilməyəcək. İndi isə...

Sədr qəzəbləndi. Dəstənin önündə dayanmış Zöhrəyə qışqırdı:

– Nə var yenə? Niyə yığıb gətiribsən bunları? Nə istəyirsiniz yenə?..

– İstədiyimiz bircə şeydir, yoldaş sədr: köç!..

– Adama neçə kərə deyərlər ki, köç olmayacaq? Niyə qanmırsınız?! Balam, bu qədər də adamın canını boğazına yığarlar?!

– Canı boğaza yığan biz yox, siz özünüzsünüz! Bax, ona görə də gəlmişik deyək ki, biz köç istəyirik, vəssalam!

– Balam, özbaşınalıqdır, dərəbəylikdir, nədir?..

– Dərəbəylik olmasaydı, siz bizim axırımızı gətirib bu günə çıxartmazdınız. Lap düzcə deyirsiniz. Bizim bu kənddə siz əməllicə dərəbəylik salıbsınız. Özünüz də bu dərədə sədrlik yox, bəylik eləyirsiniz!

– Qız, ağzıyın sözünü bil ha! Son vaxtlar sən çox cızığından çıxıbsan!.. O Sərkəroğlunun qapısına dadanandan bəri dil açıbsan sən. Məsləhət görürəm bir az dilini gödək eləyəsən. Bir də ki, Şahgəldiyeva kimi bir adamın kabinetdən qovduğu müvəqqəti bir müdirin tovlamasına uymayasan.

Kərim dayının haqqında belə nalayiq söz eşidən Zöhrə:

– Mən heç kimin tovlamasıyla oturub-durmuram, – deyə səsini daha da ucaltdı: – Mən, bax, bu qızların, komsomol təşkilatının adından danışıram. Qaldı ki, o müvəqqətilik!.. Zöhrə onun həyatına bir acılıq qatmış bu yoğun adamın üzünə kinli-kinli baxıb, dilinin ucuna gəlmiş sözləri geri qaytarmadı: – Müvəqqəti sən özünsən!

– Qız, sənə deyirəm cızığından çıxma ha!..

Bu yerdə İsmət xala da özünü saxlaya bilməyib:

– Cızığından çıxan sən özcüyəzinsən, Çapar! – deyə balaca, arıq əlini sədrin döşünə tuşladı. – Sərkəroğlunun başı yastığa əyilib deyin nə tezcə “müvəqqəti” qoydun adını?!

Elə İsmət xalanın dillənməyinə bənd imiş kimi, dəstə yenidən çaxnaşdı, yırğalandı, yenidən səs-küy qaldırdı:

– Biz Kərim dayının bir dırnağını yüz sədrə dəyişmərik!

– Cızıq-mızıq eləyib Zöhrəyə hədə-hərbə gəlmə!

– Ondansa sən bizə cavab verginən!

– Var-dövlət bizimdir, biz də onu bu bürküdə qırmaq istəmirik!

– Sabahı günü olan-qalanımızı ödəyə verib, quru taxt üstündə oturmaq istəmirik!

– Ferma alt-üst olandan sonra, bax, yaxan bu əllərdə qalar, Çapar! – deyə İsmət xala yenə öz balaca, arıq əllərini oynatdı. – Heyvan bir səhər örüşə gedir, bir də gün əyiləndən sonra. Qalan vaxtları çayın qırağında yatışır, qarnı dalına yapışır. Sən belə nə haqnan bizim başımıza bu oyunu gətirirsən, Çapar?!

– Yoxsa, bax, öz başınaca oyun gələr! – deyə sağım meydanında "abır-həyadan" danışan "nənəm-nəhrə" də öz yoğun səsilə otağı doldurdu. – Üzü suluykən hardan istəyirsən izin al, arabadan, maşından verginən bizə!

Çapar sağ ayağını götürüb, sol ayağını yerə dirədi, qarşısında inadla dayanmış dəstəni bir daha süzüb: "Yox, deyəsən bu dəfə xına o xınadan deyil!" – deyə fikirləşdi, naəlac qalmış kimi köksünü ötürüb, bayaqdan bəri ağdan bir-qaradan iki dillənməyən, nədənsə Zöhrəyə heyrətlə baxa-baxa, heykəl kimi hərəkətsiz qalmış Sarıya nəzər saldı. Sanki bununla dedi: "Mənim yaxamı bu arvad yığınından qurtar, Sarı! Bu əl-qol oynadan İsmətin, bu yoğun səsli bığlı arvadın, bu təzə dil açmış komsomol qızın əlindən qurtar. Sən ki, həmişə öz dəlillərinlə bunları kiridə bilərdin, indi özün niyə kiriyirsən?" – Çaparın gözləri belə olmasa da, buna bənzər, bəlkə bundan daha çox sözlər dedi. Lakin Sarı heç səsini də çıxarmadı. Heç yerindən də qımıldanmadı. O, heyrət içində quruyub qalmışdı. Sağınçılar Çaparı yenidən sıxma-boğmaya salıb, yenidən divara qısnamağa başladılar. Onlar, sanki öz tərəflərindən vəkil elədikləri Zöhrənin danışmağına belə imkan vermədən, qat-qarışıq, anlaşılmaz səs-küylə otağı doldurdular. Xüsusilə "nənəm-nəhrə" sağın meydanında İsmət xala ilə Zöhrənin danlağına məruz qaldığı üçün, öz yoldaşlarının etimadını qazanmaq istəyirmiş kimi, yumruğunu stola döyüb pəncərə şüşələrini cingildətdi. Çapar bu hərbə-zorbadan daha da qəzəblənib:

– Bu dəqiqə itilin gözümün qabağından, cin yığnağı!.. – deyə var səsilə bağırmağa başladıqda isə buranı bir hərcmərclik götürdü. Aradabir Çapar artıq ricaedici, yalvarıcı ifadə ilə deyil, hirsli-hirsli zootexnikə baxdısa da, Sarı yenə də eyni vəziyyətdə, gözləri heyrətdən parıldaya-parıldaya yerindəcə donmuş kimi qaldı. Qəribə

idi, o, nəyə heyrət edirdi? Yoxsa “qonşu qızında” gördüyü bu dəyişiklik onu heyrətə salırdı? Bəli, həqiqət belə idi. Kim təsəvvür edə bilərdi ki, o yumşaq qəlbli, ağırın-yüngülün yerini gözləyən Sarı bir az sərt danışanda dərhal iri gözləri yaşla dolan “qonşu qızı” dönüb birdən-birə belə “qaraqışqırıqçı” olacaq, utanmadan, çəkinmədən, Çapar yaşda bir kişi ilə qabaq-qabağa dayanıb döşləşəcək? Buna, əlbəttə, hamıdan əvvəl Sarı inanmazdı. O, kənd qızları arasında Zöhrəni ilk dəfə görərkən, bu qızın gözəlliyi ilə bərabər, həm də onun bir qədər sakitliyini, ismətini bəyənmişdi. Sarı ictimaiyyətlə olduğu kimi, ailədə də bir sözünün iki olmasını istəyən adam deyildi. Buna görə də o, “Engels” qızları arasında təbii olaraq, Zöhrə xasiyyətdə bir qızı seçməli idi. Lakin insan nə qədər mürəkkəb məxluq imiş! Bu Zöhrə, Sarının seçib bəyəndiyi Zöhrədən nə qədər fərqli görünürdü! O, saçları üzünə dağılmış halda, yanaqlarından tər süzülə-süzülə, əlini silkələyə-silkələyə: “Köç!.. Köç!..” – deyə qışqırırdı. Sarı bu qızın belə dəyişməsinə şəxsən özünün və özünə yaxın adamların səbəb olduğunu heç ağlına gətirmədən: “Adamı tanımaq olmazmış! Sən bir bunun səsinə bax, əl-qoluna, təhər-tövrünə bax!” – deyə fikirləşir və eyni heyrət ifadəsilə Zöhrənin pörtüb tərə qərq olmuş çöhrəsinə baxırdı. “Adamı tanımaq olmazmış!..” – deyə o, eyni fikri təkrar-təkrar beynində dolandırırdı. Kərim dayının danlağından, nəsihətindən sonra tərəddüdlü bir vəziyyətdə olsa da, papaqçıların astanasına yenidən qədəm basarkən o, hər cür şübhəni, bəd fikri beynindən atmağa, özünə bir inam hissi aşılamağa çalışmışdı. Bircə gün sonra kənd arasında yenidən dedi-qodu eşitdikdə, bəzi adamların istehzalı baxışlarını gördükdə, xüsusən arabaçı ilə yolda qarşılaşdıqdan sonra, Sarı təkrarən pis düşüncələrə qapılsa da, gözləri Zöhrənin qaynar gözlərinə sataşdıqda, adəti üzrə, özünü sındırmamağa, saymazyana bir görkəmlə durmağa çalışsa da, qızın gözəlliyi qarşısında titrəyən ürəyini sakitləşdirə bilmirdi. İndi Zöhrədə bu gözlənilməz hala təsadüf etdikdə isə onun ürəyi titrəmək, çırpınmaq əvəzinə sanki qəfildən gücdən düşüb sustaldı. Sarının alnını soyuq tər basdı. Bu son əlamət – tər basmaq isə tamam başqa bir səbəbdən idi; onu bu hala salan Zöhrəyə: “Heyvan düzdə qırılacaq, əlac köçə qalıb”, – deyə ucalan nidaları və sağınçı qız-gəlinlərin bu nidalara qüvvət verən inadlı səsləri oldu. Bu nə demək idi? Birdən bu çəhrayı qoftalı qız Sarının bütün

əməllərini alt-üst etsə, komsomol təşkilatındakı qız-gəlinlərlə də kifayətlənməyib, bu “nənəm-nəhrədən” tutmuş bütün sağınçıları arxasınca gətirməklə Çaparı susdura bilsə, təşəbbüskar oğlanın adı raykom katibi Şahgəldiyeva tərəfindən hörmətlə çəkildiyi bir vaxtda, həmin Şahgəldiyevanın bu adla yanaşı “bacarmadı” deməsinə səbəb olsa, Sarı belə biabırçılığa necə dözə bilər? Heç cür!.. Heç cür dözə bilməz! O, hətta “Engels”dən baş götürüb gedər, bir daha geriyə üz döndərməz. Bu səbəbdəndi ki, Sarı Çaparın üçüncü dəfə hirsli-hirsli ona baxıb, nəzərlərilə: “Niyə səsini içinə salıbsan?” – deməsini gözləmədən, yerindən dillənib hamının diqqətini özünə cəlb etdi:

– Demək siz mütləq köç istəyirsiniz?

Sağınçılar elə buna bənd imiş kimi, indi də zootexnikin üstünə düşdülər:

– Bəli, bəli, mütləq!..

Sarı gözlənilməz bir cavab verdi:

– Yaxşı, daha əlac nədir, qoy siz deyən olsun, – dedi. Kürəklərini divara söykəyərək üstdən aşağı sağınçıları süzdü və təkrar etdi: – Əlac nədir? Olsun.

Sanki nəhəng, gurultulu bir şəlalənin suyu qurudu; sağınçılar da, Çapar da səslərini xırp kəsib yerlərində qurudular. İndi də Zöhrənin heyrət etmək növbəsi çatdı. Qız elə ilk dəqiqədən Sarıya mübahisəyə girişməyin əbəs olduğunu, inadkar zootexniki onsuz da öz fikrindən daşındıra bilməyəcəyini düşünüb, birbaşa sədrə müraciət etmişdi. Lakin... Zöhrə qulaqlarına inanmadı. Təəccüblə yoldaşlarına, yoldaşları da eyni ifadə ilə ona baxdılar. Sükut çökdü. Elə bir sükut ki, balkona çıxıb, qrafindən su içən Çaparın boğazının qurtultusu eşidildi.

Səbirsizlik edən, sükutu birinci pozan yenə İsmət xala oldu. O, şübhəli bir ümidlə Sarıya yaxınlaşdı:

– Yəni sən doğrudan razısan?

– Mənim ayrı əlacım yoxdur.

– Demək köçürük?

– Bəli.

– Nə vaxt?

– Lap günü sabah!

İsmət xalanın xırdaca gözləri sevincdən geniş açıldı. O, geriyə dönmək, “di nə boy-boya verib gözünüzü döyürsünüz, eşitmirsinizmi,

axır ki, bu tərs oğlan da ağıla gəldi!" – deyə sağınçılara qışqırmaq istədi, elə bu an Sarı qımışıb dişlərini ağartdı.

– Ancaq yaylağa yox, töyləyə, İsmət xala!.. Töyləyə köç!..

– Nə, nə?! – İsmət xala çənəsinin altından güclü bir zərbə almış kimi başını dik atdı. Sarı isə yenə kürəklərini divardan ayırmadan, adəti üzrə şəstini sındırmadan, arxayınca cavab verdi:

– Töyləyə, İsmət xala... Ancaq belə! Töylənin biri hazırdır. Sınıxan, təntiyən heyvanları əvvəlcə...

– Ədə, sən bizi ələ salırsan?! – Bir töyləylə bu böyük dərdə dərman olarmı? – Sən mənim kimi, ana yerində ağbirçək arvadı oyuncaq eləyib əlində oynadırsan?.. – Sən demə İsmət xala hərdən Kərim dayıdan da betər əsəbiləşirmiş. – Qurumsaq!.. – deyə o, çığırdı.

Bu vaxt sağınçılardan hansısa:

– Ay qız, bu sədr necə oldu? – dedikdə, bütün dəstə dönüb arxaya baxdı. "Nənəm-nəhrə" abı rəngli, qırçınlı donunun enli ətəklərini yellədə-yellədə qapıya yönəldi. "Dilindən "hə" almamış heççə yana buraxmayın onu!" – deyə İsmət xala da qapıya yönələk istəyirdi ki, qəfildən, heç gözlənilmədən, "nənəm-nəhrə" gur səslə qaqqıldadı:

– Ay qız, əlimizdən qaçır, əlimizdən qaçır...

Sınıq-salxaq "Moskviç" arxasından tüstü buraxaraq yerindən tərpəndi.

– Ey, ey!.. – deyə pilləkənlə aşağı axışan sağınçılar əllərini qaldırıb çağırdılarsa da maşın dayanmadı. Hasarın darvazasından çıxıb sürətini artırdı, tezliklə körpüdən keçib MTS yoluna buruldu və toz-duman arasında gözdən itdi...

## 21

Bu hadisədən heç bir saat keçməmişdi ki, idarədə süpürgəçilik eləyən gödək, kök qadın küçədə top kimi yumalana-yumalana əvvəlcə Papaqçıların, sonra isə Sərkəroğlunun evinə yüyürdü. Kərim dayının yatağının dövrəsinə toplaşmış ferma işçiləri arasında Zöhrəni eşiyə səslədi, nəfəsi təngimiş halda:

– Səni telefona çağırırlar, – dedi.

Zöhrə qaşlarını çatıb soruşdu:

– Kim çağırır?
– Bilmirəm, qadan alım... Deyəsən, böyük yerdəndi.
– Necə yəni böyük yerdən, ay arvad? Yəni hardan?
– Nə bilim, ağrın ürəyimə... Vallah, telefonda elə bağırdı ki, az qaldı qulağım partlasın. Bu dəqiqə o komsomol qızı tap dedi. Fuff... Belə də bürkü olarmı, a qadan alım?!

Təkrar “fuf” eləyib üzündən sel kimi axan təri silə-silə töyşüyən süpürgəçini gözləmədən Zöhrə birnəfəsə idarəyə yüyürdü. Pillələri qalxıb sədrin kabinetinə girdi, divar dibində təkcə oturmuş Yunus kişiyə salam verməyi belə unudaraq, telefon aparatına doğru yönəldi.

Dəstəyin yerindən asılı durduğunu gördükdə Zöhrə dönüb təəccüblə partiya təşkilatçısına baxdı:
– Bəs məni telefona çağırmırdılar? Bunu kim asdı?
– Mən asdım, – deyə Yunus kişi ayağa durub qıza yaxınlaşdı.
– Niyə asdınız, Yunus dayı? Axı mənimlə danışmaq istəyən varmış.

Yunus kişi tələsmədən papiros çıxartdı, müştüyün ucu ilə bığının altını sığalladı və yalnız papirosu yandırıb sümürdükdən sonra:
– Danışmaq istəyən yenə danışar, – dedi, – hələlik gəl biz özümüz danışaq. Otur!

Zöhrə, partiya təşkilatçısının niyyətini başa düşmək istəyərək, onun həmişəkinin əksinə olaraq ciddi, bir qədər dalğın gözlərinin içinə baxdı.
– Otur, otur, – deyə Yunus kişi eyni sakitliklə, təmkinlə yeriyib qız üçün stul çəkdi. Zöhrə istər-istəməz əyləşdi və sual dolu gözlərini partiya təşkilatçısının üzünə tikdi. Yunus kişi isə bir-iki dəfə öskürüb papirosunu sümürdü, yenə müştüyün ucu ilə bığının altını sağa-sola sığalladı, yerə baxıb susdu. Deyəsən o, Zöhrəyə nə isə, ciddi bir söz demək istəyir, lakin söhbəti haradan başlayacağını bilmirdi.

Onsuz da ürəyində bir narahatlıq hiss edən Zöhrə uzun sükuta tab gətirmədi.
– Yaxşı, Yunus dayı, nə barədə danışmaq istəyirdiniz?
– Səncə nə ola bilər?

Zöhrə çətin seziləcək bir tərzdə çiyinlərini çəkdi:

– Nə bilim? Danışılmalı o qədər şey var ki.

– Məsələn?

– Məsələn, bax, bir saat bundan qabaq mən sağınçıları yığıb sədrin yanına getmişdim ki...

– Onunla dava eləyəsən, eləmi? – deyə Yunus kişi Zöhrənin sözünü kəsdi. – Axı sən onunla doğrudan da dava eləyibsən?

Zöhrə Yunus kişinin sifətində əmələ gələn canlanmadan hiss etdi ki, partiya təşkilatçısı onunla elə bu məsələ barədə danışmaq istəyirmiş. Onu da hiss etdi ki, sağınçıların hay-küyü Yunus kişinin xoşuna gəlməmişdi. Əslinə baxsan, sədrlə söhbətin böyük qalmaqala çevrilməsindən Zöhrənin özü də peşmançılıq çəkirdi. Lakin o, Çapar Gecədələnoğlu ilə nəzakətlə rəftar etməyin də tərəfdarı deyildi; əgər partiya təşkilatçısı bunu istəyirdisə çox səhv edirdi.

Zöhrə ayağa qalxdı.

– Mən davaya getməmişdim. Tələb etməyə getmişdim. Özü də təkcə yox, təşkilatın üzvlərilə...

Yunus kişinin gözləri bic-bic gülümsündü:

-Təşkilat nə deməkdir?

Zöhrənin yanaqları allandı.

– Mən təşkilatın nə olduğunu bilməsəydim, yoldaşlar məni seçməzdilər, – deyə o, heç özü də hiss etmədən, bəlkə də birinci dəfə Yunus kişiyə belə köntöy cavab verdi. Lakin Yunus kişinin mehriban, gülümsər çöhrəsinə baxan kimi, xəcalətindən başını sinəsinə endirdi. Onun geniş, hündür sinəsi körük kimi qalxıb endi.

– Təşkilat olan yerdə birlik var, güc var, qızım. Dava-dalaş, başı pozuqluq ancaq hərcmərclikdə olar... Mən yenə rayondaydım. Keçən dəfə mən onları bərk divara qısnamışdım. Bu dəfə də onlar mənimkini mənə verdilər... Pis işləyirik!.. Sən də, mən də!.. Aramızda əlbirlik azdır. Düzdürmü?

Onlar diqqətlə bir-birinə baxdılar. Zöhrə onun gözlərindəki dalğınlığın səbəbini anladı: “Görünür bərk sıxışdırıblar”, – deyə fikirləşdi.

Ortalığa bir dəqiqəlik gərgin sükut çökdü.

– Axşam saat onda təşkilatın bütün üzvlərini yığıb Sərkəroğlunun evinə gələrsən, biz də orada olacağıq, – deyə Yunus kişi tapşırdı. O, yenə nə isə demək istəyirdi ki, birdən telefon zəng vurdu.

Yunus kişi qalxıb dəstəyi götürdü. Zöhrə partiya təşkilatçısının elə ilk sözlərindən anladı ki, telefonda söhbət onun haqqında gedir.

– Bəli, burdadır, – deyə Yunus kişi nədənsə birdən-birə pərt olub, qaşqabaqlı halda, papirosu dişləri arasından buraxmadan cavab verdi. – Xeyr, lazım deyil, çox xahiş eləyirəm, lazım deyil... Mən özüm onunla bu saat söhbət eləyirəm. Artıq söz nəyə gərəkdir?.. Xeyr, xeyr, Çapar düz demir. İntizamsızlıq da, hay-küy də, hamısı el varı üçün ürəyi yanmasından doğur... Bəli, mən öz adamlarımızı beş barmağım kimi tanıyıram. Bu sözləri də inamla deyirəm!..

Dəstəkdə nə eşitdisə, qəfildən Yunus kişinin çöhrəsi daha da tutqunlaşdı. O, bir anlığa Zöhrənin üzünə baxdı, sonra tərəddüdlə dəstəyi ona uzatdı.

Zöhrə elə ilk sözdən Şahgəldiyevanın yoğun səsini tanıdı:

– Qız, sənsən?.. Oranın komsomolu, hə?.. Nədir sənin adın? Zöhrə? O, dərnəyə rəhbər qoyulan, Dan ulduzu deyilən sənsən də?.. Qız, sən orda nə özbaşınalıq açırsan? Arvad-uşağı başına yığıb niyə camaata rahatlıq verirsən?.. Sən orda rahat dolan, qız! Sağına bir oğlan, soluna da bir oğlan qoyub komsomolun adını batırdığın yetmir, hələ bir işləyənlərə də mane olursan?! Rahat dolan ha!..

Zöhrə gözləri böyümüş, dəhşətdən sarsılmış halda donub qaldı. Telefon dəstəyi onun əlindən düşüb taqqıltı ilə stolun üstünə dəydi. “Sağına bir oğlan, soluna bir oğlan?” Bu ağ yalan, bu iftira Şahgəldiyevanın qulağına necə çatmışdı? Bu şayiəni ona kim xəbər vermişdi?..

Yunus kişi nə isə soruşdu. Lakin Zöhrə heç nə eşitmədi. O, partiya təşkilatçısını intizar içində qoyub sürətlə kabinetdən çıxdı...

Yaxınlıqda mator səsi eşidildi. Zöhrə istər-istəməz başını qaldırıb baxdı. MTS-dən qayıdan “Moskviç”dən Çaparla bərabər qızı Lətifə də düşdü. O, budlarını yırğalaya-yırğalaya, çiyinlərini oynada-oynada yeriyib cökələrin arasında yox oluncayadək Zöhrə gözlərini ondan ayırmadı. Bu gözlərdən qəzəb və nifrət yağırdı. Eldən ar eləməsəydi Zöhrə elə bu saat o qızın dalınca gedər, heç nədən çəkinmədən onun saçlarını biləklərinə dolayıb yerə döşəyər, sürüyər, qəzəbi soyuyuncaya qədər sürüyərdi. Lakin belə bir hərəkətə yol vermək olmazdı. Bəs indi Zöhrə nə etsin? Həyasızcasına yayılan şayiəyə, iftiraya son qoymaq üçün, əlbəttə, bu saat heç nə et-

mək mümkün deyildi. Bəs fermanı hədələyən təhlükənin qarşısını necə almalı?..

Zöhrə kimsəsiz küçəyə göz gəzdirdi, nə edəcəyini bilmədən bir müddət hərəkətsiz dayandı. Onun sinəsi tez-tez qalxıb enir, gözləri ətrafda sanki nə isə axtarırdı. Birdən bu gözlər axşamın toranlığında bozaran ferma yoluna dikildi. Oradakı boşluq, kimsəsizlik ürəyə qəriblik hissi gətirirdi. Zöhrə öz doğma kəndində, doğrudan da, qəribsəyən kimi oldu. O, elə bu dəqiqə qapı-qapı düşüb qızları, gəlinləri çağırmaq, "gəlin gedək inəkləri yoxlayaq" demək, dostlarını, yaxın yoldaşlarını başına toplayıb nə isə bir iş görmək, başını bir şeylə qarışdırmaq istədi. Lakin fikrindən daşındı. Bu saat hamı işdən qayıtmışdır. Sağınçıların çoxunun əri, uşağı, qayğıları çəkilməli qoca qaynatası, qaynanası var. İndi hərə öz dərdi-azarı ilə məşğuldur. Qız-gəlinlər onsuz da çöldə-bayırda çox olurlar, hətta bəzən şikayət edirlər ki, evdə-eşikdə az olurlar. Yox, Zöhrə indi heç kimi narahat edə bilməz.

O, təkcə ferma yoluna üz qoydu, birbaşa arxaca getdi. Böyürlərini yerə verib bürküdə fısıldaşa-fısıldaşa yatışan inəklərin arasında gəzib-dolaşdı, ancaq bir neçə günün içində xeyli sınıxıb sahibəsinin ürəyinə qorxu salmış "Malyutkanı" tapa bilmədi.

– Malyutka, Malyutka... – deyə Zöhrə titrək səslə çağırdı. İnəkdən səs gəlmədi.

– Malyu-ut-ka-a... – Zöhrə təkrar çağırdı. Bu dəfə arxacın lap ucqarından çətin eşidilən, boğuq, xırıltılı, iniltiyə bənzər səs gəldi: "Mö-ö..."

Sağınçı, ürəkdən gələn bir nida ilə:

– Can, ca-an! – deyə yüyürüb özünü inəyinin yanına yetirdi. "Malyutka" sahibəsini tanıyıb imrəndi, başını onun dizlərinə sürtdü, əllərini iylədi. – Əlimdə heç nə gətirməmişəm, a Malyutka, – deyə sağınçı mehribanlıqla dilləndi. Bu dəqiqə o, hər şeyi unudaraq, yenə həmişəki mehriban, yumşaq təbiətli, incə ürəkli Zöhrə qayğıkeş sağınçı oldu. O, dodaqlarını ucundan nə isə pıçıldaya-pıçıldaya inəyin gözlərini sığalladı. "Malyutka" bərkdən fısıldayıb elə bil ki, köksünü ötürdü. Sanki o, öz sahibəsinə şikayətlənmək istəyirdi: "Məni niyə bu istidə saxlayırsan? Örüşə bir səhər gedirəm, bir də axşam. Ac qalıram. Məni Ukrayna düzlərindən ayırıb

gətirdiniz ki, burada sizə çoxlu süd verim, cins balalar verim, siz isə məni bu bürküdə öldürürsünüz". Zöhrə bir uşaq sadəlövlüyü ilə düşünərək, şübhə etmirdi ki, "Malyutkanın" dili olsaydı, ancaq belə deyər, yanıqlı-yanıqlı şikayətlənərdi...

Balaca "Malyutka" isə, anasının əksinə olaraq, Zöhrəni sevinclə qarşıladı. Buzov onu görən kimi çəpərədən çıxıb özünü Zöhrənin üstünə salmaq istədi. Atıldı, ancaq çıxa bilmədi, qılçası çəpərəyə ilişib yıxıldı. O, gözlərini geniş açıb yazıq-yazıq mələdi: "Mö-ö... Mö-ö..."

– Can-an!.. Ca-an!..

Zöhrə bu balacanın da gözlərini sığalladı. "Malyutkanın" qarnı tez-tez qalxıb düşürdü. İndi o, sahibəsinin üzünə maddım-maddım baxırdı. Zöhrə bu baxışlara öz bildiyi kimi məna verirdi: "Bax, istidir. Qarnım da doymayıb. Bax, ölərəm". "Ölmə, a bala "Malyutka", ölmə... mən bizim yerdə təzə nəsilsən. Ölmə, böyü, sənin də balan olsun, a bala "Malyutka", sənin balayın da balası olsun. Çoxalın, törəyin, lap çoxalın. Desinlər, bax, bu yeni cins "malyutkalar" bütün Aran düzünü götürüb... Yoxsa, sən ölsən, mən neyləræm?.. Bax, mənim taylarım gedib ali məktəblərdə oxuyurlar, kimisi həkim olur, kimisi mühəndis, kimisi alim... Mən isə ömrümügünümü sizin yolunuzda qoymuşam. Xalq hələ şirin yuxuda olanda, göylərin ulduzu sönməmişdən mən sizin yanınıza gəlirəm. Görürsənmi sizi nə çox istəyirəm, a "Malyutka"...

Zöhrə bu dilsiz heyvanları nə qədər sevdiyini elə indicə dərk edir və onları birinin başına bir iş gələcəyini düşündükcə az qalırdı ki, köyrəlsin...

– Heyvanı örüşə lap işıqlaşmamışdan çıxardın ki, gün qızanacan qarnına azdan-çoxdan bir şey getsin, – deyə o, köhnə töylələrin qabağında oturub kədərli-kədərli tütək çalan naxırçıya tapşırıq verdi. Naxırçı başını qaldırmadan dilxor halda mızıldandı:

– Heyvana yazığın gəlir, bizə yox. Allahın yuxusuna da həsrət qalmışıq.

Zöhrə haq söz qarşısında dillənə bilməyib geri qayıtdı. Toran get-gedə qatılaşır, ətrafı tünd qara bir pərdə bürüyürdü.

Uzaq üfüqdən ay baş qaldırdı, qaranlıq sanki titrədi, sükuta qərq olmuş düzlərə bir sarılıq çökdü. Tütəyin səsi sanki daha hüznlü bir

ahəng aldı, dalğa-dalğa yayılıb, ayın solğun işığında zəif-zəif parıldayan çayın həzin şırıltısına qarışdı. Təbiətdəki hüzn Zöhrəni daha da kədərləndirdi. "Adam necə də dara düşərmiş!" – deyə o, bəlkə də həyatında ilk dəfə, yaşamağın həm şərəfli, həm də çətin olduğunu etiraf etdi. Məktəbdə oxuduğu vaxtlarda o, qayğı nə olduğunu bilməzdi. Hətta dərs hazırlayanda da o qədər çətinlik çəkməzdi. Dünyada hər şey ona asan görünürdü. Lap ilk günlərdə fermaya ayaq basarkən də ona elə gəlirdi ki, buradakı qız-gəlinlərlə əl-ələ verib, heç bir çətinlik qarşısında aciz qalmadan çiyin-çiyinə işləyəcəkdir. Sarı ilə ərik ağacının altında sözsüz əhd-peyman bağlayarkən ona elə gəlirdi ki, bu əhd-peyman heç bir zaman pozulmayacaq, onlar heç vaxt bir-birindən aralı gəzməyəcəklər. Lakin o, nə qədər böyük səhv etmişdi! Zöhrə nəzərə almamışdır ki, həyatda Kərim dayı, Yunus kişi, İsmət xala kimi sadə, təmiz ürəkli qocalardan, onun dövrəsindəki qız-gəlinlər dəstəsindən başqa, Lətifə və Çapar kimi öz xeyirləri xatirinə başqasının üstünə çirkab atmağa hazır olan adamlar da var. Əvvəllər ona elə gəlirdi ki, həyatında belə adamlara rast gəlsə, onları çox asanlıqla camaat qabağında ifşa edə bilər. Lakin bu, heç də asan deyilmiş. Hətta çox çətin imiş. Budur, indi o, Şahnabad Şahgəldiyeva tərəfindən təhqir edilmişdi, təhlükənin qarşısını almaq üçün yeganə ümidi, köç barədə son ümidi puça çıxmışdı. Yunus kişi də köç məsələsinə yaxşı nəzərlə baxmır. Deyilənə görə o, Kərim dayını da bərk danlamışdı. O, özünəməxsus bir gümrahlıqla gecə-gündüz tikintinin ətrafında gəzib-dolaşır, gözünə sataşan boş adamların hamısını tikintiyə göndərir, tez-tez rayona gedir, taxta zavodunda, MTS-də olur. Yunus kişi ruhdan düşmək istəmir. Lakin Zöhrə vəziyyəti aydın görür. O görür ki, "Malyutka" hələ indidən korluq çəkir, bürküyə dözmür. Bəs on gündən, yarım aydan sonra nə olacaq? Tərs kimi Kərim dayının xəstəliyi də uzanır. Həkim qız deyir ki, qoca ciyərlərini soyuğa verib, həm də əsəbləri korlanıb.

Görəsən bütün bu işlərin axırı nə olacaq? Yunus kişi bu axşam camaatı nə üçün yığır? Görəsən bu yığıncağın bir xeyri dəyəcəkdirmi?

## 22

Yunus kişinin qoca və xəstə dostunun yanında çağırdığı yığıncaqla kənddə hamı maraqlandı. Ferma ilə əlaqəsi olmayan adamlar belə Sərkəroğlunun evinə axışdılar. Çöllərdə çox zaman ac-acına, at üstündə, gündə, küləkdə gəzməkdən arıqlayıb qapqara yanmış aqronom oğlandan tutmuş, biçindən sonra çarpayıya uzanıb azacıq da olsa dincəlməyə fürsət tapmayan briqadirlər də getdilər. Yalnız Sarı söyüd şivindən hörülmüş hündür hasarın içindən çıxmadı.

– Mən bilirəm, o bığlı yığıncağı niyə Sərkəroğlunun evinə salır, – deyə o, öz aləmində yozmağa başladı. – Camaatın gözündən pərdə asır ki, bəs, Sərkəroğlu xəstədir, yastıqdan başını qaldıra bilmir, ancaq onun sözünü eşitmək vacibdir. Əslindəsə onun məqsədi başqadır: o, məni yavaş-yavaş işdən aralamaq istəyir. Bilir ki, mən Sərkərlilərin evinə ayaq basmaram, ona görə yığıncağını da ora salır. Eybi yoxdur, vaxt gələr, bu da mənim əlimdə bir dəstəvuz olar...

Qapı ağzında dayanıb atasının deyintisinə qulaq asan Lətifə dedi:

– Gərək heç yoldaş zootexniki də buraxmayaydın, ay dədə. Yazıq bu gün axşamacan töylələrlə kəndin arasında həlak olub. İnşaat briqadiriylə min kərə dalaşıb ki, tez elə, qurtar. Sonra da minib maşına mal doktorunun dalınca düşüb, günün altında düz iki saat naxırın içində ayaq döyüb ki, görsün hazır olan töyləyə əvvəlcə hansı heyvanları köçürsün. Gün axşam olanda yazıq lap əldən-dildən düşmüşdü. Nahaq buraxdın onu, ay dədə.

Çapar qızını diqqətlə süzərək:

– Yaxşı, sən hardan bilirsən bunun hamısını? – deyə gözlənilmədən qımışdı. Lətifə isə elə bil ki, heç nə eşitmədi.

– Gedim çağırımmı onu, ay dədə?

Çapar pırpız qaşlarını gözlərinin üstünə endirib qalın alt dodağını salladı:

– Bir yerdə otur!

Lakin Lətifə beyninə düşmüş fikrindən əl çəkmək istəmədi. O fikirləşirdi ki, son vaxtlar olduğu kimi, bu yığıncaqda da Zöhrə ilə yoldaş zootexnikin arasında yeni bir inciklik baş verə bilər. İndi evə qapılıb oturmaq – bu incikliyə tamaşa etmək zövqündən məhrum olmaq deyildimi?

Lətifə evdən çıxmaq üçün bir bəhanə axtardı.

– Dədə, bəlkə mən gedim, hə?
– Hara gedəsən?
– Ora də... yığıncağa. Deyirəm birdən orda yoldaş zootexniki təkləyərlər, qərar çıxardarlar ki, köçək.
– Sənə deyirəm bir yerdə otur, qız! Qərarı min kərə çıxartmayacaqlar ki... Bir dəfə çıxartdılar, yuxarıdan burunlarına vurub qandırdılar ki, olmaz, vəssalam.
– Bəlkə indi təzəsini çıxartdılar, onda?
Çapar qabağındakı çay stəkanını kənara itələdi.
– Qız, niyə qoymursan ki, bir qurtum çayımızı rahat içib zəhərlənək? Sən nə vaxtdan belə ictimaiyyətçi olubsan? Heyətin başının böyüyü sənin dədəndir, o da oturub burda, deyir ki, baş tutan şey deyil, vəssalam. Onlar öz çıxmış gözlərilə görürlər ki, heyvan köç yolu gedəsi halda deyil. Bu yığıncaqda da başqa şeydən danışacaqlar. Aqronom deyir ki, yonca dəymədə körpə düşüb. İndi yoncanın əvəzində yaşıl konveerdir, nədir, o zəhrimar üçün göy ot biçmək lazımdır, qandınmı? Çay ver görüm!..
Lətifə mısmırığını sallayıb yerindən tərpənmədi. Küsəyən uşaqlar kimi, süni bir əda ilə dodaqlarını büzüb yerə baxdı. Çapar qızını son dərəcə dəymədüşər, ərköyün saxladığından narazılıq edirmiş kimi başını buladı, qalxıb özü çay süzdü. Bir qədər sonra sükutu pozdu:
– Nə oldu yenə burun-dodağını salladın? Nə dedim ki, sənə?
Lətifə yenə dodaqlarını büzülü halda mızıldandı:
– Niyə qoymursan gedim?
– Eh, bala yox, bəlasan, bəla!.. Di get ha, görüm orda nə ləzzət alacaqsan.
Lətifənin qaş-qabağı açıldı. Onun “nə ləzzət alacağını”, əlbəttə, atası bilməzdi. Bu saat qızının yaşadığı hisslərdən o, çox-çox uzaq idi. Lətifəni isə tamam başqa şeylər düşündürürdü: bu dəqiqə Sərkəroğlunun qapısına yüyürmək, yəqin ki, yenə nə barədəsə sözləri düz gətirməyən zootexniklə komsomol təşkilatçısına tamaşa eləmək, nəhayət, ürəkdən sevinmək, fürsət tapıb Dan ulduzunu bir daha sancmaq, sonra da yoldaş zootexniklə birgə cökələrin arasında qıvrıla-qıvrıla uzanan dar cığırla buraya, – evə qayıtmaq, bir əl-ayaq da satın alıb burada ona qulluq eləmək...

Lətifə pillələrin ikisini birdən atıla-atıla həyətə düşdü, darvazadan çıxıb toranı yaran gur işığa sarı yüyürdü. Bax, indicə gedib görəcək ki, yoldaş zootexnik orada, Sərkərlilərin evində cövlan edir, qara-qışqırıqçı qız-gəlinlərin başçısı, o tərifli Dan ulduzu isə bir küncə qısılıb başını soxmağa yer axtarır. Pəh, pəh, belə bir mənzərə Lətifənin damağını necə də çağ eləyər!

Lətifə yüyürdü, çatdı, içəridə yer darlıq elədiyindən qapının ağzına kutlaşmış adamları kobud hərəkətlə sağa-sola itələyib boğazını irəli uzatdı. Lakin... nə görsə yaxşı idi? Tamamilə başqa bir mənzərə!.. Onun təsəvvür etdiyi qalmaqal, dava-dalaş əvəzinə burada tam bir sakitlik hökm sürürdü. Hamı düşüncəli və qüssəli idi. Gözləri çuxura düşmüş, dodaqlarının qanı qaçmış Kərim dayı da, Sarı da, Zöhrə də, bir bucaqda dayanmış arabaçı da, hətta çox nadir hallarda sakit oturan İsmət xala da susurdular. Yalnız "nənəm-nəhrə" otaqdakı bürküyə tab gətirməyib önlüyünün ucu ilə pörtmüş üzünü yelləyə-yelləyə yanındakı kalağayılı qızın qulağına nə isə deyir, bir də ki, Veysəl gözlüyünün altından həmin qıza baxa-baxa yerində tərpənib stulu cırıldadırdı. Qalan adamların gözləri divar dibində oturmuş Yunus kişidə idi. Hiss olunurdu ki, onlar partiya təşkilatçısının nə isə deyəcəyini gözləyirdilər. Yunus kişi nə barədəsə düşünə-düşünə sakitcə oturub papiros çəkirdi. Bu burmabığ, gümrah, zarafatcıl kişidə bu gün qəribə bir dəyişiklik vardı. Yunus kişi camaat arasında nəinki zarafat etmir, hətta elə bil ki, danışmağa da kahallıq edir, nə barədəsə hey düşünürdü. O, yalnız papirosunu dibinəcən sümürüb, kötüyünü pəncərədən bayıra atdıqdan sonra sözə başladı:

– Bizim Zöhrə deyir Ukraynadan gətirilən cins inəklər də sınıxıblar. Zootexnik isə qəti bildirir ki, heç bir təhlükə yoxdur. Guya fermamızın işçiləri vahiməyə düşüblər. O, döşünə döyür ki, ali savadlı mütəxəssis olan yerdə qırğın olmaz... Mərdliyə, gücə, bacarığa inam yaxşı şeydir. Mənim mərd adamlardan xoşum gəlir. Mərdlik, inam olan yerdə iş də gedər. Ancaq mərdlik gəlib lovğalığa çevriləndə bir az işlər korlanır, yoldaş zootexnik. Bağışla, özün bilirsən ki, sözü açıq-açığına deməsəm mənim ürəyim partlayar. Elə bu xasiyyətimə görə bizim kənddə çoxlarının məndən xoşu gəlmir. Sən də o cümlədən. Demək mən bu dəfə də sözü üzünə deməklə bir şey itirmirəm. Lovğalıq eləyib şəraiti qiymət-

ləndirməmək daha böyük təhlükə əmələ gətirə bilər, yoldaş zootexnik. Bax, bizim ağsaqqalımız Kərimlə onun yetirməsi bu komsomol qız vəziyyətin ağırlığını həddindən çox şişirdib, hətta dövlətin qərarının əksinə çıxmaq, köç üçün izin almaq istəyirdilər. Hələ bizim bu qocaman müdir məndən tələb eləyirdi ki, mən raykomla danışım. Bakıya teleqram vurulsun, köçə izin alınsın. Bu, sən deyən kimi bir növ təşviş idi. Ancaq bu təşviş "Engels"in qızılı naxırına, el malına ürəyi yanmaqdan doğurdu, yoldaş zootexnik. Sənin şəraiti qiymətləndirməməyin, nöqsanları ört-basdır eləməyin isə başqa şeydən irəli gəlir. Elə deyilmi? – Yunus kişi əlini bığına çəkib qılınc kimi iti nəzərlərlə Sarını gözdən keçirdi. – Nə yaman tərləyirsən, yoldaş zootexnik. Deyəsən, sənə yaman istidir, o tərəfdən pəncərəni aç... Sən bizim söhbətimizi çox uzağa saldın. Mən ömrümdə belə bürküdə bu qədər uzun danışmamışdım. Keçək işə!

Yunus kişi bu son iki kəlməni qəti bir ifadə ilə deyib yenə papiros çıxartdı. İsmət xala ona doğru əyilərək:

– Ay Yunus, nə çox çəkirsən, – deyə pıçıldadı. – Başqalarına acıqlanırsan, özün paravoz təkin tüstülədirsən. Doktor kişinin yanında çəkməyi qadağan eləyib axı.

Kimsə dərindən nəfəsı aldı:

– Fuf! Bürküdən partladıq. Qurtarın də.

Bir neçə nəfər bu sözləri deyən adama əyri-əyri baxdısa, hamı ürəyində ona haq qazandırdı; doğrudan da çox bürkü idi. Başına yaylıq çəkib, alt köynəyində, çarpayının üstündə oturmuş Kərim dayı tər içində idi. Onun çiynində adyal vardı. İsmət xala fikirləşirdi ki, kişinin köynəyini dəyişdirmək lazımdır. Yoxsa, təri soyuyandan sonra, qoca yaş köynəkdə qalsa yenidən soyuqlaya bilər. İsmət xalanın özünün da paltarı elə bil suya batmışdı. Ancaq o, səbirlə yığıncağın nə nəticəyə gələcəyini gözləyirdi. Yunus kişidən və Zöhrədən qabaq danışan cavan kəndə gəldiyi az vaxtda zərif sifətinin cizgiləri kobudlaşmış, ömründə ilk dəfə şəhər şəraitindən ayrılıb Aran düzünün sərt təbiətinə birdən-birə düşdüyündən, gözəl çöhrəsində bir yorğunluq və qərib adamlara məxsus bir hüzn oxunan, bəstəboy aqronom demişdi ki, yemçilik briqadasının əkdiyi yoncanı ancaq yarım aydan sonra istifadəyə vermək olar. Yunus kişi boynuna almışdı ki, o, "yaşıl konveeri" yoncadan başlayacağına ümidli olub, bütün biçənəklərin yaz otunu biçdirmiş və taya

vurdurmuşdur. İnəklərə köy yem çatdırmaq üçün yeganə ümid Dərə deyilən uzaq biçənəyə idi. Lakin bəla burasında idi ki, Dərə dərəli-təpəli yerdi. Orada otbiçən maşın işlətmək olmazdı. Yunus kişi deyirdi ki, onun qolbəyiləri kərənti ilə silahlana bilərlər. Bu şərtlə ki, onların biçdikləri göy otu Dərədən daşıyan olsun. Axı qolbəyilərin çox yarısı tikintidə idi. Dərə uzaqlıqda bir yerdən gündə beş-altı araba otu kimlər daşıyacaqdı? Bax, söhbət bu yerdə qalmışdı. Sahə briqadirləri bir-birinin ardınca danışıb arpa biçinindən bir nəfər belə ayıra bilməyəcəklərini bildirdikdən sonra hamı çaş-baş qalmışdı. Yunus kişi "keçək işə" dedikdən sonra heç cınqırını çıxardan belə olmadı. İsmət xala ərinin asta-asta qalxıb-enən sinəsindən axan tərə baxıb köksünü ötürdü. Kərim dayı fikirli-fikirli yerə baxdı. Aqronom yaxası naxışlı ağ köynəyinin döşündən iki barmağı ilə tutub, bir neçə dəfə tez-tez qaldırıb salaraq bədənini sərinlətmək istədi. Zöhrə ətrafına göz gəzdirdi: "Camaat susur! Doğrudandamı heç bir tədbir tökmək mümkün deyil?" Kərim dayı narahatlıqla yerində tərpəndi, başını bulayıb İsmət xalanın məzəmmətinə əhəmiyyət vermədən yenə papirosunu sümürən Yunus kişiyə baxdı. Kərim dayının gözlərində qəribə bir ifadə vardı, elə bil o, bu cür dar ayaqda belə sakitliklə, təmkinlə oturub gözləyən dostunun səbrinə qibtə edir, hərdən də, deyəsən, ona hirslənirdi ki, "başqa vaxtlarda hamımızı danlaya bilirsən, hamımıza ağıl öyrətməyi bacarırsan, bəs indi niyə bir məsləhət görmürsən?"

Sükut çox uzun çəkdi. Orda-burda pıçıldaşanlar oldusa da, heç kim ümidverici bir söz demədi. Burada maraqlı bir şey görmək, eşitmək ümidilə gəlmiş Lətifə darıxıb eşiyə çıxdı. Kərim dayının cəmi üç il bundan əvvəl əkdiyi, indi qol-budaq atıb bütün həyəti bürümüş tut ağacının altına gəldi. İsmət xalanın südə-qatığa dadandırıb bəslədiyi, top kimi yupyumru boz küçük ağacın dibindən başını qaldırıb hünərli-hünərli mırıldandı. "Başın batsın!" – deyə Lətifə təpindi. Boz küçük elə buna bənd imiş kimi dik atıldı, sallaq qulaqlarını tərpədib qəzəbli-qəzəbli gözlərini bərəltdi. Lətifə qorxub geri çəkildi. "Küçükləri də özləri kimi hünərlidir", – deyə mızıldanıb içəri girdi və elə bu vaxt marağında olduğu əhvalatın baş verdiyini gördü.

Sarı bir neçə günlüyə sağını dayandırıb ferma işçilərinin hamısını yem tədarükünə göndərməyi təklif edən Zöhrənin cavabında:

– Mən belə məsuliyyəti boynuma götürə bilmərəm, – deyə ucadan, həyəcanla danışırdı. – Mən sağının dayandırılmasına icazə verə bilmərəm. Bu çox böyük məsuliyyətdir, yoldaşlar!

– Bəs naxır qırılsa az məsuliyyət olar, bala? – deyə Kərim dayı onun sözünü kəsdi.

Sanki burada oturanların hamısı, bir-iki nəfərin sükutu pozmasını gözləyirmiş. Hamı bir ağızdan danışmağa başladı. Otağı səs-küy doldurdu. Taxıl biçinindən ot daşınması üçün adam ayırmaq məcburiyyətində qalacaqlarından qorxan briqadirlər yerbəyerdən Zöhrənin təklifini müdafiə etdilər. Sağınçılar hərəsi bir tərəfdən əl qaldırıb qarğaşalıq saldılar. Zöhrə yenidən ayağa durduqda isə bütün əllər aşağı endi. Bu anlarda hamının fikri bir məsələ üzərində cəmləşdirdiyi halda, Yunus kişi Kərim dayıya doğru əyildi.

– Sənin ulduzun bu qız-gəlinlərin arasında yaman hörmət qazanıb ha, Sərkəroğlu! Afərin sənə də, ona da! – deyə qeyd etməyi unutmadı. Söhbət qızışdıqca deyəsən yavaş-yavaş Yunus kişidəki tutqunluq açılırdı. O, başını qaldırıb Zöhrəyə baxdı, gülümsündü sağ qılçasını qaldırıb sol qılçasının üstünə aşırdı, dirsəyini dizinin gözünə söykəyərək başını azacıq yana əyib bığının bir ucunu eşməyə başladı.

– Buyur, qızım!

Zöhrə partiya təşkilatçısının bu gümrah nidasından ürəklənmiş kimi, bir az da dikəlib:

– Mən zootexnik deyiləm, Yunus dayı, – dedi, – ancaq məndə az-çox sağınçı gözü var. Mən görürəm ki, bugünlərdə bizim inəklərimiz sağılmasa daha yaxşı olar. Bax, mənim “Malyutkam” iki gündür öz balasını güclə doydurur. Bənöyüş də onun kimi.

– Mənim Qaragözüm də elədir, qadan alım, – deyə İsmət xala səsləndi, – gündə bir vedrə süd verən inəyin südü indi vedrənin dibi dolamasıycan da olmur.

– Mənimkilər də balasını yarıtmır, a partkom!

– İnəyin ağzı ota çatmayanda balasını necə yarıtsın, ay qız?

– Örüşə bir səhər, bir də axşam gedən heyvanın qarnı doyarmı?

– Ot lazımdır bizə. Göy ot!

Sağınçıların ağzı qızışanda danışığa ara vermədiklərini təcrübəsindən bilən Kərim dayı:

– Əşi, nə qarğabazarı saldınız yenə? – deyə qışqırdı. Birdən-birə onu bərk öskürək tutdu. Sağınçılar peşmançılıqla susub, maddım-maddım qoca müdirin üzünə baxdılar. Kərim dayı bir-iki ağız da öskürdükdən sonra dərindən nəfəs alıb başını buladı.

– Qırğının qabağını almaqdan ötrü qoy beş günün yox, lap on günün südü batsın. Mən razıyam.

– Qorxma, on günə qoymaram, Kərim. Mənim qolbəyilərim tikintiyə bitişib qalmayacaqlar ki...

– Allah bizim tikilimizi yıxılı qoyanın böyrünü yerdən qaldırmasın, – deyə acıdil Yasəmən qarğadı.

Veysəl gözaltısına gözlərini bərəldib pıçıldadı:

– Mədəniyyətin olsun, ay qız, bizi biabır eləmə.

Yunus kişi Sarıdan soruşdu:

– Hə, deyilənlər beyninə batırmı, yoldaş zootexnik?

Sarı qaşqabaqlı halda, dimdik dayanaraq, çox quru və soyuq səslə fikrini təkrar etdi:

– Mən dediyimi demişəm. Bunun məsuliyyəti böyükdür.

Yunus kişi qımışdı:

– Bayaq Kərim soruşdu, sən cavab vermədin, qardaşoğlu. Bəs qızılı naxır qırılsa necə? Onun məsuliyyəti səncə kiçikdirmi?

– Onun məsuliyyəti ferma müdirinin boynunda qalacaq, bizim zootexnikimiz elə şeyin dərdinə qalmaz, – deyə kimsə ucadan səsləndi.

– Bizim zootexnikimiz ancaq öz dərdinə qalır. O süd məsələsinə baxır, südün də dərdinə qalır.

– Ay qızlar, gəlin buna bir də süd-zad verməyək.

– Mən hər səhər ona bir dolça köpüklü-köpüklü süd verirdim, ay qızlar! Qardaşımın canı üçün bu gündən normasını kəsdim.

– Niyə verirdin, ay dəli? Ondansa ala inəyin balasına verə bilmirdinmi ki, arığından ölməyəydi?

Sağınçı qız-gəlinlər səs-səsə verib gülüşdülər. Çoxdan bəri zootexnikin əlindən nəki var yığıb "intiqam almağa" fürsət axtaran Veysəl, gündəlik süd cədvəlini Sarının gözləri qabağında yelləyərək nə isə qışqırdı, sonra isə ani sükutdan istifadə edib:

– Arığından ölən buzovu zootexnikimizə ödək yazın, – dedi.

Kərim dayı öz işçilərinə təpinməsəydi, bu atmacaların sayı bəlkə daha da çoxalacaqdı. Lakin Sarı üçün elə bunlar da kifayət idi.

Heç vaxt şəstini sındırmayan o qürurlu zootexnik bu adamlar arasında ilk dəfə özünü itirib sağa-sola döyükdü və pəncərə önündə qoyduğu boru şəklində bükülmüş bir dəstə kağızı götürüb camaatı yara-yara qapıya doğru yönəldi. Lakin burada o, daha bir zərbə aldı. Bürküyə dözə bilməyib astanaya çıxmış Zöhrə asta, ancaq Sarının eşidə biləcəyi bir səslə:

– Bax, elin səsini eşitməyəndə bu cür ad-san qazanarlar! – dedi...

## 23

Lətifə əsəbi addımlarla yeriyən Sarının kölgə kimi izləyirdi. Sarının sağınçılar arasında tikanlı atmacalara hədəf olması və yoldaş zootexnikin, Lətifənin düşündüyü kimi desək, dayanıb o qaraqışqırıqçıların uzun dillərini kəsib gödəltməkdənsə, acıq eləyib meydandan qaçması Lətifəyə xoş gəlməmişdi. Lakin digər tərəfdən o sevinirdi: "Bu haqq-hesabdan sonra bir də o, "qonşu qızı" deyib Papaqçılar tərəfə ayaq basar?" – deyə düşünən qız, toranlıqda Sarını gözdən qoymamağa çalışırdı. Sarı isə arxasına baxmadan sürətlə gedirdi. Burula-burula uzanıb cökələrin qatı kölgəliyində gözdən itən çığırın başlanğıcına çatanda o, birdən dayandı və nə barədəsə fikrə daldı. Lətifə arxadan yetişdi.

– Nə yaman qaçırsan, yoldaş zootexnik, çatmaq da olmur, – deyə o, fırlanıb Sarının qabağında dayandı və altdan yuxarı onun üzünə baxdı. – Bo-oy, acığın tutanda sən nə yaman çirkin olurmuşsan, yoldaş zootexnik. Yəni o həyasızların sözləri sənə bu qədər yer eləyib?

Sarı cavab vermədi, nə barədəsə düşünüb, qəfildən başını qaldırıb gözlənilməz bir sual verdi:

– Sizin evdə fanar tapılarmı?

– Fanar?

– Hə, əl fanarı.

– Hansından, yoldaş zootexnik?.. O... Dədəm əlində qıj-qıj eləyə-eləyə gəzdirdiyindən deyirsən, ya nöyütlə yanandan?

– Əlbəttə, neftlə yanan, ay qız, qıj-qıj nədir?

– Yaxşı, fanarı neynirsən, yoldaş zootexnik?

– Xataya düşmədik?.. Demək lazımdır ki, istəyirəm də. Varınızdır get gətir, yoxunuzdur de yoxdur.

Lətifə çiyinlərini oynadaraq:

– Mən sənə heç yox deyərəmmi, yoldaş zootexnik? Bu saatca... – dedi və yüyürüb cökələrin arasında yox oldu.

O, elə tez qayıtdı ki, qəfildən gözlərinə düşən işıqdan Sarı hətta diksindi.

– Bu da sənin üçün fanar, yoldaş zootexnik! – deyə Lətifə eyni əda ilə altdan-yuxarı ona baxıb qımışdı. – Özgə nə buyuruğun var, de, yerinə yetirək.

– Çox sağ ol, daha heç nə lazım deyil, – deyə Sarı eyni tutqun səslə cavab verdi. Lakin Lətifə onun duruxmasından hiss etdi ki, zootexnikə daha nə isə lazımdır, ancaq o, nədənsə demək istəmir. Bunu Sarının öz sözləri də təsdiq etdi:

– Ustalar da yorğun düşüb yatışıblar, mən indi kimin yanına gedim? – Öz-özünə deyindi.

Lətifə onu yenə sorğu-suala tutub bu dəfə məsələni öyrəndi: töylələrdə nə isə təcili bir iş görülməlidir. Bu iş gərək gün doğana, naxır örüşdən dönənədək görülüb-qurtarsın. Lakin zootexnikə səhərədək yuxusuz qalmağa tab gətirə bilən dözümlü bir köməkçi lazımdır.

– Bu nə çətin şeydir ki, yoldaş zootexnik, – deyə Lətifə səsləndi, – al fanarı, sən yavaş-yavaş get, mən bu saatca sənə köməkçi çağırım.

Sarı fanarı götürüb, evlərin divarlarını, ağacların qara gövdələrini işıqlandıra-işıqlandıra töylələrə doğru addımladı. Onun hərəkətlərində hələ də bir əsəbilik hiss olunurdu. Ferma işçiləri bugünkü qədər onun üzünə ağ olmamışdır. Nə qədər ki, o, Ukraynadan cins inəklər gətirdir, Dunayı xüsusi bir qayğı ilə bəslətdirərək, yerli inəklərin cinsinin yaxşılaşdırılması üçün çalışırdı, o vaxtlar hamı ona hörmətlə yanaşırdı, zootexnikin adı çəkiləndə qız-gəlinlərin üzlərində xoş bir təbəssüm gəzir, hətta duyulurdu ki, sağıncıların içində bu təşəbbüskar oğlanla gizlin əhd-peyman bağlamış "qonşu qızı"na qibtə edənlər də vardı. Elə ki, bu oturaqlığa keçmək məsələsi meydana çıxdı və ferma işçiləri Çapardan narazılıq etməyə başladılar, o vaxtdan hər şey tərsinə döndü; hörmət, məhəbbət əvəzinə sağıncıların Sarıya münasibətində bir soyuqluq hiss edildi. Bu gün isə... Bəli, ferma işçiləri bugünkü qədər onun üzünə ağ olma-

mışdılar. Xüsusən Zöhrə!.. O, əvvəllər Sarıyla qətiyyən mübahisə etməz, həmişə mülayim danışardı ki, Sarının xətrinə dəyməsin. Onda Sarı "qonşu qızı"nın onu odlu bir məhəbbətlə sevdiyini duyur, kənd arasında gəzən dedi-qodulardan doğan şübhələrini ürəyindən çıxarmağa çalışır, hətta bəzən Dan ulduzunun Sərkərlilər tərəfə işıq salacağından danışan Lətifəyə də tərs-tərs baxırdı. Bu gün isə... Onun heç bir şübhəsi qalmamışdı ki, Zöhrənin haqqında tamamilə yanılmış, o qızı təzəcə tanımağa başlamışdı. O, qadınlarda, xüsusən gələcəkdə ailə qurub bir dam altında yaşamaq istədiyi qadında görmək istəmədiyi – ucadan danışmaq, üzə ağ olmaq, camaat arasında təhərli-təhərsiz çığır-bağır salmaq kimi xüsusiyyətləri son vaxtlarda Zöhrədə də görür, qızda bu xasiyyətin haradan törədiyini heç düşünmədən onun haqqında yanıldığını qəti bir fikir kimi beynində möhkəmləndirirdi. Fikirləşirdi ki, ümumiyyətlə, kəndin bir çox adamları barədə yanılmış, onları tanıya bilməmişdi. Məsələn, Lətifə... Sarı əvvəllər ona adamların arasını vurmaqdan zövq alan, dedi-qodu gəzdirən, ürəyi qurdlu bir qız kimi baxırdı. İndi isə o, şübhə etmirdi ki, Lətifənin Zöhrə barəsində dediyinin hamısı həqiqətdir. Lətifə ona – Sarıya elə hər vaxt qayğı ilə, səmimi yanaşmış, o isə bunu başa düşə bilməmişdi. Budur, indicə Lətifə gör necə də qayğı göstərdi, "bu saatca, yoldaş zootexnik..." – deyə necə də əlüstü yüyürdü. Bax, Sarı belə adamları bəyənir. O, fermada hamıdan savadlı, hamıdan bacarıqlı, burada tayı-bərabəri olmayan bir oğlandır. Bu an Sarıya yaxından baxan olsaydı, belə düşünərkən onun necə də qürrələndiyini, necə də şəstlə addımladığını aydınca görərdi. "Bu saatca, yoldaş zootexnik..." – bax, gərək hamı onun qarşısında beləcə dillənib baş endirsin. Axı o, burada böyük yenilik yaradır; əsrlərdən qalma köçəriliyə son qoyur. Gərək hamı bu "tayı-bərabəri olmayan" oğlanın qarşısında "bəli, bəli" desin. Nəinki onun üzünə ağ olsunlar, hətta yaxşı-yaman sözlər desinlər?.. "Elin səsini eşitməyənlər bu cür ad-san qazanarlar!" – deyən Zöhrənin kəskin ifadəli sifəti gəlib Sarının gözləri önündə dayandı. Papirosunu tüstülədə-tüstülədə təmkinlə danışan Yunus kişi səbirsizliklə yerində tərpənən, tez-tez başını bulayan Kərim dayı, əl-qolunu silkələyə-silkələyə iri gövdəsini yırğalayaraq "bizim zootexnikimiz ancaq öz dərdinə qalır", – deyən Nənəm-nəhrə,

İsmət xala sağılan südün uçotunu uzunsov bir kağıza səliqə ilə köçürərək zootexnikin əleyhinə nümayiş etdirirmiş kimi, əlində yelləyib istehsal edən Veysəl bir küncdə dayanıb kinli-kinli zootexniki süzən Qara... Bütün bu adamların hamısı bir-bir gəlib Sarının gözləri önündən keçdi. Sonra onun gözləri bu adamlardan yalnız birinin – Zöhrənin üzünə dikilib qaldı: "Ad-sanı necə qazandığımı hələ görərsən! – deyə o, hiddətlə pıçıldadı. – Mən sizi qabağımda səcdə qılmağa məcbur edim, siz də tamaşa eləyin!.."

Töylələrə yetişəndə Sarı dönüb geriyə boylandı. "Bəs bu qızın köməkçi dediyi harda qaldı? O, sağ-solda cərgə ilə uzanan boz divarların arasındakı meydana ötəri bir nəzər saldı. Müxtəlif biçimli taxtalar orda-burda yığın-yığın tökülüb qalmışdı. Ortalıqdakı çökək yerdə hazırlanmış sement bozarırdı. Qaldırıcı kran uzun xortumunu aşağı sallayıb sakitcə dayanmışdı. Gündüzkü səs-küyün, şaqqıltı-gurultunun əksinə, indi tikintidə dərin sükut vardı. Sanki cansız daşlar da, taxtalar da dincəlir, ayın sarımtıl ziyası altında uyuyurdu. Bu sükut Sarının ürəyindən deyildi. O, aran günəşinin qaynar şüaları altında yanıb qarala-qarala, tər tökə-tökə nəfəs daraldan bürküdə çalışan inşaatçıların indi necə daş kimi, lap ölü kimi düşüb yatdıqlarını heç təsəvvürünə belə gətirmir, onların bu iş meydanındakı sükutdan hirslənir, sanki adamlardan bir mexanizm kimi aramsız işləməyi tələb etmək istəyirdi. O, yenə darıxır, yenə tələsirdi. Fanarı yuxarı qaldırıb bir daha arxaya baxdı. Gələn yox idi. O, bayaq xoşladığı Lətifənin haqqında da nalayiq bir söz deyib, sağ cərgədə lap başdakı töyləyə girdi. Hər iki divar boyunca, dirəklərin arasında qayrılmış arakəsmələrə, paralel xətlər kimi uzanıb uzun töylənin o başında, qaranlıqda gözdən itən qoşa axurlara, sonra isə bir vaxt Kərim dayı ilə yanaşı bel vurduğu kələ-kötürlü torpaq döşəmə əvəzinə hamar, üzə gülən sement döşəməyə göz gəzdirdi. Geniş pəncərələrin ay işığını əks edən şüşələrinə baxdı, töylənin sərin havasında köksü dolusu nəfəs aldı. O, ayaq səslərinə gurultu ilə əks-səda verən divarların arasında tək-tənha gəzib dolandı, gəlib bir arakəsmənin yanında dayandı. Axurun içində kvadrat şəklində bir yığın taxta lövhə, çəkic və çoxlu mıx qoyulmuşdu. Sarı fanarı dirəkdən asdı, onun tapşırığını yerinə yetirmiş inşaat briqadirindən razı halda lövhələri axurdan döşəməyə daşıdı, qoltuğunda gətirdiyi

qalın iri kağızları açıb yerə tökdü, çəkici əlinə aldı və səbirsizliklə qapıya baxdı. Çox keçmədi ki, oradan tələsik ayaq səsləri gəldi.

Ağ ipək donda əzilə-əzilə yeriyən Lətifəni gördükdə Sarının gözləri təəccüblə genişləndi. Lətifənin nəşə ilə gülən sifətinin əksinə onun çöhrəsi tutuldu.

– Bəs hanı sənin köməkçin?

– Məndən yaxşı köməkçini hardan tapacaqsan, yoldaş zootexnik? – Lətifə sement döşəmədən yayılan sərinlikdə üşüyürmüş kimi, ətli qollarını çarpazlayaraq qabarıq, yumşaq sinəsinə sıxdı, uzaq və qaranlıq künclərə göz gəzdirdi.

– Bo-oy, burda adam lap vəhmələnir ki, yoldaş zootexnik. Divarlar da gumbur-gumbur gumbuldayır. Təkcə gəlsə adamın lap bağrı çatlayar... Hə, yaxşı, köməkçin sənə nə köməklik göstərsin? Buyur qulluğunu görək...

– Bilirsənmi, Lətifə, sən çıx get, – deyə Sarı qaşqabaqlı dilləndi. – Mən özüm gedib başqa adam çağıraram. Sən çıx get.

– Bıy, elə niyə, yoldaş zootexnik?

– Yaxşı deməzlər, Lətifə...

– Niyə ey, niyə yaxşı demirlər?

– Deyirlər başqa köməkçi tapmayıb, öz arvadını gətirib.

Lətifə hər şeyi anladı.

– Belə, ağrım ürəyinə elə deyənlərin. Sən də lap qorxaq olub gedibsən, yoldaş zootexnik. Öz arvadın olanda nə olar?.. Dədəm özü dedi ki, get kömək elə. O, bir para qorxaqların gözünə tikan ol, dedi. Bir azdan bəlkə özüm də gəldim, işinizə baş çəkdim, dedi... Gətir görək nə qayıracağıq? Bu yekə kağızlar nədir, belə? – Lətifə həqiqətən canıyanıcı, işgüzar bir qız kimi, taxta lövhələrə, yerə tökülmüş mıxlara baxdı, kağızları ayağının burnu ilə vurdu: – Bunları ocaq qalamağa gətiribsən, nədir?

– Yox, yox, ay qız, nə danışırsan? Bunların üstündə mən gecəli-gündüzlü işləyib yuxusuz qalmışam. – Sarı cəld əyilib kağızları götürdü, birini açıb yerdəki taxta lövhənin üstünə sərdi. – Tut bunun künclərindən.

Sarı mıxlardan birini götürdü, dodağı ilə mıxın ucunu yaşladı. Dizi üstə çöküb çəkici endirdi. Hündür tavanlı töyləni taqqıltı başına götürdü...

Onlar bütün kağızları taxta lövhələrə; sonra da lövhələri bir-bir qaldırıb arakəsmələrin arasındakı dirəklərə mıxlamağa başladılar.

Sarı bu sadə işi çox ciddiyyətlə, özü də adəti üzrə, tələsə-tələsə görürdü. Lətifə səylə köməkçilik edirdi. Lakin o, nə qırmızı karandaşla sütunlara ayrılmış bu uzun kağızların üstündəki iri hərfli yazılarla, nə də gördüyü işin məqsədi, məzmunu ilə maraqlanırdı. Bayaqkı dilavərliyinin əksinə o, dodağını-dodağına yapışdırıb, tez-tez "mıx ver, o biri cədvəli gətir" deyən Sarının əmrlərini səssizcə, hətta bir qədər üz-gözünü turşutmuş halda yerinə yetirirdi. Aydınca görünürdü ki, Gecədələn nəvəsi bərk dilxordur.

Birdən o, dodaqaltı zümzümə eləməyə başladı. Elə bil ki, bununla zootexnikin diqqətini özünə cəlb etmək istədi. Lakin bir dəfə də olsa dönüb ona baxmadı. Lətifə taxta lövhəni yerdən götürəndə taqqıltı ilə döşəməyə saldı. Sarı işindən ayrılmadı. Lətifə bu dəfə taxtanı götürüb lap gurultu ilə yerə vurdu. Sarı bu qəribə hərəkətə gözaltı bir nəzər saldısa da, yenə bir söz demədi. Onun bu qaradinməzliyinin özündə də bir qəriblik vardı. Deyəsən o, qəsdən qıza baxmamağa, onunla çox danışmamağa çalışırdı.

Lətifə hər dəfə onun qabağında dayanaraq, qısa, ətli qollarını uzadıb lövhəyə vurduqları kağızın künclərindən tutduqda, Sarının gözləri önündə mıx və çəkic əvəzində qızın qumral, buğumlu biləkləri oynayırdı. Onun fanar işığında işıldayan xurmayı saçlarından məstedici bir ətir yayılırdı. O, hər dəfə qollarını qaldırıb saldıqda tül kimi nazik donun altında yumru məmələri titrəyirdi. Onlar lövhə qarşısında çiyin-çiyinə dayandıqda bu titrəyiş sanki bir cərəyan kimi Sarının canına keçir, bütün əzalarına yayılır, elə bil içərisindən alov qaldırırdı. Bir hiss anbaan güclənib onun bütün varlığına hakim olurdu.

Birdən, necə oldusa, o, çəkici mıxa vurmaq əvəzinə baş barmağının üstünə endirdi. "Of!" – deyə şiddətli ağrıdan qovşuruldu, uşaq kimi barmağını ağzına soxdu, acıqlı-acıqlı Lətifəyə baxıb, sanki nəzərlərilə dedi: "Bax, sənin ucundan oldu". Lətifə isə: "Çox haqq oldu", – demək istəyirmiş kimi eyni nəzərlə baxdı. Sonra nədənsə qımışaraq soruşdu:

– Bərkmi dəydi?

– Bərk də sözdür?

– Gətir sarıyım... uuy, qan tökülür! – Qız, əti çimçəşirmiş kimi, çiyinlərini əsdirdi. – Gətir, gətir sarıyım.

Sarı əzilmiş barmağına baxaraq, üz-gözünü turşutdu. Cibindən “qənd ağından” bir yaylıq çıxartdı, lakin yaylığın bir küncündə qırmızı sapla işlənmiş “S.Z.” hərfləri gözlərinə sataşdıqda, tərəddüdlə əl saxladı. Bu, əlbəttə, Lətifənin nəzərindən qaçmadı.

– Qıymırsan? – deyə o, yaylığı çəkib Sarının əlindən aldı, subay, yaxud nişanlı oğlanların ciblərində çox zaman qatını açmadan, əziz bir şey kimi gəzdirdikləri yaylıqlara oğrun-oğrun göz yetirməyi sevən bir kəndli qızı marağilə onun küncündəki hərfləri oxudu. Sonra çənəsini dik qaldırıb, aydın sezilən bir qəzəblə gözlərini süzdürdü.

– Oho, doğrudan da qıyılmalı yaylıq deyilmiş! – dedi və birdən dişlərini dişlərinə sıxaraq yaylığı ortadan iki yerə cırdı. Gözləri barmağında olan Sarı, bu səsdən diksinib cəld başını qaldırdı.

– Ay qız, daha niyə cırırsan?

– Qara yandırmaq lazımdır, – deyə Lətifə dişləri arasından cavab verdi. – Bu biyabanlıqda yod yox, spirt yox, barmağının qanını bəs nəylə kəsək? Kibriti görüm.

Sarı kibrit qutusunu çıxarıb ona verdi. Lətifə yaylığının ikinci yarısını döşəməyə qoyub od vurdu. Parça alovlandı, qıvrıldı, xüsusi bir səliqə ilə işlənmiş qırmızı, qoşa hərflər də alovun içində itdi. İlk məhəbbətin ilk yadigarı beləcə yanıb külə döndü.

Sarının gözləri qaramtul kül içindəki son xırdaca işıltıya sancıldı. Ancaq onun gözləri tamam başqa bir şey, ərik ağacının kölgəsində həmin bu yaylığı ona uzadan titrək əl və mehriban bir çöhrə gördü. Sonra bu xəyal yox oldu, əvəzində, qəzəb ifadə edən, sanki tamam özgə, yad bir sifət onun qarşısında canlandı. Bəli, bu sifətlər tamamilə başqa-başqa idilər. O mehriban çöhrə, o titrək əl sanki həqiqətən xəyal idi; bir zaman ərik ağacının kölgəsində göründü və yox oldu. Bu bir neçə anı Sarı, bax, belə bir təəssüratla yaşayırdı. Döşəmə üstündə getdikcə tünd qara rəng alıb son işıltısı sönən kül isə xatırladırdı ki, xeyr, o titrək əl xəyal deyildi, Sarı əsl həqiqət idi; o əl sənə doğru uzanmışdı, o əl səndən bərk tutacaqdı, ancaq sən özün öz hərəkətlərinlə o əli vurub saldın. Lakin bu son sözləri biz deyirik, bu sözlər, əlbəttə, Sarının ağlına da gəlməzdi.

O, yarasının üstünə basılan isti küldən diksindi.

– Ağrıtdı? – deyə Lətifə soruşdu. Sarı dərindən köksünü ötürdü.

– Ağrıtdı, Lətifə xanım!.. Yaman ağrıtdı!

Lətifə təəccüblə onun üzünə baxdı, sonra birdən qaqqıltı ilə gülüb töyləyə gurultu saldı.

– Kişi də belə şeydən ötrü ax-uf elərmi, yoldaş zootexnik?

Lətifə yaylığın o biri yarısı ilə onun barmağını sarıyıb qurtarandan çox keçməmişdi ki, Çapar qızının dediyi həmin "qıj-qıj eləyən" fanar da əlində, gəlib çıxdı.

Sədr əllərini qarnına sürtə-sürtə, başını dala verərək, lövhələrdən birinin qabağında dayanıb oxudu:

"Qaragöz – 132
Göy ot – 15 kq.
Arpa pörtləməsi – 0,9 kq
Arpa kəpəyi – 2 kq
Pambıq çiyidi – 2 kq
Duz – 80 qr.

***Qeyd***: Sutkada səkkiz dəfə yemləməli. Yemləmə saatları aşağıda göstərilmişdir".

Çapar ikinci arakəsmənin dirəyinə yanaşdı, buradakı lövhədə əvvəlkindən fərqli rəqəmlər gördükdə o, dönüb zootexnikə baxdı.

– Mən inəkləri cinsinə, çəkisinə görə qruplara ayırmışam, – deyə Sarı tez izah etdi.

Çapar qara, uzunboğaz çəkmələrini cırıldada-cırıldada geniş, sərin töyləni gəzib dolandı, cərgə ilə uzanan arakəsmələrə, axurlara, böyük pəncərələrə, hündür tavana nəzər salıb dayandı, yanaşı dayanmış cavanları oxşayıcı bir nəzərlə süzdü.

– Vallah bu töylədə inəkləri yox, bir para adamları saxlayıb ağıllandırmaq lazımdır, yoldaş zootexnik, – deyə hırıldadı. – Bu mədəni töylədə onlara mədəniyyət öyrətmək lazımdır ki, a bala, böyük nə deyər, kiçik də ona baxar. Çox da ki, kolxoz quruluşludur. Hökumət sizə ixtiyar verib deyə, gərək adamın başına çıxasınız?.. Bayaq qara qız söyləyirdi, deyəsən, sənin üzünə ağ olublar, hə?..

– Eh, yoldaş sədr, yenə mənəm ki, onların arasında baş çıxardıram, – deyə Sarı üz-gözünü turşutdu. – Sözün açığı, bu axşam belə qənaətə gəldim ki, bizim heç bir kəndimizdə bu fermaya yığışan adamlar qədər mədəniyyətsiz adamlar tapılmaz. Təhsilə hörmət yox, mövqeə hörmət yox. Adamın üzünə ağızlarına

gələni deyirlər. Elə yaxşı deyirsiniz ki, hamısına mədəniyyət öyrətmək lazımdır. – Sarı ürəyini boşaltmağa fürsət tapmış kimi, sözünə ara verməyib şikayətini davam etdirdi: – Heç bilirsiniz bu axşam o bığlı məni nə qədər yandırdı! Adı partiya təşkilatçısıdır, ancaq özü qara camaatdan da mədəniyyətsizdir.

– Bilirəm, bilirəm, yoldaş zootexnik, qız hamısını mənə danışıb, – Çapar yaxınlaşıb əlini Sarının kürəyinə vurdu. – Heç qanını qaraldıb eləmə. Nə qədər ki, Çəpər müəllim var, mən varam, Şahgəldiyeva yoldaş var, işlərin lap sarı yağ kimi gedəcək. Bir var ki, Çapar dayının əli tutmaya, elə ki, əlim tutdu, o bığlı partkomluq əvəzinə qulağının dibini görəcək.

– Doğrusu, mən heç yanda, heç bir kolxozda görməmişəm ki, camaat özü əl qaldırıb seçdiyi adamla bu qədər höcətləşsin, – deyə Sarı yenə narazılıq etdi. – Əşi, heyətin sədri burda durur, onlar yığışıb ferma müdirinin kravatının dövrəsində iclas eləyirlər.

Atası ilə Sarının belə ürəkdən söhbət etdiklərindən və ümumiyyətlə, bu axşam baş vermiş hadisələrdən razı halda, gözlərini süzdürə-süzdürə yoldaş zootexnikə baxan Lətifə bu yerdə kişilərin söhbətinə qoşulmağı lazım bilib:

– Hamısını da eləyən tamam qarnın nəvəsidir, – deyə səsləndi. – Elə də həyasızlaşıb ki, heç ağzının sözünü də bilmir, ay dədə. Yoldaş zootexniklə üz-üzə durub çənə döyürdü.

– Hər uşaq-muşaq yoldaş zootexnikin ayağına çidar ola bilməz, bala. Onun dalında dədən Çapar dayanıb, – deyə atası qımışdı. – Bir də ki, qoy qoltuğunun altı qarpızlanmasın, elə yoldaş zootexnik özü də belə narazılıqdan-zaddan qorxan oğul deyil.

Çapar başladığı tərifi qızı davam etdirdi:

– Hansı atanın oğlu gecənin bu vaxtında yuxusuna haram qatıb gəlib burda çəkic döyər? – deyə zarafatyana bir əda ilə Sarının ruhunu oxşadı, onun iş üstündə barmağını əzməsini az qala bir fədakarlıq kimi qələmə verərək, bəzəyib-düzədi, sonra özünün qayğıkeşliyinə, türkəçara həkimlik elədiyinə işarə vurdu. Lətifənin nəşəli səsi töylənin təzəcə suvanmış divarlarına düşüb cingildədi. Nəhayət, Çapar onun qolundan tutub:

– Yaxşı, gedək, – dedi, – onsuz da tezdən durmalısan, o xəstə inəkləri burda yerləşdirməkdən ötrü yenə yoldaş zootexnikə kömək eləyəcəksən.

– Axı biz işimizi qurtarmamışıq, dədə, – deyə Lətifə qolunu atasının əlindən çəkdi. – Sən get... Gəldin işimizə mane oldun, yoldaş sədr.

– Üzr istəyirəm, yoldaş sağınçı. İşgüzar, qoçaq sağınçı, – deyə Çapar da eyni zarafatyana ahənglə cavab verdi.

O, cavanların yanında bir qədər də dayandıqdan sonra, yenə "qıj-qıj eləyən" əl fanarı ilə yolunu işıqlandıra-işıqlandıra çıxıb getdi...

– Belə... axır ki, bu cədvəlləri də vurdum. Qoy indi bütün rayonun zootexnikləri, ferma müdirləri gəlib baxsınlar, zootexnik yoldaşın işlərinə valeh olsunlar, Lətifə xanım!.. O biri töylələr də hazır olar, oraları da nizama salaram, ondan sonra isə: "Yüksəlişə doğru irəli!" – deyə Sarı işini qurtardıqdan sonra, barmağının sızıltısını belə unudaraq, vəcdlə özündən razı halda, fanarın işığını əks edən gözləri qeyri-adi bir parıltı ilə yana-yana, ucadan danışmağa başladı. – Eh, həyat! – deyə o, daha da coşub birdən mühakimə yürütdü. – Həyat elə həmişə belədir də, Lətifə xanım! Birisi ucalmaq, yüksəlmək istəyəndə, o saatca görürsən o birisinin ürəyinin qurdu tərpənir, paxıllıq eləyir, ələ-ayağa dolaşır. Məni Bakıdan göndərəndə demişdilər yerdə kollektivlə əlbir işlə, heç vaxt özünü camaatdan ayırma, xalqın səsinə qulaq as. Ancaq sən de, Lətifə xanım, mən bizim bu mədəniyyətsiz ferma adamlarının sözüylə oturub-dursam məndən nə çıxar? Heç nə! Adam gərək öz mənliyini yüksək tutsun, Lətifə xanım! Adam gərək özünə avtoritet qazansın. O da nəylə? Ancaq və ancaq inadla, işlə, güclə! Mən də ki, işimi görürəm, Lətifə xanım, – Sarı bu tikintidə bəzən gecəni-gündüzə qatıb çalışan inşaatçıları belə unudaraq: – Bax, bütün bu işləri belə sürətlə bu yerə çatdıran kimdir? Təkcə sənin yoldaş zootexnikindir, Lətifə xanım! – deyə əlini döşünə vurdu. – Mənə deyirlər sən çox tələsirsən, ağına-bozuna baxmırsan, "ya mum, ya şam" deyib sözündən dönmürsən. Mən, bax, elə indi də deyirəm: ya mum, ya şam!.. Bu həyatda daha nə üçün yaşayırsan? Bir dəfəlik ya düş, ya qalx, ya öl, ya qal! Düz deyirəm, ya yox, Lətifə xanım?

Zootexnikin fəlsəfəsinə biganə imiş kimi, deyəsən tamam başqa şeylər haqqında düşünə-düşünə hörüklərini oynadan Lətifə onun sualına cavab vermədi:

– Gəlsən gedək çayda əl-üzümüzü yuyaq, yoldaş zootexnik.

– Yox, sən bir mənə cavab ver. Düzdür, ya yox?

– Axı nədir əyri-düz olan?

– Bəs sənin fikrin hardaydı, mənə qulaq asmırdın?

– Asırdım, niyə asmırdım? Deyirsən ki, bütün bu işləri bu yerə çatdıran təkcə sənsən.

– Düz deyil?

– Düzdür, – deyə Lətifə nədənsə yenə dilxorcasına dilləndi. – Orası elədir. Ancaq bəs dədəmi niyə demirsən? Hələ arxanda dağ təkin duran Çəpər əmimi, Şahnabad Şahgəldiyeva bir yana dursun...

– Pa, sən nə ağıllı qızsan, Lətifə xanım! Əlbəttə, böyükləri unutmaq olmaz. Böyügün hörmətini saxlamasan, özün də hörmət qazana bilməzsən, sənin avtoritetini saxlayan adamın qədir-qiymətini bilməlisən.

– Bilirsənmi, yoldaş zootexnik, – deyə birdən Lətifə səsinə yenə zarafatyana ahəng verdi. – Qədir-qiymətə qalmış, vallah, sən çox qədirbilməz oğlansan.

– Necə məgər?

– Necəsi-mecəsi yoxdur. Qədirbilməzsən, vəssalam!

– Axı mən kimin qədrini bilmirəm?

– Mənim!

– Sənin?

– Bəli! – Lətifə bu dəfə çox ciddi danışdı. – Mən yoxsa səni az müdafiə eləmişəm, yoxsa az qayğını çəkmişəm? Sənin bir balaca kefin pozğun olanda, o saatca yanını mən kəsdirmişəm. Səni çox vaxt düz yola, bax mən çağırmışam. Mən olmasaydım gedib əxlaqsızın birinə uyacaqdın. Sonra ha başına dönəcəydin içindən bir şey çıxmayacaqdı, o təmiz adıyın üstündə yekə bir ləkə qalacaydı, arvadlar da dodaq büzəcəkdilər: "kül başına o kişinin ki, ad onundur, at özgənin..."

Sarının sevinci, ruh yüksəkliyi alt-üst oldu.

– Məncə, sən bir az düz demirsən.

– Məsələn nəyi?

– "Əxlaqsız" demək çox böyük ittihamdır.

– Bunu mən özümdən uydurmuram ki... Şahgəldiyeva yoldaşacan hamı belə deyir. Kənd hələ bir yana...

– Necə? Şahgəldiyeva da?..

– Bəli, MTS katibinin özü, yoldaş zootexnik...
– Bu xəbər ona hardan çatıb?
– Nə bilim? Yer qulaqlıdır... Hələ dədəmə deyib ki, o qızı nəinki, dərnək rəhbəri qoymaq, lap komsomol təşkilatçılığından da çıxartmaq lazımdır. Hələ bilirsən özgə nə deyib? Deyib ki, Sarı təkin oğlan nahaq yerə elə gözüyumulu iş görür, Sərkəroğlunun sözü ilə elə əxlaqsızı dərnək rəhbəri qoyur. Yəqin yoldaş zootexnik adamları tanıya bilmir.

Sarı dərindən köksünü ötürüb, ağır-ağır başını aşağı saldı.
– Düz deyirsən... Mən adamları tanıya bilmirəm, – deyə o, ömründə ilk dəfə bir nöqsanını boynuna aldı...

Onlar töylədən çıxıb sahilə doğru enəndə hər ikisi düşüncəli idi. Lətifə adətinin əksinə, zootexniklə çox ciddi rəftar edirdi. Bu da səbəbsiz deyildi. O, hiss edirdi ki, artıq Dan ulduzunun "şəfəqini söndürmək" vaxtı gəlib çatmışdı; indi onun əlində imkan var. Bax, indi ciddi, tədbirli tərpənməli, qurulan qurğunu başa çatdırmalı!
– Bəs indi necə, yoldaş zootexnik? – deyə birdən o, başını qaldırdı. – Məncə, indi sən lap yaxşı tanıyırsan adamları. Eləmi?

Sarı çiynini çəkməklə kifayətləndi.
– Məncə indi daha sənə aşkardır ki, yaxşılığını istəyən kimdir, pisliyini istəyən kim?..
– Sən bununla nə demək istəyirsən?
– Demək istəyirəm ki, bax, elə ki, yaxşı ilə yamanı seçirsən, onda gərək yaxşının qədir-qiymətini biləsən, yamanı da... – Lətifə fikrini ifadə etməkdə çətinlik çəkirmiş kimi bir an duruxdu. – Yamanı da... – deyə bir də təkrar edib durdu və qəfildən, iydə kollarının yanında yolun içinə düşmüş köhnə, yarpaqları tökülmüş bir budağı ayağı ilə vurub kənara atdı: – Yamanı da bax, bunun kimi vurub qırağa tullayasan ki, əl-ayağına dolaşmaya. – Qız çox bic tərpənib fikrini Sarının öz sözlərilə tamamladı: – Qırağa tullayasan ki, yüksəlişə doğru irəli gedəndə sənə çidar olmaya.

Sarı adətən onunla zarafat ruhunda, başqa səpkidə söhbət edən "qara qızın" birdən-birə belə sözlər danışmasından xoşhal halda, dönüb məmnun-məmnun Lətifəni süzdü və gümrahlıqla:
– Bundan sonra heç kim mənə çidar ola bilməz, Lətifə xanım! – dedi.
– Məncə olar, yoldaş zootexnik.

– Kim? Nə əsasla?.. Mənə kim nə deyə bilər?

– Hm... Sən nə yamanca özünə arxayın oğlansan, yoldaş zootexnik. Zalxa qarının nəvəsi sənin üzünə demirmi ki, tələfat olsa sən cavab verəcəksən? Elə bilirsən o, elə bunu deyib kiriyəcək? O ki, o qayda həyasızlaşıb, vallah, bir şey olsa, hamısını yoğurub-yapıb sənciyəzin boynuna qoyar. Çidarın lap yoğunundan olar!

Lətifə sözlərinin Sarını düşündürdüyünü hiss edib ürəkdən sevindi.

– Biz gərək vaxtkən o həyasızı qabaqlayaq, yoldaş zootexnik, – deyə mətləbə keçdi. – Yəqin ki, o, bu yaxınlarda yenə komsomol iclası çağıracaq. Onda, bax, onun özcüyəzinin məsələsini qoymaq lazımdır. Əxlaq məsələsini!.. Sən axı büronun üzvüsən, yoldaş zootexnik...

Sarı cəld bir hərəkətlə üzünü qıza tutdu:

– Əxlaq?

– Bəli, yoldaş zootexnik. Əxlaq məsələsi!.. Bütün rayonda kəndin adını batıranın əxlaq məsələsi!.. Mənciyəz heç kimin pisliyini istəmərəm, – deyə Lətifə bacardığı qədər özünü obyektiv bir adam kimi qələmə verməyə çalışdı. – Ancaq pislik eləyənə iki qat pislik edərəm. İynə sancana çuvaldız batırram! Birdən xəbər alarsan, onun sənə nə pisliyi dəyib? Mənim nər dədəmin, dədəmin sən təkin ürək dostunun adına-sanına, bu boyda kəndin adına ləkə olmaq özü elə mənə pislik eləməkdir. – Lətifə öz danışığına özü heyran olub sözünə ara vermədi. – O boyda camaatı sizin üstünüzə qaldırmaq, məncə pislik də yox, lap düşmənçilikdir. Vallah düz deyirəm. Düşmənin başında palıd ağacı olmur ha...

Lətifə məsələni o qədər böyütdü ki, hətta az qala Zöhrəni məsuliyyətə cəlb etmək fikrinə gəlib çıxdı.

Sahilə yetişdikdə isə o, birdən-birə dəyişərək, yenə yoldaş zootexniklə zarafatlaşmağa, onun üstünə su çiləməyə, uşaq kimi dəcəllik etməyə başladı. Sarı boynuna-başına səpələnib bədənini ehtizaza gətirən sərin damlalardan səksənib geri sıçradı. Lətifə qəhqəhə çəkdi. Qoşa ovuclarını bir də su ilə doldurub onun üstünə atdı. Yenə boş-boş qaqqıldadı, yenə cəld ovuclarını suya saldı.

– Belə?.. – deyə Sarı da sağ əlini suya uzatdıqda, Lətifə hiss etdi ki, bu dəfə yoldaş zootexnik onun hərəkətlərinə biganə qalmayacaq.

– Lap elə!.. – deyə o, suyu Sarının üzünə çırpdı, bir də, bir də çırpdı, oğlanı göz açmağa qoymayıb onu əməlli-başlı karıxdırdı, cin səsilə qışqıra-qışqıra, zildən qəhqəhə çəkə-çəkə əllərini suya döyüb şappıltı saldı, yoldaş zootexniki möhkəmcə cinləndirdiyini gördükdə:

– Hi, hi, adını da oğlan qoyubsan, sulaşmaq da bilmirsən, – deyib onu oyuna daha çox cəlb etdi, onu lap hövsələdən çıxarıb hirsləndirdiyini duyduqda isə, birdən, dümağ, yoğun budlarının görünməsinin belə fərqinə varmadan ətəyini dəstəkləyərək çay boyunca qaçdı. Sarı onu qovdu...

## 24

Elə bu vaxt yemçilik briqadasının arabaları qatarlaşıb Aran düzünün dağlarla qovuşan yerindəki dikdiri aşaraq Dərəyə enirdi. Arabaçılardan başqa hamı mürgüləyirdi. Yalnız bir nəfərin, ömründə ilk dəfə çəliyə dirənə-dirənə ferma yoluna çıxmış ərinin intizarını çəkən İsmət xalanın gözlərinə yuxu getmirdi. Dan yeri sökülür, qarşıdakı dağların zirvələri aydınlaşırdı. Oradan sərin səhər mehi əsirdi. Dərəli-təpəli Dərənin yaz açılandan insan ayağı dəyməmiş çəmənliyi narın-narın ləpələnir, başgicəlləndirici gül-çiçək ətri, aranın tozlu, bürkülü havasından çıxmış, yorğun adamların yuxusunu daha da şirinləşdirirdi. Onların belə daş kimi düşüb yatmalarına nə arabaların silkələnməsi, nə də tez-tez kəlləri haylayan arabaçıların səsləri mane ola bilirdi. Yalnız İsmət xalanın yuxusu ərşə çəkilmişdi. Kərim dayı onun sözünə baxmayıb, yataqdan durmuşdu. Qoca fermada nə edəcəkdi? Buzovları vaxtında əmişdirib vaxtında ayırmağı naxırçılar onsuz da bacarardılar. Hazır olan töylənin döşəməsinə xırmandan saman daşıtdırmaqla, xəstə inəkləri oraya köçürtməklə bir başqası da məşğul ola bilərdi. Lakin Kərim dayı yataqda dincələ bilmədi. Hələ xoruzlar ağzını açmamışdan durub qapıdan çıxdı, heç beş addım aralanmamışdı ki, birdən dayandı. “İsmət, gərək o küncdə bir çəliktəhər ağac olsun, onu mənə ver”, – dedi və bununla da İsmət xalanı yenidən intizara saldı. “Getmə, Kərim, aman günüdür, üzülərsən”, – deyə İsmət xala yalvardısa da, inadkar kişi yola gəlmədi: “Ə, sən də lap xarab olub

gedibsən, ay İsmət. Niyə üzülürəm, qırğıya dönmüşəm. Çəliyi də, belə, ona görə istəyirəm ki, gecədir, birdən it-pişik gələr üstümə". Lakin sonra İsmət xala onun necə çəliyə dirənə-dirənə gəldiyini aydınca gördü. Gördü və arabaya minib yola düşdükdən sonra bütün yol uzunu dincələ bilmədi...

Qara kəlin üstündə yırğalana-yırğalana zümzümə edirdi. Dərənin döşündə kəklik ötürdü. Haradasa gecə quşları qərib-qərib səslənirdilər. Şərqdə üfüq qızardıqca dərənin yuxarıları da aydınlaşır, işıq gücləndikcə toran aşağılara sürünüb dərənin lap dibinə enir, elə bil ki, otların arasına hopurdu. Yazbaşı ətrafdan axan sel-su ilə suvarılmış gözəl çəmənliyin dalğalanması daha aydın görünür, bayaqkı qaraya çalan tünd yaşıllıq əvəzinə, sanki qarşıda əlvan bir xalı açılır. İsmət xalaya lap gəncliyindən tanış olan güllər-çiçəklər elə bil ki, ordan-burdan baş qaldırırdı.

Bəli, bu yerlər İsmət xalaya lap ilk gəncliyindən tanış idi. Bax, bu sağ tərəfdə, dərənin günə qarşı yerində Talıb kişinin kiçik bir biçənəyi vardı. İndi İsmət xalanın ata malından yadigar qalmış, Şumal camışın nəslindən olan bir camışı, potası qışda acından qırılmasın deyə, Talıb kişi, qar yerdən götürüləndən biçin vaxtınadək, həftədə-on gündə bir dəfə Dərədəki kiçik biçənəyinə baş çəkərdi. Bir dəfə Talıb kişi gün çıxmamışdan İsməti oyatdı, oğul övladı olmadığından, qızını özünə həyan götürüb Dərəyə – biçənəyini biçməyə gəldi. Lakin o, nə görsə yaxşı idi? Gecədələn Murtuz baş çobanı olduğu bəy sürüsünü Talıbın biçənəyinin düz ortasına çəkib otarırdı. Talıb kişinin qan beyninə vurdu: "Ə, Murtuz, yer başına qəhətdirmi? Ə, bu bir qulaq yeri sürünün dırnağına verib mənim balalarımı niyə ağlar qoyursan, a mürvətsiz oğlu?" "Sənin kimi çal qurumsağa hələ bu da azdır!" – deyə İsmət sarıdan Talıb kişi ilə yanıqlı olan Gecədələn Murtuz yapıncısını çiynindən ataraq təşəxxüslə irəli yeridi.

Onlar əlbəyaxa oldular.

On altı yaşlı İsmət qışqıraraq özünü aralığa salmaq istədisə də, kişilər dəhşətlə enən yumruqları arasında ancaq öz üz-gözünü cırıb qana boyamağa gücü çatdı. Gecədələn Murtuzun yoldaşları səsə axışıb gəldilər. "Ə, vurun bu çal qurumsağı!" – deyə Murtuz bağırdı və fürsətdən istifadə edərək başı dəmirli çomağını qapıb var gücü ilə Talıb kişinin çiyninə endirdi. Ağır zərbədən qocanın

qılçaları əsdi, o səldirəyib dala çəkildi, lakin yıxılmadı. İkinci zərbə endikdə isə, qocanın qılçaları büküldü və o, müdhiş bir inilti ilə biçənəyinin otları üstünə sərildi. Bəy çobanları qorxuya düşərək sürünü çəkib getdilər. İsmət huşunu itirmiş atasının üstündə saç-birçək yoldu. Yalnız günortaüstü Dərəyə gələn biçinçilər onun harayına çatdılar. Talıb kişini arabaya qoyub kəndə apardılar, sınıqçı çağırdılar...

Talıb kişi düz üç ay yataqdan dura bilmədi. Çiyni sağalandan sonra isə sağ qolu qalxmadı. Onun biçənəyinin güzdəyini təzə kürəkəni Kərim Sərkəroğlu biçdi...

Bütün bunlar sanki dünən olmuşdu. Sağ yanda, günəqarşıdakı biçənək də, bu güllü-çiçəkli dərə də, o yanda zirvələri saralan dağlar da, – hər şey o vaxtkı kimi idi, burada heç nə dəyişməmişdi. Ancaq burada nə bəy sürüsü vardı, nə də Gecədələn Murtuz. Bir də ki... O vaxt biçənəyi bir nəfəsə biçmiş Kərim Sərkəroğlu bu gecə çəliklə yeriməyə başlamışdı.

İsmət xala elə bu an gözlərini yumub o döşdə kərənti çəkən qara saçlı, qıvraq, oynaq Kərimi xəyalında bugünkü kimi canlandıra bilər. Kərəmin isə artıq saç-saqqalı dümağdır. İsmət xalanın ömür-gün yoldaşı qocalmışdı. Nə böyük dərddir! Bu gün İsmət xalanın qəlbini nə qəribə bir hiss çulğamışdı! Doğrudan da qəribə idi; məgər o bilmirdimi ki, insan ömrü əbədi deyildir? Bu gün cavansansa sabah qocasan, birisigün də yox olacaqsan. Əgər həyatında xeyirli iş görə bilibsənsə adın ürəklərdə, dillərdə qalacaq, özün isə köçüb gedəcəksən. Bu ki adi bir həqiqət, həyat qanunudur. Məgər İsmət xala bunu düşünürdü? Doğrusu, deyəsən o, heç bu barədə fikirləşməmişdi. Fikirləşmişdisə də indi unutmuşdu. İsmət xalaya elə gəlirdi ki, nə Kərim dayı, nə də o özü qocalacaqdır. Dünya durduqca onlar da duracaqlar, bir-birinin qayğısına qala-qala yaşayacaqlar; Kərim dayı həmişə ferma müdiri olacaq, İsmət xala da daima sağınçılıq edəcək; onlar Qaranı evləndirəcəklər, Sərkərlilərin gəlini onlara körpə-körpə nəvələr doğacaq, körpələr böyüyüb məktəbə gedəcəklər, sonra isə... eh, nələr, nələr olacaq! Bunların hamısını da İsmət xala ilə Kərim dayı görəcəklər. Lakin...

Həqiqəti, adi həyat qanununu İsmət xala sanki yalnız bu gecə dərk etdi. Bəli, Kərim dayı qocalmışdı. O İsmət xala isə cavan qalmışdı. Adətən, həmişə arvad tez qocalar, kişi isə gümrah qalar.

Sərkərlilərinki isə tərsinə gətirmişdi. Bu nə üçün belə olmuşdu? Məgər Kərim dayının başına bir iş gəlsə İsmət xala dözə bilərmi?

İsmət xala haradansa bu gün qəlbini culğamış bu qorxunc hissələrdən ayrılmağa çalışdı. Ancaq yenə çəliyə dirənə-dirənə yeriyən Kərim dayı gözləri önündə canlandı, yenə ağlına pis-pis fikirlər gəldi. Bu bəd düşüncələr onun beyninə haradan girmişdi? İsmət xala dindar olmasa da, ayrı çarə tapmayıb pıçıldadı: “Bismillah, bismillah... Bu nə xata idi mən düşdüm, a başına dönüm?! Bu qırılmış qızlar ad fısıldaşmağa vaxtmı tapdılar?! Adamı lap vahimə basır, a dərdin alım...”

– A bala, ay Qara, sən də niyə səsini kəsdin, oğul?

Səhərin təmiz havasında, kəlin üstündə oturduğu yerdəcə mürgüləməyə başlamış Qara, dərənin əsrarəngiz sükutunda qəfildən qulaqlarında cingildəyən bu titrək səsdən diksinib ayıldı, əvvəlcə səsin haradan gəldiyini müəyyən edə bilmədi, sonra üzünü xalasına tutdu:

– Mənnənsənmi, ay xala?

– Bəs fikrin hardadır, ədə?

– Yuxu məni tutmuşdu.

– Yuxu, yuxu... Yuxu azarına tutulasınız hamınız!

Qara bu acıqlı deyintiyə heç bir səbəb görməyib təəccüblə çiyinlərini çəkdi, sonra ləzzətlə gərnəşdi. Səhər şəfəqlərinə bürünmüş dağlara, şehli çəmənliyə göz gəzdirib, “oxay” deyə səslənərək, papağını peysərinə itələdi, kəllərə təpindi.

İsmət xala bacısı oğlunun bu etinasızlığından daha da hirslənib səsini ucaltdı:

– Özgə vaxtlar kor aşıq təkin minnətsiz oxuyursan. İndi nə olub? Bir-iki ağız desənə könlümüz açıla!

Qara dərindən köksünü ötürərək:

– Mən daha oxuya bilmərəm, ay xala, – dedi.

– Niyə? Səsin tutulub, nədir?

– Yox, xala, səsim əvvəlkindən də yaxşıdır. Bax, bu saat əlimi qulağımın dibinə qoysam, dağlar-dərələr də dilə gələr.

– Di oxu də. Niyə oxumursan?

– Qadağan eləyiblər, ay xala.

– Bıy... Görünməmiş işlər! Kim qadağan eləyib, bala?

– Bax o, yanında yatan...

– Yenə hənəyə başlayırsan?

– Canım üçün doğru sözümdür, xala. Bax, o yanında yatan deyir sənin oxumağın mənim xoşuma gəlmir. Mən də ki, özün bilirsən, elə onunçün oxuyuram. İndi ki, xoşuna gəlmir, daha niyə oxuyum?

İsmət xala bunu da zarafat kimi qəbul etdi:

– Mənim sizin dilinizdən başım çıxmır, bala. Di yaxşı... Ayda-ildə bir kərə xala səndən təvəqqe eləyir. Könlümü aç, oğul, könlün hər vaxt açıq olsun.

Bu söhbət arabaçının özünün də dərdini təzələdi. İsmət xalanın səsindəki qüssə ona da sirayət etdi. Qəlbdəki hüzn güclü, ehtiraslı səsə sehrkar bir ahəng verdi; Qara Alı əmidən eşitdiyi, ürəyinə çox yaxın bir mahnı oxudu:

...Qəvvas oldum, dəryalar da dərindi,
Dərd əkmişəm, bar gətirib, dər indi,
Mənim eşqim dəryalardan dərindi,
Səninki görünür ay üzdən-üzdən...

O, gözlərini Zöhrənin günəşin şəfəqlərinə bürünmüş sifətinə zilləyərək oxuyurdu. Birdən qız sanki yuxuda gülümsündü. Üzünün cizgiləri dəyişdi, yuxuludan çox oyaq adama məxsus bir ifadə ilə çöhrəsi elə bil yenidən canlandı. Gur şualar altında qara, uzun kirpiklərinin titrədiyi aydınca göründü. Elə bil ki, oyanmışdı, ancaq qəsdən gözlərini açmır, səhər mehinin və şəlalə kimi çağlayan bu gur səsin dalğaları altında xumarlanırdı.

...Səndən qeyri bir kimsəyə baxmaram,
Gözəllər yerisə a yüzdən-yüzdən, –

deyə arabaçı yenə öz ürək sözlərini ifadə edirdi. Onun səsi təzə-təzə açılırdı ki, qalın, bir qədər də kobud bir səs qəfildən ona mane oldu:

– Ey, məhəbbəti dərin oğlan, saxla görək, – deyə Yunus kişi lap axırıncı arabadan qışqırdı. Elə bu an Zöhrə dikəldi, biçinçilərin düşərgə yeri olan qarşıdakı tənha dağdağan ağacına baxdı və hoppanıb yerə düşdü. Qızın belə yüngülcə qalxmasından güman etmək olardı ki, bayaq heç də yatmırmış; o, arabaçının mahnısını dinləyib.

Qara öz ürək sözlərinə qızın münasibətini onun gözlərindən oxumaq istədi. Bilmək istədi ki, görsün bu yanıqlı mahnı yenə həmişəki kimi Dan ulduzunu heç olmazsa mütəəssir edə bilibmi?

Lakin Zöhrə arabaçıya baxmadı. O, hələ də arabanın içində oturduğu yerdən qalxmayıb, nədənsə ətəyinin ucu ilə gözlərini silən İsmət xalaya yaxınlaşdı.

– Bu nədir belə, İsmət xala? Ağlamış adama oxşayırsan? – deyə qayğıkeşliklə soruşdu.

– Heç, qızım... Elə belə... – İsmət xala qarışıq düşüncələrdən yorulmuş kimi, ağır-ağır qalxıb arabadan endi, dolu zənbilləri, bağlamaları, cürdəkləri dağdağan ağacının kölgəsinə daşıyan sağınçılara qoşuldu.

Qara kəlləri açıb çəmənliyə ötürdükdən sonra qayıdıb Zöhrənin yanına gəldi.

– Bilirsənmi xalam niyə ağlayırdı?.. Mənim mahnım ağlatdı onu.

Zöhrə təəccüblə qaşlarını çatdı.

– Mahnı?.. Nə mahnı?

– Bəs eşitmədin? Yenə oxuyurdum də.

– Eh, ay Qara, sən nə vaxt ağıllanacaqsan? – deyə Zöhrə onu məzəmmət etdi. – Bu camaatın içində yenə başlamışdın?

– Mən axı o mahnını oxumurdum, ay Zöhrə.

– Bəs nə oxuyurdun?

– Ayrısını, – deyə arabaçı qüssəli-qüssəli başını yana əyib, gözlərini qızın qaynar gözlərinə zillədi və bayaqkı ürək sözlərini bir daha söylədi. Lakin bu dəfə o, ucadan, ehtirasla deyil, həzin, titrək bir səslə, az qala pıçıltı ilə söylədi.

"Sənin bu mahnınla əvvəl oxuduqlarının heç fərqi varmı, ay Qara?" – deyə Zöhrə fikrən ondan xəbər aldı, sonra isə soruşdu:

– Yaxşı, bundan ötrü İsmət xala niyə ağlasın ki?

İsmət xala bəzi adamlar kimi daş ürəkli deyil, Zöhrə! Yəqin, bax, bu güllü-çiçəkli Dərədə Kərim dayıyla keçirdiyi günlər yadına düşdü. Bir də ki... Xəstəlik Kərim dayını yaman hala salıb. Sən onun çəliklə yeridiyini gördünmü, Zöhrə? Xalam elə birtəhər oldu ki... Elə kefsizlədi ki!..

– Ağzın yanmasın, elə danışırsan ki, elə hamını kefsizlədirsən, – deyə Zöhrə köksünü ötürüb fikirli-fikirli yerə baxdı. Bir neçə an beləcə sükutla keçdi. Qara qızın bərk təsirləndiyini duydu. "Eh, gör

bir Kərim dayıya necə məhəbbəti var, təkcə mənə yoxdur!" – deyə dərindən nəfəs aldı.

Zöhrə yavaş-yavaş başını qaldırdı.

– Sən Kərim dayını çoxmu istəyirsən?

Arabaçı təəccübləndi:

– Bu nə sözdür?

– Soruşuram də. De görüm çoxmu istəyirsən?

– Əlbəttə! Bəs istəməyə bilərəm? Mənim boynumda Kərim dayının o qədər haqq-sayı var ki! Deyirlər, məni doğanda anamı hal aparıbmış, qarılar məni götürüb qazanın altına qoyublarmış ki, orda boğulum ölüm. Kərim dayı söyləyir ki, səni qazanın altından dava-dalaşla çıxartdım, qarılar pişik kimi üz-gözümü cırmaqlayıb qana boyadılar, deyir, ancaq səni vermədim, – arabaçı qımışıb əlavə etdi: – Sonra da ha axtarıb ki, məni mayalandırmağa bir südü olan arvad tapsın. Tapa bilməyib, axırda inək südüylə mayalandırıb. Sonralar, aparıb düyənin altında tuturdum, deyir, özün boğazını uzadıb düyənin məməsini sorurdun.

Zöhrə bu qəribə əhvalata maraqla qulaq asıb, birdən qaqqıltı ilə güldü, verdiyi sualı belə unudaraq, uğunub keçindi.

– Hamısını özündən uydurursan.

– Canım üçün doğru deyirəm, Zöhrə. Qarılar deyirlərmiş ki, guya mən qazanın altında boğulsaydım anam ölməzmiş. Düz yeddi yaşımacan inək südü əmmişəm. Hələ özümün də yadıma gəlir ki, xalam sağına gedəndə ətəyindən yapışıb əl çəkmirdim. Xalam Qaragözün anasının bir məməsini sağanda mən də o biri məməsini qarnıma sağırdım.

Zöhrə inəyin altında buzov kimi əyilib məmə əmən uşağı təsəvvürünə gətirdikdə bu dəfə elə uğundu ki, gözləri yaşardı. Bəlkə də ömründə bu qədər ürəkdən gülməmişdi. O, özünü arabaçıya o qədər yaxın hiss etdi ki, olub-keçənlərin hamısını unudaraq, hətta zarafata da yol verdi; əlini atıb arabaçının papağını onun gözlərinin üstünə basdı.

– Elə inək südüylə mayalandığın üçündür ki, belə ağıldan kəmsən, – deyə onun papağını bir də aşağı basdı.

Qara da əlini fərağat saxlamadı, qızın əlindən tutdu. Zarafat da, hər iki gəncin özlərini sərbəst hiss etmələri də bir anda yox oldu. Yumşaq sağınçı əllərinin məstedici hərarətini öz əlinin içində hiss

edən arabaçının qanı oynayıb sifətinə vurdu. Sanki qəfildən gözlərinə tor gəldi. Özünü elə itirdi ki, qızın əlini buraxmaq əvəzinə daha bərk tutub sıxdı. Zöhrəni buraxmaq əvəzinə daha bərk tutub sıxdı. Zöhrə oğlanın halında əmələ gələn dəyişikliyi hiss edib gülməyinə ara verdi, cəld əlini çəkib yanına saldı. Deyəsən, o da özünü itirdi, sağa-sola baxdı, nə edəcəyini bilmədi. Aralığa dərin bir sükut çökdü. Hər iki gənc öz ürək döyüntülərini, bir də haradasa, lap uzaqlarda ötən kəkliyin qaqqıltısını eşidirdilər.

Zöhrə ağır-ağır başını qaldırdı, tamamilə sakit, həlim bir səslə soruşdu:

– Demək, sən Kərim dayını lap çox istəyirsən?

Bütün bədəninə hakim olmuş hissdən hələ də azad olmamış arabaçı çətin sezilən bir hərəkətlə başını tərpədib təsdiq etdi.

– Onda sən gərək bir də o mahnıları oxumayasan, Qara. Mən bunu sənə yenə deyirəm. Sən bu hərəkətlərindən bir dəfəlik əl çəkməlisən!

Arabaçının qızın əlinin hərarətini hələ də ovcunda hiss edən əli yanına düşdü. Bulaq başındakının əksinə olaraq, Zöhrənin indi xeyli qəti və kəskin danışması arabaçıya, deyəsən, o vaxtkından daha pis təsir etdi. O, Kərim dayını istəyib-istəməməsinin mahnı əhvalatına nə dəxli olduğunu belə soruşmadan, "tənəffüsdə yanıma gələrsən", – deyən Zöhrənin onu nə üçün çağırdığını da öyrənmək istəmədən, nitqi tutulmuş kimi, yerindəcə quruyaraq, sağınçılara tərəf uzaqlaşan qızın arxasınca baxdı...

## 25

Qızğın biçin başlamışdı. Kərəntilər bir an havada qızıl ilan kimi parlayıb yenidən otun içinə cumur, qıjıltı ilə şütüyür, yaşıl ot layları bir-birinin üstünə enirdi.

Dərənin otu zərif və yumşaq idi. Yağışlı günlərdə ətrafdakı dağlardan çağlayıb enən coşqun sellərdən doymuş bu torpaqda yayın qaynar nəfəsi hələ az hiss olunurdu. Bir qədər hündürlər, dağlar tərəfdəki çınqıllı güneylər yanıb bozarmış olsa da, aşağılarda çiçək çiçəyi çağırırdı. Göy soğan kimi köyrək otların arasında kərənti heç bir maneəyə rast gəlmirdi. Bu isə biçinçinin həvəslə

işləməsi üçün əsas şərtdir. Yunus kişinin zəhmətsevən "qolbəyiləri" getdikcə vəcdə gəlir, qollarını daha geniş açır, kərəntini daha gendən hərləməyə çalışırdılar. Kərənti gendən hərləndikdə isə bir qədər ağır-ağır hərəkət edir, aramla qıjıldayır, ot layları da aramla yerə sərilir, cərgə ilə düzülmüş bütün dəstənin hərəkətində bir təmkin, bir həmahəng əmələ gəlirdi. Əvvəlcə bir-birini ötməyə çalışan, arxada yaba ilə göy otdan xotma qoya-qoya gələn qız-gəlinlərin qarşısında səy göstərən cavanlar getdikcə bu ümumi ahəngə uyub, eyni vaxtda qollarını açır, eyni vaxtda kərəntini endirir, eyni vaxtda layları bir-birinin üstünə sərirdilər. Bütün kərəntilərin eyni anda havada parlaması, eyni anda ota cumması, dərəyə ahəngdar bir qıjıltı yayılması biçinçilərin işinə bir əzəmət gətirirdi. Bu təmkini, bu vəcdəgətirici əzəməti saxlamaq üçün hamı bir-birinin hərəkətinə göz qoyur, heç kim ümumi ahəngi pozmaq istəmirdi. Qara kərəntinin dəstəyindən sərbəstcə tutaraq, sinəsini irəli verib, tələsmədən, ağır-ağır kərənti çəkir, hər dəfə "Hhıx!.. Hhıx!" – deyə zərblə səslənirdi. O, qarşıdakı döşdən bir-birini qova-qova təpəyə qalxan və təpə aşırımından yenidən axıb gələn, gah tünd yaşıla çalan, gah da dəniz kimi mavi rəngə düşən dalğalara sarı irəliləyir, hər dəfə kərəntini hərlədikdə bu dalğanın birini ümumi axından ayırıb yerə sərir, arxasınca geniş bir cığır aça-aça biçənəyin dərinliklərinə yeriyib gedirdi. Onunla yanaşı irəliləyən Veysəl hərdən dönüb geriyə, qara kalağayılı, ağ bənizli qıza bir nəzər salaraq, özünü zora salıb dəstədə fərqlənməyə can atdığı halda Qara adi vəziyyətini pozmadan, başı aşağı işləyirdi. Tər onun geniş alnının dərin qırışları arasından çatılmış qalın qaşlarının üstünə, oradan da mis rənginə çalan yanaqlarına süzülüb, zolaq sala-sala yumru çənəsinin ucuna axır və açıq sinəsinə, çırmənmiş qollarına çilənirdi. Lakin o, heç nəyin fərqinə varmırdı. Arabaçının fikri başqa yerdə idi. Nə "qolbəyilərinin" işindən ruhlanaraq "ha qollarınızın qadasını alım" deyə gümrahlıqla səslənən briqadirin, nə də "aşna, deyəsən yenə qızı yanlamışdın" – deyə sataşan Veysəlin sözlərini eşidirdi. Onun qulaqlarında tamam başqa sözlər cingildəyirdi: "Sən bu hərəkətlərindən bir dəfəlik əl çəkməlisən!"

Qara, hələ yağışlardan əvvəl, Kərim dayının Dan ulduzundan aralı gəzməsi üstündə Sarını möhkəmcə danladığını və elə həmin günün axşamı Sarının Papaqçıların astanasına qədəm basdığını

İsmət xaladan eşitmişdi. O, xalasını dilə tutub zootexnikin gəlişindən qızın necə sevindiyini, Zalxa qarını çay məclisində oğlanın necə sərbəst davrandığını, hətta sonra, qonaqları yola salarkən Sarının yolunu Dan ulduzunun necə işıqlandırdığını belə bütün təfərrüatına qədər öyrənmişdi.

Bayaq Zöhrə söhbət edərkən arabaçı Kərim dayı ilə bağlı olan bu əhvalatı tamam unutmuşdu. O, bu əhvalatı yalnız indicə xatırladı və öz aləmində belə kəsdirdi: "Yəqin, deyir, bu hərəkətlərindən bir dəfəlik əl çəkməsən əvvəlcə Kərim dayının xətrinə dəyəcəksən... Yəqin tənəffüsdə də elə bunu deyəcək, nə bilim, bir dəfə Kərim dayı səni fermadan uzaqlaşdırdı, yenə onun sözünü söz hesab eləmədin. Ax, heç bilmirəm bu yeznəm də niyə mənim əlimə-ayağıma çidar olur? – deyə Qara qəzəblə düşündü. – Boynumda haqq-sayı olmasa, vallah, üz-üzə durub ağzıma gələni deyərəm. Yox, belə getsə, bir də məndən soruşan olsa, daha onu, doğrudan da, çox istəyirəm deyə bilməyəcəm. Necə yəni əl çəkim, əşi? Özümü o qıza istədə bilməsəm, əlim ondan həmişəlik üzülsə, vallah, doğrudan da ürəyim partlayar... Ax!.. Bəs mən necə eləyim ki, özümü ona istədim?" Arabaçı artıq kərəntini qeyri-iradi olaraq hərləyir, getdikcə öz düşüncələrinə daha bərk qapılırdı. Necə etsin ki, özünü Zöhrəyə sevdirə bilsin? Arabaçıya elə gəlirdi ki, Zöhrə hərdən ona qeyri-ciddi, necə deyərlər, lağlağı bir oğlan kimi baxır. Bu, əlbəttə, işləri korlayır. O, həqiqətən qeyri-ciddi, yaxud bəzi Sərkərlilərin dediyi kimi, lağlağıdırmı? Yox! Üzdə bir qədər zarafatcıl olsa da Qara ürəkdən inanırdı ki, həyatında rast gəldiyi heç bir şeyə biganə deyil. Yaxından tanıdığı, bildiyi bütün adamlar haqqında özünün fikri, ciddi qənaətləri var. Qara bu qənaətləri, fikirləri bəzi adamlar kimi həyat hadisələri barədə ciddi mühakimə yürütməklə ifadə edib, özünü başqalarının gözündə ağıllı, dərrakəli göstərməyə çalışsaydı, bəlkə də onun barəsində "lağlağı" deməzdilər; o da Sarı kimi hər yerdə, hər işdə özünü hamıdan üstün tutmağa can atsaydı, bəlkə Zöhrə də ona başqa nəzərlə baxardı. Vaxtilə, hələ Sarının heç səsi-sorağı belə olmayan günlərdə "nişanlı tapmışam, ay qızlar" – deyə Qara papağının qulaqları yellənə-yellənə atılıb-düşməsəydi bəlkə də işlər başqa cür gedərdi. Lakin o, Sarı kimi ola bilərdimi? Heç vaxt!.. Elə isə arabaçı nə etsin? Bizim bu vurğun oğlan dərdinə nə çarə qılsın?..

O çox düşünüb-daşındı, nəhayət, öz düşüncələrindən özünün də zəhləsi getdi. Necə yəni özünü qıza istətmək? Başqa cildə girib, xasiyyətini dəyişməyə çalışıb, süniləşmək? Nə qədər axmaq bir fikir!.. Axı arabaçının süni adamlardan zəhləsi gedir. Adam, xüsusilə onun kimi cavan adam, gərək açıq, oynaq, oturuşunda-duruşunda, danışıb-gülməyində, fikirlərində, mülahizələrində azad olsun, heç vaxt özünü qısıb, başqa şəklə salmasın. Yoxsa, tutaq ki, o, bu gün ayrı cür bir dona girdi, deyək ki, lap özünü qıza bəyəndirə də bildi, bəs sonra? Axıra qədər yad bir donda yaşamaq mümkündürmü? Günlərin birində bu yad donda gəzməkdən-dolanmaqdan zinhara gəlib cana doymazsanmı? Silkinərək donu əynindən atdıqda qız görsə ki, sən heç də onun sevib-seçdiyi, ürək bağlandığı deyil, tamam başqa təbiətli bir adamsan, onda?.. Bu, böyük bir bədbəxtlik olmazmı?! Yox, Qara Qaradır; heç bir vaxt dönüb başqa təbiətli adam ola bilməz. Əgər Zöhrə onu sevəcəksə, qoy, bax, necə varsa eləcə də sevsin. Qoy o öyrənib bilsin ki, qız-gəlinlərin “tazıqulaq”, “lağlağı” adlandırdıqları bu qara oğlanda nə qədər saf bir insan ürəyi, bu arabaçının qəlbində nə qədər böyük bir məhəbbət var; hər cür kin-kidurətdən, yalandan, fırıldaqdan, sünilikdən uzaq olan bu sadə adamla ömrünü bağlayan bir qız nə qədər xoşbəxt ola bilər! Qoy o özü bunların hamısını öyrənsin, bilsin. Lakin birdən öyrənməsə, bilməsə? Axı, bəzən elə olur ki, adamlar bir yerdə, bir yurdda yaşayır, hər gün deyil, hətta hər saat üz-üzə gəlir, beləcə illəri başa vurub saç-saqqal ağardır, yenə də bir-birini yaxşı öyrənib tanıya bilmirlər. Bizim arabaçının da başına belə bir iş gələ bilərmi? Əlbəttə, həyatda hər şey mümkündür. Onda nə olar? Demək, arabaçının murazı gözündə qalar? Elə isə onun həyatının mənası nə olar?!

Arabaçı dayanıb kim bilir neçənci dəfə köksünü ötürdü və kərəntini acıqla yerə çırpdı.

Ətrafdakı dərin sükut onu diksindirdi. Yuxudan ayılmış kimi oldu, dövrəsinə baxındı; biçinçilərin hamısı çəkilib getmiş, xeyli aşağıda kərəntiləri baş-başa çataraq üstünə ot yığıb kölgəlikdə uzanmışdılar. Sağınçılar dağdağan ağacının altına toplaşmışdılar. Kəllər çəmənliyə döşənib, başlarını, quyruqlarını tərpədə-tərpədə göyündən qorunurdular. Dərənin hündürlərində, yanıb bozarmış güneylərdə duman kimi qatı ilqım qaynayırdı. günəş alov saçırdı. Araba-

çının dili ağzında qurumuşdu. Boğazına zəhər kimi bir acılıq çökmüşdü. Səhər öz gözəlliyi və təravəti ilə hamının könlünü oxşayan Dərə, indi ona cəhənnəm kimi görünürdü. O, sağınçıların cərgə ilə yığdıqları göy tapılların arasından keçib arabasının yanına endi, kiminsə kölgəlikdə torpağa basdırdığı cürdəyi dartıb çıxartdı, dodaqlarının kənarlarından sinəsinə su tökülə-tökülə doyunca içdi, nəfəsini dərib cürdəyi yerinə qoydu, köynəyinin qolu ilə dodaqlarını sildikdə, dilinin ucunda duzlu, xoşagəlməz tər dadıb üz-gözünü turşutdu və yalnız bu an üst-başına fikir verdi; bütün paltarı su içində idi. O, alt köynəyini çıxarıb sıxdı, arabanın cağının üstünə sərdi və üst köynəyini yalxı geyərək dağdağan ağacına sarı yeridi. "Qoy indi desin, ürəyində nə varsa hamısını desin. İslanmışın yağışdan nə pakı? Mən də ona deyərəm ki, Zöhrə, Kərim dayın yox, istər lap bütün "Engels" məndən incisin, səndən dönən deyiləm. Mənimki də belə gətirib. Koroğlulamasına deyəcəm. Qoy lap acığı tutsun, hoppanıb-düşsün. Ancaq qoy bir kərəmlik bilsin ki, mənim məhəbbətim hər "dərdindən ölürəm" deyənlərin məhəbbətindən deyil".

O, ağacın altına söhbətə hazırlaşmış halda, ürəyi sözlə dolu gedirdi. Onun nəzərində bu, onların ən ciddi və bəlkə də axırıncı söhbətləri olmalı idi. Qara bu dəfə lap əməlli-başlı söhbət eləyəcəkdi. Buna görə də o, özünü toxtatmağa, köksünü yarıb çıxacaqmış kimi şiddətlə çırpınan ürəyini sakitləşdirməyə çalışırdı. Bax, indicə, Zöhrə onu görən kimi sağınçılardan ayrılacaq və... Lakin o, nə görsə yaxşı idi? Bütün bu aramsız həyəcan, şiddətli ürək döyüntüləri, özünü toxtatmağa çalışmaq – hamısı əbəs imiş. Zöhrə arabaçını tənəffüsdə yanına çağırdığını sanki unutmuşdu. O, sağınçıları başına toplayıb, boş vaxtdan istifadə edərək, dərnəyin növbəti yığıncağını keçirirdi. Beş addımlıqda heykəl kimi dayanıb gözlərini ona zilləmiş oğlanı gördükdə Zöhrə bir an duruxdusa da, yenə təhərini pozmadı, əlindəki göy cildli dəftəri vərəqlədi. Bu hal arabaçının qəlbini yaraladı. Qəribə idi: qızın ona xoş söz deməyəcəyini kəsdirmiş olduğu halda, onun öz vədinə yalançı çıxdığından incidi. Qaşqabağını sallayıb, dabanı üstə geri döndü. Onun bu hərəkətini sağınçıların heç biri sezmədi. Yalnız yenə də həssas İsmət xala oğlanın belə iti dönüşündən nə isə duydu və tezcə arxadan onu səslədi:

– A bala, niyə qayıtdın? Yeməkmi istəyirdin, nədir?

– Yox, ay xala, elə-belə gəldim...

– Bəlkə könlün qatıq istəyir?.. Xalan ölsün, gecə başım elə qatışıq oldu ki, qatığı torbaya tökməyi də yadımdan çıxartdım. İndi yəqin turşuyub zəqquma dönüb, heç olmasa gəl atlama qayır, hortdat.

– Zərəl yoxdur, ay xala, onsuz da iştahdan kəsilmişəm.

– Bıy, canım çıxsın, olmaya çox işlədin, ədə?

Qara cavab vermədi.

– Di belə hara gedirsən? Gəl otur burda, yanımda, Zöhrə yaxşı-yaxşı söhbətlər eləyir. Təzə sağım qaydasından danışır. Özün bilirsən ki, təzə söhbət olan vədə xalanı yerindən tərpətmək çətin məsələdir. Qoy qurtarsın, sonra könlün nə istəsə, qalxıb taparam. Özümdə olmasa da qızlarda olar. Qatlamadan, fəsəlidən, kətədən-zaddan...

Arabaçı dönüb biçinçilərə doğru uzaqlaşdı. İsmət xala başını buladı (Kərim dayının bir şeydən narazı qalarkən başını bulaması, deyəsən, ona da sirayət etmişdi). Sonra İsmət xala Zöhrəyə gözaltı bir nəzər saldı; arvada elə gəldi ki, "yeni şəraitdə yeni sağım üsulu" haqqında danışığın şirin yerində onun bacısı oğlu ilə qatıq, atlama, fəsəli söhbətinə başlaması Zöhrənin xoşuna gəlməmişdi. Doğrudan da, Zöhrənin sifəti tutulmuşdu. Lakin bu, İsmət xalanın aralığa söhbət salmasından çox, yenə arabaçı haqqında düşüncələrə qapılmasından idi. Qaranın qəlbi sanki qəmli bir kitaba dönüb Zöhrənin gözləri önündə səhifələnirdi. Yox, bu əhvalata son qoymaq lazım idi. Lakin necə? Heç bir nəsihət Qaraya təsir eləyə bilməzdi. Bu sonsuz nəsihətlər onu daha inadlı, daha dəlisov edəcəkdi. Amma ayrı əlac da yox idi. "Yox, deyəsən doğrudan da onunla əməlli-başlı danışmalıyam, – deyə Zöhrə fikirləşirdi. – Lap Şahgəldiyeva məsələsini də deyəcəm. Mənim özümə, Kərim dayıya, bizim hamımızın işimizə hörməti varsa, bu dəlisövlükdən əl çəkər". Zöhrə yaxşı bilirdi ki, Şahgəldiyeva öz hədə-hərbələrini unutmayıb, onu öz sevimli işlərindən uzaqlaşdırsa bu, təkcə onun özü üçün deyil, bütün ferma işçiləri, o cümlədən, Kərim dayı üçün də pis olacaq. O, olduqca qısa müddətdə sağınçıları yeni şəraitə alışdırmalı, bir çox yeni məsələləri onlara başa salmalı, tamamilə yeni şəraitdə meydana çıxacaq çətinliklərdən heç kimin ruhdan düşməməsinə, sağınçılıq peşəsinə həvəsini itirib, bir zaman olduğu kimi, yenə sahə briqadalarına qaçmamasına çalışmalıdır. Belə bir vaxtda, adi bir əhvalat nəticəsində yayılmış dedi-qodunun qurbanı olub meydandan çıxarılmaq?! Yox, Zöhrə artıq əvvəlki Zöhrə deyildir. Bir

zaman Qara: "Sən məni bədbəxt eləyirsən", – deyib sonra da göz yaşı tökdüyü yadına düşəndə o, özü-özünün acizliyinə, son dərəcə ürəyiyumşaqlıq elədiyinə nə qədər acıyır və peşmançılıq çəkir! İndi o, Qaraya tamam başqa cür – utanmadan, xəcalət çəkmədən, yoldaşcasına danışacaq. Lətifənin haqqında, Qaranın, hətta Sarının haqqında da onunla söhbət eləyəcək, hər şeyi ona açıb söyləyəcəkdi. Əgər Qaranın əlindən kəl haylayıb mahnı oxumaqdan başqa özgə bir iş gəlirsə, əgər onda çörəyini yeyib böyüdüyü doğma kənddə həqiqi məhəbbət varsa, qoy o, Zöhrəyə kömək eləsin, dar gündə onun səsinə səs versin. Zöhrə onunla, bax, elə bu saat, dağdağan ağacının altından duran kimi danışacaq. Hələlik isə məşğələni qurtarmaq lazımdır.

– Hə, biz nə təhər sağırıq? – deyə o, aralıqda heç nə olmamış kimi, sakitcə sözə başladı. Lakin birdən hiss etdi ki, həmişə onun bir kəlməsini belə ötürməməyə çalışan İsmət xala bu dəfə nədənsə qulaq asmır.

– İsmət xala, fikrin hardadır?

İsmət xala nəzərlərini biçinçilər tərəfdən çəkdi.

– Ürəyim gədənin yanında qaldı, dərdin alım. Deyirəm, bəlkə sən çağırasan onu. Sənin sözünü yerə salmaz. Yoxsa, dilim qurusun, ac-susuz qalıb azarlar.

– Yaxşı, çağıraram, İsmət xala. Ancaq sən qulaq as! – deyə Zöhrə bu dəfə xeyli sərt dilləndi və bir daha sözünə ara vermədi: – Biz əvvəlcə buzovun boğazına ipi salıb bağlayırıq inəyin qabaq ayağına. Sonra da bir-iki ağız "eydirmə" deyib başlayırıq məmələrin hansı qabaqca əlimizə düşsə dartışdırmağa. Elə ki, qurtardıq, buzovu açıb buraxırıq inəyin altına, ta sən o biri heyvanı sağanacan, buzov da bu yanda kəllə vura-vura dartışdırır. Axırda nə olur? Onda görürsən ki, inək balasının əlindən qurtarmağa yer gəzir. Niyə? Baxırsan ki, məmələr çeynənib-çeynənib yara olub... heyvanı buraxırsan çölə, açıq havada, ayazda, boranda gəzir, çör-çöp üstə yatır, kol-kosda dolanır, he-eç... Axşam yenə əlini atırsan ki, sağasan, inək yaxın qoymur, təpik atır, fıs-fıs fısqırır. Niyə?.. Candır axı! Sizin birinizin barmağınıza iynə ulduzu boyda tikan batanda qışqırtınızdan durmaq olur. Onun isə dili yoxdur, deyə bilmir ki, məsələn, ay İsmət xala, ay Hürü bacı, ay Yasəmən, yaram var, əl vurma, ayazda-boranda gəzmişəm, simləyib... Birtəhər,

yarı-yarımçıq sağırsınız, süd qalır əmcəkdə, qalıq-qalığın üstə gəlir, axır gündə də görürsən ki, inəyin əmcəyi şişdi, sonra da deşildi, xarab olub getdi. Azmı olub belə şeylər? Sən de, İsmət xala, azmı olub? – deyə Zöhrə arvadın yenə biçinçilərə sarı boylandığını görüb ona müraciət etdi.

Öz adını eşidən İsmət xala diksinən kimi oldu, üzünü döndərdikdə gözləri Zöhrənin sərt bir ifadə ilə qıyılıb, nüfuzedici nəzərlə ona dikilmiş gözlərilə qarşılaşdı. Arvad karıxdı. Zöhrə bu gün nə üçün belə sərtləşmişdi? Bu qədər sağınçını bir yana qoyub, nə üçün həmişə onun adını çəkirdi?

– Nə deyirsən, bala?

– Deyirəm ki, İsmət xala çox xarab olub.

– Niyə, a bala, nədən xarab olmuşam?

– Deyilənə niyə qulaq asmırsan? Cavab ver görüm, indicə mən sənə nə dedim?

– Dedin ki, gedib gədəni özüm çağıracam.

Sağınçılar bir ağızdan qəhqəhə çəkdilər. Zöhrə də özünü saxlaya bilməyib güldü. Bacısı oğlunun üstündə bu qədər tir-tir əsən bu incəqəlbli arvadı mehribanlıqla süzərək:

– Eh, ay İsmət xala, – dedi, – doğrudan da xarab olub gedibsən. Mən deyirəm ki, bax, məsəl üçün, sənin ceyranın nə üçün tayəmcək olub? Hürü bacının ala inəyinin yelininin bir tərəfi niyə çürüyüb tökülüb?

– Günah bizim özümüzdə olub də, ay bala, – deyə İsmət xala, bu gün onunla həmişəki yumşaq, mülayim rəftarından xeyli fərqli danışan Zöhrənin axırda onu taqsırlandıracağını güman edib, qabaqcadan boynuna aldı və bir daha gözlərini qızın üzündən ayırmadı. İndi bütün sağınçıların diqqəti Zöhrədə idi. Heç kim nəzərini ondan ayırmırdı.

Zöhrə elə bil onların qapalı gözlərini açırdı; onlar köhnə sağım üsuluna illərlə adət etmiş və çəkilən zərəri adi, qanuni bir şey kimi bilmişdilər. "Başqa cür necə ola bilər?" Bu sual heç kimin ağlına gəlməmişdi. Niyə? Aydın məsələdir: fermada dədə-babadan qalma şərait köhnə sağım üsulunu dəyişdirmək haqqında düşünməyə heç kimə imkan verməmişdi. İndi köhnəliklə vidalaşmaq barədə söhbət gedir və budur, Zöhrə də təzə üsul, təzə fikir deyir. Onun dedikləri olduqca sadə, lakin burada oturanlar üçün yeni idi. Sağınçıları cəlb edən də bu yenilik idi.

– İndən belə gərək sağın yerində bakda isti su qoyulsun. Böyüründə də təmiz dəsmallar... Elə ki, sağına gəldin, əvvəlcə gərək inəyin əmcəyini ılıq su ilə yaxşı-yaxşı yuyasan, sonra da dəsmalla qurulayasan. Bunu qurtardınmı – qabların təmizliyinə fikir ver. Daha əvvəlki tək vedrəni qoluna keçirib dınqırha-dınqırla inəyin altına cumma. Daha mən inəklə necə rəftar eləməyi demirəm. Elə ki, oturdun inəyin böyüründə, başla əmcəyi ikiəlli masaj eləməyə. Əvvəlcə altdan yuxarı, sonra da üstdən aşağı... O qədər ki, inək lap xoşhallansın. Sağ. Özü də əlinə hansı məmə düşsə yox, qabaq məmələrdən başla. Məməni dartışdırma, yoxsa inək südünü çəkər, ovcuna al, necə ki, keçi əmcəyini alırlar... Bax elə. Tez-tez, bir dəqiqədə ən azı yüz-yüz iyirmi dəfə bas...

– Elə niyə, Hürü bacı? – deyə Yasəmən Zöhrənin sözünü kəsməyə cürət etməyərək Nənəm-nəhrənin qulağına pıçıldadı. Nənəm-nəhrə də eyni qayda ilə:

– Necə niyə? – dedi. Onda inəyin əmcəyində bir damcı da qalmaz.

Bu sözləri İsmət xalanın qulağı aldı.

– Bıy! – deyə arvad qəfildən elə səsləndi ki, hamı dönüb ona baxdı.

Zöhrə soruşdu:

– Nə var yenə, İsmət xala?

– A bala, bəs buzov?

– Nə buzov?..

İsmət xala Nənəm-nəhrə ilə Yasəməni göstərdi:

– Hürüynən Yasəmən burda pıç-pıç eləyirlər ki, gərək damcısınacan sağasan. Bəs buzov?.. Öz döşümnən ha əmizdirməyəcəm, a bala? Ac qalmazmı heyvan?

Arabaların yanından camaatı işə çağıran Yunus kişinin səsi eşidildi. O, burada işləri nizama salıb kəndə qayıtmalı idi. Buna görə də hamını tələsdirirdi. Artıq gün əyilmişdi. Dağdağan ağacının kölgəsi uzanıb dərənin aşağılarına doğru sürünür, dağlar tərəfdən yenidən əsməyə başlayan meh bürkünü dağıdır, Dərənin güneylərinin əbədi sakinləri olan kəkliklər ordan-burdan dillənməyə başlayırdılar.

– Sənin sualın barədə gələn dəfə danışarıq, İsmət xala. Sən bacın oğlunu uşaqlıqda əmziklə necə əmizdirirdin, buzovlarını da,

bax, o cür əmizdirəcəksən, – deyə Zöhrə gülümsünüb ayağa durdu. – Ancaq hələlik yenə bacın oğlunu əmizdir, cürdəyin hardadır, gətir bir yaxşı atlama qayır, elə mən də içmək istəyirəm.

Kim bilir, nə qədər vaxtdı ki, İsmət xala Zöhrənin bu həlim səsini eşitməmişdi. Bu adi mehribanlıq və səmimiyyət arvada elə qəribə təsir etdi ki, o, hətta bir qədər köyrəldi də.

– Əmizdirək, dərdin alım. Dilinə qurban olum, bala, əmizdirək, – deyə İsmət xala ağacın altında elə tələsə-tələsə yeridi ki, hətta bir-iki dəfə ayağı ota ilişib büdrədi də...

Arabaçı öz-özünə düşündü ki, deyəsən hərdən küsəyənlik etmək də adama xeyir verirmiş: Zöhrə dağdağanın kölgəsindən ona əl eləyib yanına çağırdı, öz əlilə ona "qatlama", sonra isə mis camda atlama verdi. Bayaq iştahının kəsilməsindən şikayətlənən oğlanın indi "qatlamanı" necə tez-tez yediyinə, atlamanı necə acgözlüklə başına çəkdiyinə baxıb, qımışaraq:

– Bax belə, – dedi, – yoxsa uşaq kimi küsüb geri qayıtmaqdan nə çıxar?.. Vallah dəlisən, dəli, ay Qara. Özünü elə kökə salırsan ki, yazıq xalan da burda yarpaq kimi əsir. Mən düz bir saat leksiya deyirəm, axırda soruşuram: İsmət xala, mən nə dedim? Məlum olur ki, heç mənə qulaq asmırmış, fikri-zikri sənin yanındaymış.

-Eh, yaxşı ki, heç olmasa bircə nəfər mənim barəmdə fikirləşən varmış.

– Bəs mən?.. Mən sənin barəndə fikirləşmirəm?

Arabaçı onu sınayıcı nəzərlə süzdü.

– Nə fikirləşirsən?

– Mən öz-özümə deyirəm ki, bizim Qara yaxşı oğlandır, ağıllı oğlandır, – deyə Zöhrə arabaçını dilə tutmağa çalışdı, – bizim komsomolçuların içində onun qədər qoçağı, öz işini-peşəsini onun qədər istəyəni yoxdur...

– Bəs sonra?

– Sonra da fikirləşirəm ki, – deyə Zöhrə getdikcə söhbəti mətləb üstünə gətirib çıxarmağa çalışdı, – fikirləşirəm ki...

O, birdən-birə duruxdu. Zöhrə ayrılıqda düşünərkən arabaçı ilə söhbət zamanı heç də çətinlik çəkməyəcəyini güman edirdi. Lakin belə anlarda soyuqqanlı danışmaq nə qədər çətin imiş! Zöhrə əvvəlcə duruxdu. Sonra qızın yanaqlarına, onun həyəcan keçirdiyini bildirən xəfif qızartı çökdü. O, artıq əvvəlki sakitliyini saxlaya bilmədi:

– Mən sənin barəndə həmişə yaxşı şeylər fikirləşirəm, Qara. Ancaq sən elə eləyirsən ki, yaxşı fikir də dönüb pis olur, – deyə birdən o, səsinin ahəngini də dəyişdi. – Bax, sən deyirsən ki, Kərim dayını istəyirsən, özü də lap çox istəyirsən. Ancaq mən buna heç bir qırıq da inanmıram... Bax, neçə vaxtdır yazıq kişinin başından top-tüfəng atılır. Sədr orda-burda deyə-deyə gəzir ki, Kərim Sərkəroğlu fermada müvəqqəti adamdır. Sən bunu eşitməmiş olmazsan. Heç ikidən-birdən gəlib deyibsənmi ki, Zöhrə, Kərim dayının barəsində belə deyirlər, nə qayıraq?.. Bax, onda mən də coşa gəlib deyərəm, madam ki, bizim belə ürəkdən yanan, qayğı çəkən yoldaşlarımız-qardaşlarımız var, gəlin hamımız ağzıbir olaq, Veysəli, Yasəməni, uşaqların hamısını yığaq, yumruğumuzu bir yerə döyüb qoca müdirimizi yıxılmağa qoymayaq. De görüm sən bu barədə mənə heç olmasa bircə gəlmə deyibsənmi? Yox! Əksinə... Əlini qulağıyın dibinə qoyub başlayırsan kəndə-kəsəyə səs salmağa, ağzına gələni deyib-danışmağa. Lətifə kimi yaramazlar da bundan istifadə eləyib başlayırlar dedi-qodu yaymağa, Şahgəldiyevadan belə hamıya yaxşı-yaman qandırmağa ki, bəs Zöhrə belədir, elədir. Onun dediklərini yəqin sən özün də dönə-dönə eşidibsən... İndi, özün de görüm, haqqında bu cür yaxşı-yaman danışılan adam Kərim dayının sözünə söykək olmaq istəyəndə, məsələn, Şahgəldiyeva ona inanacaqmı? Heç vaxt! Zöhrə danışa-danışa arada fikirləşirdi ki, arabaçıya söhbəti yalnız öz üzərində qurmaqla az-çox təsir edə bilər. Hərdən də o, duruxaraq: "Eh, komsorq ki, komsorq, gör bir necə quru danışıram", – deyə ürəyində özünün-özünə acığı gəlir, tutulub qalır, lakin söhbəti davam etdirməyin zərurətini düşünüb yenidən başlayırdı: – Şahnabad Şahgəldiyeva kabinetindən qırağa çıxmır, birinin haqqında pis söz eşidəndə o saatca belinə damğa basır, başqalarının sözüylə oturub-durur, Çapar kimi üzdə partiya-dövlət deyib, daldada öz canının qeydinə qalanları qoltuğunun altına çəkir; ancaq, bax, Kərim dayı təkin gecəli-gündüzlü canının üstündə çalışanın başından basır, gözüm-çıxdıya salır, köhnəsən deyir, nə bilim, həyatdan geri qalıbsan deyir... Yenə soruşuram, sabahı günü mən Kərim dayının sözünə söykək olmaq istəyəndə o, mənə qulaq asacaqmı? Heç vaxt! Əksinə, döşümdən vuracaq ki, geri dur, nə bilim, sən beləsən-eləsən, nə bilim, qoy Lətifə xanım danışsın. Bax gör bir sən nələr eləyibsən, Qara; sən öz hərəkətlərinlə pis adamların dilinə söz veribsən... Mən bir vaxt

sənə deyirdim ki, məni bədbəxt eləyirsən... Əlbəttə, indi elə deməm. Bədbəxtlik odur ki, adamın dilini kəsələr, danışmağa qoymayalar, azadlığını əlindən alalar. Mən isə hələ təzəcə dilə gəlmişəm. Danışacam. Bax, burda tər tökənlərdən ayrılıb, yağ yeyib yaxada gəzən, dərnəkdən qaçan o zəhər dillinin özünün dilini kəsəcəm. Səni də bax, buna görə çağırdım... çağırdım ki, hər şeyi biləsən, həm də görəsən ki, bizim işimizi necə çətinə salıbsan. Sən mənə yaxşılıq eləməyə çalışa-çalışa, axırda hamımıza pislik eləyibsən... Eh, bu qədər danışıram, heç olmasa bircə sözüm beyninə batırmı?!

Zöhrənin sifəti qan rənginə boyanmışdı. Ürəyi şiddətlə döyünürdü. Nə qədər sərbəst olmağa çalışırdısa da, bacarmırdı. Lakin bununla belə indi o, özündə az da olsa bir yüngüllük hiss edirdi. Həmişə arabaçının halına acıyan, uşaqlıqdan bir yerdə böyüyüb boy atdığı bu məzəli oğlanın könlünü sındırmağa dili gəlməyən, ona bircə kəlmə acı, ya sərt söz deyəndə səsi titrəyən, hər şeyi ürəyinə salıb daxilən əzab çəkən bu qız, nəhayət, açıq danışa bilmişdi, axır ki, ürəyini ürəyi istəyən kimi boşaltmışdı. Bəli, indi o, özündə bir yüngüllük hiss edirdi. Qoy indi arabaçı danışsın, görək o nə danışır. Lakin nə danışmaq?.. Arabaçının ağzı açıla qalmışdı. Mis cam onun əlindən düşmüş, qabın dibindəki atlamanın qalığı şalvarının dizinə tökülmüşdü. O isə heç nəyə əhəmiyyət vermədən, gözlərini döyə-döyə qızın üzünə baxırdı. Elə bil ki, bayaq beynində söz hazırlaya-hazırlaya gələn arabaçı deyildi. Deyəsən, oğlan lap mat-məətəl qalmışdı. Axı, doğrudan da, mat qalmalı iş idi. Gör bir dünyada nələr olmuşdu! O, kəllərini haylaya-haylaya mahnı oxuduğu günlərdə gör nə cür hadisələr baş vermişdi! Arabaçı bu hadisələri eşitməmişdimi? Əlbəttə, eşitmişdi. Bəs necə olmuşdu ki, bu hadisələr onu düşündürməmişdi? O, belə ciddi məsələlərə nə üçün göz yummuşdu?

Dəqiqələr ötür, arabaçı isə cınqırını belə çıxarmadan susurdu.

Sükut Zöhrəni darıxdırırdı. Camaat artıq iş üstündə idi. Yenə kərəntilər parıldayır, yenə dərəyə ahəngdar qıjıltı yayılırdı. Sağınçılar da yabalarını götürüb biçinçilərin arxasında cərgələnmişdilər. Yalnız İsmət xala ağacın o tərəfində, üzü o yana oturub nə isə edirdi. Kim bilir, bəlkə də özünü məşğul kimi göstərib, cavanlara qulaq verirdi. Deyəsən, sükut onu da darıxdırdığındandı ki, arvad dönüb geri baxdı və gözləri Qaranın dizinə sataşdıqda o dəqiqə ayağa sıçrayıb yaxın gəldi:

– Şalvarcığazını zay eləyibsən ki, a xalan ölsün, – deyə İsmət xala yerdən bir çəngə ot yolub, bacısı oğlunu dizini sildi, hər iki gənci gözaltı bir nəzərlə süzdü, sonra üzünü Zöhrəyə tutdu: – Görürsənmi bunu, lap ərköyün uşaq təkin olub gedib. Azdan-çoxdan bir şey yedirə bildinmi, a bala?

Zöhrə ayağa durub, bürüşmüş ətəyinin qırışlarını çiyninə aldı və arabaçının gərgin sifətinə mənalı-mənalı baxaraq:

– Deyəsən, yedirdə bilmişəm, İsmət xala! – dedi.

## 26

Yunus kişi Dərədən yola düşən ilk arabalarla kəndə qayıtdı. Birbaş idarəyə gedib sədri axtardı. Sədrin kabinetinin qapısından qıfıl asılmışdı. Yunus kişi ağacların kölgəsində oynaşan uşaqlardan soruşdu, hətta bir-iki qapıya dəyib gözünə sataşan qocalardan, qarılardan xəbər aldı, sədri gördüm deyən olmadı. "Yəqin sahəyə çıxıb", – deyə Yunus kişi fikirləşdi və ağır, yorğun addımlarla qayıdıb pilləkənin başında oturdu.

Kənd sükuta qərq olmuşdu. Aran düzündən eşidilən yeknəsəq cırcırama səsi isə bu sükutu pozmaq əvəzinə daha da dərinləşdirirdi. Cökə ağaclarının kölgəsindəki uşaqlardan başqa kimsə gözə dəymirdi. Günün ən isti vaxtı idi. Bürküdən, hətta ağacların yarpaqları da ölgünləşib sallanmışdı.

Yunus kişi ürəyində bərk yanğı hiss etdi. Uşaqlardan birini səsləyib suya yollamaq istədi. Elə bu vaxt kök süpürgəçi arvadın ayaqlarını güclə sürüyə-sürüyə, fısıldaya-fısıldaya qan-tər içində gəldiyini gördü. Arvadın əlində vedrə vardı. Yunus kişi onun bulaqdan gəldiyini güman etdi, ürəyinin yanğısından, süpürgəçi gəlincəyədək dözə bilməyib özü onun qabağına yeridi.

– Ay toyunda oynayaq sənin, Güləndam, sən hardan bildin ki, mən susamışam?

Süpürgəçinin yaşı əllidən ötmüşdüsə də, nədənsə hələ ərə getməmişdi və Yunus kişi onunla qarşılaşanda həmişə bu məsələyə bir xal vururdu.

– Bax, elə həmişə belə savab iş gör ki, bəlkə baxtın açıla. Gətir görək, gə... – Yunus kişinin sözü ağzında qaldı. Vedrənin boş

olduğunu görüb təəccüblə arvadın üzünə baxdı. – Bəs bunu niyə boş gətirirsən, arvad?

Süpürgəçi vedrəni pilləkənin ayağına qoyub nəfəsini dərdi, şalının ucu ilə pörtmüş yanaqlarının, sallaq buxağının tərini sildi.

– Bulaqdan gəlmirəm, yanğın mənə gəlsin.

– Bəs hardan gəlirsən?

– Beçə tutmaqdan.

– Beçə? Nə beçə, ay arvad?

– Arı beçəsi... Nə zülm imiş bu beçə tutmaq, qadan mənə gəlsin. Dınqır çalana bax, küləş yandırıb tüstü verənə bax... Səhərdən bir sürü arvad-uşaq tökülmüşük o düzə. Vedrə-vedrə su daşıyıb arının qabağına çiləməkdən daha məndə can qalmayıb. Arı da nə arı!.. Bulud kimi çıxmışdı eşikdən. Axır ki, bir təhər elədik, gəldi qondu cökənin budağına...

Kənddə Çapardan başqa arı saxlayan yox idi. Buna görə də Yunus kişi şikayətinə ara vermək istəməyən süpürgəçinin sözünü kəsib soruşdu:

– Bilmirsən arı yiyəsi özü harda olar?

– Harda olacaq, arısının yanında...

Yunus kişi yenə də nə isə demək istəyən süpürgəçiyə qulaq asmayıb ağac kölgəsindəki uşaqlardan birini sədrin dalınca yolladı, özü isə onsuz da yorğunluqdan şikayətlənən Güləndama zəhmət vermək istəməyib bulağa getdi.

O, bulaqdan su içib, əl-üzünü yuyaraq geri dönəndə Çapar artıq kabinetində gəzinirdi. Yunus kişi içəri girən kimi gülümsünüb əlini bığına çəkdi.

– Təbrik eləyirəm, eşitdim arın beçə buraxıb.

Çapar partiya təşkilatçısının istehzasını başa düşüb üz-gözünü turşutdu, gözlərini yerdən ayırmadan soruşdu:

– Ot gətirdinmi?

– Yəni bu səni maraqlandırır?

Çapar başını qaldırdı. Yunus kişinin bic-bic gülən qaynar gözlərinə baxan kimi hiss etdi ki, partiya təşkilatçısı yenə ona boş-boşuna rişxənd etmir. Onu belə danışmağa vadar edən nə isə bir səbəb var. Yunus kişi elə həmişə belə idi; birisi ilə ciddi toqquşmalı olacağını qabaqcadan biləndə həmin adamla çox təmkinli bir əda ilə qımışa-qımışa, sakit-sakit, incə bir istehza ilə sözə başlayar,

məqam yetişəndə isə birdən-birə sərtləşib, necə deyərlər, əjdahaya dönərdi. Çapar daldada "bığlı" yaxud "təhlükəli adam" adlandırdığı bu kişinin gözlərinin içinə baxan kimi hər şeyi duyardı. bu dəfə də o, dərhal hiss etdi ki, bu təmkinli, sakit davranış, bu incə istehza mütləq bir ciddi mübahisə, yaxud əməlli-başlı toqquşma ilə nəticələnəcək. O da təmkinli tərpənməyi, istehzaya istehza ilə cavab verməyi qərara aldı:

– Təsərrüfat məsələləri hər halda kolxoz sədrini partkomdan az maraqlandırmır.

– Məncə, bu gün səni arı beçəsindən başqa heç nə maraqlandırmır. Düzdür, ya yox? Yazıq Güləndamı da o qədər yorubsan ki... Yazıq addımını da ata bilmir.

Çapar qərarına sadiq qala bilmədi. Onun pırpız qaşları gözlərinin üstünə endi. Burnunun kənarlarından dodaqlarının uclarına qədər enən qoşa cizgilər dərinləşdi. Çoxdan bəri qaynayıb daşan hirsini boğa bilməyib vaxtından qabaq partladı:

– Bura bax, Yunus! – deyə o, qəzəbli-qəzəbli partiya təşkilatçısının üstünə yeridi. – Ya gəl bu kolxozda sən qal, ya da mən! – Çaparın dodaqları səyridi. – Sən nə vaxta qədər məni gicitkan kimi dalaya-dalaya duracaqsan, balam! Niyə adamın canını xirtdəyinə yığırsan?

– Deyəsən, sən açılışmaq istəyirsən?

– Bəli, açılışmaq istəyirəm!

– Hə, bu yaxşıdır. Düzünü bilsən elə mən də sənə ona görə zəhmət verdim, – deyə Yunus kişi sakitcə cavab verdi. – Neçə vaxtdır mənim başım qarışıqdır. Sənin də ki... Elə sənin də başın açılmır. Bax, budur, neçə gündür mənim cibimdə bir məktub yatır. Mənə elə gəlir ki, bu məktub müəyyən qədər bizim açılışmağımıza kömək eləyər.

Yunus kişi pencəyinin qoltuq cibindən göy rəngli bir konvert çıxardıb stulu göstərdi:

– Otur.

Çapar bir partiya təşkilatçısının əlindəki konvertə, bir də stula baxdı, yerindən tərpənmədi. Yunus kişi yeriyib qapının rəzəsini keçirdi. Bu, Çaparı daha da şübhələndirdi. Məktub kimdən idi, haradandı? Nə cür məktubdu ki, onların açılışmağına kömək edəcəkdi? Çaparın ağlına gəldi ki, bəlkə raykomdan ilk partiya

təşkilatına onun haqqında xoşagəlməz bir şey yazıblar? Köhnə dolaşıq işlər yadına düşdü, Çaparın dili-dodağı təpidi, üzü rəngdən-rəngə düşdü. Qəfildən, cəld bir hərəkətlə konverti Yunus kişinin əlindən çəkib aldı. Stula oturanda elə ehtiyatsız tərpəndi ki, şalvarının cibinin ağzı stolun küncünə ilişib cırıldı. Lakin Çapar buna əhəmiyyət vermədi. Tələsik konverti cırıb, dörtkünc qatlanmış cızıqlı dəftər vərəqini açdı. O, əvvəlcə məktubun başına, bir də ayağına baxdı. İmzanı görərkən Çaparın rənginin necə ağardığını, onun məktubu necə tələsə-tələsə oxumağa başladığını müşahidə edən Yunus kişi, dodaqucu gülümsündü, sonra göy örtüklü stolun qarşısında oturdu, başını aşağı salıb bığını eşməyə başladı.

Məktub Çaparın keçmiş arvadı Fatmadandı. O, Yunus kişiyə yazırdı:

*"...Siz mənim "Engels"də tanıdığım adamlardan ən vicdanlısı, ən ədalətlisisiniz, Yunus dayı. Açıq danışmağınıza, sözü adamın gözünün içinə dediyinizə görə sizi çoxları sevmir. İki il bundan əvvəl, atam PİK-də işləyən vaxtlar mənim üzümə dediyiniz sözlərdən necə incidiyim, sizə necə acı cavab qaytardığım heç vaxt yadımdan çıxmaz. Siz onda mənə dediniz ki, Çapar pis adamdır, ona ərə getməyə razılıq verməyim..."*

Bu yerdə Çapar başını qaldırıb nifrət dolu nəzərlə Yunus kişiyə baxdı:

– Ə, sənin mənimlə köhnə düşmənçiliyin varmış ki!

– Oxu, oxu! – deyə partiya təşkilatçısı əlini bığından çəkib məktuba işarə etdi. Çapar oxudu:

*"Mən onda nə qədər avam, nə qədər gözübağlı idim, Yunus dayı! Mən sizin sözləriniz üzərinə heç düşünmək belə istəmədim. Hətta sizi özümə düşmən bildim. Mən o sözlərdəki həqiqəti yalnız bədbəxt olduqdan sonra başa düşdüm.*

*Siz insanlarda açıqlığı sevirsiniz,, Yunus dayı. Buna görə mən də üzümə üz qaralığı çəkib o vicdansızın mənim başıma gətirdiyi yeni bir müsibəti sizə açıq yazmaq istəyirəm.*

*Yəqin qardaşım sizə demiş olar ki, mən xalq təsərrüfat institutunda oxuyuram. Özüm də Biləcəridə ev tutmuşam. Bir axşam dərsdən qayıdanda gördüm o vicdansız gəlib evdə oturur. Mən oldum, o oldu; həyasızlığına salıb evdən çıxmadı. Mən bir namussuzluq edib ona ərə getmişdim, ikinci dəfə namussuzluq etmək istəmədim.*

*Başıma müsibət gəldi, Yunus dayı! Səsimə qonum-qonşu tökülüb gəldi. Çapar mənim evimə nə məqsədlə girdiyini və qonum-qonşunun o vəhşi ilə məni nə vəziyyətdə gördüyünü açıq demək üçün adam gərək bütün abrını itirmiş olsun. Siz o vəhşinin xasiyyətinə bələdsiniz, mənim nə demək istədiyimi başa düşərsiniz. Mən bütün tanıyan-tanımayan adamların qarşısında biabır oldum. O vicdansızı həmin gecə milisiyə aparmışdılar. Sonra öyrəndim ki, o Biləcəriyə vacib iş üçün – tikinti materialı aparmağa gəlibmiş. Vicdanım qəbul etmədi ki, kolxozun işi ləngisin. Milisə gedib onu birtəhər buraxdırdım. Mən onu bağışladım, ancaq siz bağışlamayın, Yunus dayı.*

*Əlinizi sıxıram.*

*Sizə hörmət bəsləyən: Fatma".*

Çapar məktubu çoxdan oxuyub qurtarmışdı. Lakin gözünü kağızdan çəkməyib özünü yenə oxuyan kimi göstərir, həyəcanla fikirləşirdi. Bu məktubu Yunus kişinin əlində dəstəvuz ola bilərdi. Heç şübhəsiz ki, Bığlı bu məsələni partiya iclasına qədər aparıb çıxardacaqdı. İndi Çapar nə etsin?..

Yunus kişinin geniş pəncəli, kobud, qabarlı əli stolun üstündə açıldı.

– Oxudun? Ver bura!

Çapar, hətta özünü də təəccübləndirən bir soyuqqanlılıqla qımışdı, kürəyini stulun söykənəcəyinə dirəyib əllərini qarnının üstünə qoydu.

– Yəni sən məni o qədərmi avam hesab eləyirsən?! – O, stulu şaqqıltı ilə dala itələyərək ayağa sıçradı. – Mən min belə ütülərdən çıxmışam, əzizim, gözüm!

Yunus kişi də ayağa durdu.

– Məktubu ver!

Çapar ağzını göyə tutub əsəbi bir qəhqəhə çəkdi.

– Sən mənə məktub-zad verməyibsən, yoldaş partkom. Şahidin varsa çağır gəlsin. – O, əlləri titrəyə-titrəyə kağızı parça-parça edib şalvar cibinə dürtdü və qapını açıb, arxasına baxmadan sürətlə uzaqlaşdı...

Yunus kişi papiros çıxartdı, yandırıb pəncərəyə yaxınlaşdı. Çapar cökə ağaclarının arasında görünməz oluncayadək onun arxasınca baxdı. Onun sifətinə baxan olsaydı, elə zənn edərdi ki, Yunus

kişi həyatda belə bir adama rast gəldiyinə inana bilmir, gördüyünə, şahidi olduğu hadisəyə heyrət edir.

Lakin Çaparın hərəkəti nə qədər gözlənilməz olsa da, Yunus kişinin daxili məvazinətini poza bilməmişdi. "Mən əbləh də onunla ətraflı danışmaq, onda insanlıqdan bir əsər tapmaq istəyirdim, – deyə o, düşünürdü. – Yazıq!.. Neyləyək, belə danışa bilmədik, ayrı cür danışarıq..."

Lakin Yunus kişinin "danışmağı" uzun çəkdi. Kolxozdakı yeni hadisələr onun başını qarışdırdı...

## 27

"Engels"in camaatı hər il, iyul ayı yetişən kimi, altı aylıq əməkgününə yağ-pendir almağa adət etmişdi. Aranın cansıxıcı bürküsündə ağartısız yaşamaq çox çətin idi. Yanvarda bölünən pul ailələrin çoxunda xərclənib qurtarmışdı. Qapı-bacanın göy-göyərtisini satıb ağartıya vermək üçün şəhərdə-bazarda günlərlə vaxt itirmək, onsuz da gecikmiş taxıl biçinini daha da uzatmaq, aranın qızılı buğdasını qurda-quşa yem etmək demək idi...

Camaat axşamlar kolxoz idarəsinə axışmağa, hesabdarı sıxma-boğmaya salmağa başladı: "Vedemostu niyə gecikdirirsiniz?" "Bu il hər əməkgününə nə qədər yağ paylanacaq?" Arıq, uzun hesabdar stolun üstünə qalaq-qalaq yığılmış kağızların arasından başını qaldıraraq, nazik, uzunsov sifətinə yaraşmayan ətli dodaqlarını büzüb, taxta kimi quru çiyinlərini çəkirdi:

– Olmayan yerdən nə paylansın, ay qardaş?

– Tərifli Sərkəroğlunuz bu il hazırlığı güclə ödəyib, anbara heç bircə kilo da təhvil verməyib. Özümü yağ eləməyəcəyəm ki? – deyə Çapar da eyni qayda ilə çiyinlərini çəkir və əllərini enli toqqasına sürtə-sürtə idarədə o baş-bu başa gəzinib Kərim dayının qarasınca asıb-kəsməyə başlayırdı: – Şahgəldiyeva kimi adam nahaq yerəmi qovdu onu öz kabinetindən? Fakt göz qabağındadır: bacarmadı. Məəttəl qalmışam ki, bizim camaat kiçikli-böyüklü, o kaftarın ətəyindən nəyə görə bərk tutublar?..

Kərim dayı bir necə günün içindəcə elə bil daha da qocalmışdı. Xəstəlikdən sonra onsuz da düşgünləmiş qocanın bədəni birdən-

birə qurumuşdu. Hər dəfə camaatın narazılığını eşidərkən, onun avazımış sifətinin cizgiləri dərinləşir, alnının qırışlarından daxili bir gərginlik, çuxura düşmüş gözlərindən isə qəzəb oxunurdu.

Kərim dayı həyatında ağır-yüngülü çox görmüş, bərkə-boşa az düşüb çıxmamışdı. Lakin bu ilki hadisə, deyəsən, hər şeydən ağır idi.

Bizdən tələb olunur ki, camaatın dolanmasını yaxşılaşdıraq, qabağa baxaq, yeniliklər yaradaq, bu kişi isə... Necə deyim? Açıq-açığına geri dartır, – deyə gurultu ilə danışan Çaparı Kərim dayı eyni gərginliklə, eyni qəzəblə dinləyirdi.

– Sən belə sözlərlə camaatın gözünə kül üfürə bilməyəcəksən, Çapar! – deyən qoca az qalırdı ki, Gecədələnoğlunu dişlərilə parçalasın, – mən hər il mayın axırlarında, ya iyunun ortalarında hazırlığı ödəyirdimmi? Quyruq doğanacan qayrılan mənsildən əməkgününə ən azı iyi yüz qram yağ paylayırdımmı? Bəs nə oldu birdənbirə? Sərkəroğlu Kərim yağı-pendiri öz qarnına axıtdı, yoxsa sən Çapar, sən kolxoz sədri, heyvanı bu cırhacırda düzün ortasında qoyub yelinini qurutdun?! Qoy el desin, elədir, yəinki belə?

Müdirlə sədrin arasında belə deyişmələr indi daha tez-tez olurdu. Bu sonsuz danışıqlar artıq Kərim dayını bezdirmiş, lap canını boğazına yığmışdı. Sədrin isə camaat içində qocanın üstünə qışqırmaqdan elə bil xoşu gəlirdi. Kərim dayı artıq idarədə onunla göz-gözə durmaq belə istəmir, əsəbi hərəkətlə əlini yelləyib fermaya gedir, gündüzlü-gecəli orada qalıb kəndə dönmürdü.

Dərədən gündə dörd-beş araba ot daşınırdı. Kərim dayı gecələr fermaya daşınan otun bir qismini istifadəyə verilmiş töyləyə göndərir, qalanını isə açıq havada naxıra dağıtdırırdı. Heyvanlar göy ota qarışqa kimi daraşırdılar. Qoca naxırı hələ xoruzlar ağzını açmamışdan örüşə göndərir və yay gecəsinin qısalığından şikayətlənərək: “Heyvanın qarnı doymur”, – deyə gah öz-özünə söylənir, gah da naxırçıları danlayırdı.

Nəhayət, ikinci töylə də hazır oldu.

Yemçilik briqadasının tikintidəki işçiləri Dərəyə gedən günü sağınçılar kəndə qayıtdılar. Həmin gün daha bir töylə istifadəyə verildi.

Zöhrəgil zootexniklə baytar həkimin göstərişlərilə, bürküdən arxacda yatmaqdan daha çox zərər çəkmiş, sınıxmış, xəstələnmiş inəkləri seçdilər. İşlərin çoxu töylələrə köçürüldü. Kərim dayı indi

də töylələrlə əlləşirdi. Sement döşəmələri gündə üç, lazım gəldikdə isə dörd dəfə təmizlətdirmək, arakəsmələrə səpmək üçün xırmandan saman daşıtdırmaq, gecələr axurlardakı yem qalıqlarını yığışdırıb, əvəzində qoyulan təzə yemin miqdarına fikir vermək, buzovların əmizdirilməsi üçün Sarının tərtib etdiyi cədvəldə göstəriləndən nə artıq, nə də əksik süd ayrılmamasına nəzarət etmək... Bunlar hamısı yeni şəraitdə meydana çıxan yeni işlər idi. Bu işlərin öhdəsindən gəlmək Kərim dayı üçün o qədər də çətin deyildi. Lakin elə bir iş vardı ki, onun öhdəsindən nə Kərim dayı, nə də həmin işin mütəxəssisləri olan baytar həkim və zootexnik gələ bilirdilər.

Axırıncı töylə istifadəyə verilən günü, dan yeri söküləndə arxaca gələn naxırçılar, heyvanı töylələrə sarı yelləyərkən bir neçə inək yerindən qalxmadı.

– Ə, bu üzülmüşlər yenə nə yapışdılar torpağa? – deyə yuxusuzluqdan dilxor olmuş naxırçı əlilə gözlərini ovuşdura-ovuşdura yaxınlaşıb, çomaqla inəkləri dürtmələdi. – Heç-eç! Tanrı qırmış!..

Heyvanlar fısqırışa-fısqırışa qalxdılar. Naxırçı fit çala-çala, qısa, iri başlı çomağını yelləyə-yelləyə o biri heyvanların dalınca getdi. Elə bu an arxada nə isə bir tappıltı və boğuq böyürtü eşidildi. Naxırçı diksinib geri çevrildi. Onun indicə yellədiyi inəklərdən biri böyrü üstə döşənmişdi. Bir az o yanda toranlıqda qara bir xətt kimi uzanan dayaz xəndəkdən keçərkən daha iki inəyin necə yerə sərildiyini görəndə naxırçının çomağı tappıltı ilə əlindən düşdü.

– Heç-eç, Heç-eç! – deyə o, həyəcanla qışqırıb, lap əvvəlcə yıxılan inəyin quyruğundan bərk-bərk yapışıb qaldırmağa çalışdı. O, yaxşı bilirdi ki, xəstə inək yıxıldıqda dərhal ayağa dura bilməsə gözü qorxur. İstər altına ling sal, xeyri yoxdur, heyvan özü yerdən durmaq üçün səy göstərməyəcək, hədəqəsindən çıxmaq dərəcəsinə qədər böyümüş gözlərlə, təşvişlə ətrafına baxa-baxa, titrəyə-titrəyə qalacaq. Buna görə də naxırçı inəyin quyruğunu var qüvvəsilə darta-darta bağırdı: – Heç-eç, heç-eç!..

İnək dizlərini yerə dirəyib dikəldi, boynundan tutmuş çiyninin, budlarının əzələlərinə qədər bütün bədəni tir-tir əsdi, gərilmiş burun pərələrindən fışıltı ilə vuran gur nəfəsi torpağı havaya sovurdu, zərblə yerə dəyən bədəni toz qaldırdı.

Naxırçı töyşüyə-töyşüyə dikəldi, o biri inəklərin yanına yüyürdü, yenə çığırdı, bağırdı, gah bu, gah da o biri heyvanın başı

üzərində dayanıb təpindi, acıqlandı, hirsindən boğula-boğula, əlinə keçən daş-kəsəyin hamısını inəklərin böyrünə-başına yağdırdı, nəhayət, təngnəfəs halda dayanıb aydınlaşan havada nəzərlərilə yoldaşını axtardı.

– Əyə, hardasan, ay Hətəm? Erməninin evi yıxılsın, qardaş, evimiz yıxıldı, üçü birdən döşəndi!

– Pa atannan! Nə qayıraq, ə?

– Tərpən, müdiri çağır.

– Ə, müdir bu vədə oyaq olarmı?

– Kərim dayı töyləyə gələndə sən hələ arvadın böyründə köpürdün. Tərpən! Yavaş, ə, bir dayan, belindəki xəncəri sıyır burda qoy, sonra get.

– Ə, ağzın xeyirliyə açılsın, nə danışdığındı!

– Xeyirdən-şərdən keçib, Hətəm. Görmürsənmi "Ala Düyüş" ayaqlarını nə cür uzadıb, tir-tir əsir? Əyə, tez sıyır xəncəri murdar oldu!

Doğrudan da, naxırçının "Ala Düyüş" adlandırdığı inək bıçağa güclə çatdı...

Xəbər Kərim dayını sarsıtdı. Qoca az qala nəfəsi kəsilmiş, qap-qara boğulmuş halda özünü arxaca yetirdikdə naxırçı başqa bir inəyin başı üzərində dayanmışdı. Bu, Ukraynadan gətirilmiş qumral gözlü "Malyutka" idi. Həmişə naxırın içində nazla yeriyən "Malyutka" indi böyrü üstə sərilmişdi. Bu gözəl heyvanın boğazına xəncər çəkməyə naxırçının əli gəlmirdi. Kərim dayı da sanki daş kimi quruyub qalmışdı. Birdən qoca yuxudan ayılan kimi oldu:

– Bala, di nə durubsan? Gözləyirsən bu da murdar olsun?

– Heç əlim gəlmir, Kərim dayı. Özü ağırlığında pul verilib. Naxırın gözüdür.

– Görmürsənmi necə xırıldayır, bala. Arxacda yatmaqdan "övkə" bağlayıb. Qurtar, ələ ağır gəlməsin... Sən də, Hətəm, gör doktor hardadır, gəlsin içalatını müayinə eləsin. Azar mən deyən olsa lap o Gecədələnoğlunun özünə ödətdirəcəm, qoymaram sizin boynunuzda ödək qalsın.

Naxırçı sol dizini yerə qoyub sağ ayağını inəyin boynunun dalına dirədi, bir əlilə inəyin çənəsindən tutub başını geri qanırdı, lakin qəfildən nədənsə diksinmiş kimi ayağa sıçradı, xəncəri yerə çırpdı.

– Bu arıqlıqda heyvanın ətini istifadəyə verməyəcəyik ki... Daha boğazına niyə bıçaq çəkim?

Kərim dayı toylarda, bayramlarda tir boyunlu yazabuğaları yan-yana döşəyən bu qarabuğdayı oğlanın indiki acizliyinə əvvəlcə hirsləndisə də, xəncəri yerdən götürüb dizini qatladıqda qocanın özünün də qolları boşladı. Sağmal inək itirmək onun üçün nə nə qədər ağır idi!

Zöhrə yüyürüb gəldi. Toranda hərəkətsiz dayanmış Kərim dayıya və naxırçıya, sonra arabir dikəlmək istəyərək çabalayan və aramsız xırıldayan heyvana baxdı, hava aydın olsaydı sağınçının gözlərinin necə olduğunu Kərim dayı da, naxırçı da aydınca görərdilər.

Zöhrənin çiyinləri titrədi. O, yavaş-yavaş aşağı əyildi, inəyin geniş açılmış gözünü sığalladı:

– Malyutka, Malyutka!..

İnək ağzını açdı, deyəsən, sahibəsini tanıyıb mələmək istədi, lakin cingiltili, titrək səs əvəzinə boğuq bir xırıltı eşidildi.

– Malyutka, Malyutka! İnək yenə mələmək istədi, son dəfə ağzını açdı və hərəkətsiz qaldı.

... O günü "Engels"in daha beş sağmal inəyi tələf oldu.

"Bəlkə naxırda yoluxucu xəstəlik var?" – deyə adamlar təşvişə düşdülər. Lakin müayinə Kərim dayının fikrini təsdiq etdi...

Ferma işçiləri sanki yasa batmışdılar. Onlar səssiz-səmirsiz arakəsmələrdə dolaşır, MTS-dən gətirilmiş bakları yerbəyer edir, ilk dəfə əllərinə qaşov alıb, arxacda yatmaqdan tüklərinin arası sadır bağlamış inəkləri qaşovlayırdılar. Zootexnik MTS-ə getmişdi. Hamı, o cümlədən, Zöhrə də elə zənn edirdi ki, bu hadisədən sonra Sarı bir daha diliuzunluq edə bilməyəcək, artıq döşünə döymək əvəzinə sağınçıların qarşısında başını aşağı salacaq.

Sarı MTS-dən qayıtdı. Özü də təkcə yox, Şahgəldiyeva ilə birlikdə qayıtdı.

Şahgəldiyeva Sarının müşayiətilə töylələri gəzdi, sağınçıların çalğı ilə tərtəmiz süpürdükləri meydançanı, günəş şüalarını əks edən pəncərələri və gəzintiyə çıxarılmış inəkləri seyr edib qımışdı. Gur səslə:

– Çox gözəl, çox gözəl! – deyə ağappaq, ətli əllərini belinə dayayıb lak tuflisinin dabanları üstündə sağa-sola fırlandı. – Təbrik edirəm səni, Sarı!

Divar dibində dayanıb bu iki nəfərin hərəkətlərinə göz qoyan və "birinin quyruğundan tutub gəzir, əli qabarlılara heç gözünün ucu ilə də baxmır", – deyə fikirləşən Zöhrə. Şahgəldiyevanın təbrikini eşitdikdə yanıb-yaxıldı, yerində duruş gətirə bilməyib irəli yeridi.

– Yoldaş Şahgəldiyeva, nə dediniz?

Bu gözlənilməz müraciətdən təəccüblənmiş Şahgəldiyeva qızı bir ayaqdan başa, bir də başdan ayağa süzdü.

– Mən sizin zootexniki təbrik eləyirdim, qızım. Deyirdim ki, gözəl iş görübsən. Sən də burda işləyirsən?

– Bəli.

– Onda səni də təbrik eləyirəm. Çox gözəl iş görübsünüz, çox!.. "Engels"in tarixində belə iş görünməyib. Sizin zootexniki nəinki təbrik eləmək, ona böyük mükafat vermək lazımdır.

– Ancaq mən elə bilirdim siz ona başsağlığı verəcəksiniz, yoldaş Şahgəldiyeva.

– Baş sağlığı?!

– Bəli!

Şahgəldiyeva narahat oldu. Sarıya tərəf dönüb sifətinə ciddi bir ifadə verdi:

Nə olub məgər, Sarı? Mənim heç nədən xəbərim yoxdur.

Zöhrə zootexnikdən tez dilləndi:

– Onun arzuları məhv olub...

– Arzuları məhv olub?! Hm... Heç nə başa düşmürəm.

Sarı Zöhrənin nəyə işarə etdiyini və qızın bayaqdan bəri kənardan onları süzüb, sonra isə belə qəfildən yaxınlaşmaqda heç də yaxşı niyyətdə olmadığını anladı, papirosunun kötüyünü çeynədi, ancaq özünü etinasız göstərməyə çalışaraq, gözlərilə töylələri göstərdi:

– Mənim bunlardan böyük arzum yox idi, yoldaş Şahgəldiyeva, bunlar da ki, başa gəldi. Mən də başa düşmürəm, bu qız hansı arzudan danışır? Gedək, mən sizə bəzi şeyləri göstərmək istəyirəm.

– Yox, yox, dayan bir görək, Sarı, bu çox qəribədir.

Şahgəldiyeva qıza doğru irəliləyib bir daha onu maraqla gözdən keçirdi. Zöhrə Şahgəldiyevanın sualını gözləmədən:

– Sizin təbrik elədiyiniz yoldaş Ukraynadan bizim fermaya cins inəklər gətirtmişdi, – deyə sakitcə izah etdi, – özü də deyirdi ki, bu inəklərin nəslini artırmaq lazımdır. Bu, mənim ən böyük arzumdur,

deyirdi. Dünəndən bəri inəklərin yeddisi bir-birinin dalınca ölüb. Qalanları da ki, böyrü üstə qalıb, doktor deyir hamısı "övkə" bağlayıb.

– "Övkə?" O nədir?

– Kənd təsərrüfatına rəhbərlik edənlər belə şeyləri çox gözəl bilirlər, – deyə Zöhrə nifrətlə qımışdı. – Bürküdə qalmaqdan, arxacda yatmaqdan olur. Heyvanın ciyəri qabırğalarına yapışır.

– Belə, belə... tələfat?! – deyə Şahgəldiyeva dodaqları altında mızıldandı. Onun tünd qara boyalı qaşları ortada düyünləndi, bütün siması fikirli bir görkəm aldı. Öz-özünə danışırmış kimi, astadan səsləndi: – Bəs bundan mənim niyə xəbərim yoxdur?

Zöhrə sakitcə dilləndi:

– Siz axı həmişə MTS-də oturursunuz, yoldaş Şahgəldiyeva. Necə xəbəriniz olsun? Böyüklərimiz də ki, belə şeyləri sizə demirlər. Danadan-buzovdan alıb qoyurlar yerinə ki, təki heyvanın sayı düz olsun, sançı gələndə əksik çıxmasın.

Lakin Şahgəldiyeva bu sözləri eşitmirdi. "Tələfat, tələfat", – deyə ürəyində təkrar edir, getdikcə bu fikirdən sarsılıb dəhşətə gəlirdi.

– Qız, o cins inəklər neçə başdır dedin?

– Cəmi on iki baş.

– Neçəsi ölüb dedin?

– Yeddisi.

– Daha tələfat yoxdur ki?

– Hələlik yoxdur. Kərim dayı gecəli-gündüzlü bizi heç yana buraxmır. Gözümüz heyvanın üstündədir. Ancaq doktorun deməsinə görə hələ qorxu çoxdur.

"Yox, yox, bundan artıq tələfat olsa, bunun məsuliyyətinin altından çıxmaq mümkün deyil!" – deyə düşünən Şahgəldiyevanın bütün bədənindən soyuq bir cərəyan keçdi. O, yavaş-yavaş qanrılıb çiyni üstündən Sarıya baxdı.

– Bəs sən niyə bu barədə bir şey deməyibsən mənə?

Qadından çox kişi səsinə bənzəyən bu qalın səsdəki narazılıq Sarıya xoş gəlmədi. Lakin o, həmişə olduğu kimi, yenə də şəstini sındırmadan papirosunu tüstülədərək:

– Mən sizə lap əvvəllər demişəm ki, yenilik qurbansız həyata keçirilməz, yoldaş Şahgəldiyeva, – dedi və mühakiməsinin Şahgəldiyevaya xoş gəldiyinə şübhəsi olmadan başını dik tutub əlavə etdi:

– Bu cür əzəmətli bir işin qabağında yüz əlli baş sağmal inəkdən yeddisi tələf olub. Böyük dərd imiş!

Zöhrənin dişi bağırsağını kəsdi. Bayaqdan bəri Şahgəldiyevaya müraciətlə danışaraq, Sarının heç üzünə belə baxmaq istəməyən qız, qəfildən, sərt bir hərəkətlə ona sarı döndü:

– Bunun böyük dərd olmasını başa düşməkdən ötrü adamda gərək ürək olsun.

– Bir az nəzakətlə danış! – deyə Sarı qızarıb-bozardı.

– Sənnən mənim aramda daha heç bir nəzakət ola bilməz! Camaatın bu yayın günündə yavanlıqsız qalması da dərd deyil? Əlbəttə, sənin üçün nə var? Təki raykom katibi kürəyinə döysün...

– Sənə deyirəm bir az nəzakətli danış. Heç olmasa yanındakı böyük yoldaşdan utan! Özünü tanıtdırmırsan!

– Tanıtdırıram, niyə tanıtdırmıram?.. "Böyük yoldaş" ayda-ildə bir dəfə zəhmət çəkib yanımıza gəlib. Qoy məni də tanısın, səni də... Qoy axır ki, işimizə-gücümüzə bələd olsun, görsün dilinə dil verdiyi adamlar bizim axırımızı hara gətirib çıxardıblar?

Şahgəldiyevanın necə deyərlər, əli-ayağı yerdən üzüldü. Doğrudan da, bayaqdan zahirən sakit görünən, indi isə birdən-birə Sarı ilə belə deyişməyə başlayan, onu iynələməyə cəsarət edən bu qız kim idi?

Şahgəldiyeva qızı başdan-ayağa bir daha gözdən keçirdi, əllərini belinə qoyaraq zəhmli bir görkəm aldı.

– Qız, nədir sənin adın?

Həyəcanlanmış Zöhrə özü də hiss etmədən çox köntöy cavab verdi:

– Adımı çoxdan eşidibsiniz... Zöhrədir!

– O Dan ulduzu deyilən?

– Bəli!

– Belə-ə!.. – deyə Şahgəldiyeva zəhmli baxışlarını ondan ayırmadan səsini uzatdı. – Sən çox nahaq tanıtdırırsan özünü, qız! Mən səni ço-ox yaxşı tanıyıram. Bircə üzünü görməmişdim, onu da gördüm... Bilirsənmi nə var! Axşam idarəyə gəl. Mənim yanıma!

– Axşam bizim komsomol iclasımız var. Zəhmət çəkin siz gəlin. Min dəfə bu təbrik elədiyiniz yoldaşa qulaq asırsınız, bir dəfə də bizə qulaq asın, görün nə deyirik.

Şahgəldiyeva burnunun ucuna qədər qıpqırmızı oldu. Lakin onun pərtliyi üzə vurmamaqdan başqa əlacı yox idi.

– Oho, sən lap rəsmi danışırsan ki, qız! – deyə o, zorla gülümsündü. – Yaxşı, yaxşı... Nə olar? Gələrəm, gələrəm...

Şahgəldiyeva dönüb getmək istədi. Ancaq Sarının necə pis vəziyyətdə qaldığını gördükdə qanrılıb təkrar Zöhrəyə baxdı.

– Amma gəlməmişdən sənə bir şey xatırladım ki, Sarı yoldaşla, doğrudan da, nəzakətsiz danışırsan. Belə yaramaz, qız, belə yaramaz!..

## 28

"Sarı ilə nəzakətsiz danışırsan..." Kimdir taqsırkar? Məgər Zöhrə istərdim ki, həyatında ilk dəfə əhd-peyman bağladığı bir adamla nəzakətsiz danışsın?

O istərdimi ki, ilk əhd-peyman pozulsun, ilk məhəbbət məhv olsun? Məgər ilk nəzakətsiz sözü dilinə gətirən, hər cür iyrənc dedi-qoduya uyaraq, "arabaçının başını dizin üstə qoyursan", – deyən Sarı özü deyildimi? Şahgəldiyevanın bu iki gəncin məhəbbət sərgüzəştindən xəbəri olsaydı, bəlkə də Zöhrəyə elə deməzdi. Lakin o, MTS-dəki qabağı taxta məhəccərli kabinetdən uzaqda yaşayan bu adamların qəlbinə nüfuz etməkdən, bu deyişmənin, bu "nəzakətsiz danışığın" əsl səbəblərini öyrənmək həvəsindən çox-çox uzaq idi. O bilmirdi ki, Sərkərlilərin "bulanmaz dərya" adlandırdıqları bu qız, uzun zaman səbir etdikdən, gözlədikdən sonra Sarıyla belə danışdı. Danışdı, çünki ayrı cür ola bilməzdi. Danışdı, çünki başqa cür yaşamaq mümkün deyildi. Çünki o, artıq Sarını tanımışdı. "Adamda gərək ürək olsun", – deyərkən o, bir an belə tərəddüd etmədi. Zöhrə aydınca görürdü ki, Sarının ürəyi Kərim dayının, İsmət xalanın, Hürü bacının, Yasəmənin və başqalarının gecəli-gündüzlü pərvanə kimi başına dolandıqları qızılı naxır üçün deyil, yayın qızmarında ilan mələyən düzlərdə yavanlıqsız çalışan adamlar üçün deyil, yalnız özü üçün döyünür. Vaxtilə Sarı "Malyutka"dan, "Dunay"dan, oturaq şəraitdən söhbət salıb, ərik ağacının sərin kölgəliyində "qonşu qızı"nın xəyalını qanadlandırarkən Zöhrə bu gözəl qamətli oğlanın ürəyinin onun ürəyilə həmahəng vurduğuna heç şübhə etmirdi. Zöhrə onu bütün varlığı ilə sevir, bir gün ondan ayrılacağını heç xəyalına belə gətirmirdi. Qız inanırdı ki, həyatda

onu sevindirən hər bir şey Sarını da sevindirir, onu kədərləndirən hər bir şey Sarını da kədərləndirir, – onların sevinci də, kədəri də birdir; onların ürəkləri eyni hisslərlə, eyni duyğularla döyünür, onları bir-birinə bağlayan da bu həmahəng döyüntülərdir. Lakin o, bu döyüntülərə diqqətlə qulaq asdı və Sarının sinəsindəki döyüntünün ona nə qədər yad olduğunu dərk etdi. O gördü ki, "Malyutka"nın məhv olması Sərkərlilərin yayın qızmarında yavanlıqsız qalması bu gözəl oğlanı az da olsa mütəəssir etmir, onun qəlbi Zöhrənin müqəddəs bildiyi şeyləri duymaqdan uzaqdır.

...Zöhrə kəndə doğru yanaşı addımlayan o iki nəfəri qəzəbli nəzərlərlə ötürüb töyləyə qayıtdı. Arakəsməyə saman səpməklə məşğul olan İsmət xala:

– Səsi gələn Şahnabad deyildimi, a bala, – deyə işindən ayrılmadan soruşdu. Zöhrə başı ilə təsdiq etdi. – Bəs niyə gəlmişdi, niyə getdi?

– Zootexniki təbrik eləməyə gəlmişdi.

– Təbrik eləməyə?! Nəyə görə, a bala?

– Altı aylıqda yağ bölünmədiyinə görə. Heyvan qırıldığına görə.

İsmət xala qızın istehzasını başa düşüb mənalı-mənalı başını tərpətdi, saman tozundan bozarmış balaca əllərini önlüyünə silib arakəsmədən çıxdı.

– Bəs o niyə bura dəyməmiş getdi, a bala? Demirmi ki, bəlkə bir dərdi-azarı olan var?

– Yəqin bizim dərdimiz-azarımız onu maraqlandırmır, İsmət xala.

– Eh, düzcə deyirsən, ay qızım. Vallah düzcə deyirsən. Bizim kişi deyəndə ki, raykomluğa yaraşan adam deyil, görəsən nə cür olub stola minib, yazıq kişini qınayırdım. Deyirdim, ay kişi, maşınını dızhadızla belədən-belə, elədən-elə sürüb kolxozumuzu quran, içi sən qarışıqlı, çoban-çoluğun yaxasından tutub "savad kursuna getməsən ispolkoma cərimə elətdirəcəm", – deyən haman Şahnabad deyildimi? O vaxt kişinin qızının başına and içirdilər, deyirdim, indi bəs nə oldu? Yenə haman Şahnabad deyilmi? Mən belə deyəndə kişi başlayırdı ki, elə dərd də onun haman Şahnabad olmağındadır. O vaxtları maşınına minib qılınc-qırğınla, hay-küylə gələndə ziyanı dəyirdisə, az-çox xeyri də olurdu. Ancaq indi vaxt o vaxt deyil. Zamana təzədir, Şahnabad köhnə... Düzcə deyirsən, bala! Bizim kişi də düzcə deyirmiş.

İsmət xala dərindən nəfəs alıb bir daha başını buladı. Görünür ki, katibin sağınçılara dəymənmiş getməsi arvada yaman yer eləmişdi. Bunu onun bir qədər sonra yenidən Şahgəldiyevanı xatırlaması bir daha sübut etdi:

– Gəlsəydi bilirsənmi nə deyərdim ona? Deyərdim, bax, vaxtında bizim hamımızı gözümçıxdıya saldın, şikayətimizə, narazılığımıza qulaq asmadın, Şahnabad, indi gör əməliyin barı nədir?.. Deyərdim ki, bax, vaxtıynan məni savad kursuna göndərdin, dedin oxu, arvad, dünyanın işlərindən başın çıxsın, gözün dünyanı görsün. Bundan ötrü ata-babana min rəhmət. Ancaq indi min lənət!

Zöhrə güldü.

– Elə beləcə də deyərdin?

– Niyə demirdim? Qorxacaqdım?

– Özgə nə deyərdin?

– Məni söylədirsən?

– Niyə söylədirəm, ay arvad? Xoşum gəlir sözlərindən

– Hə, o ayrı məsələ... Deyərdim ki, belə, sən bizim başımızda allahlıq eləyirsən. Bizim kişidən belə, qara camaatdan birini ağzını açmağa qoymursan. Daha bu nə demkratiya oldu?! Çapar burda kolxozun ustavını qoyub bir yana, başlayıb dərəbəyliyə, deyərdim...

Zöhrə yenə qaqqıldayıb güldü. Bu dəfə İsmət xala əməlli-başlı pərt oldu.

– Nəyə gülürsən, bala?

– Demokratiya, ustav... Bunlar axı sənin sözlərin deyil, İsmət xala.

– Bəs kimin sözləridir?

– Nə bilim? Yəqin Kərim dayı evdə siyasi dərs deyib sənə.

– İsmət xalan nə Kərim dayıdan, nə də səndən əksik bilmir, bala. Sən məni birəlli tutma! Bu dünyada yəni elə şey varmı ki, İsmət xalayın ondan xəbəri olmasın?

Zöhrə qımışıb özünü onun üstünə saldı, arvadı bərk-bərk qucaqladı.

– Bıy, incidin ki, İsmət xala. Mən zarafat eləyirəm, ay arvad. Vallah zarafat eləyirəm. Axı, doğrudan, dünyada sənin bilmədiyin şey yoxdur.

– Yaxşı, yaxşı... həsrətli-zad deyilsən ki, belə qucaqlayırsan, burax... Evə getmirsənmi? Gəl gedək.

– Səndən bir xahişim var, İsmət xala, – deyə birdən Zöhrə ciddiləşdi.

– Nə xahiş?

– Axşam bizim komsomol iclasımız var, sən də gəl.

– Mən hara, komsomol iclası hara, a bala? Bu ağbirçək vaxtımda məni komsomol eləmək istəyirsən?

– Birçəyin ağ olsa da ürəkdən bizim bəzi komsomolçulardan min kərə cavansan, İsmət xala. Mütləq gəl! Bax, burda dediklərinin hamısını orda danış.

İsmət xala fikrə getdi. Sonra:

– Bunun nə xeyri var, a bala? – dedi. – Belə şeyləri raykomda ya ispalkomda, ordakı ağıllı adamların yanında demək gərək ki, içindən bir şey çıxa. O Şahnabadın düz gözünün içinə!

– Şahnabad da orda olacaq.

– Hə? Onda lap atıla-atıla gələrəm... Di yaxşı, gedək dayna! Yazıq kişi səhərdən ac-susuz çıxıb evdən. O dili qurumuş doktor qız kişi sarıdan lap bağrımı yarıb. Deyir, sətəlcəmdən ciyərlərinin ikisi də xarab olub. Yeməyi-içməyi, deyir, bir balaca vaxtlı-vaxtında olmasa təzədən yıxılacaq. Gəl, gəl!

– Sən get, İsmət xala. Mənim hələ işim var.

İsmət xala nə qədər tələssə də, Zöhrənin işinin nədən ibarət olduğunu soruşmamış gedə bilməzdi.

– O nə işdir ki, İsmət xalayın ondan xəbəri yoxdur, bala?

– Veysəli göndərmişəm ki, o Lətifə deyiləni çağırsın. Hələ də gəlib çıxmayıb.

– Niyə çağırtdırırsan? O ki, buralardan ayağını kəsib.

– Elə mən də ona görə çağırtdırıram də, İsmət xala.

– Hm, – deyə İsmət xala nəyəsə acıyan adamlar kimi başını buladı, – nahaq yerəcə çağırtdırırsan, bala. O qız indən belə bura heç gözünün ucuyla da baxmayacaq. Ona bircə şey lazımdı, ona görə gəlib-gedirdi, çamıra batıb sağınçılıq eləyirdi. O şeyi də ki, indi alıb qoyub başının altına. Daha gələrmi?

– O nə şeydir elə?

– Şey yox, burunlu-qulaqlı, əlli-ayaqlı adamdır. Özü zootexnik, adı da Sarı.

İsmət xala bu barədə danışmaya da bilərdi. Lakin bir zaman əllərini qoynuna qoyaraq, boynunu büküb, qəmli nəzərlərini bulağın

həzin-həzin şırıldayan suyuna zilləyən və fikrə dalan cavan sağınçı yoldaşının indi nə hala düşəcəyini görmək onun üçün son dərəcə maraqlı idi. O dedi və iti baxışlı gözlərini qızın üzünə dikdi. Ancaq İsmət xala istədiyini görə bilmədi. Zöhrə əllərini qoynuna qoymaq, boynunu bükmək əvəzinə, başını dik qaldıraraq, pəncərədən görünən cökə ağacları arasında güclə seçilən boz hasara və hasarın arxasında kirəmidləri qızaran iki mərtəbəli evə sarı baxdı. Onun gözlərində qəm-qüssə əvəzinə kin qaynadı. İsmət xala yenə nə isə demək istədi. Amma bu an onun diqqətini yeni bir şey cəlb etdi. Zöhrənin hündür sinəsində, ipək qoftanın cərgə ilə düzülmüş çəhrayı düymələri arasında bir cüt ağ ləkə oynadı: bu, qapı ağzına gələn Veysəlin eynəyində əks olunan günəş şüalarının əmələ gətirdiyi ləkələrdi. Şüalar ipək qoftanın üstündə sürüşürmüş kimi sağa-sola axdı, civə kimi yuxarı-aşağı yuvarlandı, Zöhrənin üzünə düşüb gözlərini qamaşdırdı.

Veysəl tək gəlmişdi.

O, başının hərəkətilə eynəyini burnunun ucuna endirərək, qaşlarının altından Zöhrənin sual ifadə edən gözlərinə baxıb, nədənsə bic-bic qımışdı.

– Getdim gördüm Lətifə xanım cehizlərini töküb-tököşdürür, Zöhrə. Nəftalanın iyindən başım gicəlləndi. Demiş oldum ki, Lətifə xanım, nəftalan iyi verirsən, bir açıq havaya çıxsana iyin dağılsın... Eh, sağlığını görüm sənin, elə bunu demiş oldum. Onda gördüm ki, bilmirəm ayaqqabı tayı idi, yoxsa paltar şotkasıydı, nəydisə, o saat qapdı, fırr! Düz burnumun üstünə! Görürsən, eynəyimin şüşəsi də çatlayıb...

Pəncərə arxasından Yasəmənin qara kalağayısı yellənib keçdi. Veysəl əli ilə ona nə isə işarə etdi. Hesablayıcının kefinin saz olduğunu və elə buna görə də yenə "təsvirlə" danışdığını başa düşən Zöhrə gülümsünüb soruşdu:

– Yaxşı, bəzək-düzəyini burax, de görüm niyə gəlmədi?

– Eh! Heç düz-əməlli cavab verdi ki... Üzünü köndələn tutub mızıldandı ki, nə bilim, dədəmin qonağı var, çörək hazırlayıram. Sonra da başladı ki, nə bilim, yoldaş zootexnikin paltarını yuyacam.

Yenə Sarı barədə eşitdikdə Zöhrə, nədənsə, dönüb İsmət xalaya baxdı. Onların baxışları qarşılaşdı. İsmət xala qızın gözlərində eyni

ifadəni oxudu. O yenə nə isə demək istədi. Ancaq bu an Zöhrə hesablayıcıya müraciətlə:

– Sağ ol, Veysəl, bağışla sənə zəhmət verdim, – deyə astadan dilləndi. – Zərər yoxdur, qoy gəlməsin, xörəyini bişirsin, paltar yusun. Axşam da biz onun paltarını yuyarıq.

## 29

Bütün yol uzunu İsmət xala nə barədəsə danışır, gah ərinin, gah bacısı oğlunun, gah da zootexnikin adını çəkir, zil səslə aramsız ötə-ötə Zöhrəyə nə isə sübut etməyə çalışırdı. Lakin arvadın səyi hədər idi; Zöhrə onu dinləmirdi. Qız bütün varlığı ilə öz düşüncələrinə dalmışdı. İsmət xalanın səsi onun qulaqlarında anlaşılmaz bir uğultuya çevrilmişdi. O, qarşıdakı iclas haqqında düşünürdü.

Bir az bundan əvvəl, Veysələ "axşam da biz onun paltarını yuyarıq" deyərkən, Zöhrə heç şübhə etmirdi ki, bütün olub-keçmiş əhvalatlardan sonra onun özünün və iş yoldaşlarının qəlbində doğmuş qəzəbin, kinin qarşısında nəinki Lətifə, Çapar və Sarı, heç Şahgəldiyeva da dayana bilməyəcək, axır ki, özbaşınalığına son qoyulacaq, axır ki, onların da, sağınçıların da, Kərim dayının da səsi eşidiləcəkdi; Zöhrə buna şübhə etmir və özündə yenilməz bir qüvvə hiss edirdi. Onun qulaqlarında uğuldayan səs sanki İsmət xalanın deyil, Aran düzündə yandırıcı günəş şüaları altında tər tökən əli qabarlıların və sağınçıların səsləri idi; onlar Zöhrənin səsinə səs verir, onlar da Zöhrə kimi: "Daha bəsdir, daha bəsdir!" – deyə daxili bir etirazın gücü ilə qışqırırdılar. Lakin... Məgər bu etiraz, bu qəzəb Sərkərlilərdə yenicəmi oyanmışdı? Məgər Kərim dayı öz etiraz səsini dönə-dönə qaldırmamışdı? Məgər Zöhrə özü bütün sağınçı qız-gəlinləri başına toplayaraq, Çaparın evinə lərzə salmamışdı? İsmət xaladan tutmuş Nənəm-nəhrəyə qədər bütün sağınçılar yumruqlarını stola döyüb: "Sən bizim var-dövləti qırğına verirsən!" – deyə azmı xəbərdarlıq etmişdilər? Ancaq bütün bunların hamısı nə ilə nəticələndi? Çapar sonsuz şikayətlərə, etirazlara etina etmədən, aradabir təşvişə düşüb ora-bura vurnuxdusa da, yenə hündür hasarın içini hər şeydən üstün tutdu. Şahgəldiyeva bu qədər səs-küyə səbəb olmuş sağınçıların və onların qoca müdirlərinin etirazlarının nədən doğduğu ilə maraqlanmaq belə

istəməyib, kabinetindən qırağa çıxmadan telefonu işə saldı. Kərim dayı, Yunus kişi və onun briqadasının cavanları təhlükənin qabağını almaq üçün bir qat qabıqdan çıxdılar. Lakin bununla belə Aranın qadalı vaxtında, qızmar yay günlərində Sərkərlilər qızılı naxırın barından məhrum qaldılar. Zöhrə minbir istəklə, gecəli-gündüzlü pərvanə kimi başına dolana-dolana bəslədiyi cins inəklər məhv oldu; qoca Sərkəroğlu həyatında ilk dəfə Sərkərlilərin qarşısında başını aşağı salmalı oldu. Qoca artıq üzülüb candan düşmüşdü. Kim bilir, bəlkə də ömrünün son günlərini yaşayırdı. Əlbəttə, Kərim dayı haqqında belə söz deməyə adamın dili gəlmir. Lakin deməmək mümkün deyil ki, axı, Kərim dayının xəstə-xəstə, odun-alovun içində at belinə qalxıb, təpəsindən yağış vura-vura səfərə çıxmasına, sonra kənd həkiminin onun barəsində İsmət xalaya dəhşətli sözlər pıçıldamasına da Şahgəldiyevanın və Çaparın əməlləri səbəb olmuşdu.

Bəli, nəticələr belə idi. Dözülməz nəticələr idi!

Bunları düşündükcə, Zöhrə bütün olub keçənləri, cavan ömründə ilk dəfə duyduğu sarsıntıları, ilk dəfə rast gəldiyi həyat çətinliklərini elə bil ki, yenidən dərk edir və dərk etdikcə sanki anbaan yaşa dolur, ciddiləşir, yaşamağın, el üçün çalışmağın nə demək olduğunu artıq Kərim dayının, Yunus kişinin və ya bir başqasının sözündə-söhbətlərində deyil, özünün hiss etdiyi, duyduğu hadisələrdə görürdü. Vaxtilə bütün insanları eyni gözdə görən, hamını öz meyarı ilə ölçən Zöhrə, artıq adamları saf-çürük etməyi bacarırdı. O, aydınca görürdü ki, bu adamların bir qismi xalq işi üçün canını qurban verməyə hazır olduğu halda, ikinci qism adamlar hər şeyi öz şəxsi istək və arzularına qurban verməyə hazırdılar.

Zöhrə dönüb bu gün ikinci dəfə hasar içindəki evə nifrətlə dolu bir nəzər saldı. Yalnız bu vaxt İsmət xalanın nədənsə narazılıqla başını buladığına və dodağının altında nə barədəsə deyindiyinə diqqət yetirdi.

– Sən elə başdan-binədən məni görəndə qapalı sandığa dönürsən. Bizim kişi oturub-durub elə sənin qayğına qalır ki, bəs o gədədən gözüm heç su içmirdi, indi də lap əməlli-başlı üz döndərib, görəsən, qızın meyli yenə ondadırmı? Ata da heç belə olmaz, bala! Fikri-zikri elə sənsən. Mən də indi elə bundan ötrücə xəbər alıram də. Kərim sənə atadırsa, o bir Yaradan şahiddir ki, mən də sənə ana gözüylə baxıram. Biz qocaqoltaqlar bu gün-sabah karva-

nımızı çəkib köçəsiyik. Yerimizdə siz qalacaqsınız. Bəs bilməyəcəkmi ki, yerimizdə qalan balalar ömürlərini-günlərini kimlə bağlayacaqlar, kimlə xoşbəxt olacaqlar?.. Demə, heç zərəri yoxdur, demə! O fermada, bu on yeddi ildə bir qız-gəlin olmayıb ki, məndən sirr gizlətsin. Mən hamının dərdinə-azarına qalmışam. Görünür, daha pis adam olmuşam. Souruşb bilmək istədiyimi də düşmənçiliklə soruşuram. Eh!

Nəhayət, İsmət xala susdu, dərindən nəfəs alıb yenə başını buladı. Bayaqdan bəri arvadın bir kəlməsinə belə fikir verməyən Zöhrə isə yuxudan ayılan kimi oldu. Amma gec ayılmışdı; İsmət xala bərk inciyəndən sonra ayılmışdı. Bununla belə, bu təmiz ürəkli arvadın könlünü almaq o qədər də çətin iş deyildi.

– Özün öyünürsən ki, bu dünyada bilmədiyin şey yoxdur, ay İsmət xala, – deyər ağır düşüncələrdən tamamilə ayrılan Zöhrə, yüngül bir hərəkətlə yönəlib qolunu arvadın qoluna saldı. – Belə biləndər ola-ola daha məndən nə soruşursan?

– Mən biləndərəm başqa işdə-gücdə, sənə gələndə bilirsən nə oluram? Allahın bir kütü.

Zöhrə başını dala ataraq, özünəməxsus şirin bir qəhqəhə ilə güldü:

– Niyə, ay arvad? Yəni mən o qədər çətin adamam?

– Sən – bir bağlı sandıq, heç təfavütü yoxdur.

– Paho... Bir sözlə, demək, sirr dağarcığı?

– Özü də lap yekəsindən.

– Bəs bir vaxt sən özün məni tərifləmirdinmi ki, yaman ürəyiaçıq qızam? İndi nə oldu, İsmət xala, işlər niyə tərsinə döndü?

İsmət xala qolunu qızın qolundan çəkib, ciddi bir ahənglə:

– Bura bax, bala, sən zarafata düzmə, – dedi, – o bircə Qaranın canı haqqı, Kərim dayın özcüyəzi tapşırıb ki, ay arvad, sən bir mənim Ulduzumla yaxşı-yaxşı söhbət elə. Mənim Ulduzum, deyir, el dərdi bilən baladır, el qayğısı çəkən baladır, biz də onun qayğısını çəkməliyik, deyir. Nə bilim, o qədər söz danışır ki! İndi bax, elə bilginən ki, ürəyini mənə yox, Kərim dayının özcüyəzinə açırsan...

Bu sözlərdən sonra Zöhrə qəmli-qəmli yerə baxdı.

– Mən nə açım, İsmət xala? Mənim ürəyimdə heç nə yoxdur.

– Bax, yalan danışırsan. İsmət xalan gözəlcə bilir sənin ürəyində nə var?

– Məsələn, nə ola bilər ki?

– Möhübbət! O gədəyə möhübbət!

Zöhrə başını qaldırdı. Bir-iki dəqiqə səssizcə, yavaş-yavaş addımlayaraq, batan günəşin son şəfəqlərini, otları yanıb külə dönmüş Aran düzünün sarımtıl rəngə çalan xırda təpəliklərini, sonra bəzi həyətlərdən qalxaraq, göyün dərinliklərinə yüksəlib orada əriyən tüstü sütunlarını seyr etdi. Eyni həzin səslə:

– Yoxdur, İsmət xala, – dedi, – səhv eləyirsən... Vardısa da, daha yoxdur! Daha bizimki baş tutmaz.

Qızın səsindəki qüssə deyəsən İsmət xalaya da sirayət etdi, çünki bir müddət o da dillənmədi, başını aşağı dikib addımladı.

– Yaxşı, bir vaxt bəs Kərim dayın sizi barışdırmışdı, bala, – deyə o, yenidən sözə başladı, – bəs necə oldu ki, o gədə genə gedib o Gecədələn uşağının komasına dadandı? Mən o Gecədələn nəvəsinin işlərindən xəbərdaram, bayaq da dedim sənə, gizlətmədim. Ancaq bilmək istədiyim ayrıdır: öz aranızda nə oldu? Sənnən onun arasında...

– Bizim aramızda nə olduğunu danışmaq çətindir, İsmət xala, – deyə Zöhrə yenə gözlərini uzaqlara dikərək cavab verdi.

– Mən, bala, sənə yenə deyirəm, necə ki, Kərim dayını ata gözündə görürsən, məni də o gözlə gör. Qısma sözüyün dalını!

– Mən səni də o gözdə görürəm, İsmət xala. Öz anam yoxdur, sən ana ol, neylək. Eh, anasızlıq böyük dərddir, İsmət xala!

– Şirin dilinə İsmət xalan qurban olsun! Neyləyək? Fələyin gərdişi belədir. Kimin atası-anası özüynən qoşa qarıyıb? Bax, İsmət xalayın birçəyi dümağdır, di gəl ki, ata-ana adı gələndə yenə də sümüyünə lərzə düşür. – İsmət xala xurmayı şalının ucunu qaldırıb gözlərini sildi. – Elə mən də sənin kimi yetimliklə böyümüşəm, ay bala. Təzəcə gözümü açıb dünyaya baxanda, yenicə-yenicə məməpəpə deyəndə anam getdi, sonra da atam... Gorbagorun biri vurub atamın qolunu sındırmışdı. Əvvəl bir sağaldı, sonra damın kərənini qaldırdığı yerdə bir də qırıldı, bizim yazıq olan Güləsərnən – xalası ölmüş Qaranın anasıynan çox parpıladıq, olmadı, kişinin qolu simlədi. Sim sinəsinə yeridi... Qaldıq iki qız xeylağı damın altında... Elə qara günlər gördük ki, bala, söyləməyə dursam tüklərin biz-biz olar! İndi sənə nə var? Biz kattaya dərdimizi açanda ağzımızın üstündən vururdu ki, cəhənnəm olun burdan, yesir uşağı yesir! Ancaq sənin dalında dilibir-ağzıbir elimiz-günümüz var. Kərim dayın var, mən varam. Kərim dayın, bala, o bircə Qaramızın canı

haqqı, kişim olduğuna görə demirəm, Kərim dayın ayrı cür adamdır. Qommunist ki, deyirsən, bax, əsl qommunist bizim kişidir. Olsa bəlkə Yunus kişi ona tay ola bilər. Bu Gecədələnoğludur, filandır, bunlar vəzifə adamlarıdır, bala. Bax, elə o Şahnabad deyilən özü də... Bu Şahnabad elə lap qabaqlardan Kərim dayının gözündən almışdı... Bax, biz haman bu kolxozu quranda Kərim dayın dedi, ay yoldaş Şahnabad, könüllü-könülsüz elə hamını kolxoza yığmaqnan iş olmaz axı, camaatı Şura hökumətinçə düşmən eləyirsən, dedi. Şahnabad, sən bilən, nə desə yaxşıdı? Başladı ki, bəs, Sərkəroğlu sən özün Şura hökumətinin düşmənisən, nə bilim beləsən, eləsən, gepoya verəcəm səni. Elə verəcəydi də! Bir adam Kərim dayını qurtardı. Görüm o bir yaradan cənnətlik eləsin onu.

– Kim idi o adam, İsmət xala? – deyə Zöhrə maraqla soruşdu. İsmət xala isə bir daha şalının ucu ilə gözlərini sildi, sonra aramla, titrək səslə pıçıldadı:

– Stalin!

– Stalin?

– Bəli, bala, Stalin... Məqalə yazdı qəzetə. Yazdı ki, Şahnabad təkin eləyənlər düz eləmirlər. Camaatı könüllü-könülsüz, qol zoruna kolxoza aparmaq olmaz.

– Hə-ə... Mən oxumuşam o məqaləni, İsmət xala. "Müvəffəqiyyətlərdən baş gicəllənmə". Sən deyən məqalənin adı belədir, hə?

– Bilmirəm, bala, İsmət xalan hardan bilsin?.. Birçəyimin ağ vaxtında gözüm təzəcə qara tanıyır. O da ki, elə-belə... Adımı güclə yazıram.

İsmət xala yenə bir müddət susdu. Mətləbdən çox-çox uzaqlara getmiş söhbəti yenidən döndərmək istəyirmiş kimi xeyli fikirləşdi, nəhayət:

– Hə, Kərim dayın belə Kərim dayıdır, bala! – dedi. – Vaxt vardı, Kərim dayın onun-bunun qapısında nökərçilik elərdi. Şura hökuməti onu adam elədi... İndi kişi qocalıb, bala, istəyir ki, bax, səni təkin yetirdiyi balalar, onun yurdunda qalan balalar xoşbəxt olsunlar... Bax, gətirib səni sağınçı elədi, sonra da gördü müharibədən sonra böyrünə-başına yığılan hamısı cavandır, qızlara, gəlinlərə məsləhət gördü ki, fermamızda ayrıca komsomol təşkilatı qurun, mənim Ulduzumu da başçı seçin. Qurdular, seçdilər. İndi də oturub-durub, dilim qurusun, deyir bəs, İsmət, mən daha köçərgiyəm, yerimdə Ulduzum qalacaq... Özün hamısını yaxşı bilirsən, bala, mən

nə deyim? Sözüm təkcə odur ki, sən gərək Kərim dayından bircə kəlməni də gizli saxlamayasan. Di gəl ki, sən... Sözüyün əvvəlini deyirsən, dalını qısırsan...

Zöhrə hiss edirdi ki, İsmət xalanın bütün bu danışdıqlarının hamısı bircə mətləb üçündür.

– O adamlar ki, ürəkdən bir-birinə yaxındır, İsmət xala, – deyə o, fikirli-fikirli, astadan sözə başladı, – arada istər min fitnə-feyl olsun, onları heç kim bir-birindən ayıra bilməz. Məsələn, Kərim dayını, məni... – O, Veysəldən tutmuş bütün ferma cavanlarının adını çəkib əlavə etdi: – Bunları kim ayıra bilər? Heç kim! Ona görə ki, Kərim dayının sözü olmasın, bunların hamısı bir yolun yolçusudur. Ancaq o adamların ki, ürəkləri ayrı-ayrıdır, onlar elə özləri gec-tez görürsən ki, ayrıldılar. Görünür, bizim də onunla ürəklərimiz başqa-başqaymış, İsmət xala.

İsmət xala bu izahatla da kifayətlənmədi.

– Bəs nə təhər oldu ki, o, birdən-birəcə getdi. Gecədələn uşağına meyl saldı, a bala?

– Burda da təəccüblü heç nə yoxdur, İsmət xala. Axşam mən elə bu barədə danışacam.

– Necə yəni, a bala? Sarıynan Lətifənin yaxınlığındanmı? – İsmət xala təəccüblə içini çəkdi. – Yaxşı deyil, ay qız! Ər-arvaddılar axı!

– Sən mən deyəni başa düşmədin, İsmət xala. Mən o adamları bir-birinə yaxınlaşdıran səbəblərdən danışacağam. Bax, səni, məni, Kərim dayını biri-birimizə yaxınlaşdıran səbəb olduğu kimi, onların birləşməsinə də səbəb var... Di sağ ol, İsmət xala. Ancaq gəlməmiş olma ha!

– Deməyin artıqdır, ağrın alım. Şahnabadın yaxası dırnağıma təzəcə keçib, əldən qoyarammı?1

Onlar xəndəklərin yanında ayrıldılar...

Neçə gün idi ki, Zöhrə nənəsini az qala tamam unutmuşdu. O, darvazadan içəri girərkən, qarının cəmi üç litr su tutan, ortası qovuq kimi yumru, balaca sarı samovarı necə hıqqana-hıqqana, necə titrəyə-titrəyə pilləkənlə qaldırdığını gördükdə ürəyi uçundu. "Zöhrə adlı nəvən ölsün, ay nənə!" – deyə qız pıçıldayıb yüyürdü.

– Mənə ver, mənə ver, ay nənə! – deyə pillələri qalxıb özünü yetirdi, lakin tələsdiyindən elə ehtiyatsız tərpəndi ki, onsuz da ayaq üstündə güclə duran qarı, böyrünə toxunan qolların təsirindən səldirədi, qapağının dairəsi və lüləyinin ucu sürtülüb yeyilmiş, köhnə

kiçik çaynik dəmkeşin üstündən düşdü, bu pillədən digərinə dəyə-dəyə pilləkan aşağı yuvarlanıb çilik-çilik oldu. Yerə çilənən çayın buğu qalxdı.

Zalxa qarı əllərini taqətsiz dizlərinə çırparaq, əvvəlcə çaynikin qırıqlarına, sonra peşmançılıqla səssizcə dayanmış nəvəsinə məzəmmətedici bir nəzər saldı:

– Alının son yadigarını bada verdin! – deyə mızıldandı. Onun qırışlar arasında itmiş gözlərində bu dəfə məzəmmətdən çox acıq oxundu. Sonra o, yenə titrəyə-titrəyə, hıqqıldamaqdan çox artıq zarıya-zarıya, əyilmiş belini bir qədər də əyib, az qala burnu yerə dəyə-dəyə, çaynikin qırıqlarını bircə bircə dənlədi, ətəyinə yığıb, başını bulaya-bulaya, dodağının altında deyinə-deyinə içəri getdi.

Zöhrə samovarı götürərək onun arxasınca qapıdan girdikdə, qarının çaynik qırıqlarını babasının və ata nənəsinin soxaları saxlanılan, dədə-babadan qalma ağac sandığın küncünə yığdığını gördü. Lakin dillənməyib o da başını bulamaqla kifayətləndi. Evdə "Alının yadigarı"ndan başqa çaynik olmadığından, Zöhrə kiçik bir tənzif parçasının arasına quru çay bağlayıb samovara saldı, çörək doğradı, günortadan bişirib hazır qoyduğu dovğanı nimçələrə çəkdi və evdə kənar adam olmayanda nənəsinin dədə-baba qaydası ilə, kilimin üstündə süfrə açdırdığını bildiyindən, hər şeyi oradaca, döşəkçənin yanında yerbəyer etdi. Zöhrənin bacardıqca iti tərpənməyə, ilk dəfə onu belə soyuq və acıqlı qarşılamış nənəsinin könlünü almağa çalışırdı. Lakin, deyəsən, qarı çox bərk tutulmuşdu. O, inildəyə-inildəyə döşəkçəinn üstündə oturandan dovğanı içib qurtaranadək bir dəfə də olsa başını qaldırıb nəvəsinin üzünə baxmadı, nə də dillənmədi. Yalnız qara, göy damarları görünən əllərinin ikisini də uza-daraq çayla dolu stəkanı götürüb içəndə nə isə anlaşılmaz bir söz dedi, üz-gözünü daha da turşutdu; saysız-hesabsız çal-çarpaz qırışlar dərinləşib onun sifətini eybəcər bir şəklə saldı.

– Alının çaynikinin dadını vermir, – deyə o, stəkanı qaytarıb taqqıltı ilə nəlbəkiyə qoydu.

Bayaqdan bəri doğrudan da böyük bir qəbahət işləmiş kimi peşmançılıqla susan Zöhrə bu yerdə özünü saxlaya bilməyib güldü:

– Sən də lap ağ eləyirsən ha, ay nənə. Bir çaynik nədir ki, ondan örü bu qədər danışırsan?

– Səndən ötrü, əlbəttə, heç nədir.

– Düz deyirəm də. Qırılıb, təzəsini alarıq. Bu köhnə şeylərin üstündə bu qədər əsməyin nə mənası var, ay nənə? Köhnələn şey əvvəl-axır qırılmalıdır də. Elə dünyanın qanunu belədir.

– Mənciyəz qanun-manun bilmirəm. Sənə də onu deməliyəm ki, bax, babayın yadigarının qədrini bilmədiyin təkin, onun anan Məhbubəyə elədyi vəsiyyətinin də qədrini bilmirsən. Yeri gəlib, açığını deyəcəm sənə, bala. Çox xarab olubsan sən!..

Zöhrə ancaq indicə başa düşdü ki, bu gün nənəsinin onu soyuq, bir qədər də acıqlı qarşılamasının səbəbi heç də təsadüfi baş vermiş çaynik əhvalatı deyil, tamamilə başqa bir məsələdəir. O, dodaqlarına yaxınlaşdırmaq istədiyi qaşığı qaytarıb nimçəyə qoydu, qaşlarını çatıb diqqətlə qarının üzünə baxdı.

– Sözlü adama oxşayırsan, nənə. De görüm nə olub?

– Nənəni belə başı gora titrəyən görürsən, elə bilirsən qulaqları da tutulub, şenliyin səs-səmirini eşitmir?

Zöhrə yenə qanqaraldıcı bir böhtan eşidəcəyini güman edib sərtliklə soruşdu:

– Nə səs-səmir?!

– Zöhrə, onu bil ki, bu iş baş tutmasa gorda gorum çatlar ha!

– Axı sən hansı işdən danışırsan, ay arvad? – deyə Zöhrə lap səbirsizləşdi. Zalxa qarı kimdənsə ehtiyatlanırmış kimi, əvvəlcə pəncərəyə, sonra yarımaçıq qapıya baxdı və xırıltı ilə pıçıldadı:

– De görüm yenə o gədəyə neyləyibsən ki, təzədən toyuğu tərs yumurtlayıb?! Niyə yenə ayağını çəkib bu qapıdan?

Zöhrə nimçəni kənara itələyib ayağa qalxdı, pəncərə ağzına gəlib, üfüqün son saraltıları çəkildikdən sonra, artıq tutqunlaşmağa başlayan göyə baxdı, üst-başını çəkişdirib düzəltdi, daima başından sürüşüb çiyinlərində qırçın-qırçın olan kalağayısını açıb yenidən örtdü və ancaq bundan sonra üzünü qarıya tutdu:

– Bilirsənmi, nənə, səndən çox-çox xahiş eləyirəm, bir də məndən bu barədə söz soruşma!

– Soruşacam! Dönə-dönə soruşacam. O vaxtacan ki, sən düzəməlli söz deyəcəksən mənə. Özün də gedib o gədənin qabağında üzrxahlıq eləyəcəksən!

– Elə şey olmayacaq!

– Olacaq! Çox yaxşı olacaq!

– Nənə, sənə nəyə and verim ki, məndən əl çəkəsən?

– İstər lap tanrını, peyğəmbəri tök bura, nənən daha əl çəkəsi deyil.

– Babamın gorunu istərsən, bəsdir! Elə vaxtilə dönə-dönə “barış, barış” dediyin üçün də axırda bizim başımıza bu oyun gəldi.

– Nə oyun gəldi bizim başımıza, ay qız?

– Təkcə bizim yox, elə bütün kəndin başına oyun gəldi. Başa düşürsən? Bütün kəndin... Mən vaxtilə onun qabağıfnda əsir-yesir olmasaydım, inciyər, xətrinə dəyər deyib, səsimi içimə salmasaydım, bax, bu gün sənin yağ küpən boş qalmazdı.

– Yağ küpəsini-zadı dığırlayıb ortalığa gətirmə! – deyə qarı təkidlə xırıltılı səsini ucaltdı. – Yeri bu saatca, tap onu, barış!

Zöhrə artıq dözə bilmirdi. Neçə vaxtdan bəri, demək olar ki, hər gün eşitdiyi bu sonsuz təkid daha onu cana doydurmuşdu. O, bir daha cavab verməyib qəzəblə üzünü yana çevirdi. Nəvəsinin bu halı qarını daha da özündən çıxartdı. O, çarpayıınn kənarından yapışaraq güc-bəla ilə yerindən durdu, skelet kimi qupquru, uzun, titrək barmaqlarını irəli uzadaraq, otağın alaqaranlığında həyula kimi səssizcə hərəkət edərək qıza yaxınlaşdı. İnildəyərək qamətini düzəltdi. Fikrə dalmış Zöhrə, sümük kimi quru, buz kimi soyuq bir şeyin təmasından diksinib dik atıldı. Qarı əlini onun biləyindən çəkib, şəhadət barmağını pəncərəyə tuşladı.

– İşığı gəlir... Yeri! – deyə xırıldadı.

Zöhrə əlacsız dərdə düşmüş adam kimi, dərindən köksünü ötürdü:

– Ay nənə, axı niyə cana doydurursan?.. Deyilən sözü niyə başa düşmürsən? Belə getməyəcəm. Bildinmi? Başa düşdünmü? Of-f!

Qızın bunu deməsilə qapını arxasınca çırpıb çıxması bir oldu.

Qarı bir müddət döşəmənin ortasında titrəyə-titrəyə qaldı. Sonra xırda, səssiz addımlarla yeriyib, çapayıdan tuta-tuta döşəkçəsinə yaxınlaşdı, sərili qalmış süfrəyə baxdı, qab-qacağı yığışdırmağa özündə taqət hiss etmədi; bu gün sanki bir illik geri düşmüşdü.

O, yazıq-yazıq ətrafına boylandı, qaranlıq künclərə, divarlara göz gəzdirdi, yəqin ki, artıq sümükləri çürümüş ərinə xəyalən müraciət edərək:

– Komana başıpapaqlı qismət deyilmiş, ay Alı. Eşidirsənmi, ay cənnətlik? Bundan sonra daha dağlıdı koman! – deyə zarıya-zarıya döşəkçənin üstünə əyildi, oturub yumaq kimi yumrulandı, yanaqlarının qırışlarını yaşla doldurmağa başladı...

Zöhrə iti addımlarla idarənin pillələrini qalxıb, sədrin kabineti ilə yanaşı olan iclas otağına sarı yönəldi. Açıq qapıdan onun gəldiyini görən sağınçılar stulları tərpədə-tərpədə səs-küy salaraq özlərinə yer tutmağa başladılar. Elə bu an Zöhrə arxadan tanış bir səs eşitdi:

– Zöhrə!

Arabaçı qapının ağzında dayanıb yaylıqla alnının tərini silirdi. Tez-tez, kəsik-kəsik nəfəs almasından hiss etmək çətin deyildi ki, o, haradansa bərk yüyürə-yüyürə gəlmişdi. Zöhrə onu başdan-ayağa gözdən keçirərək soruşdu:

– Nə var?

– Kərim dayı evdə səni çağırır.

Təəccübdən qızın gözləri genişləndi:

– Bəs Kərim dayı bilmirmi ki, bizim iclasımız var? Mən özüm öz dilimlə ona... Get de onun özünü çağırırlar.

– O gələ bilməz, Zöhrə.

– Niyə, ədə?

Arabaçı cavabı ləngitdi. Elə bil o, Zöhrədən nə isə gizlətməyə çalışırdı.

– Naxoşlayıb, – deyə pıçıldayarkən nədənsə səsi titrədi.

Zöhrə dönüb iclas otağında onu gözləyən sağınçılara baxdı. Nə edəcəyini bilmədi. Qaraya sarı bir addım atıb tərəddüdlə dayandı. Birdən, sədrin kabinetindən Şahgəldiyevanın pəncərə şüşələrini cingildədən şaqqıltılı gülüşü gəldi. Bunun arxasınca Çaparın və Lətifənin qarışıq gülüş səsləri eşidildi. Qapının arasında Lətifənin girdə, qarabuğdayı sifəti göründü. O, çənəsini dik qaldırıb, istehza ilə qıyılmış gözlərilə bu iki nəfəri süzdü və çəkilib yox oldu. Bir an sonra oradan yenə Şahgəldiyevanın qaqqıltısı eşidildi. Zöhrə nifrətlə qaynayan gözlərini o tərəfdən çəkib Qaraya doğru çevrildi, lakin nəzərləri arabaçının deyil, pilləkəni qalxan Sarının nəzərlərilə qarşılaşdı. Sarı dərhal gözünü ondan çəkib arabaçıya baxdı, qaşqabağını sallayaraq:

– Məxfi söhbətdənsə, məncə, iclas vacibdir, – dedi və ötüb sədrin kabinetinə getdi. Onun qapını arxasına örtməsindən çox keçməmişdi ki, gurultulu bir qəhqəhədən yenə pəncərə şüşələri cingildədi.

Zöhrə qəti bir hərəkətlə iclas otağına sarı yönəldi və gedə-gedə:

– Sonra, Qara, sonra, – dedi, – iclasdan sonra...

Lakin arbaçının sözləri onu yarı yolda saxladı.

– Sonra gec olar, Zöhrə! – deyə Qara istər-istəməz həqiqəti açdı.

Bir qədər ucadan deyilən və təşvişlə dolu olan bu səs Zöhrənin ayaqlarını döşəməyə mıxladı. O, ağlına gələn qorxunc fikirdən sarsılıb, qanıqaçan zərif dodaqları yarıaçılmış, gözləri böyümüş halda arabaçıya yaxınlaşdı. Qaranın avazımış bənizinə, yaşla dolmuş gözlərinə yalnız indicə diqqət yetirdi. Qız nə isə demək istədi. Ancaq bacarmadı; söz elə bil ilişib boğazında qaldı.

– Gedək, Zöhrə, – deyə arabaçı onu tələsdirdi, – ağırdır!

Lakin qız sanki yerindəcə qurumuşdu. O, qulaqlaırna inanmaq istəmir, bu acı, ürək dağlayan xəbəri bir yuxu zənn edərək, sanki onun ötüb keçəcəyini gözləyirdi. Axı, doğrudan da, bu yuxu kimi idi. Günortaüstü Kərim dayı sağ-salamat dolanırdı. O, hətta komsomolçuların iclasına gələcəyinə söz vermişdi. Sonra Zöhrəni yanına alıb arakəsmələri gəzmiş, hovuza, duşlara baxmış, ayrılanda isə: “Sabah inəkləri çimizdirmək lazımdır, töyləyə köçdüyümüz bir həftə deyil, indidən heyvanda gənə var”, – deyə qayğıkeşliklə bildirmişdi. Bu vaxt arıq, uzun naxırçı Hətəm çay qırağına gəzintiyə çıxartdığı naxırın içindən müdirə papaq eləmiş və Kərim dayı, yenicə xəstəlikdən qalxmış adama heç yaraşmayan yüngül addımlarla sahilə enmişdi. Qocanın yenə həmişəki kimi qıvraq tərpənməsi Zöhrəni sevindirmişdi.

İndi birdən-birə Kərim dayıya nə olmuşdu? Yox, yox, bu dəhşətli xəbərə inanmaq heç cür mümkün deyildi...

– Zöhrə, vəsiyyətini eşitməyəndən sonra heç getmə! – Arabaçının boğuq və acıqlı bir səslə dediyi bu sözlər, nəhayət, qızı ayıltdı. O, tük ürpərdən bir səslə çığırıb dırnaqlarını yanaqlarına sancdı...

Sədrin yanına, partiya təşkilatçısının kabinetinə, iclas otağına və hesabdarın başına yığışmış camaat bir-birini basa-basa dəhlizə, oradan da idarənin həyətinə tökülüşdü. Kalağayısının bir ucu yerlə sürünən Zöhrənin irəlidə, Qaranın isə bir neçə addım geridə sürətlə qaçan gördükdə, əllərini belinə qoyub pillədə dayanmış Çapar qəfildən qəhqəhə çəkdi:

– Əyə, bu Sərkərli gədəsi lap ağ eləyir ki... Hi-hi-hi-xxx...

İclasa gecikdiyini zənn edib, qarşı tərəfdən yeyin-yeyin gələn Nənəm-nəhrə bir-birini qovurmuş kimi yüyürən cavanları görüb ayaq saxladı, zorba qollarını yana açaraq arabaçının qabağını kəsdi,

amma qəfildən, görünür, ondan nə isə eşidib, əllərinin ikisini də şarpıltı ilə dizlərinə çırpdı:

– Bo-oy, Allah, mənə ölüm ver!.. – deyə boğuq səslə qışqırdı.

– Ağız, nə olub, ay Hürü bacı?

Sağınçılardan hansınınsa verdiyi bu suala alınan cavab hamını heyrətə saldı:

– Əşi, elə şey olmaz, canım!

– Ə, kişi bu gün töylələrin qabağında fır-fır fırlanmırdımı?!

Camaat Sərkərlilərin evinə doğru axışdı.

Hamı tələsirdi. “Bəlkə bir qəza üz verib, bilməmişik?..” “Bəlkə kişini buğa-zad vurub?” – deyə hərə bir cür fikir söyləyirdi.

Həqiqət isə başqa cür idi.

Kərim dayı sahilə enən zaman gün xeyli əyilmişdi. Körpünün yaxınlığındakı cökə ağaclarından sahilə doğru qatı bir kölgə sürünüb aşağıları tutqunlaşdırırdısa da, Kərim dayı naxırçının sifətini aydınca seçirdi. Bir neçə gün əvvəl Kərim dayıya bəd xəbər gətirmiş bu uzun, qara oğlanın sifətində yenə nə isə bir narahatlıq vardı. “Yəqin yenə heyvandan ölən var”, – deyə qoca fikirləşdi. Fikrinin doğru olduğunu, arıqlıqdan sümükləri çıxmış qumral bir düyənin yarğanın qaşında hərəkətsizcə uzandığını gördükdə onun bütün bədənindən soyuq bir gizilti keçdi: “Gündə bir-ikisi beləcə ayağını uzadıb döşənsə, naxır yarıya dayanacaq. Yaxşı günə saldılar bizi! Ermənin ocağı qaralsın!” Kərim dayı ölmüş düyəyə yaxınlaşdı. Lakin tələfatın baş verdiyi ilk gündə olduğu kimi heyvanın başı üzərində dayanıb fikrə dalmadı. O, çənəsini çomağına dayayıb kədərli-kədərli yerə baxan naxırçıya sarı döndü:

– Yaxşı, bala, bəs niyə murdar eləyibsən bunu? Üstündə kəsərin yox idi?

Naxırçı köksünü ötürdü.

– Vaxta ki, boynumda ödək qalacaq, ay Kərim dayı, daha boğazına niyə bıçaq çəkim? Bir ağzıgöyçək də desin, özü qəsdən kəsib?

Kərim dayı təəccüblə qaşlarını çatdı.

– Yəni elə deyən də var?

– Deyən yoxdur, bəs doktor o birilərinə niyə “istifadəsiz akt”ı verməyib? Bəs niyə ölənin hamısını Muxtarnan mənim boynumda ödək qoyub?

Kərim dayı naxırçının nəyəsə əsaslanaraq dediyi fikrə acı-acı gülərək:

– Heç kim sənin boynuna ödək qoya bilməz, bala, – dedi. – Qanun var, ədalət var! Bu üzün gecələri yuxusuz qala-qala kolxoz malının başına dolanan da sən, ödək verən də sən?! Sənə bircə kərə demişəm ki, şəraiti-filanı olmaya-olmaya heyvanı bu aranda kim saxlayıbsa, o da ödəyini verəcək.

Naxırçı eyni ümidsizliklə əlini yellədi:

– Şahnabad Şahgəldiyevanın sədrnən zootexnikin kürəyinə döydüyünü görsəydin, belə deməzdin.

Kərim dayı başını bulayaraq:

– Qoy min döysün! – deyə ucadan bildirdi. – Dünyanın yiyəsi Şahnabad deyil ki?! Özünü göstərib yer qazanmaq xətrinə dövlətin hər qərarı çıxanda bir əyinti eləyənləri Kərim dayın çox görüb, bala! Bax, bu leşi camaat onun gözünün içinə soxacaq! Az boynuburuğ dur, yekə oğlansan. Təpənin üstə sarı çıx, ordan uşaqlara papaq elə, bir araba göndərsinlər...

Düyənin leşini arabaya qoyub fermaya apardıqdan sonra, Kərim dayı:

– Bu tərəflərə dana-buzov gəlməyə qoyma, qan görməsinlər, – deyə cəld qollarını çirmədi, kərənti tiyəsindən qayrılmış bıçağını köynəyinin döş cibindən çıxarıb leşin gönünü almağa başladı. İsmət xala onu bu vəziyyətdə görsəydi, yəqin ki, dərhal saç-birçəyini yolub qışqırar və həkim qızın tapşırığını xatırladaraq, ərini sürüyüb işdən kənara çəkərdi. Lakin nə İsmət xala burada idi, nə də Kərim dayı özü bu barədə düşünürdü. Bu saat dünya Kərim dayının gözündə qaralmışdı. Hətəmin ağdəstə xəncəri ilə leşin qabaq tərəfini yarıb, “yenə övkə!..” – deyə üz-gözünü turşudan cavan baytar həkiminə əhəmiyyət vermədən işləyən qoca, yalnız bircə şey haqqında düşünürdü: “Naxır qırılıb yarıya dayanacaq!” Bu fikir Kərim dayının bütün varlığına hakim olduğundan, o, necə sürətlə işlədiyinin fərqinə varımrdı. Birdən içərisində bərk yanğı hiss etdi. Başını qaldırmadan Hətəmdən su istədi. Bu bircə dolça soyuq bulaq suyunun qoca müdirinə nə qədər baha oturacağını Hətəm haradan biləydi? O özü qoşa cökələrin yanındakı bulağın diş göynədən suyundan gündə on dəfə doyunca içib, ləzzətlə nəfəsini dərərək “oxxay!” deyirdi. Doğrudur, indi Kərim dayı da belə elədi. Düyənin cəmdəyini qazıb basdırdıqdan sonra isə Kərim dayını birdən titrətmə götürdü.

– Əyə, ay zalım, göydəm bütün tər içindəymiş! O zəhrimar suyu niyə verdin mənə, ay Hətəm? Of, kürəyimin arası nə yaman qovuşdu! Elə bil kürəyimə buz bağladın, ə kişi!

– Gəlsən, kürəyini ovuşdurum, Kərim dayı, – deyə naxırçı həmişə özünü nasaz hiss edəndə işlətdiyi "müalicə üsulunu" göstərmək istədi. Lakin Kərim dayı:

– Yox, bala, zəhrimar, deyəsən, bərk tutdu məni, – dedi. – Ovuşdurmaqla, deyəsən, heç əlac olası deyil... Of, nə yaman üşüdüm, əyə! Gör yapıncından-zaddan bir şey tapa bilərsənmi, bala.

– Yayın günündə yapıncını hardan alım, ay Kərim dayı.

– Yaxşı, onda mən getdim... Dayana bilməyəcəm... Heyvanı içəri doldurun, – deyə Kərim dayı üfüqə doğru meyllənən günəşə baxdı. – Daha vaxtdır... O xəstə inəklərdən muğayat olun, altının samanını qalın eləyin; arıq heyvan sementdən soyuğu tez çəkər... Göy otu qoyma sələ-sərpə dağıtsınlar. Zöhrəyə tapşır göz olsun: o Hürü-filan, deyəsən, cədvələ fikir vermirlər...

– Bah, bah, göydəmi titrətmə götürdü ki, ə kişi. Vurğun vurmuş kimi bu nəydi, əyə!..

Kərim dayı ömründə belə sarsıntıya düçar olmamışdı. Nə üçün gizlədək, qoca bir az qorxuya düşdü. Yolun yarısına qədər o, qızdırmalı kimi dişləri-dişlərinə dəyə-dəyə getdi. Sonra yavaş-yavaş bədəninə istilik gəldiyini, bayaqdan buz içində donmuş kimi keyikmiş əzalarının tədricən açılıb dincəldiyini hiss etdikdə isə, o: "Qocalıb sarsaqlayıbsan ha, ay Sərkəroğlu, – deyə öz-özünü məzəmət elədi. – Yaranan bir cana borcludur. Daha bundan ötrü niyə uçunursan? Amma işin bu yerində yorğan-döşəyə girmək lap insafsızlıqdır. Yox, gedim Talıb qızının hörrəsindən-mörrəsindən bir az hortdadım, ağlım başıma gəlsin, qayıdım... Hə, hə, qayıdım! Camaat görcək ki, sağmal inəklər bir-bir ət olub çəngələ keçir, kərim Sərkəroğlu da böyrünü taxta verib, başlayacaqlar töhmət eləməyə ki, bu belə filan oğlu da azarlamağa vaxt tapdı... Görəsən, İsmət nə bişirib? Dəli kimi səhərdən ac-susuz çıxmışam. Vallah Talıb qızı əlinə ağac alıb məni döysə də haqqı var..."

Dağlar tərəfdən sərin meh əsdi, cökələrin yarpaqları səsləndi. Bayaq bürünməyə yapıncı axtaran Kərim dayı, indi köynəyinin yaxasını açıb sinəsini yelə verdi. Bədəni alışıb-yanırdı...

Silos xəndəklərinin yanından keçəndə Kərim dayı yemdoğrayan maşına qan-tər içində ot daşıyan baldızı oğluna və papirosunu

tüstülədə-tüstülədə təmkinli hərəkətlərlə nova yem basan Yunus kişiyə baxdı.

– Əyə, bu şər vaxtı uşağın bağrını niyə yarırsan, ay Yunus? O, öz canının qədrini bilmir, bəs sənin insafına nə olub? – deyə Kərim dayı səbəbini heç özü də duymadan, bəlkə də ilk dəfə arabaçının bu cür qayğısına qaldı. “Cavan adam gərək işin ən ağır yerində bişib bərkisin”, – deyə o, əvvəllər Qaranın bircə saat belə boş, avara gəzməsinə yol verməzdi. İndi isə nədənsə birdən-birə qəlbində başqa hisslər oyandı.

Yunus kişi onun cavabında gülümsünüb bığını sığalladı.

– Dərədəki günlərin əvəzini çıxardıram, Kərim, – dedi, – sənin bu baldızın oğlu orda, gecələr ay işığında qız-gəlinlərin hənirtisi gələn yerlərdə çox gəzib-dolanıb. Qorxma, bu saat onun ceyran belinə sıçrayan vaxtıdır. – Sonra əlavə etdi: – Ə, yüz ilin qocası kimi niyə elə iki qat olubsan?

Kərim dayı, doğrudan da, büzüşüb qamətini əydiyini ancaq indi hiss etdi. O, belini düzəldib özünü gümrah tutmağa çalışdı. Lakin evdə İsmət xala da yeni sözləri dedi:

– Bo-oy, başıma daşlar, ay kişi, niyə belə bürüşüb acı almaya dönübsən?

Kərim dayı hiss etdi ki, bayaqkı sarsıntını boynuna alsa, inadkar Talıb qızı onu heç vəchlə işə qayıtmağa qoymayacaq.

– Ə, acı alma niyə oluram, ay rəhmətliyin qızı? On beş yaşında oğlana dönmüşəm. Gətir görək küncündə-bucağında nəyin var, qarnım əldən gedir.

Doğrudan da, o, İsmət xalanın “unnucadan bişirdiyi dovğanı çox iştahla içməyə başladı. Nimçə yarıya enməmiş, qəfildən sinəsində küt bir ağrı hiss edib, qaşığı əlindən saldısa da, yenə özünü o yerə qoymadı. Tezliklə ağrı keçdi və hətta o, İsmət xala ilə zarafat da elədi:

– Bişirdiyin də özün kimi get-gedə dada gəlir, ay İsmət.

İsmət xala gülümsündü. Bu təbəssüm nədənsə Kərim dayıya İsmətin qız vaxtlarını xatırlatdı.

– Ə, vallah doğru sözümdür, gülmə.

– Yəqin ağzının dadını təzə-təzə bilirsən də.

– Eləysə bir gəlib yanımda otursana.

– Bircə o qalımşdı!.. Xalası ölmüş dillənəndə ağzından vurursan. Özün saqqalının çal vaxtında gör nə danışırsan.

– Ə, insafsız olma, ay İsmət. Bəlkə elə ömrümün sonudur. Bax, birdən ölüb elərəm, yana-yana qalarsan ha!

– Zarafatı boşla, Kərim! Ağzın xeyirliyə açılsın, yenə ürəyimi qopartma.

İsmət xala nimçəni stolun üstündən götürüb o biri otağa getdi. Orada xeyli ləngidi. Qayıdanda Kərim dayını görmədi, istər-istəməz pəncərədən eşiyə baxdı. Kərim dayı yavaş-yavaş ferma yolu ilə uzaqlaşırdı. Qocanın yenə çəliklə yeriməsi İsmət xalaya Dərəyə yollanarkən yuxusuz qaldığı gecəni xatırlatdı. Arvad yenə kədərləndisə də, bu dəfə ərinin çəliklə yeriməsini özünə böyük dərd eləmədi. "Təki cancığazı əlimdə qalsın, çəliklə gəzsə də olar..."

İsmət xala bu fikirlərlə qayıdıb evdə qurdalanmağa başladı. Azmı keçdi, çoxmu keçdi – bilmədi. Qəfildən qapının şaqqıltı ilə açılmasından diksindi. Geri döndü və gözlənilməz bir mənzərə qarşısında donub qaldı: Yunus kişi ilə Qara ayaq üstündə güclə duran bir adamın qoltuqlarına girib içəri gətirirdilər. Bu adamın sifəti, boğulmuş kimi, elə göyərmişdi ki, İsmət xala onun öz əri olduğunu ağlına sığışdıra bilmədi.

– Talıb qızı, yer sal, – deyə bu cür dar ayaqda belə papirosunu damağından qoymayıb, aram-aram sümürə-sümürə, təmkinlə dillənən Yunus kişinin sözlərini eşitdikdə, İsmət xalanın sifətində qan qalmadı. Lakin o, çığırıb özünü ərinin üstünə salmadı. Gözlərini döyə-döyə gah Qaranın, gah Yunus kişinin, gah da Kərim dayının gömgöy kəsilmiş sifətinə baxa-baxa qaldı. Kərim dayı arvadın özünü itirdiyini anladı. O, bütün qüvvəsini toplayaraq qollarını Qaranın və Yunus kişinin çiyinlərindən götürdü, bir addım irəli yeridi və gülümsündü.

– Niyə özünü itirdin, İsmət? Məndə nə var ki? – O, ayaq üstündə çox çətinliklə durduğunu, bayaq xəndəklərin yanından keçəndə olduğu kimi, yenə gözlərinə qaranlıq çökdüyünü hiss etdi. Kərim dayı özünü çarpayıya güclə yetirdi. Sonra nə olduğunu bilmədi. Yalnız uğulutya bənzər bəzi qatqarışıq səslər eşitdi. Sonra bu səslər də eşidilmədi...

Kərim dayı gözlərini açanda isə, qarşısında əllərini qoynuna qoyaraq, yaşla dolu gözlərini ona zilləmiş İsmət xaladan başqa heç kimi görmədi. İsmət xala onun özünə gəldiyini görüb, tez aşağı əyildi.

– Bizi bir balaca qorxutdun, ay Kərim, yesirin olum, ay kişi! Qadan-balan hamısı mənim canıma gəlsin.

Kərim dayı kəsik-kəsik nəfəs ala-ala, qaşlarını çataraq, sanki nə baş verdiyini, arvadının nə üçün belə sızıldaya-sızıldaya yalvardığını dərk etməyə çalışdı. Xeyli beləcə keçdi və birdən Kərim dayı tamamilə sərbəstcə:

– Lampanı niyə yandırmırsan, arvad? – deyə səsləndi. – Görmürsənmi şər qarışıb. Yandır işıq olsun!

– Bu saatca, ömrüm... – İsmət xala sevindiyindən heç sözünü də tamamlamadan tez qonşu otağa yüyürdü. Tezliklə otuzluq lampanın gur işığı yarımqaranlıq otağı aydınlaşdırdı. Kərim dayı gözünü ətrafa dolandırdı.

– Bəs Yunus necə oldu?

– Doktoru çağırmağa gediblər, yesirin olum. Eləmi qorxutdun ki, bizi! – deyə İsmət xala əllərini qoynuna qoyub onun başı üzərində əyildi.

Otağı sükut bürüdü. İsmət xala ərinin tez-tez qalxıb-enən sinəsinin necə xışıldadığını aydınca eşitdi. Arvadın dodaqları səyridi. Onun sol yanağından süzülən bir damla yaş Kərim dayının ağ saçlarının üstünə düşüb şeh kimi parıldadı.

Kərim dayının quyu dibindən gəlirmiş kimi boğuq səsi sükutu pozdu:

– İsmət... Buraya adamlar gələcək. İstəyən də gələcək, istəməyən də... Onları yaxşı qəbul elə. Ağılla-başla yola sal. – O aramla, tələsmədən danışırdı: – Doktor qızı da razı sal. Zəhmətimi çox çəkib...

İsmət xalanı yaş boğdu. O, nə isə demək istədi. Ancaq ağzını açan kimi hönkürəcəyini hiss edib dodaqlarını çeynədi.

– Gədəni də göndər, qoy Zöhrəni çağırsın, – deyə Kərim dayı yenidən dilləndi, – harda olsa tapsın gətirsin... Eşidirsənmi, ay arvad, niyə səsin gəlmir?

İsmət xala şalının ucu ilə ağzını tutaraq, ona doğru əyildi, güclə pıçıldadı:

– Eşidirəm, niyə eşitmirəm, kar ha olmamışam?..

Kərim dayı elə indicə gördü ki, bu sözlərdən sonra hönkürməmək üçün İsmət xala nə qədər qüvvə sərf etdi.

– Ə, məndə nə var ki, ay dəli? – deyə o, yenə gülümsünməyə çalışdı. – Elə bilirsən vəsiyyət eləyirəm? Paho, bu qırx ildə mən səni ciyərli arvad təkin bilmişəm. Ə, sil gözünün yaşını! Bu sözləri, belə, ona görə deyirəm ki, bəlkə gec durdum... Yastığımı qaldır görüm. Dəli!..

Yunus kişigil gəlib çıxdılar. Kök, balaca boylu, qara saçlı, ağ bənizli qız qapıdan girən kimi Kərim dayı onun iri gözlərindəki ifadədən duydu ki, cavan həkim bərk təşvişə düşmüşdür. Qoca öz dərdini çox yaxşı anlayırdı. Sinəsindəki xışıltını özü hamıdan aydın eşidir və bunun nə demək olduğunu da çox yaxşı bilirdi. Buna görə də o qaş-göz işarəsilə həkim qıza anlatmağa çalışdı ki, artıq gecdir və heç nə açıb-ağartmaq, vaxtından əvvəl səs-küy salmaq lazım deyil. Lakin təcrübəsiz həkim heç nə başa düşmədi, Kərim dayının ciyərlərini dinlədi, nəbzini yoxlayıb, əlləri əsə-əsə bir kamfora vurduqdan sonra, qonşu otaqda hər şeyi açıb Yunus kişiyə dedi: "Aslan ürəkli adammış, bu halda ayaq üstə gəzirmiş", – deyə onun pıçıldadığını Kərim dayı aydınca eşitdi. Kimsə orada hıçqırdı. Kərim dayı Qaranın səsindən tanıdı. Daha birisi də hıçqırdı. Bu da İsmət xala idi. Sonra bir başqası onların hər ikisinə təpindi. Bu təmkinli, qalın səs isə, əlbəttə, Yunus kişininki idi. Kərim dayı sinəsi dolusu nəfəs alıb, bacardıqca gümrah danışmağa çalışaraq:

– A bala, a doktor, – dedi, – o uşağın bağrını niyə yarırsan, a qızım? – Sonra o, içəri girən arvadını, baldızı oğlunu və Yunus Kişini məzəmmət etdi: – Məni tək qoyub hara çəkilibsiniz, a kişi? Ə, rəngrufunuz niyə saralıb?.. Bax, bizim bu doktor qız bircə şeyi düz deyir ki, məndə aslan ürəyi var, sizin tayınız deyiləm. Gəlin oturun burda!.. Bayaq deyirdin Dərədəki günlərin əvəzini çıxardıram, ay Yunus, gəl söylə görüm bu gün ortalığa nə qoyubsunuz? Ə, əlini qoynundan çıxart, ay Talıb qızı! Dərə sənin də köhnə oylağındır, qulaq as, görək bu lovğa Yunus oraların o güllü-çiçəkli otundan bizə bir xeyir verəcəkmi? Söyləsin görək yoncasını nə vaxt istifadəyə verir? Sən də, a bala, yeri mənim Ulduzumu çağır...

Qara həkimin qorxunc sözlərindən sonra, qocanın belə gümrah danışmasından özünü itirərək, heyrət içində donub qalmışdı. Kərim dayı gəncin halını duyub qüssəli-qüssəli qımışdı.

– Özgə vaxtlar gecələr yuxu da yatmırsan ki, dan yeri sökülməmişdən durasan, papağını başına basıb yüyürəsən Papaqçılar tərəfə. İndi minnətmi istəyirsən, oğul?

Lakin Kərim dayı sözünü tamamlaya bilmədi. Onu öskürək tutdu. Sifəti daha da qaraldı, nəfəsi bir anlığa dayandı. Sonra sinəsi körük kimi qalxıb endi, yenə aramla nəfəs almağa başladı.

Həkim qız ikinci kamforanı vurarkən qoca, şirin yuxuya getmiş kimi, heç əllərini də tərpətmədi. Onun gözləri qapalı idi...

Kərim dayı ikinci dəfə gözlərini açarkən artıq otaq adamla dolu idi. Çapar da, Sarı da, Şahgəldiyeva da, aqronom oğlan da burada idilər. Onlar çarpayının sol tərəfində cərgə ilə dayanmışdılar. Şahgəldiyeva qıpqırmızı qızarmışdı. O niyə bu hala düşmüşdü? Yol gəldiyi üçünmü pörtmüşdü, yoxsa, vaxtilə ondan dərman istəmiş bu xəstə qocanın dərdinə əlac eləmədiyinə görə utanır, xəcalət çəkirdi? O, irəli əyilib nə isə demək, yəqin ki, qocanın əhvalını xəbər almaq istədi. Kərim dayı üzünü yana döndərdi, dərin sükuta dalmış adamları bir-bir gözdən keçirdi. Nəhayət, onun nəzərləri hər iki yanağından qan sızan, bəstəboy, qara saçlı, qaynar gözlü, ağ kalağayılı, çəhrayı qoftalı bir qızın üzünə sancılıb qaldı. Kədərli bir təbəssüm qocanın qaralmış sifətini ani olaraq aydınlaşdırdı. Bu, onun son təbəssümü oldu. Zöhrəyə demək istədiyi sözlər Kərim dayının birdən-birə kilidlənən dodaqları arasında qaldı. O, bu sözləri getdikcə işığı sönən, amma hələ candan düşməmiş gözləri ilə ifadə etməyə çalışırmış kimi, nəzərlərini öz yetirməsinin üzündən çəkmirdi. Zöhrə az qala nəfəs almadan, böyük ümid və etibar ifadə edən o gözlərə baxır, sanki orada sevimli müdirinin vəsiyyətini oxumağa çalışırdı...

Kərim dayı uzun müddət eləcə, baxa-baxa qaldı və nəhayət, onun başı səssizcə əyilib sol çiyninin üstünə düşdü. Zöhrənin titrəyən əlləri, bu günə qədər bəlkə çöp belə cızmamış yanaqlarının dərisini sıyırdı. İsmət xalanın fəryadı sakit yay axşamının sükutunu parçalayaraq, bütün kəndə yayılıb, Sərkərlilərin ailəsinə üz vermiş bədbəxtliyi kəndə xəbər verdi...

## 31

Ertəsi günü, yol kənarındakı cökələrin kölgələri uzanıb Sərkərlilərin həyətindəki izdihamın üzərinə sərinlik gətirərkən camaatdan bir neçə adam ayrılıb tabuta yaxınlaşdı. Onların niyyətini başa düşən İsmət xala tabutu qucaqlayaraq, ağlamaqdan kallaşmış səsilə çığırdı:

– Verməərəm!.. Niyə qoymursunuz ürəyimiz soyuyanacan ağlayaq, ay insafsızlar! – Arvad göz yaşından islanmış yaylığını havaya qaldıraraq, qanı qaçmış dodaqları titrəyə-titrəyə sızıldadı: – Səni mənim əlimdən almaq istəyirlər, ay gözümün işığı... Aparıb qara

torpağın qoynuna qoymaq istəyirlər, ay Kərim... Niyə səsin gəlmir, a qurbanın olum? Yoxsa məndən küsübsən, yesirin olum! Yoxsa deyirsən Talıbın qızı tabsızlıq eləyir, ay Sərkəroğlu? Məndən küsübsən, heç olmasa bu camaata səs ver. El tökülüb yanına gəlib, dur xoşgəldin elə. Sən ki, el deyib-el eşidərdin, indi niyə eldən üz döndəribsən, ay Kərim?..

Qapı ağzında dayanmış Şahgəldiyeva əllərini toqqasının altına keçirib onunla yanaşı durmuş Çapara sarı döndü:

– Bu arvadı bir yana aparın, – dedi, – Gün əyilib gedir, qurtarın!.. Mən burdaykən danışaq, görək fermanı kimə tapşıracağıq.

Çapar əllərini toqqasının altından çıxarıb, tabutun dövrəsində yaylıqlarını yelləyə-yelləyə ağlaşan arvadlara sarı yerimək istədi, lakin nə isə fikirləşib ayaq saxladı.

– Ancaq heç bilmirəm yaxın duran olacaqmı, yoldaş Şahgəldiyeva?

– Nəyə?

– Fermanı deyirəm. Axı, vəziyyəti özünüz bilirsiniz: o səkkizindən başqa üçü də bu gün ölüb. Bəlkə hələ yenə ölən-itən olacaq, məsuliyyətin altına kim girər?

– Ölən-itən barədə susmaq lazımdır, Çapar – deyə Şahgəldiyeva boğuq, amma amiranə bir səslə bildirdi. – Danadan-buzovdan ucuz qiymətə alıb heyvanın sayını düzəltmək və susmaq! Bildinmi?!

Çapar bu qəti xəbərdarlıq üçün Şahgəldiyevaya ancaq təşəkkür etməli idi. O, yaxşı anlayırdı ki, nə vasitə ilə olur-olsun tələfat rayon təşkilatlarından gizlədilməlidir. Əks təqdirdə zərbə onun özünə – sədrə deyəcəkdi. Bəli, o, Şahgəldiyevaya dönə-dönə təşəkkür etməli idi. Lakin Şahgəldiyevanın dediyi təklifi necə yerinə yetirəsən?

– Axı... – Çapar müsahibinin sərt çöhrəsinə baxıb udqundu. – Axı, yoldaş Şahgəldiyeva, o dana-buzovu almağa pul lazımdır.

– Məncə, pulu hardan çıxartmağı sən bilərsən, Çapar!

– Bilirəm. Ancaq...

– Nə ancaq?!

– Mən axı, bu naxırçılardan, sağınçılardan ödək istəyə bilmərəm.

Şahgəldiyeva əllərini belinə qoyub təəccüblə qaşlarını çatdı:

– Niyə istəyə bilməzsən?

– Bunlara ödək barədə bircə kəlmə desən, səsləri rayonu da ötüb düz Bakıya gedər, yoldaş Şahgəldiyeva. Onsuz da Yunus

rayonun yolunu su yoluna döndərib. Altdan-altdan qazır... O Bığlı necə qandırıbsa, ispalkomdan tutmuş katiblərəcən məni görəndə elə bil qutuda ilan görürlər. Tək Çəpərdir mənimki...

– Əvvəllər sən çox cəsarətlə danışardın, Çapar!

– Onda mənim arxamda siz varıydınız, Çəpər varıydı...

Şahgəldiyeva gülməkdən özünü güclə saxladı; o, hətta, həmişə güləndə etdiyi kimi, açılanda quyu tək qaralan yekə ağzını göyə tutub bir dəfə yırğalandı, lakin harada olduğunu xatırlayıb, dərhal ətli, qırmızı dodaqlarını bir-birinə sıxdı.

– Əcəb dostsan, Çapar! Yoxsa, daha məni heç hesab eləyirsən? Bəlkə məni vəzifədən çıxardıblar, ya Çəpəri?! Özümün xəbərim yoxdur, hə?

Çapar nə cavab verəcəyini bilmədi. Doğrusu o, heç özü də bilmirdi ki, Şahgəldiyevanın yenə arxada dura biləcəyinə birdən-birə nə üçün şübhə edir? Dünənki düyə əhvalatından xəbər tutduqdan sonra onun canına üşütmə düşmüşdü; həmişə qarnının üstündə gəzən qara tüklü ağ əlləri qalife şalvarının ciblərinə dürtülmüş, çiyinləri bir az irəli meyllənmiş, sinəsi çökmüşdü. Tərs kimi bütün gecəni də qat-qarışıq yuxular görmüşdü. Bir zaman hay-küylə içəri doluşub: "Var-dövlət bizimdir, biz də onu bu ilanmələyəndə qırmaq istəmirik", – deyə Çapar evdən qaçıb Şahgəldiyevaya pənah gətirməsinə səbəb olmuş sağınçılar bütün gecəni kişiyə rahatlıq verməmişdilər. Sonra Kərim Sərkəroğlu ağ kəfəndə onun gözlərinə görünmüş, yaxasından yapışıb çəkə-çəkə harayasa aparmaq istəmiş və bu vaxt Çapar qan-tər içində hövlnak oyanaraq çarpayıdan sıçramış, mömin adamlar kimi "lailahiillallah" deyə pıçıldayıb özünə ürək-dirək verməyə çalışmışdı. İndi Şahgəldiyeva ilə söhbət edəndə belə Çapar qeyri-iradi olaraq, tez-tez o dəhşətli yuxunu xatırlayır və istər-istəməz tərəddüd edirdi: naxırçılardan ödək istəsə cəncələ düşməz ki?..

Şahgəldiyevanın son sözləri ona yenidən cəsarət verdi. Qara tüklü ağ əlləri şalvarının ciblərindən çıxıb yenə toqqasının üstündə gəzdi.

– Bağışlayın, yoldaş Şahgəldiyeva... Mən o cür demək istəmirdim, – deyə o, əvvəlcə üzr istədi, sonra tez əlavə etdi: – Mən heç şübhə eləmirəm, siz yenə Dur dağı kimi duracaqsınız mənim arxamda. Heyvanın sayını düzəltməyinə düzəldərəm. Lap günü sabah! Qoy rayondan bir sançı yox, yüzünü yollasınlar. Qoy bu Bığlı

bir qəmisiyə yox, yüzünü düzəltsin. Gəlib görəcəklər: sannı qoz, biçimli köynək. Qaldı ki, fermanı kimə tapşırmaq... Mən həmişə yuxarının göstərişilə oturub-durmuşam, yoldaş Şahgəldiyeva. İndi də, siz kimi desəniz onu da qoyarıq. Çəpərnən özün məsləhətləş, təklifinizi deyin.

– Yaxşı, bu barədə sonra! – deyə Şahgəldiyeva ona sonsuz etimad göstərən bu yoğun dostunun qarşısında özünü daha da cid-diləşdirdi. – Hələlik bu işi qurtarmaq lazımdır. Səs-küydən başım lap qazana döndü.

Çapar cəld astanadan endi, əlinin işarəsilə Sarını, aqronomu və adəti üzrə çənəsini çomağına dirəyərək, hüznlü-hüznlü dayanmış naxırçı Hətəmi çağırıb, tut ağacının altında qoyulmuş tabuta doğru yeridi.

Gözlənilməz bir hadisə baş verdi. Elə bir hadisə ki, bu, sonralar da, bütün ömrü boyu Çaparın yadından çıxmadı.

O, çiynini tabutun altına verib tut ağacından yenicə aralanmışdı ki, arvadların hönkürtüləri içindən qulağına boğuq, xırıltılı bir səs gəldi:

– Kərim Sərkəroğlunun cənazəsini onun öz yetirmələri apara-caq, Çapar! Sən zəhmət çəkmə!

Kimsə camaatı yara-yara irəli yeri. İsmət xalanın yuxusuzluqdan, ağlamaqdan, ruhi əzabdan sapsarı saralmış çöhrəsi adamların çiyinləri arasından göründü. Onun bir az bundan əvvəl sel kimi yaş tökən, indi isə birdən-birə quruyub, elə bil ki, qürurla baxan gözlərindəki qəti ifadə Çaparın ayaqlarını yerə mıxladı. İzdiham dalğalanıb fırtınadan sonra sakitləşən dəniz kimi səssiz-səmirsiz qaldı. Dərin sükut içəri-sində İsmət xalanın sözləri daha aydın eşidildi:

– Sərkəroğlu əcəlsiz getdi, Çapar! Onun cənazəsini sən qal-dırsan bunu nə yer götürər, nə göy götürər... İrəli gəlin, a balalarım! – deyə İsmət xala camaatı heyrətə gətirən bir təmkin və qürurla dönüb, beş addımlıqda Qaranın başına toplaşmış yeniyetmələri və sağınçıları çağırdı. – İrəli gəlin! Ata cənazəsini oğul qaldırar! Kərim dayınız qızlı-oğlanlı sizin hamınıza ata gözüylə baxırdı. Gəlin!..

Lakin heç kim yerindən tərpənmədi. Cavanların irəli yeriməsi Çaparı təhqir etmək, ona ağır zərbə vurmaq deməkdi. Onlar çaş-baş qalıb bir-birinin üzünə baxdılar. Əvvəlcə pıçıldaşma, sonra getdikcə güclənən bir uğultu sükutu pozdu.

Çapar sarsılmışdı. Qulaqlarının dibinədək qızararaq, özünü itirib kütləşmiş halda dayanmışdı. O, qəfildən ayıldı. Çiynini tabutdan çəkərsə, bunun "Engels"lilər qarşısında tək hörmətdən düşmək deyil, ölümdən də betər olacağını düşünərək, başını aşağı salıb addımını atdı və qabağı kəsmiş İsmət xalanın üzünə baxmadan:

– Çəkil! – deyə xırıldadı.

İsmət xala qımıldanmadıqda isə o, dirsəyilə arvadın sinəsindən vurub kənara itələdi. Bayaqdan bəri tərəddüdlə dayanıb yoldaşlarının üzünə baxan arabaçının qanı oynadı. O, əyilmiş papağının qulağını gözünün üstündən kənara çəkərək, cəld irəli atılıb tabutun altına girdi, geniş, güclü sinəsilə basıb Çaparı kənara çıxartdı. Dostunun cəsarətini ürəkdən bəyənən hesablayıcı Veysəl də eynəyini düzəldərək Sarının biləyindən tutdu, dinməzcə başını hərəkətilə yan tərəfi göstərdi...

İzdiham küçəyə axışdı. Sərkərlilərin həyətində yalnız bir neçə nəfər – xeyirdə-şərdə həmişə qapı-bacada qulluq eləməyə öyrəşmiş süpürgəçi Güləndam, son iki-üç gündə nədənsə lap əldən-ayaqdan düşdüyündən yas yerinə böyük işgəncə ilə gəlib çıxmış Zalxa qarı, bir də Şahgəldiyeva qaldı. Bir az əvvəl Şahgəldiyeva fikirləşirdi ki, camaatla birgə o özü də dəfn mərasimində iştirak etməli, hətta qəbir üstündə nitq söyləyib vaxtilə Sovet hökuməti qurulmamışdan əvvəl onun-bunun qapısında nökərçiliklə bir qarına ac, bir qarına tox günlər keçirmiş, sonralar isə bütün həyatını "Engels" ilə bağlamış və ömrünü bir kommunist kimi başa vurmuş Kərim Sərkəroğlu Sərkərli haqqında danışmalıdır. Şahgəldiyeva inanırdı ki, burada heç kim onun nitqinin ürəkdən gəlmədiyinə şübhə etməz. Buna görə də o, hətta, indidən beynində bir neçə cümlə hazırlamışdı. Lakin bəs o, mərasimdən niyə qaldı? Bunu heç Şahgəldiyevanın özü də əməlli-başlı dərk etmədi. İsmət xalanın bayaqkı sözləri sanki Çapara yox, Şahgəldiyevaya deyilmişdi. Bayaqkı mənzərəni kənardan seyr edərkən Çaparla birlikdə onun da sifəti qan rənginə boyandı. İzdiham küçəyə axışdıqda isə o, çidarlanmış kimi yerindən qımıldana bilmədi. Yalnız axırıncı adamlar həyətdən çıxıb uzaqlaşanda Şahgəldiyeva astanadan düşdü, iti və əsəbi addımlarla idarəyə yollandı...

## 32

...Gün batdı. Adamlar yavaş-yavaş qəbristanlıqdan dağılışdılar.

Hər yan, düz də, kənd də sükuta bürünmüşdü. Yalnız çayın aramsız şırıltısı sükutu pozurdu.

Bir neçə gün keçdi...

"Engels"də baş vermiş hadisədən sonra sanki heç kim ucadan səslənməyə cəsarət etmirdi.

Bunu axşam sağınına gedən Zöhrə də duyurdu.

Birdən haradasa, deyəsən, qoşa cökələr tərəfdə bir uşaq güldü. Bu zil, cingiltili səs Zöhrəyə çox qəribə göründü. Hətta ürəyində onun uşağa acığı da tutdu. Uşaq yaxında olsaydı, şübhəsiz ki, Zöhrə onun qulağını çəkməmiş buraxmazdı. Ancaq bir qədər keçmiş, Dərəçiçəyinin yaral otundan yeyib arakəsmələrdə göyşəyən inəklərini sağmağa başlayarkən, Bənöyüş düyənin dolu məmələrinə baxa-baxa özünün də gülümsündüyünü hiss etdikdə təəccübləndi. Sağınçılardan hansınınsa:

Özü yoldan gəlir,
Səsi koldan gəlir,
Anam, a Qızıl inək,
Sonam, a Qızıl inək!

– deyə zümzümə etməsi isə Zöhrəni daha çox təəccübləndirdi. Lakin o, nahaq yerə təəccüblənirdi. Doğrudur, Zöhrənin ürəyi yaralı idi və bu an ona elə gəlirdi ki, Kərim dayıdan sonra burada bir müddət həyat əvvəlkinə bənzəməyəcək, hər şeydə nə isə bir sakitlik, süstlük olacaq. Qəlbini kədər bürümüş qız düşünə bilmirdi ki, həyat başqa cür tələb edir. Həyat tələb edir ki, sağınçı inəyini sağmağa başlayarkən zümzümə eləsin, "eydirmə" desin, yoxsa inək südünü çəkər və hesablayıcı Veysəlin süd cədvəlinə baxanda birinci növbədə Zöhrənin özü narazı qalar.

Bəli, üz vermiş kədər nə qədər ağır olsa da, həyat yenə əvvəlki kimi qaynayırdı...

Adamlar yenə danışmağa, gülməyə, mübahisə etməyə başladılar və Zöhrə də istər-istəməz danışığa, mübahisəyə qoşuldu.

– Kərim dayı deyirdi, Hürü bacıgil yem cədvəlinə fikir vermir, Zöhrə. Tapşırırdı ki, özün onlara göz olasan, – deyə naxırçı Hətəm bir neçə gün bundan əvvəlki tapşırığı yerinə yetirdikdə, Zöhrəyə

hətta elə gəldi ki, Kərim dayı heç də onlardan ayrılmayıb: haradasa bu yaxınlarda gəzib-dolaşır, yenə fermanın qayğısını çəkir.

Sağından sonra Zöhrə, Nənəm-nəhrənin öz inəklərini necə yemləməsinə baxdı. Arvad doğrudan da işləri korlayırdı; yoğun, ətli qollarını çırmayaraq axurlara kefi istəyən qədər ot, arpa pörtləməsi tökürdü.

– Bura bax, Hürü bacı, – deyə Zöhrə onun yumşaq, buğumlu biləyindən yavaşca tutub axurdan çəkdi. – Sən heç o dirəkdəki cədvələ fikir verirsənmi?

– Nəyinə fikir verəcəyəm? – deyə arvad köntöy-köntöy səsləndi. – Zootexnikin özündən nə xeyir görürük ki, cədvəlindən də nə xeyir görək? – Sonra laqeydliklə əlavə etdi: – Allah verib, Yunus kişinin otu bol, mənim də qucağım gen, qucaqlayıb basıram axura, inək cana gəlsin.

– İnəyi cana gətirmirsən, öldürürsən!

– Öldürürəm? Gülməli söz danışma, bala, sənin dərnəkdə dediyini yenə az-çox beynimə batır. Ancaq, xətrinə dəyməsin, bu sözün doğrudan gülməlidir.

– Belə görürəm heç dərnəkdə deyilən də beyninə batmayıb.

– Bıy, niyə, ay qız?

– Hanı sənin əyniyin xalatı?

– Xalat?.. Nə bilim, geyərəm də.

– Töylədən çıxıb evinə gedəndən sonramı?

– Ay bala, sən Allah, qoy əlimdə işimi görüm.

Sağınçılardan hansısa qonşu arakəsmədən dilləndi:

– Xalat bir yana, Zöhrə. Sən ondan soruş görək inəklərin əmcəyini yuyurmu, masaj eləyirmi?

Lakin Zöhrə Hüriyə başqa sual verdi:

– Bu axşam nə qədər sağıbsan?

– Necə bəyəm? – deyə Nənəm-nəhrə Zöhrənin onu yaman yerdə tutacağını hiss edib cavab vermək istəmədi. Lakin belə hallarda məlumat verməyə xüsusi həvəs göstərən Veysəl, bir küncdə qoyduğu qırmızı örtüklü stolunun arxasından dilləndi:

– Cəmi on altı, Zöhrə. Hələ quyruğunda yüz qram da çatışmır.

Zöhrə eyni ciddiyyətlə:

– Ancaq bax, mən İsmət xalanın hər inəyindən altı litr sağmışam, – dedi.

Nənəm-nəhrə təəccüblə qırmızı, ətli dodaqlarını büzdü

– Altı?

– Bəli!

– Hər inəkdən?

– Bəli!

– Elə şey olmaz, bala.

– Veysəl, cədvəli göstər!

Veysəl bir göz qırpımında hazır oldu və eynəyini düzəldərək qırmızı karandaşla sütunlara ayrılmış uzunsov kağızı Nənəm-nəhrənin düz burnunun qabağına qaldırdı.

– Buyur! Gözün görmürsə gözlüyümü verə bilərəm.

– Çəkil o yana, ağzı yanmış. Hələ sənin təkin qaroy olmamışam, – deyə Nənəm-nəhrə özünəməxsus bir kobudluqla hesablayıcının arıq, uzun barmaqlarına bir yumruq ilişdirdi. – Özün artıq yazıbsan. Üz görübsən İsmətə!

– Ayıb olsun sənə, Hürü bacı. Ayıb olsun! Dam boyda gövdən var, ancaq beynin çötkə dənəsi boydadır, – deyə hesablayıcı dərhal alındı. – Mən elə cinayət eləmərəm. Mənə dərs verən elə verməyib, bilirsənmi? – O qızışıb arvadı əməlli-başlı danlamaq istədi. Lakin Zöhrənin məzəmmətedici nəzərlərini öz üzündə hiss edən kimi səsini kəsdi. Nənəm-nəhrəni əyri-əyri süzdü, öskürüb öz guşəsinə çəkildi.

Zöhrə dirəkdən asılmış xalatlardan birini götürüb Nənəm-nəhrənin üstünə atdı.

– Al geyin! Yekə arvadsan, başa düş ki, indiki şəraitdə başqa cür sağınçılıq eləmək olmaz. Bizim inəklər buzovdan təzəcə ayrılıblar, ilıq suyla məmələrini yumasan, masaj eləməsən südünü çəkir. Adama nə qədər deyərlər?!

Nənəm-nəhrə səsini çıxartmadı. O, xalatı əyninə geyən kimi uzundilli qonşusu yenə dilini dinc saxlamadı:

– Ay arvad, xalat səni yaman tutur!

– Lap doktora oxşayırsan, Hürü bacı, – deyə bir başqası əlavə etdi.

– Doğrudan bundan nə yaxşı doktor çıxarmış, ay qız!

– Həyat yolunu düzgün seçə bilməyibsən, Hürü bacı. Heyif səndən!

– Kişinin qızı on ilin sağınçısıdır. Başqa vaxt həmişə bizə ağıl öyrətmirdimi? İndi niyə ələ salırsınız?

Zöhrə Yasəmənlə söhbətin bu rişxəndli atmacalarına son qoydu.

Yasəmən lap ucqardakı arakəsmədə əllərini qoynuna qoyub, axura basılmış ota yaxın durmadan kədərli-kədərli baxan Qızıl inəyin yanında durmuşdu. Zöhrənin yaxınlaşdığını görən qız köksünü ötürərək inəyə işarə elədi.

– İştahdan kəsilib, Zöhrə.

– Niyə, ay qız? – deyə Zöhrə narahatlıqla soruşduqda, Yasəmən dönüb öz stolunun dalında ciddi bir şəkildə nə isə yazıb-pozan hesablayıcını göstərdi:

– Ciyəri yansın onun. Taqsırın hamısı ondadır.

– O neyləyib ki, Yasəmən?

– Görüm onun sinəsi dağlansın.

– Qarğama, Yasəmən, Veysəl yaxşı oğlandır... Bir də, hamımız bilirik ki, ürəyində onu çox istəyirsən, daha üzdə qarğamağın nə mənası var? De görüm neyləyib?

– Neyləyəcək? Gündə bir qucaq çörək gətirib gizlindən yedirir inəyə. Dönə-dönə tapşırıram ki, ədə, ay xeyri şərə dönmüş, istəmirəm sənin xeyrini. Eləmə deyirəm. Başlayır artist təkin deklamasiya deməyə ki, nə bilim, “ey mənim Yasəmənim, ey mənim gülüm, sümbülüm, istəyirəm ki, sən də bizim Dan ulduzu təkin parıldayasan...” Dünən də yaxasından tutub tapşırmışam, yenə bildiyini babasına verməyib. İndi, budur, inək çörəyə dadanıb, ota heç gözünün ucuynan da baxmır.

Zöhrənin dodaqları qaçdı.

– Veysəl sənə yaxşılıq eləmək istəyib axı, Yasəmən.

– Görüm yaxşılığı başına dəysin onun.

– Axı, o səni istəyir, ay qız.

– Qələt eləyir! – deyə Yasəmən sadəlövhcəsinə hirsləndi. – Qələt eləyir istəyir. Bir də mənim adımı çəksə camaatın içindəcə biabır eləyəcəm.

Zöhrə yaxınlaşıb Yasəmənin ağ, yumru əlini öz əllərinin içinə aldı. Nədənsə köksünü ötürdü və yumşaq, həzin bir səslə:

– Elə demə, Yasəmən, – dedi. – Sevən ürəyə toxunmaq günahdır... Sən onun qədrini bil. Bizim Veysəl qızıl kimi oğlandır. Onun kimi işinə düzgün oğlan harda var, Yasəmən?

Zöhrənin həlim, titrək səsi, onun ürəkdən gələn sözləri inadkar sağınçını bir az yumşaltdı. Lakin eynəyinin altından bic-bic boylanıb qımışan Veysələ, sonra hərəkətsizcə duran Qızıl inəyə baxdıqda o, yenidən hirsləndi.

– Ço-ox, düzgün oğlandır, – deyə səsini uzatdı. – Bircə gəlib dünyaya!

– Hər halda sən onun xətrinə dəymə, Yasəmən. Bax, yenə deyirəm, sevən ürəyə toxunmaq günahdır. Sən bunu başa düşürsənmi, bilirsənmi?

– Mən ocğazı bilirəm ki, Qızıl inək iştahdan kəsilib. Taqsır da o çatlamışdadır.

– Yenə qarğış!.. Axı, sən nədən bilirsən, ay qız? Sən bir inəyi yaxşı-yaxşı yoxlayıbsanmı? Doktora xəbər vermisənmi? – Bunu deyib Zöhrə Qızıl inəyə yaxınlaşdı. Ancaq onun gözləri inəyə deyil, arakəsmənin döşəməsinə dikildi. Bayaqkı mehriban, həlim səs birdən-birə dəyişdi:

– Veysələ qarğamaqdansa sən bu döşəməyə fikir ver!

– Nəyinə fikir verim döşəmənin?

– Samanına!.. Görmürsən? Saman tökməyibsən, gecə inək sementdən soyuq çəkib.

İndi də Yasəmən atmaca, rişxənd hədəfi oldu. Lakin Zöhrə arakəsmələr boyunca töyləni gəzməyə başladıqda, dərhal hamı susdu, ciddiləşdi. Axı, bu iti gözlü qız birdən onların arakəsmələrində də nöqsan tapa bilərdi. Sağınçıların hamısı özlərini işlə məşğul kimi göstərsələr də gözlərini Zöhrədən çəkmirdilər. Zöhrə nə qədər mehriban, incə ürəkli olsa da, yeri gələndə həm də çox tələbkar idi. Bunu Veysəl də görür və yenə eynəyinin altından boylanıb, Zöhrə yaxınlaşdıqca sağınçıların özlərini necə yığışdırdıqlarına baxa-baxa, məmnun-məmnun gülümsünürdü. Deyəsən, hesablayıcı Zöhrə ilə fəxr edirdi.

Birdən Veysəlin ağlına nə gəldisə cəld yerindən durdu, Zöhrənin qabağına yeridi və hərbi adamlar kimi dabanına vuraraq, sağ əlini gicgahına qaldırdı.

– İcazə ver o nankorun arakəsməsinə saman gətirim, yoldaş müdir!

Zöhrənin qaşları çatıldı. Veysəl onu bu yerdə "müdir" adlandırmaqla çox böyük bir səhv etdiyini başa düşüb qızardı. Əvvəllər, Kərim dayı xəstə yatan vaxtlarda o, həmişə Zöhrəyə zarafatla "müdir" deyə müraciət edirdi. Ancaq indi bunun yeri deyildi. Hesablayıcı dərhal özünü doğrultmağa çalışdı:

– Bağışla ey, Zöhrə bacı, – dedi, – komsorq demək istəyirdim.

Bu vaxt, bayaqkı danlaqdan sonra nəyinsə peşmançılığını çəkirmiş kimi, qaş-qabağını sallayıb küncə çəkilmiş Nənəm-nəhrə də elə bil ki, özünü doğrultmaq istədi:

– Niyə “bağışla” deyirsən, ədə? Elə müdirdir də. Sərkəroğlundan sonra yaxamızı o “mən-mən” deyib döşünə döyənin əlinə verməyəcəyik ki?

O biri sağınçılar da söhbətə qoşulub bu barədə fikirlərini söyləməyə başladılar. Zöhrə içəridə dayana bilməyib eşiyə çıxdı. Arxasını sərin divara söykəyib başını sinəsinə əydi. Qarşı töylənin geniş pəncərələrindən süzülən işıq onun yanaqları aşağı süzülən damlaları parıldatdı. O, xeyli beləcə, sakitcə dayandı. Sonra başını qaldırıb fikirli-fikirli uzaqlara baxdı.

Zöhrənin ürəyi şiddətlə döyünürdü. Bu, sağınçıların göstərdikləri etimaddandımı, yoxsa qəlbini dolduran, özünün də anlamadığı başqa bir hissin gücündəndimi? Bircə şey aydın idi: Zöhrə sağınçıların belə bir söhbətə başlamalarını istəmirdi. Lakin heç bilmirdi ki, bircə gün sonra o, burada müdir kimi hərəkət etməli olacaq.

Ertəsi günün axşamı naxırçı Hətəmin iki baş inəklə bir dananı qabağına qatıb töylələrə doğru gətirdiyini gördükdə Zöhrə onun qabağına yeriyib təəccüblə soruşdu:

– Bu nə heyvandır, Hətəm?

– Heyvandır də, – deyə Hətəm dilxor halda cavab verdi və əlindəki çomağı qaldıraraq geri qayıtmağa can atan ala danaya acıqlandı. – Heç-heç! Tanrı qırmış!

Zöhrənin ürəyinə nə isə damdı.

– Bura bax, ədə, yoxsa bunlar özününkülərdir?

– Daha sizinkidir.

– Ödək gətirirsən?

– Yox, bağışlamağa gətirirəm.

– Bura bax, Hətəm, sən mənimlə niyə belə danışırsan?

– Nə cür danışıram ki?

– Pis danışırsan!

– Bağışla, bilməmişik... İndən belə ədəb-ərkanda danışarıq.

– Ədəb-ərkanın lazım deyil. Ancaq bir işi görməzdən əvvəl gəlib bizə deməlisən.

Hətəm onu başa düşmədi.

– Qorxma, – dedi, – özüm töylədə hamısının yerini rahatlaram. Sizə əziyyət vermərəm.

– Bax, yenə pis danışırsan, Hətəm, gör mən nə deyirəm, sən nə...

– Nə deyirsən ki?..

– Mən deyirəm, bax, əvvəlcə bizə desəydin heç əziyyət çəkib bu heyvanı qabağına qatıb gətirməzdin. Ancaq yenə gec deyil. Uçotazada düşməmiş qaytar bunları geri.

– Qaytarım? – Hətəm heyrətlə gözlərini bərəltdi.

Zöhrə təkrar etdi:

– Qaytar!

– Hara, bacım?

– Öz qapına, həyətinə. Sən ödək verməyəcəksən. – Naxırçının donub qaldığını görən Zöhrə bir daha ucadan təkrar etdi: – Ödək verməyəcəksən, qardaş. Başa düşdünmü?!

Hətəm gözlərini döydü.

– Axı, ay bacım, sən kimsən ki, belə söz deyirsən?

Sual haqlı sual idi. Zöhrə duruxub yerə baxdı.

– Mən demirəm. Biz hamımız, bütün ferma işçiləri deyirik.

– Axı siz hamılıqda kimsiniz?

"Biçarə, yazıq!.. O qədər əmrlə oturub-durub ki, bizim kim olduğumuzu da bilmir", – deyə Zöhrə ani olaraq beynində dolandırdı.

– Biz, buranın yiyəsi! Başa düşdünmü?

Hətəm bu qızın boş yerə inadla danışmadığını, nəyəsə ümid bəslədiyini hiss edib bir az səsini yumşaltdı:

– Yaxşı, siz hamılıqda nə əsasla, ay Zöhrə?..

Zöhrə adi bir həqiqəti izah etməli oldu:

– O əsasla ki, Çapar Gecədələnoğlu sənin kimi savadsız, gözübağlıya hədə gəlib bunları fermanın uçotuna saldırmaqla öz yaxasını məsuliyyətdən qurtarır... Balaların var sənin, Hətəm, ailə sahibisən, hədə-hərbədən qorxub qapı-bacanı niyə boşaldırsan? Kolxozun ustavında belə qanun yoxdur. Nə vaxtacan qanmayacaqsınız?!

Hətəm həm bir qədər sevindi, həm də heç vaxt Zöhrədən belə ağır sözlər eşitmədiyindən bərk tutuldu.

– Düzcə deyirsən, bacım, qanmazam. Ancaq hər halda qandığım bir şey də var ki, bunları yığıb gətirmişəm.

Zöhrə heç özü də hiss etmədən hirslənmişdi. Bu an onun aləmində bu hacıleylək kimi caydaq oğlandan küt bir adam yox idi. O, yeriyib altdan-yuxarı, naxırçının gözlərinin içinə baxdı:

– Nədir o qandığın?

– Odur ki, bax, bacım, sabah təhvil-təslim olanda bir, iki, üç deyib heyvanı barmaq hesabı eləyəcəklər. Görəcəklər on beşə qədər heyvan çatmır. Onda nə cavab verəcəm mən?

– Məncə, Kərim dayı sənə dəfələrlə deyib ki, nə cavab verəcəksən.

– Eh, Kərim dayı!.. – Hətəm uzun boynunu aşağı əyib kədərli-kədərli yerə baxdı. – Hanı Kərim dayı?!

– Kərim dayı yoxdur, əvəzində Yunus dayı var, idarə heyəti var, el var.

Hətəm köksünü ötürüb, yenə ümidsizliklə əlini yellədi.

Zöhrə nə edəcəyini bilmədi. Hətəmin gətirdiyi inəklərin töyləyə salınmasına heç cür yol vermək olmazdı. İndi o neyləsin? Naxırçını necə başa salsın?.. Birdən onun gözləri qapı ağzına yığışmış sağıncılara sataşdı. Qız əlini onlara uzadaraq asta, lakin möhkəm səslə:

– Bax, odur Kərim dayın! – dedi. – Bax, budur Kərim dayın! – O biri əlini də öz sinəsinə vurdu. Veysəlin adi bir müraciətindən təsirlənən qızın indi nəinki gözləri dolmadı. "Budur Kərim dayın!"– deyib əlini sinəsinə vurarkən, hətta, ürəyi böyük bir qürur hissilə çırpındı.

Bu vaxt, qapı ağzına yığılmış sağıncıların da qəlbini eyni hiss doldurmuşdu. Bəziləri hətta xalatlarının ətəyilə gözlərini silirdilər. Təkcə Veysəl, gözlüyünü qaşlarının üstünə qaldırıb, gülümsər nəzərlərlə Zöhrəni süzürdü...

## 33

Zöhrənin hərəkəti haqqında xəbər Çaparı ildırım kimi vurdu. Bircə saat bundan əvvəl naxırçı Hətəmin qarşısında əsib-coşarkən onun heç ağlına da gəlməmişdi ki, belə bir hadisə baş verə bilər. Bu xəbər onun "komsomol qıza" qəzəbini, kinini birə-beş artırdı. Vaxtilə Çaparın "Ay göylərin parlaq ulduzu" deyə lağa qoyub güldüyü bir başıyaylıqlı, bir ana uşağı axırda gör onun başına nə iş gətirirdi! Lətifənin, yoldaş zootexniklə dünəndən onlarda qonaq qalan Şahgəldiyeva üçün hazırladığı beçə çığırtmasından ən çox sevdiyi yerləri – boyun sümüyünü və "pötpötünü" seçib öz nimçəsinə qoymuş Çaparın boğazı tikildi. Şahgəldiyeva ilə Sarının da bərk pərt-

ləşdiklərini gördükdə isə onun yeməyə olan iştahası öldü. “Hamısı o Bığlının işidir, yoxsa bu qız öz yanından elə iş görməyə cəsarət eləməzdi”, – deyə düşünən Çapar kinli-kinli deyindi:

– Yetim-yesir bir qız olasan, adamın başında belə tərs dəyirman işlədəsən?!

– Məncə, günahın hamısı sənin özündədir, Çapar, – deyə Şahgəldiyeva yağlı dodaqlarını silib arxasını stula söykəyərək, çənəsini işlətməkdən yorulmuş kimi dərindən nəfəs aldı. Əlini stola vura-vura: – Bax, mən öz əqidəmi sənə yüz dəfə demişəm, bu da yüz birinci olsun, – dedi, – rəhbərdə, xüsusən kolxoz sədrində yumruq lazımdır. Kollegial rəhbərlik filan, bunlar sözdür, Çapar. Yumruq olmayan yerdə iş getməz! – Şahgəldiyeva öz əqidəsini daha ətraflı izah etməyə hazırlaşırmış kimi, onun ağırlığı altında qılçaları əsən stulu cırıldada-cırıldada yerini rahatlayıb bir də dərindən nəfəs aldı. Yenə əlini stola döyüb davam etdi: – Səndə yumruq var, Çapar. Ancaq sən onu camaata göstərə bilməyibsən. Göstərməyəndə də onda baxacaqsan ki, özün deyən kimi, yetim-yesirin birisi adamın başında tərs dəyirman işlətdi. – O, başını aşağı dikib pərt oturmuş Sarıya süzgün bir nəzər saldı. – Yoldaş zootexnik cavan mütəxəssisdir, kollegial iş, camaatla əlbirlik filan barədə qəzet-jurnallarda yazılanlarla yəqin ki, hələ beyni doludur. Qoy o da bilsin ki, qəzet-jurnalda yazmaq, sözdə demək – bunlar hamısı siyasətdir... Mən sizi özümə yaxın adam bilib açıq danışıram ha! – deyə o, tez əlavə etdi. – Bəli, siyasətdir, yoldaş cavan mütəxəssis! Yumruqsuz iş getməz! Bax, mən birçəklərimi rəhbər işlərdə ağartmışam. Mən ancaq belə işləmişəm. Heç bir yetim-yesir də mənim üzümə ağ ola bilməyib. Ağ olanın da, bax!.. – Şahgəldiyeva fikrinin sonrasını yumruğunu havada silkələməklə ifadə etdi. Stul onun yırğalanan gövdəsinin altında yenə titrəyib çatıldadı. Özü də bu dəfə çox bərk çatıldayıb, Sarı ilə Çaparın da, balkondan otağa açılan qapı ağzında dayanmış Lətifənin də diqqətini cəlb etdi. Lətifə, hətta, əyilib Şahgəldiyevanın oturduğu stula baxdı ki, birdən stulun ayaqları laxlayıb düşər, yaxud sınar, atasının bu hörmətli qonağı yıxılıb həm özü utanar, həm də ev yiyəsini utandırar. Şahgəldiyeva qızın da, müsahiblərinin də eyni fikri ifadə edən baxışlarının mənasını anladısa da, üstünü vurmadı. Belə hallara əhəmiyyət verməli olsaydı, o, gərək hər bir təzə qonaq getdiyi evdə köklükdən şikayətlənə idi.

Şahgəldiyeva düzgün qamətini, yaraşıqlı sifətini çox bəyəndiyi gənc mütəxəssisi yenə nəvazişli nəzərlə süzərək, öz əqidəsi haqqında bir az da danışıb soruşdu:

– Hə, belə şeylərə sən necə baxırsan, yoldaş zootexnik?

Sarı rütbəcə özündən böyük olan bu qadının onun fikrilə maraqlanmasından razı halda, özünü çəkərək dedi:

– Doğrusu, siz birinci rəhbər yoldaşsınız ki, belə danışırsınız.

– Başqaları bunu gizlədirlər. Dedim ki, siyasət işlədirlər... Çapar, nə fikrə gedibsən, kişi, bu sözlər axı hamısı sənə aiddir.

– Mənim qulağım sizdədir, yoldaş Şahgəldiyeva! – deyə Çapar tələsik dilləndi və dönüb Lətifəyə acıqlandı. – Çay gətirsənə!

Şahgəldiyeva yenə zootexnikə müraciət etmək istədi, ancaq bu ara istidən bərk sıxılıb, barmaqlarının ucunu, puçur-puçur tər tökən dar alnına vurdu.

– Sənin bu balkonun nə yaman istidir, Çapar, adamın lap ürəyi sıxılır.

– Bu aranda evi istər lap on mərtəbə qaldır, yoldaş Şahgəldiyeva, bürküdür ki, bürküdür, – deyə Çapar üzr diləyirmiş kimi boynunu yana əyib, Aran düzünün təbiətini pislədi. – Cəhənnəmdir, cəhənnəm! – dedi, sonra stolun üstünə çay düzən qızına gözünü ağartdı. Eşitmirsən? Yelpikdən-zaddan bir şey gətir!

Lətifə yazbaşı rayon mərkəzinə gedərkən, gərilmiş hinduşka quyruğuna bənzər bəzəkli bir yelpazə alıb boxçasında saxlayırdı. Çapar da buna işarə edirdi. Lakin Lətifə yaxşı bilirdi ki, kənd yerində çətin tapılan bu bəzəkli şeyin əldən çıxması üçün bu kök qonağın bircə kərə: "Nə yaxşı şeydir" deməsi kifayətdir. Ona görə də qız atasına əyri-əyri baxaraq, yelpazə əvəzinə Şahgəldiyevaya bir dəftərçə gətirdi və hətta:

– Özünüz bilirsiniz, kənd yeridir, yelpik kimi şeylər olmur, – deyə süni bir əda ilə üzr istədi.

– Eybi yoxdur, xanım qız, eybi yoxdur, – deyə Şahgəldiyeva dəftərçə ilə üzünü yelləyərək, Lətifənin xoşuna gəlməyən həmin süzgün baxışla yenə Sarıya tərəf qanrıldı.

– Hə, mənim fikrimlə şəriksən, ya yox?

– Mən sizinlə sözsüz şərikəm, yoldaş Şahgəldiyeva.

– Hə, gərək şərik olasan da. Yoxsa, sən bir söz desən, mən də birini desəm, daha nə olar? Onda, bax, məcbur olaram ki, sənə də yumruq göstərim, – deyə Şahgəldiyeva şaqqıltı ilə güldü. O, çaydan

bir qurtum içib yenə dəftərçə ilə üzünü yellədi: – Madam ki, biz səni yeni posta qoyuruq, istəyirik "Engels" kimi bir kolxozun fermasına müdirlik eləyəsən, gərək də şərik olasan.

Şahgəldiyeva, bu göyçək oğlanla şirin söhbətini necə davam etdirmək barədə fikirləşirmiş kimi, çay içə-içə, arabir də çeçələ barmağında parıldayan qızıl üzüklə stəkanı tıqqıldada-tıqqıldada bir neçə dəqiqə susdu. Deyəsən, ayrı mövzu tapa bilməyib yenə rəhbərlik üsulu məsələsindən danışmağa başladı:

– At atdır, onun da cilovunu dəstələyib əlində möhkəm tutmayanda, görürsən yolunu azdı, adamı dağa-daşa saldı. Camaatın da gərək ipini yığasan, yoldaş zootexnik. Yoxsa, bax, bu ağsaqqalının başına gələn iş sənin də başına gələ bilər, – deyə Sarıya öyüd-nəsihət etdi.

Sarı onu yeni mərtəbəyə qaldıran bu kök qadının nə qədər təhlükəli bir yol təklif etdiyini başa düşmədən maraqla dinləyirdi. Bu səhər idarədə heyət üzvləri ferma müdirliyinə namizəd göstərərkən Yunus kişi ilə Çaparın arasında mübahisə olmuşdu. Yunus kişi deyirdi ki, axşam ferma işçilərinin kolxoz aktivi ilə birgə iclasını çağırarıq, camaatın fikrini öyrənərik.

Şahgəldiyeva elə oradaca əlini döşünə vurub, zarafatyana demişdi ki: "Partiya xalqın fikrini ifadə edir, Yunus, sənin camaatın da mən deyənə əl qaldıracaq də". Sarıda Şahgəldiyevaya qarşı elə dərin bir minnətdarlıq hissi oyanmışdı ki, bir yoğun, kobud qadın ona dünyanın ən zərif gözəl bir məxluqu kimi görünürdü. Şahgəldiyeva danışdıqca Sarı ona elə aludəçiliklə qulaq asırdı ki, necə tez-tez baş endirib yersiz-yersiz qımışdığını da hiss etmirdi. Çapar isə yerində qıvrılırdı. Şahgəldiyevanın hər şeydən danışıb, onun – Çaparın canına vəlvələ salmış əsl məsələyə toxunmaması kişini daha da dilxor edirdi.

Axı yəqin ki, indi camaat yavaş-yavaş idarəyə yığışır, Bığlı isə heç şübhəsiz ki, heyət üzvlərini başına toplayıb naxırçı Hətəmin əhvalatını nağıl edir. Bax, Şahgəldiyeva bu barədə danışmalı, öz fikrini söyləməlidir.

– İpi yığmağa isə lap birinci gündən başlamaq lazımdır, yoldaş zootexnik, lap təhvil-təslimi qurtaran gündən, özü də ödək məsələsindən başlamaq lazımdır.

Yalnız bu sözlərdən sonra Çaparın eyni bir qədər açıldı. O, gözlərini Şahgəldiyevaya dikib hərdənbir başını tərpədən Sarının

qətiyyət ifadə edən sifətinə baxdıqda şübhə etmədi ki, bu oğlan, bir zaman onun haqqında narazılıq yayan Sərkəroğlunun əleyhinə danışdığı kimi, Bığlının da, komsomol qızın da, onların tərəfdarlarının da əksinə çıxış edə biləcək. "Bax, bu kişi qızının dediyi əsl yumruq bu oğlandadır, – deyə Çapar fikirləşdi, – onun yumruğu o fermadakı həyasızlara gərək elə dəysin ki, biri ala dərəyə düşsün, biri qara dərəyə. O komsomol qız isə lap uzağa! Bəsdir canımızı xirtdəyimizə gətirdi!"

Burada Çapar dönüb Lətifəyə baxdı. "Qara qızın" Zöhrə barədə uydurub danışdığı müxtəlif söz-söhbətləri dinləyərkən Çapar çox vaxt yalnız hırıldamaqla kifayətlənirdisə, indi bu barədə çox ciddi düşündü. Əlinin işarəsilə Lətifəni yanına çağırıb dedi:

– Buraları tez yığışdır, sən də gedəcəksən...

Onlar idarənin pilləkənini qalxarkən, dəhlizə yığışmış cavanlardan hansısa səs-küydən uğuldayan iclas otağına yüyürdü.

– Ts-s, şah gəldi!

Bu xəbərdarlıq sakitlik əvəzinə səs-küyün daha da artmasına səbəb oldu.

Qarışıq danışıqlar arasından bəzi sözlər aydınca eşidildi:

– Nə əcəb təşrif gətirdi?

– Nə yaxşı yada salıb bizi, ay qız?

– Ayaqlarının altına dəmir tullayın.

– Yox bir payandaz döşəyin! Dalı dar qapı arasında qalmasaydı, heç ayağını da basmazdı...

Öz adına deyilən bu sözləri bir başqası eşitsəydi, bəlkə də dəhlizi yarı eləməmiş qayıdar və bir daha bu adamlar olan yerə baş salmağa cürət etməzdi. Şahgəldiyeva isə, onu bu cür rişxəndlərlə qarşılayan yığıncaqlara birinci dəfə girmədiyindəndi ki, heç təhərini də pozmadı. Otağa girərkən boyalı qaşlarını çataraq, zəhmli baxışlarla cərgələri süzüb, deyəsən, hətta səkkiz il bundan əvvəl ölmüş ərinin familiyasını təhrif edən oğlanı axtarmaq istədi. Onun arxasınca Çapar, Sarı, sonra Lətifə içəri girdilər. Neçə vaxtdan bəri sağınçıların sırasından ayrıldıqdan sonra, durub-toxtamış arvad kimi yoğunlaşmış Lətifəni gördükdə, yenə bir neçə nəfər dilini dinc saxlaya bilmədi:

– Ay qız, bu nə yaman ennənib!

– Hasarın içindən çıxmayanda bəs ennənməz? – deyə orda-burda pıçıldaşdılar.

Qapı ağzına yaxın skamyada Qara ilə yanaşı oturmuş Veysəl isə:

– Puf! – deyə birdən üz-gözünü turşutdu. – Zalım qızının nəftalindən xoşumu gəlir nədir, ə, iyisi dünyanı doldurdu ki... Paltarı ilə bərabər elə bil özü də basırıqdan çıxıb...

Qara onun dizindən basıb pıçıldadı:

– Bura bax, dost, deyəsən axı, daha mən yalan olmuşam, sən gerçək...

– Necə məgər?

– Necəsi yoxdur. Onu bunu bəzəyirsən, məzəlilik eləyirsən.

– Guya sən özün eləmirsən?

– Eləyərdim.

– Bəs indi?

– İndi mənim beynimdə başqa şeylər var.

– Bəlkə külək əsir beynində?

– Külək yox, tufan qopub.

– Balam, sən yəqin tufan sözünü düz başa düşmürsən, yoldaş arabaçı.

– Çox gözəl başa düşürəm, yoldaş uçotçik, – deyə Qara da eyni ahənglə cavab verdi, – tufan odur ki, qalxanda qabağına hər nə düşsə yerlə-yeksan eləyir. Ot-ələf, çürük ağac-filan...

– Görünür, sənin beyninin içində çürük ağac varmış?

– Çürük ağac yox, çürük ağıl.

– Paho, daha pis! Demək, o çürük ağıldan da məhrumsan?

Sərkərlilərin ailəsinə üz vermiş kədərdən sonra, nə vasitə ilə olur-olsun, yerli-yersiz, Qaranı əyləndirməyə, onun kefini açmağa çalışan hesablayıcı otağa sakitlik çökdüyünə, Çapar, Şahgəldiyeva, Sarı və Yunus kişinin artıq yaşıl örtüklü stolun arxasında əyləşmələrinə fikir vermədən pıçıltı ilə öz sadəlövh zarafatını davam etdirdi:

– Ə, indi mən sənnən necə dostluq eləyim, yoldaş arabaçı? Mümkün olsaydı, vallah, öz çürük ağlımdan o çürükdən məhrum olmuş beyninə bir az qoyardım.

– Bura bax, Veysəl, sən mumla.

– Niyə, ə?

– İstəyirsən mənim yerişimi yeriyəsən, ancaq zarafatın şit çıxır.

– Pa, bu dostluq olmadı ki...

– Ts-s!

– Nə var?

– Bizə barmaq silkələyirlər.

Veysəl dostunun işarə etdiyi səmtə boylananda gözlərilə Zöhrənin gözlərilə qarşılaşdı. Zöhrə öndəki skamyada oturmuşdu. O, qapı ağzında çiyin-çiyinə əyilmiş bu iki dosta yerində barmaq silkələyirdi. Otağı dərin bir sükut bürümüşdü. Hamının gözü yaşıl örtüklü uzunsov stolda idi. Hələlik burada heç bir rəsmi söz-söhbət olmasa da, elə indidən bütün adamların sifətlərində bir gərginlik hiss olunurdu.

Otağın sahilə baxan pəncərələrinin dördü də açıq idi. Qatı qaranlıqdan cökə ağaclarının yarpaqlarının xışıltısı eşidilirdi. Demək bayırda meh əsirdi. Ancaq içəridə bürküdən adamın ürəyi sıxılırdı. Papirosunu damağından qoymayan Yunus kişinin duman kimi qaldırdığı tüstü havanı daha da ağırlaşdırırdı. Çaparın hündür eyvanında, açıq havada təntiyən Şahgəldiyevanın işi burada daha da xarablaşmışdı. O, çəpəki nəzərlə Yunus kişiyə baxıb gözlərinin ətrafını qarışdırır, dodaqlarını büzür, elə bil nədənsə iyrənirdi.

Zöhrə gah onun tər tökən üzünə, gah özünü çəkib oturmuş Sarıya, gah da Çapara baxırdı. Bu axşamkı əhvalatdan sonra Zöhrəyə elə gəlirdi ki, idarəyə yığışan kimi, Çaparla əməlli-başlı çırpışmalı olacaqdır. Zöhrə bu çırpışmaya hazırlaşıb gəlmişdi. Lakin indi Çaparın görkəmi onu təəccübləndirdi. Sağına Şahgəldiyevanı, soluna Sarını qoyub stulda yayxanmış sədrin baxışlarında xoşagəlməz bir laqeydlik, həm də arxayınçılıq vardı. Hərdən də o, eynilə qızı kimi, çənəsini dik tutaraq, istehza ilə cərgələrə göz gəzdirirdi. Sanki bununla demək istəyirdi: “Çox da çığır-bağır salıb özünüzü yırtmayın. Məsələlər yenə mən istədiyim kimi həll olunacaq, özünüzü yorduğunuz özünüzə qalacaq”.

O, iclasa sədr seçilən Yunus kişidən söz alanda da görkəmindəki laqeydliyi, arxayınçılığı mühafizə ətdi: ağır-ağır ayağa durdu, əllərini qarnının üstünə qoyub, dala-qabağaləngər vura-vura boğazını arıtladı.

Lakin qapının açılması ona mane oldu. İsmət xalanı astanada gördükdə Çaparın elə bil nitqi tutuldu. Hətta onun bənizinə bir sarılıq da çökdü. Nədən belə oldu? Heç kim bunun fərqinə varmadı. Ağır itkidən sonra İsmət xalanın qırx gün yas saxlayıb evdən eşiyə çıxmayacağını güman edən sağınçılar çaxnaşdılar. Hərə İsmət xalaya öz yanında yer eləmək istədi. İsmət xala isə heç kimin dəvətinə əhəmiyyət vermədən, qaşqabaqlı halda keçib Zöhrənin yanında oturdu.

Yalnız bundan sonra camaat sədrə diqqət yetirdi. Bayaqkı sarılıq əvəzinə indi onun sifətinin boğuq qırmızı rəngə çaldığını görənlərdən bəziləri Kərim dayının tabutu qaldırılarkən baş vermiş hadisəni xatırladılar. Bu hadisəni Şahgəldiyeva da xatırladı və tez başını qaldıraraq, nə deyəcəyini unutmuş kimi qurumuş Çaparı tərpətdi:

– Səni gözləyirik, yoldaş Çapar?

Arxayınlığı özünə qayıdan, yoğun, zəhmli səsdən təzədən qüvvət alan Çapar yenə təkəbbürlü bir görkəm aldı.

– Yoldaşlar, bizim fermanın vəziyyəti dözülməzdir! – deyə o, ittihamnamə oxuyan bir hakim ahəngilə sözə başladı. – Hazırlıq planı dolandan sonra camaata nə bir qram yağ, nə də pendir paylanıb. Yayın bu istisində camaatımız yavanlıqsız qalıb...

“Zalım oğlu necə usta tərpəndi!” – deyə Yunus kişi fikirləşdi və Çaparın Fatmadan gələn məktubu necə həyasızcasına parçalayıb gizlətdiyini xatırladı. Doğrusu, Yunus kişi bir qədər ehtiyat elədi. Sanki ilk dəfə dərk etdi ki, qarşısındakı iri gövdəli, qırmızı sifətli adam dəfələrlə ütüdən çıxmış, xatadan xilas olmuşdu. Hələ iclasa gəlməmişdən Yunus kişi elə zənn edirdi ki, kolxoz sədrinin fermada işləri pozduğunu sübut edən faktlar qarşısında Çapar heç nə deyə bilməyəcək. Lakin partiya təşkilatçısı nə qədər sadəlövhcəsinə düşünmüşdü! Belə bir sadəlövlük Yunus kişi üçün, əlbəttə, bağışlanmaz idi. O, məktub əhvalatından sonra Çaparın nə qədər təhlükəli bir adam olduğunu bir daha dərk etməmişdimi? Bəs nə üçün həmin əhvalatdan nəticə çıxarıb burada bu iri gövdəli, qırmızısifət adamın qarşısında məğlub olmamaq üçün hazırlıq görməmişdi?

Onun indiki məğlubiyyəti çox pis nəticə verə bilərdi; Çaparın faktları inkar etməsi “Engels”in təmiz, namuslu adamlarının ləkələnməsi demək idi..

Yunus kişi əsəbi halda bığını eşməyə başladı.

– On beş baş sağmal inək, dörd baş biryaşar dana və üç buzov tələf olub. Göründüyü kimi vəziyyət acınacaqlıdır, yoldaşlar! Açıqca demək lazımdır ki, fermamız dağılıb. Fermanı bu ağır vəziyyətdən qurtarmaqdan ötrü bircə çıxış yolu var: müdirliyə savadlı, bacarıqlı bir yoldaş qoymaq. Mən təklif eləyirəm ki...

– Məncə, təklifdən qabaq fermanın nə üçün bu hala düşdüyünü aydınlaşdırmaq lazımdır, – deyə Yunus kişi onun sözünü kəsdi.

Çapar istehza ilə qımışdı.

– Aydının nəyini aydınlaşdıraq, yoldaş partkom?

– Mən şübhə eləmirəm ki, sənin üçün hər şey aydındır. Ancaq ola bilsin başqalarına qaranlıqdır. Sən kolxoz sədrisən, de görək əmək gününə yağ-pendir paylanmamasının, qırğının taqsırkarı kimdir?

Çapar qaşqabağını sallayıb yerə baxdı.

– Məncə, ölünün dalınca danışmazlar, – deyə yalnız rəyasət heyətindəkilərin eşidə biləcəyi bir səslə cavab verdi.

Sədrin camaat arasında Sərkəroğlunun adını pisliyə çəkməkdən ehtiyatlandığını hiss edən Yunus kişi dərhal ayağa durdu.

– Xahiş eləyirəm ucadan danış, camaat da eşitsin.

Çapar yenə istehza ilə qımışıb, Yunus kişini əyri-əyri süzdü: "Mənə Sərkəroğlunun haqqında pis söz dedirdib, camaatı üstümə qaldırmaq istəyirsən? Sən tülküsənsə mən də sənin quyruğunam, Yunus kişi!" O, qırğının səbəbləri barədə bir kəlmə belə danışmadan Sarı Eynalovun namizədliyini irəli sürüb oturdu və əyilib Şahgəldiyevanın qulağına nə isə pıçıldadı. Şahgəldiyeva dərhal ayağa qalxdı.

– Sarı Eynalovun namizədliyini rayon partiya komitəsi adından müdafiə eləyirəm. Qaldırın əllərinizi!

– Xahiş eləyirəm mənim sədrlik hüququmu əlimdən alma, Şahnabad! Yoldaşlar məni iclasa sədr seçdilər, mən də namizədləri səsə qoymalıyam, elə deyilmi?

Şahgəldiyeva dönüb qanlı-qanlı partiya təşkilatçısına baxdı.

– Madam ki, səsə qoymaqdan belə xoşun gəlir, di qoy. Ancaq tez ol, camaat istidən qırılır.

– Bizim Sərkərlilər belə istini çox görüblər, yoldaş Şahgəldiyeva. Görünür sənin özünə istidir. Əgər dözə bilmirsənsə keç pəncərənin qabağında otur. Çünki iclasımız hələ çox çəkəcək.

Yunus kişi öz təbiətinə sadiq qalıb sakit-sakit və incə bir istehza ilə danışsa da, hirsdən bütün bədəni titrəyirdi. Çaparla Şahgəldiyevanın heç kəsin çıxışına qulaq asmadan, camaatdan rəyi eşitmədən Sarının namizədliyini səsə qoymaq istəmələri təkcə yerli partiya təşkilatilə deyil, bütün Sərkərlilərlə hesablaşmamaq deyildimi? "Bax, bizim bəzi rəhbər işçilərin bədbəxtliyi elə bundan irəli gəlir", – deyə Yunus kişi ürək ağrısı ilə fikirləşdi. Onun diqqəti ani olaraq bu məsələ üzərində dayandı. Məgər vaxtilə Şahgəldiyeva Çaparı öz maşınında "Engels"ə gətirib camaatın iradəsinin əksinə olaraq, onu namuslu, bacarıqlı bir işçi kimi qələmə verib sədr seçdirməsəydi, bütün bu bədbəxtliklər baş verərdimi?

Qayğıkeş, uzaqgörən bir sədrin kolxozunda mal-qara qırılardımı? Bəlkə heç Sərkəroğlu da Sərkərlilərin əlindən getməzdi. Şahgəldiyeva indi də o vaxtkı kimi hərəkət edir: camaatın rəyini öyrənmədən Sarının namizədliyini səsə qoyur. Doğrudur, Sarı Çapar kimi ətalətli adam deyil: o, daima fəaliyyət göstərir, bəzən hətta hədsiz canfəşanlıq edir. Lakin Yunus kişi qəribə bir sövqi-təbii ilə duyurdu ki, bu işgüzar, qəşəng oğlanda nə isə, başlıca bir xüsusiyyət çatışmır. Eyni sövqi-təbii Yunus kişiyə deyirdi ki, Şahgəldiyevanın təklifi keçsə, bu qəşəng oğlan sərkərlilər üçün Çapardan da böyük əngəl olacaq. Yox, Yunus kişi Şahgəldiyevanın bu dəfəki özbaşınalığına heç vəchlə yol verməməlidir.

– Kim danışmaq istəyir? – deyə o, camaata müraciət etdi. Bir neçə əl havada oynadı. Yunus kişi İsmət xalaya söz verdi.

İsmət xala ortalığa çıxıb əvvəlcə önlüyünün ətəyilə üzünün tərini sildi. Arvad əriyib elə bil kiçilmişdi. Onun ətrafında heç bir şeyi nəzərdən qaçırmaq istəmirmiş kimi bir nöqtədə dayanmaq bilməyən xırda, iti baxışlı gözləri bir qədər durğunlaşmışdı. İsmət xalanın hərəkətlərində də nə isə bir ağırlıq hiss olunurdu. Sərkərlilərin çoxu elə zənn edirdi ki, bütün bunların hamısı yorğunluğun nəticəsidir: tezliklə hər şey keçib gedəcək və İsmət xala həmişəki kimi cəld, oynaq, hər şeylə maraqlanan, ən adi, əhəmiyyətsiz bir hadisə üçün belə, saatlarla adamı sorğu-suala tutan və hər şeyi, necə deyərlər, cikinə-bikinə qədər öyrənməmiş əl çəkməyən arvad olacaq. Bəlkə elə beləcə də olacaqdı. Çünki, axı İsmət xala kimi yaşı yarıdan ötmüş adamın təbiətinin dəyişdiyini təsəvvür etmək, doğrudan da çətindi. Sərkərlilər ancaq bircə şeydə səhv edirdilər: İsmət xalanın baxışlarındakı, hərəkətlərindəki dəyişiklik heç də yorğunluq əlaməti deyildi. Belə dəyişikliyi ancaq həyatında ürək ağrısı duymuş, böyük dərdə düçar olmuş adamlar hiss edə bilərlər. Nə isə... Söhbət onda deyil. Demək istədiyimiz təkcə budur ki, o cəld, oynaq, bəzən də bir qədər sadəlövh İsmət xaladan sanki heç əsər də qalmamışdı. Sərkərlilərin qarşısında ciddi, qaşqabaqlı, təmkinli bir adam dayanmışdı.

– Sərkəroğlu deyərdi, – İsmət xala tələsmədən sözə başladı. Onun ilk kəlməni Kərim dayıdan başlaması Sərkərlilərə yaxından bələd olmayan adamlara qəribə gəldi. Çapar arvadın dən düşmüş saçlarına, qırışları xeyli dərinləşmiş kiçik sifətinə baxıb nifrətlə üzünü kənara tutdu: "Dərbədərin qızı bugün-sabahlıqdı, yenə də

utanmır, ər adı çəkir”. Çəpərin belə düşünməsinə baxmayaraq, İsmət xala Sərkəroğlunun adını böyük bir qürur hissilə çəkirdi. O inanırdı ki, buradakı adamların hamısı olmasa da, çoxu Kərim Sərkəroğlunun adı gələndə İsmət xalanın özünün keçirdiyi hisslərlə yaşayır. – Sərkəroğlu deyərdi: vəzifə başına elə adam qoyun ki, onda hər şeydən əzəl möhübbət olsun. Kolxozumuzun vardövlətinə, şenniyimizin camaatına möhübbət!.. Möhübbət olmayan yerdə iş getməz.

İsmət xaladan soruşan olsaydı ki, bu sözləri Kərim dayı nə vaxt demişdir, o, cavab verə bilməzdi. Çünki bu sözlər heç vaxt Kərim dayının dilindən çıxmamışdı. Lakin buna bənzər sözləri Kərim dayı o qədər danışmışdı ki, heç kim İsmət xalanın dediyi kəlmələrin, doğrudan da, mərhum müdirin dilindən çıxdığına şübhə etmədi. Sağınçılardan biri elə bərkdən köks ötürdü ki, hamı dönüb ona baxdı. Təkcə Sarı başını qaldırmadı. O, Şahgəldiyevanın “yumruq olmayan yerdə iş getməz” sözlərini xatırladı. Bu və İsmət xalanın dedikləri nə qədər müxtəlif ürəklərdən qopub gələn sözlərdi! Sarı dərhal hiss etdi ki, bu ifadə heç də onun xeyrinə deyil. Çünki o, bu ifadəni ilk dəfə dinləmirdi. Eyni məzmunlu kəlmələri o, Zöhrənin dilindən dəfələrlə eşitmişdi. O, şübhə etmədi ki, bu sözlər indi də onun ünvanına deyilir.

Budur, İsmət xala gözlərini onun üzünə zillədi:

– Məndən soruşan olsa ki, bizim bu zootexnik oğlanda o möhübbət varmı? Deyərəm – yox! Biz sərkərlilər dalda söz danışan adamlar deyilik, oğul, Sarı! Bax, gözünün içinə deyirəm: düz adam deyilsən sən! Şahnabad burda səni müdir qoymaq istəyir. Özü də deyir, raykomun adından müdafiə eləyirəm. Mən ondan bircə şey soruşmaq istəyirəm: sən ki, bizimlə ayla gün kimi görüşürsən, ay Şahnabad, bəs bizim içimizdə olan işçini hardan tanıyırsan ki, hələ bir üstəlik müdafiə də eləyirsən, a qadan alım? – İsmət xala Şahgəldiyevadan cavab gözləmədən, onun qəzəbli-qəzəbli Yunus kişiyə nə isə dediyinə əhəmiyyət verməyib, yenə Sarıya müraciətlə davam etdi: – Ancaq biz səni yaxşı tanıyırıq, bala! Mən sənin barəndə elə şeylər bilirəm ki, danışsam camaatın ayağının altından yer qaçar. – Sarının elə bil iynə ilə sancdılar. Diksinib başını qaldırdı, gözlərini arvadın üzünə dikdi. Onun gözlərindəki ifadəni dərhal sezən İsmət xala acı-acı gülümsənərək: – Qorxma, qorxma, – dedi, – İsmət xalan o qədər abırsız deyil ki, iclasda durub elə

şeylər danışsın. Mənim demək istədiyim söz başqa sözdür. Bax, bizim hamımıza gün kimi aydındır ki, builki bədbəxtliyimizin səbəbkarı haman bu Çəpər oldu. Bunu böyük də bilir, kiçik də. Di gəl ki, sən elə çalışırsan işi başqa cür yozasan. Niyə? Böyüklərinin yarasına dəymək istəmirsən. Bilirsən ki, bugünkü gündə böyüklərin səni mərtəbəyə mindirəcək, necə ki mindirmək istəyirlər. Ancaq bir kərəmlik bilginən ki, sənin böyüklərini böyük seçən də, bax, burda oturanlardır, bala! Sən burda oturanlara yox, o yanındakı Çəpər Gecədələnoğluna qulluq eləyirsən. Həvəsində olduğun da el-gün dolanması, dövlət planı yox, mərtəbə qazanmaqdır. Mərtəbə qazanmağı hamı istər. Ancaq gərək namusnan qazanasan, qadan alım. Daha sənin təkin yox. Sözün kütahı, istəmirik biz sənin müdir olmağını, oğul! İstəyirik, bax, bütün canıynan-ciyəriynən bizə bağlı olan canımız-ciyərimiz, pis işləyəndə başa salan, yaxşı işləyəndə alnımızdan öpən möhübbətli balamız olsun. Dan ulduzumuz olsun!.. Ermənilər bizim dağlarımızdakı kəndlərimizi köçürəndə, sürgün eləyəndəcə niyə səsini çıxartmadın? O, deyək ki, Stalinin, Mikoyanın işləri idi, dillənməzdin. Bəs yaylağa köç qadağan olunanda niyə kiridin? Sən, zootexnik adam, bilmirdinmi ki, yayda qalan fermanın başına nə iş gələcək?!

İsmət xalanın asta-asta qəlibə tökülən ərinmiş polad damcıları kimi, ferma işçilərinin ürəyinə axıb orada yuva salan, bərkiyən sözləri otaqda dərin bir sükut əmələ gətirmişdi. Bu sükutu, İsmət xala Zöhrənin adını çəkər-çəkməz, çılğıncasına əlini stola çırpan Çapar pozdu:

– Yox bir yamacın pozğununu, əxlaqsızını gətirib müdir eləyib boynumuza mindirəcəyik!

Çaparın əlinin pəncəsi sanki yaşıl örtüklü stola deyil, Yunus kişinin, İsmət xalanın, Hürü bacının, Veysəlin, Qaranın, Yasəmənin və başqalarının üzlərinə dəydi. Zöhrə əvvəlcə diksindisə də, sonra gizlincə ətrafına göz gəzdirib təhqir edilmiş halda başını aşağı əydi. Bütün cərgələr heyrət içində donub qaldı. Axı, adam gərək vicdan deyilən şeydən məhrum olsun ki, "Engels"in lap mələk kimi tanıdığı bu lalə yanaqlı qızın haqqında belə təhqiramiz sözlər desin! Belə adama necə cavab verəsən?!

Bəli, bütün cərgələr heyrət içində donub qalmışdı. Təəccüblü burası idi ki, bu son dərəcə gərgin dəqiqələrdə Şahgəldiyeva da susurdu. Dostu onun "yumruq" dərsini çox pis başa düşmüşdü. Ancaq

artıq gec idi; Çaparın sözünün arxasından qaçıb İsmət xalanın təklifilə razılaşmaq hər şeyi uduzmaq demək idi. Şahgəldiyeva ilan vurmuş kimi yerindən sıçradı.

Lakin otaqda ağız deyəni qulaq eşitmirdi. Çapara müxtəlif cavablar qaytaran səslər bir-birinə qarışırdı. Dillənməyən, deyəsən, təkcə Qara idi. O, Zöhrənin həyadan qızarmış yanaqlarına baxa-baxa Dərədə keçirdiyi günləri xatırlayırdı. "Sən öz hərəkətinlə pis adamların dilinə söz veribsən", – deyən məlahətli, doğma səs qulaqlarında cingildəyirdi. Sonra arabaçının gözləri öz naftalin iyilə adamların başını ağrıdan qıza dikildi, dişləri bir-birinə sıxıldı, yumruqları düyünləndi. Otaq isə hey uğuldayırdı. Bəziləri Çaparı məzəmmət edir, yamanlayır, bəziləri isə, hətta söyürdülər. Belələrindən biri Nənəm-nəhrə idi. "Pozğun sən özün, bir də sənin motal qızındır!" – deyə o, lap arxadakı cərgədən əl-qolunu ölçə-ölçə qışqırırdı. Yasəmən başından sürüşüb dizlərinin üstünə düşmüş kəlağayısını örtə-örtə: "Allahın işinə bax, gör bir dilinə nə gətirir, çal başı yerə girmiş!" – deyə yenə qarğış qarğayırdı...

Şahgəldiyeva özündən çıxıb bu dəfə yumruğunun ikisini də stola döyən Çapara, sonra isə, adəti üzrə papirosunun kötüyünü çeynəyən Sarıya baxdı, dodağını dişləyib fısıldadı, əlini havaya qaldırıb bağırdı. Lakin onun səsi nə qədər gur olsa da, otaqdakı uğultuya üstün gələ bilmədi. Yunus kişi təmkinlə durub cərgələri narazı bir baxışla süzdükdə isə birdən-birə elə sakitlik çökdü ki, hətta eşikdən cökələrin yarpaqlarının xışıltısı eşidildi. Bığlının nüfuzu qarşısında özünü itirən Çapar dönüb Şahgəldiyevaya baxdı, elə bil yenə ondan kömək istədi. Lakin bu an İsmət xalanın codlaşmış səsi yenidən eşidildi:

– Çapar ağlına gələni danışır. Zərər yoxdur, qoy danışsın, qanacağını göstərsin. Onsuz da elimiz-günümüz yaxşı bilir ki, kim hansı yuvanın quşudur. bu barədə mən heç nə demirəm ona. Deməyəcəm də. Mənim sözüm başqadır. Mən Ocğazı demək istəyirəm ki, sən Çapar Gecədələnoğlu, sən Şahnabad Şahgəldiyeva, allahlıq eləməyin camaatın başında! Çığırma, çığırma! Niyə hoppanırsan, Çapar, yağırına dəyirəm? Heççə hoppanıb-tullanma, qulaq as. Bu söz mənim ürəyimdə çoxdan yatırdı. İndi fürsət düşüb, lap atan Gecədələn Murtuz da gəlsə ağzımı qapaya bilməz. Qulaq as, bilginən ki, bu kəndin camaatını barmağına dolayıb dövlətimizi qırğına verdinsə

də, Sərkəroğlu təkin qomunisti əcəlsiz öldürdünsə də, daha bizi barmağına dolaya bilməzsən! Fermada can qoyan bizik, biz də istəmirik o gədəynən işləməyi! İstəmirik! Lap sənin özünnən də!

– Arvad, biz burada sədr seçgisi aparmırıq. Öz sözünü danış! – deyə Şahgəldiyeva bağırdı və bununla da cərgələrdəki sakitlik yenidən pozuldu.

– Öz sözünü də danışır, bizimkini də! – deyə çığıran Nənəmnəhrənin arxasınca bütün sağınçılar səs-səsə verdilər:

– Dilini də kəsməyəcəksiniz ki?

– Seçkini bu gün olmasa da sabah aparacağıq.

– Maşınına mindirib gətirdiyin kimi də mindirib aparacaqsan.

– Apar turşuya basginən özün. İstəmirik biz onu!

– Motal qızıyın "zootexnik yoldaş"ını da istəmirik, sənin özünü də!

– Elin səsini eşitməyən adam bizə gərək deyil...

Adətən, ən gərgin iclaslarda belə kiçik bir əl işarəsilə, yaxud da sadəcə, narazılıq bildirən nəzərlərlə nizam-intizam yaratmağa müvəffəq olan Yunus kişi indi üçbucaq şəklində bükdüyü şəhadət barmağını dönə-dönə stola döyməli oldu. Nəhayət, səs-küy yatdı. Ancaq bu dəfə də rəyasət heyətində qanun-qayda pozuldu. Burada əvvəlcə Şahgəldiyeva stulunu xırıltı ilə dala çəkib, quyruğu basılmış koramal kimi fısıldaya-fısıldaya stolun dalından qalxdı. Sonra Çapar, onun dalınca isə Sarı taraq-turaqla stullarını geri itələyib qalxdılar. Şahgəldiyeva domba gözlərini bərəldərək, qəzəblə əlini stola çırpanda, buxağından asılmış tər damlaları tərpəşib otuzluq lampanın işığında parıldadı. Yunus kişi bu iri damlalara baxdı və "özüm ölüm ki, bu heyvərə elə bayaqdan havaya çıxmağa bəhanə axtarırdı", – deyə beynində dolandırdı.

Camaat özlərini təhqir olunmuş hesab edib iclası tərk edən bu üç nəfəri lal baxışlarla yola saldı.

Yunus kişi əlini bığına çəkib üzünü camaata tutdu:

– Kim danışmaq istəyir?

Yemçilik briqadası üçün yonca və qarğıdalı sahəsi ayrıldıqdan sonra, fermanın işlərilə daha yaxından maraqlanan aqronom, hesablayıcı Veysəl, daha sonra naxırçı Hətəm çıxış etdilər. Lakin artıq aydınca görünürdü ki, adamlar, bu sonuncuları ilk çıxış edənlər qədər maraqla dinləmirlər. Çünki Veysəl də, Hətəm də ferma işçilərinə çoxdan məlum olan faktları danışırdılar. Qız-gəlinlər artıq

pəncərədən, qapıdan bayıra, seyrək ulduzlu yay gecəsinin qatı qaranlığına baxırdılar. Belələri tezliklə evə gedib bu axşamkı qeyri-adi hadisə haqqında qonum-qonşuya danışmağa tələsirdilər. Sağınçılardan bəziləri isə Yunus kişinin, artıq buradakıların hamısına məlum olan qərarı oxuyub qurtarmasını gözləyirdilər ki, ferma müdiri təyin edilməsi münasibətilə Zöhrəni qucaqlayıb o üzündən, bu üzündən, bir də alnından öpsünlər. Kəndin qız-gəlinləri çox istədikləri adamı həmişə belə öpürdülər.

Lakin bu dəfə Zöhrənin başına çox adam toplaşdı və bəziləri onu heç bir dəfə də öpə bilmədilər...

Bürküdən dəhlizə çıxan Veysəl, birdən Qaranın qıpqırmızı qızarıb pörtmüş halda özünü qapıdan eşiyə atdığını görüb dayandı.

– Nə var, ə, nə olub? – deyə təəccüblə soruşdu.

– Mən ölüm üstünü vurma, qarışıqlığa saldım, mən də öpdüm, – deyə Qara həyəcanla pıçıldadı.

– Kimi, ə?

– Kimi, kimi!.. Naxırçı Hətəmin kosa üzündən öpməyəcəm ki!.. – O, gözlənilmədən gərnəşdi, daha da qızardı və cəld eşiyə qaçdı.

İclas otağından çıxanların hamısının üzü gülürdü. Hətta İsmət xalanın da çöhrəsini qüssəli bir təbəssüm aydınlaşdırmışdı...

## 34

Lakin qəfildən İsmət xalanı qəhər boğdu. O, tünlükdən tələsik aralanıb özünü qaranlığa saldı. Göz yaşları səssiz-səmirsiz, sel kimi axmağa başladı.

İsmət xala niyə ağlayırdı? Yoxsa Sərkəroğlu yadına düşmüşdü? Bayaq Kərim dayının adından danışarkən dişi aslan kimi dayanan bu arvad birdən-birə nə üçün belə kövrəkləşdi? Doğrusu, heç İsmət xala özü də yaxşı dərk etmədi ki, nədən belə oldu? Qızlar, gəlinlər hər tərəfdən Zöhrənin boynundan sarmaşanda İsmət xala da irəli yeridi, mehriban sağınçı yoldaşını bugündən belə isə istəkli müdirini bağrına basdı, onun alışıb-yanan yanaqlarından öpüb: “Ayağın sayalı olsun, ömrüm-günüm!” – deyə xeyir-dua verdi. Otağı başına götürmüş cingiltili qız-gəlin səsi, buradakı gümrahlıq İsmət xalaya qəribə təsir etdi. O, ilk dəfə özünün dağ boyda dərdini unutdu. Halbuki İsmət xala onu gecələr yuxusunda da unutmurdu. O, hərdən yas yerinə gələn qocalardan ayrılıb başını yastığa qoyan

kimi Kərim dayı gəlib gözlərinin önündə dayanırdı. Kərim dayı fermada gəzib-dolaşır, adamlara irad tuta-tuta hey deyinir, sədrdən narazılıq edir, şikayətcil naxırçılara ürək-dirək verirdi. Bəzən də Kərim dayı yorğun-yorğun gülümsəyərək: "Ay Talıb qızı, bir yaxın gəl, bax, birdən ölüb-elərəm, sonra yana-yana qalarsan!" – deyə zarafat edirdi. İsmət xalanın xəyalında canlanan bu lövhələr yuxuda da arvadın gözləri önündən getmirdi. O, səhərə qədər Kərim dayı ilə oturub-durur, gəzib dolaşır, söhbət edirdi. Belə dəqiqələrdə İsmət xala, həmişəki kimi, qoca ərinin xoşbəxt arvadı, başıalovlu ferma müdirinin qayğıkeş və işgüzar məsləhətçisi, köməkçisi olaraq, adət etdiyi həyatını sürürdü. Lakin həyətə enən çil xoruz qanadlarını çırparaq zil səslə aləmi başına götürüb tut ağacının dibində qıvrılıb yatan boz küçükdən tutmuş ətrafdakı bütün canlıları oyadanda İsmət xalanın yuxu aləmindəki həyatı alt-üst olurdu. O gözlərini açıb səhərin alatoranında otağa nəzər salır, Kərim dayının pəncərə ağzındakı çarpayıda deyil, Aran düzündə qara torpağın altında İsmət xalanın öz əllərilə tikilmiş xara yorğan-döşəkdə deyil, başı-ayağı büzülüb bağlanmış ağ kəfən və qapağı mıxlanmış taxta tabut içində yatdığını yada salır, getdikcə dünya İsmət xalanın gözlərində zülmətə dönürdü. Bir az sonra isə İsmət xala dünyanın irəlisini-gerisini fikirləşib özünə toxtaqlıq verir, atası Talıbdan, anası Qəmərdən, bacısı Güləsərdən belə, öz əllərilə qara torpağa tapşırdığı adamları yadına gətirib: "elə hamımızın son qismətimiz ora deyilmi?" – deyə təsəlli tapırdı. Gün yayılandan sonra həyətə gələn dilavər qarılara başı qarışan İsmət xala, artıq Kərim dayının xəyalilə oturub-durmasa da, daima çiynində böyük bir dərdin ağırlığını hiss edirdi. Həddindən artıq hörmət-izzət göstərir, oturanda onun altına döşəkçə atır, durub eşiyə çıxmaq istəyəndə dərhal yerbəyerdən sıçrayıb qapını açır, gün yayılmamış İsmət xalaya nahar təklif edir, bir sözlə, onun üçün əllərindən gələni əsirgəmirdilər. Lakin adamlar bir şeyi başa düşmürdülər; onlar öz hərəkətlərilə İsmət xalanın dərdini yüngülləşdirmək əvəzinə, ona bir daha xatırlatmış olurdular ki: "bax, sən dərdlisən deyə, sənə bu qədər hörmət edirik". Beş-on addım yol gedəndə nəfəsi daralan Kərim dayının gözlənilməz ölümündən sonra isə, yəqin ki, özünün də son günlərini yaşadığını düşünüb, qorxudan az qala iflic olmuş Zalxa qarı belə İsmət xalaya qulluq göstərməyə cəhd edir, beləliklə, İsmət xala hər an içəridən qovrulurdu. Yalnız

bu axşam, iclas otağını cingiltili qız-gəlin səsləri doldurduğu bir vaxtda, buradakı gümrahlıq içində İsmət xala bir neçə anlığa öz dərdini unutdu. O, özünü Kərim dayının sağlığında vermada keçirilən iclaslarda hiss etdi. Qapıdan çıxandan sonra isə qəfildən İsmət xala arxasında tanış ayaq səsləri eşitdi. Ona elə gəldi ki, arxasınca addımlayan Kərim dayıdır. Arvad elə xəyallandı ki, hətta diksinərək dönüb geri baxdı. Lakin Kərim dayı əvəzində pəncərələrdən süzülən gur işıqda bacısı oğlunun sevincdən qeyri-adi bir tərzdə genişlənib yaşarmış gözlərini, qıpqırmızı qızarmış sifətini gördü. İsmət xala sanki yuxudan ayıldı, dönüb qız-gəlinləri, xeyir-dua verdiyi Zöhrəni seyr etdi və elə bu an onu qəhər boğdu.

Gecə sakit və qaranlıqdı. Əsən meh o qədər ahəstə, yarpaqların xışıltısı elə asta və yeknəsəkdi ki, getdikcə uzaqlaşıb eşidilməz olan adam səslərindən başqa heç nə gecənin ümumi ahəngini pozmurdu.

Birdən həmin addım səsləri yenidən eşidildi. Lakin bu dəfə İsmət xala diksinmədi. Bu addım səsləri onun özünün böyüdüb, boya-başa çatdırdığı bacısı oğlununku idi. Necə olmuşdu ki, İsmət xala illərdən bəri hər gün eşidib alışdığı bu doğma ayaq səslərini Kərim dayınınkılarla qarışdırmışdı? İsmət xala bacısı oğlunun ayaq səslərini yalnız indi, Kərim dayının ayaq səslərinin əbədi eşidilməz olduğu bir vaxtda duya bilmişdi. Əgər Kərim dayının sağlığında İsmət xaladan soruşan olsaydı ki: “Ay xala, ərini çox istəyirsən, yoxsa bacın oğlunu?” – əlbəttə, İsmət xala azərbaycanlı qadınların qəbrə qədər mühafizə etdikləri həya ilə dərhal cavab verərdi ki: “Ətiniz tökülməsin, ər nədir, gədədən ötrü ürəyimin başı zoqquldayır”. Lakin həqiqət başqa cür imiş; sən demə, İsmət xalanın “ürəyinin başını zoqquldadan” bacısı oğlunun ayaq səsləri deyil, Kərim dayınınkılarmış.

Qara dabanlarını yerə bərk vura-vura yeriyirdi. Onun çəkmələrinin burnu də yerə bərk dəyirdi. Buna görə də ayağını bir dəfə yerə vuranda iki dəfə tappıldayırdı. Birdən o, qaranlıqda nəyəsə ilişib büdrədi. İsmət xala elə qorxdu ki, hətta Qaraya acıqlandı da:

– Gözün ayağının altına baxsın!

Qara dillənmədi. Lakin xatalı kimi, bir neçə addım getdikdən sonra o, yenə nəyəsə ilişib büdrədi. Özü də bu dəfə az qaldı ki, üzü-üstə yerə döşənsin. İsmət xala isə bu dəfə daha ucadan təpindi:

– A bala, gözün hara baxır?!

Əlbəttə, Qara bayaqdan bəri hara baxdığını xalasına demək istəmədi. Onun baxdığı səmtdə, Papaqçıların pəncərələrdən düşən solğun şüalarla işıqlanmış həyətində bir qaraltı görünürdü. Qaraltı pillələrlə qalxıb yox oldu və Qara bir daha o tərəfə baxmadı, büdrəmədi də... Amma onun yerişində, ümumiyyətlə, davranışında nə isə bir qəribəlik vardı. Həmişə ağır, əzələli qollarını yelləyə-yelləyə möhkəm addımlarla yeriyən Qara, indi nədənsə az qala qılçaları dolaşa-dolaşa gedir, tez-tez gah sağ, gah sol əlini qaldırıb, titrəyən barmaqlarının ucunu dodaqlarında gəzdirirdi. Onun dodaqlarına sanki nə isə yumşaq, ılıq və ətirli bir şey yapışmışdı. Bu gözəgörünməz şeydəki yumşaqlıq Qaranın elə bil bütün bədənini sümüklərinə qədər yumşaldır, əzələlərini süstləşdirirdi. Dodaqlarında hiss etdiyi hərarətdən isə onun canına xoş bir istilik yayılırdı. Bəs ətir? Bu nə isə çox qəribə, Qaranın indiyə qədər hiss etmədiyi, heç bir ətirə bənzəməyən, adamın varlığını əsir edən bir ətirdi.

Bəli, Qara özünü çox qəribə bir aləmdə hiss edirdi. Onun qız-gəlinlərin hər tərəfdən uzanan qolları arasından soxulub, qarışıqlıqda başını sinəsinə əymiş Zöhrənin nəm və qaynar dodaqlarından öpdüyü andan xeyli vaxt keçmişdi. Lakin arabaçı hələ də həmin saniyənin əsiri idi. O, belə hərəkətə necə cəsarət etmişdi? Onu bu hərəkətə vadar edən nə olmuşdu?

Qara bu barədə düşünmək belə istəmirdi. Daha doğrusu, düşünsə də, öz qeyri-adi hərəkətinə heç nə ilə bəraət qazandıra bilməzdi. Qız-gəlinlər şirin-şirin marçıldada-marçıldada Zöhrəni öpəndə arabaçının da ürəyi yerindən oynamışdı və hansı bir qüvvə isə onu qarışıqlığa itələmişdi. Vəssalam!

O, barmaqlarının uclarını dodaqlarında gəzdirə-gəzdirə evlərin pəncərələrindən süzülən işıqda işıldayan yarpaqlara, həyətlərdə alovlanan ocaqlara, sayrışan ulduzlara baxa-baxa xoşbəxtliklə gülümsünə-gülümsünə gedirdi. Ondan ikicə addım qabaqda İsmət xala tez-tez şalının ucunu sinəsindən qaldırıb gözlərini silirdi. Onlardan birisi öz dərdini gizlətməyə çalışırdı ki, yanınca yeriyən əzizi onu görüb kədərlənməsin, çox fikir eləməsin, cavan ürəyinə xal düşməsin, ikincisi isə, öz xoşbəxtliyini biruzə verməməyə çalışırdı ki, birdən dərdli xalasının könlünə dəyə bilər. Buna görə də hər ikisi çalışırdı ki, bir-birindən aralı yerisin.

İsmət xala evdə də heç bir şey biruzə vermədi. Lakin Qara halındakı dəyişikliyi İsmət xalanın iti gözlərindən gizlədə bilmədi. Stol başına keçib şam yeməyə başlayanda birdən İsmət xala narahatlıqla bacısı oğlunun üzünə baxdı.

– Sənə nə olub, a bala? Niyə belə pörtübsən?

Qara gözlərini yerə dikdi:

– Bürküdür də, ay xala.

– Yox, bürkü işi deyil, – İsmət xala əlinin dalını bacısı oğlunun alnına qoydu. Qaranın alnı alışıb-yanırdı.

– Allah, mənə ölüm ver! Soyuqmu dəyib sənə, nədir, a xalan ölsün? Dur uzan görüm, küpədən-zaddan qoyum, dur!

– Xala, canım üçün məndə heç nə yoxdur.

Lakin heç bir and-amanla İsmət xalanı inandırmaq olmazdı ki, Qaranın bədənindəki qeyri-adi hərarət heç də xəstəlikdən deyildir. Gözlənilməz bədbəxtlik yazıq arvadın gözünü elə qorxutmamışdı ki, o, bu cür hadisələrə biganə baxaydı.

– Bircə soyun, gir yerinə! – deyə İsmət xala iki ayağını bir başmağa qoyub təkid etdi. Doğrusu, Qara bilsəydi ki, ilk öpüş ona bu qədər baha oturacaq, bəlkə də heç əl-ayaq tərpətməzdi. Yay girəli o, tut ağacının altında yatmağa adət etmişdi. Arabaçı orada, açıq havada belə üstünə yorğan örtə bilmir, hətta bəzən gecədə bir-iki dəfə durub özünü əlüzyuyanın altına verirdi. İndi isə insaf yiyəsi İsmət xala bu dözülməz bürküdə biçarəni quzu yunundan döşənmiş yorğan-döşəyin arasına girməyə məcbur elədi. Qaranın hirslənib yorğanı üstündən atdığını gördükdə isə, dərhal yalvarmağa başladı:

– Mənə yazığın gəlsin, ömrüm-günüm! Yeznən məni bədbəxt elədi, mənim sözümnən oturub-durmadı. İndi sən də ürəyimi salma, qurbanın olum! Bürü başını, tərlə, soyuq canından çıxsın, yesirin olum, çiynində gedim, bala!

Qara əlacsız-əlacsız özünü boş qoyub tappıltı ilə yastığın üstünə düşdü. O, hiss etdi ki, gözü qorxmuş arvadın inadını sındıra bilməyəcək; bu saat İsmət xala anadan yetim qalıb şıltaqlıq eləyən uşağa bənzəyirdi. Arabaçının qalın yorğanın altında sərbəstcə uzanmaqdan başqa çarəsi qalmadı. O, maddım-maddım xalasının üzünə baxıb köksünü ötürdü.

– Kaş hamının naxoşluğu mənimkindən olaydı, ay xala!

Lakin İsmət xala bu sözləri eşitmədi.

– Bu saatca samovarı qoyum, bir-iki stəkan tünd çay iç, – deyə o, dodaqaltı mızıldana-mızıldana samovarı götürüb eşiyə çıxdı. Qara fürsətdən istifadə edib dərhal təpiyilə yorğanı çarpayının başına atdı, cəld hərəkətlə yerə sıçradı, "fuff" deyə ordlarını şişirdərək, nəfəsini dərdi. Bu vaxt həyətdən İsmət xalanın səsi eşidildi:

– Ay Hürü, məni itdən ötür, a günün ağ olsun! İdarədə olmuşam, od-ocaq keçib. Bizim doktor qızın qapısında işıltı gəlir. Deyirəm, samovardan ötrü bir qırıq od gətirim. Haşa səndən, ay Hürü, gədə durduğu yerdəcə azarlayıb, gövdəsi elə qızğındır, elə qızğındır ki, adamın əlini yandırır.

İsmət xala daha nə isə deyə-deyə həyətdən çıxıb uzaqlaşdı.

– Xataya düşmədik, əşi! – deyə Qara bürküdən darıxmış halda qurşaqdan yuxarı soyunub köynəklərini çarpayının üstünə atdı, tez həyətə çıxaraq, dizlərini və dirsəklərini yerə qoyub özünü krantın altına verdi. Sərin su gövdəsinə dəyəndə diksinib at kimi fınxırdı, lakin tükləri biz-biz olana qədər suyun altından çıxmadı. Sonra o, evdə əlinə keçən əski parçasilə qurulandı, köynəyini geyinmədən, gəlib tutun altında kürəklərini ağacın gövdəsinə söykəyib oturdu. Boz küçük kos kimi yumalana-yumalana gəlib, onun yan-yörəsində quyruğunu tərpədə-tərpədə atılıb düşdü. Qaranın çəkməsinin burnunu gəmirdi, şalvarından tutub çəkişdirdi. Həmişə onunla oynamağı sevən oğlanın bu dəfə nədənsə əl tərpətmədiyini gördükdə isə, onun ayaqlarının yanında qarnını yerə verib çənəsini biləklərinin üstünə qoydu və maddım-maddım sahibinə baxdı. Birdən boz küçük Qaradan qopan xorultudan diksinib başını qaldırdı, qulaqlarını şəkləyib sanki sahibinin belə tez yuxuya getdiyinə təəccüb etdi.

Bəli, arabaçı yatırdı. Aralı qapıdan düşən işıq onun alnını və möhkəm əzələli sinəsini işıldadırdı. Meh onun saçlarını, sinəsinin yumşaq tüklərini tərpədir, onu xumarlandırırdı.

Bir azdan meh kəsildi, lakin indi də Qaranı gördüyü dadlı yuxu xumarlandırdı. Qara gördü ki, Zöhrə onun biləyindən tutub hara isə çəkir. O, qızın yumşaq əlinin hərarətini öz biləyində hiss edirdi. Zöhrə onu çəkib aparır, o isə cınqırını çıxarmadan addımlayırdı. "Hara aparsan dalınca getməyə hazıram, el qızı!" – deyə Qara fikirləşirdi...

O, gözlərini açdı və... Nə görsə yaxşı idi? İsmət xala ilə həkim qız onun qarşısında diz çökmüşdülər. İsmət xala əlini dizinə vura-vura yenə həyəcanla nə isə deyirdi. Qaranın yoğun qara biləyini öz

ağ, zərif barmaqlarının arasına alıb nəbzini yoxlayan həkim isə gülümsünə-gülümsünə İsmət xalanı inandırırdı ki, yer üzündə bu pəhlivan cüssəli arabaçıdan sağlam adam tapılmaz.

Nəhayət, xalasının bütün bu hərəkətləri Qaranı hövsələdən çıxartdı. Lakin birdən həkim qızın sözlərinə inandıqdan sonra İsmət xalanın gözlərinin necə dolduğunu, dodaqlarının qüssəli bir təbəssümlə necə səyridiyini gördükdə, Qaranın qəlbi tamamilə başqa hisslər doldurdu: "Səni, bax, bu çiyinlərimdə saxlayacam, ay xala! Sağ çiynim ağrıyanda sol çiynimə götürəcəm, sol çiynim ağrıyanda sağıma götürəcəm!.."

## 35

Sarı idarədən dəli kimi çıxdı. Arxadan onu səsləyən Çaparla Şahgəldiyevaya cavab belə vermədən evə cumdu. Çapargil ona nə demək istəyirdi? Artıq bu, onu heç maraqlandırmırdı da. Onun qulaqlarında yalnız "istəmirik, istəmirik" deyən Sərkərlilərin inadlı səsləri cingildəyirdi. Bu səslər Sarının qulaqlarından çıxmır, getdikcə elə bil daha da qüvvətlənib beynində uğuldayırdı.

Sahil tərəfdən çiyinlərinə paltar-palaz yığmış bir neçə arvad qalxırdı. Bir uşaq "yel fanarı" ilə onların yolunu işıqlandırırdı. Kiminsə daşa-kəsəyə ilişə-ilişə, yolun çala-çuxurlarında büdrəyə-büdrəyə gəldiyini görən uşaq, fanarını yuxarı qaldırıb yaxınlaşan qaraltının üstünə işıq saldı. Sarını tanıdıqda isə əlini yaxasına atdı, düymələrini açıb, köynəyinin altında, qoynunda çırpınan quşu çıxartdı və yəqin ki, uşaqların ov yeri olan cökələrin yanında hər gün fermaya gedib-gələn bu ucaboy dayının qarşısında öz məharətini nümayiş etdirmək istədi. Lakin dayı nəinki onun quşuna baxmadı, hətta qəzəblə gözlərini parıldadaraq, özünü yoldan kənara verdi və deyəsən, orada xəndəyə düşüb yıxıldı da. Onun bu hərəkəti təkcə uşağı deyil, arvadları da təəccübləndirdi. Onlardan hansısa Sarını sərxoş hesab edib:

– Gör özünü nə kökə salıb, yerişini də bilmir, – deyə narazılıqla deyindi.

Sarı isə, doğrudan da sərxoş kimi idi. Hətta ona elə gəlirdi ki, başında uğuldayan, beyninin qapağını atacaqmış kimi getdikcə güc-

lənən səsləri bu qadınlar da eşidirlər və bir az ləng tərpənsə, bu saat çağırıb ondan soruşacaqlar: "Səni niyə istəmirlər? Sən onlara neyləyibsən ki?"

O, özünü evə yetirən kimi üzü üstə çarpayıya yıxıldı. "Yox, mən daha burda qala bilmərəm. Qala bilmərəm!" – deyə öz-özünə pıçıldayaraq, bircə anlığa da olsa hər şeyi unutmağa, o müdhiş sözləri beynindən çıxarmağa, başındakı gurultudan xilas olmağa çalışdı. Lakin mümkün olmadı. Gurultunun daha da artdığını hiss etdikdə o, çarpayıdan sıçrayıb qalxdı, əsəbi addımlarla otaqda gəzinməyə başladı. İçəridə lampa yanmadığından Sarı tez-tez gah stullara, gah da baxımsız evdə ayaq altına tökülüb qalmış müxtəlif şeylərə toxunurdu. Lakin o, yenə də vargəl edir, bir yerdə qərar tuta bilmirdi.

Necə oldusa, dizinin kündəsi çarpayıya dəydi, bərk ağrıdı. Ancaq bundan sonra o, işıq haqqında düşündü. Cibindən kibrit çıxardıb, iki pəncərənin arasında divardan asılmış onluq lampanı yandırdı. Lampanın şüşəsi çoxdan bəri silinmədiyindən, otağa solğun, sarımtıl bir işıq yayıldı. Bu işıqda Sarının gözünə çarpan ilk şey – stolun bir küncünə səliqə ilə yığılmış kağızlar – inəkləri qruplaşdırarkən onun günlərlə vaxt sərf etdiyi cədvəllərin surəti oldu. O, hayıfını bu cansız kağızlardan alırmış kimi, axırıncı vərəqəyə qədər cırıq-cırıq edərək pəncərədən bayıra atdı. "Qurtardı! Bu kolxozda mənim işim bununla da qurtardı!" – deyə yenə öz-özünə pıçıldadı. Sonra Sarı stolun siyirməsindən yemçilik briqadasının illik iş planını, keçən ay ərzində anbara təhvil verilmiş yağ, pendirin keyfiyyəti haqqında aktları və başqa sənədləri çıxartdı, bir sözlə, fermaya aid olan kağız-kuğuzların hamısını cırıb tökdü, hətta, yan-yörəsinə göz gəzdirərək, yığışıb buradan yola düşərkən hansı şeyləri necə qablamağı təyin etmək istədi. "Lap günü sabah! Burda bircə gün də qala bilmərəm!" – deyə o, bir daha qət etdi. Bu an Sarının yadına nə fermadakı vəziyyətin ağırlığı, nə də çay sahilində sulaşma ilə başlayıb qucaqlaşma ilə bitən "oyundan" sonra bütün gecəni onu yaşıl otlar arasında ağuşundan buraxmayıb "yoldaş zootexnik" sözlərini "mənim əzizim"lə əvəz etmiş "qara qız" düşürdü. O, yalnız öz qərarını dönə-dönə təkrar edir və yenə aramsız gəzinirdi. Aradabir ayaq saxlayıb pəncərədən bayır-bağçanı bürümüş zülmətə baxanda isə Yunus kişinin, İsmət xalanın, sağınçıların çöhrələri gözləri önünə gəlir və o, diksinmiş kimi qəfildən geriyə dönüb, yenidən addımlarilə döşəməni ölçməyə başlayırdı.

O, papirosu papirosun oduna yandıraraq gəzindi, gəzindi və birdən özündə elə yorğunluq hiss etdi ki, artıq bir an belə ayaq üstündə bənd ala bilməyib çarpayıya döşəndi. Sanki o, neçə aylardan bəri ara vermədən, yorulmaq bilmədən, tələsə-tələsə, yuxusuz qala-qala, bir qat dəridən çıxa-çıxa çalışıb, yeganə idealına çatmaq – ad-san, mövqe qazanmaq, yüksəlmək əvəzinə dərin bir quyu dibinə düşdüyünü dərk edib taqətdən kəsildi. Çarpayıya döşəndi və bir müddət beləcə qaldı.

O, yenə də hər şeyi unutmağa, heç olmasa bircə saatlığa mürgüləməyə çalışırdı...

Birdən haradasa xoruz banladı. Ərik ağacının üstündə sərçə cükküldədi. Ağacların yarpaqları səsləndi.

Pəncərədən içəriyə sərin səhər mehi dolub, döşəməyə səpələnmiş kağız parçalarını xışıldatdı.

Nəhayət, Sarı mürgüləyə bildi.

Lakin qəfildən səhərin sükutunu pozan bir gurultu onu oyatdı. Bu, Qaragilin işə saldığı yemdoğrayan maşının gurultusu idi. Sarı qulaqlarına dolub onsuz da gərgin olan əsəblərini tərpədən bu səsdən yata bilməyəcəyini duyub pəncərələrin ikisini də örtdü, lakin səs kəsilmədi, həm də səhər mehindən azacıq sərinlənmiş otaq yenidən bürküləşdi.

Sarı çarpayıdan qalxdı, əsəbi bir hərəkətlə papiros çıxarıb yandırdı, tüstünü ciyərlərinə çəkərək, qapının təpiyi ilə itələyib bağçaya – açıq havaya çıxdı.

Artıq üfüq qızarırdı. Sarı ərik ağacının altında ayaq saxlayıb, yolun o tərəfində, xəndəklərin yanında maşının ağzına ot basan arabaçının işə necə can yandırdığına tamaşa etdi və acı-acı, hətta nifrətlə gülümsündü. Vaxtilə o özü sinəsi ağrıyanadək stol arxasından qalxmayanda, ya əlləri qabar oluncayadək bel vuranda, yaxud inəklər, buzovlar arasında yuxusuz gecələr keçirəndə işinin mənasını başa düşür, öz idealına çatmaq üçün daha inadla çalışırdı. Lakin bəs bu, papaqlarının qulağı atılıb-düşən oğlan nə üçün səhərin şirin yuxusunu yatmayıb belə can yandırırdı?

Sarı bunu nəinki başa düşmürdü, bu, onun üçün bir sirr idi.

Ağacların arasından bir dəstə qız-gəlin çıxdı. Sarı sağınçıları tanıyan kimi heç özü də hiss etmədən dərhal dala, – ağacın kölgəsinə çəkildi. Yoxsa, o, ferma işçilərindən utanır, ya xəcalət çəkirdi?

Xeyr! Sarı onlardan qorxurdu. Ona elə gəlirdi ki, bu adamlarla üz-üzə gəlsə, qulaqları daha pis sözlər eşidəcək.

Qızlardan biri – acıdil Yasəmən, qara kalağayısı yellənə-yellənə, Papaqçıların eyvanına qalxıb Zöhrəni çağırdı.

– Bıy, ay qız, müdir olan kimi yatıb yuxuya qalıbsan, bu nə təhər şeydir?

Zöhrə boynuna aldı ki, doğrudan da, bu gün o, ömründə ilk dəfə, fermaya adət etdiyi vaxtda getməyib. Lakin o, Yasəmənin dediyi kimi yatıb yuxuya qalmayıb, əksinə, heç gözlərini də yummamışdı. "Yaşıl konveyer"ə başlamaq üçün Yunus kişi ilə məsləhətləşmiş, söhbətləri xoruz banına qədər uzanmışdı. Son məlumatı Zöhrə özü yox, xəndəklərin yanından bəriyə doğru gələn Yunus kişi dedi. Gözlərini qıyıb bığlarını eşən partiya təşkilatçısını gördükdə Sarı bağın lap dərinliyinə çəkildi. Çəpərin dibində neçə ildən bəri, bəlkə də lap Zöhrənin babasının sağlığında atılıb qalmış köhnə taxtın üstündə oturdu.

Bir azdan papirosu necə əlindən saldığından, quru taxta üstündə dirsəklənib necə dərin yuxuya getdiyindən heç özünün də xəbəri olmadı. Elə dərin yuxuya getdi ki, hətta günortaüstü Papaqçıların həyətinə yığışıb oradan idarəyə yollanan cavanların səs-küyü də onu oyatmadı. Yalnız gün əyilən vaxt Sarı kiminsə onun çiynindən tutub silkələdiyini hiss etdi. O, bütün əzaları sızıldayan, ağırlaşmış gövdəsini quru taxtanın üstündən qaldırıb dikəldi, əvvəlcə bərk gərnəşdi, sonra üz-gözünü ovuşdurdu, əllərini üzündən çəkdikdə isə Çaparı qarşısında gördü.

Çaparın gözlərinin altı, üstü şişmişdi. Rəngi avazımışdı. Görünür o da bütün gecəni yatmamışdı. (Bu ötən gecə "Engels"də neçə adam yuxusuz qalmışdı?!) Bunu onun səsindəki xırıltı da göstərdi:

– Çağıranda niyə cavab vermirsən adama, ə? – deyə o, qaşqabaqlı halda, kobudluqla dilləndi. – Dünənki haqq-hesab hələ az imiş, tutub uşağı da komsomoldan çıxardıblar.

Günortaüstü Papaqçıların həyətindən idarəyə yollanan cavanların iclasından xəbəri olmadığındanmı, yoxsa hələ yuxudan tamam-kamal ayılmadığındanmı, nədənsə, Sarı Çəpərin dediyindən bir şey anlamadı. Qan sağılmış gözlərini döyə-döyə xeyli susdu. Sonra:

– Uşaq kimdir? – dedi. – Komsomoldan niyə çıxardırlar?

Yem cədvəllərini dirəklərə vurub çay sahilində "əl-üzlərini yumağa" getdikləri gecədən sonra, qızı ilə Sarının arasında daha çox yaxınlıq müşahidə edən Çapar artıq öz aləmində istəkli kürə-

kəni saydığı bu oğlanın sifətindəki laqeydliyi görüb üzünü bozartdı. Gözlərini yerə tikərək, boğuq, xırıltılı səslə:

– Demək, sənin heç nədən xəbərin yoxdur? – dedi. – Ancaq, məncə, belə işlərlə məndən qabaq sən maraqlanmalısan.

Fikrini dünənki hadisələrdən ayıra bilməyən Sarı:

– Bu saat məni özümdən başqa heç kim maraqlandırmır, – dedi və taxtın üstündən durub səndələyə-səndələyə qapıya doğru getdi. Qollarını çırmalayıb divardan asılmış əlüzyuyana yaxınlaşdı.

– Məni onun komsomoldan çıxıb-çıxmamağı narahat eləmir, – deyə Çapar kürəkəninin dalınca yeridi. – Cəhənnəmə çıxartsınlar! Ancaq məsələ ondadır ki, o, Zalxanın nəvəsi açıq-aşkar hayıf alır. Mən səninlə həmişə açıq danışmışam, Sarı, indi daha açıq danışıram: səndən ötrü hayıf alır, bilirsənmi? Bax, buna görə də sən lazımı yerində deməlisən bunu. O həyasız elə çoxdan fürsət axtarırdı ki, bizim qıza bir xata yetirsin. Fürsət tapa bilmirdi. İndi komsomolun işini o hesablayıcı gədəyə verir deyə, çıxmamışdan qızla haqq-hesab kəsib...

Sarının suyu üzünə şappıldadıb qulaq asmaq belə istəmədiyini görən Çapar yarımçıq susdu. Pərtliyini üzə vurmamağı çalışaraq, onun yuyunub qurtarmasını gözlədi.

Sarı isə artıq məsələnin nə yerdə olduğunu başa düşmüşdü. Lakin hər an öz qərarı haqqında düşündüyündən beyninə heç nə girmirdi. Əlüzyuyandan aralanıb dəsmal götürmək üçün içəri gedəndə o: "Saman çöpündən yapışırsan!" – deyib Çaparın niyyəti barədə fikrini bildirmək istədisə də, yenə inadla susub otağa keçdi. Sarı köynəyinin qollarını aşağı sala-sala eşiyə çıxanda, Çapar eyni tutqun görkəmlə:

– Ancaq mən bundan ötrü gəlməmişəm, – dedi, – gedək bizə, sənnən ayrı söhbətim var.

– Söhbəti burda da eləyə bilərik, – deyə Sarı çox quru bir səslə dillənib qol saatına baxdı. – Mən indi rayona getməliyəm.

– Rayona? Nə var, ə, rayonda?

– Bilirsinizmi, yoldaş sədr... – Sarı cavabı ləngidib nə barədəsə fikirləşdi, sonra qətiyyətlə dedi: – Mən daha burda qala bilmərəm! Gedib tələb eləyəcəyəm, məni ayrı kolxoza dəyişdirsinlər.

– Nə, nə? – deyə Çapar qaşlarını çatdı. Onun gözləri təşvişlə parıldadı. Bir az sonra, Çapar əllərini kəmərinin altına sancdıqda isə, bu gözlər istehza ilə qıyıldı. – Nə tez qorxuya düşdün belə,

yoldaş zootexnik? Tanıya bilmirəm səni. O döşünə döyən Sarı deyilsənmi sən, ə?

– Mən yenə haman adamam. Heç nədən də qorxmuram. Ancaq daha burda qala bilmərəm. Bu kolxozla mənimki qurtardı.

Çapar onun səsindəki tanış inadı, qətiyyəti duyub, yenə dəyişərək ciddiləşməli oldu.

– Sən bu kolxozdan heç yana getməyəcəksən!

Sarı dodaqlarının ucunda acı-acı gülümsünüb cavab vermədi.

– Heç ayağını da tərpətməyəcəksən! – deyə Çapar bu dəfə ərklə bildirdi. Sonra birdən astanada əyləşərək, Sarının qolundan çəkib yanında oturtdu və öz kiçiyinə nəsihət verən böyük ədasilə davam etdi: – Mən bilirəm, sən bu səs-küydən qorxursan. Ancaq çox nahaq! Heç tükün də tərpənməsin. Onlardan olsaydı, mən heç sədrlik stolunun üzünü də görməzdim. Olmadı ki onlar deyən? Olmadı. Sənin heç xəbərin yoxdur ki, bircə ay bundan qabaq o Bığlı mənə necə bir tələ qurmuşdu. Mənim yerimə, bax, sənin kimisinin biri olsaydı, gen vaxtda döşünə döyüb "mən, mən" deyən, darda ödünü qusanın bir olsaydı, inandırıram səni, vəzifəsi də əlindən getmişdi, partbiletinin üstündə də indi yekə bir töhmət ləkəsi vardı. – Çapar əlini köynəyinin açıq yaxasından salıb qoynundan məktəbli çantasını an-dıran dördkünc bir kisəcik çıxartdı və kəsif tər iyindən Sarının üz-gözünün necə turşaldığına əhəmiyyət vermədən, kisəciyi onun burnunun qabağında silkələndi. – Bir Bığlı olmasın, yüzü olsun, məni yerimdən tərpədə bilməz! Çünki mən, bax, bu torbanın içindəki knijkanı ürəyimin başında dua kimi gəzdirirəm, – deyə o, kisəciyi yenə qoynuna qoyub, köynəyinin yaxasını düymələdi. – Mən, bax, elə bu knijkanın gücüylə də o Bığlının bir təhər eləcəyəm!

Sarı yenə də acı-acı gülümsünüb başını buladı: "hələ ki, Bığlı sizi birtəhər eləyib", – demək istədisə də, Çapar ona imkan vermədi. O, nahaq yerə öyünmədiyini sübut etməyə tələsdi. Köynəyinin döş cibindən çıxartdığı dördkünc bükülmüş kağızı Sarının dizləri üstünə atdı. Sarı bir onun üzünə, bir də kağıza baxdı, götürüb qatını açdı. Bu, rayonun partiya komitəsinə yazılmış ərizə idi. Çapar ərizədə sübut etməyə çalışırdı ki, Yunus kişi kənddə kolxoz sədrinin əleyhinə dəstə düzəltmiş, nə vasitə ilə olur-olsun onu camaatın gözündən salmağa çalışır.

Çox qəribə idi: başqa vaxtlar daima ehtiyatlı dolanmağı, ən əhəmiyyətsiz bir məsələni belə dönə-dönə ölçüb-biçməyi sevən

Çapar, indi nə üçün ehtiyatsızlıq edirdi? Axı, məsələni bu qədər böyüdüb raykoma qədər aparıb çıxarmaq hər halda Çaparın xeyrinə olmazdı; Çəpər bu dəfə qardaşını "ədalətli" adlandıra bilməzdi.

İşin bu tərəfi, əlbəttə, Sarını maraqlandırdı. Lakin Çapar onun soruşmağını gözləmədən:

– Mənim ərizəm Bığlı barədə ikinci ərizə olacaq, – deyə kürəyini divara söykəyib, özünəməxsus şit bir tərzdə yayxandı. – Birinci ərizəni Şahgəldiyevanın özü yazıb.

– Şahgəldiyeva?

– Bəli, yoldaş zootexnik, Şahgəldiyeva! – deyə Çapar gözlənilmədən qəhqəhə çəkdi. – Dünən tez-tələsik özünü evə soxmasaydın, görərdin iclasdan sonra nələr oldu? Bilirsən Şahnabadı necə od götürmüşdü? Nə qədər elədim ki, canım, gedək rahatlan evdə, ayağını da basmadı. İdarənin qabağını kəsib gözlədi ki, Bığlı çıxsın, onun həddini özünə bildirsin, sonra... Əşi, canım, arvad-zad deyil o! Zalımın qızında bir həkkə var, bir həkkə var ki, mənim kimi dünyanı yorub yola salmış adam başımı qaldırıb üzünə baxa bilmirdim. Amma bilirsən o köpəkoğlu necə çıxdı idarədən? Bığını bura-bura... Eh, Şahnabad daha da cin atına minmədi?! Qolundan tutub saldı kabinetə, dedi: "Yadında saxla ki, sən bu camaatın qarşısında mənə yox, doğma partiyana hörmətsizlik elədin. Bu sənə baha oturacaq". Sən bilən Bığlı nə desə yaxşıdır? Köpəkoğlu o yandan qalxdı ki, bəs: "Elə yaxşı eləmişəm sənə hörmətsizlik eləmişəm. Sənin kimi raykom katibləri xalq içində partiyanın nüfuzunu salmaqdan başqa heç bir iş görmürlər". Eh, sağlıqla görüm səni. Elə o saatca kağız, qələm gəldi meydana. Şahnabad ərizəsinin altından mənə də qol çəkdirdi ki, büroda şahidlik eləyəcəksən. Maşına minəndə də qulağıma pıçıldadı ki: "Ürəyini buz kimi saxla, Çapar! Mən atamın qızı olmayacam əgər o Bığlıya yubkamın ətəyindən öpdürüb yalvartmasam..." Bax, haqq-hesab belədir, yoldaş zootexnik, sən də başlayıbsan ki, nə bilim, daha bu kolxozla mənimki bitdi. Sən, axı ayrı kolxoza gedib nə qazanacaqsan, balam? Bu Bığlı kimi, o Sərkərlilərin İsməti, Papaqçıların Zöhrəsi kimi adamlarla elə hər yerdə üz-üzə gələcəksən də. Bu kolxoz mənim, o kolxoz sənin, başlayıb bütün dünyanı gəzməyəcəksən ki? Mən səndən ötrü deyirəm, özün bil. Əgər bir yerdə kök salmaq, irəli getmək istəyirsən mən deyənə bax.

Sarı dinmirdi.

Çapar bu tərs oğlanın inadını həmişəlik sındırmaq üçün yeni və axırıncı vasitəyə əl atıb, xırıltılı səsini yumşaltmağa çalışdı:

– Bir də, bala, papağını qabağına qoyub yaxşı-yaxşı fikirləşsən, burdan getmək barədə gərək heç söz də salmayasan. Bəzi məsələlər var ki, mən açmaq istəmirəm. İstəmirəm indidən aramızdakı pərdə götürülsün. Mən sənin namusuna, qeyrətinə inanıram. İnandığım üçün də o məsələdən söhbət salmağı lazım bilmirəm.

Bu sözlərlə Çapar onu tamam tərksilah etmiş oldu. "Engels"də bircə gün belə qala bilməyəcəyini qərara almış Sarı hiss etdi ki, Aran düzündə çay sahilinə qısılmış bu balaca kənddən onun üzülməsi çox çətindir. Bəlkə də bu lap qeyri-mümkündür.

Lakin iş elə gətirdi ki, bir qədər sonra Sarı köhnə qərarının üzərinə yenidən qayıtmalı oldu.

"Engels"də hadisələr sürətlə cərəyan etdi...

Çaparın ərizəsini əvvəlcə yerli kommunistlərin müzakirəsinə göndərdilər. İclas otağına girən Çapar Yunus kişinin yanında Zöhrə ilə İsmət xaladan başqa, öz keçmiş arvadı Fatmanı da gördükdə yerindəcə quruyub qaldı. Sifətinə meyit rəngi çökdü. O, Yunus kişinin sakit və mətin simasına, Fatmanın, İsmət xalanın, Zöhrənin qəzəblə qaynayan gözlərinə baxdıqda dərk etdi ki, partiya təşkilatçısının əleyhinə ərizə yazarkən bu başıyaylıqlılarda oyatdığı qəzəbi, kini hesaba almamaqla nə qədər böyük bir səhv etmişdi. Öz keçmiş həyat tarixçəsini Sərkərlilərin gözləri qarşısında vərəqləməyə başlayan Fatmanın çıxışından sonra isə, Çapar ətrafdan ona dikilmiş bütün gözlərdə eyni qəzəb və kin ifadəsini oxudu. Buna bənzər bir ifadəni o, düz bir həftə sonra, kəsif tər qoxusu verən kisəciyi qoynundan çıxarıb "ürəyinin başında gəzdirdiyi" kitabçanı təhvil verərək, idarədən çıxanda astanada rastlaşdığı Sarının da nəzərlərində oxudu. Bəli, Sarıda da bu yoğun adama kin və qəzəb hissi oyanmışdı. Çapar Sarını boş ümidlərlə əyləndirməkdən başqa, həm də öz qızının haqqını tələb edən övlad atası kimi onun ayaqlarına cidar olmuşdu. Sarı tezliklə cidarı qırmalı, buradan baş götürüb getməli idi.

O, göy ürgəni at töyləsinin çardağı altına çəkib yəhərləməyə başlayanda, Lətifə yüngül bir xalçanı çiyninə atıb sahil boyunca yavaş-yavaş addımlayırdı. Suyu tamam çəkilməmiş xalçanın saçaqlarından süzülən iri damlalar onun enli sırtını, buğumlu topuqlarını isladırdı. Lakin Lətifə heç nəyə fikir vermir, elə bil xəyal içində addımlayırdı.

Bir yerdə o, ayaq saxladı. Çayın lap qırağında çoxdan yapıxmış və hələ dirçəlməmiş otların üstündə xalçanı bir kənara atıb oturdu. Bu an gözləri otların arasında düşüb qalmış sarı rəngli, kiçik bir düyməyə sataşdı. O, düyməni götürüb, qoftasının yaxasında eyni rəngdə, eyni biçimdə düymələrlə yanaşı tutdu, lap aşağıda boş qalmış ilgəyə baxdı və gülümsündü. Sonra o, ətrafa səpələnmiş köhnə, sarı, çeynənmiş papiros kötüklərinə göz gəzdirdi və birdən, ötən günlərin xoş xatirəsinə qapılıb arxası üstə uzanaraq qollarını yana açdı, əllərilə otları yatımına sığallaya-sığallaya gözlərini açıq maviyə çalan səmanın dərinliklərinə zillədi...

Çayla kənd arasındakı cökə xiyabanının kölgəsi yavaş-yavaş uzanıb sahili basırdı. Lakin Lətifə onun üçün ən əziz bir gecədən sonra düymə ilə papiros kötüklərini yadigar saxlamış bu güşədən ayrılmaq istəmirdi. O, yenə də otları sığallaya-sığallaya, nazik qoftasının altından dikələn iri, dolu döşlərinin çətin seziləcək bir tərzdə titrədə-titrədə, söyüd şivindən hörülmüş hasarın içində, cah-cəlal qoynunda Sarı ilə keçirəcəyi günləri təsəvvürünə gətirməyə çalışırdı...

Özünün komsomol biletini təhvil verəndə bir tükü belə tərpənmədiyi kimi, atasının partiyadan çıxarılması da Lətifəyə o qədər yer eləmirdi. O, yenə də hasar içində çalışır, atasının aşıladığı arzularla yaşayırdı. Bir gün gecəyarı Çapar idarədən gəlib eyvana qalxmış, yuyunub stol dalına keçəndən sonra qızından çay istəmiş, bir müddət fikirli halda həyət-bacasına göz gəzdirmiş, qüssəli-qüssəli gülümsünmüşdü.

– Doğrudan da, bu dünyada vəzifədən bivəfa şey yoxdur, bala! Qapı-bacadan yaxşı muğayat ol!

Bu sözlərdən ürəyinə nə isə daman Lətifə, öyrənmişdi ki, həmin gecə hesabat-seçki iclasında onun atasına səs verməmişlər. Partbilet məsələsindən sonra Lətifə qəribə bir sadəlövlüklə nəyəsə

ümid bəsləyirdi. Bu xəbərdən sonra isə Lətifə bərk kədərləndi. Artıq o, “sədr qızı kimi əli belində gəzib” kefi istəyəni eləyə bilməyəcəkdi. İndi hamı onun üstünə ayaq alacaq, yeni sədr atı qapıya sürüb təklif edəcəkdi ki: “İşə çıx!” Tərs kimi, “Engels”in təzə idarə heyəti sədrliyi Yunus kişiyə tapşırdı. Dünənəcən papağının qulaqları atıla-atıla gəzən, arabaçılıq eləyən Qara Yunus kişinin təklifilə yemçilik briqadiri oldu. Sən bir dünyanın işinə bax ki, Sərkərlilərin İsməti də saçının çal vaxtında idarə heyətinə üzv seçildi. Bütün adamlar, hamıdan artıq isə Zöhrə iynə olub Lətifənin gözünə batırdı. O, hiss edirdi ki, hələ atasının sədr olduğu vaxtlarda belə, ona rahatlıq verməyib tez-tez söz atan gah “nəftalin iyi verirsən”, – deyə sataşan, gah “hasarın içində nə yaman ennənibsən, Lətifə xanım”, – deyib yığıncaqlarda, iclaslarda zəhlətökən bu adamlar indi, iş başına mindikləri bir vaxtda onu daha çox narahat edəcək, yeyib-içdiyini burnundan tökəcəklər. Hələ sən yamacın hesablayıcı Veysəlinə bax ki, komsomol təşkilatçısı seçilən kimi Sarı boyda adamı mədəni töylənin bir küncündə faner taxta ilə kəsib düzəltdiyi kabinetinə, hökmlü bir adam kimi öz hüzuruna çağırtdırmışdı. Sarı, əlbəttə, onun ayağına getməmişdi. Onda Veysəl durub özü Sarının yanına gəlmiş, tez-tez eynəyini yuxarı itələyə-itələyə quru bir kitab dili ilə sözə başlayıb demişdi ki: “Məndən əvvəlki komsorq bəzi səbəblərə görə sizə hörmət edib, siz də yolunuzdan azmısınız! Hamıya yuxarıdan aşağı baxırsınız, işçiləri həvəsləndirmək əvəzinə ruhdan salırsınız. Özünüz də son vaxtlar işdən soyumusunuz. Belə yaramaz, yoldaş Eynalov. Mən sizinlə əməlli-başlı danışacam!” – deyə o, ciddi bir tövrlə dönüb getmişdi. Yaxınlıqda olan Yunus kişi bu mənzərəyə tamaşa edib, birdən-birə əllərilə qarnını tutaraq gülmüşdü, sonra Zöhrəyə demişdi ki: “Bu gədəni nahaq yerəcə işə qoşdunuz, qorxuram getdikcə qurulaşıb gözəl-göyçək xasiyyətini yadırğaya”. “Bizim Veysəl kiminlə nə cür danışmağı bilir”, – deyə Zöhrə fəaliyyətə çox qızğın başlamış komsomol təşkilatçısını müdafiə etmişdi. Ümumiyyətlə, elə onlar hamısı bir-birinin tərəfini saxlayır. Yoxsa Lətifənin dağ boyda atasını stol dalından itələyib çıxarmağa təkcə Bığlının gücü çatardımı? Bəli, onlar nə qədər ağzıbirdilər! Bu ağzıbirliklə onlar Şahgəldiyevanın, vaxtilə Çaparın dediyi kimi qılıncının dalı da, qabağı da kəsən bir adamın taxtını döndərdilər. Deyirlər ki, onlar ferma müdiri seçmək üçün çağırılmış iclasda Şahnabad Şahgəldiyevanın

inzibatçılıq etməsi haqqında rayon partiya komitəsinə məlumat vermişlər. Təkcə "Engels"də deyil, rayonun başqa kolxozlarında da partiyanın xətt-hərəkətinə zidd getdiyi üçün Şahgəldiyeva vəzifədən azad edilmişdi. Bəli, bu ağzıbir adamlar belə-belə işlər görürdülər! Əvvəllər Lətifə bu adamlarla necə də həkkə ilə danışar, onları iynələməkdən həzz alardı. Onların ən acı sözləri belə Lətifənin vecinə gəlməzdi. Lakin indi neçə vaxtdı ki, bu adamlar Lətifənin nəzərində dəyişib, sanki vahiməli bir don geymişdilər. Lətifə hiss edirdi ki, onlardan ən kiçiyinin, hesablayıcı Veysəlin belə, nəinki acı sözünü, adi bir kəlməsini də qulaqardına verib, ona etinasız yanaşa bilməz. Lətifə görürdü ki, bu adamların sözündən çıxanların işi düz gətirmir, atası Çapar kimi, Şahnabad Şahgəldiyeva kimi yaman günə düşürlər. Bu adamlardan özünü qorumaq üçün Lətifəyə bir söykənəcək, bir dayaq lazım idi. O, kolxoz sədri qızı olmaqdan çıxıb zootexnik arvadı kimi şöhrətlənmişdir. Lakin birdən bu da baş tutmazsa, Lətifə nə edər? Axı, son vaxtlar Sarı onun heç üzünə baxmaq belə istəmirdi. Bir dəfə atası sözarası demişdi ki, Sarı hətta "Engels"dən getmək kimi, Lətifəni dəhşətə gətirən bir fikrə düşmüşdür. Doğrudur, Çapar onu da demişdi ki, Sarı artıq bu fikrindən daşınmışdır. Amma Lətifənin ürəyində bir tıqqıltı qalmışdı. Elə buna görə də o, xalçanı çiyninə atıb veyillənə-veyillənə evə qayıdanda, cökə ağaclarının arasilə uzanan cığıra düşər-düşməz, Sarını göy ürgənin belində, qucağı çamadanlı gördükdə elə bil sinəsinə yumruqla vurub saxladılar.

Artıq şər qarışmışdı. On-on beş addımlıqda adamı güclə tanımaq olurdu. Lakin Lətifə Sarını daha aralıdan tanıdı.

– Sarı!

Sarı bu zil səsdən diksinib əvvəlcə qeyri-iradi olaraq atın cilovunu çəkdi, amma elə o dəqiqə qolunu boşaltdı. O, qəsdən günü axşam eləmişdi ki, toranda yola çıxsın, gözə dəyməsin. Lakin bəxtin qaralığına bax ki, onun ən çox qorxduğu hadisə baş verdi.

Sarı elə zənn edirdi ki, bu səfər onun bütün gələcək taleyini həll edəcək. O, özünü rayona salıb başqa bir kolxoza təyinnamə alacaq, həm onu tələyə salmış Gecədələn nəvəsindən aralanacaq, həm də öz idealı uğrunda yenidən işə girişəcək. Lakin o, haradan biləydi ki, neçə vaxtdan bəri beynində dəfələrlə təkrar edib möhkəmləndirdiyi qərarı məhv edə biləcək o qorxunc maneə bu tezliklə qarşıya çıxacaq?! Yox, yox, qoy Lətifə nə qədər çağırır-çağırsın, ona hay verən olmayacaq!

Atlının özünü eşitməməzliyə vurması Lətifəni daha da təşvişə saldı; yəqin ki, atası ona düz deməmişdi; Sarı heç də fikrindən daşınmamışdı.

Lətifə təkrar çağırdı, xalçanı cığırın içinə atdı, ağacın budağına ilişib qalan kalağayısına fikir vermədən yüyürdü. Məsələnin mürəkkəbləşdiyini görən Sarı əlindəki nazik şivi ürgənin sağrısına çəkdi.

Qəribə bir mənzərə əmələ gəlmişdi: saçları dağılıb üz-gözünə, boyun-boğazına tökülmüş qız, dəhşətli bir hadisə baş vermiş kimi, cin səsilə qışqıra-qışqıra, donunun ətəyi qılçalarına dolaşa-dolaşa, geniş, tozlu yolla yüyürür, atlı isə kar olmuş kimi, elə bil ki, heç nə eşitmir, bürkülü Aran düzündə sahələri dolaşmaqdan sümükləri çıxmış yorğun ürgənin qabırğalarını təpikləyir, onun yerişini artırmağa çalışırdı. Həyətlərdən, qapılardan boylanıb bu qəribə mənzərəni seyr edən adamlar heyrətlə çiyinlərini çəkirdilər. Vaxtilə "biz adam tovlaşdırıb bəndə salmağa ehtiyacı olanlardan deyilik", – deyib çiyinlərini oynadaraq, gözlərini süzdürən "qara qız"la Sarının əhvalatından az-çox xəbəri olanlar isə, acı-acı gülərək, mənalı-mənalı başlarını tərpədib, nifrətlə üzlərini döndərirdilər; onlar nə səbəbdənsə zootexnikin qızdan acıq elədiyini, yaxud Gecədələnoğlunun ailəsində bu dikbaş, lovğa zootexnikin xətrinə dəyən bir iş olduğunu güman edirdilər.

Başqa vaxt olsaydı Sarı kəndin ortasında hamının diqqətini cəlb edən belə bir həngaməyə yol verməzdi. Lakin indi ətrafdan boylanan adamların nə kimi bir fikrə düşmələrinin onun üçün heç bir əhəmiyyəti yox idi. Qoy adamlar nə fikirləşirlər-fikirləşsinlər, nə danışırlar-danışsınlar, Sarı "Engels"dən gedir və artıq onu heç bir pis fikir, ya rəy maraqlandırmır

Kənddən çıxıb körpüyə yetişəndə arxadan səs kəsildi. Sarı əlinin arxasilə alnını basmış soyuq təri silib dərindən bir nəfəs aldı və körpünün o tərəfində qaralan çiyni belli adamlara diqqət yetirmək istəyirdi ki, birdən, sürücüsündən də betər tərləmiş göy ürgə yoldan çıxıb özünü çaya saldı. Sarı cilovu dartıb yolundan qalmamaq istədisə də, susuz at fınxıraraq dəmir gəmi çeynəyə-çeynəyə çaya girib, köpüklü dodaqlarını suya yapışdırdı və bu inadı üstündə bir az sonra möhkəmcə bir təpik yedi. Çünki o, su içib qurtarana qədər Lətifə arxadan gəlib çatdı.

Qız güclə nəfəs alırdı. Boğulmuş kimi, sifəti qapqara kəsilmişdi. Başqa birisi bəlkə də bu qədər yolu yüyürüb gələ bilməz, təngnəfəs olub yarı yolda qalardı. Lətifə isə gəlmişdi və əgər Sarıda özündən başqa özgələrini də hiss etmək, duymaq qabiliyyəti vardısa, gərək o, Lətifənin bu hərəkətinə soyuqqanlı baxmayıb, haman bu çayın sahilində, yaşıl otlar arasında keçirdiyi gecəni yada sala idi.

Ancaq o, üzəngidən qoşaəlli yapışaraq başını atın böyrünə dirəyib, çiyinləri titrəyə-titrəyə hönkürən qıza qorxunc, dəhşətli bir şeyə baxan adam kimi baxırdı. Lətifə dizə qədər suyun içində idi. Donun ətəyi islanıb budlarına yapışmışdı. Çiyinlərindən, kürəyindən üzə vurmuş tərdən onun qoftası da su içində idi.

Göy ürgə başını qaldırıb, dodaqlarının arasından su süzülə-süzülə geri çəkildi. Üzəngini əldən qoymayan Lətifə onunla bərabər süründü və yalnız quruya çıxandan sonra başını qaldırdı, islanıb bir-birinə yapışmış kirpikləri arasından Sarıya baxdı. Sarı bu baxışdan öz haqqını tələb edən adama məxsus bir ifadə oxudu. Oxudu və birdən sir-sifəti elə eybəcərləşdi ki, elə bil yüz yerdən bədəninə iynə batırdılar: "Nə var, özün çağırdın, mən də... İndi ayağıma cidar olmayacaqsan ki!" – deyə qışqırmaq, atın başını döndərib uzaqlaşmaq, bu tələbedici baxışları bir daha görməmək istədi. Lakin artıq nəfəsini dərib özünü doğrultmuş qızın "düş atdan!" deyə onun şalvarından tutub çəkişdirməsi Sarını özünə gətirdi. O, Lətifədən hay-küylə yaxa qurtara bilməyəcəyini, əksinə, körpü üstündəki adamları da buraya töküb, bəlkə daha böyük həngamə qoparacağını dərk etdi, zorla qımışmağa çalışdı:

– Hara düşüm, ay qız? Niyə düşüm? Hələ bir mənə de görüm bu nə sir-sifətdir? Nə olub sənə? – deyə o, özünü də təəccübləndirən bir məharətlə heç nədən xəbəri olmayan bir adam rolu oynamağa başladı. Bu dəhşətli rolu ilk dəfə oynamağa başladığına baxmayaraq, daha da usta tərpənib təşvişlə: – Yoxsa evdə-eşikdə bir şey olub? – dedi. – Tez ol danış görüm nə var?

Lətifə sadəlövh qız deyildi. Yeri gəldikdə o özü də rol oynamağı bacarırdı. Lakin indi Sarının təşvişi elə təbii çıxdı ki, istər-istəməz Lətifənin çöhrəsi bir qədər aydınlaşdı. Ancaq o, şübhədən azad ola bilmədi.

– Hara gedirsən?
– Hara gedəcəm ki? İşimin-gücümün dalınca.
– Bəs çağıranda niyə cavab vermirsən?
– Kim çağırırdı ki, məni?
– Bəs mən səhərdən kəndi başıma götürməmişəm?!
– Canım üçün eşitməmişəm, Lətifə.
– Yalan deyirsən!
– Yalan deyirəmsə...
– Arvad təkin and içmə!
– Axı sən mənimlə niyə belə danışırsan, ay qız?! Nə olub, bir de, biz də bilək də!
– Nə olduğunu özün çox gözəl bilirsən. Qaçırsan sən!
– Qaçıram?
Sarı elə sərbəstcə güldü ki, körpü üstündə ayaq saxlayıb maraqla bu mənzərəyə baxan və yavaş-yavaş aşağı enən kolxozçular onun gülüşünün təbii olduğuna şübhə etmədilər.
– Hara qaçıram, ay dəli? Niyə qaçırammış ki? Bay sənin! Gör bir nə gülməli söz danışırsan... Ay qız, yoxsa dədənlə bir az söhbətimiz olub, onu eşidibsən? Yeri, ağlını başına yığ, yeri! Kənara dur, tələsirəm!
Lətifə az qala inanmışdı. Lakin birdən necə oldusa, onun bayaqdan bəri üzəngidən tutan əlləri qəfildən yəhərin qaşında duran uzunsov taxta çamadanın qulpundan yapışdı.
– Bəs bu nədir?!
Qəzəbindən artıq Sarının bütün bədəni titrəyirdi. Doğrudan da o, bu çamadanı niyə götürmüşdü? Onsuz da, bütün şeyləri evdə qalmamışdı? Üç-dörd dəst dəyişək tutan bu çamadanı da götürməsəydi, başqa kolxozda yerini möhkəmlədənədək dözə bilməzdimi? İndi Sarı nə bəhanə gətirsin?
O, bir əlilə cilovu tərpətdi, o biri əlilə qızın məngənə kimi sıxılmış barmaqlarını çamadanın qulpundan qoparmağa çalışdı. Eyni zamanda, ətrafdan bu mənzərəyə heyrətlə tamaşa edən adamlara baxıb, həyəcandan haçalanan boğuq bir səslə dedi:
– Burax! Burax! Camaatı bizə güldürmə! – İşdən qayıdan yeni-yeni kolxozçuların körpüdən bəri endiklərini gördükdə isə o, artıq nəyin hesabına olursa-olsun bu biabırçılıqdan qurtarmağa çalışdı. – Burax, ləçər! – deyə o qəzəblə pıçıldayıb, qızın barmaqlarının dəri-

sini didməyə başladı. – Səninlə deyiləmmi, həyasız! Bu nə biabırçılıqdır açırsan? Burax! Əclaf qızı!

Bayaq dil-dil ötən Lətifə sanki birdən-birə lal olmuşdu. İndi o danışmaq əvəzinə, töyşüdükcə boğazını tutmuş qəhərdən xırıldayırdı. Qızın çamadandan üzülən əlləri titrəyə-titrəyə gah Sarının ətəyini, gah kəmərini, gah da şalvarını qamarlayırdı.

Camaat bu mənzərəyə soyuqqanlı baxa bilmədi. Ağsaqqal bir kişi irəli yeriyib əlini yuxarı qaldırdı. Lakin bu an elə gözlənilməz bir hadisə baş verdi ki, ağsaqqal adamın işə qarışması lazım gəlmədi. Adi bir təsadüf bu iki gəncin mübahisəsinə əbədi olaraq son qoydu: bayaqdan narahatlıqla yerində dingildəyən göy ürgə qəfildən arxasını Lətifəyə çevirib dəmir nallarını onun döşlərinin altına yapışdırdı. Boğuq bir tappıltı hamını diksindirdi. Lətifə sanki təəccüblə içini çəkib yerə sərildi. Göy ürgə isə elə bil qanad açıb, bir göz qırpımında çayı keçdi və tezliklə qaranlıqda əriyib yox oldu.

Adamlar hər tərəfdən yüyürüşüb Lətifəni dövrəyə aldılar. Buradakının hamısı kişi olduğundan, Lətifənin qoftasının yaxasını açıb qoşa nal dəyən yerin necə içəriyə batdığına heç kəs baxmadı. Bellərin sapından və paltar-palazdan xərək qayırıb onu evə apardılar...

...Meyit həyətə gətiriləndən sonra Gecədələnoğlunun evinə ikinci mərtəbədən Çaparın telefon danışığı eşidilirdi:

– Alo, alo! Raykom katibinin – Çəpər müəllimin kabinetini verin!

Bu danışığın nəticəsində Sarını MTS-in həyətində həbs edib, səhərisi Sərkərliyə istintaqa gətirdilər. “Qruzovik”in üstündəki iki milisionerlə Sarı, kabinədən ağ saçlı, dəyirmi sifətli müstəntiq düşəndə kolxoz idarəsinin qabağına xeyli adam toplaşmışdı. Sarı milisionerlərə Zöhrəni göstərib:

– Mənim o qıza sözüm var, – dedi və milisionerlərin yumşaqlığından istifadə edib qıza yaxınlaşdı, başını sinəsindən qaldırmadan zəif, yorğun səslə dedi: – Ədalətsizlik olan yerdə şəxsi xoşbəxtlik olmaz. Sən məni təqsirkar bilmə, Zöhrə. – Bir az susub, gözləri ilə Qaranı göstərdi. – O sənə vurğundur, – dedi. Sonra yenə başını köksünə endirib gözlənilmədən: – Ona ərə get. Vurğunluğuynan səni az-çox xoşbəxt eləyər, – dedi.

Zöhrə idarənin qapısı örtülənə qədər Sarının və milisionerlərin ardınca baxıb, sonra fikirli-fikirli asta addımlarla fermaya getdi.

Bütün günü Sarının sözləri qulaqlarından getmədi. Axşamüstü evə qayıdanda yolda araba tappıltıları və həzin, qəmli mahnı eşitdi. Özü də hiss etmədən, elə bil taleyin gərdişi ilə dayanıb arabanı gözlədi, araba dayananda isə sakitcə, qəmli-qəmli:

– Toy elə, – dedi. – Kərim dayının ili çıxanda toy elə, ağır-üzürlüyü üstümüzdən götür, – dedi.

Qara, eşitdiyinə inanmırmış kimi, bir xeyli susub, sonra birdən arabanın qolu üstündə üzüüstə yerə düşdü, Zöhrənin "basanojka"-larda çılpaq ayaqlarını öpüşlərə qərq etdi. Ayağa qalxanda gözlərindən sel kimi yaş açılmışdı. Dodaqları titrəyə-titrəyə "Dan ulduzu" mahnısını zümzümə edirdi. Zöhrə də sarsıntılı halda, xoşbəxtlikdən axan göz yaşlarının və mahnının insanı necə gözəlləşdirdiyini lap yaxından görürdü...

ROMAN
POVEST
**HEKAYƏ**
MƏQALƏ

# İNTERVÜ

## ANADİL ÖTƏN YERDƏ

### 1

Gəmi qayasının zirvəsində dayanıb Kürün sağ sahilindəki geniş sahələri seyr etməkdə olan İsmayıl, sol sahildən ucalan nagəhani səsi eşidib çevrildi. Sahilin yüz metrliyində bir "Qaz" maşını dayanmışdı. Kim isə maşından düşdü, sağ əlini gözünün üstə qoyub sahili diqqətlə gözdən keçirdi və iti addımlarla irəlilədi. Meşənin pencəkli, orta boylu, enli kürəkli bir oğlan maşından sıçrayıb onun arxasınca yüyürürdü.

– Yoldaş Hüseynov, maşın sahildəmi qalacaqdır?

Hərbi paltarda olan Hüseynov Kürün coşğun sinəsinə baxa-baxa cavab verdi:

– Sən maşınla "Pravda" kolxozuna qayıdacaqsan... – O, nə isə əlavə bir söz demək istədi, amma nədənsə susdu bir qədər düşündü, yenidən əlavə etdi: – Muğanlı kəndindən Saxundurun vadisinə gedən yolu tanıyırsanmı?

– Bəli.

– Elə isə maşını birbaş kəndə sürərsən... Niyazi kolxoz idarəsində səni gözləyir. Onu da götürüb iş üstünə gedərsən.

Nurəddin sağ əlini gicgahına aparıb: "Baş üstə" – deyə cavab verdi və aralanmaq istərkən Hüseynov gülümsünərək onun qolundan tutdu:

– Bura bax, tələsmə. Hələ burada işin çoxdur. – Sonra şəhadət barmağı ilə Kürə işarə edərək, bir qədər zarafatyana dedi: – Məni dalğaların qoynunda tək buraxmaq istəyirsən? Qayığın ipini aç, o taya keçək. Qayıdandan sonra dediklərimə əməl edərsən.

Nurəddin danışmadan ləpələr üzərində yırğalanan xırdaca qayığa tərəf getdi. O, qayığın bərabərində aşağı əyilib, quma basdırılmış iri mıxçadan qayığın kəndirini açmağa başladı. Arxa tərəfdən ona yaxınlaşan Hüseynov:

– Kür yaman hirslənibdir, – dedi.

Nurəddin yaş kəndiri sağ əlində tutaraq:

– Elədir, yoldaş Hüseynov, yaz qabağı hirslənmək çayın köhnə adətidir, – dedi.

– Qoy hirslənsin, istədiyi qədər coşsun. Nə qədər kükrəsə bir o qədər bizim üçün xeyirlidir. Əgər su həmişə bu qaydada axsa, çəkəcəyimiz kanalın sinəsi daima köpüklü olar.

Nurəddin kəndiri dəstələyib qoluna keçirdi, bir sıçrayışda qayıqda oldu.

– Yoldaş Hüseynov, kürəyi siz götürün, çəpləməyi mən çox sevirəm, – deyə Nurəddin onun arxasınca qayığa atılan Hüseynovun qolundan tutub, müvazinət saxlamaq üçün kömək etdi. Sonra qarağacdan qayrılmış uzun çəpi götürüb suya saldı. Onun bir təkanı ilə qayıq şütüyüb, sahildən aralandı və Kürün bulanıq səthilə qarşıdakı sahilə doğru irəliləməyə başladı. Hüseynov kiçik kürəyini dodağından süzülüb qayığın burnunun isladan sıx damcılar arasından, köpüklü ləpələrin üzərində atılıb-düşən çör-çöp qırıntılarına baxabaxa nə isə düşünürdü.

O, bir qədər bu vəziyyətdə qaldı, sonra başını qaldırıb, yenicə qızarmaqda olan üfüqü gözdən keçirdi, dönüb Qarayazı meşəsinə baxdı, sonra üzünü Nurəddinə tutub dedi:

– Mən həmişə bu yerləri görərkən buradan keçib cəbhəyə yola düşdüyüm günü xatırlayıram. Onda da belə bir aprel səhəri idi. Ətraf səssiz, Kür coşğun, mən də yalqız... Öz-özümə düşünürdüm ki, görəsən bir də bu yerləri görəcəyəmmi? İndi isə budur, o vaxt keçdiyim yolu bir də keçirəm.

Hüseynovun cəbhəyə düşdüyü gündən indiyə kimi tam altı il keçirdi. O, bu müddət ərzində Taqanroqdan başlamış Berlinə kimi uzun döyüş yolu keçmişdi. 1945-ci ilin yayında öz doğma vətəninə tə-

sərrüfat idarəsinin direktorluğu vəzifəsinə təyin edilmişdi. Hüseynov Böyük Vətən müharibəsində qəhrəmanlıqla döyüşdüyü kimi əmək cəbhəsində də var qüvvəsilə çalışacağına söz verib, işə başlamışdı.

Qayıq sahilə yaxınlaşmaqda idi. İsmayıl onları tanımışdı. O, şinelinin ətəyini dəstələyərək, iki metr aşağıdan başlayan yarğanın qaşına atıldı. Yarğanın üstü ilə bir qədər sola getdi. Burada yarğan alçalır və qayığın dayanacağı yerə tərəf kiçik bir cığır uzanırdı. O, həmin cığırla aşağıya tərəf yüyürdü.

Hüseynov kəndiri yenidən dəstələyib:

– Tut, – deyə İsmayıla tərəf atdı.

İsmayıl kəndiri tutub, var qüvvəsilə qayığı çəkməyə başladı. Qayıq sahilin narın qumuna oturub dayandı.

Hüseynov İsmayılı gülər üzlə qarşıladı:

– Sabahın xeyir, Kəloğlan! Lap vaxtında gəlibsən.

İsmayıl, Hüseynovun cəbhə yoldaşıdır. Hüseynov "Kəloğlan" ləqəbini də ona cəbhədə vermişdi. Hüseynovun komissar olduğu dvizionda İsmayıl top komandiri idi. Onlar 1942-ci ilin 9 mayına kimi keçdikləri döyüş yollarında çiyin-çiyinə vuruşmuş, düşməni öz mağarasında məhv etdikdən sonra yenidən vətənə qayıtmışdılar. Hüseynov Meşə Təsərrüfat İdarəsinin direktorluğuna təyin edildikdən sonra İsmayılı öz yanına aparıb, idarənin gənclərdən ibarət işçi briqadasının briqadirliyini ona tapşırmışdı. İsmayıl öz direktorunun hər tapşırığını bir əsgər kimi dinləyir sonra isə əmrin icrası üçün var qüvvəsilə çalışırdı. Bu dəfə də o, Hüseynovun verdiyi tapşırığı vaxtında həyata keçirdiyindən uşaq kimi sevinirdi.

Onlar qayanın boynuna qalxdılar. Sahildən bir kilometr aralı, Qazaxla Tiflis arasında uzanan şose yolunun ətrafında yerləşmiş Şıxlı kəndi görünürdü. İlan kimi qıvrılaraq, sahil boyu uzanan şose yolunun səthi yenicə çıxmaqda olan aprel günəşinin ilkin şüaları altında gümüş kimi parıldayırdı. Kəndin üzərinə çökmüş çiskin, günəş yüksəldikcə seyrəkləşir, hər şey tam aydınlığı ilə görünməyə başlayırdı. Bir az keçmiş çiyinlərində bel, balta, külüng tutmuş kolxozçular bir-bir kəndin kənarındakı xırdaca təpənin üstünə toplaşdılar. Elə bu vaxt Hüeynov İsmayıla deyirdi:

– Sağ ol, Kəloğlan, sənin fədakarlığını heç bir vaxt unutmayacağam.

İsmayıl isə raport verirmiş kimi bir qədər ucadan deyirdi:

– Dünən siz məni buraya göndərəndən sonra birinci dəfə kolxoz sədrilə rastlaşdım. Ondan xahiş etdim ki, bir-iki günlüyə kolxozçular bizim kanal çəkilişinə kömək etsinlər. Kəndin ağsaqqal kolxozçularından Səməd dayı da oradaydı. Hər ikisi razılıq verdi: “20 nəfər kolxozçu işin sonuna kimi sizə kömək edərlər” – dedilər. Vəssəlam. Mən də ki, səhərə kimi Səməd dayının evində dincəldim. Daha burada bir fədakarlıq görmürəm ki, siz mənə deyirsiniz?!

Kolxozçular sahilə tərəf axışırdılar. Yenicə yaz libası geymiş qızların kəlağayıları səhər mehinin təsirilə dalğalanır, işləməkdən gümüşü rəng almış baltalar, bellər və külünglər günəşin ziyası altında parıldayırdı. Şıxlı kəndinin bu gənc kolxozçuları içərisində dünya görmüş, qoca kolxozçular da vardı. Onlar da illərdən bəri su üzü görməmiş hektarlarla torpağa yenidən can vermək üçün tələsirdilər.

Kolxozçular Kürün sol sahilinə keçdikdən sonra qarayazı meşəsinin dərinliklərinə tərəf irəliləyirdilər. Bu meşə cənubdan Kür çayı, şimaldan isə dəmir yolu ilə əhatə olunmuşdur. Bəzi yerlərdə meşə həddindən çox sıx, bəzi yerlərdə isə çox seyrəkdir. Belə seyrək sahələr və talalar ətraf kolxozçuların istifadəsinə verilmişdir. Meşənin ən gözəl və təbiətcə xoş hissəsi Şıxlı kəndinin əkin sahələri olan yerlərdir.

Kolxozçular bu yerlərə meşənin içərilərinə doğru irəliləyirdilər. Başı ərşə ucalan iri gövdəli palıdların yenicə açılmış yarpaqları yenicə açılmış yarpaqları pıçıldaşır, sanki yeni həyatın gənc qurucularını salamlayırdı.

Gənclərin gərayıları ilə cəh-cəh vuran quşların ürək açan nəğmələri bir-birinə qarışaraq, ətrafa yayılırdı.

Hüseynov, İsmayıl və bir neçə də ağsaqqal kolxozçu kanal haqqında söhbət edə-edə irəliləyirdilər. Hüseynov özü ilə yanaşı yeriyən, aprel ayı olmasına baxmayaraq qoyun dərisindən tikilmiş qalın kürk geymiş, əlli yaşlı, qarayaqız, alçaqboylu kolxozçuya müraciətlə:

– Səməd dayı, ağlın nə kəsir, kanalı mayın birinə kimi çəkib qurtara biləcəyikmi? – deyə soruşdu.

Səməd dayı, şirmayı dəstəli çubuğunu dodaqlarından aralayıb, qaşlarını çatdı, bir qədər düşündükdən sonra cavab verdi:

– Oğlum, eşitdiyimə görə iş çoxdur, ancaq gücümüz də vardır. Ümid edirəm ki, qurtara bilərik. – O, bir qədər fasilə verdikdən

sonra: – O biri kolxozçularla da danışıbsanmı? – deyə soruşdu. – Hər halda onlardan da kömək alsan pis olmaz.

– Keçən axşam, işdən sonra "Qızıl ordu" kolxozuna getmişdim. "Pravda" kolxozunun sədri də ordaydı. Mən söz açmamışdan onlar pambıq səpininə başladıqlarını xəbər verdilər. Daha bir söz deyə bilmədim. Eybi yoxdur. Öz idarəmizin 60 nəfər gənclərdən ibarət işçi briqadası var. Onlardan 25 nəfəri pitomnik əkini ilə, 35 nəfəri isə kanal qazmaqla məşğul olacaqlar.

Səməd dayı təəccüblə soruşdu:

– Bəs keçən axşam İsmayıl mənə dedi ki, pitomnik əkinini martın 20-də qurtarmışıq.

Bayaqdan bəri sükutla yeriyən İsmayıl söhbətə qarışdı:

– Elədir ki var, yoldaş Hüseynov, siz hansı əkindən danışırsınız?

– Doğrudur. Bu ilki pitomnik əkini planını respublikada birinci olaraq bizim idarə ödəmişdir. Amma mən yeni bir fikrə düşmüşəm. Biz kanalın suvara biləcəyi sahəni bu il istifadəsiz buraxmasaq böyük bir iş görmüş olaraq. Bir təsəvvür edin: əgər meşənin ortasındakı talanı gələcək ilin hesabına əksək təxminən 50 minə qədər şitil yetişdirmiş olacağıq. Bunun bir neçə cəhətdən əhəmiyyəti var: həm gələcək payızda Tavuz meşə idarəsinə 10 minə qədər tingi verə bilərik, həm meşəmizin seyrək yerlərində, talalarında yeni meşəliklər salarıq, həm də vaxtından qabaq meşə zolaqları əkməyə başlayırıq. Bir sözlə, öhdəmizə düşən beşillik planın 4 ildə yerinə yetirilməsi üçün zəmin hazırlamış olarıq.

Səməd dayı kürkünün yaxasını aça-aça:

– Demək, sənin dediklərindən belə çıxır ki, hələ kanalı çəkməmişdən onun suvaracağı sahədə toxumu səpmək istəyirsiniz. Eləmi? – deyə soruşdu.

– Elədir.

– Belə de... Mən də deyirəm ki, bəs bizim meşə idarəsinin direktoru nə üçün soruşur ki, kanalı mayın birinə kimi çəkib qurtara biləcəyikmi?

O, adəti üzrə çubuğunu dodaqlarına aparıb qaşlarını çatdı, bir qədər düşündükdən sonra əlavə etdi:

– Arzun çox böyükdür, oğlum.

Hüseynov gülümsünərək, başı ilə Səməd dayının sözlərini təsdiq etdi. Lakin İsmayılın bir sualı onun öz qarşısına qoyduğu məqsədin nə qədər məsuliyyətli olduğunu bir daha xatırlatdı.

– Yoldaş direktor, bəlkə su vaxtında çatmadı, səpəcəyimiz toxum çürüyüb əldən çıxmazmı?

Hüseynov İsmayıla çəpəki bir nəzər fırladaraq dedi:

– Əgər mən düşündüklərim baş tutarsa çürüməz.

– Yoldaş Hüseynov, mənim borcumdur ki, sizin dediklərinizə əməl edim. Lakin bu kanalın çəkilişində iş o qədər də asan deyil.

– Doğrudur, iş çətindir. Lakin bu çətinliyin öhdəsindən gəlməliyik. Bildinizmi, Kəloğlan?

İsmayılı qorxudan işin çətinliyi deyildi. O düşünürdü ki, “toxum səpilər, su vaxtında çatmaz, çürüyüb əldən çıxar, məsuliyyət də onun cəbhə yoldaşının boynunda qalar”. Onu qorxudan cəhət də elə burası idi. Lakin o, Hüseynovun inadkarlığını hələ orduda ikən hiss etmişdi. Bilirdi ki, o, qarşısına qoyduğu hər hansı bir məqsədi yerinə yetirməmiş geri çəkilən adam deyil.

Ona görə də susdu. Başını aşağı salaraq, kanalın çəkilməsi nəticəsində əldə ediləcək müvəffəqiyyətlər haqqında düşünə-düşünə irəlilədi.

Bu vaxt kolxozçular Saxundurun sahilinə çatıb bir yerə toplaşmışdılar. Yəqin ki, gedəcəkləri istiqaməti bilmirdilər. Səməd dayı onların toplaşdıqlarını görüb bir qədər hündürdən:

– Bala, niyə dayanıbsınız? Yuxarı gedin, Saxundurun başına, – deyə əlilə sol tərəfi göstərdi.

Gənclər çay boyu ilə yuxarıya tərəf getdilər. Saxundur, Kürün bir qoludur. Bu qısa, lakin gur çay Qarayazı meşəsinin qərbində Kürdən ayrılır, meşənin dərinliklərinə doğru axır. Təxminən 4-5 kilometr axdıqdan sonra yenidən burulub Kürə tökülür. Saxundur, başlanğıcından 2 kilometr aşağıda, ətrafı sıx meşəlik olan bir yerdə 20 metrə qədər enliləşir, suyu olduqca iti axır. Yaz fəslində o biri sahilə keçmək istəyən atlılar bu çay haqqında qədimlərdən deyilmiş “Kürün balası da Kür olar” sözlərini istər-istəməz xatırlayırlar. Kolxozçular çayın enli yerinə çatıb dayandılar. İş buradan başlanacaqdı. Elə bu vaxt Ağstafa Meşə Təsərrüfat İdarəsinin mühəndisi Niyazi öz kəhər atının üstündə qalınlıqdan çıxdı. O, atdan düşüb kolxozçularla görüşdükdən sonra gülər üzlə Hüseynova yaxın-

laşaraq salam verdi. O, ortaboylu, buğdayısifətli, daima qaynar gözlərindən zarafat yağan bir adamdır. İlk baxışda ona otuzdan artıq yaş vermək olmaz. Diqqətlə nəzər saldıqda isə gicgahlarında arabir ağarmış saçlar görünür. Sadədir. Bunun əksinə olaraq bəzən, görmüş olduğu hər hansı bir iş haqqında o qədər ciddi və odlu danışır ki, bəzi hallarda onu tanımayanlar öz aralarında "nə lovğa adamdır" – deyə danışırlar. Həqiqətdə isə bu xüsusiyyət Niyazidə yoxdur.

Hüseynov ondan:

– Bəs niyə maşınla gəlmədin? – deyə soruşduqda o:

– Sənin maşınından mənim kəhər atım meşədə daha əlverişlidir, – deyə cavab verdi. – Maşının kəndə gec gələcəyini hiss edib, kəhər atın çəkisini bərkitdim. Nurəddinlə yolda rastlaşdıq. Onu da kəndə mişar dalınca göndərdim, bu saat gəlib çıxar.

– Çox gözəl. Layihəni gətirmisənmi? Camaatı işlə tanış etmək lazımdır.

– Mən onları layihəsiz də işlə tanış edə bilərəm.

Hüseynov üzünü kolxozçulara tutub, bir qədər ucadan dedi:

– Mühəndis sizi işlə tanış edəcəkdir.

Hər tərəfdən "lazımdır", "vacibdir" səsləri eşidildi.

Niyazi sözə başladı:

– Yoldaşlar, çayın bu hissəsində suyun səthi yerin səthindən 2 metr alçaqdır. Əgər Saxundurun qabağı lazımi göstərişlərə görə kəsilsə, su 40 sm-ə qədər şişə bilər. Bu halda kanalın başlanğıcında dərinlik 2 metrdən çox olmayacaqdır. Mənim layihəmdə suyun qarşısını dayandırmaq üçün çəkiləcək bəndin hündürlüyü 3 metr, eni 1, uzunluğu isə 20 metr göstərilmişdir. Belə olduqda su bəndi dağıda bilməz. Bəndin üç yerindən su keçidi qoyulacaqdır. Su azalarkən bu keçidlərə iri şalmanlar tullamaqla axının qarşısını asanlıqla almaq olar. Kanalın uzunluğu Saxundurun üç kilometrliyindəki işçi düşərgəsi yanındakı böyük talada əkəcəyimiz pitomnikin sahəsinə qədər olacaqdır. İndi, birinci növbədə bizim vəzifəmiz kanalın çəkilməsinə mane olan bəzi pöhrənlik və iri ağacları qırıb təmizləməkdən ibarətdir.

Kolxozçulardan biri Niyaziyə sual verdi:

– Yoldaş mühəndis, bəs ağacları qırıb doğradıqda meşəyə ziyan vurmuruqmu?

– Hər halda xeyrimiz, zərərimizdən artıq olacaqdır.

Elə bu an "QAZ" maşını qalın yemşən pöhrənləri arasında göründü. Nurəddin maşını xeyli aralı saxladı. Maşından bir dəstə mişar çıxarıb çiyninə aldı və kolxozçulara yaxınlaşdı. Kolxozçular iş alətlərini götürüb, nəzərdən keçirərkən, meşə idarəsinin işçi düşərgəsi tərəfindən qarışıq səslər eşidilirdi. Çox keçməmiş qızılcıq komalarının arasilə uzanan kiçik cığırda bir neçə nəfər adam göründü. Bunlar gənclərdən ibarət işçi briqadasının nəfərləri idi. İsmayıl qabağa yeriyib öz briqadasının üzvlərini salamladı.

İşə başladılar. Niyazi əlində tutmuş olduğu nacaqla ağacların gövdəsində işarələr qoya-qoya addımlayır, gənclər də kanalın çəkilməsinə əngəl olan hər cür maneələri aradan qaldıra-qaldıra onun arxasınca irəliləyirdilər. Gurultu ilə yıxılan, yerə dəyərkən qol-budağı əzik-əzik olan nəhəng gövdəli palıd ağaclarının qopardığı səs-küy bir anlığa nəzərləri cəlb edir, hamı müvəqqəti olaraq alətləri havada saxlayıb bu qocaman ağacların necə yıxıldığına tamaşa edir, sonra yenidən işə başlayıdılar. Bellər yerin bağrını yaralayır, külünglər yerin dərinliklərinə işləyir, hərdən bir çəlpəşik daşlara toxunaraq cingildəyirdi. Mişarlanmış ağacların kötükləri, zəhmətin barı ilə bəslənmiş kolxozçu gənclərin zərbələrinə tab gətirməyir, parçalanıb dağılır, qırıntıları əldən-ələ keçərək qalınlığa tərəf fırıldadılırdı. Qızlar iti ağızlı nacaqlarla pöhrəliyi qırıb tökürdülər. Kolxozçulardan bir neçə nəfəri də onların doğradıqları pöhrənləri qırağa daşıyırdı.

Hüseynovla İsmayıl hərəsi mişarın bir dəstəyindən yapışaraq, iri gövdəli bir qaraağacı mışarlayırdılar. Hüseynov sağ əlilə mişarın dəstəyinin arası kəsilmədən irəli-geri çəkə-çəkə sol əlilə alnında puçur-puçur olub damcılayan tərini silir və İsmayıla gözucu bir nəzər fırladaraq deyirdi:

– Hə, Kəloğlan, əhvalın necədir? Çək görüm direktorunla ayaqlaşa biləcəksənmi?

İsmayıl isə dodaqaltı gülümsüyərək:

– Yoldaş Hüseynov, mən belə yerlərdə bişib qaynamışam. Siz mənimlə yarışa bilməzsiniz, – deyə cavab verirdi.

– Çək görüm, çək! Heyif ki, idarə işləri mənə mane olur, yoxsa gecə-gündüz səninlə birgə işləyib, yarışardım.

Bir tərəfdə də Niyazi, meşəliyin təmizlənməsi yerlərini kolxozçulara göstərdikdən sonra nacağı Səməd dayı ilə mişar çəkən

Nurəddinə verib, özü mişarın dəstəyindən yapışmışdı. O da Səməd dayı ilə yarışırdı. Səməd dayı Niyazinin yanaqları aşağı süzülən tər damcıarına işarə edərək deyirdi:

– Adını qoymusan cavan, amma bir bax alnından tər necə axır.

Niyazi isə Səməd dayının yaşına yaraşmayan öyüncəkliyinə sadəcə gülümsəyir və deyirdi:

– Səməd dayı, sən mənimlə bəhsləşmə. Qocalıb əldən düşmüsən.

Səməd dayı özünü sındırmaq istəmirdi:

– Yox, gör sən üstümə bir qocalıq damğası da vura bilərsənmi? Nə qədər qoca olsam da yenə sənin kimi cavanın işini görərəm. – Niyazi yenə nə demək istədisə də Səməd dayı qəti hərəkətlə başını döndərib, var gücü ilə mişarı çəkməyə başladı. – Söhbət dananı qurda yedirdər. Çək!

Onlar günortaya kimi bir-birilə yarışaraq arası kəsilmədən işlədilər. Bir vaxt Hüseynov əlini yuxarı qaldırıb günü göstərdikdə vaxtın hiss olunmadan gəlib-keçiyini anladılar. Alətlər müvəqqəti olaraq yerə atıldı. Qızlar və oğlanlar göy soğan kimi xışıldayan yumşaq ot üzərində əyləşdilər. Ağ süfrələr salındı, naxışlı heybələrin ağzı açıldı, Şıxlı buğdasından bişirilmiş yumşaq yuxaların qatı açılıb ortalığa sərildi. Boşqablarda kərə yağ, mis camlarda camış qatığı və təzə hazırlanmış üzlü qoyun pendiri süfrələrə düzüldü. Səmərəli zəhmətdən sonra iştaha ilə nahara başladılar.

Nahardan sonra göy çəmənlik üzərində uzanışıb bir qədər dincəldilər. Hüseynovun işarəsilə yenidən işə başladılar. Yenə nəhəng gövdəli ağaclar gurultu ilə yıxılır, özlərilə bərabər başqa ağacların da qol-budaqlarını sındırıb yerə tökürdü.

Gün günortadan əyilənə kimi eni 6 metr, uzunluğu isə 100 metr olan bir sahənin meşəliyi tamamilə təmizlənmişdi. İş yenə əvvəlki qaynarlığı ilə davam etməkdə idi. Hərdənbir çevrilib arxalarına baxarkən gördükləri işin səmərəsindən ruhlanan gənclər itiağızlı baltaları yeni bir qüvvətlə ağacların gövdələrinə endirirdilər. Kötüklərdən qopan çalpanlar vıyıltı ilə havanı yarır, çəmənlik üzərinə səpələnirdi.

İş olduqca qızğın gedirdi. Əgər belə davam etsə idi kanal Hüseynovun nəzərdə tutduğu vaxtdan da tez çəkilib qurtara bilərdi.

## 2

– Bir gündə kim nə qədər yer qazıya bilər?

Kanalın kənarındakı torpaq yığınının üstündə durub öz briqadasının üzvlərini nəzərdən keçirən İsmayılın gur səsi hamının diqqətini cəlb etdi. Alçaq boylu, sarışın bir gənc, endirmək istədiyi külüngü havada saxlayaraq dedi:

– On metr.

Başqa birisi:

– On beş metr.

– İyirmi metr.

Birinci dəfə "On metr" deyə, səslənmiş gənc xəcalətdən başını aşağı saldı. Onunla yanaşı işləyən Səməd dayı oğlanın dağınıq saçlarına, utancaq çöhrəsinə nəzər salıb alçaqdan səslədi:

– Sarı.

Sarı başını qaldırıb Səməd dayının mənalı gözlərinə baxdı, daha da qızardı.

– Sarı, doğrudanmı on metrdən artıq qazıya bilməzsən?

– Qazıyaram.

– Bəs niyə elə dedin?

– . . .

– Komsomolsanmı?

– Hə.

– Əvvəlki sözünün üstündə qalırsanmı?

– Bir gündə on beş metr qazımağa söz verirəm.

– Komsomolçu verdiyi sözü inadla yerinə yetirir, sən necə?

Səməd dayının sualına Sarının, torpağa pərçimlənmiş bir daşı parçalayan külüngünün çingiltisi cavab verdi. Səməd dayı bu sadə, həm də bir qədər utancaq gəncə baxıb gülümsündü.

İsmayılın sualı gənclərin arasında gizli bir "rəqabətin" başlanmasına səbəb olmuşdu. Onlardan hər biri altdan-altdan yoldaşının çirmənmiş biləngini gözdən keçirməyə başladı. Bir an keçmədən onlarca külüng havaya qaxıb, torpağa endi.

Bir tərəfdə də gurultusu ilə meşəni ağzına götürmüş "polad atlar" kanal qazan kotanları bir təkanla yerin ürəyinə sancdılar.

Bir az keçmiş, meşənin üstündə uzun bir duman zolağı yüksəlməkdə idi. Bu zolaq gedə-gedə meşənin dərinliklərinə doğru uzanırdı. Günəş, Kürün sahili boyu uzanan uca şam ağaclarının arxa-

sında daldalanarkən hamıdan qabaqda işləyən bir gənc hündür torpaq yığınının üstünə çxıb, alnının tərini silirdi. O, Saxundurun sahilindən başlayıb uzanan yarım kilometrlik kanala baxaraq gülümsədi.

Bu vaxt arası kəsilmədən külüng endirən ağsaçlı bir kolxozçu onun diqqətini cəlb etdi. "Məgər o hələ öz yerini qazımayıbmı?" – deyə fikirləşdi. Yenidən kanalın içinə atılıb ona yaxınlaşdı.

– Səməd dayı, sənə kömək eləməyə gəlmişəm.

Kolxozçu başını qaldırmadan dedi:

– Get öz yerində işlə.

– Mən öz yerimi qazıyıb qurtarmışam. Söz verdim, yerinə də yetirdim.

Səməd dayı külüngünü torpağa sancdıqdan sonra başını qaldırdı, Sarını təpədən tutmuş dırnağa kimi gözdən keçirdi. Gülümsündü. Sonra birdən-birə ciddi bir vəziyyət alaraq:

– Mənə kömək lazım deyil, bu saat 20 metri tamamlayıram. – dedi və külüngü torpaqdan çıxarıb, yenidən endirdi. Sarı təəccübdən bir anlığa donub yerindəcə qaldı. "İyirmi metr" – deyə öz-özünə aıçıldadı. Sonra qarşısında külüng vuran ağsaçlı kolxozçuya bir də baxdı, külüngünün dəstəyini bərk-bərk sıxıb bir az bundan əvvəl işlədiyi yerə tərəf yüyürdü.

Qaş qaralarkən gənclər öhdələrinə götürdükləri yerin sonuncu torpağını atıb bir-birilə xəbərləşmiş kimi eyni vaxtda kanalın kənarına çıxdılar. Akasiya ağaclarının arasilə işçi düşərgəsinə tərəf getdilər. Bu vaxt Hüseynov torpaq yığınının üstündə dayanıb dərin düşüncəyə dalmışdı. Qafqaz sıra dağlarının arxasından yenicə baş qaldırmaqda olan ayın solğun şüaları onun üzünü işıqlandırmışdı. Hər tərəfdə dərin bir sükut hökm sürməkdə idi. Yalnız haradasa, meşənin dərinliklərindən anadil quşlarının qərib səsləri eşidilirdi.

Birdən Hüseynova elə gəldi ki, artıq kanal çəkilib qurtarmışdır. Bir an bundan əvvəl düşündükləri bir həqiqət kimi onun gözləri önündə canlanmağa başladı.

"Budur, Saxundur öz səmtini dəyişmişdir. O bir daha burularaq, Kürün coşğun köksünü yenidən köpükləndirmir.

Başları ərşə ucalan akasiya ağaclarının arasilə dolana-dolana Qarayazı meşəsinin içərilərinə doğru uzanır. O, günəşin təsirindən boynunu qısmış, sanki "su" deyə, sızlayan xırdaca akasiya ağaclarına özü ilə yeni həyat gətirir. Kürün suyu Qarayazı meşəsinin dərinliklərində əkilmiş şitilliklərin arasilə qıvrılaraq axır, bu ləkdən

süzülüb o birinə keçir. İllərdən bəri suvarmaya möhtac qalmış torpağın parçalanmış sinəsi yenidən qovuşur. Torpağa yenidən can gəlir. Hələ bir qarışdan artıq boyu olmayan, yumşaq gövdəli akasiya ağacları bir daha boyunlarını qısmır, başlarını dik tutaraq, günəşin üzünə şax baxır...

Payız gəlir. Ağacların yarpaqları saralıb tökülür. İndi şitillik sahəsi tamamilə dəyişmişdir. Burada boyu bir metrdən aşağı olmayan akasiya ağaclarından ibarət qalın bir meşəlik uzanır. Əli belli kolxozçular bu cavan meşəliyin qajları arasında dolanır, qazıb çıxardıqları şitiləri dəstələyərək açıqlığa daşıyırlar. Avtomobillərə, arabalara doldurub Kür sahilinə yetirirlər. Yüzlərlə kolxozçu gecəni gündüzə verərək, yorulmaq bilmədən çalışır, pambıq tarlalarını və taxıl zəmilərini şərqdən əsən küləkdən qorunmaq üçün meşə zolaqları salırlar. Onlar təbiəti dəyişdirirlər...”

Arxa tərəfdən eşidilən ayaq səsləri Hüseynovu xəyaldan ayırdı. O, “bunların hamısı həqiqət olacaqdır” – deyə, öz-özünə pıçıldadı. Geri çevrilərkən utandığından başını aşağı salaraq ayaqqabısının burnu ilə yeri qurdalayan Sarını gördü.

– Sarı, niyə burdasan?

– Yoldaş direktor...

O, bunu deyib susdu, əlini köynəyinin sağ cibinə aparıb karandaşla yazılmış bir kağız çıxartdı.

– Burada hamısının adını yazmışam.

Hüseynov kağızı alıb, ayın işığında oxudu. Sonra təəccüblə Sarının üzünə baxaraq:

– Bunlar neyləyiblər ki? – deyə soruşdu.

– Yoldaş Hüseynov, orada adını yazdığım uşaqlar briqadamızın komsomolçularıdır.

– Çox yaxşı. Sonra?

– Biz ay işığından istifadə eləmək istəyirk.

Sarı bu sözləri dedikdən sonra geri çevrilib, əlilə bir qədər aralı, akasiya ağaclarının arasında dayanmış gəncləri göstərdi.

– Hamısı gəlib. Biz xahiş eləyirik, yoldaş direktor...

Hüseynov Sarının nə demək istədiyini başa düşdü. Sarının alnına dağılmış qıvrım saçlarını sığallayaraq:

– Gedin, dincəlin, – dedi. – Gecə dincəlməsəniz gündüz işləyə bilməzsiniz.

Sarı bir söz demədən, başını aşağı salıb aralandı.

Uşaqlar onu dövrəyə alıb, sorucu nəzərlərini ona dikdilər. Sarı başını qaldırmadan dedi:

– İcazə vermədi. Deyir ki, gecə dincəlməsəniz gündüz işləyə bilməzsiniz.

İri gövdəli bir gənc onun böyrünə yavaşcadan bir dürtmə vuraraq səsləndi:

– Niyə işləyə bilmərik? Əşi sənin dilin, ağzın yoxdur ha?! Deyə bilmirdinmi ki, yoldaş direktor, can bizimkidir, işləyə bilərik. Vəssəlam.

Sarı dillənmədi. Yenə həmin gənc Sarının qolundan tutub kanalın kənarına tərəf çəkdi.

– Uşaqlar, bəri gəlin, mən bilirəm nə edəcəyəm.

Hüseynov Sarı gedəndən sonra ağır addımlarla düşərgəyə tərəf getdi. Bir qədər getdikdən sonra geri çevrilib hündürdən dedi:

– Uşaqlar, gedin dincəlin, sabah bənd çəkilişinə gedəcəksiniz.

Gənclərdən cavab gəlmədi. Onlar torpaq yığınının üstündə oturub Hüseynovun aralanmasını gözləyirdilər. O gedəndən sonra yenidən işə başlayacaqdılar.

* * *

Aprelin 29-da səhər saat doqquza yaxın düşərgə yolunda iki atlı göründü. Adi atlıya meşədə çox rast gəlinir, hətta bəzən əhəmiyyət də verilmir. Lakin bu iki atlı hamının nəzərini cəlb etmişdi. Çünki atlar dördnala çaparaq, birbaş işləyənlərin üstünə gəlirdilər. İşçilərdən kim isə hündürdən səsləndi.

– Qabaqdakı mühəndisdir.

Bir o qədər keçmədən başqa birisi:

– Arxadakı da "Pravda" kolxozunun sədridir, – dedi.

Atlılar yaxınlaşdılar, salam verib atdan düşdülər. Hüseynov, Niyazinin üzündəki sevinc ifadəsini görüb gözlərini ona dikdi. Niyazi üzünü gənclərə tutub soruşdu.

– Bayrama kimi qurtara biləcəyikmi, uşaqlar?

Səməd dayı irəli yeriyib, hamının əvəzində cavab verdi:

– Buna şübhə yoxdur, oğlum. Mayın birində kanalla su axmalıdır.

– Yoldaşlar, mən bu saat şitillik sahəsinə səpdiyimiz toxumu müayinədən keçirdim. Hələ üç-dörd gün suyu gözləyə bilər.

Kanalı bu tezlikdə çəkib qurtarmağımız bizim üçün misli görünməmiş müvəffəqiyyətdir.

O, bir qədər fasilə verdikdən sonra əlavə etdi:

– Mənim sizə deyəcəyim yeni bir şad xəbər də var...

O, üzünü saysız-hesabsız şitil ləklərinə tərəf çevirərək davam etdi:

– Əgər kanal şitil ləklərini arasilə yarım kilometr daha uzadılsa "Pravda" kolxozunun 30 hektarlıq pambıq sahəsini suvara bilər.

Bu xəbər meşə işçilərinin arasında böyük şadlığa səbəb oldu. Bayaqdan bəri bir tərəfdəcə dayanıb deyilənlərə qulaq asan "Pravda" kolxozunun sədri dilləndi:

– Bizim kolxozçular yarım saata kimi, bəlkə də daha tez burada olacaqlar.

İsmayıl əlindəki külüngünü qayışına keçirərək briqada üzvlərinə müraciətlə dedi:

– Yoldaşlar, bu bizim üçün böyük xoşbaxtlıqdır.

Hüseynov sağ əlini onun çiyninə qoyub dedi:

– Muğanlı kolxozçularilə Şıxlı kolxozçuları birlikdə kanalın qalan hissəsini qazıyıb qurtararlar. Sən briqadanı bənd çəkilişində işləyən yoldaşların köməyinə apar ki, bu axşam bənd çəkilişini qurtara biləsiniz.

Elə bu vaxt "Pravda" kolxozçularının qabaq dəstələri yemişən pöhrənlikləri arasında göründü.

* * *

Qaranlıq qarışmaq üzrə idi. Kanalın axırıncı metrlərini qazımaqda olan kolxozçuların çöhrələri, arası kəsilmədən qalxıb-enən külünglərini, qazılmış torpağı kənara tullayan bellərin ağzından qopan toz-duman içərisində güclə seçilirdi. Bir azdan, Qafqaz sıradağlarının arxasından baş qaldıran ayın ilkin şüaları işləyənlərin sifətlərini aydınlaşdırdı. Bu vaxt Niyazi əlindəki külüngü bir tərəfə atıb gülər üzlə Hüseynova yanaşdı:

– Mən dəhnəyə gedirəm. Sarının dəstəsi, verdikləri sözə görə, bu axşam bənd çəkilişini tamamlamalıdır.

O, Hüseynovun cavabını gözləmədən bir az aralı, göy çəmənlik üzərində otlayan atına tərəf getdi. Sevindiyindən atı yəhərləməyi belə unudub, çılpaq atın belinə sıçradı, kanalın başına tərəf çapdı.

Gecə saat on ikiyə yaxın Qarayazı meşəsindən ucalan "ura" səsləri ətraf kəndlərdə eşidilirdi. Bu, qələbədən sonra doğan ürək çırpıntılarının bir ifadəsi idi.

* * *

1 May səhəri açılarkən düşərgənin kiçik evləri üstündə al bayraqlar yellənməkdə idi. Düşərgəni mühasirəyə almış akasiya ağaclarının ətir qoxuyan çiçəkləri başlarını aşağı salaraq, səhərin ahəstə mehinin təsirindən yavaş-yavaş yırğalanırdı. Hələ çox erkən olmasına baxmayaraq, ağacların arası adamla dolu idi. Kiçik talanın ortasında qırmızı örtüklü bir stol, ətrafında bir neçə stul qoyulmuş, arxasında isə oraq-çəkic nişanlı qırmızı bir bayraq sancılmışdı. Bir az aralı, akasiya ağaclarının arasilə uzanan kanalın ətrafındakı hündür torpaq yığınları görünürdü. Düşərgənin kiçik yaşlı uşaqları torpaq yığınının üstündə oturub, axmaqda olan bulanlıq suyun çör-çöplü səthinə baxırdılar. Günəş Qafqaz sıra dağlarının arxasından baş qaldırarkən düşərgədən talaya bir neçə adam yaxınlaşmada idi. Bunlar kanal çəkilişinin təşkilatları Hüseynov, Niyazi və İsmayıl idilər.

Şıxlı kolxozçularının ağsaqqalı Səməd dayı da sarıyanız bir gənclə söhbət edə-edə irəliləyirdi. O gənc Sarı idi. Çünki son vaxtlar Sarı Səməd dayıya yaman isinişmişdi. Bütün işlərini onun köməyilə görür, çətinliyə düşərkən ondan məsləhətlər alırdı.

Hüseynov qırmızı örtüklü stolun arxasına keçdi. Başını vüqarla qaldırdı, camaatı gözdən keçirdi. Sonra "1 May günü" mövzusunda, meşə işçilərinin bu bayramı böyük qələbələrlə qarşılamaları, xüsusilə çəkilmiş kanalın əhəmiyyəti haqqında danışdı.

O sözünü belə bitirdi:

– Yoldaşlar, bu gün ölkəmizin bütün vətəndaşları 1 May bayramını böyük nailiyyətlərlə qarşılayırlar. Biz də onların sıralarındayıq. İndi bizim qarşımızda daha böyük və şərəfli bir vəzifə durur. O da gələcəkdə əkin tarlalarımızı və zəmilərimizi küləkdən qorumaq üçün böyük meşə zolaqları salmaqdan ibarətdir.

# ZƏHƏR

Meşəbəyi Mirqasım yəhərdə çəpəki oturub, papağının dalını qaldırıb mahnı oxuyurdu. Ancaq bu dəfə kefdən oxumurdu. Bu dəfə meşəbəyinin sözləri nə qədər oynaqdısa, səsi bir o qədər qəmli idi. Kədərli demək olmaz. Çünki bu altmış yaşlı, pəhləvan cüssəli adam məhz kədərə qalib gəlmək niyyətilə papağının dalını qaldırıb: "Çərşənbə günündə, çeşmə başında, gözüm bir alagöz xanıma düşdü", – deyirdi. "Qaşını oynatdı, gözündən güldü" – deyirdi, özünün isə gözləri tez-tez dolub boşalırdı. Çünki bu gün meşəbəyi meşə ilə vidalaşmağa çıxmışdı.

Mahnı axıra çatdı. Meşəbəyinin yadına bir bayatı düşdü. Ancaq o, ayrılıqdan, ölümdən danışan bu bayatını dərhal unutmağa çalışdı. Səhərdən-axşamacan, bəzən hətta gecayarıyacan çiynində gəzdirdiyi, sanki bədəninin ayrılmaz bir əzasına çevrilmiş sumkası, indi, çiynini üzüb salırdı. Yayın otuz-otuz beş dərəcə istisində belə geyməyə adət etdiyi çəkmələri, indi, bu sərin payız günündə elə bil oda dönüb ayaqlarını yandırırdı.

Lakin meşəbəyi dərhal bunları da unutmağa çalışdı.

Papağını bu dəfə arxaya itələyib, yəhərdə qamətini düzəltdi, şeh və xəzəl qoxusu ilə dolu havada dərindən nəfəs aldı, altından keçdiyi qoca palıdın yarpaqlarına, sonra göy ürgənin dərisi işıldayan, dolu, qüvvətli çiyninə və dalğalı yalına baxdı.

– Belə-belə işlər, ay göy ürgə! Belə-belə işlər! – deyə altmış yaşında birinci dəfə burada öz-özünə danışmağa başladı. – Deməli, bu gecə yatırıq, qalxırıq, bu da eləyir iki gün. Üç deyən gün lent kəsilir, şlüz açılır, su gəlir, meşəmiz qalır suyun altında...

Göy ürgənin yerişi meşəbəyinin xoşuna gəlmədi. Ürgə daşsız, kəsəksiz, dümdüz talanın ortasında birdəncə büdrədi.

Meşəbəyinin oğlunun biri raykom katibi idi. Bir oğlu Bakıda oxumaqda idi. Onilliyi bu il qurtarmış sonbeşiyi isə indi artıq başa çatmaqda olan bənd tikintisində işləyirdi. Bütün atalar kimi o da öz oğullarını sevirdi. Ancaq göy ürgənin xətrini heç də oğullarından az istəmirdi. Ürgənin dümdüz yerdəcə büdrəməsi, üstəlik də bir-iki

kərə öskürməsi meşəbəyini narahat etdi. Lakin qarşıdakı böyük itki bu narahatlığı da tezcə unutdurdu.

Meşəbəyi cilovu tərpədib iri, qabarlı əli ilə ürgənən çiynini şappıldatdı.

– Büdrəmə, büdrəmə! Fikir eləmə, qadan alım! – dedi. – Bəndi çəkənlər, meşəni suyun altında qoyanlar mənim öz balalarımdı. Deyirlər su daha əfsəldi. Suyumuz olsa, deyirlər, ilan mələyən düzlərdə yüz belə meşələr salacayıq. Elə bilirsən salmayacaqlar? Salacaqlar, ay göy ürgə, salacaqlar... O günü, o dövranı biz də görəcəyik. Yüz yaşında at belinə qalxıb meşəbəyilik eləməyənin atasına lənət!

Meşəbəyi yenə papağının dalını qaldırdı. Yenə oxumağa başladı:

Ay duman, gəl keç bu yerlərdən,
Bu yerlər təzə bar eyləsin.
Həm gözlərim görsün səni,
Həm könlüm nübar eyləsin...

Çox düşünmədən, bədahətən aşığın sözlərini dəyişdirə-dəyişdirə xeyli oxuduqdan sonra, yenə də ömründə birinci dəfə burada, kimsəsiz meşə içində öz-özünə qəhqəhə çəkdi.

– Aşıq Abbas dağ adamıydı dağlardan danışırdı, mən aran adamıyam arandan danışıram. Abbas deyirdi: “Könlüm qübar eyləsin”, mən deyirəm: “Könlüm nübar eyləsin!” Hansımız yaxşı deyirik, ay göy ürgə?

Ürgə bir də büdrədi. Meşəbəyi bir də təəccübləndi.

– Əşi, sənə nə oldu, ay zalım balası! – deyə birdən hirslənib qışqırdı. – Nə olub sən də bir yandan kefimizə soğan doğrayırsan! Allahın, bəndənin hayıfını səndən alaram, atamın goru haqqı!

Ürgəyə hətta bir şallaq çəkdi. Lakin əvvəllər maşəbəyi əlini tərpətməmiş yerindən oynayan ürgə indi heç diksinmədi də. Onun yalnız qulaqları qımıldandı, bir də çiyninin dərisi titrədi.

Meşəbəyi köksünü ötürdü.

– Dərdimə şərik çıxırsan, nədi, ay allahın heyvanı!

Ürgə başını endirib yavaş-yavaş addımlayırdı.

Meşəbəyi də başını sinəsinə əydi. Çiyinləri sallandı, beli donqarlandı. Doğrudanmı, göy ürgə onun dərdinə şərik çıxırdı?

– Belə-belə işlər... Belə – belə işlər, ay göy ürgə, – deyə o, asta, yorğun səslə təkrar etdi. Və daha səsini çıxartmadı.

Meşədə qəribə sükut vardı. Nə bir quş ötürdü, nə bir yarpaq tərpənirdi. Meşəbəyi heç ürgənin ayaqlarının tappıltılarını da eşitmirdi. İndi o, ürəyində oxuyurdu: "Nələr gəldi, nələr getdi, bu dünyadan, bu dünyadan", – deyirdi

Birdən ürgə dayandı. Meşəbəyi diksinib qabağa, sonra ətrafına baxdı.

Uzaq mənzilli yola çıxanda göy ürgə adətən tanış adama-filana rast gəlməsə, dayanmazdı. Lakin meşəbəyi ətrafda lal-dinməz ağaclardan başqa heç nə görmədi.

Göy ürgənin bir xasiyyəti də vardı: belində yəhərin tapqırı açılanda və ya qırılanda dərhal dayanıb sahibinə xəbərdarlıq edərdi.

Meşəbəyi əlini tapqırlara atdı, bir dəyişiklik hiss etmədi. Bəs ürgəyə nə olmuşdu?

O, yəhərdən yerə atıldı.

Ürgənin dodaqları arasında sarımtıl köpük görünürdü.

Meşəbəyi əsla çiyrinmədən, ovucu ilə köpüyü sildi, əlini burnuna yaxınlaşdırıb qoxladı. Köpükdən asırğal iyi gəlirdi.

O, ürgənin gözlərinə baxdı. Bu iri, göyçək gözlər iztirabla dolu idi. Ürgənin dodaqları arasından yenə sarımtıl köpük gəlirdi. Meşəbəyi bir daha köpüyü qoxladı və sarımsaq qoxusunu xatırladan iyi təkrar hiss etdi.

Göy ürgə hardasa asırğal yemişdi, zəhərlənmişdi. Meşəbəyi çox yaxşı bilirdi ki, dərhal tədbir tökməsə, göy ürgə buradaca, onun gözünün qabağındaca yıxılıb ölə bilər.

Lakin o, hələ də dayanıb ürgənin dodaqlarının arasından aramsız qaynayıb tökülən köpüyə baxırdı.

O, ömrünün qırx ilini at belində olmuşdu, meşəni addım-addım gəzmişdi. Onun zehnində minbir çiçək, ot adı vardı. Bu minbir ad içərisində "asırğal" çox az-az yada düşürdü. Çünki bu zəhərli bitki onun meşəsindən uzaqlarda, dağlarda bitirdi. Elə isə... bu nə möcüzə idi? Ürgə nədən zəhərlənmişdi? Bəlkə heç zəhərlənməmişdi?

Meşəbəyinin dünyagörmüş, təcrübəli gözləri dostunun bədənində gəzdi. Ürgənin döş əzələləri titrəyirdi. Dizləri hiss olunacaq dərəcədə bükülüb, çox çətinliklə düzəlirdi. Göy ürgə onu öz oğulları qədər sevən, ona yedirtmək üçün şinelinin cibində parça-parça qənd gəzdirən sahibinin qarşısında birdən-birə belə zəiflədiyindən utanırmış kimi iztirablı gözlərini çevirib yana baxırdı.

Birdən onun bütün bədəni titrədi. Yenə dizləri büküldü. Ürgə inildədi və elə bil daha utanmaqdan, xəcalətdən keçdiyini hiss edib gözlərini sahibinin üzünə dikdi, ondan kömək istədi.

– Bu saat... bu saat, qadan alım, – deyə meşəbəyi pıçıldadı, çevrilib geriyə qalın meşənin dərinliklərinə tərəf baxdı. Ürgənin gözlərini sığallayıb, bir daha: "Bu saat!" – dedi. Şallağını çəkməsinin boğazına sancdı, papağını başında bərkitdi, şinelinin ətəklərini yığıb yerindən götürüldü.

Buradan təxminən iki kilometr aralıda, geniş bir talada, gur sulu çay üzərində sovxoz vardı. El arasında ona "it sovxozu" deyirdilər. Orada suitinin müxtəlif cinslərini saxlayırdılar. Bir ay bundan əvvəl sovxoz köçürülmüşdü. Tikililər sökülmüş, çay üzərindəki dəmir tor qəfəslər yerli-dibli qoparılıb aparılmışdı. Sovxozun yerində indi yalnız daş-torpaq yığınları bozarırdı. Xarabalıqdan xeyli kənarda isə, uzaqdan baxanda ağız-ağıza dayanmış bir cüt nəhəng hörümçəyə bənzəyən iki alaçıq qaralırdı. Orada sovxoz direktorunun qayınatası Daşdəmir kişi kürəkəninin, özünün və daha bir neçə sovxoz işçisinin mal-qarasını saxlayırdı. Sabahda-birigündə Daşdəmir də köçməli idi.

Meşəbəyi iki kilometrlik yolu birnəfəsə qət edib alaçıqlara yetişəndə, hər alaçığın kölgəsindən bir iri, qıllı köpək peyda oldu. İtlərin səsinə, Daşdəmirin əvəzində, geyimindən şəhər ziyalısına oxşayan boz şlyapalı, ucaboy bir adam çıxdı, yüyürüb itlərə təpindi. Sonra dayanıb təəccüblə meşəbəyiyə baxdı, qan-tər içində təngnəfəs yüyürən adamdan nə isə soruşmaq istədi. Ancaq meşəbəyi onu qabaqladı:

– Mən Mirqasımam, meşəbəyi Mirqasım, ay oğul. Atım ağıya düşüb. Mən səni burada birinci dəfədir ki, görürəm, bağışla tanış olası halım yoxdu. Bir vedrə süd lazımdır. Daşdəmir hanı, gözümə dəymir?

– Nə olub, ə, a Mirqasım, döşün niyə atdanır? – Yaxınlıqdan, lap beş addımlıqdan tanış, gər səs eşidildi. Meşəbəyi cəld dönüb geniş açılmış iri mavi gözlərini ağacların arasında dolandırdı. Daşdəmirin səsi bu dəfə elə bil yerin altından gəldi. – Ölmədik, sənin dövranıyın qurtardığını da gördük, a Mirqasım!

– Sən hardasan, a kişi?

– Burdayam, gəlirəm indi... Deyirəm, ölmədik, sənin də axırını gördük! Göy ürgənin belində belədən-belə çapırdın, elədən-elə çapırdın, saatda bir malı, heyvanı atın döşünə qatıb salırdın xalxala. Nə bilim, filan yerə ayaq basmayın, bəsməkan yerə yaxın durmayın! İndi kimə qalır sənin bu qoruqların? Yoxsa Qaraca çoban kimi ağacları köklü-kömləcli qoparıb, belinə şələləyib aparmaq istəyirsən?

Daşdəmir şalvarını yuxarı çəkib palıd ağacının mağara kimi qaralan koğuşundan çıxdı. Onun bədəninin aşağı qismi aşkar göründüyündən meşəbəyi üzünü yana çevirdi.

– Başına yer qəhətdi, nədi, a kişi, koğuşa niyə girirsən?

– Kefim belə istəyir. Yoxsa buranın da qadağası var? – Daşdəmir mağara qarşısında donquldanan ayı kimi yerində ləngərləyib toqqasını bərkitdi, barmaqlarını köynəyin yaxasından çıxmış qalın qara qılların arasına salaraq, xışaxışla sinəsini qaşıdı, iki yanını basa-basa yaxınlaşıb meşəbəyini süzdü:

– Hə, buyur görək. Süd lazımdı deyirsən? Süd-zad yoxdu!

– Sən allah, bir az tez elə, ay Daşdəmir. Ürgə əldən gedir!

– Hanı ürgə?

– Bu yanda, talada qoymuşam.

– Elə niyə? Yəni gələsi halı yoxdu?

– Yoxdu, yoxdu. Daşdəmir, qadan alım, tez elə! Oğul bərabəri atdı, Daşdəmir!

Gənc kənarda dayanıb siqaret çəkirdi. İtlərin şırvanmasından məlum idi ki, oğlan burada təzə adam deyildi.

Meşəbəyi üçün bu saat hər dəqiqə qiymətli idi. O, ötən günləri yada salıb söhbəti uzadan qıllı adamın tələsməyəcəyini hiss edib gəncə baxdı. Gənc dərhal siqaretini yerə atdı.

– Mən gətirərəm! – deyib alaçıqlara tərəf yüyürdü.

Meşəbəyinin elmli-savadlı adamlara, şəhərlərdən meşəyə gəzməyə gələn ziyalılara xüsusi marağı vardı. Yaşıl talalarda, bulaq başında, ağac kölgəsində onu süfrəyə dəvət edən ziyalıların hərəsi onun ürəyində bir cür xatirə qoyub gedərdi. Onun həyəcanını, təşvişini dərhal başa düşüb cəld yüyürən ziyalı gəncin arxasınca baxdıqda meşəbəyinin bənd tikilişi başlayan gündən açılıb, dərinləşmiş, sonra küt bir ağrı ilə içərisində gizlənib qalmış yarası yenidən qövr elədi, o, yalnız indicə başa düşdü ki, "lent kəsilib, şlüz açılanda", meşə suyun altında qalanda, meşə ilə birlikdə neçə-neçə

adamlarlr ülfətini, ünsiyyətini, ərşdən-gürşdən xəbər verən şirin-şirin söhbətlərini də itirəcəkdir.

Meşəbəyi bir anlığa hətta göy ürgəni də unutdu. Şişkin sifətini topa saqqal basmış qıllı adamın nə dediyini və nə üçün güldüyünü belə başa düşmədi.

– Ə, sənnən deyiləmmi, niyə cavab vermirsən?

– Nə deyirsən?

– Deyirəm, oğlun raykom katibidi, pulun çox olar. Ver xərcləyək də!

Meşəbəyinin qaşları çatıldı

– Sənin də kürəkənin sovxoz direktorudu. Deməli, sənin də pulun çoxdu?

– Mənim torbamın dibi deşikdi.

– Elə niyə?

– Bilmirsən? Bir-iki baş normadan artıq heyvan saxlayıram deyin, hər yoldan ötən rüşvət istəyir. Pulu torbanın üstdən qoyuram, altdan o yana gedir. Sənin özünü neçə kərə qonaq eləmişəm? Yadından çıxıb?

– Deməli, mənə də rüşvət verirdin?

Daşdəmir güldü.

– Bə sən necə bilirdin, ə? İşim keçməyən adama mən bir tikə də yedirtmərəm.

Meşəbəyi fikri dağınıq halda səbirsizliklə alaçıqlara tərəf baxdı. Oğlanın dolu vedrə ilə gəldiyini gördükdə, itlərin mırıldaşmağına əhəmiyyət vermədən, onun qabağına yeridi.

– Çox sağ ol, qadan alım!

– Dəyməz, əmi, – deyə nəzakətlə gülümsünüb, vedrəni ehtiyatla irəli uzatdı. Əli vedrənin soyuq qulpuna toxunanda meşəbəyinin ürəyinə sərinlik gəldi. Fikrən indi o, artıq göy ürgənin yanında idi, bu göyçək, xeyirxah oğlan da, Daşdəmir də onun yanında idilər, köməkləşib ürgəni yıxmışdılar, zorla süd içirirdilər. Bu fikirdə ikən birdən vedrəni böyrü üstə gördükdə meşəbəyi təəccüblə çevrilib, ağzını geniş açaraq qaqqıldayan Daşdəmirə baxdı. Süd axıb göy otların arasına hopurdu. İtlər cumub südü yalayırdılar. Daşdəmir isə gülürdü.

– Vallah, bilmədim ayağım toxundu, Mirqasım. Ə, bir ürgə nəmənə şeydi, ondan ötrü belə yüyürüb qan-tərə batıbsan? Deynən

oğlanlarıyın hərəsi bir az pul qoysun, maşın alsınlar, min gəz, kef elə özün üçün!

Meşəbəyi top qara saqqal arasında iti uclu dişləri ağaran bu adama baxıb nahaq gəldiyini başa düşdü.

Meşəbəyinin canı alovlandı. O, pul təklif etmək, südü satın almaq istədi. Lakin özünü sındırmadı. Köhnə, adi təmkini ilə yaylığını çıxarıb tərini sildi. Papağını götürdükdə ikindi çağının sərinliyində onun iri, qırxıq başından qatı buğ qalxdı. Və beləcə, başı tüstülü halda geri qayıtdı.

Göy ürgə artıq böyrü üstə idi. Meşəbəyi çöməlib onun gözlərini sığalladı. Sonra əlinin arxası ilə öz gözlərini sildi.

– Belə-belə işlər, ay göy ürgə...

Ürgə son dəfə xırıldayıb dartında və hərəkətsiz qaldı.

Meşəbəyi yavaşca qalxıb tapqırları açdı. Sonra yüyəni ürgənin başından çıxartdı. Yəhəri belinə şələləyib yalnız onun bələd olduğu, el yolundan uzaq, xəlvət cığırla addımladı...

Külək başlamışdı. Meşə xışıldayırdı. Meşəbəyinin üstünə xəzəl yağırdı. Boynuna, qoyun-qoltuğuna soyuq yarparlar dolurdu. O isə heç nəyə əhəmiyyət vermir, gözlərini qaranlıqda bozaran dar cığırdan çəkmədən ağır-ağır, yorğun-yorğun addımlayırdı.

Meşədən çıxanda o, ömründə birinci dəfə bərk yorğunluq hiss etdi. Vaxtı keçmiş qoca kimi hıqqıldayıb, yəhəri belindən endirdi, yerə qoyub üstündə oturdu. Sonra çevrilib çiyni üstündən geriyə, meşənin səsinə qulaq asdı.

– Belə-belə işlər, ay göy ürgə... Belə-belə işlər, ay meşəbəyi Mirqasım...

# TOY

Gəlini aparmağa gəlmişdilər.

Əvvəllər belə hallarda, qız evinin həyətinə içinə xalı-xalça salınmış arabalar gətirərdilər. Atlar kişnəşər, şahə qalxıb zurnaçıların qarşısında oynaşardı. Sonra cıdır başlanardı.

İnda qız evinin həyəti maşınla dolmuşdu. At kişnəməsi əvəzinə, rənbərəng "Volqa"ların, "Moskviç"lərin siqnalları kəndi başına götürmüşdü.

Maşın karvanı darvazadan çıxdı.

Qızla oğlanın evləri yanaşı idi. Demək olar ki, lap bitişik idi. Ancaq son dəbə görə, toy mərasimi küçələri, bəklə hətta çölləri, tarlaları dolaşmalı, evlənənlərin, qohum olanların, toy əhlinin sevinci, təntənəsi nümayiş etdirilməli idi.

Birinci "Volqa"nın kapotunun üstünə qırmızı parça çəkilmişdi. Burada nəhəng gövdəli, qara lopa bığlı kişi – toybabası, bəy və bəyin sağdişi əyləşmişdi.

Sırada ikinci gedən yük maşını idi. Kuzova gəlinin cehizi – şkaf, şifoner və sair bu kimi şeylər yüklənmişdi. Zurnaçılar avadanlığın arasında stul qoyub oturmuşdular. Dəfçi şkafın üstünə dırmaşmışdı. İki yarımsərxoş dəliqanlı cavan – biri sağdan, biri soldan şkafı və dəfçini tutmuşdu ki, döngələrdə şkaf ləngərlənəndə dəfçi yıxılmasın.

Cehizin arxasınca gedən "Volqa"nın maralının dövrəsində yelpazə şəklində qızılgüllər çitənmişdi. Bu maşında gəlin, gəlinin sağdışı, bir də yengə əyləşmişdi.

Qalan maşınlar da başdan-başa gül-çiçək içərisində idi.

Karvan darvazadan çıxıb küçədə qatarlandı, güclü, davamlı siqnallarla yola düşdü.

Rayon milis idarəsinin rəisi – bəyin qardaşı, deyəsən, bir az çox içmişdi. Dövrəsi qırmızı zolaqlı sarı "Volqa"nı gah dala, gah qabağa sürdürür, geniş pəncəli iri əlində parıldayan tapançanı pəncərədən çıxarıb dalbadal havaya boşaldırdı. Güllələr küçənin sağsolunda düzülmüş daş evlərin divarlarında əks-səda verib, yaylım atəşi kimi səslənirdi. Kənd arvadları bundan ehtiyatlanıb, damlara çıxan uşaqları şapalaqlayaraq aşağı qovurdular.

Bəy kənddə müəllim idi. Fizika müəllimi. Çox zərif, bir az da utancaq, əsl ziyalı görkəmli ucaboy, qaraşın bir oğlan idi. Qardaşının tapançasının gurultusunu eşitdikcə başını bulayırdı.

– Yaman keflənib, sağ olmuş, – deyirdi, – bir xata çıxartmasa yaxşıdı.

Toybabası qımışıb bığını sığallayırdı.

– Köçün yaraşığı cöngə soncuqlamasıdı, – deyirdi.

İkinci "Volqa"da gəlin yanağını sağdışının çiyninə söykəyib ağlayırdı. Yengə gülürdü.

– Qıraqdan baxan da deyəcək qız könülsüz gedir, nədi? – deyirdi. – Könülsüzsənsə, elə indicə başını tərpət, bu saat maşını geri sürdürməyən atasının qızı deyil!

Gəlin gözəl çöhrəsini kəlağayısının altından göstərib yengəsinə baxdı. Arvadın zarafat elədiyini başa düşüb, göz yaşları içində gülümsündü.

– Heç özüm də bilmirəm niyə ağlayıram.

Yengəsi onun yanağından öpdü.

– Şadlığından şitlik eləyirsən. Sevincdən ağlayırsan, quzum, sevincdən!

Sağdışı gəlinin o biri yanağından öpdü.

– Gör bir qaynın sənə necə toy eləyir, ay bəxtəvər, gözünü aç, bir dünyaya bax!

Gəlinin uzun kirpikləri titrədi. Xınalı barmaqları ilə kəlağayısını azca qaldırıb, gizlincə bir irəliyə, bir də geriyə baxdı. Bir daha gülümsünüb yenə sifətini kəlağayısının altında gizlətdi.

Üçüncü "Volqa"ya azı yeddi-səkkiz gənc dolmuşdu. Bəyin müəllim yoldaşları, traktorçular və iki milis nəfəri bir-birini sıxışdıraraq şit zarafat eləyir, şaqhaşaq gülüşürdülər.

Zurnaçılar "Vağzalı" çalır, dəmlənmiş dəfçi şkafın üstündə dizi üstə qalxıb var gücü ilə dəfi döyəcləyir, bəyin qardaşı tapançasına təzə patron darağı salıb çat-çat atır, mərasim əzəmətli təntənə ilə yoluna davam edirdi.

İrəlidə onları nə gözlədiyindən, əlbəttə, heç kəsin xəbəri yox idi.

Birdən qabaqda sərt, tükürpədici tormoz səsi eşidildi. Maşınlar az qala bir-birinə toxunaraq kəndin ortasında, klubun qarşısındakı geniş meydançada xırp dayandı.

Birinci maşında toybabasının iri, zəhmli gözləri geniş açılıb irəliyə zilləndi. Bəy təəccüblə qaşlarını qaldırdı. Sağdış hirsli-hirsli əlini qapıya atdı.

Zurnanın səsi kəsildi. Dəfçi şkafın üstündən aşırıldı. Yarımsərxoş dəliqanlılar onun özünü də, dəfini də havada qapdılar. Sonra onlar da təəccüblə irəli baxdılar.

Bəyin qardaşı, yəqin ki, harda olduğunu unudub dik ayağa qalxdı. Başında bərk ağrı hiss etdikdə, duruxub qəzəblə şoferə baxdı.

– Nə oldu? Niyə dayandın?!

– Sürün! Sürün! – deyə arxadakı maşınlardan səsləndilər. Kəsik-kəsik, səbirsiz siqnallar eşidildi.

Lakin karvan tərpənmədi.

Karvanın qabağında bəstəboy, enlikürək bir gənc dayanmışdı. Onun əynində köhnə mazut ləkələrindən işıldayan boz əsgər köynəyi vardı. Beli kəmərsiz olduğundan köynəyinin ətəyi sallanıb qara qalife şalvarı yarıyacan örtmüşdü. Gəncin yaxası və başı açıq idi. Gur, şabalıdı saçları alnına dağılıb, iri sümüklü, bir qədər kobud, ancaq yaraşıqlı sifətini daha da dəyirmiləşdirmişdi.

Bir-birinin ardınca, çırıqqaçırıqla maşınların qapıları açıldı. Toy əhli ordan-burdan boylanışdı. Karvan boyunca xısıltılı, müəmmalı bir pıçıldaşma getdi.

– Şamil! Şamil!

– Şamil toyun qabaşını kəsib!

– Elə şey olmaz!

– Odu ey, əlini belinə qoyub, dayanıb!

– Biabırçılıq!

– Həyasız oğlu, həyasız!

– Dəli olub, nədi?

– Ə, rədd eləyin getsin!

– Hünərin var, get rədd elə! Qaya təki dayanıb!

Toy əhli maşınlardan tökülüşdü. Hamı irəli yüyürürdü. Tozlu soldat çəkmələrini bir-birindən azca aralı qoyub, kənardan baxanda belə zindantək ağırlığı hiss olunan mazutlu əllərini belinə qaldırıb, sərbəst, eyni zamanda meydanoxuyucu görkəmlə dayanmış gəncə yaxınlaşanda kutlaşıb qaldılar. Yalnız bir nəfər – bəyin qardaşı tapançasını qobura soxub irəli cumdu.

– Bu nə deməkdi? Toyu niyə saxlayırsan?!

Toybabası arxadan özünü yetirib, əlini bəyin qardaşının çiyninə qoydu.

– Bağışla, yoldaş nəçənnik, mənə belə gəlir ki, bu gün burda nəçənnik mənəm! Geri! Geri! Zəhmət çək, bir az da geri! Belə ha!.. Ay uşaq, ordan yaxşı bir nəmər!..

Toybabası əlini lopa bığına çəkib səbirlə gözlədi. Yengə maşında xeyli qurdalandıqdan sonra uzun saçaqlı ağ bir şal gətirdi. Toybabası şalı təntənə ilə havada yelləyib Şamilim çiyninə atdı.

– Bu sənin nəmərin, igid oğlan!

Şamilin dodağı qaçdı. Qıyıq monqol gözlərində istehzalı qığılcım parladı. O, tələsmədən, şalı çiynindən götürüb təmkinlə toybabasına qaytardı.

– Nəmərdən qabaq qabağıma adam çıxardın.

– Sənnən güləşəsi adamımız olmasa necə?

– Tapılar.

Toybabası yenə əlini bığına çəkib geri döndü, dərin sükutla dayanıb, yalnız hərdən eyni xısıltı ilə pıçıldaşan camaata göz gəzdirdi.

– Ə, səsiniz niyə çıxmır? Döşünə döyən var, ya yox?

Lakin camaatı, deyəsən, tamam başqa şey maraqlandırırdı. Sirli pıçıltı hələ də davam edirdi. Çoxları gizlin maraqla gəlin oturan maşına baxırdılar. Orada yengə ilə sağdışın arasında ağ kəlağayı altında gəlin başını maşının qabaq oturacağının arxasında gizlətmişdi.

Birinci maşında bəy qızarmışdı. Bəyin sağdışının isə rəngi ağarmışdı. Yük maşınının üstündə zurnaçının ağzı açıq qalmışdı.

Klubdan və kəndin ara-bərəsindən dəstə-dəstə adam yüyürüşüb meydana toplaşmışdı. Onlarla, bəlkə yüzlərlə göz Şamilə dikilmişdi. Şamil isə, eyni sərbəstliklə əllərini belindən çəkmədən dayanmışdı.

– Qabağıma adam çıxartmasanız tərpənən deyiləm, – deyirdi.

Birdən sərt dəmir şaqqıltısı eşidildi. Birinci maşının qapısı çırpıldı. Bəyin sağdışı – rəngi daha bədtər ağarmış gombul, sarışın oğlan Şamilin üstünə cumdu.

– Sənə dedilər ki, sən boyda zırpıynan güləşəsi adamımız yoxdu! Nəmərini də verdilər! Daha nə istəyirsən?

Şamilin sifəti azca bozardı. Ancaq monqol gözləri yenə də sərbəstcə, yumşaq bir istehza ilə gülümsündü. O, gəlin oturan maşına baxıb dərhal da gözünü çəkdi.

– Şərt elə yıxıb – yıxılmaqda deyil ki, – dedi. – Dədə-babamızın adətidi, toyun qabağı kəsiləndə güləşməyə adam çıxardarlar.

Bəyin müəllim yoldaşlarından, arıq-uzun və çopur ədəbiyyat müəllimi səndələyib irəli yeridi.

– Don Kixot! Bəyəm indi pəhləvanlıq zamanıdı?

Şamil müəllimin sözlərini eşitmədi. Çünki bu vaxt sağdışın spirt qoxuyan isti nəfəsi onun qulağını döyəcləyirdi:

– Adam ol, Şamil! Sənin burda gözə görünməyin toy yiyələrini onsuz da pərt eləyib. Üstəlik də qurşaq tutub qüvvət göstərmək istəyirsən?!

– Əsgərlikdə tankçı olubsan, indi də adlı-sanlı mexanizatorsan, – deyə toybabası da Şamilin o biri qulağına pıçıldayırdı. – Uşaqlıq eləmə. Nəçənnik dodağını yeyib qurtarır. Dava salıb toyumuzu yasa döndərmə, oğul!

İkitərəfli, həyəcanlı, patıltılı pıçıltılar arasında Şamil elə bil heç nə eşitmirdi. Onun beynində yalnız bircə fikir vardı: Zəhra, yəni gəlin, müəllim oğlanın özünü yox, vəzifəli, dövlətli qohumlarını, müəllimin ferma müdiri olan atasının ikimərtəbə ağ imarətini, bahalı avadanlıqla döşənmiş bəzəkli otaqlarını sevmişdi. Şamil buna öz ürəyinə inandığı kimi inanırdı. Buna görə də Zəhradan – dönük sevgilisindən intiqam almaq qəsdinə düşmüşdü. Necə intiqam alacağını o, indinin özündə də aydın bilmirdi. Toy günündə, məhz bu təntənə vaxtında, Zəhranın onunla illərlə sevişdiyini xatırlatmaq? Yox, bu Şamil üçün az idi.

O, çəkmələrini yerə bərk-bərk dirəyib ətrafına baxdı. Camaatın arasında traktorçu yoldaşlarını gördü. Onun içəridə nələr çəkdiyini bilə-bilə, milis rəisinin dəvətilə toyda iştirak edən yoldaşlarından incikliyini büruzə vermədən zorla gülümsünüb toybabasına nə isə demək istəyəndə, birdən gözü bəyə sataşdı.

Şamil dikəldi. El bil boyu birdəncə bir qarış uzandı.

– İndi ki, belə oldu, lap bəyin özünnən güləşəcəm!

Ədəbiyyat müəllimi başına qoşaəlli qapaz vurdu və özü öz qapazından səndələdi. Bəyin qardaşı pis bir söyüş söyüb Şamilin üstünə atıldı. Lakin cavanlar onu vaxtında tutdular, çəkib maşına basdılar.

Camaat çaxnaşdı. Meydanı uğultu götürdü.

– Oturun maşına!

– Sürün!

– Çəkil yoldan, əclaf!

Traktorçular tökülüb Şamili dövrəyə aldılar.

– Bu nə pərtlikdi saldın, əşi!

– Özün də pərt oldun, camaatın da çortunu pozdun!

– Yazıq içəridən yanır, neyləsin! – deyə tarktorçulardan biri kənardan dilləndi. Ancaq onu heç kəs eşitmədi.

Maşınlar yenə aramsız siqnal verməyə başladı.

Birinci "Volqa" tərpənib bircə addım aralıda dayanmış Şamilin üstünə yeridi. Yeriyib dayandı. Maşının qabağı onun dizlərinə söykəndi. Lakin Şamil indi doğrudan da əsl qayaya çevrilmişdi.

Tərtəmiz silinmiş şüşənin arxasında toybabasının iri gözləri parıldayırdı. Sağdışın qansız sifəti ağarırdı. Onların ikisi də Şamilə baxırdı. Şamil isə təkcə bəyə baxırdı.

Maşının qabağında inadla, qətiyyətlə dayandığı halda, birdəncə nə üçün kənara çəkildiyini bilmədi. Meydandan xeyli aralandıqdan sonra, başını qaldıranda yoldaşlarını gördü. Qeyri-iradi dillənib:

– İndi o da mən gündədi, – dedi.

– Kim? Kim? – deyə soruşdular.

Şamil cavab vermədi, bəyi nəzərdə tutduğunu, o zərif, günahsız oğlanın gözlərində necə kədər və ümidsizlik gördüyünü açıb söyləmədi.

Şamil kənddən çıxıb uzaqda düzənlikdə divarı ağaran tarla düşərgəsinə tərəf gedirdi. Traktorçular səssiz-səmirsiz onunla yanaşı addımlayırdılar.

Maşın karvanı isə yoluna davam edirdi.

Birinci maşında bəy aramsız papiros çəkirdi. Sağdışın hələ də rəngi durulmamışdı. Toybabası tez-tez qapını açıb başını eşiyə çıxarırdı, şkafın üstündən düşüb, indi də aşağıda oturan dəfçi ilə zurnaçılara gözünü ağardırdı.

– Ə, səs eləsəniz! – deyirdi.

Zurnaçılar "səs eləyir", lakin bircə dəqiqə sonra yenə susurdular.

İkinci "Volqa"da gəlin örpəyin altında büzüşüb ağlayırdı. Ancaq indi nə yengə, nə də sağdış onu dindirirdi.

Üçüncü "Volqa"da bəyin qardaşı da aramsız papiros tüstülədirdi, maşın tarla yolunun çala-çuxurlarında silkələndikcə onun qoburunun açıq qalmış qapağı atılıb düşürdü.

Karvan pambıq tarlalarının arasından, bölük-bölük qızların, gəlinlərin yanından keçib, qonşu kəndin ətrafında dövrə vuraraq qayıtdı. Öz kəndlərinə girəndə, bəyin qardaşı yenə havaya bir neçə güllə atdı. Karvanda təntənə bərpa olundu.

Yenə də güclü, davamlı siqnallarla darvazadan içəri girdilər.

Birinci "Volqa" həyətdə dayananda, hamıdan əvvəl toybabası maşından düşdü. Əlini bığına çəkmək istədikdə əli havadan asılı qaldı. İkinci və üçüncü "Volqa"lardan başqa, arxadakı maşınların hamısı boş idi.

– Bıy, ə, bu camaat harda töküldü?!

Ona cavab verən olmadı.

Bəyin qardaşı təəccüblə milis nəfərinə baxdı.

– Kişiyə niyə cavab vermirsiniz? Camaatı niyə buraxdınız?!

Milis nəfərləri başlarını aşağı salıb, beləcə qaldılar.

Bəy də, sağdışı da eyni vəziyyətdə dayanmışdı. Həyəti sükut bürümüşdü.

Toybabası fikirli-fikirli yerə baxırdı. Haçandan-haçana yorğun hərəkətlə zurnaçılara tərəf döndü:

– Səs eləyin, səs eləyin, bala, – dedi.

Çünki səs eləməmək olmazdı. Bir halda ki, toy vardı, deməli, zurnaçılar çalmalı idilər.

## BİR AZ ROMANTİKA

Yay qurtarmışdı. Plyaj boşalmışdı. Qum soyumuşdu. Onlar qumun üstənə xalça salıb yanaşı uzanmışdılar

Arada Şərqiyyə başını qaldırıb ağır-ağır gözlərini onun üzündə gəzdirirdi. Murada elə gəldi ki, dənizlə, sahillə birgə bu ala gözlərin dərinliyində də sükut və rahatlıq vardır. O, xəyalən bu gözlərdən öpüb qımışdı.

– Şərqi, səssizliyə fikir verirsən?

– Mənim fikrim sənin maşınındadır. Ağ "Volqa"dan yaman xoşum gəlir. Bir dön bax. Səncə nəyə oxşayır?

Murad yanakı boylanıb çiynini çəkdi:

– Məncə, elə "Volqa"ya oxşayır.

– Bir də bax.

– Baxdım.

– Elə yox. Üzünü yerə söykə aşağıdan bax. Bir də gözünü yum. Elə elə ki, maşınla göydən başqa heç nə görünməsin.

– Sən mənim başıma oyun açırsan, Şərqi. Kosmik gəmiyə oxşadırsan nədir sən bu maşını?

– Afərin, afərin! – Şərqi sevinclə əlini-əlinə vurdu. – Mən bu qənaətdəyəm ki, bir-birinə yaxın olan adamların zövqü də, hissi də, fantaziyası da uyğun gəlməlidir... Doğrudan oxşayır, ya yox, hə, Murad?

– Düzünü deyim?

– Bıy, əlbəttə!

– Düzü, göyü yadıma salmasaydın, kosmik gəmi-zad ağlıma gəlməzdi.

Şərqi əvvəlcə elə bil bir az məyus oldu, sonra süni incikliklə dodaqlarını büzdü. Murad ciddiləşib nə isə demək istədi. Şərqi barmaqlarının ucunu onun dodaqlarının üstünə qoydu.

– Dayan!.. Bax, tutaq ki, maşının əvəzində bu saat burda doğrudan da kosmik gəmi var, özü də starta hazırdır. Uçarsan?

– Yox.

Şərqinin qaşları tərpəndi.

– Niyə?

Murad barmaqlarının ucu ilə onun aypara qaşlarını sığalladı.

– Sənə rast gələndən sonra yerdən ayrılmaq istəmirəm.

Şərqi bir daha dodaqlarını büzdü.

– Kompliment!

– Kompliment deyil, Şərqi.

– Yaxşı, mənnən bir yerdə necə, uçarsan?

– Yox.

– Niyə?

– Çünki kosmosda sənnən belə sərbəst söhbət eləmək zövqündən məhrum olaram.

Şərqi şirin pıqqıltı ilə gülüb onun üzünə yüngülcə bir sillə vurdu.

– Neispravimıy realist!

Murad ciddiləşdi.

– Şərqi, səndən bir xahişim var.

– Buyur.

– Mənnən rusca danışma.

– Bıy, neyçün?

– Sən rusca çox təmiz danışırsan, Şərqi, mən özümü yaxşı hiss eləmirəm.

Şərqi duruxdu.

– Başa düşmədim.

– Demək istəyirəm ki, sən rusca danışanda mən özümü məhdud adam kimi hiss eləyirəm.

– Vzdor!.. Bəyəm sən dili pis bilirsən?

– Çox pis! Günün tələbilə yanaşsaq, demək olar ki, heç bilmirəm.

Şərqi əlini onun saçlarına toxundurdu.

– Bednenkiy! İstəyirsən sənin müəllimin olum?

– Qırxında zurnaçılıq öyrənən gorunda çalar, Şərqi... – O, Şərqinin bu xalq məsəlini başa düşdüyünə şübhə etdi. Fikrini başqa tərzdə demək istədi. Ancaq Şərqi başa düşdü.

– Sənin ki, qırx yaşın yoxdur?

– Var, Şərqi.

– Elə şey olmaz!

– Hələ bir az da artıqdır.

– İnanmıram. Başında bir dənə də ağ tük yoxdur.

– Yaxşı baxmamısan.

– Bu sənin başın, bu da mənim gözlərim!
– Görə bilməzsən.
– Niyə?
– Çünki hava qaralıb.
– Hava?.. – Şərqi dümağ qu quşu boğazını uzadıb təəccüblə ətrafına baxdı və birdən qəhqəhə çəkdi. – Biz gələndə saat neçə idi? – Cavab gözləmədən yenə qəhqəhə çəkdi.

Murada görə o, elə-belə xoşbəxtlikdən gülürdü. Əllərini Muradın sinəsinə dirəyib yuxarıya doğru dartılmış başını arxaya atıb cingiltili səslə aramsız gülürdü.

Murad bu çay kimi çağlayan gülüşün səbəbi barədə yalnız bir az düşündü... Tünd mavi göydə iri-iri seyrək ulduzlar parıldayırdı. Üzərini nazik qaranlıq layı örtmüş hamar qumluq, üfüqün ağ fonunda cərgə-cərgə düzülmüş balıqçı talvarları, uzaq, kələ-kötür sahil qayaları – hər şey sükutda idi. Təkcə Şərqi gülürdü. Üzünü ulduzlara tutub, öz gözəlliyi ilə, xoşbəxliyi ilə sanki bütün dünyaya meydan oxuyurdu. Onun qulaqlarının ucunda xırda sırğaları hardansa düşən görünməz ziyaları əks edib işıldayırdı. Dənizin rütubətindən nəmlənmiş yanaqları da, sifətinə nisbətən bir az ətli görünən alt dodağı da işıldayırdı. Açıq sarı, dalğalı saçları, gülməkdən titrəyən çılpaq çiyinlərinin üstündə gəzirdi. Murad bu aşağıya doğru meyilli zərif çiyinləri xəyalən əllərinin altında hiss etdi. Qəfil güclü hiss dalğasından gözləri torlandı. O, hansı bir möcüzə iləsə göydən yerə enmiş gözəllik ilahəsini bağrına basmağa, oxşamağa, əzizləməyə tələsdi. Lakin Şərqi onun qolları arasından sivrilib yox oldu.

Murad nəfəsini dərdi, başını qaldıranda faraların işığı üzünə vurdu. Maşının qapısı yumşaq çıqqıltı ilə örtüldü, toranlıqda incə, ağımtıl bir siluet fırlandı, sonra gur işıq seli içərisində qu quşu peyda oldu. O, tuflilərini Muradın böyründə, xalçanın yanında qoyub getmişdi. Ayaqlarının altında xışıldayan balıqqulaqlarının üstüncə yeriyə bilmirdi. Qollarını yana açıb, əyilə-əyilə, çökə-çökə gəlirdi. Birdən o, işıq selinin lap ortasına düşdü, çətirvari çit don yoxa çıxdı. Murad cizgiləri bütün aydınlığı ilə görünən qadın bədəninə ehtiraslı baxışı ilə onların hələ heç bir şeydən ləkələnməmiş münasibətləri arasında bir ziddiyyət duyub başını aşağı saldı.
– İşığı niyə yandırdın?

– Necə niyə? Sənin saçına baxacam... Oy!.. – Şərqi bir ayağının üstündə o yan – bu yana əyildi. Murad parketdən və asfaltdan kənarda yəqin ki, çox az olmuş, bəlkə də heç olmamış bu zərif məxluqun barmağının ucuna daş toxunduğuna dözmədi, bir sıçrayışla atılıb onu hop götürdü, gətirib ehtiyatla xalçanın üstünə düşürdü. Üz-üzə, yanakı oturdular. İndi Şərqi çox diqqətlə onun saçlarına baxırdı. Murad isə elə bil hələ də Şərqini qucağında tutmuşdu, sol əlində onun belinin sümüksüzlüyünü, sağ əlində onun bədəninin hərarətini hiss edirdi. Bir... iki... üç... – deyə Şərqi fasilələrlə pıçıldayırdı və için-için gülürdü. Axırda yenə qəhqəhə çəkdi. Dabanlarının üstündə oturub əllərini dizlərinə çırpdı. – Düz səkkiz dənə ağ tük! – Süni təəssüflə boynunu bükdü. – İtak, ya vıxoju zamuj za starika!

Murad dikəldi, onun gözlərinin içinə baxdı:

– Mən qulaqlarıma inanmıram, Şərqi!

– Niyə?.. Neyçün?.. – deyə Şərqi elə bil qeyri-şüuru soruşdu.

"Yəqin dilinə təsadüfən gəldi", – deyə Murad fikirləşdi. Lakin o dəqiqə də Şərqinin sevinclə dolu zil səsini eşitdi:

– Ya vıxoju zamuj! – Şərqi ləpədöyəndə qollarını geniş açıb, üzü dənizə doğru qışqırırdı: – Ya vıxoju zamuj!..

Murad yüyürüb onun çiyinlərini qucaqladı. Burada ilk dəfə Şərqi Muradın istəyinə mane olmadı. Daha doğrusu, o özü qollarını Muradın boynuna doladı. Sonra başını endirib yanağını onun sinəsinə söykədi.

Onlar dənizi də, qumu da, axşamdan maraqla tamaşa etdikləri heybətli sahil qayalarını da unutdular.

Xeyli keçəndən sonra Şərqi yenə için-için güldü və nədənsə diksinmiş kimi birdən başını qaldırdı.

– Oy!..

– Nə oldu?

– Maşın bizə baxır!

Seyrək duman arxasında maşın odlu gözlərini geniş açıb doğrdan da onlara baxırdı. Uşaq kimi əl-ələ tutub yüyürüşdülər. Murad işığı söndürdü. Ətrafa zülmət çökdü. Dəniz də, qum da, qayalıqlar da, balıqçı talvarları da, onlarla birlikdə Şərqi də qaranlıqda yox oldu. Murad nə isə anlaşılmaz və qəribə narahatlıq keçirdi. Ona elə gəldi ki, beş gün bundan əvvəl təsadüfən tanış olduqları kimi, indi də təsadüfən ayrılmışlar. Şərqisiz dünya zülmətə batıb.

Lakin qaranlıq seyrəlməyə başladı. Murad Şərqinin gözlərini, sonra ortası işıldayan alt dodağını, daha sonra isə bütün sifətini gördü. Şərqinin sifətində həmişəki adi oynaqlıqdan əsər-əlamət qalmamışdı. O, ciddi, dərin hissiyyatlı bir mehribanlıqla və nəvazişlə Muradın pəhləvan cüssəli qamətinə tamaşa edirdi. Murad başa düşdü ki, onlar ayrılmaq üçün tapışmayıblar. O, dərindən nəfəs aldı, dönüb dənizə baxdı. Uzaqda dənizin sinəsi qabardı. Yaxında axşamdan birinci dəfə ləpələrin şırıltısı ilə birgə Muradın pıçıltısı eşidildi:

– Şərqi, mən çimmək istəyirəm!

– Nə?.. Dəniz soyuqdur. Çimmək olmaz! – deyə Şərqi etiraz etmək istədi. Lakin etiraz əvəzində birdən uşaq kimi sevindi. – Dayan! Məni də gözlə!..

Qayalığın yanında zəif işıqlı, köhnə bir motoroller çatıltı-patıltı ilə dayanıb susdu. Rezin çəkməli, plaşlı və papaqlı balıq ovu azarlısı şeylərini götürüb qayanın üstünə çıxanda heyrətindən donub qaldı. Payızın orta ayında buz kimi soyuq dənizdə iki nəfər çimirdi. Onlar bir-birinin üzünə su çırpır, sonsuz mavi genişlikdə şaqraq qəhqəhə ilə gülüşürdülər.

Qoca balıqçı özünü suda təsəvvür etdi, canından üşütmə keçdi.

– Brrr!..

# ARX

Tək bizim Qonaqlıda yox, bəlkə bütün dünyada Güləndam arvad yekəlikdə ikinci bir arvad tapmaq mümkün deyildi. Hər yanı bir gəmi. Necə deyərlər, yeriyəndə yer yırğalanırdı. Fikirləşirəm, deyəsən, adı heç Güləndam deyildi... Yadımdan çıxıb. Çünki adı əvəzinə kənddə hamı Nərəm-nəhrə deyirdi. Əri ilə oğulları hələ müharibəyə getməmiş pambıq çəkilən yerdə əri bir qolundan yapışdı, iki oğlu da o biri qolundan dartıb zorla qapan-tərəzinin üstünə çıxartdılar, çəki daşlarını üst-üstə qalaqlayıb arvadın ağırlığını çəkdilər. Neçə olsa yaxşıdır? İkicə yüz kilo. Bunu deməsəm olmaz. Çünki əvvəli bir az gülməli olan bu dəhşətli faciənin axırında Nənəm-nəhrənin çəkisi çox vacibdir.

Faciənin əvvəli-axırı deyəndə elə bilməyin ki, uzun əhvalatdır. Yox, lap qısacadır.

Əri ilə oğulları müharibəyə gedəndən sonra Nənəm-nəhrənin qapısında qarğıdalı yanırdı; qapısında, yəni həyətyanı sahəsində qarğıdalı əkini. Kişili evlərin adamları gecələr pambığın suyundan oğurlayıb qapılarını sulayırdılar. Səhərisi kolxoz sədri ilə cuvar qışqır-bağır salanda kişilər topalama qabaqlarına çıxıb ikisinin də səslərini batırırdılar. Nənəm-nəhrə isə elə həmişə yalvardığına görə, yəni gecələr su oğurlamayıb gündüzlər də hərbə-zorba gəlmədiyinə görə, dediyim kimi, qarğıdalısı yanırdı. Ağsaqqallar əkinin böyür-başından keçəndə deyirdilər "Lap saralıb Nənəm-nəhrənin qarğıdalısı, beş altı gün də belə getsə heç nə ələ gəlməyəcək. Yazıq arvad ac qalacaq". Niyə? Çünki kolxoz əməkgününə heç nə vermirdi. Arpa, buğda, darı, qarğıdalı, nə hasil olurdusa hamısını hərbi fonda verirdi. Camaat elə qapıdan çıxan qarğıdalı ilə dolanırdı. Nə isə, qısası, yazıq Nənəm-nəhrə elə yalvara-yalvara qalmışdı. Nə sədr eşidirdi sözünü, nə də cuvar.

Gecənin birində lapatkamı götürdüm, getdim ki, bəlkə birtəhər su oğurlayım pambığa gedən arxdan, yazıq arvadın qarğıdalısını sulayım. Amma iş ayrı cür oldu. Lapatkanı kəndə gələn arxın ağ-

zında torpağa uzadanda birdən quruyub qaldım. Qaranlıqda üzümə iki yekə göz baxırdı. Dedim yəqin camışdır, yayın bürküsündə istidən təntiyib özünü arxa salıb. Sonra gördüm camış nədir, zad nədir, Nənəm-nəhrədir, oturub pambığa gedən arxın ağzında, su bütüncə bu yana – kəndə gələn arxa axır. Sonra baxdım ki, kolxoz sədri boynunu bir yanda büküb durub, cuvar o biri yanda.

– Tərpədəmmirik, tərpədəmmirik, – deyirdilər.

Qayıtdım, arvadın qapısında suyu qajlara vurdum, yəni əkinin içindəki nazik arxların aralarına. Səhərə qədər suladım qarğıdalını, çıxdım getdim evə.

Axşam yuxudan oyananda gördüm Nənəm-nəhrənin qapısında yığnaq var. Demə, arxın içində səhərə qədər oturub suyu bəri axıdandan sonra titrətmə tutub arvadı. Gün doğanda sudan çıxıb özünü günə verib ki, titrətməsi kəssin. Kəsməyib. Yazıq elə orda, arxın qırağındaca ölüb.

# HƏQQ-ƏDALƏT

Mir Cəfər Bağırovun Atakişiyev deyilən generalı birdən-birə bizim kənddə peyda oldu. Arıq, balaca, əmma sac üstündə atılıb-düşən qovurğa kimi bir şeydi. Əsgəroğlunun atını istədi. Gətirdilər. Mindi, sürdü; kolxozun yan-yana düzülü, hündür, uzun mal töylələrindən birinin belinə qalxıb, ordan kəndimizi seyr elədi. Dedilər: cəmi iki imarət var, yoldaş general, biri vergiyığan Nəziroğlunundu, o biri də Gödək Məmməd deyilən köhnə ispalkomundu, qalanı hamısı ayıbalasındandı, çaylaq daşındandı. Bircə Xozeyn Məmməd deyilən rus dili müəlliminin evinin orta dolaması ağ daşdandı; yəni Muğanlı kəndi varlı kənd deyil.

Atı şallaqladı, endi töylənin belindən, soruşdu ki, bəs Əsgəroğlunun o nəhəng daş evini niyə demirsiniz?!

Dedilər: onu qardaşı Məcid Tağı tikdirib, çıxıb gedib Qazağa müəllimliyinə, ev, odur bax, çat-çatdır, içində qalan yoxdur.

Dedi: bəs Əsgəroğlunun ailəsi harda yaşayır?

Dedilər: o çat evin o yanında, çəpərin dibində toyuq damı var, orda olurlar.

Dedi: bizə yazıblar, Əsgəroğlunun iki oğlu, bir qızı var. Arvadı, bacısı, özü, altı nəfər necə yaşayır o toyuq hinində?!

Dedilər: hin demirik biz, yoldaş general, dam deyirik. O toyuq damının qabağında alçacıq bir çardaq var, o yan-bu yanını qarğıdalı şaxıyla döşəyiblər, arvadı Şəmsiylə özü orda yatır, uşaqlarla bacısı damda.

Dedi: bizə yazıblar, qopezdi sizin istəkli Əsgəroğlunuz! Tutmalıyam mən onu! Harada gizlətmisiniz?!

Dedilər: Əsgəroğlu gizlənən adam deyil, yoldaş general. Əmbə burası var ki, kolxozda bir ilxı atı bir yana qoyub Əsgəroğlunun özünün mindiyi atı istədin sən. Əsgəroğlu dedi o belə-filanoğlu niyə elə mənim mindiyimi minmək istəyir?! Tutur tutsun, daha namusa sataşmaq nədi?!

Dedi: mən onun dədəsini yandıracam! Haradadır? Gəlsin!

Dedilər: idarəsində, otağında oturub, gözləyir ki, gedib aparasan.

General Atakişiyev yenə atı şallaqladı.

Dedilər: Əsgəroğlu o ata şallaq vurmur, at özü gedir.

Dedi: bəs indi niyə getmir?

Dedilər: bizim atlar dil bilirlər, yoldaş general. Başa düşür ki, sən yad adamsan.

Atakişiyev yəhərdə dik atıldı, sifəti qızardı, qaraldı, gözləri xırdalaşdı.

– Nə?! Siz mənə yad deyirsiniz?!

Dedilər: yad olmuyanda nəsən, Əsgəroğlunu da tutarlarmı?! Bu camaata çörək verir! Onu tutan adama güllələnmə düşür, yoldaş general!

Atakişiyev tapançasını çıxartdı. Camaat dağılışdı. Çox qəribə oldu ki, Əsgəroğlunun atı bu dəfə şallaqsız tərpəndi: başını sallayıb, qəmli-qəmli yeriyib, yüz addımlıqda, idarənin qabağında dayandı. Əsgəroğlu özü də başını sallayıb, gəlib atın yanında dayandı.

Atakişiyev dedi:

– Çəkmələrini çıxart!

Əsgəroğlu çəkmələrini soyunub idarənin kandarına qoydu.

Atakişiyev dedi:

– Düş atın qabağına!

Əsgəroğlu ayaqyalın, başıaçıq atın qabağınca Böyükkəsik stansiyasına qədər dinməz-söyləməz gedib, orda birdən geri buruldu, dedi:

– Saşa Babayev məni buraxdıracaq, sənin özünü tutduracaq.

Doğrudan da elə oldu: Bir ildən sonra, yəni min doqquz yüz əlli dördüncü ilin yazında bizim Babayevimiz gedib Bayıl dustaqxanasından Əsgəroğlunu, necə deyərlər, öz əli ilə çıxardıb, öz maşınına mindirib, birbaş Muğanlıya gətirdi. General Səlim Atakişiyevə isə, bilirsiniz ki, iyrmi beş il həbs cəzası verdilər. Çünki çox-çox belə işləri vardı.

Tutulmasının xəbəri çıxanda Əsgəroğlu ikicə kəlmə dedi:

– Həqq oldu

Yəni ədalət oldu.

---

[1] Meşə nəzarətçiləri

## NİYƏ?

Babamın bacısı, gözəllər gözəli ŞamAğa nənəmizin Dünyamalı adında bir oğlu vardı. Hamı deyirdi: “Bu hardan əmələ gəldi?!” “Allah niyə qarğadı bizə?!” “Bu nədi belə?!” Boyu yarım metr. Dizinin biri sağa baxırdı, o birisi sola. Çiyninin sağında, solunda da iki fır. Bu az imiş kimi, gözləri nəhəng, ağzı dar və sairə. Bədbəxtin idbarlığını saymaqla qurtarmaz. Üstəlik də ki, ağıl yox!.. Sovet pulunun qiymətli vaxtları idi. Yəni hələ müharibə-zad yoxdu. Babamın “sinfi mənsubiyyəti”nə görə “səsi alındığına”, yəni vətəndaşlıq hüququndan məhrum edildiyinə görə tez-tez inək, qoyun, keçi-filan satırdı. “Qaraltısını azaltmalıyıq bu heyvanın. Yoxsa günlərin birində məni də divara söyküyər bu şura”, – deyirdi. Və buna görə də heç vaxt üzü gülmürdü. Ən böyük dərdi isə, deyilənə görə, Dünyamalı idi. ŞamAğa nənəmizi görəndə o dəqiqə köksünü ötürürdü: “Özün gözəl, ərin gözəl, oğlun gözəl, qızın gözəl! Bu sonbeşik hardan peyda oldu, ay Şamım?!” Yazıq ŞamAğa nənə elə həmişə kəlağayısının ucunu gözlərinə tuturdu. Nə isə... Təfsilatı çoxdur, yazmıram... Günlərin birində kəndimizin ağsaqqalları həyətimizə yığışmışdılar. Kim isə uzun, nəhəng bir qovaq ağacını dibindən xırxılayıb, iki boyun, yəni dört kələ zəncirlə sürütdürüb, gətirib həyətimizin genişliyində bu başdan o başa uzatmışdı. Babam bu nəhəng qovaq ağacını yondurub, qurudub taxta çəkdirəcəkdi ki, otağımızın böyründən tikdirdiyimiz otağın tavanına, döşəməsinə vurdursun. Könlü açılmışdı kişinin: “Nə yaxşı, tutmadılar ərbeşiklər[1]? – deyirdi. – İndi biz bunu hara qoyaq ki, quruyana qədər görən olmasın? – deyirdi. – Ağıllı kişisən, ay Rzaqulu, beş ağac əvəzinə birini kəsdiribsən”, – deyirdi.

Bu vaxt birdən Dünyamalının səsi eşidildi:

– Dayı, mən də ağıllı kişiyəm!

“Kişi” deməyə, əlbəttə, haqqı vardı: yaşı otuzu keçmişdi, əmma ağıl barədə dediyi babamı pərt elədi. Çünki həyətdəkilərin hamısı güldü.

– Hə?! Nə vaxtdan ağıllanıbsan, ay Dünyamalı?

– Bir göstərsənə ağlını!

Və sair belə-belə sözlər deyib qaqqıldaşırdılar.

Babam isə, həmişə hirslənəndə olduğu kimi, təsbehini şaqqıldadırdı.

Birdən əlini arxalığının cibinə salıb portmanetini çıxartdı, portmanetdən də bir yekə qırmızı otuzluq çıxardıb Dünyamalıya verdi:

– Apar bunu koprativdə xırdalat, gətir, Rzaqulu kişinin haqqını verək. Həm də özünə saçaqlı konfet al, – dedi.

Dünyamalı babamı çox istəyirdi. Kəndin aralığında uşaqlar yazıq şikəstin ora-burasını qurtdalayıb gülüşəndə həmişə dayısına arxalanırdı: "Dayıma deyərəm! Dayıma deyərəm!" – deyirdi. Və qəribə idi ki, babam özü də o dəhşətli anlarda onu həmişə hamıdan qoruya-qoruya əzizləyirdi. Dayısının Dünyamalını və Dünyamalının dayısını çox istəməyi elə bundan da görünürdü ki, hər ikisinin cibi "saçaqlı", yəni uzun "qəvli konfet"lə dolu olurdu. Dünyamalı öz ciblərindəki konfetləri sorub, xırtıldadıb qurtarandan sonra dinməz-söyləməz əlini babamın cibinə salırdı. Babamın ŞamAğa nənəni görəndə hər dəfə deyinməyi ilə bu "saçaqlı" əhvalatı heç tutuşmurdu. Dünyamalı kooperativdən – dükandan qayıdanda ağzında uzun sarı müştük kimi tutduğu "saçaqlı"nı görər-görməz babamın gözlərinin yaşarması, dodağının titrəməsi də göstərirdi ki, dayısı bu yazığı bəlkə hətta məndən, yəni "Şolloyum! Şolloyum!" – deyə-deyə əzizlədiyi yeganə nəvəsindən də çox istəyirdi. Nə isə... "Özünə saçaqlı al!" – deyəndə babamın yenə dodağı titrədi. Hamı, hətta altı yaşlı Şolloy da başa düşdü ki, otuzluğu xırdalatmaq bəhanə idi, babam Dünyamalını həyətdən qəsdən uzaqlaşdırdı ki, "Dayı, mən də ağıllı kişiyəm" sözlərinin qopardığı qaqqıltılı gülüş kəsilsin.

Dünyamalı özü isə, əlbəttə, heç nə başa düşmədi. Otuzluğu gödək, yoğun kərtdəş barmaqları arasında, başı üzərində yelləndirə-yelləndirə yüyürüb getdi və dükan yaxında olduğuna görə tezcə də qayıtdı və...

Ömrümdə unutmamışam: Dünyamalı qoşa ovcunu babamın qabağında tutub tövşüyürdü:

– Al, dayı, xırdaladım. Əmbə saçaqlı vermədi bu dəfə dükançı.

Babam pulun cırıqlarını sol ovcuna yığıb sanadı:

– Hə, düzdü. Düz otuz yerə cırıbsan, – dedi.

Sonra birdən-birə zəhmli oldu. Çox pis zəhmli oldu və qışqırdı:

– Ağlın qar suyuna dönsün sənin! Mən sənə xırdalat dedim, yoxsa, cır dedim, ay mənim bədbəxtim!

Ağladı babam! Elə hönkür-hönkür ağladı ki, həyətə yığılan kişiləri də ağlatdı. Bir ay sonra evə gedəndə gördüm ŞamAğa nənəm də ağlayır, gözəllər gözəli böyük qızı da, kişilərimizin ən gözəli böyük oğlu da, gəlinlərimizin ən gözəli Anaxatun da. Dünyamalı isə kandarda oturub iri-iri gözlərlə elə hey onun-bunun üzünə baxırdı. Səhər oyananda gördük Dünyamalı həmin oturduğu yerdəcə oturub başını sinəsinə əyib. Babam mənim böyrümdən – taxtdan yerə atıldı, yüyürüb Dünyamalının başını yuxarı qaldırdı.

– Vay!.. – deyib yumruqlarının ikisini də başına çırpdı. Ölüm Allah buyuruğudu. Bu necə ölümdü, ay bədbəxt balam!

Evimizdə elə bir ağlaşma başladı ki, mən heç vaxt heç yerdə elə dəhşətli ağlaşma görməmişəm. ŞamAğa nənəm isə sızıldayırdı.

– Körpə balam! Körpə balam! Körpə balam!...

# CƏBHƏDƏN MƏKTUB

Səlam, əziz balam, canım-ciyərim Şolloyum. Çox qəribə bir iş oldu. Döyüş qurtardı, generalımızdan sıravi, tozlu-torpaqlı əsgərlərimizdən lap əfəllərinə qədər hamı soyunub töküldü Dunaya. Mənim də canım yanırdı. Bir aydan çoxdu ki, gövdəmə su dəymirdi. Əlimi atdım kəmərimə ki, mən də soyunum çimim, əmma əlim toqqamda qaldı. Niyə? Çünki qulağıma durna səsi gəldi; Qarayazı, Türmən düzü gəldi durdu gözümün qabağında. Başımı qaldırdım, baxdım gördüm göyün bir qatında bir qatar durnadı, qatardan düşüb, qışqırışa-qışqırışa çaxnaşır. Bizimkilər belə deyildilər. Yadındadırmı? "Qərib-qərib, qəmgin-qəmgin ötərsiz, üz tutmusuz nə məkana, durnalar?" Soruşardın, ay Dədə, durnalar niyə qərib-qərib ötürlər? Deyərdim, çünki iki vətənləri var, biri Arazın o tayında, biri də burdadı. Bura gələndə oranın həsrətini çəkirlər, ora gedəndə buranın. Sən mənim fəhmli balamsan. Deyərdin, ay Dədə, Anadilin vətəni də iki deyil ha, bə Anadil niyə elə qərib-qərib, qəmgin-qəmgin ötür? Deyərdim Anadilin də öz dərdi var, canım-ciyərim... Hə, onu deyirdim, hamı töküldü Dunaya, mən əlim toqqamda, gözüm göydə eləcə qaldım. Çünki yadıma sən düşdün, canım-ciyərim Şolloyum. Yadındadırmı, Türməndə qoyun qırxırdıq. Gəldin durdun başımın üstündə, dedin, ay Dədə, o durnalara nə olub, niyə elə çaxnaşırlar, özləri də qərib-qərib ötmürlər, qışqırışırlar. Qırxılığı qoyunun üstündə saxladım, başımı qaldırdım, baxdım, dedim belə çaxnaşanda durna keçəlini seçir, qovur qatardan, sonra yenə qatarlanır gedir. Yadındadırmı necə qəmləndin? Dedin bə yazıq deyilmi o keçəl durna, niyə qovurlar, ay Dədə? Dedim çünki o keçəldən başqa durnalara da keçəllik keçər. Dedin yaman düşdülər gözümdən durnalar. Sən bir söz qanammadın. O qəmim ürəyimdə qaldı.

Canım-ciyərim Şolloy balam, indi burda Dunayın sahilindən o çaxnaşan, qışqırışan durnalara baxanda o qəmim oyandı ürəyimdə, ağlatdı məni, mənim köyrək balam. Bilirsən, biz artilleriya komandirləri döşümüzdə xüsusi durbin gəzdiririk ki, uzaq

məsafədən düşməni görək, məsafəni hesablayaq. Çıxartdım durbinimi, dedim baxım görüm o yazıq keçəl durnanı görə bilərəmmi? Baxdım deyirəm, yenə də dondum qaldım. Keçəl nədi, zad nədi? Gördüm bir yekə şeydi, şahindi, şonqardı-nədi düşüb durnaların arasına, gah onun üstünə şığıyır, gah bunun üstünə, tük tökülür, nə tökülür! Dəli oldum, dedim neyləyim, görəsən güllə çatarmı oraya, vurum o qaniçəni? Biz topçularda avtomat da olur, beşaçılan da. Beşaçılanı qaldırdım üzümə, nişan aldım, atdım. Quş fırlana-fırlana gəldi tappıltı ilə düşdü qabağıma. Baxdım ki, şahin, şonqar deyil. Durnadı. Ağzında qan göllənib qalıb. Yaman dərd oldu mənə, əzizim. Dedim Şolloyuma yazım, bu məktubu oxuyandan sonra bir də əlinə tüfəng almasın, ov eləməsin. Eləmə, canım-ciyərim! O erkək – xoruz durnanı unutma!

# QAYIM QAYA

(*rəmz*)

Dayım otuz yaşlarında, necə deyərlər, pələng kimi oğlan idi. Sifəti də sarı-qırmızı, enlikürək, gözlərində elə bil həmişə od saçılardı. Bu, əlbəttə, ata-babadan gəlmə, irsi əlamətlərdi, yığışıb dayımda cəmləşib, hələ ilk cavanlıq çağlarından məşhurlaşmışdı. Bütün kənddə sevirdilər dayımı, hörmət eləyirdilər, əzizləyirdilər. Yəqin elə buna görə idi ki, evimizdə hansı əyyamdansa qalıb, indi dayımın bir növ xüsusi malına çevrilmiş gödərək, zəhmli Osmanlı beşaçılanını nə kənd soveti almaq niyyətində idi, nə də bir başqa hökumət orqanı; "Özü bilmirmi silah saxlamaq qadağandı?! Ağlı başında müəllim adamdı, gərək özü qansın, təhvil versin. Vermir! Deməli, nəsə qəsdi var..." Belə-belə müəmmalı söz-söhbət gəzirdi. Onu da deyim ki, nədənsə hamı mənim dilimlə "Dayı" deyirdi... Yazbaşı, qar yerdən çəkilər-çəkilməz dayım beşaçılanı çiyninə keçirib, lüləsini "üzüaşağı sallayıb", üstündən mərhum çoban atasının qara, saçaqlı yapıncasını salıb, çalkeçıri boğazının altında şıqqıldadıb, ətəkləri yellənə-yellənə Çala, yəni sıx yovşanlıqlarla örtülü, dərəli-təpəli dağ ətəklərinə üz tutardı. "Bacıoğlu" çağırdığı daimi ov yoldaşı da, əlbəttə, yanınca yortardı.

Qarşılaşanlar soruşardılar:

– Yenə hara belə, ay Dayı?

Necə yəni hara? Aydın məsələ idi ki, tülkü ovuna gedərdik. Dağ ətəyində, daşlıqlarda, yəni kəklik olan yerlərdə siçan yuvaları kimi, ən azı iki-üç yerdə ağzı qaralan tülkü yuvalarına yaxınlaşanda ayaqlarımızı soyunub, sinə-sinə, yəni əyilə-əyilə gedərdik. Saysız-hesabsız tülkü yuvalarına lap yaxınlaşanda Dayım yuvanın ağzının birinə bir güllə boşaldanda yuvanın o biri ağızlarından gah tək, gah da iki, üç tülkü (bəzən analı-balalı) göyə atılıb guppultu ilə yerə düşəndə ikinci, üçüncü güllə açılardı. Bir də payızda, yağışlar başlayanda gedərdik və hər gedəndə iki-üç tülkü dərisi gətirərdik. Dayımın alverçi adamı vardı, dəriləri qurudub, aşılayıb satardı.

Dayımın kənddə xüsusi hörmətinin bir səbəbi də elə bu idi ki, cibindən pul əskik olmazdı, istəyənlərə borc verərdi və borcu qaytarmayanlardan istəməzdi. Beşaçılanın alınmamasının bir səbəbi də yəqin ki, elə bu idi.

Bu, necə deyərlər, müqəddimədi. Bu müqəddimə, yəni tülkü ovu əhvalatı olmasaydı, məncə, "Qayım qaya" əhvalatı da olmazdı.

Günlərin birində, gərək ki, yazbaşı idi. Dayım nə qədər güllə atdısa, bir dənə də tülkü tapılmadı. Dedi:

– Biclik eləyirlər. Gəl tüstü qoyaq.

Bir aləm yovşan qurusu yığdıq, yuvaların azı yeddi-səkkizinin ağızlarında yandırıb "tüstü qoyduq" ki, tülkü boğulub o biri ağızdan çıxsın. Olmadı. Qısası, tülkülər yoxa çıxdılar. Ov işimiz qurtardı?! Əlbəttə Dayım nə kəkliyə güllə atardı, nə də bildirçinə. Başladıq neyləməyə? Qayıtmağa? Xeyr. Dağın döşündə ot tayası kimi qaralan "Qayım qaya" deyilən qayanın döşündə təkbaşında həlqə-həlqə nişangahlar cızdıq, iyirmi beş addım, sonra əlli addım məsafədə növbə ilə diz çöküb nişangahlara güllə atdıq. Bu bir növ yarış idi. Dayı vuracaq onluğa, ya Bacıoğlu? Məlum oldu ki, heç birimiz vura bilməmişik.

Dayım hirsləndi.

– Ola bilməz! – dedi və beş-altı addım dala çəkilib, təbaşir dairəsinin birinin tən ortasını-onluğu nişan aldı və... heç nə! Yaxınlaşıb gördük təbaşir dairəsinin ortasında lap iynə ulduzu boydaca iz də yoxdur. Bəs bu güllə hara dəyib?.. Atdıq, atdıq... gah Dayım, gah mən. Yenə heç nə!..Heyrət içində evə qayıdanda yolda qarşılaşanlar əlimizi boş görüb, əvvəlcə tülkülərin, ümumiyyətlə, bu səmtdən qaçışıb meşəyə dolduğunu xəbər verdilər, sonra qayadan söz düşdü. Dedilər:

– Axı Qayım qayadı o, ay bala.

– Balta küpüynən də qamqalaq qopmur! Hə, o da elə daşdı də!

Dayım lap məəttəl qaldı. Demə, tərs damarı varmış: sabahısı tüfəglə başqa bir ağır dəmirçı çəkici də götürdü.

– Qıraq, – dedi. – Əmma... Dəhşətə bax ki, Dayım qayanı taraq-qataraq döyəcləyib tərə batsa da, yenə də bir xırdaca qamqalaq da qoparda bilmədi.

– Bu nə sirdi belə, ay Bacıoğlu?! Bəlkə vulkan lavasıdı, nədi?

Dedim:

– Vulkan lavası da sınmazmı, ay Dayı?!
Dedi:
– Mən bunun sirrini bilməliyəm!
Dedim:
– Necə?!
Dedi:
– İndi görərsən.

Belindən patrondaşı açdı. Güllələrdən azı on-on beşinin qurğuşununu çıxartdı, barıtları dəsmalın arasına töküb düyünlədi, düyünün ucunu fitilsayağı düzəldib, qayanın dibində torpağa basdırdı. Kibritlə fitili alışdırıb kənara qaçdıq. Azca sonra qulaqbatırıcı gurultu qopub dağlarda əks-səda verdi. Qayanı tüstü bürüdü. Tüstü çəkiləndə isə getdik, gördük... nə? Torpaq parçalanıb havaya sovrulub. Qayanın dibində isə heç iz də qalmayıb.

Dayım bıçağını çıxarıb qayanın dibində yeri eşdi. Demə, yerin altı da qayadan daş imiş. Dayım çəkici ha çırpdı, iynə ulduzu qədər bir qamqalaq da qopmadı.

İllər keçib, mən qocalıb evdən eşiyə çıxmayan balaca bir kişiciyəz olmuşam. Dayım, aydın məsələdir ki, əbədiyyətə gedib. Qayım qaya isə eləcə, hələ də sirli dağ döşündə qarala-qarala durur. O tərəflərə yolum düşəndə çobanlar deyirlər: “Biz o qayanın adını dəyişdirmişik.” Qımışırlar. Mən də qımışıram... daha nə deyək ki. Biz tərəflərin adamları çox danışmağı xoşlamırlar. Əmma bir neçə söz var ki, məni görəndə o sözləri həmişə təkrar eləyirlər: “Ağaracaq. Vaxtı çatanda lap elə sənin özün təki ağappaq. Onda yenə dəyişdirəcəyik adını”. “Ağ qaya?” “Hə!”

# YAZIQ

(*zarafat*)

Dəqiq deyəmmərəm nə vaxt, bu son vaxtlar bir səhər yuxudan oyanıb gördüm özümü itirmişəm, yəni sözün həqiqi mənasında yoxa çıxmışam. Fikirləşdim ki, harda itmiş olaram? Hüsü Hacıyev küçısindəki bu mənzildən eşiyə çıxanda getdiyim yer ancaq Yazıçılar Birliyidir, ordan çıxanda isə gəldiyim yer buradır, şübhəsiz, ya aralıqda qalmışam, ya orda Yazıçılar birliyində itmişəm, ya da burda – mənzildə. Çox axtardım mənzildə tapmadım. Getdim Yazıçılar Birliyini axtardım, tapammadım. Kor-peşman qayıdırdım ki, birdən birliyin sədri Anarı gördüm, salam verdim. Dedi: "Niyə qayıdırsan, iyirmi birinci əsrçilərin iclasına çağırmamışammı səni?! Dedim: "Unutmuşam, gedək" Qısası, getdim gördüm foyedə oturmuşam. Dedim: "Şükr, tapdım özümü". Əmma çox sevinəmmədim. İclas zalına doğru gedirdim ki, birdən yenə özümü gördüm. Dedim: "Bura bax! Mən özümü itirmişdim, odur tapdım! Bə sən kimsən?!" Dedi: "Bıy! Necə kimsən?! Özünü tanımırsan?!" Dedim: "A kişi, mən bax o yazıçıyam, oturmuşam o divarın dibində, siqaret çəkirəm! Bə sən kimsən axı, niyə mənsən sən də?!" Dedi: "İsa mənəm! O deyil!" Dedim: "Odur İsa. Sən deyilsən!" O dedi, mən dedim, qısası, bezikdik bir-birimizdən, ayrıldıq. Birdən... baxdım ki, bu nədir, İlahi, bütün zal dolu İsadır!.. Lap qısası, iyirmi birincilərin iclasında yox, bir zal dolusu İsaların iclasında oturdum. Sonra istədim o divar dibindəki İsaya qovuşum gedim evə. Əmma çox heyf, o İsa da zaldakı İsalara qarışıb itmişdi. Gəldim evə, bir vərəq kağız götürdüm, yazdım: "Elan. İsa Hüseynov özünü axtardı, tapmadı". Deyirlər dönüb Muğanna olub ki, daha bir də itirməsin özünü, iyirmi birinci İsalar isə nə qədər çoxalırlar çoxalsınlar. Çünki Muğannanın yazdıqlarını başa düşən yoxdur. İsaları isə hamı sevir! Yaşasınlar! Dünya durduqca dursunlar, yazsinlar, yaratsınlar, sevilsinlər, əmma elə eləsinlər ki, mən bir də özümü itirməyim. Yazığam axı!

# KAFİR

(*hekayə-xatirə*)

Əli Fəhmi ucaboy, dolu, şəxsiyyətli, həm də nuru lap ilk baxışdan görünən adamdı. Üç yüz səhifəlik köhnə daşüzlü bir "Quran"ı vardı. O üç yüz səhifəlik "Quran"a üç min səhifəlik təfsir-izah yazmışdı; söz düşəndə qəmli-nurlu gülüb, o an siqaret yandırırdı: "Açığı, ay İsa, o üç min səhifəlik üç yekə qovluqdan sonra da bilmirəm bizim "Quran"ımız nədi?!" – deyirdi.

O vaxt din hələ o taydan bəri adlamamışdı (L.Brejnev cəsarət eləmirmiş), indi az qala hər gün biri tikilən məscidlərdən əsər-əlamət yox idi. Gün görmürdülər; xeyirdə, şərdə dillənəndə də Sovet hökumətinin rəhbərlərinə, bir də Şıxəli Qurbanova "səlavət" çevirirdilər, "Amin!", "Fatihə!" – və sairə belə-belə şeylərlə kifayətlənirdilər. Əmma açığını deyim ki, o vaxtkı o "skromnı" mollalarımız da üzdən boz idilər. Rejissor Həsən Seyidbəyli, rəssamımız Elçın Aslanov, operatorumuz Rasim İsmayılov, bir də ki mən gecəni gündüzə qatıb "Nəsimi" filmini çəkirdik ki, o dahi alim-şairimizin yubileyinə qədər işimizi qurtaraq. Əmma işimizə, necə deyərlər, pəl vuranlar çox idi. İndiki dostum, o vaxtkı düşmənin, Azərbaycan Kommunist Partiyasının şöbə müdiri Azad Şərifov çox ziyalı bir kişi olduğuna baxmayaraq film barədə elə hey: "U menya bolşiye somneniya", – deyirdi. Kommunist partiyasının o biri şöbə müdiri Teymur Əliyev də bir yandan pis danışırdı: "Axırsız işdi", – deyirdi. "İranda, Türkiyədə getməz bu film", – deyirdi. Belə-belə söz-söhbətlər nəticəsində Nəsiminin ən məşhur kəlamını ssenaridən pozdum: "Lailahəilləllahın inkarına durmuşam", – demədi Nəsimi. Və o gündən də Əli Fəhmi ilə aramızda yalnız baxışlarla ifadə olunan gizlin bir söhbət – mübahisə başlandı. Əmma açılmadı. Yalnız hərdən gülümsəyirdi: "Mollalardan qorxdun, nədi?" Mən də gülürdüm: "Filmimizin dini məsləhətçisi Əli Fəhminin üç min səhifəsindən qorxdum". "Niyə?" "Çünki orda əsas məsələnin üstündən keçmisiniz! Kafir kəliməsini izah eləməmisiniz!" Yenə

gülümsəyirdi rəhmətlik: "İnşallah vaxt gələr," Kafir "in təfsiri də üzə çıxar. Sən hələ rəhbər işçiləri razı sal, bu tayda oturub, Arazın o tayındakı Türkiyədəki dindarlarımızdan qorxmasınlar". Deyirdim: "Onları başa salmaq çətindi. Tariximizi bilmirlər. Kafirdən də xəbərləri yoxdu". Nə isə... bu məsələ bəlkə elə-belə üstüörtülü qalacaqdı. Bizim hamımızın əzizimiz Əli Fəhminin ürəyi xəstə idi, buna baxmayaraq gündə iki "paçka" siqaret çəkirdi: "Bu film bizim millətə çox lazımdı, İsa, qorxuram öləm, işim yarımçıq qala, elə onun üçün də çox çəkirəm bu zəhrimar siqareti", – deyirdi. Əmma mən açıq-aydın görürdüm ki, əsərdə şübhəli qalan tarixi cəhətlərdən həyəcanlanırdı, ölüm qorxusundan yox: "Kafir!.. Kafir!.. Heç bilmirəm neyniyək, ay İsa!" Mən də gülürdüm: "Siz təfsirdə yazanda mən də yazaram! Əmma o vaxt daha film çəkmiyəcəyik!" "Heyif! – deyirdi. – Heyif! Heyif!"

Məsələ elə gözlənilmədən açıldı ki, ikimiz də məəttəl qaldıq.

Bilən bilir ki, rəhmətlik Həsən Seyidbəyli boydan kasıb idi. Əmma iri sümüklu, tökmə, enlikürək oğlandı. Başını bir az yana əyib, ciddi nəzərlə altdan yuxarı üzümə baxanda o an hiss edirdim ki, bu an məndən lap zəhləsi gedir. Belə bir vaxtında dedim:

– Nə var? Açıq de!

Qışqırdı. Əməlli-başlı qışqırdı ki:

– Sən Əlilini niyə sevmirsən?!

Kinostudiyada bir Əlili vardı, ikincisi yoxdu. Özü də Həsənin yaxın qohumu idi. Necə deyərlər, bir-birindən ötrü ölürdülər.

Açıq dedim:

– Məmmədağa Əlili çoxbilən adamdı. Əmma aktyorluğu yoxdu, ay Həsən. Qaşqabaq sallamağımın səbəbi budu ki, bilirəm, əvvəl-axır çəkəcəksən onu. Çəkmə qurbanın olum!

Yenə qışqırdı. Bu dəfə bircə kəlmə:

– Çəkəcəm.

İş gününün axırında isə yenə hirslə və yenə qısaca:

– Rol yaz Əliliyə! – dedi. – Teymurləngin əhatəsində tarixçi Şami var deyirdin. Onu ver Əliliyə!

Dərd məni götürdü. Əli Fəhmiyə gileyləndim.

O rəhmətlik də:

– Əlili əla kişidi, – deyəndə, necə deyərlər, lap öldüm.

Əmma əsl "ölüm"üm səhərisi olacaqmış.

Filmdə adminstrator köməkçisi vəzifəsinə təyin olunanda Əlili Həsənə deyir: “Ömrüm boyu elə adminstratormu qalacam?” Həsən isə yenə qısaca: “İsanı gör”, – deyib.

Necə “gördü” məni Əlili?

Dəhlizdə nəsə iş dalınca yorta-yorta gəlib yanımdan keçəndə əvvəlcə yeli məni vurdu, sonra sözü:

– Əmi bağdan gəlir, dayı dağdan gəlir!

Diksindim, mən də elə Həsən kimi kobud qışqırdım:

– Dayan! – deyib astadan pıçıldadım: – Ay Əlili müəllim, “əmin” atamın qardaşıdı. Atam Bağdı, deməк əmim də Bağlardandı. Dayım OdAğdı. Sar Ağ həqiqətidi. Buna görə də “Nəs” – ÜnƏs – Yaradan Ün barədə əsər yazıram, Həsən də çəkir. Bir vaxt gələcək, qrekcə “sion” deyənlərimiz də oxuyacaqlar yazdığımı, biləcəklər ki, aldanıblar. “Sion” yox ƏsÜndülər. Yəni Yaradan Ün. Bağların Yaradan Ünü... Mən bilirəm bunu. Çünki Ağlardanam. Bəs sən nə vaxtdan Ağsan? Keqebeşniksən! Get danış bu dediklərimi.

Belə açıq, belə sərt söhbət! Çünki açığı, Əlilinin haqqında çoxdan eşitmişdim ki, “O yandandı: dəniz qırağından. Ehtiyatlı ol” və s. Yalnız dərin-dərin xalq içərisində xəlvəti deyilən rəmzi ifadəni – “Əmim bağdan gəlir, dayım dağdan gəlir” sözlərini bilən adam şübhəsiz hər şeyi bilirdi və indi yəqin ki, mənə güllə atırdı. Buna görə də qışqırdım:

– Dayan!

Əlili isə birdən-birə, eynilə Həsən kimi boynunu büküb:

– Yazıq İsa! Yazıq İsa! Qorxma mən də kafirəm! – dedi.

– Nə?! Doğrudanmı?! – qollarımı açdım ki, boynuna sarılım.

Əmma bu dəfə də o: – Dayan! – dedi: – Dayan, İsa! Bu filmin ətrafına yığılan adamların doxsan faizi bilmir nədi “Kafir”. Tək Azad Şərifov yox, çox adam deyir: “U menya bolşiye somneniya”. O adamlar Türkiyədə olanlardır. Bilirlər ki, “Ki”, “ka” oddur. Qrekin qədim dilində – Od! “Fir” də qrekdən gəlib. Əmma əsli bizim dildədir EvƏrdi, EvƏrEydi. Təhrif dillərdə “Yevrey”di. Bədbəxt Əli Fəhmi necə təfsir yazsın “Od EvƏrEy”ə – “Kafir”ə? Öpüb gözümüzün üstünə qoymağa məcbur olduğumuz” Quran” da guya yəhudi kitabıdı! Əmma gizlin sözü nədi?” “Kafiri müharibələrdə qırın!” – deyir. Belə qırır bizi düşmən, ay yazıq İsa! Öz əlimiznən. Yaz! Yaz! Akademik Məmməd Arif də müdafiə edəcək səni!

Akademik Məmməd Cəfər də! Akademik Mirzə İbrahimov da! Lazım gəlsə, hətta Bertels də! Atası yox, oğlu. Dinlər, dillər içində batırılmış millətimiz adından sağ ol deyirəm sənə! Bildinmi Həsən niyə zorla daxil elədi məni bu çəkiliş qrupuna?! "Əmim Bağdan gəlir, dayım OdAğdan gəlir!" Di get, kafir oğlu kafir! Bundan sonra səcdə elə Həsən Seyidbəyliyə ki, razı oldu bu filmi çəkməyə! Atası yəhudidi, anası tat qızı, bildin?!

Elə həmin dəhlizdə Əli Fəhmi qarşıma çıxdı; siqaret iki barmağının arasında baş barmağı çənəsində, tüstüdən gözünün birini qıyıb gülümsəyirdi:

– Kafirsən, ey ağ türk, bağ balası! – Boynumu qucaqladı. – Əliliynən söhbətin axırıncı oldu. Get səsini çıxartma. Telekameraya da söz demə ha. Demisən: "Nəsiminin humanizmi maksimal humanizmdi". Tənqidçi Əkbər Ağayev dəhşətə gəlib ki, "İsa bilirmi nə danışdığını?!" Get, get! Sus! Kafir oğlu, kafir!

...Heyif səndən, ey kafir Əli Fəhmi, tez getdin sıramızdan!

# KOROĞLUNUN ÇƏN QALASI

Bilirdim ki, Çənlibelə "Çardaxlı Çənlibel" də deyirlər. Getməmişdim, görməmişdim. Hardan biləydim ki, doğrudan da çardaxlıdır? Yəni qala-filan yoxdur. İl on iki ay daimi çən-dumandır, bir də o qatı yarıqaranlıq çən-dumanın içində ucu-bucağı görünməyən nəhəng çardaxdır. Neçə cərgə dirək olarmış?! Yüz cərgədirmi, min cərgədirmi, necə deyərlər, Allah bilir. Bu dirəyin harasında, o dirəyin harasında, o birisi dirəyin harasına ocaqdan qovrulub tüstüdən qaralmış yoğun-yoğun tirlər döşənib, tirlərin belinə sıx-sıx çubuq, çubuqların üstünə sıx-sıx qamış döşənib? Çən tərpənəndə, çiskin gələndə yel çardağın bu yanından vurub, o yanından çıxır, saysız-hesabsız ocaqlarının tüstülərini çiskinə qarışdırıb gündüzü gücəyə döndərir. Günəşi görmək, üzünü, sinəni, kürəyini-filanını günə vermək istəyirsənsə, gərəkdir ki, çardaqdan çıxıb qayalıq daşlıq aralarında atların nallarının altında əzilib xırdalanmış çınqıllı cığırın ucundan tutub gedəsən dağın döşünə. O yerə ki, ordan lap aşağıda Bolu kəndi və Türkiyənin bəlkə də ən axarlı-baxarlı dərələri, düzləri görünür. O döşlərdə çən-duman yoxdur. Bəs hardan gəlir o çən Çənlibelə? Soruşsan deyərlər: "O yandan". Yəni Bolu kəndinin əks səmtindəki dağlardan gəlir. Çənlibelin belində dolanıb-fırlanıb elə o dağlara, aşırımlara qayıdır, "qoltuqlarda yatıb, gündoğanda yenə tərpənir, gəzib dolanmağa Çənlibelin dörd dövrələrində buluda dönüb yağmağa başlayır... Çox şeylər olur Çənlibeldə və Çənlibelin dörd dövrəsində. Dediyim kimi, gərək gedəsən öz gözünlə görəsən Koroğlunu, Dəliləri, qız-gəlini danışdırasan, hərədən bir şey öyrənəsən. Yalnız o vaxt bilərsən ki, "Koroğlunun bərk qalası" deyən aşıq "bərk"i özündən toxuşdurub. Əslində, dediyim kimi, qala-filan yoxdur. "Koroğlunun çən qalası, ərşə dayanıb naləsi..." – budur əsli.

1994-cü ilin ilk baharında prezidentimiz Heydər bəy məni öz dəstəsində Türkiyəyə aparanda demişdi: "İşlətməyə aparmırıq səni. Get üç-dörd gün gəz, dincəl. Deyirlər ev dustağı olmusan, tənha qalmısan".

Getdim və orda – Türkiyədə bir şey oldu ki, indi onu danışmalıyam.

Bacıoğlum var mənim orda – İstanbulda. Dedi: "Qulluğundayam, dayı. Hara istəyirsən aparım gəzdirim. Əmbə bilirsən kasıbam. Taksiyə-filana gücün çatacaqmı, bilmirəm. Dedim: "Pul bir məndə, bir də ingilisdə. Türkiyənin hər yerini gəzmişəm vaxtilə. Görmədiyim bir yer qalıb, o da Çənlibeldi, – dedim. – Yeyək-içək, bürünək-bükülək, gedək", – dedim. Azərin gözləri böyüdü: "Dayı, sən nə danışırsan?! Çənlibelə yolmu var ki?! Dağ aşırımında bir kafe açıblar. Yaxşı quzu kababı verirlər. Gedirsən gedək ora – kafeyə. Çənlibel oradan lap aydın görünür". "Yox", – dedim. Qəmləndi. "Çənlibel" kafesi əvəzində "Şelli" otelinin böyründəki Şərq kafesinə getdik. Nə yedik, nə içdik bilmədim. Əməlli-başlı qəmkədər içində elə susurdum. Azərlə birlikdə özüm də heyrətlənirdim ki, axı bu Çənlibel hardan düşüb beynimə! İstanbulun Topqapısı var, bir dəfə baxan deyir, bir də baxım. Get gəz, bax. Tarixdir öyrən, yoxsa bu nədi? Çənlibel!

O gecəKoroğlunu gördüm. Soruşdum ki:

– Sən həqiqətən Koroğlusansa, deməli, həyatını dəyişəndən sonra getdiyin planetə qayıtmalısan. Bu öz yerində. Bəs niyə gözə görünmək istəmirsən?

Dedi:

– Sən ki, bizim aləmdən çox yazmısan, bilmirsənmi ki, Yerdə təhrif insanlar arasında, cəhalət içində qalmağa dözə bilmirik. Tək-tək kamillər var, onlarla da çox ünsiyyətdə olandan sonra qəribsəyirik.

Üzünə-cavanlığına, məlahətinə, ağlına diqqət yetirdim. Dedim:

– Bir sualım da var, Koroğlusansa, niyə belə cavansan? "Koroğlunun qocalığı" var dastanın axırında. Sazı köynəkdən çıxarır, oxuyur: "Mənmi qocalmışam, ya zəmanəmi?"

Dedi:

– Sən yazmısan o barədə. Qoca Koroğlu tüfəngli adamdan soruşur: "Çiynindəki nədir?" Məlum olur ki, tüfəngdi, uzaqdan-uzağa öldürür insanı. Koroğlu deyir: "Öldür o öküzü uzaqdan-uzağa, görüm necə öldürürsən?" Tüfəngli adam öldürür. Koroğlu sazı köynəkdən çıxaranda əvvəlcə başqa şey oxuyur. "Tüfəng çıxdı, mərdlik getdi, ay haray!" Qoç Koroğluluq qurtardı? Xeyr. Yazmı-

san ki, “öküz” rəmzdir. Təhrif “ki əs” kəlməsindən düzəldilib. OdƏsdi – yaradan həqiqət. Həqiqət olmuyan yerdə nə olur, qardaşım? Təkləşir, tənhalaşır insan. Budur – sən kimi. Tüfəng çıxanda yox, OdƏsimiz məhv ediləndə öldü. “Kor” oğlu – “ki ər” oğlu – OdƏr oğlu dünyasını dəyişdi belə gənc yaşında. O dünyasından bu dünyasına gəldi, – Şeyx Əliyə, bildiyin kimi Aşıq Alıya dedi: “Sazını köynəkdən çıxart, onu oxu: “Mənmi qocalmışam, ya zəmanəmi?” Dastan da Aşıq Alınındı, həqiqəti məhv edilən də Aşıq Alıdı, qocalan da. Dünyasını nə yaşda dəyişib, o yaşda da qalıb Koroğlu. Hərdən çalır, oxuyur, eşidirsən.

Dedim:

– Hə, eşidirəm:

...Koroğlunun çən qalası,
Ərşə dayanıb naləsi,
Düşmənlərin ən qəvisi,
Heç o da yalqız olmasın....

Dedi:

– Qəmləndin yenə. Müqəddəs qəmdi bu, qardaşım. Çox fikir eləmə. Gedək!

Unutmuşdum ki, Çənlibelə getmək söhbəti var.

Dedim:

– Yəni doğurdanmı aparırsan məni? Bu gecə vaxtı Çənlibelə?!

Yenə halım dəyişdi.

“Çənlibel! Çənlibel!” Azər də bir təhər getdi evinə, mən özüm də özümü söyə-söyə qayıtdım “Şelli” yə – nömrəmə, təkliyə – tənhalığıma. Çay içdim, istədim uzanım bir az dincəlim. Saata baxdım. Çünki gecə saat on ikidən sonra işləməyə adət eləmişdim. Nə görsəm yaxşıdır? – saat ikidir, üçdən işləyir! “Bıyy!” – elədim. O cür qəmli-kədərli, nə qədər oturmuşduq “Şərq” də? Nə isə. Divan-çarpayının yanına stul çəkdim, istədim soyunum. Bu dəfə “Bıyy!”ın dalınca: “Allah, amandı!” – deməli oldum. Qapını öz əlinlə bağlayasan-qıfıllayasan, nömrədə gəzib-dolanasan və birdən... içəridə yad adam?!

– Kimsən?! Necə gəlmisən bura?! Hardan?! Nə istəyirsən?!

Sakitcə dayanıb üzümə baxırdı.

– Qorxma, qardaşım, – dedi. Sifətdən mənim gənclik dostum-qardaşlığım Əkrəm Əylisliyə oxşayırdı. Əmma boyu iki Əkrəm boyunca idi, yəni iki metr. Gözləri də Əkrəmin gözlərindən azı iki dəfə böyük, həm də mavi idi. Birdən eynilə Əkrəm kimi bic-bic güldü, üzündə, necə deyərlər, şeytan əmələ gəldi, yəni o sakit, lal baxışlı oğlan dönüb qəribə mənalı bir aləm oldu və mən bu aləmi dərhal tanıdım. Əmma xeyli tərəddüdlə soruşdum:

– Rövşən?! Sənsən?!

– Mənəm, qardaşım, – dedi.

Dedim:

– Mən səni burda – İstanbulda altmış səkkizinci ildə görmüşəm. O vaxt iyirmi beş-otuz yaşın ancaq olardı. Üstündən nə qədər keçib?! O altmış səkkizinci il, bu da doxsan dördüncü il. Düz iyirmi altı il keçib o vaxtdan. Mən qocalmışam. Bəs sən niyə elə həmin Rövşənsən?! Bəlkə oğlusan onun?

– Yox, – dedi. – Həmin Rövşənəm, qardaşım. Həmin Koroğluyam.

– Hə?! Koroğlu?! Adın Koroğlunun adından, bu aydındı. Şəcərən də Koroğludu?

– Yox, – dedi. – Mən elə həmin igid Koroğluyam, qardaşım. Mehtər Alının oğlu Rövşən Koroğlu.

Açığı, lap bir təhər oldum. Necə “birtəhər?” Rusca qışqırmaq istədim: “Maşennik! Svoluç! Kak tı probralsya syuda?! Çto nado?! Denqi?!” və sairə. Hirslənəndə, özündən çıxanda nədənsə rusca danışıram. Əmma yaxşı ki, danışmadım.

Bu dəfə Əkrəmin üzündəki şeytan tükünə nə isə çox cəzbedici məlahət və səmimiyyət də qarışdı.

– Məndən çəkinmə, qardaşım, dedi. – Mən harda olmağımdan asılı olmayaraq istədiyim vaxt istədiyim insanın səsini tuturam, dinləyirəm. Dünən bildim Türkiyəyə gəlirsən. Bu gecə də bildim ki, Çənlibeli görmək istəyirsən. Gəlmişəm aparım ki, gör, dəlilərlə söhbət elə.

Məni dəhşət bürüdü deyim, ya nə deyim? Ağzı açılı qalıb, bu ucaboy, yaraşıqlı gəncə baxa-baxa nə isə anlamağa çalışdım.

Dedim:

– Mən fantastikaya inanmıram. Əmma fantastikadan da fantastik bir həqiqət var.

– Var, – dedi, – var, qardaşım. Mənim vaxtım azdı. Səhər saat beşdə bu oteldən Amerika nümayəndələri çıxacaqlar.

Səhərisi Azər gələndə üzümə təəccüblə baxdı:

– Niyə bu hala düşmüsən?! Xəstələnmisən, nədi?!

– Yox, – dedim. – Koroğlu gəlmişdi. Çənlibelə uçduq işıq gəmisində, qayıtdıq, yatammadım daha.

Azər yerə baxdı.

– Olur, olur belə şeylər. Yuxuda çox şey olur, – dedi. – Yuyun, gəl. Aşağıda gözləyirəm. Gedək çörək yeyək, – dedi.

Aradan altı il keçib. İki mininci ilin axırıdır. Yeni zamanın başlanğıcıdır. Həm də heç kəs inanmır ki, OdAğÜz BağOdƏr planetindən Koroğlunun sazını, sözünü eşidir Muğanna. Aşıq Alının, Ələsgərin sazını, səsini eşidir. İnanmayan, inanmasın. Neyləmək olar? İnanmaq istəyən olsa, mənim çarpayımla yanaşı çarpayıda (yatan) Firuzə xanımdan soruşsun. Gecələr saat ikidən, üçdən sonra Bakı yuxuda olanda mənim dinlədiyim fantastikadan da fantastik dərəcədə gözəl, sehrli simfoniyaları, sazları, sözləri yəqin ki, o da eşidir və mən böyründəcə ola-ola o da qəmlənir. Çünki:

“...Koroğlunun çən qalası,
Ərşə dayanıb naləsi...”

# SİRR

Kimin toyu idi, niyə o qədər insan seli elə şadlıq verdi?

Fikrimdən, xəyalımdan – gözümün qabağından getməyən budur ki, Qarayazı meşəsinin gündoğanında, yəni bizim o vaxtkı iki yüz evli Muğanlının axarlı- baxarlı, geniş yol ətraflarında hərəsinin üzü bir yana baxan kimisi daş, kimisi çiy kərpic, kimisi də qara dam – qazma evlərin aralarına, təzə-tər – açıq yaşıl yarpaqlı palıd, saqqız ağaclarının kölgələri saysız-hesabsız, al-yaşıl geyimli qız-gəlinlə dolmuşdu. Bir zurnaçı dəstəsi kəndin başındakı xırman yerində çalırdı, bir zurnaçı dəstəsi də kəndin ayağındakı xırman yerində – geniş, hamar düzənlikdə çalardı. İndiki zurnalardan iki dəfə böyük, sehrli, sirli, qalın səsli qara zurnalarla indiki dəflərdən iki dəfə böyük sehrli, sirli, qalın səsli dəflərin səsləri hərdən biri-birinə qarışırdı, yəni yal vurub qarışdırardı, əmma qarışıqlıq düşmüşdü, çünki kəndin ayağındakı oğlan evinin zurnaçıları kəndin başındakı qız evinin xətrinə dəymək istəmirdi, qız evinin zurnaçıları da oğlan evinin zurnaçılarının səsini batırmaq istəmirdi; biri ləngərli çalıb qocaları, qarıları oynadanda o birisi də həmin ləngərli havanı çalırdı, biri yüngülərək çalıb qızları. Oğlanları oynadanda o birisi də həmin yüngülərək havanı çalıb cavanları oynadırdı. Oğlan evindən beş bir-on bir dəstə-dəstə adamlar həmin yolla qız evinə gedəndə, eyni vaxtda qız evindən həmin yolla oğlan evinə axışanlar da olurdu. Qarşılaşanda bu dəstənin oğlanları o dəstənin qızlarına beyt-beyt mahnılar – təriflər deyib qaqqıldaşırdılar, o dəstənin oğlanları da bu biri dəstənin qızlarına tərifləyirdilər; utanmadan, çəkinmədən, mahnının içində açıqca deyirdilər kim kimi sevir, kim kimə nə vaxt elçi göndərəcək, nişan taxacaq, kimi də Koroğlu kimi "axçasız-pulsuz" aşiq olub, atın tərkinə alıb qaçıracaq. Belə-belə oynaq, şadlıqlar içində oynaşan, atılıb-düşən, qaçışan, cıdıra çıxıb gah oğlan evindən, gah da qız evindən nəmər alan uşaqların da sayı-hesabı yoxdu. Belə qayda-qanunsuz, adət-ənənəsiz toylar Muğanlıda az olmurdu. Bu dəfəki toy isə xüsusi toy idi; Muğan-

lılardan bir-birinə "göbəkkəsmə" nişanlı olan, hamının çox sevdiyi gözəl bir əmiqızı ilə gözəl bir əmioğlunun toyu idi, buna görə də Muğanlı deyilənlərdən sevinməyən adam yoxdu. Tək bir oğlan uşağı vardı, – on bir yaşda Şollay nə gülürdü, nə danışırdı, yoldan bir az aralı saqqız ağacının altında boynunu burub, ona-buna boylana-boylana qalmışdı. Səhər idi, günorta oldu. Şollay orda eləcə boynuburuq qaldı.

# GÜZGÜLÜ ƏHƏD

*Türkiyədəki TamAylarımıza*

“Ayıbalası” ndan – çiy kərpicdən tikilmiş, alçaq tavanlı, on-on iki addım uzunluğunda, yeddi-səkkiz addım enində otaq. Divardan-divara qədər döşəmənin yarısını tutmuş nəhəng bir taxt, kilim. Kilimin üstündə cərgə ilə döşəklər, mitil yorğanlar. Yorğanların altında böyüyünün on iki yaşı, kiçiyinin iki yaşı olan altı uşaq, arıqlıqdan sümükləri çıxmış anam, qocalıqdan qolları-qıçları tutulmuş nənəm, yeganə az-çox işə yarayan qoca bibim. Nəhayət, o doqquz baş külfətin onuncusu qəbul imtahanlarını verib, tibb institutuna qəbul olunub evə qayıtmış, sabah avqustun iyirmi doqquzunda Bakıya getməli olan on yeddi yaşlı, cibində bir manatı da olmayan tələbə. Yəni mən yazıq. Niyə getdim, niyə yazdım mən o “imla”nı, niyə verdim mən o imtahanları?! Başa düşmürdümmü ki, dünyanı soyub-talayan, bu on baş külfəti də ac-yalavac qoyan müharibənin təzəcə qurtardığı bir vaxtda ailəni burda tamam ac qoyub, qəpik-quruşsuz getmək mümkün deyil?! Başa düşürdüm, əlbəttə. İmtahana gedəndə ümidli idim ki, mən Bakıdan qayıdana qədər atam ordudan tərxis olunub Berlindən qayıdar, ailəyə sahib olar, mən isə gedib tələbəliyimi eləyərəm. Ümidim boşa çıxdı: atam məktubunda yazdı ki, ən tezi qırx altıncı ildə, yəni bir ildən sonra tərxis mümkündür, bir az da dözün, yaman günün ömrü az olar. Əmma yaman gün məni qandalladı. Cibi boş, azuqəsiz-filansız necə gedim?! Gecənin yarısına qədər mən eşikdə – alçacıq balkon dirəklərindən gah ona, gah buna söykənə-söykənə gəldim, anamla nənəm, bibim içəridə ağladılar. Neyləmək olardı? Heç nə! Qohum-əqrabadan, tanış-bilişdən kimin üstünə gedəsən?! Hamı – bütün kənd biz gündə deyildimi?! Birdən... Birdən həyətdə bir qaraltı qaraldı. Lap körpəliyimdən tanıdığım doğma bir səs gəldi:

– Bu nədi belə, ay bala? Camaat nöyüdün damcısına da qənaət eləyir, sizin evdə lampa! Gecənin bu vaxtı nolub?!

Əhməd dayı idi, Güzgülü Əhməd deyərdilər. Toma oğlu Əhməd deyirdilər.

Güzgülülüyü bundandı ki, "kolxoz"laşma vaxtı, yəni otuz-otuz üçüncü illərdə hamı malını, qoyununu, atını, ulağını hökumətə – "kolxoz"a verdiyi halda, Toma oğlu Əhməd qoyun sürüsünü bir gecənin içində xançallayıb, soyub, arabalara doldurub aparıb Tiflisdə satmışdı, cibləri o vaxtın "palaz-palaz" yəni yekə-yekə kağız pulları ilə dolu, Şeytanbazar deyilən yerə gedib "arvad-uşağa əyin-baş" alanda bir yekə güzgü də alıb gətirib, balkonda qapının böyründə asmışdı ki, "bu bədbəxt əlil-zəlil" camaat gəlib-gedəndə heç olmasa sir-sifətini görsün, bilsin nə təhər adamdı. Yoxsa bu nədi, bu boyda Muğanlıda bir evdə də güzgü yoxdu!" – Bundan adı qalmışdı Güzgülü Əhməd. "Toma oğul"luğu da bundandı ki, bizim nəslin bir qolu olan TamAylardandı, nə vaxtsa "Rus gələndə" elliknən köçüb Türkiyəyə adlamışdılar. Diyarbəkirdəydilər indi o TamAylar. Daha doğrusu, TamAğlar. Yəni SafAğlar. Tək bu Əhməd dayımız TamAyların bir qismi isə Muğanlılardan, yəni bizim Muğannalardan ayrılmamışdı. Dediyim kimi, "kolxoz"laşma vaxtı sürüsünü xançallayıb, doğrayıb Şeytanbazarda satmışdı. Yaxşı – böyük ev tikdirmişdi, qapısının böyründə də böyük "bədənnüma" güzgüsü. Əmma beş-altı ildən sonra kəndimizdən kim isə "Gepo"ya, yəni o vaxtın KQB-sinə çuğullayıb ki, "Muğanlıların içində Türkiyəyə keçən TamAy Yəhudiləri də var, Şura hökumətini, Stalin yoldaşı söyə-söyə öz keyflərindədirlər". "Gepo"dan gəliblər ki, TamAğları "qardaşlı-bacılı, oğullu-uşaqlı – hamısını tutub aparsınlar, sürsünlər, güllələsinlər". Bütün Muğanlılar ayağa qalxıb dedilər ki nə TamAydılar bunlar, nə də TamAğdılar bunlar, Tomazdılar bunlar, Tomazılar, yəni hamısı bir evdə "topa olur", buna gorə də "topa" – "toma" deyirik. "Gepo"nun böyüyü "bizimkilərdənmiş", yəni Türk imiş, "cibinə qızıl basıblar, dillənməyib", siyahını yazan adam isə Rus imiş, qanmayıb, dəftərini açıb yazıb: "Tomayev Əhməd, Tomayev Mahmud" və sairə.

Boydan alçaraq Əhməd dayının o vaxt qırx-qırx beş yaşı ancaq olardı. Arğazdı. Əmma gözləri, necə deyərlər, qırğı gözləri idi; bığ, necə deyərlər, Koroğlu bığı idi. Boş vaxtlarında, xüsusən fikirli olanda yerə baxa-baxa barmaqlarını bığının uclarında fırladardı, odur ki, bığı həm də Nəbinin bığı kimi "eşmə-eşmə" idi.

Gəldi durdu qabağımda. İçəridən işıq düşürdü. Baxdı gördü ağlayıram, yenə soruşdu:

– Nə olub, ay bala, niyə dillənmirsən?

Yad deyildi, dərdimizi gizlətmədim. Dedim:

– İnstituta qəbul vərəqəsi cibimdə. Özüm qalmışam burda.

Dedi:

– Dedim bəs, Allah eləməsin, bəd xəbər-zad var. Deyirlər dədən gəlməlidi Berlindən. Gələr, inşallah, gedərsən oxumağına. Belə də ağlayarlarmı, a bala?! Balaca ha deyilsən! Kişiliyinə necə yaraşdırarsan bu göz yaşını?! Sil! Sil gözüyün yaşını! Gəl mənnən gedək fermaya!

Dedim:

– Fermada nə azarım var, ay Əhməd dayı! Erməni yolları bağlayıb, dağlarımıza buraxmır malı, qoyunu! Bürküdən qırılır heyvan! Orda da ağlaşmadır! Gedəndə adamın üzünə də baxmırlar.

Dedi:

– Mən olan yerdə hansı belə-filanın hünəri var baxmasın sənin üzünə! Gedək qatıqdan, süddən, əlimizə nə keçsə gətir, uşaqlar korluq çəkməsinlər.

– Yox, – dedim.

– Yaxşı, yaxşı, üzmə özünü! – dedi. – Mustafa müəllimin oğlusan da! Özünə yaraşdırmırsan, getmə...

Qapıya sarı baxdı.

– O nədi elə?! Belə ağlaya-ağlaya ağladırsan?! Nənən də ağlayır, bibin də! Lap ağlaşmadı ki burda, ay bala! De görüm nə vaxt getməlisən?

Dedim:

– Heç vaxt.

Dedi:

– Yox ey... Poyezd nə vaxt gedir? Sabah gündoğandadı deyəsən, hə?

– Hə, – dedim, – və nə isə dumanlı ümidlə əlavə etdim ki: – birisigün dərslər başlayır.

Yumşaq, alçaqdaban xrom çəkmə geyinərdi. Necə səssiz gəlmişdisə, eləcə də səssiz getdi. Mən isə elə orda – balkonda yerə çökdüm. Bir də səhərə yaxın qalxıb içəri keçdim ki, bir az yatım. Əmma taxta yaxınlaşmamış qapının cırıltısını eşitdim. Əhməd dayı idi, çiynində yekə xurcun vardı. Yerə düşürüb, əvvəlcə yekə bir küpə çıxartdı.

Dedi:

– Bu bir erkəyin qovurması. Qızğındı hələ. Sən Bakıya çatanacan donar. Soyuq yerə qoyarsan orda, xarab olmasın. – Əlini pencəyinin qoyun cibinə salıb bir qalaq "palaz-palaz" yüzlüklər çıxartdı. – Bu min manat sənin dolanmana. Bu üç min də kəstumunə. Üç minədi deyirlər orda yaxşı, layiqli kəstum. – Əlini bığına çəkdi, güldü. – Qorxma, Əhməd dayın bir qəpik də xərcə düşməyib. Viranxana kolxozumuzu talamışam! Halaldı, ay oğul!

Birinci mən ağladım, sonra anam, bibim, sonra nənəm. Baxdım ki, Əhməd dayı özü də ağlayır. TamAğ, TamAy, "Tomayev" Əhməd.

...Allah rəhmət eləsin sənə, Əhməd dayı!

# ŞİNEL

Başına dolanım, qurbanın olum, ayağıyın altında ölüm, ay İsa müəllim! Acizanə yalvarıram, o hadisəni ki, bu ağbirçək vaxtıma qədər ürəyimdə saxlayıb təkcə sənə etibar eləyib danışmışam, o hadisəni qələmə al! İçərim yanır, köksüm partlayır, tamam sakitcə, heç tələsmədən, ən incə təfsilatı da unutmadan dərs dediyim yerdəcə birdən-birə dəyişir, nəfəs alammıram. Şagirdlərim partalardan taraqqataraq çıxıb yığışırlar başıma, biri su verir, biri nəbzimi tutur, biri əllərimi, ayaqlarımı ovuşdurur, ağlaşa-ağlaşa yalvarışırlar. Yuxarıda sənə yazdığım o kəlmələr onların kəlmələridir: "Başına dolanım, ay müəllimə!" "Qurbanın olum, ay müəllimə!", "Ayağıyın altında ölüm, ay müəllimə!.." Həkim çağırırlar, – müayinə! – çiynini çəkir həkimimiz: " Tamam sağlamdı müəlliməniz, ay uşaqlar. Qorxmayın, insanda belə hallar olur. Keçəcək yenə". "Keçmir, ay əzizim! Keçmir! Əksinə... Gedirəm evə tək-tənha! Divarlar məngənəyə dönür, sıxır məni. Neyləyim? Açıram televizoru: bir kanal, iki kanal, üç, beş, on kanal! Hamısında çılpaq insan! Dəhşət çılpaqlıq! İkrah çılpaqlıq! Hara gedir bu millət, ay əzizim! Məncə, daha heç bir müqəddəslik yoxdur! Etiraz eləmə, yoxdur!.. Söndürürəm televizoru, qulaqlarım cingildəyir. Açıram Tolstoyu, Dostoyevskini, Balzakı! Nə qədər oxumaq olar?! Yenə də gəlir güdür məni o danışdığım hadısə. Udur ey! Tamam yoxa çıxır sənin bu ağsaçlı müəllimən, dönür olur qırx ikinci ildə iyirmi iki yaşlı bədbəxt qız! Aradan gör nə qədər keçib: yarım əsrdən də çox! Düz əlli səkkiz il! Əmbə unudammıram o gecəni, o kişini! Kim idi? Haralı idi? Nə imiş adı? Sir-sifəti necə idi?.. Yadındadırmı sənə danışdığım? Mənə elə gəlir unutmusan. Əlli səkkiz il! Sən daha o şagirdim deyilsən, tay-tuşlarından kim qalıb? Heç kəs! İndi bir tək mən bilirəm o hadisəni, bir də unutmamısansa – sən. Yaz! Yaz ki, elektrik, işıq deyilən şey idi, təkcə Bakı-Tiflis dəmiryolu xətti boyunda gah qırmızı, gah da sarı, yaşıl, söngün işıqlar vardı. Dünya isə büsbütün zülmət içində idi. Yaz ki, o zülmət dünyanın günəşi batandan sonra evlərdə adi neft lampaları da yanmırdı. Həyətdə ocaq qalamağa da icazə verilmirdi. Çünki o zülmət dünyanın göylərində

bomba ilə dolu təyyarələr uçuşurdu. O cümlədən, dünyanın günəşli saatlarında hamının "dünya gözəli" dediyi bir Əzizə müəllimə vardı. Lap nağıllardakı kimi, günəşə deyirdi sən doğma, mən doğum, Aya deyirdi sən doğma, mən doğum, yəni mənim üzümün işığı bəsdi dünyaya. Gəzdiyim-dolandığım yerlərdə – məktəbdə, qəsəbədə maarif işçiləri arasında heç kəs "Əzizə" deməzdi, hamı "dünya gözəli" deyirdi və inan, inan ki, "başıpapaqlı" deyilənlərdən bir nəfər də pis nəzərlə baxmırdı mənə; açıqca səcdə eləyirdilər, ay İsa müəllim! Və mən gözəlliyə səcdə edən oğullarımızla fəxr edirdim. Millətimlə fəxr edirdim! Əmbə ürəyimdə qorxuya, xofa oxşayan nigarançılıq vardı. Çünki bilirsən, könlümə yatan bir Allah bəndəsinə rast gəlməmişdim hələ. Yaşıdlarım – cavanlar, əlli yaşına qədər kişilər – hamısı cəbhələrdə! Uşaqlar qalmışdılar, bir də qocalar. Gecələr divarlar arasında tək-tənha qalanda Allaha yalvarırdım: "Ey mənim gözəl anamı, gözəl atamı əlimdən alan, Tanrım! Sevmək, sevilmək, tənhalığın daşını atmaq istəyirəm, ey Tanrım! Könlümə yatan bir insan yetir mənə, ey Tanrım!.."

Günlərin birində bədbəxtlik basdı məni, maarif şöbəsindən müəllimlərin maaşını almağa adam tapılmadı. Niyə, bilmirəm. Hərə bir tərəfə dağılmışdı. Direktorumuz da ki, yadında olar, çox qocalmışdı, üstəlik malyariyası vardı. Dedi: "Zəhmət çək, bu dəfə sən get, ay dünya gözəli. Pulu növbəsiz verərlər sənə, işıq gözünə minik taparsan, gələrsən". Dilim tutulaydı "baş üstə" deyəndəcə. Qıçlarım sınaydı stansiyaya gedəndəcə... Qışın sazağında nazik trikotaj pencəyimin yaxasını kip düymələyib, şalımın uclarını boğazıma bərk-bərk dolayıb, necə deyərlər, Allahı çağırıb düşdüm yola ki, səhər saat yeddidə gəlib keçən "Tiflis-Bakı" qatarına çatım, saat on ikiyə, birə qədər pulu alım doldurum qoyun-qoltuğuma, işıqkən qayıdım. Bədbəxtlik ondan başlandı ki, "Tiflis-Bakı" qatarının əvəzində yaralı əsgərlər dolu bir sanitarnı poyezd gəldi, o da bizim stansiyada dayanmışdı. Sonra bir "tavarnı" gəldi dayandı. Amma o da yaralılarla dolu idi. Qısası, gün günortadan keçəndən sonra bir maşinistə pul verdim paravozla getdim, maarif şöbəsinin kassası bağlanhabağlanda aldım pulu, kassirlə köməkləşib pencəyimin astarına, koftamın altına bağladıq ki, "dünya gözəli"nə baxanların gözlərinə dəyməsin o qədər, Allah eləməmiş tamah salan olar.

Rayonun vağzalına gedəndə sevinirdim. Birinci ona görə ki, "paçka-paçka palazqulaq yüzlüklər" canımı elə qızdırmışdı ki, soyuq

nədi hiss eləmirdim. İkincisi, "Bakı-Tiflis" qatarı gəlib dayanmışdı. Əmbə elə ki, stansiyamıza çatdım, birdən-birə qanım qaraldı. Fevralın axırı ola, sulu qar şarappaşarap döyə vaqonun pəncərəsinə, üstəlik külək vıyhavıy, necə deyərlər, dirigözlü oldum. Kimsəsiz adamın bəxti qaradır, dara düşən Allaha yalvarmaqdan başqa neyləyə bilər? "Qəsəbədən mənə bir adam yetir, ey Tanrım!" Adam nə gəzir? Vağzalın bapbalaca gözləmə otağında ikicə skamya vardı. Gördüm skamyanın birində əyni-başı mazutlu, tozlu-torpaqlı papaq, üstündə şinel bir əsgər uzanıb. Sinəsi, kürəyi, boğazı, sifəti qalın sarınmış tənzif içində bircə "kurnos" burnu, sarı bığı, bir də gömgöy gözləri görünür. Fikirləşdim ki, bəlkə bizim qəsəbədəndir, soruşum, görüm kimdir. Yazığın səsi çıxmadı. Çünki, deyəsən, çənəsi pis yaralı idi, pıçıltı ilə dedi:

– Ömrümdə belə gözəl görməmişəm! Mələksən, nəsən, ay qız!

"Yazıq" deyirəm. Yazıq nədi?! Gözləri heyrətdən böyüyüb alışıb yanırdı. İstər-istəməz dönüb geri baxdım. O mazutlu adamdan başqa bir nəfər də yoxdur. Külək qapını dala-qabağa çırpırdı. Qatar getmişdi. Stansiyadan qırmızı svetofordan başqa heç nə yoxdu. İçərimə də zülmət çökdü: "Evin yıxıldı, ay Əzizə! Səninki də burayacanmış".

Titrətmə aldı canımı. Yaltaqlanıb dedim:

– Nə yaman yaralanmısan, ay vətən oğlu! Hardansan? Niyə burdasan?

Dedi:

– Tiflisdə sanitarnı poezdə min nəfər əlavə yaralı doldu. Mən təkilərinə, ayağı yer tutanlara pul payladılar, dedilər özünüz gedin Bakıya, qospitala. "Tiflis-Bakı"ya mindim, yatmağa yer olmadı. Bir həftəydi yuxusuzdum, lap ölürdüm. Düşdüm bu vağzalda yuxumu aldım. İndi gözləyirəm görüm nəynən gedirəm...

Baxdı, baxdı, dedi:

– Qorxma məndən. Göydən düşmüşəm, nədi. Bu cür gözəl zənən, belə kimsəsiz yerdə. Tək-tənha neyləyirsən bu gecə vaxtı bu xarabada?!

Allahımı çağırdım, danışdım başıma gələni. Dedim:

– Üstüm dolu puldu. Müəllimlərin məvacibi. Heç bilmirəm neyləyim? Dəmir yolunun üstüynən birtəhər gedərəm. Əmbə pul islanacaq, zay olacaq, belə aclıqda-giclikdə ac qalacaqlar müəllimlərin ailələri! Sabahacan gözləyəmmərəm. Oğru-əyri doludu hər yerdə! Aclıqdı...

Gözlərinə baxammıram. Çünki indi daha açıq yanırdı gözləri.

Başladı tək qolundan şinelini çıxartmağa, kəmərini açmağa.

Ayaq üstəcə çıxmışdı canım: neyləyim?! Hara qaçım?! Tir-tir əsirdim. Başım dumanlanmışdı. Bir də vaxt o vaxt ayıldım ki, şinelini geyindirib mənə, kəmərini də üstəlik belimə bağlayıb!..

– Qalındı şinel, içinə su keçən deyil, – dedi. – Pulu qupquru aparacaqsan. Əmbə... Deyirsən oğru-əyri doludu hər yer, aclıqdı... Özun də bir mələk... Qorxmursanmı gecənin bu vaxtı yola çıxmağa?!

Qəribə idi ki, yenə heç nə gizlətmədim bu yad adamdan.

– Qorxmaq nədi, titrəyirəm, – dedim.

Duruxdu bir az. Sinəsinə baxdı, qoluna baxdı, tək əlini asta-asta çənəsindən üzündə gəzdirdi:

– Canım qəlpəynən doludu. Minamyot mərmisi lap böyrümdəcə partladı. Dörd gün bundan qabaq. Sarğı quruyub yapışıb canıma. Bu zəhrimar yağış, qar olmasaydı, atardım, lap evinizə qədər ötürərdim.

– Yox, yox! – dedim. – Nə danışırsınız?! Bu cür dəhşətli yaraynan yağışın altına çıxmaqmı olar?!

Əynimə baxdım.

– Şineli də nahaq geyindirdiniz, – dedim. – Soyuqlayar yaralarınız, hov çəkər. Allah göstərməsin!

Kəməri açdım, şineli soyundum, çiyninə saldım.

– Əyləşin. Ayaq üstə durmaq da olmaz heç sizə. Oturun! – dedim.

O yanar gözlərə necə kədər gəldi, ay İsa müəllim! Elə kədər ki, ürəyim parçalandı. Ömrümdə görməmişdim elə vurğun baxışı.

– Yalvarıram, – dedi. – İstəyirsən yıxılım ayaqlarını öpüm, ey mələk! Al şineli geyin... özün geyin... Ağrım artdı. Tərpənəmmirəm.

Geyinmədim. Biləyimdən yapışdı, ağrıdan inildəyə-inildəyə zorla geyindirdi şineli. Kəməri də zorla bağladı.

– Get! – dedi. – Gəl, bir az ötürüm, – dedi.

Neyləyə bilərdim? Ağlayırdım: “İlahi, bu insandı!”

– Çıxmayın! – dedim. – Sarğınız islanır! – dedim. Mümkün olmadı. Çıxdıq. Tərs kimi külək elə vururdu, yağış, qar, şaxta elə çırpırdı ki, gözümü açammırdım. Zülmət elə qatılaşmışdı ki, heç iki addımlığı da görmürdüm. Dəmir yolu boyunca beş-on addım atmışdım ki, tuflimin dabanı şpala ilişdi, yıxıldım.

Yazıq necə inildədi, ilahi! Qolumdan yapışıb qaldıranda necə inildədi.

– Görmürəm! Heç nə görmürəm! Gedəmmirəm! – dedim.

Əli biləyimdə idi.

– Gəl! – dedi. – Mən görürəm. Aparacam, – dedi.

Əli biləyimi isindirdi. Bunu o da hiss etdi. Tezcə əlini çəkdi.

– Köynəyimin ətəyindən tut, – dedi. – Bərk tut, yavaş-yavaş gəl dalımca. Yolu özün göstərərsən. Gəl!

Tabe oldum, necə dedi o cür, köynəyinin dal ətəyindən tutub yavaş-yavaş getdim. Sonra... dəhşət oldu, əzizim. Birdən-birə əlimin isindiyini, qaynar su tək qanın barmaqlarımdan necə axdığını hiss etdim.

– Bəsdi! Getməyin! Yaranızdan qan axar! Bəsdi!...

Ağrısı çoxmu oldu, nə oldu, bilmirəm, əyilib ikiqat oldu.

– Yaxşı... özün get, gedə bilərsənsə, – dedi. – İşıqlaşanda şineli gətirərsən, ya da yaxşı olar ki, bir adamnan göndərərsən, – dedi.

Dəmiryoldan çıxandan sonra qəsəbəmizin yolunu necə tapdım, neçə yerdə yıxıldım, necə getdim, bu heç. Evə çatıb qapını açar-açmaz əlimi pəncərənin qabağında çırağa atdım. Peçi-sobanı odunla doldurdum, çırağın neftinin yarısını odunun üstünə töküb alışdırdım. Stulu sobanın böyrünə çəkdim, şineli soyunub stulun başına sərdim, səhərə qədər qurudub, qoltuğuma vurub evdən çıxdım.

Qar, yağış kəsmişdi. Yer donmuşdu, gölməçələr buz bağlamışdı. Daha palçığa-filana batmadan yüyürdüm, yüyürüb yeridim. O vaxt yetişdim ki, gözləmə otağında beş-altı adam hərəkətsiz, sükut içində dayanıb, gah mənə, gah da skamya tərəfə baxırdı. Onu arxası üstə skamyaya uzatmışdılar. Sinəsində, qolunda, çənəsində ağ tənzif əvəzində qara qan donmuşdu.

Şinel qoltuğumdan düşdü. Dizlərim büküldü. Yaş gözlərimi tutsa da, başının üstündə tənzifin ilgəkli düyününü gördüm: İlgəyi çəkdim, tənzifi qurumuş yaralardan qoparda-qoparda üzünü açdım. Nə isə dumanlı hisslə göz qapaqlarını inadla geri sığayıb gözlərini açdım. "Ey Tanrım! Ey Tanrım! – deyirdim. – İllərlə gözlədiyimi niyə verdin, niyə aldın, ey Tanrım!" – deyirdim.

"Sanitarnı poyezddən üç-dörd adam düşüb gəldi. Xərəyə qoydular, şinelini üzünə çəkib apardılar...

"Heç olmasa, adını deyəydin mənə, ey vətən oğlu. Adın olsun vətən oğlu, ey səcdəgahım!.." – Belə yaz, ey Əzizənin əziz şagirdi. Çılpaq dünyamıza şinel geyindir.

## UNUS

Harda bir öküz görürdüm, o dəqiqə Unus gəlib dayanırdı gözümün qabağında. Harda bir ot tayası, ya da elə adi boz at görürdüm, yenə o dəqiqə Unus gəlib dururdu gözümün qabağında.

Dünyaya maşın gəldi, araba getdi, öküzlər də araba ilə bərabər getdilər. Əmbə ot hələ yoxa çıxmayıb. Buna görə də Unus da hələ yoxa çıxmayıb.

Niyə "Dəli Unus" deyirdilər? Hamı bilirdi, mən bilmirdim. Anam deyirdi: "Ay Unus, odun yararsanmı?" Deyirdi: "Niyə yarmayım, a dərdin alım?" Gəlirdi, həyətimizdə uzun-uzun quru odunları bircə-bircə kötüyün üstünə qoyub, "Ya Allah! Hıx!" "Ya Məhəmməd! Hıx!" "Ya Əli! Hıx!" – deyə-deyə yarıb, qucağına doldurub, aparıb buxarının qabağında yığardı, ocaq qalayardı, gözləyərdi anam sac assın, xamralı çörək bişirsin, xamralıdan birini qızğın-qızğın ortadan yarıb arasına yağ qoyub, "ye" desin, Unus da yeyib, "Allah artıq eləsin!" deyib, oturduğu yerdəcə bir xeyli yatıb dincələndən sonra yenə "Ya Allah!", "Ya Məhəmməd!", "Ya Əli!" – deyib gedərdi.

Dədəm deyirdi: "Ay Unus, ot biçərsənmi?" Deyirdi: "Niyə biçməyim, a dərdin alım?" Kərəntimizi çardağın altından götürüb, kepkasını kərəntinin dirəkdəki mıxından asıb, anamdan "çitdən, əskidən-üsküdən bir şey" alıb başını çəkərdi, bağımızda otluğun bir tərəfindən "iz açıb "yenə də "Ya Allah! Hıx!" "Ya Məhəmməd! Hıx!" "Ya Əli! Hıx!" – deyə-deyə biçərdi. Gün qızanda anamı çağırıb "Qatıq ver, a dərdin alım", – deyərdi, bir xamralını bir cam qatığa doğrayıb, qarğı qaşıqla qarışdırıb "qatıq doğraması" yeyərdi və yenə oturduğu yerdəcə yatıb, dincəlib, "Ya Allah!", "Ya Məhəmməd!", "Ya Əli!" – deyə-deyə qalxıb, "qalanını sabah biçərəm, a dərdin alım", – deyib gedərdi.

Odun yarmaq, ot biçmək çox olmurdu. Əmbə Unusu hər gün görürdüm.

Çünki hər gün ya dədəmdən, ya anamdan, ya da nənəmdən bir abbası alıb, "Birinci A" sinfinin qapısından çıxanda dərhal dükana

gedib, abbasını verib bir parça qənd alırdım, itlərdən qorunmaq üçün uzun ağacını belinə qoyub, qollarını ağacın dalına salıb əyilib o yan-bu yana gəzinən Unusu tapırdım: “Ay Unus, qənd yeyirsənmi?” “Niyə yeməyim, a dərdin alım?” Qənd parçasını iri bir daşın üstünə qoyub, daşla vurub iki bölüb, birini mənə verərdi. Unus “balta” dişlərilə “xart” eləyirdə, mən “siçan” dişlərimlə “xırt” eləyirdim. Qabaq-qarşı, qəndimizi yeyib qurtarandan sonra soruşardım: “Sabah yenə gətirimmi?” “Niyə gətirmirsən, a dərdin alım”, – deyərdi.

Bir yaz günü abbasımı verib, qəndimi alıb Unusu axtaranda gördüm kəndin ortasında bir öküz yatır, Unus öküzün qabağında ağacına dirənib durub öküzə baxır. Sağ-.,solunda adamlar da Unusa baxırlar. Biri soruşdu ki:

– Nə olub? Niyə belə baxırsan öküzə, ay Unus?

Dedi:

– Fikirləşirəm, a dərdin alım.

O soruşan yenə soruşdu:

– Nə fikirləşirsən?

Dedi:

– Allah, deyirəm, bunu yaratdın-yaratmadın, bə niyə belə qocaltdın, yatdığı yerdən qalxammır?

Soruşan yenə soruşdu ki:

– Allah nə deyir?

Dedi:

– Nə bilim, a dərdin alım?

Soruşan güldü, getdi. O birilər güldülər, getdilər. Mən qəndi cibimdən çıxartdım, dedim:

– Yemirsənmi?

Dedi:

– Get bir qucaq ot gətir, əvvəl öküzü yedirdək, a dərdin alım.

Getdim Unusun qoyduğu tayadan bir qucaq ot gətirib, öküzün qabağına qoydum. Öküz yemədi. Yel əsdi, ot dağıldı. Unus ağacını belinə qoyub, əyilib getdi. Mən də getdim. Sabahısı “Birinci A” sinfindən çıxanda bu dəfə dükana getmədim. Çünki qəndim cibimdə qalmışdı. Gördüm Unus yenə öküzün qabağında dirənib durub. Adamlar da sağ-solunda.

Həmin soruşan gəldi, soruşdu:

– Bə indi niyə baxırsan, ay Unus?

Dedi:

– Ot gətirmişəm, yemir, a dərdin alım.

Soruşan bərk güldü, dedi:

– Görürsənmi necə qocalıb, ay Unus?! Yatdığı yerdən qalxammır. Çənəsini də tərpədəmmir.

Unus dedi:

– Bir gün gələcək mən də çənəmi tərpədəmmiyəcəm. Mənədəmi güləcəksən, a dərdin alım?!

O deyən daha bir söz deməyib, dönüb getdi. Mən qəndi cibindən çıxartdım, dedim:

– Yemirsənmi?

Unus bu dəfə də dillənmədi. Ağacını belinə qoyub, qollarını ağacın dalına keçirib əyilib getdi.

Sabahısı gördüm öküz yerində yoxdur. Əmbə Unus yenə ağacına dirənib o yerə baxır, adamlar da ona baxırlar.

O soruşan yenə soruşdu ki:

– Öküz öldü, doğradılar, itlərə verdilər, bə indi nəyə baxırsan, ay Unus?

Unus ağacının ucu ilə otu göstərib dedi:

– Bura baxıram.

O soruşan yenə soruşdu ki:

– Otun nəyinə baxırsan? Otdu də!

Unus dedi:

– Deyirəm, ay Allah, bu otda nə hikmət var ki, bunu yeyəndə heyvan sağ qalır, yeməyəndə ölür?

Soruşan yenə soruşdu ki:

– Allah nə deyir?

Unus dedi:

– Deyir yaranan bir cana borcludu. Ot yedi, yemədi, qocalanda ölür.

O adam getdi. Qənd cibimdə qaldı, mən də getdim. “Birinci A” sifini qurtarıb “İkinci A”ya, onu da qurtarandan sonra daha nə dədəmdən abbası istədim, nə anamdan, nə də nənəmdən. Daha qənd almadım, Unusla qabaq-qarşı durub “xart”, “xırt” qənd yemədim. Tək bir dəfə sinifdən çıxıb evə gedəndə gördüm Unus ağacına dirənib, yerdə torpağa çöküb qalan otlara baxır.

Dedim:
– Gedim, abbası istəyim, qənd alım, gətirim, yeyək.
Dedi:
– Yox, a dərdin alım. Daha yemirəm.
Soruşdum:
– Niyə?
Burda Unus birinci dəfə mənlə danışmaq istəməyib, yenə ota baxdı.
Sabahısı anam dedi:
– Unus heç nə yemir.
O birisi gün o gülən adam dedi:
– Unus bir aydı heç nə yemir. Öküzün dərdini çəkir. Dəli nə təhər olar bə?
Burda birinci dəfə Unusun birdən necə dəliləşdiyini gördüm; ağacını dik qaldırıb, o adamın üstünə yeriyib bar-bar bağırdı ki:
– Cəhənnəm ol burdan! Öldürrəm səni!
O adam qorxub qaçdı. O birilər də getdilər. Mən də qəndim cibimdə yavaş-yavaş aralandım. Unus isə yenə ağacına dirənib, ota baxa-baxa qaldı... O vaxtdan mən də daha qənd yemirəm. Niyə? Qənd görəndə ağlayıram.

## RZAQULU

Min doqquz yüz qırx üçüncü ilin yazında, yəni müharibənin ən qızğın vaxtında bütün ölkədə dəhşətli aclıq başlandı. Hökumət bizim kolxozun anbarındakı toxumluq taxıla qədər silib-süpürüb aparmışdı. Əmbə ötən payız həyətyanı sahələrdən, meşənin əldən-ayaqdan uzaq gizlin talalarında əkilən arpa, buğda, darı bizim kəndi saxlayırdı. Bütün ölkədə isə, dediyim kimi, elə dəhşətli aclıqdı ki, Yevlax, Kürdəmir tərəfdən, xüsusən Ucardan qocalar, qarılar, uşaqlar, hətta bir-birindən gözəl cavan-cavan gəlinlər, qızlar qatarlardan, eşalonlardan, hətta dəmiryoldan tək-tək gəlib keçən parovozlardan tökülüb sel kimi axıb kəndə dolurdular. Allahın, peyğəmbərin, imamların adlarını çəkə-çəkə bir tikə çörəyə görə göz yaşı axıdırdılar.

Günlərin birində sədrimiz Əsgəroğlu lap qulun vaxtı təndirə düşüb yandığına görə adı Yanıq, quyruğu gödək qalan atın nəslindən olan gözəl, yorğa atını bizim məktəbin xidmətçisi Rzaqulu kişinin “qara dam” – qazma evinin qabağındakı geniş meydana sürüb qışqıranda bir verstliyə gedən səsi ilə camaatı harayladı, qapıya-bacaya, evlərin üstünə çıxıb ordan-burdan boylanışan camaata izah elədi ki, bu uşaqların, kürdəmirlilərin hamısına çörək çatdırmayacaqsınız, danışın onlara razı olsalar, təkbir, ikibir-üçbir, evlərdə, ailələrdə qalıb işləsinlər, torpaqda tez əmələ gələn nemətlərdən əksinlər, biçsinlər, həm özlərinə ruzu olsun, həm də sizə. Yoxsa bu nədi, Allahın günündə sürüynən dolub ağlaşırlar, belə getsə, biz də çapılıb talanarıq.

Yanıq atın belindən qışqırtı ilə yayılan bu məsləhət vəziyyəti bircə gündə dəyişdirdi. “Pazı” – pencər, lobya, maş, noxud, kartof əkən kim, meşədə, tarlalardan, arpa kövşənlərindən kisə-kisə sünbül yığan, dəyirmanda üyütmək əvəzinə kirkirələrdə əlüstü çəkib yarmaya, una çevirib hədik, kələfətir bişirən kim, çələlərdən cır alma, qora yığan kim!.. Cəmisi bircə ayda hamı dirçəldi.

Payıza yaxın, deyilənə görə, Kürdəmirdə vəziyyət düzəldiyinə görə kürdəmirlilər vidalaşıb getdilər. Ucarlılar isə ta qırx beşinci ilə

– müharibə qurtarana qədər qaldılar, camaatımızla qaynayıb qarışdılar, hətta qohumlaşdılar. Belə qaynayıb-qarışan, qohumlaşan ailələrdən biri gəlinlə on altı yaşlı oğlu Rzaqulu kişinin bəxtinə düşmüşdü.

Bəxtinə deyirəm, çünki o vaxta qədər “qara dam”ın altında, bir boz kilimin üstündə, bir dəst cırıq-sökük mitilin altında yaşayan Rzaqulu kişinin evində xana quruldu, xalı, xalça toxundu, kişinin məktəbdən aldığı və on altı nəfərlik müəllim kollektivinin hər ay adambaşına bir beşlik “yığdığı” “əlavə maaşın” hesabına parça, tikiş maşını, qab-qacaq alındı, Rzaqulu kişi özünün dediyi kimi “cənnətə” düşdü.

İş belə gətirdi ki, kişinin oğulluğu müharıbəyə getdi. Məktəbimizin çopur, yassar, amma olduqca şən, zarafatcıl istəkli direktoru Rzaqulu kişiylə zarafatlaşmağa başladı: “Bəxtin açıldı, dünya gözəliynən tək qaldın damın altında! Düzünü de, Rza, mən ölüm, necə istəyir səni gəlin?”

Bu zarafatlar əsassız deyildi, yəni ciddi tərəfi də vardı. O da bu idi ki, müəllimlərimiz Rzaqulu kişinin əl-qolunu tutub, dükan arşını ilə boyunu ölçmüşdülər: bir metr on iki santimetr! Burnunun uzunluğunu da ölçmüşdülər, onca santimetr! Əmbə çopur, yassar direktorumuzu necə sevirdilərsə, xidmətçimizi də elə istəyirdilər. Hər ay hərəsinin “bir beşlik” verməsi də sevgidəndi: “Gəlnimizi bəzə!” “Gəlnimizə korluq vermə!” Və sairə.

Bunlar hamının, demək olar ki, bütün kəndin könlünü açan şeylərdi. Çünki çirkinliyi üzündən evlənməyib “damın altında tək qalan” altmış beş yaşlı kişinin birdən-birə xoşbəxt olmasına sevinməyən adam yox idi.

Əsgəroğlu da çox sevinirdi. Yanıq atı o meydana sürüb, yəhərin üstündən qışqıra-qışqıra camaata söz deyəndə sədrimiz də Rzaqulunu unutmurdu:

– Ay yassar, nə təhərsən? Altmış beş yaş hara, otuz beş yaş hara, a yassar? Razı sala bilirsənmi? Ha, ha, ha!

Amma Əsgəroğlunun qaqqıltısının kəsilib, gözlənilmədən qəmə, kədərə çevrilən vaxtları da oldu. Özü də adi qəm, kədər deyildi bu, çox dəhşətli kədər idi.

– Çox ürəkdən bağlanma ona, a bədbəxt! Müharibənin qurtarmağını gözləyir o! Səndə qalmaz o göyərçin, a qarğa!

Və ya:

– Görmürsənmi həyətdən bu yana çıxanda bütün kəndə işıq saçır! Dünya gözəlidi, a bədbəxt! Burda ona vurulmayan kişi yoxdu, a bədbəxt!

Və sairə və ilaxır.

Min doqquz yüz qırx beşinci ilin mayın doqquzunda, yəni faşizm üzərində qələbə gün səhər tezdən maydanda zurnaçı Naqqola qardaşı Yusif qara zurna ilə züyü qoşalaşdırıb "səhər sazı" – segahla camaatı meydana çatdıranda kənddə bir ildırım çaxdı:

– Rzaqulu özünü asıb!..

Naqolla Yusif susdular. Tarappatarap yüyürənlərin ayaq səsləri "qara dam"ın həyətində kəsiləndə Yanıq atın belindən Əsgəroğlunun səsi eşidildi:

– Vağzalda deyirlər bir həftə bundan əvvəl görüblər orda. Qaçıb gəlin!

Yanıq atın nal səsləri asta-asta yaxınlaşıb, həyətdəki saqqız ağacının altında dayandı. Əsgəroğlu cibindən bıçaq çıxarıb "çatı"nı – kəndiri kəsəndə direktorumuzla müəllimlər yüyürüşüb meyiti qucaqlarına aldılar...

# KÜP

Qatarla – "poyezd" lə şəhərdən bizim Muğanlıya gedənlər çox vaxt Soyuqbulaq stansiyasında düşürdülər. Xüsusən yaz-yay aylarında gün şaxıyanda Soyuqbulaqda düşürdük ki, tezcə özümüzü Qarayazı meşəsinin kölgəliklərinə verək, arxlardan sızıb çökək çəmənliklərdə, düzən otlaqlarda göllənən sularda çimə-çimə, arxların duru yerlərindən içə-içə kəndə gedək. Bir dəfə iş belə gətirdi ki, hələ Qazaxda faytona minib, Ağstafa vağzalına yola düşdüyüm dəqiqədən könlümə çəmən suları düşdü və dediyim kimi, Soyuqbulaqda qatardan düşəndə dərhal özümü meşəyə çatdırmağa tələsdim. İlk gölməçənin parıltılı, kölgəli ala-bula üzünü görəndəcə paltarımı soyunub, kəmərin arasına bağlayıb çiynimə aldım və necə deyərlər, ləzzət çəkə-çəkə suyun azacıq palçıqlı, otlu dibində ayaqlarımı sürüyə-sürüyə, yavaş-yavaş Palıdlı dərə deyilən köhnə bina yerimizə yönəldim ki, orda, həmişə kölgəsində dəyə qurduğumuz hündür, sallaq, taclı palıdın altında dincimi alım, geyinim, gedim. Qabağımda, yan-yörəmdə, enliyarpaq otların yarpaqlarından suya çırpıla-çırpıla göy qurbağalar hoppanıb, şappıltı ilə suya düşüb o yan-bu yana üzürdülər. Mən bu yamyaşıl dırnaq sədəfi irilikdə, ağ buxaqlı, ağ qarınmaz yamyaşıl qurbağaları lap uşaq vaxtlarından çox istəyirdim. Tutub ovcumda çapaladırdım, əzizləyirdim, qorxusunu tamam çıxarandan sonra suya buraxırdım. "Lap uşaq vaxtlarından" deyirəm. Əslində, elə o günlərdə də uşaq deyildim, hələ on dörd yaş! Uşaqdan da uşaq kimi oynayırdım qurbağalarımla. Birdən... ayağımın dövrəsi sərt, quyu kimi bir şeyin içinə düşdü. Su duru idi. Baxdım ki, küpədir ayağım düşən yer. Fikirləşdim ki, yəqin yazın lap erkən vaxtı Palıdlı dərədə tikilən binəmizdən diyirlənib buraya düşüb. Sapsağlam, qırmızı küpə. Kəndçi balası ayağını dartıb əlini uzatdı ki, əgər dibində ora-burasında çat-filan yoxdursa, aparım evə. Əmbə birdən nə görsəm yaxşıdır! – Qızıl pullar. Dəst-dəyirmi manatlıq qızıl pullar küpəsinin içində par-par yanırdı, su bərq vururdu. Otuzuncu illərdə babamın sağlığında onun portretində görmüşdüm bu qızıldan. O dəqiqə tanıdım ki, manatlıqdır. Üstündə

də Nikolayınmı, Aleksandrınmı bığlı şəkli. Qısası, dartıb çıxardım küpəni. Hiss elədim ki, deyəsən, böyründə palçığın içində dəmir qapaq da var. Qapağın böyür-başında əlavə qızıl da var. Necə deyərlər, kim idi daha buna fikir verən! Küpəni çıxarıb, lap aşağıda gölə batan yerində palçığı otnan silib, suda yuyub paltarım çiynimdə, atıla-atıla göldən arxın qırağına – yola çıxdım, ordan da palıdımızın altına tələsdim. Əmbə... Birdən...

– Ay uşaq, o nədi elə?

Baxdım ki, yolun ortasında bir yekə kişidi, hardandırsa, biz tərəfdən deyil. Başında ulduzsuz, göy haşiyəli şapka, boz kitel, qara xrom çəkməli, qarnının dikdirində yekə ulduz toqqası parıldayan bir adam. Boğazım qurudu: Hiss etdim ki, azı yüz qızıldır küpədəki, əlimdən çıxacaq. Elə oldu. Kişi yaxınlaşıb, küpəyə baxıb, heyrətlə:

– Bıyy! – elədi. – Göldənmi tapdın, a bala?

– Hə, – dedim, – ordan. Ayağım düşdü içinə, gördüm qızıl.

– Yerə qoy görüm, – dedi və heç yerə qoymağımı gözləmədən, tez götürüb pencəyinin altına, qoltuğuna vurub, iri-iri gözlərlə, yolun sağına-soluna baxıb, Soyuqbulağa getdi.

– Ay əmi!.. Ay kişi! Mən tapmışam axı onu.

Cavab vermədi. Heç gözünün ucu ilə də geri baxmayıb, qoltuğu domba, iki yanına basa-basa getdi. Meşədən Soyuqbulağa burulub gözdən itdi. Mən isə küpənin qapağının yanından, palçığın içindən o Nikolaydan beş dənə tapıb, yuyub-təmizləyib, bir-ikisini ovcumda atıb tuta-tuta, qızılların qəribə, sehrli çıqqıltılarından xoşhallana-xoşhallana palıdımızın altına getdim ki, bir az oturum, qıçlarım qurusun, ayaqlarımın altından çör-çöpü silim, paltarımı geyinim, gedim. Əmbə yəqin ki, sərinərək meh əsdiyinə görə mürgülədim, kürəyimi ağaca söykəyib yatdım. Bir də o vaxt ayıldım ki, böyrümdə lap qoca, ağappaq, büzüşük bir kişi oturub, uzun çubuq-qəlyan çəkirdi. Kim idi? Hardan gəlib, haraya gedirdi? Soruşmazabilməzə küpə əhvalatını danışdım. Ovcumdakı qızılları göstərdim. Elə hey təkrar edirdim ki:

– O nə təhər adam idi, ay baba?! O necə adam idi, ay baba?!

Qoca dillənmirdi. Çubuğunu-qəlyanını çəkə-çəkə, dinməz-söyləməz qalxıb gedəndə bircə kəlmə:

– İnsandı, – dedi. Sonra geri dönüb: – Allah səni insan oğlundan saxlasın, ay ağılsız nur balam, insan oğlundan, – deyə-deyə uzaqlaşdı.

... İllər keçdı. Bakıdan öz maşınımın rulu arxasında kəndə gedəndə istər-istəməz, tormozu basıb, palıdın bərabərində dayandım. Palıdın yox, kötüyünün. Arx qurumuşdu. İçini xəzəl, toz-torpaq basmışdı. Çəmən gölündə nə sudan əsər-əlamət vardı, nə otdan, nə göy qurbağalardan.

Niyə düşdüm maşından? Gedib o kötüyün üstündə niyə oturdum? Müştüyümün ucuna siqaret taxıb yandırandan sonra birdən heyrətlə baxdım ki, o qoca, damağında çubuq qəlyanı, elə həmincə geyim-keçimdə, böyrümdə oturub.

Qalxıb gedəndə dedim maşına minsin, hara istəyir, ora aparım.

Başını buladı, ayaqlarındakı çəkələkləri göstərib:

– Budu mənim maşınım, – dedi.

Sonra birdən:

– Dayanma. Yolda dayanma, – dedi.

Dedim:

– Niyə?

Dedi:

– Küpəni apar, insan oğlu!

– Küpə nədi, hardandı bir də elə küpə, ay baba! – deyib güldüm. Həm də çox xoşhal güldüm. Qocanın azı 15 ildən sonra 14 yaşlı uşağı tanıdığını, yaddaşının itiliyinə təəccüblənə-təəccüblənə pencəyimi soyunub kötüyün böyrünə qoydum. Kürəyim tərli, elə bil həmincə – o zamankı sərin mehin altında mürgüləyib, yatdım. Və... və birdən diksinib dik atıldım. Maşınımı aparmışdılar. Bir az o yan-bu yana vurnuxdum. Sonra nədənsə ayaqlarımdakı "basonoşka"lara baxıb yavaş-yavaş qocanın getdiyi yolla kəndə doğru getdim. Hələ ümidli idim ki, bəlkə kəndimizdəki yoldaşlarımdan hansısa mənimlə zarafat eləyib: axşamda, sabahda qaytaracaq maşınımı. Əmbə maşını nə o günü qaytardılar, nə sabahısı, nə də o birisi. Bu "küpə" də o "küpə"nin dalınca getdi.

Bir həftədən sonra evimin qabağında dostlarıma qonaqlıq verirdim. Elə-belə, münasibətsiz. Dümağ saqqal uzunu uzanan tüstü gördüm. Qoca qarşımda idi. Bir xeyli dillənməyib elə-belə üzümə baxdı.

Sonra qısa bir sual verdi:

– Ağıllanıbsanmı? – Sonra da süfrədəki nemətlərə və dostlara göz gəzdirib bir də soruşdu: – Ağıllanıbsanmı? – Və hamını matməəttəl qoyub getdi...

## YEKƏDİZ MƏCİD

Bizim bir Yekədiz Məcidimiz vardı. Cavan oğlandı, amma elə nəhəngdi ki, lap əməlli-başlı div kimi. Xüsusən dizləri elə yekə idi ki, baxabda elə bilirdin şalvarının altında hər dizinə bir yekə daş bağlayıb. Yekədizimizin bir xüsusiyyəti də bu idi ki, öz yaşıdları – iyirmi, iyirmi beş yaşlı oğlanlarla yox, biz on-on iki yaşlı uşaqlarla gəzirdi. Bizə, necə deyərlər, böyüklük eləyirdi. Bir-birimizlə dalaşmağa, təpik-təpik oynamağa qoymurdu. “Dalaşanda kinni olur adam, düşmənçilik olur, – deyirdi, – Təpik-təpik oynayanda qarın-bağırsağı xarab olur adamın, xayası-zadı partlayır”, – deyirdi. Yaz, yay aylarında yaylaqda balaca bir xeymədə, yırtıq-sökük keçə altında olurdu, payız, qış aylarında qışlağımızda – Muğanlıda da balaca bir bomba-qazma töylədə olurdu. Onun bunun qapı-bacasında, yəni həyətlərdə işləyirdi, “kim nə versə”, onnan dolanırdı. Hərdən sığırçılıq, yəni naxırçılıq eləyirdi, hərdən beş-üç çanaq un, pendir, yağ-filan alırdı. Hərdən də yaylaqda olanda, dərələrdən şələ-şələ odun, baldırğan, kığ aparıb dəyələrə – camaata paylayıb, əvəzində nə versələr, onu alırdı. Əksər vaxtlarda isə, dediyim kimi, bizim on-on iki yaşlı uşaqların arasında “böyüklük” eləyirdi. Məsələn, səhərdən gedib məktəbin qabağında otururdu ki, biz dərsdən çıxanda “Bu gün yemşənə, göyəmə gedəcəyik”, – deyib, ortalığımızda nəhəng addımlar ata-ata, bizi yortmağa-yüyürməyə məcbur edə-edə aparıb, meşədən ancaq qabanların girdiyi qalın kolluqları, qaratikanları qaban kimi yara-yara yol açıb bizə “Gəlin! Gəlin!” – deyirdi. “Bu gün moruğa gedəcəyik!” deyəndə illərlə toxunulmaz qalıb qalınlaşan moruqları da o cür – qaban kimi yara-yara “Gəlin! Gəlin!” – deyirdi. Bir də gördük ki, qışın ortasında, qar dizə vuranda Məcid Kür qırağının cəngəlliklərində keçilməz iydəlikləri də yara-yara “Gəlin! Gəlin!” – deyirdi, qarı nəhəng əllərilə eşib, qarın altında qalaq-qalaq qalan islaq xəzəli o yan-bu yana eşələyib, xəzəlin ara-bərəsində sapsağlam qalmış sarı-qırmızı iydələri ovuclayıb qabağımıza tökürdü. “Yeyin! Yeyin!” – deyirdi. Şaxtaboran içində, qətiyyən utanıb-çəkinmədən lüt-üryan soyunub, can

köynəyinin boğazını, qollarını düyümləyib, torba şəklinə salıb, o torbanın içinə bir parça çörək qoyub, özünü lal axınlı, dərin qara sularda üzüşən balıq sürülərinin aralarına təpirdi, gözləyirdi ki, balıq torbaya doluşsun. "Nə durubsunuz! Nə durubsunuz! Hanı ocağınız?! Hanı ocağınız?!" – deyirdi. Köynək-torba balıqla "ortalama" dolanda cumub sudan qırağa – qarın üstünə tullayırdı, bizim qaladığımız tonqalsayağı ocağı ayaqları ilə iki yerə bölüb, bir-birindən aralayıb, iki ocaq arsında qızına-qızına bıçaq kimi iti dırnaqları ilə balıqların qarınlarını yarıb-təmizləyib, pencəyinin cibində gəzdirdiyi "göy duz", yəni Naxçıvan duzu ilə duzlayırdı, səliqə ilə közün üstünə düzüb tez o yan-bu yanına çevirib, sonra yenə birbaş qarın içinə atıb: "Yeyin! Yeyin!" – deyirdi. Uzun sözün qısası, biz Məcidsiz həyat təsəvvür eləmirdik. Sözün həqiqi mənasında həyatımız idi Yekədiz Məcid, sevincimiz, sağlamlığımızdı. Birdən... birdəncə yoxa çıxdı. Necə deyərlər, ha orda Məcid, ha burda Məcid, yoxdur ki, yoxdur. Və sonra yenə birdən xəbər çıxdı ki, şəhərə gedibmiş, özünə paltar-palaz alıb, gəlib oturub damında – qazmasında, ha çağırırlar ki: "Əşi, niyə çıxmırsan eşiyə-bacaya? İşimiz-gücümüz tökülüb qalıb! Bu da oturub damında, elə bulka tıxışdırır!.." Getdik, əlbəttə. Hamımız da dolmuşduq, gördük oturub ocağın qırağında, qabağında qara aftafada çayı, stəkanı, qəndi, bulkaları.

– Kefə baxır! – dedik.

– Biz də bunu axtarırıq! – dedik.

Dedi:

– Kefə-zada baxmıram! Qanım qaradı.

– Niyə? Nə olub?.. – Sual yağdı.

Birinə də cavab vermədi. Yekə dizinin üstündən yekə bir yaylıq götürüb, gözlərinə tutub hönkürdü.

– Gedin! Gedin! – dedi. – Dərsinizdən qalmayın! – dedi. – Mən təki olmayın! – dedi. – Mən təki olmayın! – dedi.

– Əşi, nolub axı, ay Məcid?!

– Heç nə, – dedi. – Deyəmmərəm. Ölürəm! – dedi və... və hamımızı qovdu.

Dözməkmi olardı belə şeyə? Dərsdən sonra yenə yığışıb getdik ki, bilək görək nə olub axı?

Kaş getməyəydik. Görməyəydik ki, camaat yığışıb damın – qazmanın qabağına. Şaqqaşaq gülüşürlər. Məcid isə ağlayır. Necə

deyərlər, gözünün on yerindən tökür! Niyə? Ömründə birinci dəfə şəhərə, axşam vaxtı gedəndə görüb küçələrdə, dükanlarda, evlərdə "lampoçka" yanır! Nöyütsüz-zadsız! Soruşub ki: "Elə öz-özünə yanır bu?!" Deyiblər: "bəs necə?!" Sevindiyindən paltarı-zadı da yaddan çıxardıb, lampoçka alıb, gətirib asıb damın dirəyindən. Səhərə qədər gözləyib ki, ha budu yanar, ha indi yanar! Elektriksiz lampamı yanar?! Başlayıblar başa salmağa ki, bəs, "elektrik deyilən şey var, ay bədbəxt! Gərək çoxlu-çoxlu elektrik dirəkləri basdırılsın şəhərnən kəndin arasında, elektrik çəkilsin... və sairə. Ha! Ha! Ha! Ha! Ha!" Bu boyda camaatın içində bir adam tapılmayıb desin ki, bu bədbəxt dəliyə belə gülməyin, bunun qandığı şeylər də var axı! Qandığının biri, məsələn, budur ki, atasız-anasız yetim-yütüm uşaqları sevindirmək savabdı!.. O gündən ayrıldı bizdən. Yoxa çıxdı... Hardasan, ay Məcid?! – deyirəm. Nə bilim hardadır?!

## PORTSİQAR

Ağappaq alüminiumdan, naxışsız-filansız, adi, yüngül, gözəl bir portsiqardı...

Yaş altmışa çathaçatdı, yerişim ağırlaşmışdı, nəfəsim çətinləşmişdi və necə deyərlər, canımı dişimə tutub papirosu tərgitmişdim, amma o adi, gözəl portsiqarı elə cibimdə saxlayırdım. Papirosu tərgidənlərdən kimisi təsbeh çəkir, kimisi saqqız çeynəyir, kimisi də "simişka"dan, tumdan-zaddan doldurur cibinə, çənəsi işləsin, başı qarışsın, papirosu yaddan çıxartsın. Mən isə yazda, yayda pencəyimin cibində, payızda plaşımın, qışda paltomun cibində gəzdirirdim o portsiqarı. Sağ əlim portsiqarımın gümüş kimi hamar, sərin üzünə elə alışmışdı ki, barmaqlarımın ucları ilə o hamarlığı, o sərinliyi sığallayanda elə bilirdim ruhumu sığallayıram. Bəzən hətta ayaq üstdə mürgüləyirdim.

Bədbəxtlik üz verdi, itirdim portsiqarımı. Orda portsiqar, burda portsiqar, yerdə portsiqar, göydə portsiqar! Yoxdu ki, yoxdu. Ay gələn, ay gedən, ay qardaş, ay əmi, ay dayı, bəlkə kim isə götürüb portsiqarımı?! Portsiqar nədi? "Morlbora" siqareti zəmanəsində kimə lazımdır sənin alüminium portsiqarın?! Necə deyərlər, yağlı kömbə oldu, yoxa çıxdı. Aymı keçdi, ilmi keçdi? Nə bilim? Qanım qara, yerişim ağır, nəfəsim dar, gəzib-dolanırdım, qayıdırdım evə. Arvaddan-uşaqdan kim qapını açırdı, birinci sözüm "portsiqar" olurdu. Özüm isə hiss eləyirdim ki, deyəsən, axı, bir az o söz – sarsaqlamışam? Bəzən hətta şübhəyə düşürdüm. Allah göstərməsin, əməlli-başlı dəlilikdir ki bu! Xüsusən, qohum-əqrabadan kim isə dodaqlarımın tərpənişində "portsiqar" görüb qəzəblə üzünü yana döndərəndə lap pis olurdum. Qonaqlıqda: "Portsiqar gəldi " "Portsiqar getdi!" Xeyirdə, şərdə: "Privet, portsiqar!", "Necəsən, portsiqar?!" Qısası, hamı bu fikirdə idi ki, mənimki də elə buna – "portsiqar"a qədərmiş, daha qurtardı hər şey!.. Tək bir nəfər, "Bank" deyiləndə işləyən, xoşxasiyyət, gülərüz, yeyən-içən bir qohumum məndən üz döndərmirdi: "Salam, əzizim! Keyfin-əhvalın, əzizim?" "Qocalma! Həyat şirindi! Yaşa, əzizim!" "Gedək, yüz

– yüz vuraq, əzizim!” “Gəlim, yüz-yüz vuraq, əzizim!.” Bir də gördüm... Nə? Nə?! Nə?! Portsiqar! Mənim ağappaq, yüngül, gözəl portsiqarım. Əzizimin ovcunda. Çırıq! Açıldı! Siqaret içində düzüm-düzüm. Yəni on dənəsi sağ qapaqda, on dənəsi sol qapaqda! Əzizim... “Morlbora” nın birini çıxartdı nazik rezinin altından, qoydu damağına, “Morlbora” “zajiqalka”sı ilə yandırdı. Çırıq! Portsiqarım qapandı.

İstər-istəməz əlimi açıb tutdum əzizimin qabağında.

– Nə istəyirsən, əzizim? Sən ki tərgitmisən siqareti?!

– Siqaret istəmirəm. Portsiqarı ver!

– Neynirsən axı?

– A kişi, sən bilmirsənmi mənimdi bu portsiqar?!

– Bilirəm. Niyə bilmirəm. Məndən başqa hamı “Portsiqar” qoyub sənin adına. Bir o qalıb ki, pasport dəyişiləndə adını “Portsiqar” yazdırasan. Ayıbdı, əzizim. Qaldır, sənin sağlığına.

– Sağlığımı istəyisənsə, portsiqarımı ver!

– Yox, əzizim, vaxtilə sən portsiqara öyrəndiyin təki indi mən öyrənmişəm. Bunun çıkkıltısını eşitməsəm ölərəm.

– Nə?!

– Bə nə!

– Mən də ölürəm axı!

– Bekara-bekara danışma, ölməzsən! Sənin idi, olub mənim! Qurtardı!

Yedik, içdik. Axırda yenə çırıq! Açıldı. Çırıq! Qapandı.

– Sağ ol, əzizim, – dedi.

Getdi portsiqarım. Həmişəlik. Mənimki də buraya qədərmiş. Evə çatanda dodaqlarım öz-özünə açılıb “p” elədi və qapandı. Dedim: “Yəqin gözlərimin qapanmağına da çox qalmayıb...”

İndi siz fikirləşin, tapın görək.. insan insanı niyə öldürür?!

# GETDİ

*Osman Sarıvəllinin əziz xatirəsinə*

(*Əmioğlu kişinin qaynı Bakıdan kəndə getmişdi. Əmioğlu ilə arvadının arasında söhbət oldu. Bu hekayə o söhbətin standartlaşmasıdır*).

– Aya, haryeedersen? Qonağı öydə qoyuf, üzünü biyavannığa tutuf haryeedersen deerəm?

– Aya, bə o qonax bir şey yeməli döymü, a başın batsın? Gedərəm görüm toğlu-moğlu harya radd oluf, gözümə görünmör heş.

– Bıyy! Aya, töğluların otana öymü, çəpərin divində qarnaxlener. Fırıldağ oğlu fırıldağ, çöldə-bajada veyillənif axşam gəlif deyəcəksən ayağın altda qurvan kəsmək isterdim, a dərdin alem, heyvan qırılmışı tapammadım, ay arvad, əl hareylığa bir şey elə, qaymaxdan-zaddan, mən heyvanı kəsənətənə... düzmü deerem, a vayına oturom?

– Əşi, düz-əyri deersən dana, nəvlem... Toğluyu orda hardan gördü sənin o çıxmışların? Qonaxnan baravar sənin özüyün də tamahın var toğluda. Canın çıxa ha genə kəsmərəm. Qayğanaxnancığaz yola salajam o şlyapalı qoduğ oğlunu. Nəəəzer bu vaxt? Şəhərində otrammermı?

-Tfu sənin çal saqqalına! A çaleş, Ermənistan yastıbaş ölmüş, balaja qardaşın döymü bir şaqqıldaxlı toğlu da qıymersan ona?

– Çox qırıldatma, əşi, tanımırammı səni? Qardaşların yığışıf gələndə Bakıdan qavaxlarına yüyürürsən, març, març, yaman kasıflamışdım, a dərdiniz alem, elə bəri başdan əlinizi civinizə salın, ürəyim bütöy olsun, yağlı bir qoş kəsəm, kavavınnan doymuyasınız!

– Aya eşider, balaja qaqaşın, geder, aya!

– Bıyy! Doğrudanmı, aya? Nə danışdığındı?

– Vallah, əşi, odu bax, pencəyini geyer, çamadanı da ayağının yanında.

– Paho, heç olmadı... ay arvad, a hofsın qızı, hofsın, mən savahdannan heyvanı axtareram, tapammeram, bə sən it qızında qanacax hardandı?! Heç olmasa şordan-mordan qoydunmu uşağın qavağına?

– Yox, a kişi, mən nə bilem ay olduğunu?

– Bıyy sənin ateyin ərvahını bellem, ay harsından törüyən, bir stəkan çayındamı yoxuydu, başını qarışdıreydın uşağın?

– Çay nədi, a kişi, bilmersənmi öyündə bir çişdəmə qand da qoymursan əl çatan yerdə, hamısını basırsan qıfılın altda!

– A horsun qızı, böyrümüzdəki harsının da dərs almeyıfsanmı ki, iki çişdəmə qand saxlayasan önlüyün civində! Aaaz, küsdürüfsən, diyəsən, uşağı, qavağına dur, qoyma getməyə.

– Bıyy, ə, özüyün baldırın qırılıfdımı, yeri, qoyma daan!

– Ay Allah alsın əlimnən səni təki arvadı, aaz, o dəfə dalaşmadıqmı uşaqnan, yalvarmadımmı ki, bircə gejə qalsın, qonşuda toy var, yaxşı ye, iç, sonra gedərsən demədimmi? İndi ona bax, genə qaş-qabağı yernən gedir, mən tərəfə baxmer də heç! Aaaz, yeri, tez ol, çağır, qaytar!

– Qayıtmaz, ay baldırın sınsın. Savaxdannan elə deyinerdi dodağının altında!

– Vay, vay, nə pis oldu. Hayıfımı sənnən alajam, ay it qızı. Səsini kəs, içəri yeri, belini elə sındırım ki, bir həftə qalxmayasan!

– Onu başararsan, Allah qırsın qolunu! Qohum-qonşu baxer, kişi, yeri əlinə-ayağına çüş qaytar! Getdimi?

– Gedir getsin, nağayrem, qanajağı olsa o çamadana iyli alt tuman-köynəkdən savayı bir şey də qoyardı.

– Getdi!

– Nağayrem?!

# ŞAPALAQ

Zarafatyana ürəkdən "Simərey" çağırdığım bacım Samirənin saçı elə sarı idi ki, lap ağa çalırdı. Gözləri elə tünd göy idi ki, lap qaraya çalırdı. Hərdən həyatımda mürəkkəbliklər qatılaşanda, azadlığa, təmiz havaya, təmiz suya, qulaq dincliyinə ehtiyacım olanda Bakıdan bir növ qaçıb, bacımın "mənim şəhərim" adlandırdığı qəsəbəyə gedirdim, uşaqlıq yoldaşım, sonra da yeznəm olub öz mülayimliyi, səxavəti ilə könlümdə yuva salmış nakam cavanın qəbrini ziyarət eləyib, gözlərimi silib qəsəbənin gündoğanında daimi yaşıl təpə belində dörd otaqlı, ağ daş evin yaşıl dəmir darvazasının düyməsini basırdım. Samirə "Jiquli"mi haysız-küysüz, sakit, dərin sevinclə qarşılayıb, öz sakitliyinin əksinə qışqırtılı şadlıqla atılıb-düşən, "Dayı! Dayı!" – deyə-deyə boynuma sarılan dörd qızının dördünə də "səfərbərlik elan edirdi" ki, ən çoxu yarım saat müddətində "manqalı hazır eləyib" dayının "beluqalarını", yəni mənim telefon zənginin "gəlirəm" kəlməsini eşidəndən sonra dəstəyi yerə qoymadan "Balıqçı" Nüsrətə zəng vurub, "Qağam gəlir!", – deyib gətirdiyi balıqlarını şişlərə taxmaq, samovarı qaynatmaq əmri verirdi. Qəsəbənin tən ortasından, irili-xırdalı daşlar arasında köpüklənə-köpüklənə axan dağ çayının balığına, əslində, "beluqa" deyilirdi; qızıl balığa-"farel"ə oxşayan, uzunaraq, dümağ, gözəl, dadlı balıq idi. Ömründə o çaydan başqa çay, o balıqdan başqa balıq görməyən Balıqçı Nüsrət nə vaxtsa "beluqa" demiş, o vaxtdan Samirə ilə qızlar da "beluqa" demişlər və Nüsrətin adı da "beluqa" qalmışdı. O balıqçı Beluqa Nüsrət özü də nazik, uzunayaq, ağbəniz kişi idi. Elə ki, manqalın tüstüsü kəsilirdi və tüstü qoxusu əvəzinə balıq kababının ətri çıxırdı, Nüsrət dərhal darvazada peyda olurdu, dinməz-söyləməz, yəni salamsız-kalamsız gəlib həyətdə, tənək çardağının altındakı stolun o tərəfindən bu tərəfinə əl uzadıb əlimi sıxırdı, tut arağının şüşəsini pencəyinin altından çıxarıb taqqıltı ilə süfrəyə qoyurdu, "qırx beş yaşının iyirmi ilini üstündə gəzdirdiyi" qədəhlərini cibindən, tər-təmiz kağız arasından çıxarıb "siləiəmə" doldururdu, əvvəlcə "bu

möcüzəni", yəni tut arağını çəkən qeyri-müəyyən "o kişinin sağlığına" içirdik, sonra "Dayının", yəni mənim sağlığıma, sonra da Beluqanın sağlığına içirdik. "Hansı Beluqanın? Nə fərqi var, ay Dayı! Mən özüm də elə çayda balıq deyiləmmi?" – deyirdi. "Ermənilər çayın başında pis zavod tikirlər. Çayın suyu indidən pis iy verir. Beş-üç ildən sora o beluqa qurtaranda mən Beluqanın ömrü də qurtaracaq. İçək, ömrümüz uzansın", – deyirdi. Və beləcə, salam verməyə də bir növ ərinən Beluqa Nüsrət dil açıb sonra Samirənin, sonra qızların sağlığına içirdi. Axırda, şüşənin "dibi" qalanda isə, "Bunu da addadaq, ermənin ömrü də belə qurtarsın!" – deyirdi. Və bu sonuncu qədəhdən sonra boş şüşəni pencəyin altında kəmərin altına, qədəhləri cibinə qoyub, yenə dinməz-söyləməz çıxıb gedirdi. Niyə xoşum gəlmirdi bu adamdan? Məzəli-duzlu, heç kəsə oxşamayan, "orqinalni" kişiyəm, Dayı. Yoxsa öz sağlığımı sən təki kişinin sağlığına qatmaram", – deyirdi. "Allah məni saxlasın, kirva!" – deyib, əslən erməniliyini yada salıb ləhcə ilə danışıb, qızlarla, Samirə ilə bərabər məni də güldürüb əməlli-başlı şənləndirdiyinə baxmayaraq, gizlində xoşum gəlmirdi. Özü erməni, adı Nüsrət, sonuncu qədəhin dibində son damlalara baxa-baxa: "Ermaninin da ömrü elə belə qalsın, ay kirva!" – deyən adamı kim xoşlaya bilər?! Açıq deyim, ikiüzlü idi. Tamam açıq ikiüzlü! Əmbə dözürdüm. Hərdən hətta yazığım gəlirdi ki, ermənilərin yenə Qarabağa göz dikdikləri məlum olandan sonra bu bədbəxt belə alçala-alçala ikiüzlülük eləyirdi. Hardan biləydim ki, araq yoldaşım dəhşətli düşmənmiş!

Hər şey birdən-birə açıldı. 1988-ci ilin payızında ermənilərlə münasibətimiz mürəkkəbləşəndə, istər-istəməz, yenə zəng vurdum, SimƏrEy – Samirəmə "gəlirəm" dedim. Və həmişəki kimi, əvvəlcə nakam, cavan yeznəmin qəbrini ziyarət elədim. Çünki ürəyimdə sıxıntı vardı: Samirə, qızlar, bütün ailə bədbəxt, mən isə o bədbəxtliklə o qədər də düz gəlməyən dinclik, rahatlıq, "beluqa", tut arağı istəyirdim. Demə, sıxıntının başqa səbəbi də varmış. Torpağımızda – Kəlbəcərdə, Laçında müharibə açıq-açığına getdiyi, qan töküldüyü halda, Nüsrət yenə stolun o tərəfindən bu tərəfinə əl uzadacaq, pencəyinin altından şüşə, cibindən qədəh çıxaracaqdı? Bu nə əcaib vəziyyət idi?! Əsrlərlə içərimizdə – torpağımızın ən gözəl ab-havalı yerlərində yaşayan, necə deyərlər,

canhacan olan xalq indi yenə silah götürüb qanımızı tökürdü?! Mənim, hətta başımda duman, ağırlıq əmələ gəlmişdi. Nə isə, "Gəlirəm" dedim. Dediyim kimi, əvvəlcə qəbiristana getdim. Niyə ləngidim orda? Həmişə ancaq gözlərim dolduğu, nəmləndiyi halda, bu dəfə niyə çox ağladım? Bilmirəm. Bəlkə də artıq duymuşum ki, bu, axırıncı ziyarətdir, buna görə də qəbirinin yanında çox oturdum. Bir də o vaxt ayıldım ki, şər qarışıb, çayın günbatanında meşəli dağdan bərilər – çökəklər tamam qaranlıqlaşıb. Yəqin bacımgil də intizardırlar ki, görəsən, niyə belə gec gəldi bu "gəlirəm" deyən. Dik qalxıb "rul"un – sükanın arxasında oturub açarı burdum və... motorun tappıltısı ilə eyni vaxtda birdən güllə səsləri eşitdim. Avtomatla silahların şaqqıltıları bir-birinə qarışıb, dağda, meşədə əks-sədası ilə birlikdə ildırım gurultularına çevrildi. Ən dəhşətlisi isə bu idi ki, atışma qəsəbənin içində idi. Hansı yolla, necə getdim? Bilmədim. Samirə darvazanı açıb maşının qabağında duranda açıq sarı saçlarının ağlığı ilə sifətinin ağlığı qarışmışdı. Gözləri böyümüşdü. Qızların dördü də Samirənin sağ-solunda titrəşirdilər. Çünki avtomatlar lap otuz-qırx addımlıqda, Nüsrətin ikimərtəbəli evi səmtində şaqqıldaşırdı. Nüsrət özü isə burda – həyətdə, Samirənin, qızların sağ-soluna keçə-keçə, əllərini dizlərinə çırpa-çırpa qışqırırdı.

– Gəldilər! Ay Dayı! Səni Allah özü yetirdi. Maşını xoddan salma! Erməni gəldi! Qaçın! Qaçın! Erməni gəldi, ay dayı! Mən bədbəxt neyləyim indi?! Nə o tərəfə gedə bilirəm, nə bu tərəfə! Siz qaçın! Tez olun! Odey bax, bizim hasarın dalından atırlar heyvanlar! Evinizi-eşiyinizi qoruyaram, saxlayaram! Lap qurban verərəm özümü, əmbə saxlayaram! Siz qaçın!..

– Bu haray-həşir içində Samirənin sakit, əməlli-başlı sakit səsini eşitdim:

– Dünən də belə oldu. Qaçan qaçdı. Mən qaldım. Uşaqları da qoymadım getməyə. Hara qaçıram?! Öləndə də ölək.

Nüsrət böyrümdə idi. Maşının arxa qapılarını açıb elə qışqırırdı. Daha nə dediyini eşitmirdim. Çünki avtomatlar indi lap yaxında, bacımgilin hasarı uzunu qaralan çinarların ara-bərələrində qaqqıldayırdı. Əmbə çox heyrətli idi ki, on-on beş addımlıqda şappıldayan avtomatlardan bir qığılcım da çıxmırdı. Nə baş verdiyini, nədən bildim? Bilmirəm. Qızların qışqırıqlarına baxmayaraq, o səmtə – çinarlar səmtinə getdim. Orada da qabağımca yüyürüb qaçışan

balaca qaraltıların dalınca getdim. Mən Nüsrətin evinin birinci mərtəbəsində, qorxudan quruyub avazımış on-on beş yaşlarında uşaqların qabağında dayananda Samirə ilə qızlar da, Nüsrət də burda idilər. Uşaqlar bayaq çinarların aralarından qaçanda şaqqıldayan maqnitafonlar da əllərində, daş divarlara düşüb gurultuya çevrilən aramsız güllə səslərini kəsməyə, yəni maqnitafonları söndürməyə də cəsarət eləməyib, deyəsən, hətta şalvarlarını islatmışdılar. Tanıyırdıq, bilirdik ki, bu beş oğlan uşağının beşi də Nüsrətlər məhləsindəndirlər. Tək biri, hamısından uzun, nazik, kürən oğlan Nüsrətin idi.

– Söndürün! – dedi.

Əlləri əsə-əsə maqnitafonları söndürdülər. Dərin, ağır sükut içində sonuncu şaqqıltı eşidildi. Əmbə bu, lent yazılmış güllə səsi deyildi. Mənim özü sakit, səsi nazik, nur mücəssəməsi SimƏrEy – Samirəmin beş barmağının beşi də beluqa Nüsrətin üzündə qalmışdı.

# KÜLLÜK

Martın axırına yaxın, əfsanəvi “Qarının borcu” adlandırılan, baharı, qışı qaytaran qarlı, çovğunlu vaxtlar bir axşam peçi – sobanı odunla doldurub alışdırandan sonra, necə olubsa stolunun arxasında möhkəm yuxuya gedib. Anam kişini oyatmaq istəməyib, çarpayıda dirsəklənib ki, dincəlib qalxıb yeməyə bir şey hazırlasın, bacım bunları görüb, evdə darıxıb əmimgilə gedib, deyib bəs belə-belə, “ikisi də xamırlanıb köpür”. Əmim deyib: “iz də köpmək istəyirik. Eşik qar, içəri dar, nə var burda, get sən də köp”. Bacım qayıdıb, o da və beləliklə, heç kəs xəbər tutmayıb ki, alov püskürəndə peçin – sobanın qabağının deşiklərindən eşiyə vurub, döşəmədəki odun yığını da alışıb, döşəmə, sonra da ev yanıb. Əmimin ehtimalına görə, “tüstüdən boğulub” üçü də oyanmayıblar. Evlə birlikdə üçü də yanıb. Camaatın dediyinə görə isə, “kimsə qapını, pəncərəni daldan bağlayıb”. Yəni atama, anama, bacıma sui-qəsd olunub. Getdim gördüm heç külləri də qalmayıb, evin külünə qarışıb, külək də vurub dağıdıb... Ağlaya bilmirdim. Qardan, çovğundan sonra “qarının borcu” qurtardığına görə, aprel birdən-birə gur bahar gətirmişdi. Nəhəng küllüyün dövrəsində, ağ daş hasarımızın dibləri uzunu cərgə-cərgə ucalan qələmə ağaclarının yarpaqları titrəşirdi, asta xışıltı arasında sevinclə dolu bülbül cəhcəhləri, hophop – şanapipik “qupqup”ları eşidilirdi. Əmim idi, Göyçə, Başkeçid köçkünlərinin, Laçın qaçqınlarının “Ləlli” dedikləri bibim – əmim arvadı idi, bir də Sona – əmiqızım. Həyətimizdə, ara-bərələrində kül bozaran təzə-tər yaşıl, gur çayırlıqda xalça salmışdılar, xırda-xırda dəyirmi döşəkçələr düzmüşdülər, iri samovar qoymuşdular, iri çaynik dəmləmişdilər. Sona xalçadan kənardakı palazların üstündə dərin sükut içində oturan camaatın süfrələrinə xırda-xırda nimçələrdə yas halvası düzmüşdü, armudu stəkanlarda çay paylayırdı. Əmimlə Ləlli, yəni Əlli bibim bir tərəfindən asta-asta təskinlik verirdi, əmim Xoca isə o biri tərəfimdən. Uinston Çerçilli xatırladan nəhəng gövdəsi ilə həmahəng, nəhəng siqareti tüstülədə-tüstülədə, camaata da eşitdirə-eşitdirə bərkdən danışırdı:

– Bibin düz deyir, olacağa çarə yoxdur. Neyləmək olar, ay oğul! Allahın işidi... üçü də bir-birindən gözəl! Üçü də müəllim. Bilirsən "Qurani-Kərim"də içmək olar, ancaq həddində" deyilən zəhrimarı xoşluyandı Xoca əmim. İçirdim, gəlirdim bura həyətə –... nərddən zəhləsi gedirdi qardaşımın. Elə ki, stulları çəkirdim bu xalça saldığımız yerə, taburetkanı qoyurdum ortalığa, nərdi də qoyurdum taburetkanın üstünə, "Musa, gəl!" deyəndə dəli olurdu: "Ay Xoca, nə qədər taqqıldatmaq olar o taxtanı?!" Şeş, beş, başım boş, cəhənnəməcən, qarnım ki, doludu! "Neçə ildi eşidirəm səndən bunu, ay Xoca?! Hər dəfə azı yarım saat deyinirdi. Əmbə çox istəyirdi məni. Xüsusən o zəhrimar dilimə dəyəndə xətrimə dəymirdi, gəlib otururdu: "Bax, bircə əl oynayacam ha! Sən udsan, kabab verəcəm, o zəhrimarsız! Mən udsam, xəngəl verəcəksən, o zəhrimarsız!.. "Həmişə də elə mən udurdum. Hinduşkanı kəsirdi əlüstü. Arvadlar yolub, doğrayıb, şişlərə çəkənə qədər manqalı hazır eləyirdi. "Xocasan da, neyləyim, işimə-gücümə yarayırsan, al tök bu zəhrimarı!" Özü də içirdi mənnən bərabər, başlayırdı mənim dediyimi deməyə: "Şeş, beş, başım boş! Başımızı dolduraq, – deyirdi. – Başım başdı, işim də işdi! Gedək Xoca bazarına, üzümüz üz görsün!" Bizim arvadnan, Sonamnan, mənnən bərabər ta günbatana qədər alver eləyirdi dükanda, "Dil haqqımı ver!" – deyirdi. On-on beş şirvan qoparırdı məndən, elə ordaca təzədən başlayırdı manqal qalamağa. Dükanda ey! Badımcandan quyruq kababı! Üstdən qartal kababı!.. "Allah mənə belə qardaş verməsəydi, dünyanın ləzzətini bilməzdim, ay Xoca! Heyif ki, bu qardaşa məni təki bezdarnı yoldaş verib, məktəbdən, sinifdə yalan-palan qırıldatmaqdan savayı nə gəlir əlimdən!.. Çox saf adam idi atan, ay oğul! Çox!.. Sən universiteti qurtarandan sonra bir həftə hər gün qəsdən uduzdu mənə, düz bir həftə hər axşam hinduşka kababı, cücə kababı verdi Xoca əminə! Yanında da o zəhrimardan!.. Səni magistraturada saxladıqlarını eşidəndə də qəsdən uduzdu dalbadal. " Şeş, beş, başım boş! Dolduraq başımızı, sonra da gedək Xoca bazarına!" Vurğun idi mənə! Tək mənəmi, elinə-obasına da! Bağlı deyilən kəndə, köçkünlü, qaçqınlı kim var, soruş hamıdan, gör bir adamın xətrinə dəymişdimi?! Çadır şəhərciyinə get, deynən "Musa müəllimin oğluyam", gör necə bağırlarına basırlar səni!.. Əlli yaşında yüz yaşlı ağsaqqal hörməti qazanmışdı rəhmətlik! Kim

deyirdi belə iş gələcək Musa müəllimin başına? Elə buna görə deyirəm Allahın işidi, ay oğul!.. Kəndimizin yiyəsi Hacı Məlik deyir: "Allah çox istədiklərini tez aparır ki, əbədi dünyada əbədi cavan qalsınlar!.. Düz deyir! Müdrik oğlandı Hacımız! Çox müdrik ey! Məkkədən qayıdanda mənim xahişimi gözləmədi, özü getdi kredit aldı Musanın pasportuynan! O dükanı açdıq. İndidə ki, Xoca bazarı!" Bir dəfə də getməmişəm şəhərə mal almağa. Bir dəfə də ey! Bazarın malı öz ayağıynan gəlir! İndi belədi zəmanəmiz, ay oğul! Öz pasportumuznan bir dəfə kredit alanda gərək yarısını orda qoyasan aldığıyın. İkinci dəfə öz pasportumuznan kredit almağa getmək olmaz; alsan gərək hamısını orda qoyasan ki, birincini pozsunlar, hökumətə borcun olmasın. Rəhmətliyə dedik bəs belə-belə, ver pasportunu ortaq olaq. Heç bir dəqiqə fikirləşmədi də, o dəqiqə çıxartdı pasportu, qoydu Hacının ovcuna, bax belə təmiz idi rəhmətlik! Lap uşaq təki ey, ay oğul! Hacı bazardan gəlirdi, bir dollar da istəmirdi. "Neynirəm?" – deyirdi. – Oğluma, qızıma verərsiniz. Arvadnan mən yaşadığımızı yaşamışıq. Dükandan verdiyiniz də bəsimdi", – deyirdi. Belə cür insan! Hayıf oldu nur qardaşım! Allah ömrünü sənə versin. Dedim öz ayağıynan gəlir malımız. Musa müəllimin tələbələri belədilər! Rəhmətliyin adı bəsdi sənə ki, heç əlini də tərpətmədən milyoner olasan! Belə qardaşıydı mənim qardaşım! Hacımız da onun şagirdi olub axı Bağlı məktəbində. Çox müdrik insandı Hacımız, ay oğul! Bir gözəl təklif də başımıza bu iş gələn günü dedi Hacımız:"Ağırlaşmısan daha, – dedi, – ay Xocamız, rəhmətliyin oğlunu çağır gəlsin toyunu eliyək, sahib olsun təsərrüfatımıza! Magistratura nədi, zad nədi bu zəmanədə?! Gəlsin biznesmen olsun, halal qazancıynan Həccə getsin, gəlsin xeyriyyəçi olsun, Hacı Zeynalabdin Tağıyev təki adı dillərdə gəzsin! – dedi. – Adı nədi rəhmətliyin oğlunun? Tərifini çox eşitmişəm... "Musa müəllimin oğlu! Musa müəllimin oğlu!" Əmba adını bilmirəm". Dedim: "Qardaşımın övladı olmurdu. Bu anadan olanda muştuluqladım ki: "Oğlun oldu! Adını nə qoyursan?" Dedi: "Elə Oğul adını!" Baxdı, baxdı üzümə, Hacımız birdən elə "Allah, Allah!" – hayqırdı. Tüküm biz-biz oldu. "Allahın işinə bax, ay Xoca əmi! O qardaşa tək bir oğul, bu qardaşa tək bir qız! Göbəkkəsmə nişanlı! Yəni ayrılmasınlar bu istəkli qardaşlar!.. Bu küllüyün yerində saray tikdirəcək əmin sənə, ay gözümün işığı!

O bazarın, dükanın, bu evin, bu da ata əvəzi əmin – qayınatan! Xoşbəxt eləyəcəyik səni bu küllüyün yerində!..”

Həyətdə sevinc, şadlıq dolu qışqırtılar bir-birinə qarışdı:

– Amin! Amin! Amin!..

– Niyə dillənmədim? Niyə elə ordaca etiraz eləmədim ki, məndən biznesmen çıxmaz, ay əmi? Tamahımmı üstün gəldi? Yoxsa onun “ay Sonam!” çağıranda cavabında “Can!” eşidəndə duyduğum xoşbəxtliyə tez qovuşmaq arzusumu? Bilmirəm. Bildiyim, bütün varlığımla anladığım bu oldu ki, magistraturada böyük həvəslə yazmağa başladığım mövzu – “On doqquzuncu əsr rus ədəbiyyatında Qoqolun yeri” elmi işim yazılmayacaq; qarnını yaşıltəhər “bolotnı” rəngli corablarda xırdaca ayaqlarının üstünə qoyub oturmuş, iri, möhkəm dişləri arasında siqarı çıxarmadan danışan bu Uinston Çerçillin nəhəng, ala gözlərindəki məhəbbətin əksinə getmək çətindir. Yəqin ki, elə buna görə hələlik susmağı daha münasib sayıb, başımı köksümə endirib, hərəkətsiz qaldım. Sonanın qalın xara parçadan, yaşıl çəkələkləri palazın üstündə o yan-bu yana getdikcə, uzun, qara ipək “platya” nın ətəklərinin xəfif yeli dizlərimdən taqətsiz sallanan əllərimə yalnız sevginin hiss edə biləcəyi sərin yel dəydikcə, sarsıntısından boğulduğum yas içində heyrətli – anlaşılmaz sevinc duydum. Deməli, ailə həyatı?! Demək, biznes?! Xoca dükanı?! Xoca bazarı?! Milyoner Hacı Zeynalabdin Tağıyev?! Xeyriyyəçi?! Demək, əlvida Qoqol? Əlvida on doqquzuncu əsr nəhəng rus ədəbiyyatı – Dostoyevski?! Və həm də belə birdən-birə?! Belə gözlənilmədən?! Nərd?! “Şeş beş, boş baş” zarafatları?! Hinduşka, cücə kababı?! Birdən-birə gördüm ki, mənim “bolotnı” corabda ayaqlarım da elə əmimin ayaqları kimi balacadır, bədənim isə nəhəng! Atam kimi, bu Uinston Çerçilli mən də çox istəyirəm. Əlli beş yaşında da iyirmi yaşlı Sonası kimi – sarı, zərif, alagöz, Əlli-Ləlli bibimi də çox istəyirəm!.. Bağlıda hamının bildiyi, dildə ağızda gəzən əhvalatı xatırladım. Nə vaxtsa, Əlli-Ləlli bibi beş-altı yaşlarında olanda Bağlıya kinoçəkənlər gəlibmişlər. Ermənistandan buraya – Muğana köçürülən köçkünlər arasında kolxozda yaxşı işləyən adamları kinoya çəkirmişlər ki, fərəhlənsinlər, indi “Ermənistan” – “Hayestan” deyilən dağlarda dədə-baba yurdlarından ayrıldıqlarına görə hökumətdən o qədər də narazı olmasınlar. Həmin kinoçəkənlərdən həmişə qan-tər içində, üzü üstə yorta-yorta gəzib camaatı “çəkiliş”ə çağıran bir kişi bir-

dən xırp dayanıb, gözünü zilləyib o beş-altı yaşlı qızcığaza. "Pah, Pah! Allah, Allah! Bu nə möcüzədi yaratmısan, Allah!" – deyib, uşağın ata-anasını çağırtdırıb, "Mən bu gözəl balanı kinoya çəkdirəcəm. Nədi bunun adı?" Deyiblər: "Ləllidi adı". Soruşub ki: "Ləlli nə deməkdi?" Deyiblər: "Leylidi əslində. Nənəsi Ləlli dediyinə görə, camaat da Ləlli deyir". Deyib: "Mənim familiyam Əlilidi. Övladım yoxdu. Allah xatirinə, bu gözəl balaya Ləlli yox, Əlili deyin, adı ilə yüz yaşasın!" Gülüb camaat. Deyiblər: "A kişi, bu Leylini Ləlli eləmişik, indi də Əlilimi eliyək?!" Gözün dəyər uşağa, elə baxma, çıx get! Yazıq, övladı olmayan Əlili ağlayıb. Camaatın yazığı gəlib kişiyə, deyiblər: "Yaxşı, a gözəl kişi, yaxşı, yaxşı, a gözəl kişi, indi də Əlili deyərik, ağlama!" O Əlili kinosunu çəkdirib gedib. Sonra bir də gəlib ki, çəkdirdiyi kinonu göstərsin. Soruşub ki: "Ləlli Balamın adı Əlilidimi indi?" Deyiblər: "Hə, bə nə, Əlili deyirik indi hamımız". Beləliklə, Leyli bibimin adı olub Əlli... Bunu xatırlayıb, nədənsə birdən ayağa qalxdım. Hələ də nə isə danışan əmimin səsi qulaqlarımda ötə-ötə yas məclisindən beş-on addım aralıda və... nə oldu mənə? Baş açmıram; qalın çayırlığın ara-bərəsinə hopmuş ağımtıl qalın kül gördüm. O küllüyün üstündə ayaq izləri gördüm; əmimin balaca, zərif tufliləri böyrümdə çayırlıqda iz sala-sala irəli-geri gedirdi. Bir an gözlərimi qaldırıb gözlərinə baxdım. Bircə an. Bundan sonra nə yas məclisi gördüm, nə o gecə harda, necə uzandığımı bildim. Səhərə qədər əmimin gözlərindəki qorxudan – dəhşətdən canıma dolan qorxudan – dəhşətdən başqa heç nə hiss eləmirdim. Hava ağaranda özümü yenə həyətdə, çayırlıqda – küllükdə zərif tuflilərin izlərinə baxan gördüm. Əlli bibim yanımda o yan-bu yana gedirdi. Sifəti dümağdı. Səsi titrəyirdi:

– Qalma burda... Qalma burda, – deyirdi.

Əlbəttə, qalmadım. Elə o sözləri eşidəndən sonra küllük əvəzində elə bil atamla anamın, bacımın qəbirləri ilə vidalaşdım, Sonanın oyanmağını da gözləməyib üzümü Bakıya tutdum... Üstündən aymı keçib, ilmi keçib? – Nə fərqi var? Zaman dayanıb. Heç bir iş görə bilmirəm. Əmimin səsi o vaxtdan beynimə düşüb. Ötür, ötür... Əmbə arada beynimdə öz səsim də səslənir: "Uinston Çerçill... Hacımız, Xoca bazarı... Nə olacaq bunun axırı?" Cavabında beynimdə yenə öz səsim səslənir: "Küllük... Küllük... Küllük..."

# ƏMİ QIZI

Bircə dəqiqə bundan əvvəl Əsmər atası evinin qabağında axan çayda çimirdi. Tez-tez su güc gəlir, onun ayaqlarını yerdən üzürdü. Sahildə, yastı bir daşın üstündə dayanmış Əmoğlu əlini irəli uzadaraq təlaşla qışqırırdı: "Ay qız, bəri üz! Əlini mənə ver! Boğularsan!.." Əsmər doğrudan da suda boğulacağından qorxub, ona doğru üzməyə can atırdı. Ancaq elə bil qolları sözünə baxmırdı. Su burula-burula uğuldayır, onu axıdır, getdikcə Əmoğlundan uzaqlaşdırırdı. Əsmər artıq təntiməyə başladığını, yavaş-yavaş taqətinin kəsildiyini hiss edirdi...

O, diksinib gözlərini açdı və hər şey yoxa çıxdı. Bakıdan uzaqlarda olan ata evi də, qıjıltılı sular da Əmoğlu da yox oldu.

Əsmər, doğrudan da, fəlakətdən qurtarmış kimi, nəfəsini dərdi, alnını basmış soyuq təri silib gülümsündü: yuxu ki, yuxu! Gör bir onu haralara, neçə il bundan əvvəlki vaxtlara aparmışdı! Onun Əmoğlu ilə birgə keçən uşaqlıq illəri nə qədər uzaqda qalmışdı! Lap qəribə idi: axı nə dünən, nə bugün Əsmər ata evini də, Əmoğlunu da xatırlamamışdı. Bəs bunlar onun yuxusuna haradan girmişdi? Bəs deyirlər, adam yuxuda da ancaq yatmamışdan qabaq fikirləşdiyi, gördüyü, ya da xatırladığı şeyləri görür?

Bu yuxu Əsmərə lap göydəndüşmə bir şey kimi gəldi.

Lakin bir azdan sonra o, qollarını başının altında çarpazlayıb fikrə dalanda qəlbində tamam başqa hisslər oyandı.

Uşaqlıqda Əmoğlunun onunla qəribə bir zarafatı vardı; həmişə deyərdi: "Əmiqızı, kaş sənin başına bir xata gələydi, mən də səni qurtaraydım; bəlkə ondan sonra mənim qədir-qiymətimi bilərdin". Ərə getməmişdən Əmoğlunu yada salanda Əsmər həmişə onun bu sözlərini xatırlardı və istər-istəməz gülərdi: "Səfehdir, vallah, bu gədə. Bir fikrindəkinə bax: kaş sənin başına bir xata gələydi", – deyib hey gülərdi. Deyəsən, indi birinci dəfə idi ki, Əsmər bu sözlərə gülmürdü.

Nədənsə beynində həkk olunmuş bu qəribə “arzu” indi birdən-birə ona başqa cür göründü. O, birinci dəfə bu “arzu”nun arxasında nə isə bir məna gizləndiyini başa düşən kimi oldu. Əsmərin indiki əri də bir zaman onu bir xatadan qurtarmışdı: dəcəl qız üzmək bilmədiyi halda camışın quyruğundan yapışıb Kürün ən dərin yerində çimmək istəmişdi. Lakin çayın tən ortasında əli camışın quyruğundan üzülmüşdü və bu vaxt oğlan özünü yetirmişdi. Lap nağıllarda söylənən kimi, Əsmər öz xilaskarını sevmiş və ona ərə getmişdi. Elə o zaman da Əmoğlu ilk dəfə ona həmin sözləri demişdi: “...bəlkə ondan sonra mənim də qədir-qiymətimi bilərdin”. Məgər Əsmər Əmoğlunun qədir-qiymətini bilmirdi? O, mehriban, qayğıkeş, sakit bir oğlan kimi tanıdığı, körpəlikdən alışdığı Əmoğlunu bəlkə qardaşdan da çox istəyirdi. Bunu Əmoğlu özü də bilirdi. Bəs onun istədiyi nə cür qədir-qiymətdi?..

Lakin Əsmər bu barədə çox fikirləşmədi. Daha doğrusu, fikirləşmək istəmədi; o, Əmoğluna lap balacalıqdan qardaş gözü ilə baxmışdı. Birdən-birə kənddən şəhərə, öz dediyi kimi, qəribliyə düşdükdən sonra isə, Əmoğlu onun üçün əsl doğma qardaşa dönmüşdü. Bunu Əmoğlu özü də bilirdi. Gör işin harası idi ki, vaxtilə kənddə hamı onun elin ən gözəl qızı Əsmərin dili ilə çağırdığı kimi, burada – şəhərdə də bütün iş yoldaşları, tay-tuşları ona Əmoğlu deyərdilər; o, hərdən qəzetdə çap etdirdiyi məqalələrin altından Əmoğlu yazdırırdı və bəzən söhbət düşəndə elə bil fəxrlə deyirdi ki, “bu təxəllüsü mənə əmim qızı verib!”

Əsmər yuxudan sonra beynində doğan fikirdən ayrılmağa çalışsa da, bu son məsələ yadına düşəndə onu təzədən düşüncələr bürüdü: burada bir başqa məna gizlənmirdimi? Bəlkə o, bir zaman Əmiqızını fəlakətdən xilas etmək lazım gələndə gecikdiyi kimi, elə həyatda da gecikmişdi? Bəlkə yazığın elə arzusu ürəyində qalmışdı?

Əsmərin Əmoğluna elə yazığı gəldi, elə yazığı gəldi ki!.. Balacaboy, yumru sifətli, gözlərindən daima nə isə bir hüzn oxunan Əmoğlu birdən-birə ona elə məzlum göründü, elə məzlum göründü ki!..

Fikir fikri çəkib gətirdi: bəlkə Əmoğlu indiyədək elə bu səbəbdən evlənmirdi? Axı o, iki il idi ki, universitetin mühərrirlik şöbəsini bitirmişdi. Özünə otaq da almışdı. Ancaq, deyəsən,

evlənmək heç xəyalına da gəlmirdi. Bu barədə söhbət düşəndə dərhal çöhrəsi tutulurdu. Gah da adəti üzrə hüznlə gülümsünərək: "Qorxuram qismtimə çirkin düşsün, Əmiqızı. Bax, sənin kimi bir dünya gözəli mənə könül versə, ayrı iş olar!" – deyirdi. Əsmər onun cavabında qəh-qəhə çəkir; Əmoğlunun isə sakit baxışlı gözlərində sezilən həsrət birdən-birə dərin kədərə çevrilirdi. Niyə? Bütün bu qəribəliyə səbəb nə idi?

Sevimli əri gəlib Əsmərin gözləri qarşısında dayandı. Sanki o da soruşdu: "Səbəb nədir? Bütün bu qəribəliyə səbəb nədir?!"

Əsmər diksindi. Yatmaqdan bir az soluxmuş sifəti avazıdı: əgər doğrudan da belədirsə, onda... Əmoğlunun axırı necə olacaq?!

Yox, indi Əsmərin ağlına gələn başqa fikirdi. O, qəfildən, yeni və qorxunc bir şey kəşf etdi; ona elə gəldi ki, Əmoğlunun daima buraya ərinin evdə olmadığı vaxtlarda gəlməsi bir niyyətlədir. Əmoğlunun onunla elədiyi söhbətlər, zarafatlar da birdən-birə Əsmərə müəmmalı göründü.

Bəli qorxunc fikir idi!

Əsmər bu dəfə yeni bir qətiyyətlə hər şeyi beynindən çıxartmağa çalışdı. "Durduğum yerdəcə dəli olmuşam. Elə bil məni qara basır... Axmaq sözdür. Lap axmaq sözdür! O, mənə elə gözlə baxarmı? Heç vaxt!.. Qurban olum sənə, Əmoğlu, mən sənin bacınam!" Əsmər ağlına gələn fikirlər üçün özünü danladı... Balacaboy, yumru sifətli, mehriban, qayğıkeş Əmoğlu, onun xəyalında yenə də həmişəki sevimli Əmoğlu stfətini aldı...

Əsmər pəncərənin əks tərəfindəki divar dibinə düşmüş şüalara baxıb dikəldi, ağappaq, balaca ayaqlarını çarpayıdan sallayıb çəkələyə keçirdi, qalxmaq istədi və... beləcə donub qaldı.

Əmoğlu çarpayının başı üzərində dayanıb gülümsünürdü.

– Bıy, Əmoğlu?!

– Sabahın xeyir, Əmiqızı.

– Sabahın xeyir, Əm... Sən hardan gəlib çıxıbsan bura?

– Sənin yuxundan çıxıb gəlmişəm, Əmiqızı.

– Bıy!.. – Əsmər əməlli-başlı heyrətləndi. Hətta bir an düşündü ki, bəlkə elə bu gördüyü də yuxudur? Ancaq məgər bu qədər aydın yuxu olardı?

– Sözüm sənə qəribə gəlməsin, Əmiqızı. Yuxuda məni çağırırdın...

– Sən bayaqdan başımın üstdəsən?

– Nə olar ki, Əmiqızı?

– Necə nə olar? Bilmirsən ki, yatdığı yerdə qız xeylağına baxmazlar?.. Üzünü o yana tut, paltarımı geyinim!

Əmoğlu dərhal müti bir hərəkətlə geri çevrildi. Elə bu vəziyyətdəcə soruşdu:

– Yuxuda adımı çəkəndə, yəqin özümü də görürdün, Əmiqızı?

– Görürdüm.

– Necə görürdün?

– Necə görəcəyəm? Yenə məni fəlakətdən qurtarmaq istəyirdin.

– Hm... sən o sözü yaddan çıxartmayıbsan!

Əsmər nədənsə qızardığını sifətinin od tutub yandığını hiss etdi. Əmoğlu təkrar soruşdu:

– Qurtara bildimmi, Əmiqızı?

– Yox. Qurtara bilmədin, suda boğuldum, – Əsmər bu sözləri zarafatla demək istədi. Lakin o, nə gülə bildi, nə də səsinin ahəngindən zarafat duyuldu. O, daha da qızarıb pörtdüyünü hiss etdi. Xalatının kəmərini bağlayanda, hətta, barmaqları titrədi. Dəhlizə, yuyunmağa çıxanda o, dönüb ani bir nəzərlə Əmoğluna baxdı. Otaq Əsmərin başına dolandı; Əmoğlunun gözlərinə nə isə, onun heç vaxt görmədiyi, duymadığı bir ifadə vardı; Əmoğlu ona həsrətlə baxırdı!

Əsmər necə yuyunduğunu, necə qurulandığını bilmədi. Hətta saçlarını darayıb, səliqəyə salmağı da unutdu...

# ÖMRÜMDƏ

O, qapının dalında dayanmışdı. Gizlin-gizlin içəri boylanırdı. Bu nə deməkdi? Əmoğlu nə edirdi?! O, aynanın qabağından götürdüyü şəklə baxıb köksünü ötürdü. Sonra xəlvətcə, elə bil nədənsə ehtiyatlana-ehtiyatlana şəkli pencəyinin cibinə apardı.

Əsmər sarsılmışdı. Nə yerindən tərpənə bilir, nə də dillənə bilirdi.

Əmoğlu yavaş-yavaş, səssiz addımlarla ona yaxınlaşdı. Otaqdan çıxıb onunla üzbəüz dayandı.

Əsmər gözlərini yerə dikdi. O, Əmoğlunun həsrətdən alışıb-yanan odlu baxışlarını öz üzündə hiss edirdi. Neyləsin? Nə desin?.. O, artıq acığından titrədiyini, həm də ürəyinin ağrısından dözə bilməyib elə bu dəqiqə hönkürəcəyini duyurdu.

Əmoğlunun həzin, titrək səsi onu diksindirdi:

– İcazə ver əlini sıxım, Əmiqızı... Rayona gedirəm. Təzə işə... Gəldim səninlə görüşüm.

Əmoğlu onun biləyindən tutdu, sonra əlini əlinə aldı:

– Salamat qal, əmi qızı... Məni yaddan çıxartma... Salamat qal...

O, hansı rayona gedirdi? Nə işdə işləyəcəkdi? Birdən-birə nə üçün belə qərara gəlmişdi? Əsmər heç nə, heç nə soruşa bilmədi. Əmoğlu yavaş-yavaş uzaqlaşdı. Budur o, pillələri endi. Deyəsən, aradabir dayanıb geri baxdı, sonra yenə eyni asta addımlarla uzaqlaşdı. Nəhayət, onun ayaq səsləri eşidilməz oldu...

Əsmər boş şəkil yerinə baxdı və birdən əllərilə üzünü qapayıb çarpayıya döşəndi, hönkürdü. Ən əziz, ən sevimli bir adamını əbədi itirdiyinə görə hönkürdü...

•

# MEHDİ HÜSEYN

(*Xatirə kitabından*)

Bizim ilk tanışlığımızın, sonrakı ayrılmaz ədəbi həyatımızın və dostluğumuzun bəzən qəribə və əyləncəli, bəzən kövrək və həzin, çox zaman isə gərgin, sarsıntılı və mən deyərdim ki, ibrətamiz hadisələrlə dolu tarixi var. İlk tanışlıqdan həmişəlik ayrıldığımız günə qədər – iyirmi il ərzində Mehdi Hüseynin mənim həyatımda kim və nə olduğunu ifadə etmək üçün əslində mən gərək heç nə yazmayam, ürəyimi çıxarıb, ovcuma tutub deyəm: "Baxın, hamısı burdadır", – dost məfhumu qələmə gəlmir. Bununla belə, ədibin altmış illiyi ərəfəsində heç olmasa kiçik bir kitabça yazmağı təcrübə etdim. Aşağıdakı parça həmin kitabçadandır.

Bu qeydlər nə qədər şəxsi-intim xarakterdə olsa da, ümid edirəm ki, mərhum ədibin xatirəsinə ehtiram bəsləyən oxucuları maraqlandıracaqdır.

1946-cı ildə mən həkimliyi "vətən və xalq üçün yeganə xeyirli sənət" hesab edən nüfuzlu bir qohumumun təhriki ilə tibb institutunda oxuyurdum. Mehdi Hüseynlə hələ tanış deyildim. Ancaq onu hər gün görürdüm. O vaxt o indiki Əliheydər Qarayev küçəsində bir nömrəli evdə olurdu, mən də həmin evə yaxın qohumumun mənzilində qalırdım. Gecələr, pəncərəsi həyətə açılan mətbəxdə oturub yazı-pozu ilə məşğul olarkən birdən onun tanış ayaq səslərini eşidib pəncərəyə yönəlirdim. Mənin on səkkiz yaşım vardı. Onun – otuz səkkiz. Mən utancaq və cəsarətsiz idim. O isə qürurlu və zəhmli idi, qəribə – uzun, ağır addımlarla gəlib keçərdi. Bundan sonra mən saatlarla, hələ kənd məktəbində ikən ədəbiyyat müəllimim Səlim Çəndirlinin tövsiyəsi ilə oxuduğum "Komissar" və "Kin" povestlərinin müəllifi ilə tanış olmağı, indi çoxunun adı belə yadımda qalmamış saysız-hesabsız sandıq ədəbiyyatı nümunələrimi – hekayə və povestlərimi ona oxumağı arzulardım. Əgər o özü mənimlə maraqlanmasaydı, cəsarətsizliyim üzündən bu elə arzu olaraq qalacaqdı.

Bir yaz gecəsi bürküdən heç kəs yatmırdı. Birinci mərtəbənin sakinləri, o cümlədən bizimkilər də həyətə çıxıb pillələrdə və kətillərdə otururdular. Mən isə öz daimi yerimdə – mətbəxdə idim. Birdən...

– Mariya Konstantinovna, bu uşaq kimdir? Elə həmişə burda görürəm...

Mehdi Hüseyn iki addımlıqda dayanıb mənə baxırdı. Mənim təsəvvürümdə yazıçı ilə allahın heç bir fərqi yoxdu. Necə həyəcanlandımsa, Mariya bibimin mənim haqqımda nə danışdığını bilmədim. Sonra yazıçının mənə yaxınlaşdığını hiss etdim.

– Salam, yoldaş həkim... Hə, demək Çexov olmaq istəyirsən?.. Gecələr camaatı yatmağa da qoymursan. Göstər görüm nəyin var?

Mən stolun üstünə bir aləm şey tökdüm.

O daha gülümsəmirdi. Sifəti həmişəki kimi sərt və zəhmli idi.

Dəftərlərdən birini götürüb açdı.

– Xəttin bişkindir. Yəqin elə həmişə yazırsan, oxumursan. Düzdür?.. – Sükutdan sonra: –"Təravətli yaz otları onun ayaqları altında göy soğan kimi xışıldayırdı". Bunu yaxşı demisən. Amma artıq söz işlətmisən. Özün tap görüm bu cümlədə hansı söz artıqdır.

Mən sevincdən və həyəcandan titrəyən barmağımı "Təravətli" sözünün üstünə qoydum. Yazıçı başını qaldırıb diqqətlə üzümə baxdı və yenə gülümsədi:

– Yox, balam, deyəsən, qabında bir şey var. – Dəftəri səliqə ilə büküb o birilərin üstünə qoydu. – Yazıçılar İttifaqında hər həftənin beşinci günü gənclər əsərlərini oxuyurlar. Gələrsən... Amma sualıma cavab vermədin. Bir şey oxuyursan, ya yox?

Burada mənim dərdim açıldı. Stolun küncünə atılmış "Ostiologiya" kitabını, xırda-xırda skelet sümüklərini göstərib tibb institutunda dərslərin ağırlığından şikayətləndim. Mən danışır, eyni zamanda yazıçının davranışında nə isə kəskin dönüş hiss edirdim. Bakıya gələndən bəri, doqquz ay ərzində mütaliə naminə "Paris Notrdam kilsəsi" əsərindən savayı heç nə oxumadığımı bildikdə, bircə kəlmə:

– Olmadı, – dedi və dərhal mənə marağını itirib geri döndü.

Ertəsi günü Mirzə Fətəli bağının səkiyə doğru əyilmiş bir ağacının kölgəsində o, mənimlə cəmi bir neçə dəqiqə söhbət elədi. Çox könülsüz danışdı. Lakin bu söhbət mənim həyatımı birdən-

birə, həm də kökündən dəyişdirdi: bir həftə sonra mən, ordudan tərxis olunmuş bir qohumuma qoşulub kəndə getdim. Yadımdadır ki, anamdan başqa orda hamı məni təəccüb və qəzəblə qarşıladı: "Zaçot vaxtı niyə gəlibsən?! Xəstəyəm", – deyirdim. Bu gedişlə tibb institutuna vida dediyimi və buna Mehdi Hüseynlə bağın yanında o qısaca söhbətimizin səbəb olduğunu isə heç kəsə açmırdım. O söhbətin məğzi hərbi qulluqda olan atama məktubumda aşağıdakı şəkildə qalıb: "... Mehdi Hüseyn dedi ki, gözümə ala-bula görünürsən, həvəsin ədəbiyyatdırsa, bəs medinstituta niyə giribsən? Mən dedim ki, Niyazi dayım deyir, bu saat vətən və xalq üçün yeganə xeyirli sənət varsa, o da həkimlikdir. Mehdi Hüseynin mənə acığı tutdu: "Dayın deyir? Bəs özün nə fikirdəsən?" Sonra dedi ki, özüyün müstəqil fikrin yoxdursa, yazmağı boşla, get dərsini oxu, yazıçı hər şeydən əvvəl müstəqil olmağı bacarmalıdır...

Atam ordudan tərxis olunub Vətənə qayıtdıqdan sonra ailəsində hamını çox zəif, xəstəhal görüb, bizi dərhal dağa – Semyonovka yaylağına aparmışdı. Orda bir axşam mən təsadüfən onun planşetini açdım, iki bloknotdan ibarət cəbhə xatirələrini, Əhməd Cəmilin Berlinə qədər bu planşetdə gedib qayıtmış şeirlər kitabını və kitabın arasında haman məktubu gördüm. Belə güman etdim ki, bu mənim atama axırıncı məktubum olduğuna görə təsadüfən qalıb. Sonra mənim üçün gözlənilməz şeylər aşkara çıxdı.

Məktubun arxasında atam əski əlifba ilə nə isə qeyd etmişdi. Bu qeydi ona göstərib xahiş etdim ki, oxusun.

Atam oxudu:

– "Müstəqil olmağı bacarmalıdır".

Üzünün ifadəsindən gördüm ki, bu sözləri nə üçün qeyd etdiyini unudub. Vərəqi çevirib mənim xəttimi tanıdıqda isə birdən xatırladı:

– Mehdiyə kağız yazmaq istəyirdim...

Atam dörd il cəbhədə olsa da köhnə pedaqoq vərdişlərini unutmamışdı – lazım bilmədiyi şeyi mənə demirdi. Yəqin ki, bu səbəbə görə də Mehdi Hüseynə yazmaq istədiyi, ancaq nədənsə yazmadığı məktubun məzmunu haqqında mənə heç nə demədi. Dörd il ərzində uzaq ölkələrdə çəkdiyi həsrətin dərin izlərini hələ də mühafizə edən gözlərlə mənə baxdı və həmişəlik yadımda qalmış sözlər dedi:

Biz heç... ömrümüz cəbhələrdə keçdi... top-tüfənglə keçdi. Bizim ixtiyarımız heç vaxt özümüzdə olmayıb, zamanın küləyi hayana vurub o yana getmişik. Sizin səhv eləməyə ixtiyarınız yoxdur.

Mehdi Hüseynin sözləri fikrimdə dolandı: "...Müstəqil olmağı bacarmalıdır". Atam da bu fikrin təsiri ilə danışırdı. Bunu onun sonrakı hərəkəti də göstərdi. Məktubu mənə qaytarıb gülümsündü:

– Al, öz kağızını özünə yadigar verirəm, – dedi.

Mən başa düşdüm ki, əslində yazıçının sözlərini və özünün bu sözlərdən çıxarışını yadigar verir.

O gündən başlayaraq, hər səhər yuxudan oyananda "müstəqil" sözü mənimlə bərabər oyanır, bir də yatana qədər rahatlıq vermirdi. Həmin sözün təsiri ilə bir gün nəhayət qərara gəldim: o vaxta qədər nə yazmışdımsa, hamısını cırıb Semyonovkanın başının üzərindəki dağ döşündən üzüaşağı havaya sovurdum. Çünki bunların hamısı oxuduğum kitabların təsiri ilə yazılmışdı. Tək biri, indi düşünürəm, Sarı yoxuş deyilən yerdə menşeviklər tərəfindən güllələnmiş əmilərimin faciəsini təsvir edən "Qanlı yoxuş" adlı povest həyat materialı ilə fərqlənirdi; o faciənin təfsilatını bir dəfə atla Dilicana gedəndə yolda atam mənə danışmışdı. "Bunu yaz" demiş, mən də yazmışdım. Lakin yadımdadır, dəftər vərəqlərini havaya sovuranda o povest üçün də qətiyyən təəssüflənmirdim. Mən özüm özümə qələbə çalmışdım.

Üç il sonra "İnqilab və mədəniyyət" jurnalında ilk mətbu yazım çap olunanda və Mehdi Hüseyn jurnalın bir nüsxəsini mənə bağışlayanda yuxarıdakı əhvalatı ona danışdım.

– Müstəqillik mənə çox baha başa gəldi. Üç il idi heç nə yazmırdım, – dedim.

Onun bir cür gülməyi – başını arxaya atıb qısaca "ha-ha" eləməyi vardı. Bu cür gülüb, mənim əlimdəki nüsxəni aldı.

– Sən elə bilirsən tamam orijinal şey yazmısan? Bu cümləni hardan çırpışdırmısan? – Jurnalı açıb altından karandaşla xətt çəkilmiş sözləri göstərdi: – "Göy soğan kimi xışıldayan yumşaq ot..." – Bu, mənim vaxtı ilə məhv etdiyim hekayəmdən yadımda qalmış sözlərdi ki, üç il sonra bir qədər başqa şəkildə gəlib bu oçerkə düşmüşdü.

Mən ədibin yaddaşına heyrət edirdim. O isə gülümsəyəndə zəhmini dərhal itirib çox yapışıqlı, hətta uşaq kimi məlahətli olan sifətlə başını azca yanakı tutub məni süzürdü.

– Plagiatlıq eləmisən, aşna. Yazıçının özünün özündən oğurlaması daha pisdir. Bu o deməkdir ki, təzə təşbeh tapa bilməmisən,

köhnə baqajına əl uzatmısan. Mənim yaşımda bunu bəlkə də bağışlamaq olar. Sənə – yox. Hə, di get, jurnalı suya sal, suyunu iç!

O məni qapıya qədər ötürdü, arxamca baxıb, yenə “ha-ha” elədi.

– Ə, yerişin nə tez dəyişdi... – Qəhqəhə çəkib: – Yox, balam, səni özbaşına buraxmaq olmaz. Hərdən gəl, qağan səni maarifləndirsin, – dedi.

Daha üç il keçdi. Bu müddətdə Mehdi Hüseyn məni doğrudan da “özbaşıma buraxmamışdı”: “Bizim qızlar” adlı ilk povestimi altı dəfə müxtəlif formatlı kağızlara köçürməyə məcbur etmiş, yalnız bundan sonra çapına razılıq vermişdi. Bu heç də xüsusi qayğı əlaməti deyildir. Mehdi Hüseyn ədəbiyyata “kommersent” gözü ilə baxmaları, özünün dediyi kimi “ana bətnində pozulmuş” gəncləri çəkinmədən qəzəblə damğalayır, ədəbiyyata saf ürəklə, qayə ilə gələnlərə isə həssaslıqla, qayğı və tələbkarlıqla yanaşırdı. O, məni bu gənclərdən biri hesab edirdi. Lakin bir hadisə tezliklə onunla mənim aramda xüsusi münasibətin yaranmağına səbəb oldu.

Əlli üçüncü il oktyabrın iyirmi ikisində mən ilk kitabımın ilk nüsxəsini paketə qoyub kəndə – atama göndərməyə hazırlaşarkən oradan “molniya” teleqram gəldi: “Atan can üstədir, təcili gəl. Xanbaba”.

Rayondan qayıdanda yarıbayarı kiçilmişdim. Mehdi Hüseyn məni bu vəziyyətdə görüb, evinə apardı. Lakin o, təsəlli verməyi bacarmırdı. Mənim doqquz nəfərlik külfət içində qaldığımı biləndə, hərdən dediyi tək-tək sözlərə də ara verdi. Rəngi qaraldı. Bu halda siqaret çəkə-çəkə stolunun arxasında bir müddət oturduqdan sonra dikəlib üzümə baxdı. Bu dəqiqəni heç vaxt unutmayacam. Çünki həmin bu dəqiqədə mən Mehdi Hüseynin xarakterini duydum və onu ömürlük sevdim.

– Bura bax, İsa, mən qoymaram sən qələmini külfət saxlamaq üçün işlədəsən. Mən səni oğulluğa götürürəm. Əbədi oğulluğa... Məni düz başa düş. Pis əsərinə yaxşı deməyəcəm. Yaxşısına da pis deməyəcəm. Ağıllı əsər yazsan, hücumlardan qılıncla qoruyacam... Slovom, mən səni oğulluğa götürdüm.

O, bu sözləri öz adi səsi, sakit qətiyyəti ilə dedi. Ancaq bu sözlər and kimi səsləndi. Mən heç nə deyə bilmədim. Riqqətlənmiş-

[1] Ədəbi portret 1957-ci ildə yazılmışdır.

dim. Bir də hiss etdim ki, mənim təşəkkürüm hər şeyi korlaya bilər. Ədib isə yəqin ki, mənim kövrələcəyimdən ehtiyatlandı, gözlənilmədən zarafata keçib, axır illərdə tez-tez mənə sataşanda işlətdiyi sözləri təkrar etdi:

– Ə, müstəqilliyini əlindən almıram ki?

Mən də zarafata keçdim:

– Yerli-dibli aldınız, – dedim, – bundan sonra səhv addım atsam, qorxuram Taras Bulba kimi hərəkət eliyəsiniz.

Bu, ona ləzzət verdi. Gülüb, gümrah səslə:

– Ne isklyuçayetsya!

Bu vaxt Fatma xanım, yəqin ki, ərinin səsini eşidib və bizim nəhayət, yas əhvali-ruhiyyəsinə qalib gəldiyimizi başa düşüb kabinetin qapısını açdı.

– Nə olub, a qazaxlılar, bir-bibinizə difiramba oxuyursunuz, ya çırpışırsınız?.. İsa, sən bu Mehdiyə çox da inanma ha, dost-dost deyə-deyə bir də görəcəksən tənqid qılıncını çıxarıb, düşüb üstünə. – Fatma xanım da zarafatyana danışırdı. – Ən yaxın dostu Səməd deyil? Mən olmasam Səmədnən heç bircə gün də yola getməz... – Aydın görünürdü ki, ərlə arvad arasında bu mövzuda nə isə söhbət olmuşdu. Elə buna görə də ədib bir qədər tutuldu.

– Fatma kompromiss dostluğun qəddar düşmənidir, – dedi. – Şəxsi münasibətlərdə güzəşt olar. Bunsuz keçinmək çətindir. Ədəbiyyatda güzəştə getmək mənəvi bankrotluqdur.

Başqa münasibətlə danışsa da, hiss etdim ki, ədib bu sözləri həm də mənə eşitdirir; mənim cibimdə Qorki adına institutun diplomu olsa da, həqiqətdə ədəbi tərbiyəm hələ təzə başlanırdı.

Xudahafizləşib çıxanda ədib məni bu sözlərlə yola saldı:

– Bundan sonra xüsusi dəvət gözləmə.

O vaxtdan Mehdi Hüseyn mənim əlyazmalarımın birinci oxucusu və amansız tənqidçisi oldu.

Tezliklə o, özü mənə bir qovluq verdi ki, oxuyub fikrimi söyləyim. Bu, “Səhər”romanının bir hissəsi idi. Bizim dostluğumuz belə bir zəmində – sırf ədəbi ünsiyyət zəminində yaranmağa başladı.

1969

# MİRZƏ İBRAHİMOV

(*Cənub həsrəti ilə*)

Onun qırx altı yaşı var[1]. Bəziləri bu yaşda özlərini qoca adlandırırlar. Ondan isə, biz hələlik belə bir etiraf eşitməmişik. Eşitsək, heç şübhəsiz, onun belə bir etirafı bizdə ancaq şən bir gülüş doğurar. Çünki qırx altı yaşında onun qapqara, şəvə kimi saçları var. Çünki onun azacıq qıyıq gözləri hələ də lap uşaqlıq təbəssümü ilə gülümsünür. Çünki o gülməyə başlayanda, qəlbin dərinliyindən gələn şaqqıltısı ilə ətrafındakıları diksindirir. Belə anlarda onun yanında özünü ciddi saxlamaq qeyri-mümkündür; istər-istəməz sən də gülürsən. Gülüb soyuyursan, o isə hələ də şaqqıldayır. Hansı sözə, hərəkətə, yaxud əhvalata, bir sözlə, nəyə gülürsə, onu təkrar edib bir də gülür. Bu dəmdə onu müşahidə etmək çox maraqlıdır: bu saf səsli, bir az cingiltili gülüş sənə nələr demir?! Bu gülüş sənə deyir ki, onun qəlbi uşaq qəlbi qədər təmizdir; o, həyatı, təbiəti, insanları sevir, o, başqalarının bəlkə heç tükünü də tərpətməyən ən adi zarafatyana sözcükdən zövq almağı bacarır. Bu gülüş deyir ki, Mirzə yalnız zahirən yox, qəlbən də, ruhən də cavandır.

Məsəl var, deyərlər, ağ gün insanı ağardar, qara gün qaraldar. Demək, bizim Mirzə bütün ömrü boyu daim ağ gün görmüşdür? Demək, onun həyatı düzən çəmən boyunca axan, heç bir maneəyə – daşa, qayaya rast gəlməyən, enişə-yoxuşa düşməyən sakit bir çay kimi çağlamışdır? Elə isə, bəs "Həyat" necə yaranmış, bəs "Gələcək gün" hansı təəssüratlar, hansı müşahidələr nəticəsində meydana çıxmışdır; elə isə, bəs "İki həyat" səni nə üçün sarsıdır? Axı sən onun səhifələrini çevirdikcə daim hiss edirsən ki, yazıçı əsərini yaradarkən qələmini həyatın mürəkkəbinə batırmışdır. O, həyatla birlikdə, qorxunc, hiyləgər düşmən Süleymanla üz-üzə gəlmişdir; o, Güləbətinin faciəsini öz gözlərilə görüb sarsılmış, göz yaşı axıtmış, hiddətlənmişdir; o, xoşbəxt həyata çıxmış Sürəyyanın məclisində oturmuşdur; sən daim hiss edirsən ki, onun qələminin

altından çıxan səhifələr həyatın öz kitabının səhifələridir; o, hər vaxt xalqla bir yerdə olmuş, xalqın kədəri onun kədəri olmuş, xalqın sevinci, səadəti onun öz sevinci, öz səadəti olmuşdur. Madam ki, belədir, demək, onun həyatı heç də düzən çəmənlikdə lal axan bir çaya bənzəməmişdir.

Bəli, Mirzə çox ağır, keşməkeşli bir həyat yolu keçmişdir. Onun vur-tut yeddi yaşı olanda, anası ilə kiçik bacısı aclıqdan ölmüş, bircə il sonra isə atası ilə qardaşı ölmüşdür. Bir yandan kömək, imdad əli yox, həyat isə sərt və amansız!.. O, nə etməlidir, hara getməlidir? Təsəvvür edin ki, hələ çarığının bağını belə düz-əməlli taxmağı bacarmayan səkkiz yaşlı uşaq çomaq götürüb düzlərdə qoyun-quzu dalınca qaçır, onun-bunun qapısında nökərçilik eləyir. Görünür, bu qarayanız, arıq-sısqa uşağın canı möhkəm olmuşdur ki, bütün əziyyətlərə, hər cür məhrumiyyətə qatlaşa bilmişdir. Yəqin ki, bu uşaq yayın şahmar günü altında çarığının köşəsi qupquru quruyub topuqlarını döyənək eləyəndə də, qoyun-quzu, dana-buzov dalınca yüyürərkən üzü üstə döşənəndə də, çöldə dana itirib axşam heyvan sahibinin qarşısında dayanmalı olanda da gözündən bir damla salmamış, ağlasa da, yaşını içəriyə, dağlı ürəyinə axıtmışdır; görünür, o, çox inadkar və mətin olmuşdur. Çünki bu inadkarlığı və mətinliyi biz onun sonrakı həyat yolunda, sonralar necə davrandığında da görürük. Görürük ki, cəmi bir neçə il sonra, bizim tanıdığımız balaca çoban Bakıda fabrik -zavod təhsili məktəbində oxuyur, neft texnikumunu bitirir, mədənlərdə işləməyə başlayır; eyni zamanda o, hətta hekayə, şeir, oçerk yazmağa, ədəbiyyat dərnəklərində iştirak etməyə, gecəni gündüzə qatıb qalın-qalın kitablar oxumağa başlayır. O, Sovet quruluşunun xalq üçün, milyonlarla mirzələr üçün yaratdığı şəraitdə bütün energiyası ilə çalışır. Bir az sonra onun səsi Leninqraddan gəlir; o, burada aspiranturanı bitirir, filoloji elmlər namizədi alimlik dərəcəsini alır və... Bundan sonra o, daim yüksəlir, yüksəlir, öz ehtiraslı qələmi ilə öz mətin, mübariz qəlbi ilə Azərbaycan xalqının qəlbində dərin bir məhəbbət hissi oyadır.

Biz onun böyük və mənalı həyatının ancaq zahiri sxemini çəkdik. Lakin elə bu sxemin özündən də aydın deyilmi ki, Mirzə İbrahimov nə cür bir insandır; onun qayəsi, idealı nədən ibarətdir, o, hansı eşqlə, hansı məhəbbətlə belə yüksəlir?!

Hələ həyata yenicə atılarkən belə, onun aydın və qəti bir qərarı vardı; onu yetimlikdən qurtaran, təhsil verən, istedadını maydana çıxaran böyük səbəbkara – bütün varlığını xalqa həsr etmək! Göründüyü kimi qərar – bizim həyatımızda hamımız üçün təbii olan çox adi bir qərardır. Hər kəs vətəninə, xalqına bağlıdırsa, demək, belə bir qərar onun sümüyündədir, qanındadır, canındadır. Lakin bu qərarı necə, hansı qabiliyyətlə, hansı ixtisas vasitəsi ilə həyata keçirmək? Bu barədə şübhəsiz ki, ciddi axtarış aparmaq lazım gəlir.Mirzə öz ixtisasını, səriştəsini lap ilk gənclikdə tapan xoşbəxtlərdəndir; onun çox axtarış aparması lazım gəlmədi. O, hələ neft mədənlərində işlədiyi vaxtlarda özü üçün silah – qələmi seçdi. O, müdhiş sarsıntılar keçirmiş, olmazın əzablar görmüşdü və birdən-birə xoşbəxtliyə çıxmışdı. Onun sinəsi dolu idi, ürəyi daim narahat vuran, əməli eşqi ilə yanan ürəklərdəndi. Belə bir ürəyi sakitləşdirmək üçün ancaq qələm gücü lazım idi.

Mirzə qələmə sarıldı.

Bu elə bir dövr idi ki, Cəlil Məmmədquluzadədən, Haqverdiyevdən, Nəcəf bəy Vəzirovdan, Süleyman Sani Axundovdan sonra ədəbiyyata gələn yeni dramaturqlar nəsli hələ bişib bərkiməmişdi; Cəfər Cabbarlının dramaturgiya tariximizdə yeni bir dövr açan vüsətli dramlarından sonra, səhnəmizdə yeni dövrü – kollektivləşmə dövrünü hərtərəfli, dolğun şəkildə əks etdirən səhnə əsərlərinə böyük ehtiyac hiss olunurdu; o dövrdə adamlarımızı sinfi düşmənlərlə, yeni quruluşun tərəqqisinə əngəl olmağa çalışan hər cür ziyançılarla mübarizəyə sövq etmək, gəncliyə mübarizlik ruhu aşılamaq kimi nəcib məqsədlər güdən yeni səhnə əsəri yaratmaq lazım idi. Yeni bir "Almas" yaratmaq lazım idi. Cəfər Cabbarlının ölümündən bir il sonra, 1935-ci ildə "Həyat" səhnəmizdə bir sənət incisi kimi parladı. Gəncliyimiz, Süleyman kimi məharətlə masqalanmış, hər cür vasitələrlə kolxoz işinə mane olmağa çalışan sinfi düşmənin iç üzünü gördü; Həyat – qalib gələn həyatımızın bir simvolu kimi şöhrət qazandı. Mirzə İbrahimov ilk dram əsərini yazdı. Lakin elə bu birinci əsərdə o, usta bir dramaturq kimi çıxış etdi...

Kollektivləşmə dövrü arxada qaldı. Dünyanın altıda bir hissəsində sosializm bütün cəbhələrdə qələbə çaldı; Mirzə qanına-canına hopmuş ideyaların təntənəsini gördü. Lakin indi olduğu kimi, o vaxtlar da arxayınlaşmaq, bir növ sakit həyat keçirmək onun

təbiətinə yad idi. O, bir sənətkar kimi yenidən alışmağa başladı. İndi onun zehnini, düşüncəsini məşğul edən başqa məsələ idi; tarixin, dövrün diktə etdiyi, günün ən vacib məsələsi idi.

Almaniyada faşizm hakimiyyət başına gəlmişdi. Əsəbi, çılğın alman yefreytoru öz ağaları qarşısında: "Siz mənə hakimiyyət verin, qılınc verin, mən kommunizmin kökünü kəsəcəyəm!" – deyə boğazını yırtırdı. Bir az sonra isə o, artıq qonşu Avropa ölkələrinə yürüş etməyə başlamışdı. Budur, faşizmin pəncəsi İspaniyaya uzandı, sonra o, əl-qolunu daha geniş miqyasda oynatmağa başladı. Aydın idi ki, o, vəhşi bir ehrirasla qüvvə toplayır, öz sərhədlərini kommunizmin vətəninə – Sovetlər İttifaqına doğru yaxınlaşdırır. İspan xalqı, sonra bütün Avropa xalqlarının sadə, vətənpərvər oğul və qızları faşizmə qarşı ölüm -dirim mübarizəsinə qalxdı. Daha sonra isə, bütün sovet xalqı silaha sarıldı... Mirzə də qələmilə döyüşə girişdi, 1938-ci ildə "Madrid", 1942-ci ildə "Məhəbbət" pyeslərini yazdı. Birinci dramında o, qəhrəman ispan xalqının faşizmə qarşı çarpışmasını, ikincidə isə, azərbaycanlıların arxa cəbhədə gizli düşmənlərə qarşı mübarizəsini təsvir etdi. Bu əsərlərlə Mirzə İbrahimov bir daha sübut etmiş oldu ki, o, günün ən vacib məsələlərindən bəhs edən, nəbzi xalqının nəbzi ilə eyni vuran bir sənətkardır. O, hekayələrində də, irili-xırdalı publisistik məqalələrində də "Sovet yazıçısı, hər şeydən əvvəl öz dövrünün, öz zəmanəsinin yazıçısı olmalıdır!" – devizinə sadiq qalır. Hiss edirsən ki, müasirlik hissi, getdikcə onda daha da güclənərək ehtirasa çevrilir və bu ehtiras onun yaradıcılığında romantik bir vüsət, geniş üfüqləri fəth edən güclü bir qanad verir. Bu qanadın tərkində Mirzənin yaratdığı obrazlar dünyasına səyahət etdikdə adam qəribə bir təzad qarşısında heyran qalır; ilk nəzərdə sənə elə gəlir ki, bu dünyada yaşayan insanlar sənin hər gün gördüyün, müşahidə etdiyin adamlardan fərqlidirlər; onların çoxu bir növ adilikdən çıxmış kimi görünürlər; baxırsan ki, bu dünyanın hər yerində ehtiraslar, xarakterlər çarpışır; Mirzənin təxəyyülündən doğulmuş insanlarla yanaşı, tarixi şəxsiyyət olan Rza xan da, bizim tarixdən tanıdığımız şahdan xeyli fərqli görünür; o, daha zalım, daha həris, daha çox əliqanlıdır. Sənə elə gəlir ki, Mirzə, Rza xanı əslində olduğundan daha heybətli göstərmişdir: onu ədəbiyyatşünasların qrotesk adlandırdıqları üsulla canlandırmışdır. Lakin elə ki, sən onun danışığına, hərəkətlərinə, düşüncəsinə bələd

olursan, “Gələcək gün” səhifələrində onunla birgə hərlənib dolanırsan, inanırsan ki, əsl Rza xan elə budur; “görünür bu müstəbid elə tarixdə də belə olub, buna qətiyyən şübhə eləmək mümkün deyil”, – deyirsən. Beləliklə, sənət, bədii söz qalib gəlmiş olur, real dünya ilə Mirzənin obrazlar dünyasının arasında hiss etdiyin fərq unudulur, əksinə, getdikcə sən burada bir vəhdət, bağlılıq görürsən. Görürsən ki, Mirzənin təxəyyülündən doğulmuş insanlar əksər hallarda nə qədər qeyri-adi, ehtiraslı olsalar da, sən burada çox zaman xarakterlər çarpışması müşahidə etsən də, bu aləmdə baş verən hadisələr heç də real çərçivədən kənara çıxarılmamışdır. Bu səbəbdən də Rza xanın, Hikmət İsfəhaninin vəhşilikləri səndə uzun illərdən bəri davam edən İran irticasına qarşı dərin, sonsuz bir qəzəb hissi doğurur. Bu səbəbdən də sən Musa kişinin işgəncələrlə dolu acı həyatına acıyırsan, səndə Arazın o tayındakı qardaşını əsarət zəncirindən xilas etmək uğrunda gizli təşkilatda birləşən Firudinlərlə, Kürd Əhmədlərlə, Kərimxan Azadilərlə, Rza Qəhrəmanilərlə birgə mübarizəyə qoşulmaq ehtirası oyanır. Bu səbəbdən də Mirzənin sakit təhkiyəli romanlar oxumağa alışmış oxuculara bəzən o qədər də xoş gəlməyən, hərdən hətta patetikaya çevrilən publisistikası bizə çox yerli-yataqlı və əsaslı görünür. Mirzə sanki oxucusunun ürək çırpıntılarını dinləyir, hadisələrin gərgin yerində bu çırpıntıların sürətinin artan məqamında səhifə arxasından onun öz səsi də eşidilir; bu səs onun publilistikası – bizi daha da qanadlandırır, bizim Firudinlərə inamımızı getdikcə gücləndirir, Firudinin arzu etdiyi günün mütləq gələcəyinə səndə heç bir şübhə yeri qalmır...

Mirzə İbrahimovun publisistikası nə qədər odlu, həyəcanlıdırsa, bir o qədər səmimi və qəlbəyatandır. Bu isə hər şeydən əvvəl onun özünün təbiətindən bir xüsusiyyətdir. Mirzənin böyük ideallarla aşılanmış publisistikası nə qədər ehtiraslı və kəskindirsə, onun özü bir o qədər mədəni, təvazökar və səmimidir. Bu sadəlik və səmimilik, istər-istəməz, onun təhkiyəsində, xüsusən hekayələrində özünü daha aydın göstərir.

“... 1941-ci il sentyabr ayının 10-da, küçələrin bomboş olduğu belə bir isti zamanda biz Culfadan gəlib Mərəndə çatdıq... İsti bizi əldən salmış, yolun tozu üst-başımıza dolmuş, dodaqlarımız qurumuşdu... Qabağında balaca sovet bayrağı yellənən maşınımızı Mərəndin bu mərkəzi küçəsində, arxın yanındakı çinar ağacının

kölgəsində saxlayıb yerə düşdüyümüz zaman, sovet maşınını görən adamlar tez bizi dörd tərəfdən əhatə etdilər. Bir dəqiqədə iyirmiyə qədər adam toplaşıb bir-birinə macal vermədən müxtəlif suallarla bizə müraciət edirdi. Hara getdiyiymizi, nəyə ehtiyacımız olduğunu soruşur, təpədən-dırnağa qədər bizi süzür, böyük bir maraqla çiynimizdəki nişanlara, başımızdakı ulduzlu komandir papaqlarına, ayağımızdakı uzunboğaz çəkmələrə nəzər salırdılar... Bu zaman uzun boylu, yaxası açıq və beldən aşağı ağ xalat asmış birisinin: "A gedə, bir yana çəkil görüm!" – deyib adamları yardığını və bir anda bizim qabağımızda durduğunu gördük.

– Tavariş kamisar! Çay xoçit... Pajalusta, praşu mne na çayxana, – deyərək o, cavab gözləmədən bizə yol açmağa, dönüb dala baxa-baxa adamları aralamağa başladı. Onun bu sadə və səmimi hərəkəti bizi güldürsə də, etirazımıza səbəb olmadı ; çünki doğrudan da könlümüzdən çay keçirdi. Biz onun dalınca çayxanaya irəliləyərkən adamlar hörmətlə çəkilib bizə yol verir və sonra da dalımızca düşüb gəlirdilər. O, birdən küçənin ortasında dayanıb uzun əlini göydə hərləndirdi və qəribə bir rus ləhcəsilə:

– Dazdrastvuyet Sovetski Rosiya, privet Bakinski raboçi! Ura! – qışqırdı. Adamlar birdən hamısı sevinclə "Urra!" qışqırdılar. Mən uzunboylu adamın iki addım yeriyib geri döndüyünü və daha başqa şüarlar atmağa hazırlaşdığını görüb yavaşca qolundan tutdum. O, bir söz demək istədiyimi duyaraq böyük bir hörmət və nəcabətlə başını əyib qulağını mənə tərəf gətirdi. Mən onun könlünə toxunmaqdan çəkinərək, sakit bir tərzdə və müvafiq sözlər seçməyə çalışaraq:

– Lazım deyil... Şüarsız da olar, – dedim..."

Mirzə İbrahimovun zəngin yaradıcılığını hərtərəfli şərh etmək, onun bədii xüsusiyyətlərini geniş şəkildə təhlil etmək üçün tutarlı, Mirzənin öz qələmi qədər iti bir ədəbiyyatşünas qələmi gərəkdir. Bir neçə səhifədə ürək sözlərini söyləməyi isə, ədəbi gəncliyimiz içərisində kimi desən bacarar. Çünki bizim ədəbi gəncliyimiz bütün oxucularla bir sırada, öz Mirzəsini dərin, atəşin məhəbbətlə sevir. Çünki son dövrdə ədəbiyyata gələn gəncliyimiz ona minnətdarlığını heç zaman unutmayacaqdır.

Mən 1949-cu ili xatırlayıram. Ədəbiyyatımız da Vətənlə, xalqla birlikdə böyük sınaqlardan çıxmış, möhkəmlənmişdi. Səməd

Vurğun, Süleyman Rüstəm, Süleyman Rəhimov, Hüseyn Mehdi, Sabit Rəhman, Əli Vəliyev, Rəsul Rza, Osman Sarıvəlli, Məmməd Rahim və başqa görkəmli simalar ən dəyərli əsərlərini yaratmışdılar. Mirzə İbrahimov Yazıçılar İttifaqına sədrlik edirdi. Zahirən belə görünürdü ki, ədəbiyyat cəbhəsində hamı, o cümlədən Mirzə də özünü qalib və gümrah hiss edir. Lakin zahiri təəssürat çox zaman aldadıcı olur. Mirzə daxilən narahat idi. Çox narahat idi! O, düşünürdü ki, Səməd Vurğun Vaqif şeirinə qartal qanadları verdi, onu yeni və yüksək bir mərhələyə qaldırdı. Əhməd Cəmil XVIII əsrin qaranlığı içində yanıqlı-yanıqlı sızıldayan Vidadi şerini yeni kökdə kökləyib, öz sarı simində asta-asta mizrab vurdu, Süleyman Rəhimov, Mehdi Hüseyn, Əbülhəsən öz romanları ilə nəslimizin siqlətini artırdı... Bəs sonra? Bu nəsildən sonra gələcək mərhələlərdə ədəbiyyatımızı inkişaf etdirəcək yeni nəsil hanı? Bu ədəbi nəsli yetişdirmək üçün nə etmək lazımdır?.. Belə bi şərəfli və məsul vəzifədən söhbət düşəndə bir çoxları soyuqqanlı və laqeyd şəkildə əllərini yelləyirdilər: yəni zorla yazıçı yetişdirmək olmaz. Lakin vətənpərvər Mirzə belə düşünə bilməzdi. Daim belə bir əməl – mədəniyyətimizin çiçəklənməsi naminə bir əməl eşqilə döyünən ürək onu nə isə etməyə, nə isə bir tədbir görməyə sövq edirdi. O, hal-hazırda yazıb-yaradan ədəbi gəncliyimizin həyatında heç vaxt unudulmayacaq günlərin – “Gənclər günləri”nin təşkilatçısı və rəhbəri oldu. O vaxtdan vur-tut yeddi-səkkiz il keçmişdir. Lakin budur, Mirzənin dövrəsində artıq hərəsinin öz səsi, öz qələmi olan böyük bir yeni nəsil toplaşmışdır. Mirzə onların kiçik yazılarını belə diqqət mərkəzindən kənarda qoymur, pislərini amansız tənqid atəşinə tutur, yaxşısının haqqında şəxsən özü qəzetlərə resenziya yazır, hətta “ədəbiyyatımızın nailiyyəti” adlandırır, gənc qələm sahibini daha yeni-yeni müvəffəqiyyətlər qazanmağa, yaradıcılıq zəhmətinə qatlaşıb ardıcıl və gərgin çalışmağa sövq edir.

Mirzə hələ zahirən də, qəlbən də, ruhən də cavandır. O, hələ bundan sonra uzun illər boyu yazıb-yaradacaq və xalqımızın qəlbində elə bir məhəbbət doğuracaqdır ki, gəncliyimizin adından yazılan bu sətirlər o böyük məhəbbətin müqabilində çox adi və sönük görünəcəkdir.

1957

## MİR CƏLAL

(*Yubiley məktubu*)

Birisi bənövşəni ətrinə görə sevir, ikincisi rənginə, üçüncüsü boynunun büküklüyünə, bu görkəmin oyatdığı assosiasiyaya görə. Bir başqası isə bu çiçəyi, sadəcə, vətən torpağının neməti olduğuna görə sevir. Demək istəyirəm ki, məhəbbət subyektiv məfhumdur. Sənətkara məhəbbət isə, subyektivdən də subyektiv.

Biz, iki dost Saatlı rayonunda bir evdə qonaq olduq. Ev sahibi son dərəcə nəzakətlə, səmimi rəftarla bizə qulluq etdi. Axşam biz yola hazırlaşanda isə o: "Buraxmaram!.. İnciyərəm!.." – deyib təkid etdi ki, gecəni də qalaq. Biz bir-birimizə baxdıq: "Səhər işdə olmalıyıq, necə qalaq? Həm də bu qədər əziyyət vermək yaxşı deyil". Ancaq hiss etdik ki, F kişi – ev sahibi doğrudan da inciyəcək. Xülasə qaldıq. Bir daha yemək-içmək, hörmət-izzət.

Gecəyarıda gəzintiyə çıxanda dostum B qoluma toxundu: "Ora bax!" Baxdım və ürəyim ağrıdı: zirzəminin açıq qapısı arxasında, torpaq döşəməyə salınmış boz kilim üstündə bir-birindən balaca, bir-birindən arıq oğlan və qız uşaqları yatmışdılar. F kişi yəqin ki, bizim baxışımızı duydu, saymazyana yeriyib zirzəminin qapısını örtdü. O gecə, necə deyərlər, ilan vuran yatdı, biz yata bilmədik. Geniş, havalı "qonaq otağında" rahat çarpayılarda, ipək üzlü yorğanların altına yox, elə bil haman alçaq tavanlı, bürkülü zirzəmidə, haman boz kilimin üstundə uzanmışdıq. F kişi eşitməsin deyə pıçıltı ilə söhbət edirdik. Siz, şübhəsiz, artıq duymusunuz, görürəm, sakit-sakit gülümsəyirsiniz: "Hə, qonaqpərəst"hekayəsini xatırlamısınız". Sizin gərək ki, təxminən otuz il bundan əvvəl yazdığınız o hekayənin qəhrəmanı Nəsib kişinin əsla dəyişmədən bu gün də yaşadığına qoy heç kəs təəccüb etməsin. Fərqi bircə adındadır: Nəsib deyil F-dir. Sizin otuz il bundan əvvəl yazdığınız sözlər bu gün

bəlkə də daha gərəklidir. “Ay müsəlman oğlu, sənin övladlarını bir-bir əlindən alan həmin bu qonaqlardır. Sən özünsən... Ölən uşaqlar dirilib qəbirdən qalxsalar, sizdəki qonaqpərəstliyə lənət oxuyarlar. Narın yaxşısını qonağa, çürüyünü qızına verəndə, qonağı işıqlı otaqda, uşağını qaranlıq daxmada saxlayanda, qonağı ipəkdə, oğlunu çul-palazda yatıranda bilmirsənmi ki, belə olar?..”

O gecə Mirzə Cəlil ənənələrinin ölməzliyindən, sizin müşahidələrinizin sərrastlığından, REALİZMİNİZİN QÜDRƏTİNDƏN danışdıq. Ən qədimlərdən başlayaraq bu yalançı qonaqpərəstliyin xalqımıza nə qədər zərərlər vurduğundan danışdıq. Bizim müasir nəsrə tənqidi münasibət bəsləyən, bir qədər nihilist əhvali-ruhiyyəli dostum V hətta öz “sarsılmaz mövqeyindən” enib qışqırdı:

– Sevdim Mir Cəlalın realizmini, qardaşım!

“Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz tərcümeyi-halının bir hissəsi kimi görünür. Canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir. Kitabı oxuyub örtdükdən sonra adama elə gəlir ki, özünün dünənki həyatını, həyəcan və sevinclərini sənə nağıl edən bir adamla bir neçə saat maraqlı söhbət etmisən”. Bu sitatdır. Sizin yaradıcılığınızdakı DƏRİN SƏMİMİYYƏTDƏN bəhs edən onlarla tənqidçi və ədəbiyyatşünasdan tək birinin qeydi.

“Mir Cəlalın əsərlərində əvvəldən axıra qədər kəndə bağlı olan ağsaçlı ata-anaların, xala və dayıların surətləri əsas yer tutur. Yazıçı öz taleyini onların taleyindən ayırmır, öz qəlbində onların ürəyinin, onların ürəyində öz ürəyinin döyüntüsünü hiss edir”. Bu isə, sizin XALQA BAĞLILIĞINIZDAN danışan qələm yoldaşlarınızdan birinin sətirləridir.

Biz iki dost axşamlar sahilə çıxırıq. Rüzgar xoş olanda, söhbətimiz şirin keçəndə bəzən gecəyədək qalırıq. Bulvardan əl-ayaq tamam yığışanda, gözlənilmədən buraya təzə-təzə adamlar gəlir. Hamısı yorğun, öykəşik, üz-gözlərindən zəhər damır. Biz bunların əksəriyyəti ilə tanışıq.

– Salam, iclas quruları!

Heç biri soruşmaz ki, bu "iclas quruları" nə ifadədir biz deyirik. Eşidib gülümsəyirlər, dərin təəssüf hissi ilə başlarını tərpədirlər. Mən şübhə etmirəm ki, bu vaxt onlar sizin məşhur mükamiləni xatırlayırlar ("Oğlum, atan harda işləyir?" "İclasda"), sizin İNCƏ YUMORUNUZ onları düşünməyə məcbur edir.

Qırxıncı illərin dövrü mətbuatını vərəqləyənlər sizin yaradıcılığınızdan bəhs edən məqalələrdə bu və ya başqa şəkildə təkrar olunan bir cümləyə təsadüf edirlər: "Gəldiyev bizim həyatımız üçün nə dərəcədə tipikdir?" Tanış kəlamdır. "Konfliktsizlik nəzəriyyəsinin" bayraqdarları sizin "Açıq kitabı" örtməyə, otuzuncu illərin axırında xalqımızın həyatında baş vermiş hadisələri yetişməkdə olan yeni nəsildən gizlətməyə çalışdılar. Zaman keçdi, "Açıq kitab" yenidən açılıb xalqın malı oldu. Öz şəxsi firavanlığını başqalarının bədbəxtliyi üzərində quran rayonlarda xalq malını talayıb "cibişdanına" dolduran, ifşa olunmaq təhlükəsi hiss etdikdə Bakıya qaçıb burada "özü üçün jizn" düzəldən, Vətən, Xalq, Partiya sözlərini əllərində kəsərli silaha çevirib namuslu vətəndaşlarımızı ləkələmək, məhv etmək yolu ilə yenidən pillə-pillə qalxmağa, ictimai mövqe tutub möhkəmlənməyə çalışan gəldiyevlər "Açıq kitabın" səhifələrində öz mənfur sifətlərini gördülər. Yenidən çap olunub yayılmış bu roman sizin yaradıcılığınızda VƏTƏNDAŞLIQ PAFOSUNU qüvvətləndirmişdir.

Ermənistanda Dərəçiçək deyilən qədim bir kənd vardı. Orada Alı adında bir aşıq yaşayırdı. Mənim 1934-cü ildə səksən yaşında vəfat etmiş babamın toyunu eləmişdi. Sonra atamın toyunu eləmişdi. Günlərin birində aşıq Alı Qazağa gəlib çıxdı və... mənim də toyumda çalıb-çağırdı. Yaşı məlum olmayan, bir əsrdən çox ömür sürmüş bu adamın səsi, sazı, sözü yenə də dinləyicilərini heyran qoyurdu. Bunun sirri nə idi? Kimi deyirdi: "Dərəçiçəyin havasındandır". Kimi deyirdi: "Dərəçiçəyin suyundandır". Bir başqası: "Aşıq Ələsgərin bacısı oğlu bəs nə təhər olar?.." Heç kəsin ağlına gəlmirdi desin ki, sirr aşığın ürəyinin, ruhunun gözəlliyindədir.

Sizinlə görüşəndə mən aşıq Alını xatırlayıram.

Bakıda, Hüsü Hacıyev və Həzi Aslanov küçələrinin tinində, mənim balkonumun qənşərində bir tut ağacı var. Qoca ağacdır,

yaşını heç kəs bilmir. Qışda onun şiddətli küləklərdən əyilmiş budaqlarına baxanda hərdən mənə elə gəlir ki, daha qurumaq üzrədir. Amma yazda yenə yaşıla bürünür. Qonşu məhlələrin balaca uşaqları onun budaqlarına barama qurdu kimi daraşırlar. Bu xoşbəxt balalara baxanda, sizin bədbəxt Bahara acıyıram. “Bahar! Hardasan, mələr quzum?!” – deyə təlaşla qışqıran Sona anamıza acıyıram. Sonra sizi – bu sadə, bədbəxt adamlara böyük məhəbbət bəsləyən ədibimizin nurlu sifətini görürəm.

Sonaları, Bahadırları sevənlər sizi də sevirlər.

## ÖMRÜMDƏ İZLƏR

(*Tərcümeyi-hal əvəzində*)

Məndən tərcümeyi-halımı, başqa sözlə, həyatımı yazmağı xahiş edirlər. Deyirəm: "Tərcümeyi-halımı yazmaq üçün mənə bir insan ömrü daha lazımdır, onu da ki, mənə heç kəs verə bilməz ". Deyirlər: " Yəni bu qədər uzundur? Gözümüzün qabağında böyüməmisən?" Deyirəm: "Cismən sizin qarşınızda böyümüşəm, ruhən başqa dünyada... Siz bilirsiniz ki, mən 1928-ci ildə Qazax rayonunun Muğanlı kəndində anadan olmuşam, 1945-ci ildə orta məktəbi, 1952-ci ildə Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişəm, 1949-cı ildən çap olunmağa başlamışam. Daha bir neçə rəqəm, daha bir neçə fakt. Və bunlar hamısı bir yerdə doğrudan da sizin gözünüzün qarşısında böyümüş adamın tərcümeyi-halı olar. Lakin məsələ bundadır ki, mənim ruhən necə böyüdüyümü, hansı məktəblərdə, institutlarda oxuduğumu, hətta ailəmin üzvləri də bilməmiş və duymamışlar.

"Tərcümeyi-halım" dedikdə, mənim gözümün qarşısına birinci növbədə üç qəbirstanlıq gəlir. Birisi Kür sahilində. Orada ulu babam Hüseyn koxa, Azərbaycanın düşmənləri tərəfindən güllələnmiş iki əmim – Hüseyn və Pirvəli qardaşlarından az sonra bir-birinin ardınca vəfat etmiş daha üç əmim – Hacalı, Musa və adını daşıdığım İsa dəfn olunmuşlar. İkincisi, Ermənistan dağlarında "Göy qılınc" deyilən səfalı bir yaylaqda, qış aylarında qalın qarla örtülən, yazda-yayda insan ayağı dəyməyən, bizim ailə üzvlərindən və qohum- əqrəbadan başqa yer üzündə heç kəsə heç nə deməyən balaca bir qəbiristanlıqdır ki, orada mənim babam Omar koxa və hər birisi mənim həyatımda dərin iz qoyub getmiş daha bir neçə adam dəfn olunub. Üçüncü qəbiristanlıq Qarayazı meşəsinin ətəyində, Muğanlı kəndinin günbatanında boz təpə üstündədir ki, orada sinəsi nağıllarla, bayatılarla doğru, qumrov səsli nənəm Yetərlə mənil ürəyimi öz ovcunda yoğurub düzəltmiş atam Mustafa

və həyatımda dərin iz qoyub getmiş onlarla yaxın, doğma adam dəfn olunub. “Tərcümeyi-halım” dedikdə, rəhimsiz əllərlə qırılıb məhv edilmiş Qarayazı meşəsinin cah-cəlallı vaxtları, keçilməz cəngəlliklər, yaşıl talalar, “başı göyə dəyən” ağ qovaqlar, nəhəng palıdlar, qarağaclar, onların kölgələrində “durna gözlü bulaqlar” yenidən təbiətə qayıdır, Qarayazıda nəsli kəsilmiş məğrur yerişli marallar, minbir dildə danışan minbir rəngli quşlar və bu zəngin aləm içərisində səhərdən gecəyarıyadək gəzib-dolaşan ayaqyalın, başı açıq, arıqlıqdan qabırğaları sananan sərgərdən bir uşaq da həyata qayıdır, qəribə-qəribə macəralarımı, sarsıntılarımı, sevinc və kədərlərimi də özü ilə gətirir, dik üzümə baxıb soruşur: “Tərcümeyi-halında mını yazmaya bilərsən?”

“Tərcümeyi-halım” dedikdə, kəndimizdə təzə tikilmiş böyük, yaraşıqlı məktəb binasından kənarda, çiy kərpic divarları uçub-dağılmağa başlamış alçacıq bir tikili – köhnə məktəb qarşımda dayanır. Qış aylarında qapı-pəncərələri bağlı olan, yazda isə torpaq döşəməli otaqlarında barama qurdu bəslənən bu yöndəmsiz bina xəyalımda keçmiş şöhrətli günlərinə qayıdır, şagirdini avaralıqdan, sərgərdanlıqdan, meşə macəralarının sehrli aləmindən xilas edib oxumağa həvəsləndirmək üçün sırf pedaqoji yollar axtaran, dərsi bilmədiyim halda ilk əla qiymət yazıb öz tərifi ilə məni əsir etmiş qoca rus dili müəllimim – Məmməd Nəsibov, mənə həyatımada birinci dəfə roman (“Dəfinələr adası”) oxutdurub mütaliəyə alışdırmış ədəbiyyat müəllimim Səlim Çəndirli, mənə İsgəndər Zülqərneyn haqqında qəribə-qəribə əfsanələr uydurub danışmış ilk tarix müəllimim – atam Mustafa, mənim təsəvvürümdə hər birisi orijinal-təkrarolunmaz şəxsiyyət kimi yaşayan şagird yoldaşlarım – dostlarım və “düşmənlərim” qarşımda dayanırlar.

“Tərcümeyi-halım”: kəndimizdə ilk bolşevik, ilk sovet sədri Səməd əmim və onun faciəli ölümü, kəndimizdə “Kor İsa” adı ilə şöhrətlənmiş ilk kolxoz sədri və onun ölümü. İlk traktorçu – Bakı fəhləsi Qara Bayram və onun ölümü, güllələnmiş qolçomaq Çırağın yurd yerində uşaqlıq və gənclik dostum Hacı Eminovla söhbətlərim, mənim Eminovlarla –” xalq düşməninin ailəsi” ilə yaxınlığımdan narahat olan qohumlarım... Atam Eminovlara hörmət bəsləyirdi, onları “yaxşı nəsil-kök” adlandırırdı, odur ki, ehtiyatlı

qohumlarlımın qəti qadağanına baxmayaraq, məndən beş yaş böyük olan Hacı ilə, onun ov iti "Padrujka" ilə dostluğumu kəsmədim. O illər mənim həyatımın ən zəngin səhifələridir.

"Tərcümeyi-halım": Kəndimizdə dəhşətli malyariya xəstəliyi, camaatın iclas edib anam Xədicəni "doxtorluq oxumağa" göndərmək haqqında qərarı... Atamla, anamla birgə həyatımda ilk dəfə şəhərə getdim. Atam: "Seminariya bax buradır. Mən burda oxumuşam. Ordenli şair Səməd Vurğun da burda oxuyub". "Mən də burda oxuyacağam!" Atam: "Yox, sən Bakıya gedəcəksən". Atam anamla məni özünün bacanağı və mənim gələcək qayınatam Məcid Nəsibovun evində qoyub kəndə qayıtdı. Məcid Nəsibovun simasında mən rayon masştabında ilk partiya işçisi ilə tanış oldum, onun saqqal buraxıb molla sifəti ilə Bitdiliyə getməsi və orada "Bitdili imamının dədəsini yandırması" haqqında macəralara qulaq asdım. Burada birinci dəfə mənim qarşımda geniş dünyaya pəncərə açıldı. Burada ilk dəfə "Gepo gəlir, Gepo gəlir!" – sözlərini eşidib, küçəyə çıxıb vaxtı ilə qolçomaq Çıraqla bərabər mənim dostumun atasını da həbs etmiş uca boylu, meşin pencəkli, qara sifətli adamı və onun taxta qoburlu mauzerini gördüm. O günlərdə mənim ürəyimdə, ruhumda nələr gördüm. O günlərdə mənim ürəyimdə, ruhumda nələr baş verdiyini mən çox sonralar dərk etdim. Bunlar – sonralar dərk etdiyim hadisələr də mənim tərcümeyi-halıma daxildir.

O vaxt Qazağın küçələrində uşaqları və qadınları qorxudan çoxlu "ciqanlar" – xuliqanlar vardı. Mən anamı indiki maldarlıq texnikumunun binasında açılmış feldşerlik kursuna aparıb-gətirirdim... Anamla doktor Talışinskinin söhbəti... Anam: "Doktor, mən təzə əlifbanı bilmirəm". Talışinski: "Mən sənə əlifba yox, sənət öyrədəcəyəm, qızım". Anam: "Ayrı dərdim də var. Əlimdə südəmər uşağım, necə oxuyum?" Talışinski: "Südəmərlə bərabər, maşallah, belə böyük oğlun da var". Anam: "Mən dərs keçəndə bacını saxlaya bilərsən?" Bunun nə demək olduğunu başa düşmədən dərhal cavab verdim ki: "Əlbəttə, saxlaram!" Sonra dörd ay hər gün bələkli bacım qucağımda dəhlizdə oturdum. Kənddə malyariya camaatı taun kimi qırırdı. Hökumətin qərarı ilə təbabət kurslarında təhsil müddəti birə-iki ixtisar edilmişdi. Doktor Talışinski səhər keçdiyi dərsi həmin axşam soruşurdu, axşamkı

dərsi isə səhər. Anam bütün gün və gecəni latın sözləri əzbərləyirdi, mən bacımı saxlayırdım. Talışinski çox "əzazil" adam idi, heç kəsi tənəffüsə buraxmırdı. Təkcə anam arada beş-on dəqiqəlik tənəffüsə çıxır, dəhlizdə xalatının cibindən pendir, çörək, soğan çıxarıb mənə verir, bacımı əmizdirir və körpəni çox vaxt mənim qucağımda ağlaya-ağlaya qoyub yenə dərsə qaçırdı. Hərdən atam, gah da Səməd əmim kənddən gəlib, kolxozçulardan gələcək "doktor" üçün hədiyyə – qovut, ceviz gətirirdilər. Anam öz dilinə bir tikə də vurmayıb hamısını mənə yedirirdi. Lakin mən günbəgün saralırdım. Heç kəs bilmirdi ki, mənə yemək-içmək yox, mənə Qarayazının cəngəllikləri lazım idi. Sonralar, onuncu sinifdə oxuyarkən yazdığım ilk sandıq ədəbiyyatı nümunəsində – "Xatiratım"da mən həmin dörd aylıq dəhliz həyatımı bütün təfərrüatı ilə qələmə almışdım.

Kolxozumuzda dörd briqada vardı, hər briqadada isə dörd manqa. Manqalardan hər birinin öz pambıq sahələri vardı. Anam – kəndin yeganə tibb işçisi səhər lap erkən evdən çıxıb sahələrin hamısında olmalı, qızdırmalılara iynə vurmalı və kinə paylamalı idi. "Ağıllı, tərbiyəli oğul" yükünü hələ şəhərdə ikən könüllü olaraq götürdüyümə görə mən bir daha bu yükdən azad ola bilmədim, saysız-hesabsız xəstələrin siyahı dəftəri cibimdə, anama bir növ assisentlik etməyə başladım. Hacıdan, "Padrujka"dan, Qarayazının azad, geniş dünyasından ayrılıb qayğılar aləminə düşmüşdüm, yoldaşlarım məni "doxdur" adlandırıb gülürdülər, mən isə yandığımdan onları sancmaq üçün "şeir" toqquşdururdum: "Səfehlər oylağı can Qarayazı!..."

Müharibə xəbəri hər şeyi dəyişdirdi. Bu vaxt mənim on üç yaşım vardı. "Tərcümeyi- halım" deyərkən, mən atamın ərizə verib müharibəyə könüllü getdiyini və tezliklə 416-cı diviziyanın şöhrətli zabitlərindən biri olduğunu, "Kommunist" qəzetində onun şəklini gördükdə dəmiryolu stansiyasından kəndə qədər dörd kilometrlik yolu birnəfəsə yüyürdüyümü, oğlu gedəndən sonra iflicdən qolları, qıçları işləməyən nənəmi sevindirmək üçün necə tələsdiyimi xatırlayıram. Bundan bir neçə il sonra "Ədəbiyyat" qəzetində atamın Səməd Vurğuna cəbhədən məktubunu, o məktubda bizim ailəni yoluxduğuna görə atamın şairə təşəkkürünü xatırlayıram. Lakin bunlar hamısı, yuxarıda dediyim kimi tərcümeyi-

halın yalnız ayrı-ayrı cizgiləri, faktlarıdır. Məzmuna gəlincə deməliyəm: müharibə illərində kəndimizdə şahidi olduğum müsibətləri və bu müsibətlər içində məhv olmuş gəncliyimi xatırlayıram.

"Tərcümeyi-halım" deyərkən, mən 1945-ci il mayın 9-da sevincdən kəndin arasında dəli kimi atılıb-düşdüyümü və "arxa cəbhədə çalışmaqdan" qarnı piy bağlamış bir nəfərin mənə necə tərs-tərs baxdığını xatırlayıram. Beş il sonra yenə də həmin gün – mayın 9-da Qızıl Meydanda "Ura! Ura!" deməkdən səsimin tutulduğunu xatırlayıram...

Sonra mənim, necə deyərlər, psixoloji sarsıntılar dövrüm başlanır; həyata, hadisələrə, insanlara yeni gözlə baxmaq dövrüm... Tələbəlik illərindən bir fakt. Professor Məmməd Arif Dadaşzadə (imtahanda ): "Nə oxumusan?" Mən: "Oblomov", "Obıknavennaya istoriya". Professor bir qədər təəccüblə: "Qonçarovda nə xoşuna gəlir?" Mən: "Ümumiləşdirmə qabiliyyəti". Professor: "Kifayətdir. Kitabçanı ver". Bu mükalimə mənim sonrakı az-çox şüurlu həyatım üçün epiqrafdır.

Çap olunmağa başladığım ildən bir fakt. Mehdi Hüseyn: "Səni tənbeh eliyəcəm. Oçerkdə niyə öz atandan yazmısan?" Mən: "Çünki atamı yaxşı tanıyıram". Bu mükamilə isə mənim bütün yaradıcılığım üçün epiqraf ola bilər.

İllər keçir, həyat dəyişir, təbii mən də dəyişirəm; babamın uzaq dağlar qoynunda sahibsiz qəbri, düşmən gülləsindən həlak olmuş əmilərimin, ömrü boyu, öz dediyi kimi, "el üçün çalışıb" bu yolda da həlak olmuş atamın və onunla yanaşı yatan əziz, doğma adamların türbələri məndə zamanlar və adamlar haqqında yeni-yeni düşüncələr doğurur. Mənim tərcümeyi-halım bu düşüncələrdir.

Düşüncələrdən kitablar əmələ gəlir; bu günə qədər nə yazmışamsa, hətta tarixi mövzuda təcrübə etdiyim yazılar da öz tərcümeyi-halımdan doğulmuşdur. Yazıçı öz ürəyini, öz beynini yazmırsa, səmimi deyil. Səmimi deyilsə yazıçı deyil.

# KİTABDAKILAR

## POVESTLƏR

Sürgün . . . . . . . . . . 7
Dan ulduzu . . . . . . . . . . 36

## HEKAYƏLƏR

Anadil ötən yerdə . . . . . . . . . . 307
Zəhər . . . . . . . . . . 322
Toy . . . . . . . . . . 329
Bir az romantika . . . . . . . . . . 336
Arx . . . . . . . . . . 341
Həqq-ədalət . . . . . . . . . . 343
Niyə? . . . . . . . . . . 345
Cəbhədən məktub . . . . . . . . . . 348
Qayım qaya . . . . . . . . . . 350
Yazıq . . . . . . . . . . 353
Kafir . . . . . . . . . . 354
Koroğlunun çən qalası . . . . . . . . . . 358
Sirr . . . . . . . . . . 363
Güzgülü Əhəd . . . . . . . . . . 365
Şinel . . . . . . . . . . 369
Unus . . . . . . . . . . 374
Rzaqulu . . . . . . . . . . 378
Küp . . . . . . . . . . 381
Yekədiz Məcid . . . . . . . . . . 384
Portsiqar . . . . . . . . . . 387
Getdi . . . . . . . . . . 389
Şapalaq . . . . . . . . . . 391
Küllük . . . . . . . . . . 395
Əmiqızı . . . . . . . . . . 400

## ÖMRÜMDƏ İZLƏR

Mehdi Hüseyn . . . . . . . . . . 407
Mirzə İbrahimov . . . . . . . . . . 413
Mir Cəlal . . . . . . . . . . 420
Ömrümdə izlər . . . . . . . . . . 424

**İSA MUĞANNA**

**Seçilmiş əsərləri**

Altı clldə
II cild

HEKAYƏLƏR
POVESTLƏR

BAKI
"AVRASİYA PRESS"
2009

| | |
|---|---|
| Buraxılışa məsul | ***Vaqif Bəhmənli*** |
| Tərtib edəni | ***Firuzə Muğanna*** |
| Redaktor | ***Umud Rəhimoğlu*** |
| Nəşriyyat redaktoru | ***Rəhilə Gülgün*** |
| Texniki redaktor | ***Mübariz Piri*** |
| Kompyuter səhifələyicisi | ***Turab Məhərrəmli*** |
| Dizaynerlər | ***Məmməd Qarabağlı***<br>***Samir Məmmədli*** |
| Kompyuter operatorları | ***Maral Rəisqızı***<br>***Asifə Əfəndi***<br>***Tərgül Sahibqızı*** |
| Korrektor | ***Sevinc Muğanna*** |

"Avrasiya press" nəşriyyatı
Bakı, Mehdi Hüseyn küçəsi 1[a]
Tel: (994 12) 439 76 97